HÜSEYN ABBASZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

II CİLD

M.F. Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Hüseyn Abbaszadə. Burulğanlar" (Bakı, Yazıçı, 1991) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.3613-dc22**
**AZE**
**Hüseyn Abbaszadə. Seçilmiş əsərləri.** İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2006, 392 səh.

Hüseyn Abbaszadənin "Seçilmiş əsərləri"nin ikinci cildinə onun "Burulğanlar" romanı daxil edilmişdir. Romanda yoxsul ailədən çıxmış, fiziki cəhətdən çox güclü olan bir sadə insanın yarıməsrlik ömür yolu, onun qarşısına çıxan çətinliklər və acınacaqlı taleyi təsvir olunur. Bu məhrumiyyətlər onun insanlıq ləyaqətinə, mənəviyyatına, həyat eşqinə mane ola bilmir.

Müxtəlif dillərə tərcümə olunmuş "Burulğanlar" romanı 1984-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

**ISBN10 9952-34-050-8**
**ISBN13 978-9952-34-050-1**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# BURULĞANLAR

ROMAN

# BİRİNCİ HİSSƏ

Onu harada axtarsaydın şəhərin mərkəzində – Hüsü Hacıyev küçəsindəki balaca, uzunsov otaqda yerləşən saatsaz dükanında tapardın. Mənzilində tək oturmaqdan darıxırdı, getməyə ayrı bir yeri də yox idi. Hər gün səhər çörəyini yeyir, evdə yır-yığış eləyib əl ağacına dirənə-dirənə gəlirdi köhnə dostu, saatsaz Davudun yanına. Davud zərrəbini gözünə taxıb, daima dükanın sağ küncündə oturan Həmidlə danışa-danışa saat təmir eləməyə alışmışdı. Onların xasiyyətləri də tuturdu, söhbətləri də. Bir yerdə nə qədər çox olsalar da, nə dərdləşməyə sözləri tükənirdi, nə də bir-birlərindən bezib təngə gəlirdilər. Davudun bircə dəfə "filan əhvalat yadından çıxmayıb ki?" deməsi kifayət idi. Dostu dünən olmuş kimi həmin əhvalatı təfsilatı ilə danışmağa başlayırdı. Əl ağacına söykənən Həmid də hərdən gövdəsini yırğalaya-yırğalaya həsrətlə deyirdi: "Eh, ay Davud, ötən günə gün çatmaz, calasan günü günə". Çoxdan arxada qalmış, əlçatmaz gənclik illərini anırdılar. Bu minvalla söz sözü çəkib gətirirdi, xatirə xatirəni. Qocaların başları qarışırdı söhbətə, bir də görürdülər ki, nahar vaxtı çatıb. Həmid Davudla sağollaşıb eyni yolla, yenə əl ağacına dirənə-dirənə, yavaş-yavaş qayıdırdı evə. Günlər beləcə gəlib keçirdi.

Davud köhnənin saatsazı idi. Şəhərdə öz müştəriləri vardı. Lalın dilini anası bildiyi kimi, o da saatların "dilini" bilirdi. Başqa ustaların təmir etməkdən boyun qaçırdığı, atılmalı saatları gətirirdilər onun yanına, heç vədə müştərini məyus qaytarmırdı. Davudun balaca dükanı saat muzeyinə bənzəyirdi. Divarlardan irili-xırdalı növbənöv saatlar asılmışdı. Hamısı da çıqqaçıq işləyirdi. Sağ küncdəki dəyirmi mizin üstünə yığılan əntiq saatlardan savayı, şirmayı kimi par-par parıldayan, adam boyda bir saat qapı ilə üzbəüz qoyulmuşdu. Bu bəzəkli saatın piyalə ağzı boyda bürünc kəfgiri aramla o yan-bu yana yelləndikcə sanki "gəlin-gəlin" deyib müştəriləri dükana, saatlarını düzəltdirməyə çağırırdı.

Bu dükanın gözəgörümlü yerində – qapının üzbəüzündəki divara köhnə, alabəzək bir afişa vurulmuşdu. İçəri girənlər əvvəlcə bu afişaya, oradakı dağ cüssəli gənc oğlana baxırdılar. Heç kəs bilmirdi ki, usta Davudun böyründə əl ağacını dizinə dayayıb əyləşən qoca afişada şəkli olan Həmid Xələfovdur.

Qoca Həmidin hər gün Davudun yanına gəlməsinin iki səbəbi vardı; biri köhnə dostu ilə dərdləşmək, o biri saatsaz dükanının divarına vurulan afişaya kənardan ayrı gözlə tamaşa eləmək, həm də bura gələn müştərilərin ara-sıra afişaya necə maraqla baxmasının şahidi olmaq! Əlbəttə, ikinci səbəb əsas idi. Neçə il idi ki, bu, Həmidə təsəlli verir, sanki onun ömrünü uzadırdı. Davud da onun ilk uğurunun şahidi idi, bu alabəzək afişa da.

Həmidin sirkdə, camaat qarşısında ilk çıxışından xəbər verən bu afişanın biri də onun mənzilində idi, çərçivəyə saldırıb vurmuşdu qonaq otağının yuxarı başına. Həmin afişadan üçünü lülələyib qəzetə bükmüşdü, kitab şkafında saxlayırdı. Əvvəlcə onlar dörd dənə idi, birini keçən il Davuda bağışlamışdı. Haçandan bəri onun saatsaz dükanından asılan afişası tozdan, günün istisindən və milçək qarasından xarab olmuşdu, solğunlaşmışdı, yaxşı baxılmırdı. Afişasını bu kökdə görmək Həmidin qəlbinə toxunurdu. Axırda dözməyib bir gün evindən təzəsini gətirdi.

Bu köhnə afişanın öz tarixi vardı.

O vaxt camaatın "körpü" adlandırdığı Bakı limanında yük daşıyan Həmidin yatsaydı yuxusuna gəlməzdi ki, haçansa onun adı və şəkli afişaya vurulacaq, asılacaq şəhərin küçələrindən, gəlib-gedən ona tamaşa eləyəcək...

## I

Həmidin atası kənkan Murtuz, Coratda quyu qazanda boğulub ölmüşdü. Bu hadisədən sonra anası Rübabə yalvarıb-yaxarıb: "Ay oğul, – dedi, – başına dönüm, canım sənə qurban, ayrı işdən yapış, quyu qazmağı burax. Bir qurban verdik, bəsdi, mən ondan çıxan çörəyi istəmirəm". Dayısı Turab Həmidi körpüyə, qayını Mirhadinin yanına gətirib yükdaşıyan düzəltmişdi. Burada Rusiyadan, İrandan və Türkmənistandan gələn gəmiləri boşaldıb yükləyirdilər. Başqa fəhlələr dallarına bir kisə alanda Həmid ikisini götürürdü. Yoldaşları başlarını



bulayıb deyirdilər ki, neynirsən, alə, özünü çox gücə salma, şikəst olarsan. Həmid isə deyilənləri vecinə almırdı. Sonra limanda hamı buna alışdı. Ancaq Həmidə "öküz" ləqəbi qoydular. Oldu "Öküz Həmid". Özü bunu bilincə bərk qəzəbləndi. Bir dəfə bu ləqəbin üstündə özündən çıxıb, yaşlı bir yoldaşının sinəsinə zərblə elə yumruq ilişdirdi ki, kişi dalı-dalı gedib, qışın soyuğunda düşdü dənizə. Yoldaşları onu sudan çıxaranda iri cüssəli kişi tir-tir əsirdi, cücəyə dönmüşdü. Bu hadisə limanda hamıya dərs oldu. O gündən heç kəs Həmidə öküz deməyə cəsarət eləmədi.

Limanda yükdaşıyan fəhlələrin başçısı Mirhadi bir Həmid deyəndə, biri də ağzından düşürdü. Bu da səbəbsiz deyildi. O həm Həmiddən çəkinirdi, həm də Həmid bu gündə iki-üç nəfərin işini görürdü. Bir cümə axşamı, işin axırında Mirhadi Həmidi çağırıb dedi:

– Bacoğlu, zorsan, gücünə söz yoxdu. De görüm, qurşaq yapışmaqla necəsən? Əlindən gəlir?

Həmid çiyinlərini çəkdi. Mirhadi soruşdu:

– Pəlvanlığı, güləşməyi deyirəm, bacarırsan?

– Güləşmək? Qabaqlar məhəllə uşaqları ilə güləşmişəm. Necə məyər, Mirhadi əmi?

Çal papağı kimi çal da bığları olan və həmişə bir əlini bığlarının üstündə gəzdirib, tez-tez onları tumarlayan Mirhadi, Həmidə şad xəbər verirmiş kimi, xoş avazla dedi:

– Cümə günü məni Nardarana pəlvanların qurşaq yapışmasına baxmağa çağırıblar. İstəyirəm səni də aparım ora, gedərsən?

Həmid dörd ay idi ki, Mirhadinin yanında işləyirdi. Onu birinci dəfə bu limanda görmüşdü, bilmirdi necə adamdır. Bir də atası yerində kişi ilə Həmidin nə yoldaşlığı?! Mirhadi nəyə görə onu Nardarana aparmaq istəyirdi?!

– Mən orda neyniyəcəyəm, Mirhadi əmi?

– Alə, necə neyniyocəm, tamaşa eliyərsən özünçün. Sora o məşhur qarmonçalan Kor Əhəd var e... o da orda olacaq, ona qulaq asarsan. Ömründə görmədiklərini görəcəksən. Day, nə istəyirsən?

– Kor Əhəd bir dəfə məhəlləmizdə toya gəlmişdi, orda görmüşəm, göy şüşəli eynək taxmışdı gözünə.

– Qarmonçalan Əhəd tamam kordu. Gözündəki o göy şüşəli eynəyi görkəmçün taxıb, əlindən tutub gəzdirirlər... Sözüm onda deyil. Nardaranda Abşeronun adlı-sanlı pəlvanları qurşaq yapışacaqlar. Mən

istəyirəm sən də gedib onlara baxasan. Lap lazım gəlsə, gücünü orda sınayarsan. Qoy görsünlər ki, papaq altında necə cayıllar var.

Mirhadinin sözləri Həmidi şirnikləndirdi. O, Nardarana getmək, əsil pəhləvanlara baxmaq həvəsinə düşdü. Pəhləvanların güləşməsini görməmişdi. Ancaq bilmirdi anası Rübabə buna necə baxar. Hələ heç atasının ili çıxmamışdı. Yaslı-yaslı gedib zorxanaya girmək atasının xatirəsinə hörmətsizlik olmazdımı? Orası vardı ki, Mirhadinin sözünü yerə salmaq da yaxşı düşməzdi, inciyib qazancını kəsərdi. Limanda pis qazanmırdı. Evi dolandırır, xırda-xırda qohum-qonşudan aldıqları borcları da qaytarırdılar.

Həmid dedi:

– Mirhadi əmi, sabah deyərəm. Qoyun, bir fikirləşim.

– Fikirləş, bacoğlu, fikirləş, istəyirsən evdəkilərə də, dayın Turaba de ki, mənimlə gedirsən, nigaran qalmasınlar.

Həmid axşam Mirhadi ilə olan söhbəti anasına danışdı. Rübabə Həmidin iş yerindən çox razı idi, evə yaxın, qazancı babat, sakitliyi də ki dünyaya dəyərdi. O, Həmidin işini itirməsindən qorxmasaydı, oğlunun Mirhadiyə qoşulub Nardarana getməsinə icazə verməzdi.

## II

Nəhəng bir çətir kimi geniş sahəyə kölgə salmış xartut ağacının altında zorxana qurulmuşdu. Yerə naxışları alışıb-yanan böyük xalçalar döşənmişdi. Meydançanın dövrəsində kişilər bardaş qurub əyləşmişdilər. Ayaq üstə duran çox idi. Pəhləvanların güləşməsinə qocalı-cavanlı xeyli adam gəlmişdi. Bir tərəfdə zurnaçılar dəstəsi əyləşmişdi, o biri tərəfdə tar-qaval, bir də qarmonçalan Kor Əhəd. Tarzənin böyründə çalpapaqlı, eşmə bığları qulağının dibinə kimi uzanan xanəndə oturmuşdu, əlində sədəfə tutulmuş qavalı. Xanəndə "Hümayun" muğamını qurtaran kimi zurnaçılar başladılar. Şıdırğı oyun havaları çaldılar. Ancaq ortaya çıxıb oynayan yox idi.

Həmid Mirhadi ilə zorxanaya gələndə onları qonurgözlü, üzügülər bir kişi hörmətlə qarşıladı:

– Mirhadi dayoğlu, xoş gəlibsiniz. Keçin ora, yuxarı başa.

Mirhadini yuxarı başa apardılar. Bu gün Mirhadi çox yaraşıqlı görünürdü. Üzünü tərtəmiz qırxdırmış, bığlarının ucunu qayçılatdırmış, şevyot kostyum geymişdi. Pencəyinin yaxasını qəsdən açıq



qoymuşdu ki, jiletinin cibindəki saatın qızıl zənciri görünsün. O yeridikcə zəncir tərpənir, bərq vururdu.

Həmid nimdaş mahud şalvar geymişdi. Əynində əcərli sətin köynək vardı. Başına atasının sürməyi papağını qoymuşdu.

Mirhadi ədəb-ərkanla yan-yörəsindəki tanış-bilişlərlə salamlaşdı. Çoxları elə bilirdilər ki, Həmid onun nökəridir.

Hamıya yaxşı təsir bağışlayan Mirhadi qalxıb bayaq onları qarşılayan qonurgözlü kişinin yanına getdi. Nəsə dedi və bığlarını sığallaya-sığallaya yerinə qayıtdı, qəlyanını çıxarıb gümüş odluğunu kibrit çöpü ilə qurdalaya-qurdalaya Həmidə dedi:

– Bir hovurdan pəhləvanlar qurşaq yapışacaqlar. Şağandan, Maştağadan, Bilgəhdən güclü pəlvanlar gəliblər, əntiqə olacaq. Balağa da burdadı. – Mirhadi danışa-danışa gözü ilə oturanların arasından Balağanı axtardı, görmədi. – O, hardasa buralardadı. Deyirlər ki, döşlü rəqib olsa, Balağa da güləşəcək.

Həmid tay-tuşlarından Balağa barəsində çox eşitmişdi. Bilirdi ki, hələ indiyədək Balağanın kürəyini yerə vuran olmayıb.

Mirhadi fikrə gedən Həmidi dümsüklədi:

– Odu ey Balağa, oturub orda.

– Hanı?

– Qarmonçalan Əhədin sağ böyründəki qara papaqlı kişini deyirəm, görmürsən?

– Hə, indi gördüm.

Həmid qara papaqlı, qara kostyumlu, ortayaşlı, yaraşıqlı kişiyə diqqətlə tamaşa elədi. "Bu nöşün belə qara geyinib, yaslı deyil ki? Amma qara paltar onu necə yaxşı tutur... Hüzrlü olmaz, əzizi ölən adam pəlvanların güləşməsinə baxmağa gəlməz".

Balağanın iri, qara gözlərindən yorğunluq tökülürdü. Gözəl, mərdanə sifəti vardı, ancaq heyif, burnu qartal dimdiyitək əyri idi.

Məclisdəkilərin çoxunun gözü Balağada qalmışdı. Əgər Mirhadi onu nişan verib deməsəydi ki, kimdir, Həmid təhər-töhüründən Balağaya baxanda bilməzdi, o, adlı-sanlı pəhləvandır. "Bu Balağa pəlvandan çox incinara, uçitelə oxşayır. Görəsən, bunun güləşməsi nə sayaqdı? Kaş bu gün qurşaq yapışaydı, bu qədər yol gəlmişik. Baxaydıq ona".

Mirhadi sanki Həmidin ürəyindən keçənləri eşitdi. Qəlyanını alışdırıb sümürə-sümürə dedi:

– Allah eləyəydi, burda Balağanın qabağına çıxan olaydı, onlar güləşəydilər. Tərifini çox eşitmişəm. Eşitmək başqa, öz gözünlə görmək başqa.

Qoşa zurnanın səsi kəndin ucqarlarına yayılmışdı. Zurnaçılar cəngi çalırdılar. Bu o deməkdi ki, tezliklə pəhləvanlar soyunub girəcəklər meydana.

Meydana birinci zorxananın sağ cinahından gödək şalvar geyib, corabı dizinə çəkmiş, yarıqol, yaxası açıq köynəkli, tirmə qurşaqlı bir kişi çıxdı, cənginin sədaları altında qollarını yelləyə-yelləyə o başa-bu başa getdi. Meydana pəhləvan çağırdı. O, elə çopur idi ki, üzünə bir ovuc darı səpsəydin, biri də yerə düşməzdi. Çopur pəhləvan enli sinəsini qabağa verib qollarını gərəndə əzələləri buğum-buğum olurdu. Bədənini sanki heykəltəraş mərmərdən yonmuşdu, bütün əzaları qaydasında idi, təkcə sifəti... "Heç rəvadı ki, bu cür kişi çopur olsun..."

Mirhadi pəhləvana baxa-baxa Həmidə dedi:

– Bu, Çopur Abdulladı, çox güclü pəlvandı. Qabaqlar dizlərinə ayna bağlayıb meydana çıxırdı. Onun dizlərini heç kim yerə vura bilmirdi. Deyirlər inişil Balağa Çopur Abdullanı yıxanda dizinin aynaları çilik-çilik olub. O çağdan daha ayna taxmır. Onu da danışırlar ki, Balağadan başqa hələ bir nəfər Çopur Abdullanı yıxmayıb. İndi də söz-söhbət gedir ki, o bura gəlib Balağa ilə təzədən qurşaq tutub, əvəz çıxsın. Ancaq Balağaya da Balağa deyərlər a... Görək bu gün necə olacaq. Camaatın çoxu onların həvəsinə bura yığılıb.

Sağ tərəfdə məxmər döşəkçə üstündə bardaş qurub oturmuş, eşmə bığlarının ucu biz kimi duran qoca kişi ətrafına toplaşmış dəstənin başçısı idi. Onun işarəsi ilə yanındakılar haray-həşir qopardıb Çopur Abdullanı qızışdırırdılar:

– Hə, Abdulla, görək bu gün neyniyocəksən?!

– Külli-Bakıda tayı-bərabəri yoxdu, Abdulla deyil, əjdahadı, əjdaha!..

– Abdullanın qabağında bir kişi dayana bilməz. Kimin hünəri varsa, buyursun.

Bu vaxt sol cinahdan cavan bir oğlan ortalığa çıxdı, rəqibini saya salmadan qollarını yelləyə-yelləyə meydançanı dolandı. Qamətdə heç Abdulladan geri qalmazdı. Mirhadi onu Həmidə nişan verdi:

– Bu pəlvan nardaranlı Rzaquludu. Təzə çıxıb, deyirlər çox güclü oğlandı. Bu yay kəndin cayılları yığışıb mərcləşiblər. Rzaqulu böyük



bir əncir ağacını köklü-köməcli torpaqdan qoparıb. Rzaqulunu da hələ yıxan olmayıb.

İndi də sol tərəfə toplaşan nardaranlılar Rzaqulunu qızışdırırdılar:

– Qara gününü qablaşdır, Çopur Abdulla, Pələng Rzaqulu qənimindi.

– Alə, Rzaqulu, sən yıxmağında ol, on dənə qızıl onluq məndə, xələtin də üstəlik.

– Hə, Rzaqulu, dönüm gözünə, ümidimiz sənədi, görək neynirsən.

Zurnaçılar zorxanaya toplaşan camaatdan betər qızışıb zilə çəkmişdilər. Nağaraçı da çubuqları nağaraya elə vururdu ki, qulaq batırdı, lampa sönürdü.

Qarşı-qarşıya duran iki dəstə, pəhləvanlar tutuşmamışdan əvvəl söz güləşdirir, puldan, qonaqlıqdan mərc qoşurdular.

Həmid başını dik tutan Çopur Abdullanı təpədən-dırnağa qədər süzdü, sonra dönüb Rzaquluya baxdı. Rzaqulu boyca rəqibindən hündür olsa da, yaşca Çopur Abdulladan xeyli cavan görünürdü. Həmid öz aləmində bu qənaətə gəldi ki, gərək hesabla Rzaqulu yıxsın. Onun qalib gəlməsinə mərc qoşanlar udmalıdırlar.

Görkəmindən qəssaba oxşayan lopabığlı bir qart kişi ləngər vura-vura meydançaya çıxdı və əlini qaldırıb camaatı sakitləşdirdi.

Mirhadi Həmidə pıçıldadı:

– Bu kişi hakimdi, pəlvanların güləşməsinə baxacaq ki, qayda-qanunu pozmasınlar.

Hakim işarə elədi, pəhləvanlar dua oxuyub Allahı köməyə çağıra-çağıra yaxınlaşdılar. Rzaqulu irəli atılıb Çopur Abdullanın tirmə qurşağından yapışdı. Güc gəlib rəqibini yuxarı qaldırmaq istəyəndə az qaldı ki, özü arxası üstə aşsın. Nardaranlılar qəzəblə, həyəcan içində qışqırışdı:

– Alə, ay evin tikilsin, neynirsən, ürək-göbəyimiz düşdü ki...

– Ehtiyatlı ol, Rzaqulu.

– Görürsən bu Çopuru, fürsət düşən kimi hərif nə tez qamarladı Rzaqulunu. Yaxşı ki, Rzaqulu iti tərpəndi, yoxsa gönü verəcəkdi suya, övqətimizə soğan doğrayacaqdı.

Həyəcandan bığlarını gəmirən nardaranlıların başçısı Kəblə Bəybala yanındakılara acıqlandı:

– Alə, yumun küpünüzün ağzını, görək nə olacaq?

– Kəblə Bəybala, mən arxayınam ki, Rzaqulu diri-diri yeyəcək Çopur Abdullanı, üstündən də bir dolça sərin su içəcək özüyçün.

– Hələ bir səbir eləyin, baxaq nə cür qurtarır.

Pəhləvanlar qarşı-qarşıya duran dəstələrin hay-küyü, qışqırığı altında bir-birinə güc gəlib çətin fəndlər işlədir, biri o birinin kürəyini yerə vurmağa fürsət axtarırdı. Hərəkətlərindən hiss olunurdu ki, Çopur Abdulla daha təcrübəli və bicdir, ehtiyatla tərpənir, rəqibini çaşdırıb yıxmaq üçün imkan axtarır. Gücünə arxalanan Rzaqulu tələsirdi, belə getsəydi, o, tezliklə yorulacaqdı. Çopur Abdullaya da bu lazımdı. Nardaranlılar bunu başa düşmüşdülər, onlar Rzaquluya xəbərdarlıq elədilər:

– Alə, Rzaqulu, ayıq ol, hərif səni yorur.

– Gücünü bica yerə sərf eləmə, saxla soraya.

Həmid də yerində otura bilmirdi. Güləşənlərin ikisinə də yazığı gəlirdi, istəmirdi ki, bu qədər camaatın içində onlardan biri məğlub olsun.

Həmid yaxşı bilirdi ki, güləşmədə heç-heçə yoxdur, iki pəhləvandan biri mütləq qələbə çalmalıdır. O təsəvvür eləməzdi ki, güləşməyə baxanda bu sayaq dərindən həyəcan keçirər.

Mirhadi də Həmiddən geri qalmırdı. Ancaq nardaranlıların qonağı olduğu üçün Rzaqulunun tərəfini saxlayırdı. O, ağıllı bir fənd işlədəndə səylə çəpik çalırdı. Həmidəsə Çopur Abdullanın güləşməsi xoş gəlirdi, bayaqdan gözü onda idi.

Mirhadi:

– Həmid, bunlara yaxşı-yaxşı bax, – dedi, – fikir ver, gör necə fənd işlədirlər, lazımın olar.

Həmid indi gördüyü fəndlərin çoxunu bilirdi, uşaqlıqda məhəllələrində yoldaşları ilə güləşəndə öyrənmişdi.

Mirhadi soruşdu:

– Həmid, sən pəlvanlardan hansı ilə qurşaq tutarsan?

– Nə bilim, o barədə fikirləşməmişəm, Mirhadi əmi, nə deyim?

– Yoxsa çəkinirsən?

– Bir gilə də yox, onlardan biri ilə güləşmək istəsəm də, mənə icazə verən kimdi?

– Mən, bəs mən nəyəm?

– Sizə qulaq asarlar?

– Nəkarədirlər qulaq asmasınlar, asdırarıq.

Bu ara camaatdan dəhşətli bir qışqırıq qopdu. Çopur Abdulla Rzaqulunun kürəyini yerə basıb saxlamışdı. Sağ tərəfdəkilər çəpik çalır, bağırır, Çopur Abdullanı tərifləyirdilər.



Nardaranlılar pərt oldular. Elə bil üstlərinə bir dəryaçanın suyunu tökdülər. Kəblə Bəybala əlini əlinə çırpdı:

– Bu Rzaqulu nə maymaqmış, alə, heyif o sumbatdan...

– Gör bir Çopur Abdulla neynədi...

– Gücə qalsaydı o, Rzaqulunu dünyasında uda bilməzdi. Biclik işlətdi.

Mərc qoşanlar o tərəfdə öz haylarında idilər, göy əsginazları çəngə-çəngə çıxarırdılar.

Çopur Abdulla Rzaqulunu buraxıb qürurla dikəldi. Öyünə-öyünə öz adamlarına sarı getdi. Rzaqulu xəcalətdən başını qaldırmadan meydandan çıxdı. Bəybala kişi də döşəkçədən qalxıb onun dalınca getdi, əlini ölçə-ölçə məzəmmət elədi:

– Üzün ağ olsun, soxdun başımızı yerə, camaatın arasında xəcil olduq. Harda qaldı sənin əncir ağacını kökündən qoparan o gücün?!

Rzaqulu özünü elə itirmişdi ki, hələ də kürəyinin yerə necə dəyməsini anlaya bilmirdi.

Balağanın başına yığılanlar Çopur Abdullaya işarə eləyib gah sağından, gah da solundan nəsə deyir, onu doldururdular. Balağa heç qımıldanmırdı da. Həmid çox istəyirdi ki, yaxında olsun, onların dediklərini eşitsin. Balağa ilə Çopur Abdullanın burada güləşməsi onun da könlündən keçirdi. Rzaqulunu yıxandan sonra Həmid Çopur Abdullaya ayrı gözlə baxırdı.

Çopur Abdulla tərini silib təzədən meydançaya çıxdı. Onun üzü gülürdü.

Mirhadi dedi:

– Balam, mən bu Çopur Abdullanı belə görürəm, onun qabağında durmaq çətin işdi. Rzaqulunun kürəyini necə ustalıqla vurdu yerə.

– Çopur Abdulla udsa da, Rzaqulu ondan güclü pəhləvandı. Mənə elə gəlir ki, onlar bir də qurşaq yapışsalar Rzaqulu udar.

– Ay-hay, sən də söz danışdın də. Neynirəm o gücü ki, lazım olanda karıma gəlmir? Mənə qalanda, güc də var-dövlət kimi bir şeydi. Ağlı olan onu yerində sərf eləyər, yoxsa o gücün kimə nə faydası? Bu ona bənzəyir ki, xeyli qızılın var, basdırmısan torpağa, özün acyalavac dolanırsan.

– Mirhadi əmi, adamınkı gətirməyəndə gətirmir. Rzaqulununku bu dəfə gətirmədi.

– Oynaya bilməyən deyir ki, yerim dardı.

Mirhadi yanındakılar eşitməsin deyə, Həmiddən astaca soruşdu:
– Çopur Abdullaya gücün çatar, onunla qurşaq yapışarsan?
Təklif Həmidi tutdu.
– Deyirsiniz mən onunla güləşim?
– Hə. Rzaqulunun hayfını çıxsan, yerinə düşər. Biz nardaranlıların qonağıyıq, onların yanında başımız uca olar.
Həmid kirpiklərini çala-çala fikrə getmişdi. Mirhadinin təklifi onun döşünə yatmışdı. Bəlkə də ayrı vaxt olsaydı, Rzaqulu yıxılıb pərt halda meydançadan çıxmasaydı, o, Çopur Abdulla ilə güləşməyə tərəddüd edərdi. İndi elə bil Həmid belə bir təklifi çoxdan gözləyirdi. Mirhadinin sözü yerinə düşmüşdü. O:
– Güləşərəm, Mirhadi əmi, – dedi. – Bu paltarla ayıbdı, axı.
– Sən paltarın fikrini çəkmə, o mənim boynuma.
Dəmiri isti-isti döyən dəmirçilər kimi Mirhadi iti tərpəndi, məqamı əldən buraxmaq istəmirdi, nə qədər Həmid rəyindən dönməmişdi, onu soyundurub meydana salmağa çalışdı. Özünü tut ağacının altında yığışıb qaşqabaqlarını sallayan nardaranlıların yanına verdi. Kəblə Bəybalaya Həmidi Çopur Abdulla ilə güləşməyə razı saldığını dedi. Nardaranlıların gözünə işıq gəldi. Sanki sönməkdə olan ocağı iri bir yelpiklə yelləyib yenidən qızışdırdılar. Onlar ümid dolu baxışlarla dönüb Mirhadinin göstərdiyi gəncə baxdılar. Həmid utanıb başını aşağı əydi. Sonra bir gödək kişi gəlib Həmidi apardı. Rzaqulunun hələ təri qurumamış güləş köynəyini və şalvarını ona verdi. Həmid daldada paltarını dəyişib tut ağacının altına qayıtdı. Üzü tüklü bir kişi Həmidə baxa-baxa dedi:
– Heyif, ayrı paltar yoxdu, bunu Rzaqulu geyib, düşər-düşməzi olar.
Kəblə Bəybala onu qınadı:
– Sən də ağzını xeyirliyə aç, alə. Kişinin oğlu meydançaya girməmiş nəsini vurma. Xeyir söyləməzə dedilər ki, xeyir söylə, gələndə sənə xələt gətirərəm, dedi ki, bəlkə getdin, gəlmədin.
Qoca, əlini Həmidin çiyninə qoydu:
– Allah sənin köməyin olsun.
Mirhadi Həmidi tərifədi:
– Siz bunu tanımırsınız, Kəblə Bəybala, indi görərsiniz hünərini.
– Görək də, Allah ağzından eşitsin.
Nardaranlılar Həmidin başına dolanırdılar.



Bu ara Maştağa yolunda bir ağ atlı göründü, camaat sakitləşdi. O gəlib zorxananın yanında atdan düşdü. Kəblə Bəybala çaparı hörmətlə qarşıladı:
– Xoş gəlmisən, Əbdülqəni ağa.
Qılıncı göbəyinin üstündən sallanan yasavul Əbdülqəni ağa əli dalında meydançanın qabağında o yan-bu yana getdi, adamlara şübhəli-şübhəli göz qoydu və soruşdu:
– Yenə bu nə yığıncaqdı, Kəblə Bəybala?
– Pəlvanlar güləşirlər, Əbdülqəni ağa.
– Yəni sənə inanım?
– Qurana inanan kimi.
– Deyirsən arxayınlıqdı?
– Xətircəm ol, Əbdülqəni ağa, bizim uşaqlar şuluqçu deyillər. Cümə günüdü, yığılıb məşğuliyyət eləyirlər özləriçün.
Kəblə Bəybala yasavul Əbdülqənini qırağa çəkib cibinə pul basdı. O daha dayanmadı, yeniyetmə oğlanın əlindən atın yüyənini aldı və yəhərə qalxanda çevrilib dedi:
– Mən burda səni tanıyıram, Kəblə Bəybala.
– Arxayın get.
Yasavul Əbdülqəni atını qamçılayıb gəldiyi yolla geri qayıtdı. Özünü yığışdıran Çopur Abdulla yenə meydançada gəzinib qabağına çıxmağa adam axtardı.
Həmid Mirhadinin xeyir-duası ilə meydançaya çıxdı, xalçanın qırağında dayandı. Çopur Abdullanın adamları onu görüncə xorladılar:
– Bu kimdi, alə?
– Bu uşaq-muşağı hardan tapıb çıxardırlar?
Həmidin yaraşıqlı boy-buxununa, enli kürəyinə baxan deyərdi o, əsil pəhləvandır. Hamı, xüsusilə nardaranlılar Həmidə bərk can yandırırdılar, əl çalır, xoş sözlər deyir, onu həvəsləndirirdilər...
Ancaq Çopur Abdulla ondan zəhmli görünürdü. Bir tərəfdə dayanıb Həmidə saymazyana göz yetirirdi. Mirhadi ovcunu lüləyib ağzının qabağına tutmuşdu. Şagirdi üçün həyəcan keçirən qayğıkeş müəllim kimi ona göstəriş verirdi.
– Özünü itirmə, Çopur Abdullanın Rzaqulunu basmasına baxma, sən onu diri-diri yeyərsən.
Başqaları da ona nə isə deyirdilər, səslər bir-birinə qarışmışdı. Həmid heç nə eşitmirdi, heç nə görmürdü. Gözləri Çopur Abdullaya zillənmişdi.

Bayaq hakimlik eləyən qart kişi yenə meydana çıxdı, əvvəlcə Çopur Abdulladan, sonra Həmiddən hazır olmalarını soruşub, güləşmə işarəsini verdi. Çopur Abdulla qırğı kimi rəqibinin üstünə atılıb qamarladı. Həmid çaşmadı, iki əlini zəncir kimi Çopur Abdullanın kürəyində birləşdirdi. Gücü çatdıqca sıxdı. Rzaqulunun əvəzini çıxmaq həvəsi Həmidin gücünü birə-beş artırmışdı.

Çopur Abdulla nardaranlıların onun qabağına çıxartdıqları "uşağın" belə güclü olmasını təsəvvür eləmirdi. Çırpındı, dartındı, hıqqandı, Həmidin məngənə kimi onun qabırğalarını əzən əllərini bir-birindən ayıra bilmirdi. Həmid fürsəti əldən vermədi, onu daha bərk sıxdı. Çopur Abdullanın nəfəsi tıncıxdı, ha çalışdı ki, Həmidə badalaq vurub aşırsın, bir şey çıxmadı.

Vəziyyəti belə görən Çopur Abdullanın adamları yerlərindən söz atıb qışqır-bağır salmağa, Həmidi çaşdırmağa çalışdılar. Lakin elə bil o kar idi, qulaqları heç nə eşitmirdi. Çopur Abdulla qeyrətə gəlib iki dəfə rəqibinə badalaq vurmağa fənd işlətdi. İkisi də boşa çıxdı. Üçüncü dəfə səy göstərəndə bir ayağı yerdən üzülən Çopur Abdullanı Həmid qaldırıb zərblə yerə çırpdı və tez dizini onun sinəsinə qoydu.

Nardaranlılar ağız-ağıza verib qışqırdılar:

– Afərin, afərin!

– Ananın südü sənə halal olsun.

Çopur Abdulla çaşbaş qalmışdı. Asta-asta dikəldi, gözlərindən qan damırdı. Sevinc içində Həmidi atıb-tutan nardaranlılara qəzəblə baxa-baxa meydançadan çıxdı.

Həmidin fərəhdən gözləri gülürdü.

Mirhadi Həmidin gücünə çox inansa da, Çopur Abdullanı belə tez yıxacağına ümid eləmirdi. O, Həmidi Nardarana gətirməsinə şad idi. "Gözüm sərraf gözüdü, bu Həmid körpüdə kisənin üçünü birdən dalına alıb daşıyanda deyirdim ki, qabağında durmaq çətindi, səhv eləməmişəm".

Nardaranlılardan kimsə bir qara toğlunu dartışdıra-dartışdıra gətirib Həmidin ayağı altına yıxdı, kəmərindən sallanan gümüş dəstəkli xəncəri qınından çıxarıb üzü qibləyə sarı olan heyvanı kəsdi.

– Sənin kimi igidin ayağı altında yüz belə erkək kəsilsə də, azdı.

Bayaqdan güləşənlərə dinməz-söyləməz tamaşa eləyən Balağanı başı sür papaqlı, geyimli-kecimli dörd kişi araya almışdı. Ona çoxlu pul vəd edib güləşməyə şirnikləndirirdilər. Balağa fikrə getmişdi, deyilənlərə qulaq asır, cavab vermirdi. Təklif olunan pulu almaq istəsə də, hələ heç kəsin tanımadığı adsız-sansız bir cavan oğlanla güləşməyi şəninə sığışdırmırdı. Balağa Həmidi yıxsaydı, bu, adi bir iş idi. Həmid Balağaya üstün gəlsəydi, bu, məşhur pəhləvan üçün biabırçılıq olardı. Ancaq Balağa çəngə-çəngə puldan da keçmək istəmirdi.



Mirhadi varlıların Balağa ilə sövdələşdiyini görüncə övqəti təlx oldu. İstəmirdi ki, Balağa Həmidlə güləşməyə razılıq versin. Həmid Çopur Abdullanı asanlıqla yıxsa da, onun Balağa kimi usta pəhləvanın öhdəsindən gəlməsinə ümid eləmirdi.

Balağanın güləşməyə razılıq verməsini biləndə Mirhadi narahat oldu. "Həmid onun qabağında neyniyəcək? Balağa əjdaha kimi igidlərin kürəyini bir göz qırpımında qoyur yerə, əsil pərtlik o yıxılanda olar. Gedim Həmidə deyim ki, nə qədər pul versələr də, Balağa ilə güləşməyə razı olmasın".

Heç nədən xəbəri olmayan Həmid paltarını dəyişəndə bir oğlan qaçıb ona dedi ki, geyinmə, yenə güləşəcəksən. Bu vaxt Mirhadi də gəldi. Həmid soruşdu:

– Bu oğlan nə deyir, Mirhadi əmi, bəyəm güləşmə qurtarmadı?

– Qurtardı. Ancaq deyəsən, Balağanı səninlə güləşməyə razı salıblar.

– Balağa mənimlə güləşəcək?..

– Xozeyinlərə nə var ki, ciblərini açıblar onun qabağında, razı salmaq üçün nə qədər istəsə, verəcəklər.

Çopur Abdullanı asanlıqla yıxmasından Həmidin dişinin dibində şirə qalmışdı.

– Mirhadi əmi, – dedi, – Balağa razılıq versə, mən də güləşərəm onunla, nöşün narahat olursan.

– Alə, nə danışırsan? Bu səninçün Çopur Abdulladı bəyəm? Balağa yerə çırpıb qol-qabırğanı sındırar, peşmanlıq olar. Mənim sənə yazığım gəlir.

Həmid arxayın-arxayın dedi:

– Mən Balağa ilə güləşməkdən qorxmuram, Mirhadi əmi.

– Qorxmursan?! Onda özün bil, qabaqcadan deyirəm, şərti şumda kəsək ki, xırmanda yabalaşmayaq. Allah eləməmişkən, sənə bir şey olsa, qol-qıçın sınsa, day mən cavabdeh deyiləm. Dayın Turaba da bunu deyəcəm.

Belindən mauzer asılmış bir cşməbığ qoçu gəlib Mirhadiyə dedi:

– Ağabala qədeş çağırır səni.

Mirhadi Ağabalanı şəxsən tanımırdı, adını çox eşitmişdi. Varlıkarlı kişi idi. Suraxanıda öz buruqları vardı. Onu da bilirdi ki, bu sumbatda, bu bazburudda qoçu adi adamın buyruğu ilə başqasını çağırmağa gəlməz. Mirhadi qoçuya qoşulub Ağabalanın yanına getdi və hövlnak qayıtdı:

– Həmid, xozeyin Ağabala sənə də iyirmi dənə qızıl onluq vəd eləyir. Nə deyirsən? Balağa ilə güləşirsən? Səndən cavab gözləyirlər. Mən məsləhət bilməzdim.

Həmid şirnikdi.

Balağa ilə lap havayı güləşərdi, bunu özünə şərəf sayırdı, üstəlik, ona hələ filan qədər pul da təklif edirdilər. Həmid dedi:

– Balağa ilə qurşaq yapışaram.

Mirhadi istəməsə də, Həmidin adamı kimi cşməbığ qoçu ilə Ağabalaya xəbər göndərdi ki, oğlan güləşməyə razıdır.

Balağanın Həmidlə güləşəcəyi xəbəri bircə anda camaatın arasına yayıldı. Çopur Abdulla yaddan çıxdı. Nardaranlıların ağsaqqalı Kəblə Bəybala özününkülərlə məsləhətləşib Həmidə yaxınlaşdı, qurşağının altından bir çəngə əsginaz çıxarıb ona uzatdı. Həmid utandı, götürmədi:

– Mənə heç nə gərək deyil, əmi.

Kəblə Bəybala Həmidin pulu almamasından tutuldu. Mirhadiyə şikayətləndi:

– Sən bu cavan oğlanın başına ağıl qoy, nöşün bu pulları almır?! Yəni belə dövlətlidi, artıq pul cibini cırır? Bizdən pul almayanda ürəyimizə ayrı fikir gəlir, düşünürük ki, Balağa ilə xala xətrin qalmasın güləşəcək. Elə olmasın ki, biz yenə də camaat arasında xar olaq.

Mirhadi Balağanın Həmidlə güləşməyə razı olmasına hamıdan artıq dilxor idi.

O dedi:

– Kəblə Bəybala, mən çox istərdim ki, Həmid bu dəfə də nardaranlıların başını uca eləsin. Ancaq o, Balağa ilə bacarmaz. On səkkiz yaşında oğlan əjdahalarla döş-döşə gələn böyük pəlvanın qabağında necə dursun? Həmid bura gələndə heç güləşmək fikri yox idi. Sizə görə mən ondan xahiş elədim, sözümdən çıxmadı. Düzü, qorxuram, sizi peşman eləsin. Bu işdə Həmidin səriştəsi yoxdu.



Pullar Kəblə Bəybalanın əlində qalmışdı.

– Nə olsun ki, Həmidin pəlvanlıqda səriştəsi yoxdu. Zor gücdədi, cavanlıqdadı, ay Mirhadi, ay sənin cəddinə qurban olum. Bayaq Çopur Abdulla ilə yapışanda ona göz qoyurdum. Naşı olsa da, maşallah, namxuda çox zirəkdi, o gücü ki Həmiddə gördüm, vallahi-billahi, Balağaya da can verməz, ondan yekəsinə də.

Həmid tərifdən utanıb başını aşağı əydi.

– Sən mənə inan, Mirhadi, – Kəblə Bəybala Həmidlə Mirhadinin arasına keçdi, – həştad illik ömrümdə bax bu Abşeron torpağında çox pəlvanların qurşaq yapışmasına tamaşa eləmişəm. Başımın tükü sanı mərc qoşmuşam. Bu mərclərin çoxunda mən deyən olub, udmuşam. Allahın köməkliyinən yenə də mən deyən çıxacaq. İzin ver, Həmid Balağa ilə qurşaq tutsun, mənim haqlı olduğumu təsdiq eləyərsən.

Mirhadi Kəblə Bəybalanın sözündən keçmədi:

– Siz deyən olsun, mən çox sevinərəm.

– Elə mən deyən olacaq, sən də sevinəcəksən, Mirhadi.

Həmid dedi:

– Kəbleyi, sizdən pul almamağım ürəyinizə pis gəlməsin. Ancaq buna arxayın olun ki, Balağa ilə var gücümlə güləşəcəyəm, nə olar, olar.

– Bax, bu oldu əsil cayıl sözü. Dağ kimi dayanmışıq dalında. Get, Həzrət Əli sənə kömək olsun.

* * *

Daş qayaya rast gəlmişdi.

Balağa Həmidlə güləşməyə razılıq verəndə belə düşünürdü ki, rəqibi nə qədər güclü olsa da, təcrübəsizdir, naşıdır; onu çaşdırıb yıxa bilər. Bundan başqa, əgər Balağa Həmidlə güləşməkdən boyun qaçırsaydı, tamaşaçılar belə nəticə çıxarardılar ki, cavan pəhləvandan qorxduğu üçün meydançaya çıxmadı. Sonra da aləmə şayiə yayılacaqdı ki, Balağanın indi ancaq adı qalıb, əvvəlki pəhləvan deyil, bica yerə onu tərifləyib qaldırırlar göyə. Bundan hamıdan çox Çopur Abdulla yapışacaqdı. Çoxdankı ədavətin əvəzini çıxmaq üçün onun dalınca toyda, yasda ağzına gələni deyəcək, aləmdə biabır eləyəcəkdi.

Balağa Həmidlə tutuşanda hiss elədi ki, heç kəsin tanımadığı bu gənc oğlan kol kimi güclü, qaya kimi möhkəmdir. Onun əlləri əllərinə dəyəndə Balağaya elə gəldi ki, ovcunu kəlbətinin ağzına saldılar. Həmid onun biləyindən yapışıb bircə dəfə sıxması ilə yeri qıpqırmızı qızardı. Balağa ehtiyatla tərpəndi. Bildiyi fəndləri, bicликləri işə saldı. Həmid isə bayaq Çopur Abdulla ilə güləşməyindən fərqli olaraq, daha sıxılmırdı. Balağanın qabağında layiqli rəqib kimi dayanmışdı.

İkisi də qan-tərin içində idi.

Xartut ağacının altına yığılanların heç biri hələ indiyə qədər belə gərgin, belə baxımlı güləşmə görməmişdi. Əvvəlcə Çopur Abdullanın adamları bir yandan, nardaranlılar da o yandan pəhləvanları qızışdırmaq üçün ağız-ağıza verib qışqırsalar da, sonra hər iki dəstənin başı güləşməyə elə qarışdı ki, qışqır-bağır yaddan çıxdı.

Cavanlıq özünü göstərirdi. Balağa duydu ki, güləşmə uzun çəksə, axıradək davam gətirə bilməyəcək. Yorulmuşdu, qüvvəsini qənaətlə sərf eləyirdi və elə ustalıqla güləşirdi ki, nə Həmid, nə də tamaşaçılar Balağanın yorulduğunu hiss etmirdilər. Əksinə, tamaşaçılar belə güman edirdilər ki, Balağa üstünlüyü büruzə vermir, rəqibini yorur, gücünü həlledici an üçün qoruyub saxlayır.

Kəblə Bəybalanın yanında, məxmər döşəkçə üstündə oturub qəlyanını sümürə-sümürə güləşənlərə tamaşa eləyən Mirhadinin xırdaca gözləri bərələ qalmışdı. "Alə, sən yetimə bir bax, gör Balağa ilə nə sayaq süpürləşir?! Bu Həmid də az aşın duzu deyilmiş, gec gəldi, tez öyrəndi, bununçün deyiblər".

Kəblə Bəybalanın kefi göylə gedirdi. Uzun kəhrəba təsbehini çevirə-çevirə Həmidə baxırdı.

– Ay Mirhadi, indi gördün, bu qoca Bəybala çox şey bilir.

– Mən təslim, Kəbleyi.

– Hələ bu harasıdı, dalını gözlə, ay sənin cəddinə qurban olum.

Güləşmənin şirin yerində sanki birdən-birə Həmidi dəyişdilər. O, Balağanın yorulduğunu görsə də, rəqibinə əvvəlki kimi həmlə gəlmədi. Balağanın iri gözlərinə baxanda qəzəbi soyudu. Adətən, rəqiblər meydanda üz-üzə gələndə onlar bir-birlərinə qəzəblə baxırlar, gözlərindən qan damır. Bu qəzəb onların gücünü artırır. Lakin Həmid Balağanın baxışlarında özünə qarşı qeyri-adi bir mehribanlıq gördü. Elə bil Həmidi bununla tərk-silah elədilər. Bayaq Çopur Abdulla ilə güləşəndə onun zəhmli, nifrət dolu baxışlarını xatırladı. "Pəhləvanın pəhləvandan nə qədər fərqi varmış".

Həmid bir də Balağanın gözlərinə baxanda ona elə gəldi ki, bu irilənmiş ala gözlər onunla danışır. Həmidə deyir ki, cavan oğlan, sən məndən üstünsən, nə qədər ağır olsa da, mən bunu etiraf etməyə məcburam. Əgər səndə azacıq insaf varsa, mərhəmətli ol, məni bu qədər camaatın arasında yıxıb xar elmə. Məğlub olmaq mənim üçün ölümə bərabərdir. İgid basdığını kəsməz...

Elə bil Həmidin əllərini dartıb yanına saldılar. "Neynim, bəlkə, mən yıxılım, cavan oğlanam... Bu necə olar?" Heç kəs onu tanımasa da, Həmid bu qədər camaatın qarşısında basılmaq istəmirdi. "Bəs necə olsun?!"

Tamaşaçılar elə ilk dəqiqələrdən inadla, ehtirasla güləşən pəhləvanların birdən-birə süstləşməsindən xoşlanmadılar. Hər iki dəstənin adamları ağız-ağıza verib, etiraz etməyə başladılar:

– Bu nə güləşmədi, alə?..

– Bunlara nə oldu belə?

– Nöşün bunların fısı yatdı?

– Məəttəl qalmalı işdi...

Mədənçi Ağabala xalçanın qırağında gəzişə-gəzişə pəhləvanların güləşməsinə göz qoyan hakimi çağırıb narazılığını bildirdi. Hakim gəlib güləşməni dayandırdı, Balağaya ehtiramla, Həmidə isə qətiyyətlə xəbərdarlıq elədi ki, bu sayaq güləşmək olmaz, bu nə hoqqadır çıxarırlar.

Pəhləvanlar təzədən yapışdılar.

Mədənçi Ağabalanın yanını kəsdirib oturan eşməbığ qoçu özünü ağasına göstərmək üçün hamıdan bərk qışqırırdı:

– Hə, Balağa, dönüm gözüvə, bu yoluğun dərsini ver, görsünlər ki, sənin qabağına kimi çıxarırlar. Bura çocuq-mocuq yeri deyil.

Həmid hiss eləyirdi ki, hakimin xəbərdarlığından sonra Balağanın ciddiləşməsi əslində tamaşaçıların donquldamasını kəsmək, etirazını yatırmaq üçündür. Həmid də onun yolu ilə getdi, guya o da ürəklə güləşirdi. Onlar hərdən qucaqlaşıb bir-birinin ayağını yerdən üzməyə cəhd edirmiş kimi yalandan gücənirdilər. Bu anda başı Həmidin sağ çiyninə dirənmiş Balağa ona pıçıldadı: "Nöşün məni yıxmırsan?" Həmid bu sözləri eşidəndə diksinən kimi oldu. Yaxşı ki, nə hakim, nə də tamaşaçılar gördülər. O cavab vermədi. Balağa bir də

dedi: "Səninləyəm, nöşün məni yıxmırsan? Day bəsdi, mən yorulmuşam... belə güləşə bilmirəm..."

Həmid bir istədi ki, Balağanı da Çopur Abdullanı yerə çırpan kimi eləsin, əli gəlmədi: "Yox, bu sözdən sonra Balağanı yıxmaq kişilikdən olmaz..."

Həmid də imkan olan kimi Balağaya pıçıldadı: "Mən sizi yıxmaq istəmirəm, ancaq bilmirəm neyləyim?" Balağa dinmədi. Həmid onu buraxdı, pəhləvanların ikisinin də paltarlarının suyu damcılayırdı.

Güləşmənin şirin yerində pəhləvanların dayanması tamaşaçıları heyrətdə qoydu. Mədənçi Ağabalanın yanındakı eşməbığ qoçu əli göbəyinin üstündən sallanan mauzerin qoburunda dik qalxdı.

– Alə, bu hə həngamədi çıxarırlar bizimçün?!

Həmid qoçunun sözlərini eşitmədi, qarşısında duran Balağaya üz tutub dedi:

– Əgər hörmətli Balağa etiraz eləmirsə, mənim bir təklifim var.

İndiyə kimi heç yerdə belə olmamışdı ki, güləşmə nəticəsiz, yarıda kəsilsin. Camaat məəttəl qalmışdı, bu, nə olan işdi?! Balağa da nigaran idi, xasiyyətinə bələd olmadığı bu gənc oğlan görəsən tamaşaçılara nə deyəcəkdi. "Həmid ağzına gələni deyib məni biabır eləməz ki?.."

Həmid qışqırıb etiraz eləyən camaatı sakitləşdirdi:

– Hörmətli ağalar, – dedi, – bayaqdan güləşirik, ikimiz də yorulmuşuq. Nə mən Balağa qədeşi yıxa bilirəm, nə də o məni. Bu qayda ilə getsə, güləşmə çox uzanacaq. Balağa qədeş razıdırsa, yarış elə belə də qurtarsın. Onunku onda, mənimki məndə.

Balağa elə bil can üstündə idi, ona şəfa dərmanı verib dirildilər. Münasib olsaydı o, Həmidi qucaqlayıb bağrına basardı.

Camaat güləşmənin yarımçıq kəsilməsindən bərk narazı idi, qışqır-bağır salmışdı:

– Biz razı deyilik, qoy axıracan güləşsinlər.

– Bu kov deyil, qayda-qanun var, pəhləvanın ikisindən biri basılmalıdı, bizi ələ salırlar?!

– Həmidin ağzından süd iyi gəlir, o naşıdı, nə istəsə deyə bilər, bəs Balağa buna necə baxır? Onun sözü nədi?

Balağa mədənçi Ağabalanın səsini eşidincə dedi:

– Ağalar, mən Həmidin dediklərinə tamamilə şərikəm.

Mirhadi də, Kəblə Bəybala da heyrətdə qalmışdılar. Mirhadi nardaranlıların ağsaqqalına dedi:



– Bu işdən baş açmıram, Kəblə Bəybala. Mən arxayınam ki, Həmid bacarsaydı Balağanı da Çopur Abdullanın kökünə salardı. Bəs Balağa onu nöşün yıxmadı? Məni çaşdıran da budu.

– Mirhadi, məndən soruşsan deyərəm ki, elə bizə güləşmənin belə qurtarması sərfəlidi. Balağa alicənablıq eləyib Həmidi yıxmayıbsa, çox gözəl, çox pakizə, yoxsa yenə bizimçün pərtlik olardı.

Kəblə Bəybala yanındakı kişiyə pıçıldadı adamlarına tapşırsın ki, daha səs-küy qaldırmasınlar, bəsdir. O da bunu böyründəkinə dedi, böyründəki qonşusuna. Nardaranlılar susdular. Çopur Abdullanın dəstəsi isə aram olmurdu.

Hakim qışqırdı:

– Həzərat, toxtayın, bir hövsələli olun. Macal verin, mən məsələni ayırd eləyim.

Səs-küy yatdı. Hakim Balağa ilə Həmidi yanına çağırıb onlarla danışdı və intizar içində gözləyən tamaşaçılara dedi:

– Həzərat, pəhləvanlar güləşmək istəmirlər. Biz də onları məcbur eləyə bilmərik. Beləliklə, bu yarış heç-heçə qurtarır, yəni nə məğlub olan var, nə də qalib gələn.

Camaat toxtamırdı:

– Yox, bu olmadı.

– Balağadan heç gözləməzdik.

Kəblə Bəybala hiss elədi ki, belə getsə, pis qurtaracaq, tut ağacının altındakı daşın üstünə qalxıb dedi:

– Əziz qonaqlar, qurşaq tutmaq qurtarsa da, bizim məclisimiz hələ başlamayıb, rahat əyləşin, xörəyimiz hazırdı.

Qonaqlar cərgə ilə oturdular, meydana döşənmiş xalçaların üstünə iri süfrələr saldılar, göyərti, çörək, şərbət gətirdilər, dalınca da aş gəldi. Kəndin mollası "Bismillah" dedi, şam elədilər.

Həmid Nardarana gələndə onu heç kəs tanımır, heç kəs saya salmırdı. İndi hamının gözü Həmiddə qalmışdı. Bu ucaboylu, gur saçları tüklü papaq kimi başını örtmüş qarabuğdayı oğlana qibtə eləyənlər çox idi.

Həmid Mirhadinin yanında oturmuşdu. Mirhadi ağzını açıb bir söz deməsə də, ürəyində qürrələnirdi ki, Həmidi bura o gətirib, onun sayəsində Həmid bircə gündə Abşeronda məşhur oldu. Səhər onlar bura gələndə Həmidə Mirhadiyə görə hörmət eləyirdilər. İndi əksinə olmuşdu. Həmid nardaranlıların gözündə xeyli ucalmışdı.

Həmid doyunca yedi, haçandı dilinə aş dəymirdi, səbzi-plovdan iki qalaqlama boşqab, üstündən də zəfəranlı şərbət...

Balağa mədənçi Ağabalanın yanında əyləşmişdi. O yeyib qurtarmışdı. Ağabala ilə mehriban-mehriban söhbət eləyirdi. Çopur Abdullanın qaşqabağı yer süpürürdü, elə bil, gəmisi Xəzərdə qərq olmuşdu.

Kəblə Bəybala ayağa durmasa da, yediyi-içdiyi canına sinmirdi. Göz qoyurdu ki, adamları qonaqlara yaxşı qulluq eləsinlər.

Yemək yığışdırıldı, çay gəldi, qarabağlı xanəndə "Rast" muğamını dəsgahı ilə oxudu. Nardaranlılar ona "afərin" deyə-deyə qulaq asırdılar. Nardaran Abşeronda muğamatı gözəl bilən və onu qiymətləndirən bir kənd kimi tanınır. Buna görə də onlar hər xanəndəni öz məclislərinə dəvət eləmirlər. Hər bir xanəndə üçün nardaranlıların yüksək qiymətini qazanmaq şərəfdir.

O axşam Bilgəhdən, Maştağadan, Mərdəkandan və başqa yaxın kəndlərdən gələnlər atlarına, qazalaqlarına minib getdilər. Şəhərdən gələnlər Nardaranda gecələməli oldular. Mirhadi ilə Həmid Kəblə Bəybalagilə düşdülər. Qoca onlara çox hörmət elədi, qonaqlara ipək yorğan-döşək saldılar. Həmid ömründə belə yataqda yatmamışdı, görmədiyi günləri görürdü. Atası Murtuz kişi Bakı kəndlərində yüzlərlə quyu qazmışdı, neçə-neçə susuz həyətlərə, bağlara su vermişdi, ancaq onu saya salan olmamışdı. Həmid özü limanda gün çıxandan gün batana kimi tay daşıyırdı, axşam mitil yorğan-döşəkdə yatırdılar. Bu gün güləşib birini yıxmaqla ona gör nə hörmət göstərirdilər. "Güləşmək nə böyük işmiş, hünər ona deyərəm ki, gəlib dalında ağır kisələri iki-iki, üç-üç daşıyasan. Pəhləvanlıq eləmək pis deyil, pulu, şan-şöhrəti, ancaq yıxıb-yıxılmağı olmayaydı. Biri sevinir, o biri xar olur. Bütün yarışlar bizim bu gün Balağa ilə güləşməyimiz kimi qurtarsa, nə yaxşıdır..."

Səhər Həmid Nardaranda nə Balağanı gördü, nə də Çopur Abdullanı, onlar axşamdan harasa çıxıb getmişdilər.

Kəblə Bəybala qonaqları yola salanda Həmidin cibinə bir dəstə kağız pul basdı:

– Özünçün xərclik eləyərsən.

Həmid yenə pulları götürmək istəmirdi. Mirhadi də təkid elədi, qaytarmağa üzü gəlmədi.



* * *

Qazalaq Maştağaya tərəf gedirdi, oradan Zabrat yoluna çıxıb Bakıya yol alacaqdı, xeyli mənzilləri vardı. Qazalaqçı söhbətcil, məzəli kişi idi, sərnişinlər darıxmasın deyə görüb-eşitdiklərindən, tanıdığı pəhləvanlardan danışdı. Çox maraqlı əhvalat bilirdi, danışdığı sərnişinlərin hərəsindən bir söz öyrənmişdi. Balağanı çox təriflədi:

– Mən biləni, indi Bakıda onun kimi pəlvan yoxdu, – dedi. – O, çapçı Atobbanın kiçik oğludu, Balağanın böyük qərdeşi toyqabağı Buzovnada dənizdə batdı.

Qazalaq Nardaran dikdirini qalxıb Maştağa bağlarına yaxınlaşanda arxadan at nalının tappıltısı eşidildi. Qazalaqçı dönüb geri baxdı, kimsə kəhər ürkəni dördnala çaparaq onlara çatırdı. O, çapara məhəl qoymadı, atını qamçılayıb yoluna davam etdi. Papağını gözünün üstünə basmış çapar yaxınlaşıb onlara on-on beş metr qalmış atını saxladı. Əlindəki tapançadan qazalağa dalbadal beş güllə çaxdı. Naməlum çapar tapançanın lüləsini Həmidgilə tuşlamışdı. Tələsdiyi üçün sərrast nişan ala bilmədi, güllələrin çoxu boşa çıxdı. Yalnız biri Mirhadinin papağının yanını yalayıb keçdi. Qazalaqçı tatarısını havada yelləyib qışqırdı:

– Ay namərd oğlu, kişi də arxadan güllə atar?

Çapar atını tez döndərdi, gəldiyi yolla çapa-çapa toz qoparıb aradan çıxdı. Yenə kimsəsiz yola sakitlik çökdü. Bu atlı kim idi, niyə onlara güllə atırdı? Mat qalmışdılar. Qorxudan üçünün də rəngi qaçmışdı.

Qazalaqçı şikayətləndi:

– Qırx ilə yaxındı ki, bu yollarda qazalaq sürürəm, hələ mənə güllə atan olmayıb. Ay atam-qərdeşim, mən belə əhvalat görməmişəm. Əclaf oğlu hər kimdisə, papağını gözünün üstünə elə basmışdı ki, tanımaq olmadı. Bircə bileydim o kimdi, hardandı... onda görərdi.

Mirhadi qorxmuşdu, təzə-təzə özünə gəlirdi.

– Günahımız nədi ki, o bizə güllə atdı? Yaman gedəcəkdik fələyin qəminə, Allah üzümüzə baxdı. Buna deyiblər ki, oturduğun yerdə işə düşəsən.

Qazalaqçı geri dönmədən dedi:

– Əşşi, rəhmətliyin oğlu, elə bil ayrı yerdən gəlmisən. Bəyəm ancaq günahı olana güllə atırlar?! Xülasə, tikəmiz ovsanaya düşdü.

Mirhadi papağını başından götürdü, əlini güllə dəyib keçən yerə bir də sürtdü.

– Bəxtim nə gətirib... Güllə bir balaca dərinə işləsəydi...

Həmid isə dinib-danışmırdı, elə bil qazalaqda tək oturmuşdu.

## III

Ənzəlidən gələn "Savalan" gəmisinin yükünün yarıdan çoxu boşaldılmışdı. Körpüdəki sivri talvarın altında sıra ilə kişmiş, xına, düyü kisələri üst-üstə yığılmışdı. Hamısının da böyründə İranın "Şiri-Xurşud" nişanı vardı.

Dalğalar nərilti ilə sahilə cumurdular, sanki Xəzər yatağından çıxacaqdı. "Savalan" beşik kimi yırğalanırdı.

Yükdaşıyan fəhlələr fasiləyə çıxmışdılar, talvarın külək tutmayan yerində əyləşib, düyünçələrini qabaqlarında açaraq nahar eləyirdilər. Həmid də evdən bir parça quru balıq, bir baş Hövsan soğanı və çörək gətirmişdi. Elə şirin-şirin yeyirdi ki, ona baxan tox da olsaydı, iştahaya gələrdi. Limanda onun-bunun qulluğuna gedən on iki yaşlı yetim oğlan yüyürə-yüyürə gəlib Həmidə dedi:

– Mirhadi əminin yanında bir kişi səni gözləyir.

– Neynir məni?

– Demədi.

– Get, gəlirəm.

Həmid ağzındakı tikəni yeyin-yeyin çeynəyib uddu, düyünçəsini bükmələyib, dodaqlarını silə-silə kontora getdi. İçəri girəndə duruxdu. Balağa gəlmişdi. Mirhadi ilə söhbət eləyirdi. Mirhadi onun kandarda dayandığını görüb yanına çağırdı.

– Orda durma, yaxın gəl, – dedi, – Balağanın səninlə söhbəti var.

Balağa Həmidlə istiqanlılıqla görüşdü:

– Neynirsən?

– Neyniyəcəm, başımı aşağı salıb yük daşıyıram.

– Yəqin mənim bura gəlməyimi heç gözləmirdin?

Həmid mehribanlıqla gülümsündü:

– Gələndə nə olar ki?

Balağa dedi:

– O gün Nardaranda tünlük idi, səninlə danışa bilmədim. Dünən bir nəfərdən burda işlədiyini öyrənib gəlmişəm.



Fəhlələrdən biri gəlib Mirhadini çağırdı. Balağa Həmidlə qaldı.

– Həmid, mən yaxşılıq itirən deyiləm. Sən Nardaranda o qədər adamın içində məni xar eləmədin. Qanançün bu, çox böyük yaxşılıqdır. Bir də deyirəm, mən buna görə ömrüm boyu sənə minnətdar olacağam.

– Balağa qədeş, Nardaranda nə oldu, orda qaldı. Onları təzədən yada salmaq nəyə lazım?..

– Yox, Həmid, başqası o vəziyyətdə sənin kimi eləməzdi. Hələ çox cavansan, nanəcib, qəddar adamlarla rastlaşmamısan.

– Balağa qədeş, əgər bilmək istəyirsinizsə, mən heç Çopur Abdullanı da yıxmaq istəmirdim. Rzaqulunu yıxdı, ona qəzəbim tutdu. İnanın ki, Çopur Abdullanın da məyus olduğunu görəndə qurşaq yapışmağıma peşman oldum, özümdən də acığım gəldi, güləşməkdən də. Axı nədən ötrü pəlvanlar o qədər camaatın gözü qabağında bir-birlərini yıxıb pərt eləyirlər?

Həmidin dedikləri Balağaya gülməli göründü:

– Qayda belədi, Həmid, güləşən pəlvanın biri yıxılmalıdı. Güləşmənin ləzzəti də elə bundadı.

Həmid razılaşmadı:

– Nə deyim?! Mən onda bir ləzzət görmədim.

– Alışmamısan, ona görə.

Bayırdan Mirhadinin qışqırığı eşidildi:

– Əşşi, adama sözü nə qədər deyərlər? Niyə qulaqardına verirsən?.. Balam, kisələrə gücün çatmır, çıx get bacardığın işin dalınca da. Atam, qərdeşim, qocalmısan, kisə daşıya bilmirsən. Neynim səninçün, mən daşıyım? Həftə səkkiz, mən doqquz, bir kisə salıb partladırsan, gah xınanı dağıdırsan, gah düyünü səpirsən yerə. Sənin zərərin qazancından çoxdu.

Nahar fasiləsi qurtarmışdı. Fəhlələr "Savalan"ın qalan yükünü boşaldırdılar.

Həmid kontorun pəncərəsindən gördü ki, ərdəbilli fəhlə Qulam kişi dalından kisəni aşırıb, yerə dağılan düyünü ovcu ilə sıyırıb tökür iri çalova. O, işdən qovulmaqdan bərk qorxurdu, ona görə də Mirhadiyə cavab qaytarmırdı. Həmidin kimsəsiz qocaya yazığı gəldi.

Balağa cibindən iri bir kişi üzüyü çıxartdı:

– Həmid, bayıra baxma, – dedi, – fikrin məndə olsun, hələ sözümü qurtarmamışam. Götür bu üzüyü.

Həmid firuzə qaşlı, yaraşıqlı qızıl üzüyə mat-mat baxdı. O, üzüyü Nardaranda güləşəndə Balağanın barmağında görmüşdü.
– Bu, sənə çatacaq.
Həmid üzüyü almadı. "Balağa nə danışır, necə yəni sənə çatacaq, özgənin üzüyü mənim nəyimə gərək?!"
– Götür, sənin halal malındı.
Həmid üzüyü almadı. Balağa onu stolun üstünə qoyub dedi:
– On yeddi il qabaq mən şəhərdə Hüseynbala açıqlığında Baxşəli adlı bir məşhur pəlvanla güləşdim. Onda səndən üç-dörd yaş böyük olardım. Məğlub olan Baxşəli xalçanın üstündən qalxdı, bu üzüyü barmağından çıxartdı. Hamının gözü qabağında mənə verib dedi: "Balağa, mən gəncliyimdə bir adlı pəlvanın kürəyini yerə vurdum. O, bu üzüyü barmağından çıxarıb mənə bağışladı. İndi mən də sənə verirəm". – Həmidin gözü pəncərədən içəri düşən gün işığında bərq vuran üzükdə qalmışdı. – Baxşəli belə vəsiyyət elədi ki, haçan kim mənim kürəyimi yerə vursa, bu üzüyü ona bağışlayım. Gərək bunu mən onda Nardaranda sənə verəydim, imkan olmadı, bu gün gətirmişəm.
Həmid üzüyü götürmədi:
– Balağa qədeş, mən sizi yıxmamışam ki.
– Sən bunu kimə deyirsən? Götür.
O, yenə üzüyə əl vurmadı.
– Yaxşı, tərslik eləmə, mən bunu sənə yadigar verirəm.
Həmid üzüyü könülsüz götürdü.
Mirhadi qəlyanını sümürə-sümürə kontora qayıtdı:
– Hə, ustad-şagird söhbəti tutdu?
– Şagird yaman inadkardı, ay Mirhadi.
– Hə, Həmid sünni olmasa da, bir balaca tərsliyi var.
Qapı aralı qalmışdı. Balağa keçib örtdü ki, danışıq bayırda eşidilməsin.
– Mirhadi, mən elə səni çağırtdıracaqdım, özün qayıtdın. Eşitmişəm siz Nardarandan qayıdanda yolda qazalağınıza güllə atıblar?
O əhvalat Mirhadinin yadına düşüncə sanki kişiyə dağ basdılar, göynətdi.
– Atıblar. Sən bunu hardan bilirsən?
– Bir maştağalı dostum var, srağagün ondan eşitdim.



Mirhadi papağını başından çıxarıb güllə yalayan yerini Balağaya göstərdi:
– Görürsən, nişan da qoyublar.
– Güllə sənin papağına təsadüfən dəyib, Mirhadi. Atlı Həmidi vurmaq istəyirmiş.
Həmid təəccüblə Balağaya baxdı:
– Məni? Nədən ötrü?..
– Mən buna əminəm ki, sizin qazalağa güllə atan kişi Çopur Abdullanın adamıdı...
Mirhadi özündən çıxdı:
– Alə, bəyəm adam öldürmək tum cırtdamaqdı, kefin istəyəni qırıb tökəsən. Sən o əclaf Çopur Abdullaya bir bax e... Balağa, bəs o maştağalı dostun sənə demədi ki, qazalağa güllə atan kimdi?
– O da tanımayıb. Bunu bilin ki, Çopur Abdulla çox alçaq adamdı. Kim onun kürəyini yerə vursa, illər də keçsə, hərləyib-fırlayıb axırı bir gün özünün də gücü çatmasa, başqasının əliylə ondan əvəzini çıxır. Bunun üstündə keçən il xiləli Novruzu Saldat bazarında bıçaqlatdırmadı? Novruz da Həmid kimi onu yıxmışdı. Nə vədə idi ki, yazığın dalınca adam salmışdı. Axır ki, istəyinə nail oldu. İndi Həmid kimi gənc pəlvanın Çopur Abdullanı yıxması onun üçün ölümə bərabərdir. Nardaranda gözüm onda idi. Süfrəyə aş veriləndə elə hey qanlı-qanlı Həmidə baxırdı. Əlacı olsaydı, üstünə atılıb parçalayardı. Çopur Abdulla bu dəfə haqq-hesabı sonraya saxlamayıb, rəqibindən isti-isti intiqam almaq fikrinə düşüb.
Mirhadi odlana-odlana əlini əlinə vurdu:
– Pa atonnan, bu, kimin ağlına gələrdi? Ay Balağa, bəs danışırdılar ki, Çopur Abdullanı səndən savay yıxan olmayıb?
– Düz demirlər, məndən sonra onu xiləli Novruz yıxmışdı. O yazığın vayına oturdular. Mən qalmışam, bacarsaydı məni də aradan götürəcəkdi. Vaxtında duyuq düşüb Çopur Abdullaya qulaqburması verdilər, oturdu yerində.
Mirhadi papağını başına qoydu:
– Mən də o gündən bəri kəlləmi sındırıb axtarıram ki, nöşün bizə güllə atsınlar? Demə, bu o Çopurun işi imiş.
– Ona şübhən olmasın, Mirhadi.
– Ay köpəkoğlu, güləşməyə kişiliyin çatmırsa, adını pəlvan nöş qoyursan? Get, at qaşovla, tövlə kürü, daha bu xainlik nədi?

Həmid qəzəbdən yerində qaynayırdı.

– Mən bilsəydim ki, Çopur Abdulla belə namərddi, onu yerə yıxanda boğardım, birdəfəlik olardı.

Balağa ona nəsihət elədi:

– Sən Çopur Abdullanın tayı deyilsən, Həmid, ona baş qoşma. Ancaq böyük qardaş kimi sənə bir məsləhətim var. Bir müddət Bakıdan çıx get, izin itsin. Yoxsa Çopur Abdulla səni aradan götürməyincə ürəyi soyumayacaq.

– Bakıdan gedim? Hara gedim, Balağa qədeş?

– Elə bir yerə ki, gəlib səni tapmasınlar.

Həmid laqeydlik göstərdi:

– Heç yana gedən deyiləm, əllərindən gələni beş qaba çəksinlər.

Mirhadi Balağaya haqq qazandırdı:

– Balağa düz deyir, Həmid. Əgər Çopur Abdulla səni aradan götürməyi qərara alıbsa, onun adamları günü sabah bura gəlib işlərini görə bilərlər. Hər necə olsa, mənim də sənə qohumluğum çatır. Turab bacımın əridi. Mən də sənə məsləhət görərdim hələlik Bakıdan bir yana çıxıb gedəsən.

Həmid hirsdən yumruqlarını düyünləyib əsə-əsə otaqda vurnuxurdu, özünə yer tapmırdı.

– Axı, hara gedim? Birini bilirsiniz, o birini yox. Mən Bakıdan çıxıb getsəm, anamgili kim saxlayar? Onların qazanc gətirəni mənəm, qərdeşlərimin ikisi də kiçikdi.

Balağa əlini cibinə salıb bir dəstə pul çıxartdı:

– Evdəkilərdən nigaran olma, al bunları, verərsən anana. Bir müddət bəsləridi, ara sakitləşər, qayıdıb gələrsən. O çağacan Allah kərimdi.

Həmid pulu almadı:

– Siz öz pulunuzu mənə nöş verirsiniz?

– Mən bunları sənə öz haqqın kimi verirəm. Bu pulları o gün Nardaranda səninlə güləşmək üçün xozeyin Ağabala vermişdi. Əgər səni yıxsaydım, mənə qalacaqdı. Sənin sayəndə heç-heçə qurtardıq. Xozeyin Ağabala da verdiyini daha geri götürmədi. İndi qanunla bu pulun sahibi sənsən. Al, qoy cibinə. Dar gündə pul çox gərək olur.

Mirhadi Balağanın "sənin sayəndə heç-heçə qurtardı" deməsindən heç nə anlamadı, ürəyində xal qaldı. Həmidə baxa-baxa özünü qınadı: "Bu yetimi oturduğu yerdə oyuna salan mən oldum. Burda azdan-çoxdan qazanıb kasıbçılığını eləyirdi. Apardım Nardarana,



nə var, nə var, gərək mənim yanımda da bir pəlvan olsun. İndi bu yazıq başına haranın külünü töksün, hara çıxıb getsin? Getməsin, bəs neynəsin, qatilin gülləsinə qurban olsun?" O, Balağa stolun üstünə qoyan pullara baxdı. "Bu Balağa nə əliaçıqdı, əslinə qalanda dar gündə Həmidə birinci növbədə mən əl tutmalıyam". Mirhadi ha götür-qoy elədi, hesabladı, ciblərində yetmiş manatdan artıq olmadı. Balağanın bir dəstə pulunun qabağında yetmiş manat çıxarmaq ona ar gəldi.

Mirhadi dedi:

– Balağa qədeş ağayanalıq göstərib sənə pul təklif eləyir, nöş götürmürsən? Götür, ver anangilə xərclik eləsinlər. Mən də burda hərdən pul yazıb göndərərəm evinizə. Anangilin fikrini çəkmə, öz hayına qal, gör başına nə çarə qılırsan.

Mirhadi Balağanın əliaçıqlığı qarşısında yağlı dilini işə salıb çulunu birtəhər sudan çıxartdı. Ancaq arxasız oğlanın yerindən-yurdundan didərgin düşməsində özünü günahkar bildi. Mirhadi Allahdan qorxan idi. Həmişə işi dara düşəndə, ya birinin yanında nə üçünsə özünü təqsirkar biləndə xəlvətə çəkilib cibindən Quranı çıxarır, üç dəfə öpüb gözünün üstünə qoya-qoya deyirdi: "Ya Quran sahibi, bu dəfə də keç günahımdan".

Mirhadi özü ilə danışa-danışa yenə qeyri-ixtiyari əlini cibinə salıb Quranı çıxartdı. O, əlini cibinə aparanda Balağa elə zənn elədi ki, pul çıxarıb Həmidə verəcək. Sonra gördü ki, Mirhadinin əlindəki Qurandır.

Balağa Həmiddən soruşdu:

– Bəlkə, mənim sənə ayrı bir köməyim dəyə bilər, utanma, açıq de.

– Çox sağ olun, Balağa qədeş, siz bu pulları mənə verməklə boynuma böyük minnət qoydunuz.

– Heç bir minnəti yoxdu. Hələlik çıx get bir yana. Ara sakitləşəndən sonra qayıdarsan Bakıya, onda səninlə vacib söhbətim olacaq. Gəlmişdim sənə bunları deməyə.

Balağa Mirhadi və Həmidlə xudahafizləşdi.

– Sağlıqla qalın.

O gedən kimi Mirhadi səsini ucaltdı:

– Alə, bayaqdan hirs boğmuşdu məni, nöş naz eləyirsən? Yaxşı deyiblər ki, kasıb ağılsızlığından kasıb olur. Kişi öz ayağıyla gəlib bura, o qədər pul gətirib sənə, nə çəm-xəm eləyirsən? – Pulları səliqə ilə qatlayıb basdı Həmidin şalvar cibinə. – Götür, apar evə, uşaqlar xərclik eləsinlər, bir sürü külfətsiniz.

O gün Həmid işdən evə həmişəkindən tez qayıtdı.Əhvalatı anasına danışdı. Rübabə arvad başına, dizlərinə döyə-döyə ağladı. Qarğış elədi: "O Çopur Abdulladı, hər nədi, ay onun ciyəri yansın, vayına otursunlar. Hara getsən, onun adamları dalınca gələcəklər. Bunun bir əlacı var, Həmid, uzağa get, lap uzağa. Heç kim yerini bilməsin. Biz cəhənnəmə, birtəhər dolanarıq".

Rübabə axşam əkiz oğlanlarını – İsmayılla Mikayılı qardaşı Turabgilə yolladı. Əkizlər gəlib dedilər ki, dayday işdən gəlməyib, dayıdostu dedi ki, gəlsə hələm-hələbət göndərərəm sizə.

O gecə Turab bacısıgilə gəldi. Rübabə gözlərinin yaşını axıda-axıda əhvalatı qardaşına danışıb dedi:

– Ay Turab, ay atamın əvəzi, mənim səndən ayrı bir həyanım, arxam yoxdu, dadıma çat. Dilim-ağzım qurusun. Əgər Həmidə bir şey olsa, onda mən də ölərəm, qərdeş...

Turab bacısını sakit elədi:

– Rübabə, sən sabah Həmidi evdən bayıra çıxmağa qoyma. Mən səhər görüm mədəndə neynirəm, axşam qayıdaram, danışıb bir əncam çəkərik, darıxma.

Ertəsi gün Həmid nə illah elədisə, gözü qorxmuş Rübabə onu küçəyə çıxmağa qoymadı, dustaq kimi evdə saxladı.Və həyət qapısının cəftəsini bağlamaqla da arxayın olmadı, dalına ling salıb bərkitdi ki, gəlib itələyən, güc eləyən olsa, açılmasın. Özü də keşikçitək həyətbacada dolandı. Həmid anasının həddindən artıq qorxaqlıq göstərməsindən qıcıqlansa da, arvadın könlünə dəymədi, veyil cavanlar kimi otaqda o böyrü, bu böyrü üstə uzanmaqla gündüzü axşam elədi. Turab bacısıgilə hava qaralanda gəldi. Evdə hamı onu səbirsizliklə gözləyirdi. Turab Rübabə ilə əkizlərin yanında danışmadı, uşaqların ağızlarından söz qaçırmasından ehtiyat elədi. Bacısı ilə kiçik otağa keçdi, məsləhətləşdilər. Sonra Həmidi çağırdılar.

Turab bacısı oğluna dedi:

– Həmid, səni Həştərxana göndərməyi qərara almışıq. Orda mənim bir dostum var, sənə öz yanında sığınacaq verər, dalına baxarıq.

Həmid Həştərxanın adını eşitmişdi, ancaq bilmirdi ki, o haradadır.

– Dayday, Həştərxan hardadı?

– Rusiyada. O da Bakı kimi Xəzərin sahilindədi.

– Daydayın o şəhərdə olub, ana qurban. Deyir Həştərxan salamatlıqdı. Sənə dəyib-dolaşan olmaz. Çarəmiz nədi? Get, görək başımıza nə gəlir.



Turab on ikinci ildə siyasi fəaliyyətinə görə həbs edilib Şimala sürgün edilmişdi. Keçən il Rusiyada Şura hökuməti qurulandan sonra dustaqxanadan çıxıb Həştərxana gəlmişdi. Doğma şəhərinə qayıtmaq Turab üçün hələ təhlükəli olsa da, Bakıya partiyanın tapşırığı ilə gəlmişdi. Gizli yolla Həştərxana neft göndərmək işinə başçılıq eləyirdi. Bunu nə arvadı – Mirhadinin bacısı Suğra bilirdi, nə də Rübabə.

Turab bacısını tələsdirdi:

– Rübabə, Həmidin şey-şüyünü hazırla, yoluna nə qoyacaqsansa tez ol, vaxt ikən şəhərdən çıxaq.

– Ay qərdeş, elə indi, axşam-axşam?

– İndi gedək ki, ləngiməyək. Mən Həmidi bələdçilərə tapşırmalıyam, yolumuz uzaqdı. Səhərəcən biz orda olmalıyıq.

Rübabə oğlu üçün dəyişək, azuqə qoyub heybəsini bağladı. Həmidi duz kimi yalayıb gözlərinin yaşını axıda-axıda yola saldı. Həmid əkizləri – Mikayılı, İsmayılı öpüb dayısının dalınca qapıdan çıxdı, o da doluxsunmuşdu. Rübabə oğlunu Quranın altından keçirib arxasınca bir satıl su atdı.

Bakının küləkli sentyabr axşamı idi. Küçələrdən əl-ayaq çəkilmişdi. Həmid heybəsini çiyninə atdı. Dayı, bacıoğlu Quba meydanına yollandılar. Orada bir qazalaq durub gözləyirdi, minib Zığ kəndinə gedəcəkdilər.

* * *

Şəhərdən çıxanda gecədən xeyli keçmişdi. Yolda onları saxlayıb dindirən olmadı. Ancaq Zığ təpələrinin yanından ötəndə haradasa yaxında fit çaldılar. Qazalaqçı nahaq yerə qorxub atı qovdu. Turab da ehtiyat üçün naqanını ayaqda qoydu. Sonra gördülər ki, onları qovan yoxdur...

Şəhərdən gələn qonaqların yolunu gözləyən qoca balıqçı Umur baba onların qabağına çıxdı, evinə apardı.

Umur baba Turabın etibar elədiyi adamlardan idi. Qabaqlar onun oğlu Səlimlə sahildəki bu yoxsul balıqçı komasında çox gecələmişdilər. Səlimi üç il əvvəl mədəndə həbs elədilər. Ertəsi gün Umur babaya xəbər göndərdilər ki, oğlun dindiriləndə silistçinin üstünə atılıb boğmaq istəyib, onu güllə ilə vurublar, gəl meyitini apar. Hamı yaxşı bilirdi ki, bu, polis idarəsinin uydurmasıdır. Səlim belə iş tutmaz.

Cavan inqilabçını özləri öldürüblər. Cinayətin izini ört-basdır eləmək üçün bu sözü çıxarıblar.

Suraxanı fəhlələri Səlimin cənazəsini izdihamla dəfn elədilər.

Turab Umur babanı unutmurdu. Hərdən tək oğlunu – yoxsul komissarın çıraqyandıranını itirən dərdli ataya baş çəkirdi. Umur baba da yeri düşəndə Səlimin yoldaşlarının karına gəlirdi.

Obaşdana az qalırdı. Qonaqlar qızardılmış xəşəm yeyib, üstündən çay içdilər.

Umur kişi Həmiddən də, Turabdan da kürəkli idi. Çal saqqalı onun dolu, mərdanə sifətini daha da enli göstərirdi. İri əlləri vardı, yaşı səksəni haqlasa da, qəddi əyilməmişdi. Çuxasının altından belinə bağladığı toxunma qurşaq qamətini şax saxlayırdı.

Umur kişinin komasından balıq iyi gəlirdi. Xəzri dənizin havasını açıq qapıdan içəri doldururdu. Eyvanın qabağından asılmış köhnə toru külək nənnitək yırğalayırdı.

Qoca balıqçı süfrəni yığışdıranda, Həmid də ona köməklik elədi.

– Gecdir, ay uşaqlar, yatağın.

Umur kişi qonaqların yerini içəridə saldı, özününkünü bayırda – eyvanın başında. Turab içəridə yatmağa razı olmadı, qoca dedi:

– Öyrənmişəm, ay Turab, burnuma dənizin iyi dəyməyəndə gözümə yuxu getmir. Mən ta qar düşənəcən bayırda yatıram.

Həmidlə dayısının yatağı yerdə yanaşı salınmışdı. Turab ona dedi:

– Ananın yanında səninlə ətraflı danışa bilmədim, Rübabə onsuz da qorxub, arvadın bağrı çatlayır. Mən səni Umur kişi, bir də onun kiçik kürəkəni Hənifə ilə Həştərxana yola salacağam. Həştərxanın yolları bağlıdı. Onlar ora qayıqla gizli gedib-gəlirlər. Yolu yaxşı tanıyırlar. Özləri də Həştərxana elə-belə getmirlər, neft aparırlar. İndi orda Şura hökuməti qurulur... Xəzərdə ingilislərin hərbi gəmiləri gecə-gündüz keşik çəkir. Onlar Həştərxana neft aparanları tuturlar. Umur kişi ingilislərdən də bicdi. Ömrü dənizdə keçib. Həştərxana elə yolla gedib-gəlir ki, ingilislər görmürlər. Buna görə də mən səni Umur kişiyə qoşub göndərmək istəyirəm, arxayınam ki, sağ-salamat gedib çıxacaqsınız ora. Şər deməsən, xeyir gəlməz. İşdi, əgər ingilislər sizi görsələr, onların gəmiləri sizin qayığınıza yaxınlaşanacan neft bidonlarını götürüb atarsınız dənizə. Gəlib qayığınızı axtaranda heç nə tapmasalar, sizə bir şey eləyə bilməzlər. Ancaq onlar tülküdən hiyləgərdirlər. Sizə inanmayacaqlar. Hədələyib soruşacaqlar ki, hara



və nədən ötrü gedirsiniz, gərək onda deyəsiniz ki, dənizə balıq ovuna çıxmışıq, qiblənüməmız yoxdu, yolu azmışıq. Bunları Umur kişi sənə başa salacaq, mən də deyirəm ki, yadında möhkəm qalsın.

Həmid sağ böyrü üstə uzanıb dayısına qulaq asırdı. Onun özgə evdə qalmaqdan zəhləsi gedirdi. Həştərxanda tanımadığı, dilini pis bildiyi yad adamların yanında necə qalacaqdı?!

– Evdən, anangildən nigaran qalma, mən onlara bacardığım köməyi eləyəcəyəm. Həştərxanda evində qalacağın Pyotr Anisimoviç mənim ağır günlərimin yoldaşıdı, sadə kişidi, dustaqxanada bir yerdə olmuşuq. Biləndə ki sən mənim bacım oğlusan, əlindən gələn hörməti eləyəcək. Mən sənin barəndə ona özüm məktub yazmadım. Məktubun xatası var, birdən ingilislər yolda qabağınızı kəsib axtarsalar, bu kağız onların əlinə keçsə, sizi incidərlər.

Xoruzlar orda-burda banladı. Umur baba öskürdü, bayırdan dəniz havası ilə içəri tənbəki qoxusu gəldi. Qoca oyaq idi, çubuq çəkirdi.

– Mən özüm bu işdən ötrü hərdən bunlara qoşulub Həştərxana gedirəm. Bəlkə, bu yaxınlarda da getdim, onda gəlib sənə baş çəkərəm. Bunları onunçün deyirəm ki, orda darıxmayasan. Tezliklə yollar açılacaq, gediş-gəliş sərbəst olacaq. Xəzərdə ingilislərin ağalığına çox qalmayıb. Sənin dalınca adam saldıran o Çopur Abdulla kimilərinin də əl-ayağını yığışdıracaqlar. Heyif, indi başım daha vacib işlərə qarışıqdı, yoxsa onu tapıb deyərdim ki, Həmidin başından bircə tük əskik olsa, dərinə saman təpdirərəm.

– Umur kişi ucadan öskürdü. Turab anladı ki, bu adi öskürək deyil. Qoca onlara işarə eləyir ki, daha bəsdir danışdılar, yatsınlar.

– Qocanı da yatmağa qoymuruq, yataq, Həmid.

Həmid dayısından soruşmaq istəyirdi ki, ingilislərin bizim dənizdə nə ölümü var, onlar niyə bura gəliblər. Turab dalını çevirib yorğanına büründü...

## IV

Turab səhər Həmidi Umur kişiyə, Hənifəyə tapşırıb gecə gəldiyi qazalaqla şəhərə qayıtdı.

Hənifə Həmiddən iki dəfə böyük olardı, o da qayınatası kimi balıqçı idi. Həmişə də dişləri ağarırdı. İlk tanışlıqdan Hənifə Həmidin ürəyinə yatdı. Umur kişinin zəhmli baxışları vardı. Qoca elə bil

kimdənsə yanıqlı idi, hirsini üstünə tökməyə adam axtarırdı. Hənifə onunla ehtiramla, pişim-pişimlə rəftar eləyir, arvadının – Umur kişinin qızının dili ilə "əmmə" deyə müraciət edirdi.

O günü Həmid kişilərə qoşulub qayığı səfərə hazırladı, yol üçün xeyli azuqə götürdülər. Umur kişinin eyvanının gün düşən yerində duzlanıb ipə düzülmüş quru xəşəm, çapaq balıqlarından neçəsini ayırıb qayığa qoydular, ehtiyat üçün çörəyi də çox götürdülər. Umur kişi deyirdi ki, çoxun zərəri yoxdu, vay onda ki, çatmaya. O, Hənifəyə inansa da, hər şeyi özü yoxlayıb arxayın olandan sonra qayığa minirdi. Bu dəfə də belə elədi.

Neft dolu bidonların üstünə balıq pulları yapışmış köhnə əzik-üzük həsirlər atdılar. Əgər qayığın içinə diqqətlə baxsaydılar, bilməzdilər həsirin altında gizlədilənlər bidondur.

Axşama yaxın hava tutulmuşdu. Göydə bir dənə də ulduz görünmürdü. Dünən gecədən bəri gülmək nədir, Umur babanın heç dodağı da qaçmırdı. Amma indi birdən-birə qaşqabağı açıldı, göyə baxa-baxa dedi:

– Bu getdi səhərəcən, bizə də o lazımdı.

Qayığı dənizə itələyib, yelkəni açdı. Boz yelkən qabarıb sinəsini küləyin qabağına verdi. Sükanın arxasında Umur baba özü oturmuşdu. Qayığın istiqamətini şimala sarı çevirə-çevirə pıçıldadı: "Bismillahül rəhmanül rəhim".

Xəzri qayığı sürətlə irəli aparırdı.

Bayaqdan orda-burda ağaran ləpələr böyüyür, dalğalara dönürdü, göy üzünü tutan boz buludlar da getdikcə sıxlaşırdı. Umur baba arxasını həsirə dayamış Hənifəyə dedi:

– Yağış yağacaq, bir hovur yubansa, biz islanmamış buralardan uzaqlaşardıq.

Həmid dənizdə yağışa düşməmişdi; islansaydı, dəyişəyi də yox idi. Bidonların üstünə salınmış həsirlərdən də kar aşmazdı, süzgəc kimi deşik-deşik idi, ilmələri aralı vurulmuşdu.

Buludlar sıxlaşsa da, yağış yağmadı; ancaq dəniz sakitləşmirdi. Dalğalar qayığı sağ böyrü üstə əyirdi. Umur baba Hənifə ilə Həmidə dedi ki, sol böyürdə əyləşin, müvazinət düzəlsin. Amma iki nəfərin ağırlığı azlıq elədi, qayıq yenə sağ böyrü üstə irəliləyirdi.

Onlar Abşerondan xeyli aralanmışdılar. Umur baba sükanın dəstəyi əlində dənizin qaralanənginliklərinə baxırdı. Həmid isə üzü üstə



əyilərək qayığın qırağından yapışıb gücü çatdıqca aşağı basırdı, gözü sulara dikilmişdi. Aramsız olaraq qayığa çırpılan dalğaların damcıları onun sifətinə sıçrayırdı.

Həmid dayısına qulaq asıb Həştərxana getməyə razılıq verməsinə peşman idi. Ora gözüyumulu gedirdi. Əgər qayıq sahildən bu qədər aralanmasaydı, Umur babagil Həştərxana neft aparmasaydılar, onlara deyərdi ki, siz allah, qayıdağın geri. Sonra da Azərbaycanın uzaq şəhərlərindən birinə gedib hələlik orada qalardı. Çopur Abdullanın adamları onu axtarmaqdan yorulub axırda oturacaqdılar yerlərində. "Elə yerə gedirəm ki, ordan gəlib evə dəymək də olmaz. Azərbaycan olsaydı, hərdən gecə Bakıya gələrdim".

Umur baba dedi:

– Ay uşaqlar, uzaqda gözümə gəmi dəyir. İngilislərinki olmaya.

Onlar Umur kişinin göstərdiyi səmtə baxdılar. Uzaqda İran sahilləri tərəfdə qaraltı görünürdü. Hənifə qocanın sözünü təsdiq elədi.

– Gəmidi, əmmə. Bəlkə, İran gəmilərindəndi. Bakıya mal aparır, ya da ordan qayıdır.

Həmidin yadına düşdü ki, srağagün onlar Ənzəlidən gələn "Savalan" gəmisinin yükünü boşaldırdılar, bəlkə, bu gəmi elə odu, İrana gedir?! Həmidin bibisinin əri İran Azərbaycanından idi. O, Bakıya Urmiyə mahalından gəlmişdi. Keçən payız Həmidin atası Murtuz öləndən sonra bibisi qardaşının qırxını verib əri ilə İrana köçmüşdü. Bibisinin əri şatır Bilal mehriban kişi idi. Necə Həmidin ağlına gəlməyib Urmiyəyə bibisigilə getsin. "Savalan" gəmisinə əyləşib ora rahatca gedərdi. Bibisi qardaşı uşaqlarını çox istəyirdi, İrandan tanış adamlarla onlara iki dəfə sovqat göndərmişdi.

Umur kişi sükanın dəstəyini Hənifəyə verib onun yerinə keçdi. Qocanın gözü dənizdəki qaraltıda qalmışdı.

– Ay uşaqlar, deyəsən, axı o gəmi bu yana gəlir.

Həmid də baxdı. Qoca düz təyin eləmişdi, qaraltı yaxınlaşırdı.

– Məncə, bu gələn ingilis keşikçi gəmilərindəndi.

Umur kişi neçə kərə Həştərxana gedib-gəlmişdi, hələ bu yollarda ingilislərlə rastlaşmamışdı. Qoca üzünü göyə tutdu:

– Allah, sən bizi xata-baladan uzaq elə...

– Əyər ingilislərdi, heç nə...

Hənifənin gözü qaraltıda qaldı, gəmi onlara sarı gəlirdi.

– Əmmə, bidonları dənizə tökməyək ki?

– Onları suya tökmək asandı, oğul, biz bu havada onunçün dənizə çıxmamışdıq, qoy hələ bir dalına baxaq.

Gəminin qaraltısı getdikcə böyüyürdü. Həmid hiddətlənmişdi: "Yersiz gəldi, yerli qaç, buna deyiblər. Basa-basa dünyanın o başından gəliblər öz dənizimizdə, dədə-baba məskənimizdə üstümüzdə ağalıq eləyirlər, biz də başlamışıq ki, filan vaxt sən məni qurşaq tutanda yıxmısan, necə olsa da mən səndən bunun əvəzini çıxacağam..."

Qayığın on beş, iyirmi metrliyində bir mərmi partladı, suları göyə sovurub ətrafa səpələdi. Heç nə başa düşmədilər, bu nə idi? Umur kişiyə əvvəl belə göründü ki, bu, ildırımdır, çaxır. Onlar özlərinə gəlməmiş bir mərmi də əks tərəfdə suya düşüb partladı. Qoca anladı ki, onlara atəş açırlar.

– Bu, ingilis gəmisidi, bizi topa tutub... Uşaqlar, kömək eləyin yelkəni endirək.

Həmid təəccüb elədi. "Bu qoca qayığı döndərib aradan çıxmaqdansa, yelkəni nöşün endirir?.."

Hənifə də Həmid kimi həyəcanlanmışdı. Lakin Umur kişinin halına təfavüt eləməmişdi. O, əvvəlkitək sakit və təmkinli idi. "Bismillahül rəhmanül rəhim..."

Yelkəni endirəndə bir mərmi də gəlib onların qabağında partladı, qəlpələr vıyıltı ilə lap başlarının üstündən keçdi. Umur kişi cavanlara öyüd verdi:

– Özünüzü itirməyin, ay uşaqlar, avarları götürün, qoymayaq qayıq çevrilsin.

Qoca balıqçı Xəzərdə tufana, qasırğaya çox düşmüşdü, sahildən uzaqlarda ölümlə çox əlbəyaxa olmuşdu, ancaq ona dənizdə topdan atəş açan olmamışdı.

Partlayışdan qorxmuş Hənifə qışqıra-qışqıra dedi:

– Əmmə, bidonları dənizə atmayaq?

Həmid, Umur kişinin cavabını gözləmədən cəld köhnə həsiri bidonların üstündən dartıb qırağa atdı və hazır vəziyyətdə durub qocanın onlara "tez olun, atın" deməsini gözlədi. Gözü ingilislərin gəmisində qalan Umur kişi həsir zərblə dartılanda bir-birinə dəyib dınqıldayan bidonların səsinə dönüb Həmidə tərs-tərs baxdı:

– Neynirsən, a bala? Nöşün tələsirsən, tələsənin oğlu olmaz.

Umur kişi Həmidə daha nəsə dedi. Bu vaxt qayığın aşağı əyilmiş böyrünə çırpılan iri dalğanın damcıları onların üstünə səpəndi. Qocanın sinəsi, saqqalı islandı, çiyninə su çilənən Həmid müvazinətini itirib bidonların yanına yıxıldı.



Yelkəni yığılmış qayıq dalğalar arasında lövbər vura-vura qalxıbendi. Sanki kimsə onun dor ağacını sıyrılmış qılınctək əlində tutmuşdu, sağa-sola endirir, qayığın üstünə şığıyan küləyi yarıb doğrayırdı. İçindəki dolu bidonlar olmasaydı, dalğalar qayığı çoxdan aşırmışdı.

Qayığa atəş açan ingilis gəmisi, xoşbəxtlikdən, onlara yaxınlaşmadı. Yarı yoldan geri dönüb sürətlə uzaqlaşdı və tezliklə uca dalğaların dalında görünməz oldu.

Dəniz zülmətə bürünmüşdü. Qaranlıqda dalğaların hayqırtısı daha da dəhşətli görünürdü. Umur kişi hündürdən dedi:

– Bilirsiniz ingilis gəmisi niyə yaxın gəlmədi? Biz yelkəni endirdik, onlar elə zənn elədilər ki, qayığı vurub aşırdılar, dönüb getdilər.

Həmid indi anladı ki, bayaq nədən ötrü qoca, yelkəni yığdı. "Nə yaxşı ki, Umur kişi onları aldatdı, böyük xatadan qurtardıq. Gəlib nə apardığımızı görsəydilər, bizi sağ buraxmazdılar. Uzaqdan bizi topa tutan yaxında gülləni təpəmizə çaxardı..."

– Mən yelkəni ya təvəkkülə endirdim, düzü, o qədər də ümid eləmirdim ki, ingilislər yarı yoldan qayıdıb gedərlər. Bəxtimiz gətirdi. İnşallah, dalı xeyir olacaq, mənim ehtiyat elədiyim bu köpək oğlanları ingilislərdi. Onlar da belə rədd olub getdilər, bir daş da dallarınca. O yanlara bələdəm, asudəlikdi.

Hənifə barmağını salıb qulağına dolan suyu təmizləyirdi. Kişi ikinci mərminin partlayışından yamanca qorxmuşdu. İkinci mərminin qəlpələri az qala alnını yalamışdı. Cəld tərpənib başını əyməsəydi, kim bilir, nə olmuşdu.

Həmid də qorxmuşdu. Zarafat deyil, mərminin biri qayığa dəysəydi bəs idi, ya onları öldürəcəkdi, ya da bidonlar od tutacaq, taxta qayıq alışacaqdı. Gərək onda üçü də özünü suya ataydı. Sahildən bu qədər uzaqda, tufanlı dənizdə, gecənin bu çağında haçanacan üzmək olardı? Dörd tərəf su idi. Ətrafda ada-filan görünmürdü. Necə mahir üzgüçü olsalar da, axıra kimi tab gətirə bilməzdilər, batıb balıqlara yem olardılar. "Buna deyərlər yağışdan çıxdıq, yağmura düşdük. Mən Çopur Abdullanın təqibindən qaçıram. Burda dənizin ortasında gözüm görə-görə güdaza gedəcəkdim..."

Umur kişi adi günlərdə dənizə balıq ovuna çıxdığı kimi sakit idi:

– Ay uşaqlar, kömək eləyin, yelkəni açım.

Hənifə soruşdu:

– Əminə, tez deyil?

– Yox, ingilislər cinayət eləyib aradan çıxmaqda ustadırlar. Daha buralarda görünməzlər. Siz bu qoca Umura xatircəmliklə bel bağlaya bilərsiniz.

Yelkəni açdılar.

Dalğalar da sanki yad gəmisinin çıxıb getməsini gözləyirdi. Dəniz tədricən sakitləşirdi.

Umur kişi çubuğunu alışdırdı. Qocanın qabağında əyləşən Həmid ona baxırdı. "Bunun heç vecinə də deyil. Bəs mən eşitmişəm ki, qocalar ölümdən qorxurlar?! Boş sözmüş, nədən qorxsun?! Gününü görüb, dövranını sürüb. Mən də o qədər yaşasaydım, heç nədən çəkinməzdim..."

Dəniz sakitləşdikcə, qayıq müvazinətini tarazlaşdırır, sürətini artırırdı.

Uzaqda üfüq işıqlanırdı, səma aydın idi.

## V

Həştərxana gələndən Həmidin boş vaxtları Volqanın sahilində keçirdi. Otururdu çayın qırağında, sakit axan lilli sulara dinməz-söyləməz tamaşa eləyə-eləyə fikirləşirdi.

O, bura gəlməmişdən elə bilirdi Həştərxan da Bakı kimi Xəzərin sahilindədir. Sonra gördü ki, dəniz şəhərdən uzaqdadır. Volqa çayı Həştərxanın içindən axır, gedib tökülür Xəzərə, onun bulanıq suları qarışır dənizin mavi sularına.

Onların evləri Volqanın əlli-altmış metrliyində idi. Onların deyəndə Həmid Həştərxanda qaldığı dəmirçi Pyotr Anisimoviç Qradovun mənzilini nəzərdə tuturdu. Qradovun taxta evi Volqaya paralel uzanan Narodnaya bulvarnaya küçəsində idi. Həmidin axşamüstülər evdən çıxıb Volqanın sahilinə gəlməsi heç ikicə dəqiqə çəkmirdi.

Dördüncü həftə idi ki, Həmid Həştərxanda idi. Umur baba onu burada, körpüdə Qradovu tanıyan yükçülərdən birinə qoşub qoca dəmirçigilə göndərmiş, özü elə həmin günü kürəkəni Hənifə ilə Bakıya qayıtmışdı. Həmid anasının, qardaşlarının xiffətini çəkirdi. Bakı üçün burnunun ucu göynəyirdi. Hələ ötən həftə Pyotr Anisimoviçdən eşitmişdi ki, Turab bu günlərdə Həştərxana gəlməlidir.



Gözləri yolda qalmışdı, dayısı gəlib çıxmırdı. Gəlsəydi, nə yaxşı olardı, bilərdi evdə nə var, nə yox, oralarda salamatlıqdırmı? Bir də ona görə dayısının yolunu gözləyirdi ki, Həştərxana gəlməsinə peşman idi. Turabdan xahiş edəcəkdi, əgər mümkünsə, onu Bakıya qaytarsın, qorxulu olsa da, qoca balıqçı Umur babaya qoşulub o təhlükəli yolu getməyə hazırdı. Burda qala bilmir, darıxır, fikir-xəyaldan bağrı çatlayır.

Həmid Pyotr Anisimoviçdən, onun arvadı Polina İvanovnadan yerdən-göyəcən razı idi. Daha adama nə eləyirdilər?! Kişi ona evində yer verib, işə düzəltmişdi. Həmid gəmi təmiri zavodunun dəmirçi sexində fəhlə idi. Pyotr Anisimoviçin əli altında işləyirdi, pis də qazanmırdı. İş yeri də evlərinin lap böyründə idi, üç tin arası vardı.

İstirahət günü idi. Bu gün Volqanın sahilində balıqçılar, necə deyərlər, dirsək-dirsəyə oturmuşdular, tilovlar çaydan boş çıxmırdı, tuthatut idi. Hərənin yanında filan qədər balıq qalaqlanmışdı, çoxu da hələ diri idi, tərpəşir, yerində atılıb-düşürdü. Həmid kənardan onlara tamaşa eləyirdi. Onun aləmində balıq tutmaq yaxşı əyləncə idi, lakin balığı tilovla yox, tor ilə ovlayaydın. Hər dəfə həvəskarlar tutduğu balıqların ağzında tilovun qırmağını əzab verə-verə güclə dartıb çıxardanda o baxmırdı, üzünü yana çevirirdi. Fikirləşirdi ki, həyatda bir-birinə zidd nə qəribə işlər olur. Birinə sevinc gətirən bir məşğuliyyət, başqası üçün işgəncəyə, bədbəxtliyə dönür. Nədən ötrü?! Olmazmı, bu sevinc hamı üçün eyni dərəcədə olsun, biri o birinin əlində qurban getməsin?! Həmid Çopur Abdullanın hikkəsinin qurbanı olmamaq üçün öz yerini-yurdunu, anasını, qardaşlarını qoyub Həştərxana qaçmışdı. İndi bilmirdi ki, Bakıya haçan qayıdacaq. Dayısı Turab tapşırmışdı ki, hələlik orda qalıb işləyərsən, nə zaman geri qayıtmağını mən özüm sənə deyərəm. Az qalırdı ki, bir ay tamam olsun, dayısından bir xəbər-ətər yox idi. O bəs bura haçan gələcəkdi, haçan ona deyəcəkdi, bacıoğlu, yığış gedək evə?

Böyründə torpağa düşən balığın tappıltısına dönüb baxdı. İri sazan yerdə çapalayırdı, ağırlığı beş-altı girvənkə olardı. Bakıda da bu balıqdan tuturdular, adına da camaat arasında çəki balığı deyirdilər.

– Müsürman qardaş, sən yenə burdasan?

Həmid geri döndü:

– Day neynim, ay Fəttah.

Fəttah tatar idi, Həmidlə gəmi təmiri zavodunun dəmirçi sexində işləyirdi, həm də qonşu idilər. Pyotr Anisimoviçgillə onların evləri

arasında cəmi bircə tin vardı. Fəttah Malaya sadnaya küçəsində olurdu. Malaya sadnaya Narodnaya bulvarnayaya paralel idi. Fəttah Həmiddən beş yaş böyük olsa da, onlarınkı tuturdu, dostlaşmışdılar. Çox zaman Fəttah tatarca danışırdı, Həmid azərbaycanca. Bir-birlərini yaxşıca başa düşürdülər.

– Burda boş-bekar dayanmağın nə faydası, sənə neçə yol demişəm məndə tilov var, qarğı da verim, gəl balıq ovla, onda darıxmazsan. Çəm-xəm eləyirsən.

– Darıxmaq nədi, lap ac qalsam da, əlim gəlməz tilovla balıq tutmağa. O, mənim işim deyil, Fəttah.

– Onda öz bəxtindən küs, müsürman qardaş.

Fəttahın üzü-gözü şişmişdi, belə görünürdü ki, yuxudan təzə durub.

– Sizə getmişdim, Həmid. – dedi. – Polina xaladan öyrəndim ki, burdasan, gəldim səni "Vulkan"a aparmağa, gedək? Fyodr Samarskiyə baxmaqla necəsən?

– Gedərdim. Ancaq uşaqlar danışırlar ki, kluba düşmək müşkül işdi, bilet üstündə qırğındı.

– Gedək, mən bilet taparam.

Ağırlıqqaldıran Fyodr Samarski haçandı ki, Həştərxanın "Vulkan" klubunda çıxış edirdi. Onun əlvan afişaları şəhərin küçələrinə yapışdırılmışdı. Bu afişalardan biri də gəmi təmiri zavodunun divarına gözəgörümlü yerə vurulmuşdu, cavan fəhlələr işə gedəndə, növbədən çıxanda onun qabağına yığılıb mübahisə eləyirdilər. Şəhər sakinləri Samarskinin çıxışlarına böyük maraq göstərirdilər. Görənlər danışırdılar ki, Samarski uzun işdir, qalın dəmiri əyib qolbaq kimi qoluna dolayır, rels altına düzülən enli şalbanı boynuna qoyur, çubuq kimi sındırıb atır, ikipudluqların neçəsini birdən zəncirə keçirib dişlərində saxlayır.

Fəttah Həmidin işdə üç-dörd nəfərin hıqqana-hıqqana qaldırdığı ağır gəmi hissələrini təkbaşına daşımasını çox görmüşdü. Neçə gün idi dad eləyirdi ki, müsürman qardaş, get Samarskiyə tamaşa elə, sən də onun elədiklərini bacararsan. Həmid qulaqardına vururdu.

Sahil yaxınlığındakı köhnə taxta tövlənin divarına da Fyodr Samarskinin afişalarından biri vurulmuşdu. Onlar kluba gedəndə Fəttah yolüstü həmin afişanın qabağında dayandı. Samarskinin göstərdiyi nömrələrin afişadakı şəkillərini Həmidə nişan verib yenə təriflədi.



– Bunlar nədi, Samarski klubda daha çətinlərini eləyir.

Tövlədən gələn qıcqırmış peyin və at sidiyinin iyi adamı uzaqdan vururdu. Həmid təəccüb eləyirdi ki, bu tövləni şəhərin belə gur yerində niyə tikiblər. O, hər gün zavoda gedib qayıdanda tövlənin yanından yeyin-yeyin ötüb keçirdi. Fəttah afişanın qabağında dayanıb Fyodr Samarskinin şəkillərini göstərə-göstərə şirin söhbət açanda Həmid onu dartıb apardı.

– Dayanmağa yer tapdın, gedək, yolda danışarsan.

"Vulkan"ın kassası qarşısında tünlük idi. Fəttah özünü bilet almaq üçün növbəyə duran kişilərin arasına toxuya-toxuya dedi:

– Həmid, sən kənarda dur, gözlə məni.

O, adamları itələyə-itələyə kassanın pəncərəsinə çatdı və növbəsiz bilet alıb basırıqdan tər içində çıxdı. Basabasda pencəyinin düymələri qırılıb düşmüşdü.

Kassa çox tez bağlandı. İçəri düşmək ümidlərini itirənlər gileylənə-gileylənə dağılışdılar.

Fəttah iki bileti qürurla Həmidə göstərdi:

– Gördün?!

Bir kişi Fəttahı tərs-tərs süzüb acıladı:

– Həyasızın biri, növbəsiz bilet almağa heç utanmadın?!

Fəttah ona məhəl qoymadı, biletləri cibinə dürtdü. Həmidə göz elədi ki, mən getdim, sən də gəl dalımca. Tamaşanın başlanmasına az qalırdı, onlar klubun həndəvərində gəzindilər.

– Bilet almağın yaxşıdı, ay Fəttah, növbə pozmağın olmayaydı.

– Növbəyə dursaydım, biz də o adamlar kimi bayırda qalardıq. İndi belədi, müsürman qardaş, asta tərpənən daldan-dala qalır. Dünya quyruqdu yeməyi bacarançun. Qabağa düşən o quyruğu yeyir, daldakı ac qalır.

* * *

Onlar klubdan çıxanda axşamdan xeyli keçmişdi. Fyodr Samarskinin çıxışı Həmidə möcüzə kimi görünürdü, sanki nağıl dünyasına düşmüşdü. Həmid indi bildi ki, Fəttah daşqaldıran Samarskini bica yerə təriflәmir, kişinin şəninə nə qədər gözəl söz deyilsə, layiqdir. "Pəhləvan belə olar. Güclü adam buna deyərəm..." Həmid təəssüf eləyirdi, indiyə kimi niyə gəlib Samarskinin çıxışına bir neçə dəfə

baxmayıb. Bu axşam onu "Vulkan" klubuna gətirdiyi üçün ürəyində Fəttaha "sağ ol" deyirdi.

– Gəlib baxmağına peşman deyilsən ki, müsürman qardaş?

– Bilet ala bilsək, bir də gəlib baxaram.

– O, mənim öhdəmə, sabah bilet almağa tez gedərəm.

– Bu dəfə mən səni qonaq eləyəcəyəm, Fəttah, qoy mən gedim alım.

– Elə şey yoxdu, o, sənin işin deyil, sən qonaqsan, tatarlar qonağı xərcə salan ev sahibinə pis baxırlar.

Belə razılaşdılar, sabahkı tamaşaya da Fəttah bilet alsın.

Həmid bu yaşa gəlmişdi, nə kluba, teatra getmişdi, nə də belə daşoynadan görmüşdü. Bakıda milyonçu Hacı Zeynalabdin Tağıyevin teatrında artistlərin teatr çıxarmasını çox eşitmişdi, amma getməmişdi. Kasıbın teatrda nə azarı vardı. Çörək pullarını güc-bəla ilə tapırdılar. Bir də Həmid hansı əyin-başla teatra gedəydi? Cındırından cin hürkürdü. Camaat teatra geyinib-kecinib gedir. Əcəri paltar geyməsi Həmidə haçansa gördüyü şirin yuxu kimi gəlirdi. Teatra, kluba əylənməyə, şənlənməyə gedirdilər. Onun heç könlü açılırdı ki, yadına tamaşa, konsert də düşəydi?!

Həmid Bakıda tamaşaya baxmışdı. Bir dəfə qonşuluqlarındakı Quba meydanında, küçənin ortasında uzunsaqqallı, arıq, qoca dərviş əsasına söykənərək meydanda gəzinə-gəzinə xoş avazla hansı peyğəmbərinsə başına gələn müsibətdən danışa-danışa özü də ağlayırdı, dinləyiciləri də ağladırdı. O biri dəfə isə hardansa Bakıya gələn qaraçıların ayı oynatmasına baxmışdı. Qırmızı köynəkli qaraçı oğlan zınqırovlu dəfini yeyin-yeyin çalır, balaca ayı ləngər vura-vura atılıb düşürdü. Meydana yığılanlar buna baxıb şaqqanaq çəkərək gülürdülər. Bunlar çoxdan olmuşdu, lap çoxdan, Həmidin atası Murtuz kişinin sağlığında.

Klubda Fəttah yalan olmuşdu, Həmid doğru. Samarskinin göstərdiyi hər nömrəyə Həmid hərarətlə əl çaldıqca yan-yörəsində oturanlar dönüb qımışa-qımışa ona baxmışdılar. Həmid Fyodr Samarskinin hünərinə, cəsarətinə məftun olmuşdu. "Güclü buna deyərəm. Baxanın ağzı açıla qalır. Nə inciyən olur, nə də güləşmədə olan kimi pərt olub, başını aşağı əyərək meydandan çıxan..."

Həmid, Samarskinin çıxışına baxa-baxa Nardaran əhvalatını xatırlamışdı. Çopur Abdulla "Vulkan"da Həmidlə yanaşı oturubmuş kimi



gözlərinin qabağından getmirdi ki, getmirdi. İlahi, onda o basılandan sonra nə kökə düşmüşdü? Həmidin ona rəhmi də gəlirdi, nifrət də eləyirdi. Kişi olan bəndə də öz uğursuzluğu üçün bu cür həyəcan keçirərdimi? Onda Çopur Abdullanın üzünə baxan onu meşədən tutulub qəfəsə salınan ac qurddan ayırmazdı. Əsil pəhləvan da bircə dəfə basılmaqdan ötrü rəqibinin dalınca adam salıb arxadan ona güllə atdırardımı?! Həmid bir yana qalsın, bəlkə, o güllənin biri heç bir günahı olmayan kasıb qazalaqçıya, ya da Mirhadiyə dəyəydi?!

Həmid bu axşam çıxışının axırında Fyodr Samarskinin necə gülə-gülə tamaşaçılardan ayrılmasını unuda bilmir, ona qibtə eləyirdi.

Fəttah yol uzunu onun söhbətinə soyuqqanlıqda qulaq asan Həmiddən soruşdu:

– Müsürman qardaş, Samarskinin elədiklərini sən də eləyə bilərsənmi?

– Bəyəm asan işdi?

– Yəni heç birini eləyə bilməzsən?

– Bir-ikisini bacararam. Qalanları çox çətindi.

– Mənə belə gəlir ki, sən istəsən, onun nömrələrinin çoxunu eləyə bilərsən.

Həmid ehtiyat edə-edə dedi:

– Bəlkə də.

– Bura bax, müsürman qardaş, gəlsənə Samarskinin yanına gedək, o sənin gücünü yoxlasın, görək nə deyir. Gedək?

Fəttah Həmidə onun xəyalından keçəni təklif eləyirdi. Lakin Həmid inanmırdı ki, Samarski onu yoxlamağa razı olsun. Məgər Samarskinin öz işi yox idi ki, onun gücünü yoxlayıb bir söz demək üçün qızıl vaxtını sərf eləyəydi?!

– Ehtiyat eləyirsən ki, Samarski birdən bizə qulaq asmaz?

– Hə.

– Mən onu yola gətirərəm. Nəkarədi boyun qaçırsın. İndi fəhlələr dəbdədi, kimin nə haqqı var onlara etinasızlıq eləsin. Bizim hökumətimiz fəhlə və kəndli hökumətidi. Özü də birinci yerdə fəhlədi, sən də əliqabarlı fəhləsən, qurtardı getdi. Bu işi soraya qoymaq olmaz, bu gün-sabah Samarski Həştərxandan çıxıb gedir. İşarası ustadan icazə alıb "Vulkan"a gedərik. Deyirlər ki, Samarski gündüzlər klubda məşq eləyir.

– İşdən getmək yaxşı deyil axı.

– İcazəni mən alaram. Hələ səninçün ikipudluq da tapacağam, biri bizdə var. Qonşumuzda bir kişi yaşayır, körpüdə qapançıdı. Onda ikipudluq olmamış olmaz, xahiş eləyərəm.

Onlar evə çatanda Həmid dövlətli Kononovun keçmiş mülkünün tinində arıq, balaca bir qadının durduğunu gördü. Fanarın işığında onu Pyotr Anisimoviçin arvadı Polina İvanovnaya bənzətdi. Qadın Həştərxan kremli səmtə baxırdı. Yaxınlaşanda Həmid onu tanıdı. Polina İvanovna idi. Gecənin bu vədəsi o burada niyə dayanmışdı?! Birdən yadına düşdü ki, kluba getməsini nə Pyotr Anisimoviçə deyib, nə də Polina İvanovnaya. Xəcalətdən bir köynək ət tökdü.

– Ay oğul, hardaydın bu çağacan? Nigaran qalmışdıq, ürəyimizə min cürə fikir gəlirdi. Düşündük ki, iraq-iraq, görən oğlanın başında nə qəza var, yad şəhərdə heç yeri tanımır, pyaniskələrə rast gələr, vurub eləyərlər. Pis arvadların toruna düşər, aparıb oğlanı xataya salarlar. Petya dayı bayaqdan iki dəfə "Qafqaz Merkuri" zavodunun həndəvərini dolanıb, bazara tərəf gedib baxıb. Kişi övgar olub, yenə harasa səni axtarmağa getdi...

– Polya xala, "Vulkan"a Samarskiyə baxmağa getmişdik. Həmiddə günah yoxdu, onu kluba mən aparmışdım.

– Getməyinə sözümüz yoxdu, Fəttah, qabaqcadan bizə desin, bilək ki, hara gedib, nigaran qalmayaq.

Həmid xəcalət çəkə-çəkə dedi:

– Bağışlayın, Polya xala, fikrimdən çıxdı, sizə xəbər verim.

Fəttah sağollaşıb tini buruldu. Onlar da evə getdilər. Polina İvanovna Həmidin peşman olduğunu görüb daha ağartmadı, ona şam yeməyi hazırladı. Həmid yenicə otaqda oturub şam eləyirdi ki, Pyotr Anisimoviç yorğun, qanıqara dəhlizə girdi və şüşəbənddə oturan arvadından təlaş içində soruşdu:

– Bəs bu oğlan necə oldu, ay Polya, heç yanda tapmadım, bilmirəm hara gedim, əlac birce milisə qalıb.

– Həmid gəlib, Petya, rahat ol.

Ora-bura qaçmaqdan təntimiş Pyotr Anisimoviçin əzələləri süstləşdi, özünü şüşəbəndin qırağındakı kətilin üstünə saldı.

– Gəlib? Hanı o?

– Otaqda şam eləyir. Fəttahla kluba gediblərmiş, Samarskiyə baxmağa.

– Bəs ona demədin ki, ay bala, belə iş tutmazlar?!



– Petya, hirslənmə, yavaş, oğlan səhvini başa düşüb. Çox dərinə çəkmə, ayıbdı.

Həmid Pyotr Anisimoviçin səsini eşidib şüşəbəndə çıxdı:

– Sizi narahat eləmişəm, çox-çox üzr istəyirəm.

Pyotr Anisimoviç həlimcəsinə onu danladı:

– Bizi başa düş, oğul. Allah eləməmişkən, başına bir iş gəlsə, mən Turaba nə deyərəm, onun üzünə necə baxaram?! Biz dayınla ağır günlərin dostuyuq. Turab sürgündə mənə qardaşlıq eləyib. O olmasaydı, mən çoxdan o dünyalıq olmuşdum. Elə bir dostun qabağında gözükölgəli olmaq mənimçün ölümə bərabərdi. Bəri başdan xəbərdarlıq eləyirəm, əgər istəyirsənsə aramız dəyməsin, onda hara getməyini, nə ilə məşğul olmağını bizə deməlisən.

– Aydındı, Petya dayı.

Onlarda qalanı Pyotr Anisimoviç Həmidlə belə ciddi danışmamışdı. Oğlan qocadan incimədi, təqsiri özündə gördü. "Gəlib onların yerlərini darısqal eləməyim bəs deyil, yazıqları qorxutmuşam da..."

Həmid axşamlar ya Volqanın sahilində olur, ya da evlərinin qənşərində yığışıb maxorka fısqırda-fısqırda domino oynayan qonşu kişilərə tamaşa eləyirdi. Bu axşam Pyotr Anisimoviç də onların arasında idi. Həmid geri dönüb kluba getdiyini ona demədiyinə çox peşman idi.

– Bir də belə olmaz, Petya dayı, – dedi.

Bununla da söhbət qurtardı.

## VI

Həyətin ortasında gavalı, alma ağaclarının arasındakı talaya, torpağın üstünə ikipudluq, üçpudluq daşlar, yoğun zəncir, hərəsi bir metr uzunluğunda qalın dəmir çubuqlar yığılmışdı.

Həmid işdən gəlib bir az dincələndən sonra həyətdə məşq eləyirdi. Pyotr Anisimoviç, Fəttah qıraqda oturub ona baxırdılar.

Həyət xəlvətdi. Polina İvanovna evdə yox idi, kişilərin çörəklərini, xörəklərini verib harasa getmişdi. Onların həyət qonşularının qapısından iri, girvənkə qıfıl asılmışdı. Əvvəllər orada oğlu ilə bir qarı yaşayırdı. Ötən il oğlu cəbhədə həlak olmuşdu, qarı da ağlayasızlaya kəndə, qızının yanına getmişdi, o çağdan qapı bağlı idi. Həyət Pyotr Anisimoviçgilə qalmışdı, əl-ayağa dolaşan yox idi.

Həmid Fəttahla ikinci dəfə Fyodr Samarskiyə baxanda tamaşanın axırında Fəttah onu darta-darta səhnə arxasına apardı. Samarskiyə dedi ki, biz fəhləyik, gəmi təmiri zavodunda işləyirik. Xahiş edirəm, bu oğlanın gücünü yoxlayasınız. Samarski Həmidə dedi ki, gücün çatınca sıx mənim əlimi. Həmid Fyodr Samarskinin əlini ovcuna alıb necə sıxdısa, o gülə-gülə başını tərpədib: "Oho, – dedi, – molodes paren!" Həmin axşam gec olduğu üçün Samarski Həmidi əməlli yoxlaya bilmədi, belə şərtləşdilər ki, o, sabah günorta kluba gəlsin.

Ertəsi gün Həmid sex rəisindən icazə aldı, Fəttaha qoşulub "Vulkan"a getdi. Samarski məşq eləyirdi, onu görüb səhnəyə çağırdı, dedi ki, mənim elədiklərimə diqqətlə fikir ver, sonra sən onları təkrar eləyəcəksən. Fəttah Samarskinin sözlərini Həmidə tərcümə elədi, o da başını tərpətdi ki, anladım. Samarski əvvəlcə hər əlinə bir üçpudluq daş alıb ikisini də eyni vaxtda yavaş-yavaş başı üzərinə qaldırıb saxladı. Bunun ardınca zəncirə keçirilmiş üç ikipudluq daşı dişləri arasında yerdən qaldırdı. Axırda hər başında şar kimi yumru dəmir bərkidilmiş ağır ştanqı çiyninə qaldırdı və ştanqın hər ucundan zorba bir kişi yapışıb sallandı. Həmid Samarskinin göstərdiklərinin hamısını elədi. O, əlini şappıltı ilə Həmidin kürəyinə vurub "Molodes, paren, – dedi, – tı boqatır". Həmidin yaşını soruşdu. On səkkiz olduğunu bilincə gözləri bərəldi, səninlə məşğul olmağa dəyər, dedi, təəssüf ki, mən beş gündən sonra burdan çıxıb Saratova gedirəm. İstəsən səni də özümlə apararam, bir-iki ay mənə kömək edərsən, baxıb çox şey öyrənərsən. Həmid getməyə razı olmadı. Samarski dedi ki, onda nə qədər mən burdayam, hər gün gəl səninlə məşq eləyim. Həmid o gündən gündüzlər kluba gəlib bir-iki saat Samarski ilə məşq elədi, axşamlar onun çıxışlarına baxdı (Samarski qapıçıya tapşırmışdı, Fəttahı da, Həmidi də içəri biletsiz buraxırdılar). Həmid, o beş gündə bir neçə nömrə öyrəndi. Samarski Həştərxandan tez getməsəydi, hələ çox şey öyrənəcəkdi. Axırıncı gün Samarski bir afişanın üstünü yazıb yadigar olaraq Həmidə bağışladı. Yazdı ki, o gün olsun məşhur daşoynadan olasan. Mən buna əminəm, olacaqsan da. Qoy sənin də çox belə afişan çıxsın. Vidalaşanda Fyodr Samarski ərkyana barmağını silkələyə-silkələyə Həmidə tapşırdı ki, bax, mütləq daşoynatmanın dalınca get, sən bu peşə üçün doğulmusan, böyük müvəffəqiyyət qazanarsan. Samarskinin Həmidə axır sözü bu oldu: "S boqom, paren!"



Samarskinin Həmidi tərifləməsinin şahidi olan Fəttah birinin üstünə beşini də qoyub dəmirçi sexində fəhlə yoldaşlarına danışdı. Ağızdan-ağıza söhbət bütün zavoda yayıldı. Həmidi tanımayan da tanıdı. Fəttah ona yoldaşlarının qarşısında çıxış eləməyi məsləhət gördü, lakin Həmid boyun qaçırdı. Fəttah əl çəkmədi, başqalarını öyrədib Həmidin yanına göndərdi. Yenə də razı olmadı. Axırı Pyotr Anisimoviç məsələyə qarışdı. Həmid qocanın sözündən çıxa bilmədi.

On gün idi ki, Həmid axşamüstülər və istirahət günlərində iki, üçpudluqları həyətin ortasındakı talaya töküb məşq eləyir, çıxışa hazırlaşırdı.

Həmid üçpudluqları top kimi atıb-tutmaq nömrəsini məşq edəndə həyət qapısını asta-asta döydülər.

– Qradov, Qradov!

Həmid əl saxladı. Pyotr Anisimoviç qalxıb qapıya getdi. Bir həştərxanlı rus fəhləsi geyim-kecimlərindən qafqazlıya oxşayan iki qoca kişini təqdim edib dedi ki, onlar sizi istəyirlər.

Kişilərin ikisinin də əynində nimdaş çuxa, başlarında papaq vardı. Onlardan biri hündürboylu idi, çiyninə naxışlı xurcun almışdı. Pyotr Anisimoviç qocaları tanımasa da, həyətə dəvət elədi. Onlara bələdçilik eləyən həştərxanlı fəhlə isə qapıdan qayıdıb getdi. Pyotr Anisimoviç nigaran idi, bu kişilər kim idilər, nə üçün onun evini axtarırdılar?!

Gözü qapıda qalan Həmid həyətə girənləri görcək:

– Umur baba! – deyib onlara sarı cumdu.

– Ay oğul, axır ki, səni tapdıq.

Qoca ilə oğlan qucaqlaşdı. Həmid Umur baba ilə gələn kişini tanımırdı. Onunla əl verdi. Fikirləşdi ki, görəsən Hənifə hanı, qoca həmişə kürəkəni ilə səfərə çıxırdı, bu kişi kim idi?

– Bizi gətirib bu evi nişan verən kişinin Allah köməyi olsun. O olmasaydı, gəlib səni tapmazdıq.

– Umur baba, Bakıdan haçan gəlmisiniz?

– Bu gün səhər.

– Turab dayday da sizinlə gəlib?

– Yox, oğul, mən, – Umur baba yanındakı kişiyə işarə elədi, – Qafarla gəlmişəm, heç bu dəfə Hənifəni də götürmədim, yollar əvvəlkindən də xatalıdı.

– Bəs Turab dayday nöş gəlmədi, axı o da gəlməliydi?
– Elə mən ona görə sənin yanına gəlmişəm.
Kənarda dayanıb söhbətə qulaq asan Fəttah və Pyotr Anisimoviç bildilər ki, Bakıdan gələnlər hər kimdisə Həmidə yaxın adamlardır.
Umur baba çiyninə aşırdığı xurcunu yerə qoyub içindən iki kiçik torba çıxartdı.
– Birində möücdü, o birində püskəndə əncil, səninçün gətirmişəm, öz bağımızdandı.
Həmid torbaları daşların yanına qoydu.
– Payınız artıq olsun, Umur baba. – O, Turabdan nigaran idi, heç nə gözünə görünmürdü. – Axı dayday özü nöş gəlməyib, sizi göndərib? Mən onu görmək istəyirdim.
Umur baba Qafar kişiyə sarı döndü. İkisi də mat-mat Həmidin üzünə baxdı. Pyotr Anisimoviç azərbaycanca gedən söhbətin mənasını başa düşməsə də, fikirləşdi ki, Həmidin qonaqlarla həyətdə ayaq üstə danışması yaxşı deyil. Onları otağa dəvət elədi.
– Həmid, camaatı həyətdə niyə saxlamısan, məgər otağımız yoxdu, qalxın yuxarı.
Həmid qabağa düşüb Umur babagili içəri apardı. Pyotr Anisimoviç, Fəttah da gəlib əyləşdi. Dayısının Həştərxana gəlişini intizarla gözləyən Həmid məyus olmuşdu. Bəs o nədən ötrü gəlməyib? Axı Həmidi yola salanda deyirdi ki, Həştərxanda vacib işim var, tezliklə ora gələcəyəm, səninlə görüşərik. Bir aydan çox idi ki, Həmid Həştərxanda idi. Bu çağacan neçə dəfə bura gəlib qayıtmaq olardı.
– Bəs Turab dayday haçan bura gələcək, Umur baba?
Qocanın qalın çal qaşları düyünlənmişdi, qırışlı sifətindən hiss edilirdi ki, nə üçünsə narahatdır. O dönüb Fəttaha baxdı. Pyotr Anisimoviçi süzdü, bir-iki dəfə öskürdü. Həmidin yadına düşdü ki, qonaqları ev sahibi ilə tanış eləməyib.
– Pyotr Anisimoviç, – dedi, – Umur babagil Bakıdan gəliblər, Turab dayımın yoldaşlarıdı.
Pyotr Anisimoviç Turabın adını eşidəndə arxayınlaşdı:
– Turabın yoldaşlarıdır, demək, namuslu, xeyirli adamdılar.
Fəttah da Pyotr Anisimoviçin ardınca qonaqlara əl verdi.
Həmidin ovqatı təlx olmuşdu.
– Umur baba, Turab daydaydan mənə bir söz demədiniz.
– Oğul, özüm də bilmirəm Turabdan sənə nə deyim... İş burasındadı ki, sən Həştərxana gələndən on gün sonra Turab iki nəfərlə



bura yola düşüb. O gedən onlardan bir səs-soraq eşidilməyib. Həştərxandakılar elə güman eləyiblər ki, Bakıdan çıxmayıblar. Bakıdakılar da əvvəl elə biliblər ki, Turabgil Həştərxandadı. Uşaqlar bunu aydınlaşdırmağı mənə həvalə elədilər, məsləhət gördülər ki, bu səfərə mən çıxım. Adətən, ingilislər bizimkiləri tutanda nöütü götürürlər, adamları həbs eləyib aparırlar, qayığı da dənizə atıb gedirlər. Biz bura gələndə dənizə çox göz yetirdik, qayıqdan bir nəm-nişan, əsər-əlamət görmədik.
Yaxşı başa düşmək üçün Umur babaya səylə qulaq asan Fəttah onun dediklərindən anladıqlarını Pyotr Anisimoviçə tərcümə eləyirdi.
Otağa dərin sükut çökmüşdü. Elə bil hamının üstünə su ələnmişdi. Umur baba kirpiklərini qırpmadan stola dayadığı iri, kobud yumruqlarına baxırdı.
Həmidə, onların ailələrinə Murtuzun ölümündən sonra dayısı Turabın yoxa çıxması ikinci zərbə idi. Rübabə bir çətinə düşəndə tez Turabın yanına qaçır, qardaşına pənah aparırdı.
Turaba nə olmuşdu, niyə onun yeri, məkanı bilinmirdi? Qayıqları dənizdə tufana düşüb batmışdımı? Ya Xəzərdə keşik çəkən ingilislərin zavalına gəlmişdilər? Həmid düşünürdü ki, Turabgilin qayığı batmaqdansa, yenə həbs olunması yaxşı idi. Tutulmağın, heç olmasa, ordan sağ çıxmaq ümidi vardı. Qayığın tufana düşüb sularda qərq olması dəhşətli idi... Belə də ola bilərdi, ingilislər onların Həştərxana apardıqları nefti əllərindən alıb, izi itirmək üçün boyunlarına ağır bir şey bağlayıb dənizə atmış, qayığı da topa tutub partlatmışdılar. Bu daha dəhşətli idi.
Həmidin yadında idi. Turab onlara gələndə Rübabə yalvarıb deyirdi ki, ay atam balası, ay bircə dənə qərdeşim, neçə ildi ki, evindən-eşiyindən didərginsən, otur yerində, day heç kəsə qoşulma, dustaqdan, sürgündən təzə qayıtmısan. Dilim-ağzım qurusun, bunun axırı pis qurtarar.
İndi bu nə bədbəxtlik idi?.. Görəsən, Rübabə Turabın itkin düşməsini bilirdimi? Belə işi ondan gizlətmək olmazdı, yəqin xəbəri vardı. "Anamgil necə tək qaldılar".
Umur baba Həmidə dedi:
– Mən ümidimi itirməmişəm, oğul. Turabdan bir xəbər çıxmalıdı. Çox güman ingilislər onları qayıqqarışıq həbs eləyib aparıblar. İngilislər Bakıdan Həştərxana nöüt aparan, ordan silah gətirənləri dənizdə

gündüzün günorta çağı çıraqla axtarırlar. Onları tutublarsa, dindirib buraxa da bilərlər. Bakıda yamanca qarışıqlıqdı. İngilislərin işi yaşdı, öz haylarındadırlar. Camaat deyir ki, bu gün-sabah itilib gedəcəklər öz xarabalarına. Barı, o tünbətün uşaqları tez çıxıb gedəydilər, day millətdə tab-təvan qalmadı.

– Umur baba, Bakıya haçan qayıdırsınız?

– Allah qoysa, sabah səhər.

– Məni də özünüzlə aparın, Umur baba.

– Səni də aparaq?! Nə danışırsan, a tanrı saxlamış, bu fitnə-fəsadda dənizə çıxmaq, o qədər yolu getmək sənə asan gəlir? İndi hər dəfə Bakıdan Həştərxana getmək ölümə bərabərdi. Bizim sağ-salamat qalmağımız kəfəni yırtıb çıxmaq kimidi. Həm də biz qoca kişilərik, başımıza bir qəza gəlsə, dünya dağılmaz. Sən cavan oğlansan, hayıfsan, pamal olarsan, otur yerində.

Həmid Umur babanın məsləhətini eşitmədi.

– Mən qorxmuram.

– Biz səni apara bilmərik, oğul.

– Nöşün, Umur baba?

– Turab tapşırıb ki, yollar açılmayınca, Bakıda əmin-amanlıq olmayınca sən burda qalmalısan. Biz onun sözündən çıxa bilmərik. Bayaq dedim ki, Turabı tapmaq ümidimizi itirməmişik. Çox şey ola bilər. Bəlkə, onlar Həştərxana gedəndə ingilis gəmisinə rast gəlib qayıqlarının ağzını Ənzəliyə, Lənkərana sarı döndəriblər ki, onların zənnini azdırsınlar. Sonra görüblər ki, Həştərxana getmək heç cürə mümkün deyil, Bakıya da qayıtsalar ingilisləri şübhəyə salacaqlar, düz gediblər, indi hardasa İrandadırlar. Ordan Bakıya qayıtmağa imkanları yoxdu.

Həmid sakit olmurdu:

– Umur baba, elə bilməyin ki, mən Turab dayday itkin düşdüyü üçün Bakıya getmək istəyirəm, yox, mən day burda qala bilmərəm. Əgər Turab dayday özü gəlsəydi də, ondan xahiş edəcəydim məni Bakıya aparsın.

Umur babaya elə gəldi ki, Həmidin yeri pis olduğu üçün Bakıya getmək istəyir, Pyotr Anisimoviç otaqda olsa da, üzünə salıb oğlandan soruşdu:

– Olmuya, burda sənə pis baxırlar, nədi?



– Yox, Umur baba, kişidən də, arvadından da çox-çox razıyam, ancaq darıxıram.

– Nə qədər darıxsan da, çarə yoxdu, oğul, döz. Vaxtı çatanda, and olsun Allaha, özüm gəlib səni aparacağam. Bu dəfə bura gələndə rastımıza yenə ingilis gəmisi çıxdı. Quzğun kimi başımızın üstünü aldılar, qayığı axtardılar, bir şey tapmadılar. İy bilən itlər kimi nöüt iyi gələn qayıqda burunlarını çəkə-çəkə bizi hədələyib soruşdular ki, bəs nöüt çəllələri necə oldu, suya atdınız? Dedim ki, ağalar, nə nöüt, nə zad, nöütümüz olsaydı, dəliyik ki, bu dənizə ataq, çırağımıza, ocağımıza töküb yandırardıq. Gecələr qaranlıqda otururuq, yəni nöüt belə gərəksiz şeydi ki, onu dənizə ataq?! Nə isə, axır ki, izal olub çıxıb getdilər.

Həmid təəccüblə Umur babadan soruşdu:

– O qədər yolu bura boş qayıqla gəlmisiniz?

– Nə danışırsan, oğul, başımıza at təpib ki, boş qayıqla bu xatalı səfərə çıxaq? Yenə Həştərxana nöüt gətirmişik. Deyir, dədəm elə bic idi, kündəni sayardı, nənəm ondan bic idi, kündədən kəsərdi. Bu səfər nöüt çəlləklərini qayığın içinə yığmamışdıq, altından zəncirlə asmışdıq, dolu çəlləklər suda idi. İngilislər nöüt iyi bilsələr də ağıllarına gəlmədi ki, biz belə bir biclik işlədərik. Bir şey tapmadılar, nigaran, səksəkə ilə çıxıb getdilər.

Fəttah Umur babanın danışığının məzmununu Pyotr Anisimoviçə tərcümə eləyə-eləyə heyranlıqla qocaya baxırdı. Təhər-töhründən avam müsəlman təsiri bağışlayan Umur baba Fəttahın gözlərində basılmaz cəngavər kimi ucalırdı. Lakin onun Bakı ləhcəsi ilə dediyi bəzi sözləri başa düşmədiyi üçün təəssüflənirdi.

Pyotr Anisimoviç fikirləşirdi ki, qorxulu səfərə çıxan, o uzunluğunda təhlükəli dəniz yolunu qət eləyib Həştərxana şəhər üçün su və hava kimi vacib olan yanacaq gətirən bu iki kişiyə – Umur babaya, onun özütək qoca yoldaşına necə eləsin ki, layiqli bir hörmət göstərsin. O qalxıb sakitcə çıxdı, qonşu otaqda qurdalandı. Qonaq qabağına qoymağa abırlı bir şey axtardı, tapmadı. Fəttah Pyotr Anisimoviçin niyə vurnuxduğunu anlayıb pıçıldadı: "Petya dayı, bizdə at kolbasası var, qaçıb gətirim?" Rusca az-maz bilən Umur baba ev sahibinin əl-ayağa düşməsindən və pıçıldaşmadan anladı ki, məsələ nə yerdədir. Fəttaha azərbaycanca dedi:

– Oğul, nə mən kolbasadı-nədi ondan yeyirəm, nə də yanımda oturan bu Qafar kişi. Ömrümüzdə dilimizə dəyməyib... Heç zəhmət

çəkməyin. Kor deyilik, görürük, buralarda ərzaq qıtlığıdı, bərk aclıqdı. Razı olmarıq ki, bu kişi evində olan bir-iki tikə çörəyi boğazından kəsib bizi qonaq eləsin. Dənən gəlsin bura. – Pyotr Anisimoviç otağa qayıdanda dedi: – Səsed, əsbasiba, ikimiz də quşit eləmişik. Sədis, biz iskori uxodit.

Umur baba mizə dayaqlanıb qalxanda Pyotr Anisimoviçə tapşırdı:

– Petkə kişi, ti bu Həmidi beregi, xəroşi parin Həmid, çox xəroşi.

Pyotr Anisimoviç Umur babanın nə demək istədiyini başa düşürdü.

– Arxayın ol, qoca, – dedi, – xətircəmliklə gedin.

Umur babanın Həmidi Bakıya aparmaqdan imtina eləməsi oğlanın kefini pozmuşdu. Qoca niyə onu aparmırdı? Nə olsun ki, Bakıdan Həştərxana gəlmək çox qorxuludur, ingilislər gözdə-qulaqdadılar. Qoymurlar Həştərxana bir girvənkə də neft aparsınlar. Boş qayıqla Həştərxandan Bakıya getməyə nə var ki? Lap elə ingilislər yolda onların qabağını kəssinlər: Umur babaya, Qafar kişiyə, Həmidə nə deyə bilərlər, onları nədə təqsirləndirərlər?!

– Umur baba, sizdən bir də təvəqqe edirəm, məni də özünüzlə aparın!

– Ay oğul, sözündən bu sayaq çıxır ki, səni Bakıya aparmaq olar, biz qəsdən aparmırıq. Ə tövbə, elə deyil. Əvvələ, bizim bu səfərimiz bura gəldiyimizdən də qorxuludu.

Qayığın içi boş olsa da, çəlləklərə silah-patron doldurub onları zəncirlə altından asacağıq ki, gözə görünməsin. Bu bir, sora deyək elə sağ-salamat, xatasız-filansız gedib Bakıya çıxdıq. Bəyəm bununla məsələ bitir?! Xeyr a, indi Bakıda it yiyəsini tanımır. Hərə özüyçün bir ağadı, xozeyindi. Hər məhəllənin, hər tinin, hər dalanın bir hakimi yaranıb, ağlına gələni edir. İndi səni qaralayan o Qotur Abdulladı, Çopur Abdulladı hər hadisə, elələrinin qılıncının dalı da kəsir, qabağı da. Onlara deyən yoxdu ki, gözünüzün üstündə qaşınız var. Bu hərki-hərkilikdə sənin Bakıya qayıtmağın heç məsləhət deyil. Sözə qulaq as, oğul. Burda zavodda işə düzəlmisən, görürəm qaldığın evdə güzəranın pis keçmir. Allah Petkənin atasına rəhmət eləsin, alıb səni qanadının altına. Buçağacan gözləmisən, bir az da gözlə, sağlıq olsa, mən yenə bura gələcəyəm. Onda danışarıq. Kaş, o çağacan Turabdan da bir xəbər çıxaydı.

Umur baba və Qafar kişi həştərxanlılarla xudahafizləşdi, ən axırda Həmidlə görüşüb həyətə düşdülər. Pyotr Anisimoviç qonaqların tez getməsindən narazı idi:



– Bu heç yaxşı olmadı, bakılı qardaşlar. Oturub əməlli-başlı dincinizi almamış gedirsiniz. Hara tələsirsiniz? Mən danışığınızdan belə anladım ki, sabah səhər yola düşürsünüz... Sabaha kimi nə qədər vaxt var. Gərək qalıb bizimlə şam eləyəydiniz. Həmid də darıxır, sizinlə bir yerdə olardı.

– Biz Həmidlə qalmaq istərdik. İntəhası səhər tezdən dənizə çıxırıq. Qayığı asudəliklə səfərə hazırlamalıyıq. Yükümüz ağırdır. Neynək, o biri dəfə Həştərxana gələndə sizdə çox otürarıq.

Onlar bakılı qonaqları Volqanın sahilinə kimi ötürüb qayıtdılar. Fəttah küçədə Pyotr Anisimoviçlə, Həmidlə sağollaşıb evlərinə getdi.

Hava qaralmışdı. Daha həyətdə məşq eləmək olmazdı. Heç Həmidin də məşq eləməyə həvəsi qalmamışdı. Mənzildən tap-tup gəlirdi. Deyəsən, Polina İnvanovna evə qayıtmışdı. Pyotr Anisimoviç şüşəbəndə qalxdı. Həyətdə qalan Həmid daşları, zənciri, dəmir çubuqları talvarın altına daşıdı.

Bu günə kimi intizarla dayısının yolunu gözləyən Həmidin dərdinin üstünə bir dərd də gəlmişdi. Ailələrinin yeganə pənahı, başıpapaqlısı itkin düşmüşdü. O, bundan sonra kimə arxalanacaqdı, bir çətinə düşəndə gedib dərdini kimə deyəcək, kimdən məsləhət alacaqdı?!

## VII

Həmid gecəyarı ağlaşmaya, səs-küyə diksinib oyandı. Qonşu otağın işığı yanırdı, ağlayan Polina İvanovna idi, ordan ayrı qadın və kişi səsi də gəlirdi. Nə olmuşdu, bu nə şivən idi, Allah eləməmişkən, bir bədbəxt hadisə üz verməmişdi ki? Həmid tez qalxıb geyindi.

Umur babanın Həştərxana, onun yanına gəlib-getməsi bir aydan çox olardı, o çağdan Həmid heç belə şirin yuxuya getməmişdi. Dayısı Turabın itkin düşdüyünü eşidəni o yadından çıxmırdı. Hər gecə yuxusunu qarışdırırdı. Gah görürdü Turab Həştərxana, ona baş çəkməyə gəlib... Onlar Umur babanın qayığında Bakıya qayıdırlar, daha Xəzərdə ingilis gəmiləri meydan sulamır, yollar açılıb. Gah da görürdü ki, yenə Bakıdadır, körpüdə – əvvəlki yerində işləyir...

Bu axşam Həmid elə dərin yuxuya getmişdi ki, mənzildəki qəfil səs-küy olmasaydı, lap səhərin gözü açılana kimi yatardı. O, dünən nahar fasiləsində zavodda yoldaşları qarşısında çıxış etmişdi və çıxışı çox uğurlu keçmişdi. Fəhlələr o qədər əl çalmışdılar ki, Həmid

sevincdən özünü itirmişdi. Həştərxana gələni o, belə sevinməmişdi, nəinki Həştərxana gələni, ağlı kəsəndən dünənki kimi fərəhləndiyi olmamışdı. Sevinc, fərəh nə yaxşı şeymiş... İnsanlar niyə gündə sevinmirlər! Hər gün hamı evində belə şirin yatsaydı, bəyəm dünya dağılardı?!

Tamaşanın axırında yoldaşlarının onu atıb-tutması Həmidin yadından çıxmırdı, çıxmazdı da. Kimsə ona iki daşın arasında hardansa bir dəstə təzə gül tapıb gətirmişdi. Zarafatla ona ləqəb də qoymuşdular: "Həmid Bakinski". Fəhlə yoldaşları deyirdilər ki, daşoynadan Fedya Samara şəhərindəndir. Buna görə Samarski ləqəbini götürüb. Sən də bakılısan, ol Həmid Bakinski.

Həmid bircə saatın içində gəmi təmiri zavodunda məşhur olmuşdu. Hamı ondan danışırdı. Həmidin müvəffəqiyyətinə Fəttah ondan az sevinmirdi. Hamıya da deyirdi ki, mənə təşəkkür eləyin. Həmidi mən üzə çıxarmışam. Lakin fəhlələr Fəttahdan artıq Pyotr Anisimoviçə minnətdarlıq eləyirdilər. O biri sexlərin fəhlələri, tanımadığı kişilər dəstə-dəstə gəlib Həmidin əlini sıxırdılar. Buna necə sevinməyəydi?!

Nahar fasiləsindən sonra Pyotr Anisimoviç Həmidə dedi ki, yorulmusan, istəyirsən get evə, dincəl. Həmid getmədi, əksinə, həmişəkindən də həvəslə işlədi. Gürz əlində oyuncaq kimi idi, onu hər dəfə zindana zərblə vuranda kürədən çıxmış qızmar dəmirin qığılcımları bayram fişənginin qığılcımları kimi ətrafa səpələnirdi...

Həmid şalvarının düymələrini bağladı, köynəyini tələsik geyinib kilkə saçlarını daraya-daraya qonşu otağa diqqət yetirdi. Ara qapının şüşələrindən gördü ki, orda dörd adam var. İkisi kişi, ikisi qadın. Yuxulu gözlərini ovuşdura-ovuşdura bir də baxdı. "Bu vədə gələnlər kimlərdi?! Polya xala niyə ağlayır?.."

Həmid də qapını açıb böyük otağa keçdi, gözləri yaşlı Polina İvanovna əl-ayağa düşmüşdü. Tez-tez içəri girib-çıxır, şüşəbəndi, şkafı, rəfləri araşdırırdı. Otaqda Pyotr Anisimoviçdən başqa, əsgər geyimli cavan oğlan, bir də qızılı saçlı, yaraşıqlı qız əyləşmişdi. Oğlan nimdaş əsgər köynəyi geymişdi. Bir ayağında uzunboğaz çəkmə vardı, o birində şapşap və şapşaplı ayağı pəncədən topuğuna qədər cuna ilə sarınmışdı.

Həmid oğlanla da, qızla da salamlaşdı.

Əsgər oğlan onu təəccüblə süzüb, Pyotr Anisimoviçə tərəf döndü:

– Bu kimdi, ata?



Pyotr Anisimoviç dedi:

– Bu, Həmiddi, oğul, Bakıdan gəlib, evimizin məhrəm adamıdı.

Həmid bildi ki, əsgər ev sahiblərinin oğludur, qız da onun arvadı. Qocaların söhbətlərindən çox eşitmişdi ki, onların yeganə övladı Mişa Qızıl Ordu sıralarında xidmət edir və nə vaxtdır ki, ondan xəbər-ətər yoxdur.

– Petya dayı, Polya xala, gözləriniz aydın!

– Çox sağ ol, ay Həmid. O gün olsun sən evinizə gedəsən.

Polina İvanovna həsrətində olduğu tək oğlunu, birinci dəfə onlara qədəm qoyan gəlinini qonaq eləməyə, kartofdan və duzlu xiyardan başqa, heç nə tapmamasına məyus oldu. "Bilsəydim ki, uşaqlar gələcəklər, gündüzdən hazırlıq görərdim, bazara paltar-pultardan aparıb, dəllallarla ətə, kolbasaya dəyişərdim. Bu vədə neynəmək olar?"

Pyotr Anisimoviç şkafın rəfindən bir şüşə araq çıxartdı. Polina İvanovna əlüstü bir tava kartof qızartdı, turşuya qoyulmuş xiyar gətirdi. Yarım kömbə çörəyi fal-fal doğradı. Mişa da otağın küncünə qoyulmuş əsgər torbasından quru çörək və əl boyda donuz piyi çıxardı. Süfrə hazır olanda Polina İvanovna da gəlib fərəh içində oğlunun böyründə oturdu. Övladının gəlişindən gümrahlanan qarı həsrət dolu gözlərini Mişkaya dikmişdi, bu gecə heç kəs onun kimi sevinmirdi. Bəlkə də, bu gün qarının ömrünün ən gözəl, fərəhli günlərindən biri idi. Həmid bu anlarda Polina İvanovnaya baxıb anası Rübabəni xatırlayırdı. Əslinə qalanda, bura gələndən elə gün olmurdu ki, anasını anmasın. Həmid təsəvvürünə gətirirdi o da belə, Mişa kimi qəfildən Bakıya getsə, evlərində necə toy-bayram olar.

Beş il əvvəl Həmid atası Murtuzla Mərdəkanda Kəblə Ənnağının həyətində su quyusu qazırdı. Bir səhər işə təzəcə başlamışdılar ki, saqqallı bir kişi həyətə girdi. Atasının quyudan verdiyi torpağı çəlləklə çəkib böyrünə boşaldan Həmid elə bildi ki, o dilənçidir, sədəqə almağa gəlib, məhəl qoymadı. Ancaq saqqallı kişi heç kəsə bir söz demədən birbaş şüşəbəndə qalxdı. Onun içəri girməsiylə evdən haray-həşir qopması bir oldu. Həmid elə bildi ki, kimisə öldürdülər. Diksindi, çaşdığından az qaldı ki, ipi əlindən buraxsın, çəlləki atasının başına düşsün. Səs-küyə qulaq asanda ona aydın oldu ki, gələn hər kəssə, Kəblə Ənnağının çox yaxın adamıdır. Bu vaxt ev sahibi çiynində naxışlı Xorasan kürkü gülə-gülə eyvana çıxdı. Nökəri səsləyib, məhəllə qəssabını çağırmağa göndərdi.

Kəblə Ənnağının oğlunun dustaqdan qayıtması xəbərini eşidən qohum-qonşu, tanış-biliş axışıb gəldi onlara gözaydınlığı verməyə. Ev sahibi Murtuza dedi ki, ay usta, bu gün nə qədər işləmisən, bəsdir. Cəmi gedənlər qayıtsın evlərinə, oğlum gəlib, sən də çıx yuxarı, bu əziz gündə bizimlə bir yerdə şadyanalıq elə.

Nökər gonbul bir kişi ilə qayıtdı. Bu ara hardansa bir kök dəvə çəkib gətirdilər həyətə. Kəblə Ənnağının oğlu İbrahim də paltarını dəyişib aşağı düşdü. Boynu zınqırovlu ağcamayanı onun ayaqları altına yıxıb, kəndirlə sarıdılar. Dörd kişi dəvəni saxlamağa kömək etdi. Ağcamayanın iri gözləri dolmuşdu, heyvan duymuşdu onu kəsəcəklər. Məlul-məlul əl-ayağını bərk-bərk tutan kişilərə baxırdı. Dəvə kirpiklərini qırpanda gözlərindən büllur kimi parıldayan iki damcı yaş süzüldü. Həmidin ona ürəyi yandı. Dəvənin ağlaması necə də təsirli olurmuş!.. Ağcamayaya rəhmi gəldi... Kənarda hırıldaya-hırıldaya xəncərinin ağzını bülövə çəkən gonbul qəssaba hirsi tutdu. İxtiyarı çatsaydı, cumub xəncəri onun əlindən alar, dəvəni açıb buraxardı kövşənə.

Qəssab xəncəri dəvənin boğazına aparanda Həmid daha tab gətirmədi, üzünü yana çevirdi, heyvanın şikayətli iniltisini eşidəndə onun kürəkləri arasından üşütmə keçdi, tükləri ürpəşdi... Kimsə qəssaba dedi: “Keç döşünə”. İkinci dəfə dəvənin iniltisi zəif çıxdı. Sonra tamam kəsildi. Həmid bildi ki, ağcamayanın axırına çıxdılar. O bunu da bildi ki, dəvəni iki yerdən kəsirlər, başdan və döşdən. İndi anladı, nəyə görə camaat deyir ki, dəvəni iki yerdən kəsərlər.

Ağcamayanın əti şaqqalanıb daşınana qədər Həmid çönüb o tərəfə baxmadı. O, bu günə kimi belə müdhiş mənzərə görməmişdi. Fikirləşdi ki, nə üçün bir canlının fərəhindən ötrü başqa bir canlı həlak olsun?! Nə üçün birinin ayağı altında dəvə kəsilsin, o birininkində cücə də kəsilməsin. Dünyada niyə belə ədalətsiz işlər olur? Bu nə qanundur, bunları kim yaradıb?!

Həmid o gün Kəblə Ənnağının evində bişirilən dəvə ətindən dilinə də vurmadı. Qatıq içdi, göy-göyərti ilə pendir-çörək yedi. Kişilərin danışığından eşitdi ki, İbrahim on il əvvəl Suraxanıda qumar üstündə bir yoldaşını bıçaqlayıb öldürdüyü üçün Sibirə sürgün olunub. Dəvənin elə bir adamın ayağı altında kəsilməsi Həmidi lap yandırıb-yaxdı.



Həmid gözünün qabağına gətirdi ki, indi o da belə, Mişa kimi qəfildən Bakıya qayıtsa, anası ayağı altında heç sərçə də kəsə bilməz. Polina İvanovna kimi kasıbın olduğundan evdə nə varsa, halal bir süfrə açar. Vallah, elə belə yaxşıdı...

Pyotr Anisimoviç stəkanlara araq süzdü, öz stəkanını əlinə götürüb:

– Gəlin, bunu gözəl görüşlərin, doğma adamların qovuşmasının naminə içəyin, – dedi. – Sağ olun!

Pyotr Anisimoviç də, Mişa da arağı birnəfəsə başına çəkib üstündən duzlu xiyar yedi. Polina İvanovna bir qurtum içdi, ağzını büzə-büzə stəkanı yerə qoydu. Qız da içkini könülsüz ağzına apardı, dodağına vurdu və onu çimçəşə-çimçəşə kənara qoydu. Həmid isə stəkanı götürdü, kişilərinki ilə toqquşdurdu, amma içmədi. Mişa Həmidə irad tutdu:

– Bu olmadı, cavan oğlan, deyilən sağlığa içərlər, sən qadınlara baxma, sağlam oğlansan, bu bədəndə, bu yaşda gərək şüşəni birnəfəsə başına çəkəsən.

Söz Həmidi tutdu, pərt oldu:

– Mən müsürmanam, bizdə içki içmək haramdı.

Pyotr Anisimoviç Həmidi müdafiə elədi:

– Onu qınama, Mişa, müsəlmanlar içmirlər, Məhəmməd qadağan edib.

– Ata, tatarlar da müsəlmandılar, mən onlardan içənlərini çox görmüşəm..

– Qafqaz müsəlmanları içmirlər, oğul.

– Ağızlarının dadını bilmirlər.

Qadınlar – Polina İvanovna və gəlini İrina Mişanın əksinə çıxdılar:

– Ağıllı iş görürlər içmirlər, içənlərin barmaqları bala batıb?

O gecə Qradovlar ailəsi obaşdana kimi oturdu. Ata-oğul şüşədəki arağı boşaltdı. Mişa arvadı İra ilə Petroqraddan gəlmişdi, neçə gün idi ki, yollarda idilər. Danışırdılar ki, Həştərxana gəlib çıxınca it əzabı çəkiblər. Hələ hər yerdə qatarlar cədvəllə işləmir. Parovozlar çatışmır, camaat tökülüb qalıb stansiyalarda. Bir çox şəhər və kəndlərdə isə əksinqilabçı dəstələr dolanışığın qaydaya düşməsinə mane olurlar.

Polina İvanovna beş nəfərə yer salmaqda çətinlik çəkirdi, evdə cəmi üçnəfərlik yorğan-döşəyi vardı. İndiyə kimi qocalar öz yerlərində

yatırdılar, Həmid də onların oğlanlarının çarpayısında. Belə qərara gəldilər ki, cavan ər-arvad Həmidin qaldığı otaqdakı çarpayıda yatsın. Polina İvanovna Həmidə öz otaqlarında yer düzəltdi, o razı olmadı, şüşəbənddəki iri sandığın üstündə yatdı.

O gecə Həmid bura gəldiyi gündən daha çox sıxıldı. Qət elədi ki, səhər Fəttahdan xahiş eləsin, qonşuluqda ona kirayə bir otaq tapsın. "Day mənim bu evdə qalmağım yaramaz. Abır-həya ilə, üzüsulu çıxıb getməliyəm, yazıqlar mənə görə öz evlərində nöş əziyyət çəksinlər?!"

Səhər Həmid yuxudan kal oyandı, daha doğrusu, özü oyanmadı. Pyotr Anisimoviç haraylayıb oyatdı. İşə gedəndə yolda Həmid qocaya dedi:

– Petya dayı, yerdən göyə kimi sizdən razıyam. Polina xala ilə mənə ata-analıq eləyirsiniz...

Pyotr Anisimoviç Həmidin nə üçün heç bir səbəb olmadan birdən onları tərifləməsinin mənasını anlamadı.

– İndiyəcən mənə evinizdə yer verib həyan olmusunuz, çox sağ olun. İndi mən görürəm day sizdə qalmağım evdəkilərə ancaq əziyyət verər. Oğlunuz, gəlininiz gəlib, onsuz da eviniz darısqaldı, nöş mən də sizə bir yük olum. İstəyirəm özümə bir otaq tapım.

Pyotr Anisimoviç dayandı, ondan bir-iki addım irəli çıxan Həmidi tərs-tərs süzdü.

– Sən hıqqana-hıqqana mənə elə bunu demək istəyirdin?! Ay-hay... Həmid, utanmırsan... Biz Polya ilə mehrimizi sənə salmışıq.

Həmid qocanın incidiyini görüb, fikrini ona belə tez deməyinə peşman oldu. "Gərək hələ məsələni açmayaydım. Gözləyəydim, münasib bir otaq tapıb, ora köçəndə deyəydim..."

Pyotr Anisimoviç qaşqabağını sallamışdı:

– Mən səni belə bilməzdim, Həmid. Yəni üç-dörd həftəlik darısqallığa dözə bilməzsən? Evdə təkcə yorğan-döşəyimiz çatmır. Nə çoxdu qonşularda dəniz otu. Polyaya tapşırmışam, axşama kimi düzələcək. Bir də ki, Mişa bura həmişəlik gəlməyib, yaralandığına görə ona bir aylıq məzuniyyət veriblər. Bunun da dörd günü yollarda keçib.

– Petya dayı, mən sizin rahatlığınızçün getmək istəyirdim.

– Əgər istəyirsən biz qocalar rahat olaq, bu fikri başından çıxart.



* * *

Ağır günlərində ona sığınacaq vermiş Pyotr Anisimoviçi incik salmağı Həmid özünə rəva bilmədi, qocaya qoşulub işdən onlara qayıtdı. Nahar fasiləsində bir nəfərdən öyrənmişdi ki, zavodda işləyən, ayrı yerlərdən gələn evsiz fəhlələrdən ötrü ümumi yataqxana var. Gedib o yataqxanada qalardı, ancaq kişi inciyordi. Mişa olmasaydı, o, heç başqa yerə getmək fikrinə düşməzdi. İlk görüşdə Mişanın əda ilə onu atasından soruşması, sonra da araq içmədiyi üçün sancması və nəhayət, hərdən dönüb şübhəli-şübhəli baxması Həmidin fikrindən çıxmırdı. Həmid öz aləmində Mişanın ona qarşı münasibətini belə izah edirdi: cavan və qəşəng arvadı var, istəmir ki, o ailələri ilə heç bir qohumluq əlaqəsi olmayan, tanımadığı gənc oğlanla bir yerdə olsun, bir damın altında yaşasınlar. Bu da çox təbii haldır.

Pyotr Anisimoviçgil həyətə girəndə Mişa arvadı ilə skamyada əyləşib söhbət eləyirdi. Mişa qalxıb yerini atasına vermək istəyəndə İra ərinin dizini basıb qoymadı.

– Sən əyləş, ayağın ağrıyır, mən elə gəzməyə duracaqdım, – dedi. – Gəzməyin mənə xeyri var.

İra həyətdə gəzindi. Pyotr Anisimoviç oturmadı. İçəri getdi, bərk yorulmuşdu. Bu gün onlara təcili bir iş tapşırmışdılar, başlarını qaşımağa vaxtları olmamışdı.

İra da gəlib təzədən yerində əyləşmədi. Mişa Həmidi yanına çağırdı.

Mişanın bu mehribanlığı Həmidə yapışmadı. Dünən gecəki münasibət hara, bu istiqanlılıq hara? Həmidin ürəyinə gəldi ki, gecə onu utandırdığına görə yəqin Polina İvanovna oğlunu məzəmmət eləyib, tapşırıb ki, bir də belə iş tutmasın, yaxşı deyil, qonağa hörmət eləyərlər.

– Qoy İra əyləşsin, Mişa, mən dayanaram.

– Gəl, bura, İraya çox oturmaq yaramaz, həkimlər ona hərəkət eləməyi, gəzməyi məsləhət görürlər.

Həmid Mişanın sözündən bir şey anlamadı, necə yəni həkimlər ona gəzməyi, hərəkət eləməyi məsləhət görürlər. Bu nə xəstəlik idi, İraya nə olub ki, sağ-salamat qızdır, yanaqlarından qan damır. Həmid nigaranlıqla Mişanın arvadına baxanda gördü ki, onun qarnı azacıq böyüyüb, üzünə də kölgəyəbənzər ləkələr düşüb. İndi bildi ki, İra

ikicanlıdır. O, əyninə uzun, topuğuna çatan güllü çit don geymişdi. Bu, İranın hamiləliyini çox büruzə vermirdi. Deməк, yaxınlarda Mişa – ata, Pyotr Anisimoviç – baba olacaqdı, nə yaxşı...

İra Həmidin onun qarnına diqqət yetirdiyini hiss edincə həlimcəsinə gülümsəyib başını aşağı əydi. Həmid öz hərəkətindən utandı, ikinci dəfə Mişa çağıranda gedib onun yanında əyləşdi.

– Belə-belə işlər, bakılı qardaş, mən bilmirdim, sən macəralı oğlansanmış ki... Neynək, sizdə də inqilab qələbə çalar, əliuzunların qollarını qanırıb dallarında möhkəm bağlayarlar. – Mişa ona lap yaxın oturdu. – Mən Rusiyanın çox yerlərində olmuşam, Həmid. Qafqazı görməmişəm. Ancaq Qafqazı Puşkinin, Lermontovun əsərlərindən oxuyub sevmişəm. Onlar Qafqaz torpağını, orda yaşayan millətləri elə məhəbbətlə təsvir eləyiblər ki, Qafqazı görməyən də ona qiyabi vurulur. Puşkinin, Lermontovun əsərlərindən nə oxumusan?

– Heç nə.

– İndiyəcən onların əsərlərini oxumamısan? Çox şey itirmisən, qardaş, bizdə var, götür oxu.

Böyük otaqda küncdə qoyulmuş qarğı rəfə bir yığın qalın kitab düzülmüşdü. Həmid onları görmüşdü, rusca oxuya bilmədiyi üçün məhəl qoymamışdı.

– Mən rusca oxuya bilmirəm, Mişa.

– O, asan işdi. Rus əlifbasında cəmi otuz üç hərf var. Gündə ikisini öyrənsən, on altı günə əlifbanı başa çıxarsan. Cavan oğlansan, zehnin itidi, tez qavrayarsan. – Mişa zarafata saldı. – Buna görə səndən zəhmət haqqı da almarıq, daha nə isteyirsən?!

İra söhbəti eşidib, kişilərin yanına gəldi. Həmid durdu ki, yerini ona versin, qız oturmadı.

– Həmid, əgər əlifbanı öyrənmək meylin varsa, – dedi, – mən sənə öyrədərəm. Mişanın vəd verməsinə baxma, o kəmhövsələdi, adamla məşğul olmağa kirdarı çatmaz.

Mişa bundan incimədi.

– İra, mən "biz" deyəndə elə səni nəzərdə tuturam. Sənin dərs demək qabiliyyətinə söz ola bilməz. Şagird də sözə qulaq asan, sakit oğlandı. Məsələ müsbət həll olundu.

İra Mişanın skamyaya dayadığı çəliyini götürdü, onun girdə ucunu yumşaq torpağa sancıb xırdaca deşiklər aça-aça dedi:



– Həmid, gənc oğlansan, gələcəyin qabaqdadı, öz təhsilin haqqında ciddi düşünməlisən. İndi hamı oxuya bilər, məktəblər, institutlar pulsuz-parasızdı. Mişa sağalandan sonra burdan hərbi məktəbə gedəcək.

Mişa çəliyini arvadından alıb dikəldi, bir yerdə oturmaqdan qıçları keyimişdi. Ayaqlarını tərpədə-tərpədə dedi:

– Bəs sən özün həkimlik oxumağa getməyəcəksən?

– Gedəcəyəm, o sonranın işidi, sağlıq olsa, baxarıq.

Polina İvanovna şüşəbəndin açıq pəncərəsindən həyətə boylanıb Həmidi çağırdı:

– Oğul, niyə gəlib nahar eləmirsən, sən Mişagilə baxma, onlar xörəklərini çoxdan yeyiblər, gəl yuxarı, Petya dayı səni gözləyir.

İra Həmidə dedi:

– Get, naharını elə, dincəl, bu axşamdan səninlə əlifba keçəcəyəm.

Həmid xoş əhvalla şüşəbəndə qalxdı. Pyotr Anisimoviç şüşəbəndin başından kəsilib düzəldilmiş kiçik mətbəxdə vermişel şorbasını qaşıqla qarışdırıb soyudurdu. Həmidin də şorbası boşqabda buğlanırdı. Polina İvanovna onlara suda bişmiş kartof da gətirdi.

– Nuşcanlıqla yeyin.

Həmid şorbadan içə-içə mətbəxdə qurdalanan Polina İvanovnaya baxır, ürəyində bu sakit, qayğıkeş arvada minnətdarlıq eləyirdi. Qarının oğlu ilə onun barəsində danışdığına daha Həmidin şübhəsi qalmamışdı, yoxsa Mişa hardan bilirdi ki, Həmidin başına qəza gəlib, o, "macəralı oğlandı".

* * *

Günorta zavodun qoca nəzarətçisi gəlib Həmidə dedi ki, səni bir nəfər hərbçi soruşur, qapıda dayanıb. "Hərbçi?.." Həmid nigaran qaldı, tanış-bilişlərindən hərbçi yox idi. Yad şəhərdə o tanımadığı hərbçinin nəyinə gərəkdi? Gələn kim idi? Nə istəyirdi?

Həmid qapıya çıxdı. Darvazanın qabağında üzündə sağalmış sızanaqların yeri qalmış, qatran kimi qara saçları və qalın dodaqlarını daha da enli göstərən topa bığı olan şiş papaqlı, nimdaş şinelli bir cavan əsgər gəzinirdi, damağında da qəzet kağızından eşilmiş uzun papiros. Həmid yaxınlaşa-yaxınlaşa əsgərə diqqətlə baxdı. O belə bir kişi tanımırdı.

Əsgər oğlan Həmidi görüncə yeyin-yeyin ona sarı addımladı, təzim eləyib, azərbaycanca, Bakı ləhcəsində xəbər aldı:

– Keçən həftə qəzetdə təriflənən o daşoynadan oğlan sizsiniz?

Əsgərin salamsız-kəlamsız mətləbə keçməsi Həmidin nigaranlığını dağıtdı.

– Hə, mənəm, – dedi, – qəzetdə yazılanlara çox da inanmayın. O məqaləni mənim burda işləyən bir fəhlə yoldaşım yazıb. Tərifdə səxavətini məndən əsirgəməyib.

– Tərifdən xoşunuz gəlmir?

– Yox.

– Siz də mənim rəhmətlik atam demişkən, nahaq naz eləməyin. Tərif hamının xoşuna gəlir. İntəhası bəziləri çəm-xəm eləyir, guya tərifdən zəhləsi gedir. Bu, yalandı. İnciməyin e... bunun lətifəsi sizə gəlməsin, mən elə-belə deyirəm, özümçün.

– Aydındı.

– Mən əsgərəm.

Bu dəfə Həmid onu çərtdi:

– Geyiminizdən görürəm, əsgərsiniz. Onu deməyə də bilərdiniz. Sözünüzü söyləyin, məni niyə çağırtdırmısınız?

Əsgər oğlan ağzını geniş açıb bərkdən şaqqanaq çəkdi:

– Alə, həmşəhərlim, vallah hazırcavab olmağınızdan xoşum gəlir.

– Mən buna çox şadam, əsgər qərdeş.

– Zarafat bir yana dursun, Həmid, mən sizin yanınıza xahişə gəlmişəm.

– Xahişə?

Həmid kim idi və əlində hansı səlahiyyəti vardı ki, ondan nəyisə xahiş eləsinlər, burada kiməsə nədəsə bir köməyi dəysin. Həmid elə bildi ki, oğlan dolayır, onu acılamaq istəyəndə əsgər dedi:

– Məni komissarlarımızla əsgər yoldaşlarım sizin yanınıza göndəriblər, onlar xahiş edirlər ki, gəlib kazarmamızda çıxış eləyəsiniz. Hissəmizdəkilərin hamısı müsürmandı, çoxu da Bakıdandı.

– Burda müsürman əsgərlər var?

– Var da sözdü, bir alay.

– Bir alay?.. Bəs siz burda neynirsiniz?

– Əsgər neynəyər, biz də ondan eləyirik.

– Mən o cür demirəm, soruşuram ki, nöşün basa-basa ordan bura gəlmisiniz? Bizim müsürman əsgərlərinin ayrı şəhərdə nə azarı var? Bəyəm Bakımızda əsgər lazım deyil? Orda aləm bir-birinə qarışıb. İngilislər, nə bilim daha kimlər çəyirtkə kimi dolublar şəhərə. Üstəlik danışırlar ki, Tiflisdən nemislər də Bakıya qoşun çəkməyə hazırlaşırlar. Hələ Xəzəri demirəm. İngilis gəmiləri dənizdə ağa kimi belədən-belə gəzirlər. Siz də yığılıb oturmusunuz burda. Day bu nə əsgərlik oldu?!

Əsgər oğlan gülümsündü, bu, Həmidə yer elədi.

– Mən sizin yerinizdə olsaydım, gülməzdim.

– İşin birini bilirsiniz, o birini yox. Biz Həştərxana öz kefimizdən gəlməmişik... Ölülər elə bilirlər ki, dirilər halva yeyirlər. Biz burda lazımıq, vuruşuruq.

Həmid ağızucu dedi:

– Vuruşuruq!.. Vuruşanlara baxın... Burda kiminlə vuruşursunuz?

– Kiminlə vuruşuruq? Əksinqilabçılarla, ağqvardiyaçılarla. Həştərxanda martın onunda başlanan o hadisələri nə tez yaddan çıxardınız? Əksinqilabçıların qaldırdığı qiyamdan çox keçməyib, əgər onda şəhərdə hərbi hissələr olmasaydı, on səkkizinci ildə Bakı kommunası dağılan kimi Həştərxan da əldən getmişdi. İndi ağlar burda ağalıq eləyirdilər. "Dəmir alay" eşitmisiniz? – Həmiddən səs çıxmadı. – Onu da eşitməmisiniz?! Sizin heç nədən xəbəriniz yoxdu ki... Bax, o dəmir kimi möhkəm "Dəmir alay" – bizim müsürman alayı şəhərdəki ayrı inqilabi hərbi hissələrlə birlikdə əksinqilabçılara, o kontur əclaf uşaqlarına bir toy tutdu ki, gəl görəsən. Bizim alayın əsgərləri körpüdə dayanıb onların qabağını saxladı, düşmənlər şəhərə girə bilmədilər. O biri dəstəmiz də vuruşa-vuruşa irəliləyib əksinqilabçıların iri bir silah anbarını zəbt elədi. Əşşi, hansını deyim, birdi, ikidi bəyəm? Mən çox təəccüb eləyirəm, siz nöşün bunlardan xəbərsizsiniz. Şəhərdə deyildiniz? Sizin zavodun fəhlələri də silah götürüb qiyamı yatırmaqda iştirak edirdilər ki...

Həmid acıqla dedi:

– Onda mən Bakıdaydım. Həştərxana sora gəlmişəm.

– Deyirəm axı. Ehh... Mart qiyamı bizə baha oturdu, üç yoldaşımızı itirdik, altısı yaralandı.

– Bakıda vəziyyət heç də burdakından yaxşı deyil. Həştərxanda əsgər çoxdu; onun keşiyində duran tapılar. Hər ölkənin qoşunu öz torpağında qalsa, başqa yerə soxulmasa, ara belə qarışmaz. Özünüzə umac ova bilmirsiniz, özgəyə əriştə kəsirsiniz. Əvvəl evin içi, sora çölü.

Əsgər oğlan hövsələdən çıxdı:

– Yox, bu olmadı, yoldaş Həmid. Bayaqdan mən sizə moizə oxuyuram?!

– Nöşün acığınız gəlir, düz demirəm? Bəyəm Bakıdan ingilisləri, onları köməyə çağıranları çıxartmaq lazım deyil? Bunu bizim müsürman əsgərləri eləməsə, kim eləyəcək?!

– Onu biz eləməliyik, eləyəcəyik də. Səbriniz olsun, mən sizə dedim ki, biz kefimizdən, xoş günümüzdən Həştərxana gəlməmişik. Bizi əksinqilabçı qüvvələr sıxışdırıb Bakıdan çıxarıblar. Qüvvələr bərabər olmayan yerdə nə eləmək olardı? Fərli silahımız da yox idi ki, onun hesabına davam gətirəydik. Belə vəziyyətdə adamlarımızı qırğına verəydik? Biz Həştərxana çəkildik ki, yaxşıca silahlanaq, qüvvə toplayıb Bakıya hazırlıqlı qayıdaq.

Əsgərin izahı Həmidin ağlına batmırdı, fikrə getmişdi. Oğlan dedi:

– Bizi belə vaxtda Bakıda olmamaqda qınayırsınız, bəs özünüz burda neynirsiniz?

Həmid əsgərin ona belə bir sual verəcəyini gözləyirmiş kimi dedi:

– Təqibdən qaçmışam.

– İnqilabçısınız?

– Yox.

Əsgər gözlərini döyə-döyə Həmidə baxdı:

– Onda sizi nöşün təqib eləyirlər?

– Nə çoxdu Bakıda əclaf adam. Bəyəm ancaq inqilabçıları təqib eləyirlər?!

Həmid əsgər oğlana Nardaran əhvalatını, Bakıdan kimin təqibindən qaçdığını danışmadı. Dayısı Turab ona tapşırmışdı ki, bu barədə heç kimə bir kəlmə deməsin, başını aşağı salıb işini görsün.

Əsgər oğlan Həmidə yaxınlıq göstərib, ona "sən" deməyə başladı:

– Alə, Həmid, bayaqdan səninlə bir kitab söz danışmışıq, işə bir bax. İkimiz də bakılıyıq, ancaq bilmirik ki, hansımız hansı məhəllədə oluruq. Adımı da sənə deməmişəm. Adım Davuddur. Davud Xudaqulu oğlu Nəzərov. Lap Bakının göbəyində oluruq, Quba meydanında. Quba meydanını tanıyırsan?

– Nöşün tanımıram?

– Evimiz bir ağzı meydana açılan Ağakərim dalanındadı. Ağakərim dalanını görmüsən? Məşhur qoçu Ağakərim bizim qonşumuzdu. Buna görə də camaat ona Ağakərim dalanı deyir.



Həmidin qaşqabağı sallandı. Nəyisə yadına salırmış kimi duruxdu. Davud soruşdu:

– Ağakərim dalanını da tanımırsan? Bəs sən necə bakılısan, alə?! Şəhərdə Ağakərim dalanını uşaqdan da xəbər alsan, nişan verər.

– Mən xalis bakılıyam. O dalanı da çox gözəl tanıyıram. Ordan çox keçmişəm. Bizim evimiz Şamaxı yolunda Hacı Hüseynqulu karvansarası var e... onun dal tərəfindədi. Ancaq qoçulardan zəhləm gedir, onların adı yanımda çəkiləndə elə bilirəm ki, məni söyürlər.

Davud ərkyana Həmidin əlindən yapışıb saxladı:

– Sən də mənim tayımsan ki... Atamın goruyçun mənim də qoçulardan zəhləm gedir. Əslinə qalanda onların özlərinin də bir-birini görən gözü yoxdu. – Davud zarafata saldı. – Sənin xətrinçün dəyişdim dalanın adını, inşallah Bakıya qayıdanda qohum-qonşuya tapşıracağam ki, ora Davud dalanı desinlər. Necədi səninçün?!

Həmid gülümsündü.

– Alə, Həmid, zarafat bir yana qalsın, qonşuyuq ki... Aramızda nə yol var ki, bir qarış. – Cibindən tənbəki kisəsini çıxarıb ona da təklif elədi. Həmid dedi ki, çəkmirəm. Davud yenə qəzet kağızından özünə uzun bir papiros eşdi. – Allah ölənlərinə rəhmət eləsin. Atam rəhmətlik papiros çəkənləri görəndə deyərdi ki, ağlı olan da pulunu tütünə verib havaya üfürər? Onların artıq pulları varsa, cana qüvvət verən bir şey alıb qoysunlar ənglərinə, çıxsın rənglərinə. Atam demişkən, indi mən pulumu havaya üfürənlərdənəm. – Papirosu alışdırdı. – Bir məhəllənin uşaqlarıyıq, qəribə işdi ki, nöş səni indiyəcən orda görməmişəm. O tərəfin uşaqlarının hamısı ilə salam-əleyküm var. Gör e... Mən bura yollananda fikirləşirdim ki, əgər Həmid bakılıdırsa, tanış adam çıxacaq. Fikirləşdiyim kimi də oldu. Qədeş, bütün bunlardan sonra mənim sözümü yerə salmağa haqqın yoxdu. Gəl, nəqd eləyək. Bizim kazarmada haçan çıxış eləyirsən?

– Heç haçan.

– Bu olmadı ki... – Davud incik-incik yarısı çəkilmiş papirosuna dərin bir qullab vurub onu yolun qırağına yığılmış daş-kəsək qalağının üstünə vızıldatdı. – Mən boyda kişi sənə ağız açıram.

– Hörmətli Davud, incimə, mən daşoynadan deyiləm. Burda fəhləlik eləyirəm. O gün, zarafat-zarafat, uşaqlar özümüzçün çıxış eləməyi boynuma qoydular. Nə biləydim ki, bunu qəzetə yazacaqlar. Mən gedib sizin kazarmada neynəyim?!

– Burda fəhlə yoldaşlarına göstərdiklərindən eləyərsən. Nə bacarırsan, qəbulumuzdu.

– Bura xəyalın getməsin, öz yoldaşlarımdı. Gedib o qədər əsgərin qabağında biabır olmaq istəmirəm.

İş vaxtı gözətçinin Həmidi çağırıb aparması və onun qapıda ilişib qalması Fəttahı nigaran qoydu. O, Həmidin Bakıdan Həştərxana nə üçün qaçdığını bilirdi. Hər ehtimala qarşı qapıya çıxdı. Onun zavodun qabağında özü kimi cavan bir qızıl əsgərlə danışdığını görüb arxayınlıqla nəfəs aldı və yarı tatarca, yarı azərbaycanca soruşdu:

– Həmid, yoldaşındı?

– Elə yoldaş kimiyik. – Davud Həmidin təqdimini gözləmədi, özü Fəttahla tanış oldu və nə üçün bura gəldiyini deyib şikayətləndi: – Siz bu işdə mənə kömək eləyin.

Fəttah bic tərpəndi:

– O, qızıl əsgərlərçün çıxış eləmək istəmir? Ola bilməz.

– İnanmırsınız, özündən xəbər alın?!

– Mən sizə Həmidin əvəzinə kazarmada çıxış eləməyə söz verirəm. Haçan gələk?

– Lap günü sabah.

– Əsgər qardaş, sabah çox tezdi.

– Onda vaxtını siz deyin.

– Gələn həftə bugünkü gün necə olar?

– Biz razı. Mən gələn həftə araba ilə gələrəm dalınızca, Həmidin şey-şüyünü yükləyərik.

– Hə, yaxşı yadıma saldınız, o çağacan bir qalın şalban da tapın.

– Şalban? Nəyinizə gərəkdi?

– Həmid nömrələrinin birində boynunda şalban sındırır.

– Gözüm üstə, o şalbandan bir nədi, beşini taparam.

Fəttahın qabağa düşüb məsələni müstəqil həll etməsi Həmidin ürəyindən oldu. Fikirləşdi ki, varını verən utanmaz, qızıl əsgərlər də onun zavoddakı fəhlə yoldaşları kimi sadə, aza qane olan insanlardır. Əgər tamaşa zamanı nəyisə pis eləsə, hardasa çaşsa, bunu ona nöqsan saymazlar.

Fəttah Həmidin əvəzindən kazarmada çıxış eləməyə razılıq verməklə bayaqdan bunun fikrini çəkən Davudun dadına çatdı. Davud qorxurdu ki, birdən Həmid yenə kazarmaya getməyə etiraz eləyər, buna görə də saatına baxıb, vaxtının qurtardığını bəhanə gətirərək



tez-tələsik onlarla sağollaşıb getdi. Davud Həmidin yanından məyus qayıtmaq istəmirdi. Bura gələndə komissara, əsgər yoldaşlarına qürrələnə-qürrələnə demişdi ki, Həmidi kazarmada çıxış eləməyə razı salmaq mənim boynuma, siz hazırlığınızı görün.

Davud gedəndən sonra Həmid Fəttaha dedi:

– Elə arxayınlıqla vəd verdin ki, guya sən özün gedəcəksən onların kazarmasına. İndi mən ora getməsəm, neyniyərsən?

– Gedərsən, niyə getmirsən? Sən əvvəl-əvvəl belə yerlərdə, bu sayaq, çox da tələbkar olmayan tamaşaçıların qabağında çıxış eləməlisən ki, yavaş-yavaş camaata, səhnəyə alışasan.

## VIII

Kazarmanın klubu ağzına kimi dolmuşdu. Əsgərlər cərgələrarası keçidlərdə də ayaq üstündə sıx-sıx dayanmışdılar. Qapıdan da neçə qırxılmış baş soxulmuşdu içəri. Hamının gözü səhnədə idi.

Qabaq cərgədəki yerlərdə müsəlman alayının komanda heyəti və Həmidlə bura gələn qonaqlar – Pyotr Anisimoviç, Mişa və Fəttah çiyin-çiyinə əyləşmişdilər. Davud da onların yanında idi.

Qızıl əsgərlər Həmidin göstərdiyi hər nömrəni gurultulu alqışlarla qarşılayırdılar. Bu da ona inam verirdi. Amma yenə də Həmid hərdən dönüb Fəttaha baxırdı, o da ehmalca başını tərpədirdi ki, nigaran qalma, hər şey qaydasınca gedir, elə bu tərzdə də davam etdir. Pyotr Anisimoviç, Mişa arabir yerlərindən deyirdilər: "Molodes, Həmid, molodes".

Davud elə canfəşanlıqla əl çalırdı ki, ovcunun içi hənə çəkilmiş kimi qıpqırmızı qızarmışdı.

Ancaq bu axşam zalda oturanlardan yalnız bir nəfər əl çalmırdı. Sanki o heç canlı deyildi – kimsə boş yeri doldurmaq üçün daşdan yonulmuş əsgər heykəlini gətirib qoymuşdu birinci cərgəyə. Başını ülgüclə təraş etdirmiş, uzunboylu arıq əsgər kirpiklərini qırpmadan Həmidə baxırdı. Baxırdı, ancaq müqəvva kimi dodağı da tərpənmirdi. Heç elə bil həndəvərində əl çalıb, təpiklərini yerə vura-vura Həmidə öz razılıqlarını bildirən tamaşaçıların səs-küyünü də eşitmirdi, qulağı kar idi.

Başıqırxıq əsgər Davuddan üç nəfər o yana oturmuşdu. Bəlkə də, o, ayrı cərgədə otursaydı, Həmidin diqqətini belə cəlb eləməzdi.

O, hər dəfə təzə bir nömrə göstərib qurtarandan sonra tamaşaçılara baş əyəndə mütləq arıq əsgərə baxırdı. Həmid nigaran qalmışdı. Elədiklərinin bircəsi də başıqırxıq əsgərə xoş gəlmirdi, ya o qəsdən əl çalmırdı? Əgər xoşuna gəlmirdisə, onu burda güclə saxlayan yox idi, niyə çıxıb getmirdi? Yerində ayaq üstündə dayananlardan biri əyləşərdi.

Həmid ha çalışırdı ki, başıqırxıq əsgərə baxmasın, bacarmırdı, hər dəfə tamaşaçılara baş əyəndə istər-istəməz baxışları rastlaşırdı. Bu necə adam idi? Həmidə acıq verirdi? Nəyə görə? Onların aralarında nə düşmənçilik, nə ədavət ola bilərdi? Heç Həmid onu tanımırdı, birinci dəfə görürdü.

Həmid çərəklik mıxı yumruğu ilə vurub üç barmaq qalınlığında taxtanın o biri üzündən çıxaranda zaldakıların hamısı ayağa qalxıb onu alqışladı. Arıq əsgər heç yerində qımıldanmırdı da.

Həmidə elə gəlirdi ki, bu başıqırxıq arıq əsgərin laqeyd baxışları sanki "nə olsun, nə böyük hünər eləyirsən?!" deyir. Bəlkə də, onun nədənsə nigarançılığı vardı, nəyinsə intizarını çəkirdi, ya da harasısa ağrıyırdı, öz canının hayında idi. Buna görə də Həmidin tamaşaçılara qeyri-adi görünən, onları heyrətə salan qüvvəsi onu təəccübləndirmirdi. Bəlkə o, kluba gəlmişdi ki, müvəqqəti də olsa, dərdini unutsun; unuda bilmirdi...

Gecənin axırında Həmid boynunda qalın şalban sındıracaqdı. Səhnəyə səkkiz nəfər əsgər çağırdı. Şalban mazutlu idi, boynuna dəsmal saldı. Əsgərlər köməkləşib şalbanı onun çiyninə qoydular. Hamının gözü Həmiddə idi. Zalda səs-səmir kəsilmişdi. Onun işarəsilə əsgərlərin dördü şalbanın sağından, dördü də solundan sallandı. Həmid yerini rahatlayandan sonra qollarını şalbanın üstündən aşırıb güc elədi. Şalban şaqqıldayıb iki bölündü. O, cəld şalbanın parçalarını çiynindən yerə atdı. Alqış səsindən klub lərzəyə gəldi. Həmid səhnənin qabağına çıxdı. Əyilə-əyilə tamaşaçılara minnətdarlıq elədi.

İndiyəcən Həmidə laqeydliklə tamaşa eləyən arıq əsgər bu dəfə hamıya qoşulub ayağa qalxdı. Lakin o, hamı kimi əl çalmırdı, ağzını yanındakı əsgərin qulağına dayayıb nəsə deyirdi. Həmid düşündü: "Görəsən, o, yanındakına nə pıçıldayır?!" Bu vaxt səhnədəki əsgərlərin biri Həmidin hələ də boynunda qalan dəsmalı götürdü. Dəsmal qana bulaşmışdı, Həmid heç bir yerində ağrı hiss eləmirdi. Bu, nə qan idi? Səhnədəki əsgərlər onu araya aldılar. Həmid arxaya qanrılanda



kürəyi sancdı. İndi bildi ki, yaralanıb. Əsgər oğlan dəsmalı yaranın üstünə basdı. Tamaşaçılar Həmidin yaralanmasından xəbər tutub səhnəyə doluşmaq istəyəndə komissar onların qabağını kəsdi, özü yuxarı qalxdı, onun dalınca Pyotr Anisimoviç, Mişa, Davud, Fəttah da səhnəyə çıxdılar.

Şalbanın iti tilişkosi Həmidin kürəyinin yuxarısını çeçələ barmaq boyda yarmışdı. Zaldakılar bir-birinə dəydilər. Həmidi səhnənin arxaya açılan qapısından alayın tibb məntəqəsinə apardılar. Ağ saçları səliqə ilə arxaya daranmış hərbi feldşer spirtlə yaranı təmizlədi:

– Qolubçik, – dedi, – heç narahat olma. Bu saat yaranı sarıyaram, qurtarıb gedər, ancaq gərək dözəsən, yaranı tikməliyəm, tikməsəm, gec bitişər.

Bayaq isti-isti yaralanmağını hiss eləməyən Həmid getdikcə ağrıdan kürəyini əyə bilmirdi.

– Doktor, nə lazımdırsa, eləyin, məndən soruşmayın.

– Əvvələ, mən doktor deyiləm, feldşerəm, ona görə sənə qabaqcadan xəbərdarlıq eləyirəm ki, yaranı tikəndə incidəcək, o yana-bu yana dönüb mane olmayasan.

Feldşer yaranı tikməyə hazırlıq görə-görə Həmidlə tibb məntəqəsinə gələnlərdən bayıra çıxmağı xahiş elədi. İçəridə komissarla Davud qaldı. Qoca feldşer yaraya tikiş vurub Həmidin kürəyini çalınçarpaz sarıdı.

Sarğı otağının arxasında xırdaca bir otaq da vardı. Həmid ora keçdi. Feldşer onun köynəyini geyindiyini görüb dedi:

– Cavan oğlan, niyə geyinirsən, uzağa getməyəcəksən, otaq burdadı, onsuz da soyunacaqsan. – Üzbəüzdəki qapını göstərdi. – Keç çarpayılardan hansı ürəyinə yatırsa uzan, paltarlarını mən gətirərəm.

Həmid köynəyini geyib, pencəyini götürəndə feldşer əllərini belinə qoyub soruşdu:

– Qolubçik, mən səninlə deyiləm? Geyinmə, hələlik burda qalacaqsan.

– Yaramı sarımısınız çox sağ olun, daha burda nöş qalım, bəyəm qurtarmadı?!

Qoca feldşer xırdaca, dördkünc bığını tumarlaya-tumarlaya çox ciddi və amiranə bir ifadə ilə dedi:

– Səni bu vəziyyətdə evə buraxmaq yaramaz. Şalbandan qanına infeksiya düşə bilər, qızdırman olar. Çox yox, bir-iki gün burda qal,

gözüm üstündə olsun, neday boq, yara fəsad eləsə, sənə təcili yardım göstərməliyəm.

Həmid köynəyini soyunmaq əvəzinə pencəyini geyib düymələrini də bağladı.

– Doktor, mənim canım it canı kimidi, yaranın bir xatası çıxmaz.

Həmidin sözə qulaq asmaması feldşerə toxundu, əsəbiliklə pensnesini çıxarıb, təzədən gözünə taxdı və onu qeyzlə süzə-süzə dedi:

– Cavan oğlan, mən sənin yerində olsaydım, böyüyün sözünü yerə salmazdım.

– Mən böyüyə kəmetinalıq eləmirəm, doktor. İstəmirəm burda bir çarpayını tutum. Sizi tamamilə arxayın edirəm ki, qızdırmam olmayacaq.

Davud çox istəyirdi ki, Həmid alayın tibb məntəqəsində qalsın.

– Hara gedirsən, – dedi, – burda sənə pis keçməz, yemək-içməyini verəcəklər, doyunca yatacaqsan özünçün. Qal, mən də yanında olacağam.

– Yox, Davud, gedirəm.

Feldşer ümidli idi ki, komissar Həmidə öyüd-nəsihət verəcək. Əksinə o, Həmidin tərəfini saxladı:

– Heç nə olmaz, qoy getsin, Mirzə Vahid, evdə özünü pis hiss eləsə, gələr bura.

– Yoldaş komissar, mən onun yaxşılığı üçün deyirəm. Kim bilir, uşaqlar şalbanı hansı küllükdən tapıb gətiriblər. İşdi, yaraya mikrob düşsə, nəticəsi pis olar. Otuz ilin feldşeriyəm. Canının möhkəmliyinə güvənib, sonradan özünü işə salanları az görməmişəm. Hər şey nazikliyindən sınsa, insan yoğunluğundan sınar. Mən bu cavan oğlana xəbərdarlıq eləyirəm, sözə qulaq asmır. Qalmırsa, onda şərtləşək. Mütləq hər gün bura yarasını sarıtmağa gəlsin. Həm də yara bitişəndə onun tikişini sökməliyəm.

– Gələrəm, doktor.

Çal, seyrək saçları uzanıb boynunun ardına tökülən Mirzə Vahid Şuşinski təhər-töhüründən alimə oxşayırdı. Buna görə də alayın döyüşçüləri öz aralarında onun adını professor qoymuşdular. Doğma şəhəri Şuşadan gəncliyində çıxan, Yaltada evlənib, orada da işləyən Mirzə Vahid Şuşinski ana dilini unutmamışdı, döyüşçülərlə şirin Qarabağ ləhcəsi ilə danışırdı.



Qoca qayda-qanun əsiri idi, komissar olmasaydı, Həmidi tibb məntəqəsindən belə tez buraxmazdı.

Həmid getdi, ancaq bilmədi ki, bu gedişlə Mirzə Vahidin dincliyini də özü ilə bərabər aparır.

Kazarmanın həyətində, tibb məntəqəsinin qabağında klubdakı tamaşaçıların sayından çox qızıl əsgər yığılmışdı. Fəttah, Pyotr Anisimoviç, Mişa divar dibində durub gözləyirdi. Davud ev sahibi kimi qonağı müşayiət edirdi. Əsgərlər içəridən çıxan Həmidi görüncə pıçıldaşdılar:

– Sizə demədim ki, dərd eləməyin, Həmid dəmir kimi oğlandı, ona bir şey olmaz.

– Görünməyən iş, nə əcəb Şuşinski Həmidi ordan belə tez buraxıb?

– Hə, balam təəccüblüdü...

– Amma yara iridi ha... Gördün Həmidin pencəyinin kürəyi necə qalxıb?! Tənzifin bu qıt vaxtında Şuşinski xırdaca yaranı elə sarımazdı.

– Şuşinskiyə tabe olsaydı, Həmidi tibb məntəqəsində azı iki-üç gün saxlayardı. Orda xəstə olmayanda qoca darıxır.

Pyotr Anisimoviç Həmidin qabağına gedib nigaranlıqla halını soruşdu. Fəttah da, Mişa da onu dövrəyə aldılar. Yarası bərk göynəyirdi, onlardan gizlətdi:

– Nə yarabazlıqdı, əşşi, boynumun dalı balaca cızılıb. Dəvəyə bir çimdik neynər?

Davud Mirzə Vahiddən gileyləndi:

– Bizim feldşerin köhnə şakəridi. Barmağına tikan da batsa, əlinə düşdün, buraxan deyil...

Başı ülgüclə təraş edilmiş uzunboylu, qaradinməz oğlan Həmidin yadından çıxmırdı. Hərbi geyimdə bir-birinə oxşayan qızıl əsgərlərə çox baxdı. O, gözünə dəymədi... Bəlkə də həyətdə lap yaxın bir yerdə durmuşdu, yenə Həmidə baxırdı, boyu gödək olduğuna görə əsgərlərin arasından görünmürdü. Həmid çox istəyirdi ki, arıq əsgəri bir də görsün. Onu Davuda nişan verib necə adam olduğunu soruşsun. Gözü ilə həyətdə çox axtardı, tapmadı.

Alayın komandirləri, döyüşçülər Həmidgili bura gəldikləri furqona əyləşdirib, razılıq eləyə-eləyə yola saldılar.

Başıqırxıq əsgərin buz tək soyuq, donmuş sifəti Həmidin gözləri qabağından getmirdi...

* * *

Həmid arxası üstündə yata bilmirdi, kürəyi döşəyə dəyəndə yarası zoqquldayırdı, tez-tez yerində çevrikirdi. Qarışıq fikirlər də bir yandan onun kirpiklərini qovuşmağa qoymurdu. Kazarmanın klubunda birinci sırada əyləşən başı ülgüclə qırxılmış o arıq əsgər hələ də yalından çıxmırdı.

Hamı yatmışdı. Otaqlar da qaranlıq idi, həyət də. Gecə birdənbirə göyün üzünə qara buludlar pərdə çəkmiş, şıdırğı yağış tökmüşdü. Yağış tezliklə kəsilsə də, göyün üzü hələ açılmamışdı.

Şüşəbəndin pəncərəsinin bir tayı aralı idi, sərin meh əsirdi. Həmid üzü pəncərəyə sarı uzanmışdı. Gözü həyətdə idi. Bayırda sakitlik idi. Hardasa sahil tərəfdən hərdən qarğa qarıltısına oxşayan səslər gəlirdi. Qaranlıqda uzunsov həyət onun gözünə kazarmanın klubu kimi, ağaclar isə sıx-sıx oturan tamaşaçılar kimi görünürdü. Bu, yuxu idimi?! Ayıq ola-ola o, yuxumu görürdü?! Qəribə bir hal keçirirdi, sanki müsəlman alayının əsgərləri qarşısında yenidən çıxış edirdi. Özü də birinci sırada əyləşib Həmidin müvəffəqiyyətlərinə laqeydliklə tamaşa eləyən başı ülgüclə qırxılmış o arıq əsgər yox, qarabığlı, çopur sifətli pəzəvəng bir kişi idi. Və bu kişi Çopur Abdulla idi, qəsdən gəlib oturmuşdu birinci sırada. Hərdən ona ucadan deyirdi ki, əlimdən heç yana qaça bilməzsən. Hara getsən də, gəlib səni tapacağam. Mən düşmənlərimi bağışlamıram.

Çopur Abdullanın bu hədəsini orada Həmiddən savayı, heç kəs eşitmirdi.

Həmidin gözlərinin qabağı tor gətirdi, kirpiklərini qırpıb qabaq sırada əyləşən kişiyə bir də baxdı. “Yox, səhv eləmirəm”. Çopur Abdulla özü idi. Qaranlıqda, yüz adamın arasında o, aydın seçilirdi. Əynində qara kostyum vardı, başına sür papaq qoymuşdu. Çopur Abdulla bura necə düşmüşdü? Hərbi xidmətlə heç bir əlaqəsi olmayan şəxsi kazarmaya nə üçün buraxmışdılar?..

Hər nömrədən sonra tamaşaçılar Həmidə əl çalanda Çopur Abdulla qəzəbdən bığlarını çeynəyirdi. Özü əl çalması bir yana qalsın, hələ bir Həmidi alqışlayanlara acığı da tuturdu. Yan-yörəsində oturanlara açıq-aşkar acıqlanmağa cəsarət eləyə bilmədiyindən içəridən yanıb-yaxılırdı.

Həmid yumruğu ilə gözlərini ovuşdurdu. “Bu nədi mən görürəm, axı qabaq sırada başı ülgüclə qırxıq, arıq bir əsgər oturmuşdu. Bəs o,



hara getdi? Çopur Abdulla haçan gəlib onun yerində oturdu, görmədim? Məni qara basır, nədi?” Həmid qalxıb əyləşdi. Ehtiyatsız hərəkət etdiyi üçün yarası bərk ağrıdı. Gözlərini ovuşdura-ovuşdura həyətə baxdı. Nə kazarma, nə klub, nə tamaşaçılar... Qarşısında qaranlıq həyət və tanıdığı ağaclar idi, lənət şeytana!

Həmid təzədən uzandı.

Qonşu otaqda Pyotr Anisimoviçin öskürəyi eşidildi. Qoca həmişə gecələr öskürürdü.

Həmid qarabasma barəsində çox eşitmişdi, lakin o vaxt bunu təsvvürünə gətirə bilmirdi, düşünürdü ki, oturduğu yerdə insanı necə qara basa bilər?! Bir də bu qarabasma nə olan iş idi? İndi Həmid o zaman qarabasmaya nahaqdan gülməli bir uydurma kimi baxdığını etiraf etməyə məcbur idi. Axı nə səbəbə görə oyaq ola-ola Pyotr Anisimoviçin həyəti ona kazarmadakı zal kimi görünsün?! Bəs Çopur Abdulla məsələsi nə idi?!

Həmidin yuxusu qaçdı. Geyinib ehmalca həyətə düşdü. Bir müddət pilləkənin ala-nəm sürahisinə söykənib dayandı. Həmid həyətdə seyrək əkilmiş gavalı və alma ağaclarına xeyli baxdı. Bu ağacların onun gözünə insan kimi görünməsi qəribə idi. O bilə-bilə ki, həyətdə qaralan ağaclardır, yenə də özünə inanmayıb həyətə düşdü, ağacların arasında gəzdi. Taxta darvazaya baxdı. Darvazanın dalına həmişə olduğu kimi qalın dirək salınmışdı. Qapını küçədən sındırmasaydılar, açılmazdı. “Mən qapının bağlı olmasını nöşün yoxlayıram?” Həmid həyətə düşməsinin, qapının bağlı olub-olmadığını yoxlamasının lüzumsuz olduğunu boynuna almağa çəkinirdi. Özü də dərk edirdi ki, bunları ona elətdirən daxilində baş qaldıran gözəgörünməz bir qüvvədir və bu qüvvənin hökmü ilə yatağından qalxaraq həyətə düşüb.

Həmid qayıdıb yenə pilləkəndə dayandı. İçəridən ayaq tappıltısı eşidildi. Gələn kim idi? O, Həmidi həyətdə görüb soruşmazdı ki, gecənin bu vaxtı qulyabanı kimi bayırda niyə dayanmısan, niyə gedib yatmırsan? Təzədən yerinə qayıdıb özünü yuxuluğa vurmaq da gec idi və heç lazım da deyildi. Həmid onu gözlədi.

Bayıra çıxan Pyotr Anisimoviç idi. Qoca, Həmidin sürahiyə söykənib durduğunu görüncə təəccüblə soruşdu:

– Oğul, bu vədə burda niyə dayanmısan?

– Yuxum gəlmir, Petya dayı.

– Yaran ağrıyır, səni yatmağa qoymur?

– Yox, gördüm day yata bilmirəm, fikirləşdim ki, təmiz havada olmağım sərfəlidi.

Pyotr Anisimoviç subaşına getdi. Həmid bayaq keçirdiyi əcaib hisslərdən indi tamamilə uzaqlaşmışdı. Bir az əvvəl gözlərinin qabağına gələn o qəribə səhnələr indi onun özünə gülünc görünürdü. Bunu gedib bir başqasına danışsaydı, elə güman eləyərdi ki, onun başına hava gəlib. Həmid belə qərara gəldi ki, gecəyarı onu qarabasmasını heç kimə danışmasın.

O, Pyotr Anisimoviçin şüşəbəndə qaxmasını gözləmədi, gedib uzandı, gözlərini də bərk-bərk yumdu ki, bəlkə, yata bilə. Qoca da geri dönəndə Həmidi yerinə uzanan görüb, ondan heç nə soruşmadı.

Külək yatmışdı. Daha meh həyətdəki ağacların yarpaqlarını tərpətmirdi.

Hava elə işıqlanmasa da, Həmid indi həyətdə ağacları, qonşu ilə onların evlərinin arasındakı barını seçirdi. Bəs necə olmuşdu ki, bir az əvvəl o bunları ayrı şəkildə görmüşdü? Mehdən titrəyən yarpaqlar hara, bir-birinə dəyən əllər hara? Axı gündə neçə dəfə girib-çıxdığı həyət nədən ötrü onun gözündə dönüb kazarma zalı kimi olaydı? Bunlar heç müqayisəyə də gəlməzdilər...

Getdikcə həyətdə hər şey, hər yer daha aydın seçilməyə başladı. Axşam onlar kazarmadan qayıdanda Davudun həyətə – qapının yanında divar dibinə yığdığı ikipudluqlar elə oradaca yağışın altında qalmışdı. Daşları talvarın altına daşımaq yadından çıxmışdı.

Bundan sonra Həmidin yuxusu gəlsəydi də, yatmağın mənası yox idi, qalxıb həyətə çıxdı. Hər əlinə bir ikipudluq götürdü, yarası daha onu incitmirdi. Daşları talvarın altına daşıdı və paslanmasın deyə, cında ilə silib quruldadı, sonra gəlib təzədən yerinə uzandı.

Pyotr Anisimoviç işə getməyə hazırlaşanda, o da qalxdı geyinsin. Polina İvanovna soruşdu:

– Oğul, sən niyə geyinirsən?

– İşə gedirəm.

– Yaralı-yaralı nə vacibdi?

Pyotr Anisimoviç artırmada uzunboğaz ayaqqabılarını geyinirdi, onların səsini eşidib, şüşəbəndin açıq qalmış qapısından içəri boylandı:

– Gir yerinə, yat, Həmid, – dedi. – Bu gün Mişa müalicəxanaya gedəndə qoşularsan ona, orda həkim sənə də baxar. Mən sex rəisinə deyərəm ki, xəstəsən.



– Rəisin acığı tutmaz ki?

– Acığı niyə tutur, sən onun fikrini çəkmə, Həmid. O, keçmiş zamanda idi, fəhlə xəstələnib işə çıxmayanda ağanın acığı tuturdu. Biz bununçün inqilab eləmişik ki, sabah birimiz xəstələnəndə hökumətimiz qayğımıza qalsın. Həkim yarana baxıb sənə kağız verəcək, zavoddan xəstə olduğun günlərin haqqını alacaqsan. İndi qayda belədi. Bunlar öz yerində. De görüm necəsən, yaran əziyyət vermir ki?

– Boynumu tərpədəndə balaca sancır.

– O da keçib gedər.

Polina İvanovna Həmidin əlindən pencəyini alıb qapının dalındakı mıxdan asdı.

Kiçik otaqda yatmış cavan ər-arvad – Mişa ilə İra bu söhbəti eşitmədi. Pyotr Anisimoviç çayını içib işə getdi. Polina İvanovna həyətə düşüb iş-güclə məşğul oldu. Tezdən oyanmağa adət eləmiş Həmidin kirpikləri qovuşmadı. Geyinib həyətə çıxanda gördü ki, Polina İvanovna paltar qaynatmaq üçün ocaq qalayıb, su ilə dolu paltar qazanı od üstündə buğlanır, arvad özü həyət-bacanı süpürür.

– Polya xala, bekarçılıqdan darıxıram, istəyirəm sizə kömək eləyim.

– Görməli elə bir iş yoxdu, niyə yatmadın?

– İstəmirəm.

– Nahaq, neçə gündür gündüzlər dəmirçixanada işləyirsən, axşam da evə gəlib daşlarla, dəmir-dümürlə əlləşirsən, dincliyin də yoxdu. Bu yaralanmaq sənə ibrət dərsi olmalıdı. Daş oynatmaq nədi, başını aşağı sal, fəhləliyini elə.

İrina da geyinib həyətə düşdü, onun qucağında bir yığın paltar vardı. Polina İvanovna gəlininə dedi:

– Su hazırdı, paltarları tök qazana, qaynasın.

İra paltarları baka töküb üstdən ağacla basa-basa islatdı və skamyada əyləşən Həmiddən soruşdu:

– Nə sayaqsınız?

– Babatam, İra.

– Cavanların yarası tez bitişir. Tezliklə yaxşı olar.

– Hardan bilirsiniz?

İra Həmiddən cəmisi dörd yaş böyük olsa da, özünü onu yanında sinli qadın kimi göstərirdi.

– Bunu mən bilməmiş day kim biləcək. Bu bir ildə əlimdən nə qədər yaralı gəlib keçib.

– Bəyəm həkimsiniz?

– Bunu bilmək üçün heç də vacib deyil ki, həkim olasan, şəfqət bacısıyam.

– Onda mən həkimin yanına niyə gedirəm, siz burda yaramı müalicə eləyin.

– Mən də müalicə eləyə bilərəm, ancaq həkim baxsa yaxşıdı.

Bu vaxt Mişa əl ağacına dayaqlana-dayaqlana həyətə çıxdı.

– Belə görürəm elə yatıb yuxuya qalan mən olmuşam. Sabahınız xeyir. Həmid, sən də oldun mənim kimi, hərbi dillə desək, müvəqqəti sıradan çıxan. – Arvadından soruşdu. – İra, saat neçə olar?

Polina İvanovna yanmış xəzəlin külünü bellə daşıyıb ağacların dibinə tökürdü, oğluna dedi:

– "Qafqaz Merkuri" zavodunun fiti indicə verildi. Səkkizdi.

Mişa əl ağacını skamyaya dayayıb oturdu.

Paltar qazanının suyu daşıb odun üstünə tökülürdü, İra qapağını götürdü.

– Mişa, bu gün cərrahın yanına Həmid də səninlə gedəcək.

– Mən müalicəxanaya sabah getməliyəm. Neynək, bu gün Həmidlə gedərəm... Hissənizçün darıxırdın, İra, xəstələrin sayı artır, burda lazaret aça bilərsən.

– Sən zarafata sal.

Həmid işsiz oturmağa darıxırdı.

– Mişa, mən sənin həkiminin yanına gedərəm, ancaq o desə ki, evdə qal, qalmayacağam. Sabah, uzaq başı, o biri gün işə çıxacağam.

– Əcəb də eləyərsən. Hər kəs öz bədəninin sazlığını, dözümünü hər hansı bir həkimdən dürüst bilir. Qardaş, sən həkimlərə çox da qulaq asma. Dəmirçisən, gözəl bilirsən ki, dəmir zindanda döyülüb bərkidiyi kimi, kişi də yaralana-yaralana, yıxılıb qalxa-qalxa bərkiyər.

İra bakın buxarı üzünə vura-vura qaynayan paltarı ağacla qarışdırdı və ərinə dedi:

– Mişa, bu da səndən çıxdı?! Necə yəni kişi yaralana-yaralana, yıxılıb qalxa-qalxa bərkiyər? Əksinə, insan yaralananda qan itirir. Bədən necə möhkəm olsa da, zəifləyir. İnsan yaralanmasa, zədələnməsə yaxşıdı. Sən yaralanmısan, nəyin bərkiyib, əksinə, yarımadam olmusan.



– Bu müvəqqətidi, İra, dalına baxarsan, yenə kəl kimi olacağam.

O gün Həmid Mişa ilə şəhər müalicəxanasına, cərrahın qəbuluna getdi. Həkim yaraya baxıb Həmidə dedi ki, yara qızdırma verməyibsə, irinlənməyibsə, demək, sağalır. Yenə gələrsən, baxaram. Ümidvaram ki, o qalın şalbanlardan boynunda çox sındıracaqsan. Lakin gərək daha ehtiyatlı olasan, cavan oğlan.

* * *

Həyət qapısı yumruqla döyüldü və kimsə qalın kişi səsiylə küçədən harayladı:

– Həmid.

İra həyətdə qurumuş paltarları ipdən yığırdı, qapıya getdi, cəftə bağlanmamışdı. O, qapını açdı. Bayırda – qapı qabağında iki hərbçi dayanmışdı. İra onlardan birini tanıdı. Srağagün Həmid kazarmaya çıxış eləməyə gedəndə furqonla bura gəlmişdi. İkipudluqları o daşıyıb arabaya yığdı. İkincisini isə ilk dəfə idi görürdü. O, qaşqabağını sallamışdı. Əlində üstü qırmızı xaç nişanlı köhnə, meşin çanta vardı.

İrina ağzını açmamış çantalı hərbçi qoca dedi:

– Xanım qız, salam, bizə Həmid Xələfov lazımdır, evdədirmi?

– Evdədi.

– İcazə verirsinizmi içəri keçək?

– Allah xatirinə buyurun!

Hərbçilər həyətə girdilər. Həmid Mirzə Vahidlə Davudu görcək skamyadan qalxdı, özünü bir az itirdi də. Onların belə gəlməsini ağlına gətirmirdi.

Onun srağagün alayın tibb məntəqəsində gördüyü ağ xalatlı, ağqalpaqlı Mirzə Vahidlə, indi hərbi geyimdə olan Mirzə Vahid necə də bir-birindən seçilirdi. O günkü qiyafə çal saçlı qocaya necə yaraşıb onu əzəmətli eləyirdisə, şiş papaq, kobud, uzunboğaz ayaqqabılar, çiyinlərindən sallanan nimdaş şinel Mirzə Vahidi bir o qədər gülünc göstərirdi. Qoca bu görkəmdə hərbi feldşerdən daha çox səhnəyə çıxmağa hazırlaşan komik əsər surətini xatırladırdı.

Həmid feldşerin qaşqabağını sallamasından duydu ki, qoca əlindən yanıqlıdır, onun vədə xilaf çıxmasını bağışlamayacaq. Mirzə Vahidin könlünü almaq üçün ona xüsusi hörmət göstərdi:

– Xoş gəlmisiniz, əziz doktor.

Feldşerin qaşqabağı açılmadı:

– O gün sənə öz ana dilimizdə dedim ki, mən doktor deyiləm, feldşerəm, adi feldşer.

– Nə fərqi var, yoldaş Şuşinski, feldşer də doktor kimidi. Bir də doktor demək daha asandı, adamın dilinə yaxşı yatır.

– Bizim bütün bəlalarımız da ondan irəli gəlir ki, həmişə asan dalınca qaçırıq, özümüzü çətinə salmağa ərinirik. Sən mənə söz vermişdin ki, yanıma gələcəksən, yaranı göstərməyə. Sözünə belə əməl edirsən?!

Mirzə Vahid rusca danışırdı, onun dediklərini Mişa da, İrina da eşidirdi. Əhvalatdan xəbəri olmayan, Həmid barəsində pis fikrə düşə bilərdi. O, feldşerin qabağından qaçmayıb özünü müdafiə elədi:

– Yoldaş Şuşinski, mən heç vədə verdiyim sözün dalından qaçmıram. Sizin yanınıza gəlməməyimin səbəbi var. Mən yaramı sarıtmağa şəhər müalicəxanasına gedirəm. Qızdırmam yoxdu. Yara da yavaş-yavaş bitişir, o biri gün işə çıxıram.

Həmidin başqa həkimin yanına getdiyini eşidib Davud da söhbətə qarışdı:

– Ay yoldaş Şuşinski, mən sizə demədim ki, Həmid elə oğlan deyil, saymazyanalıq eləməz. Arada nə isə bir iş var, ona görə alaya gəlməyib. Gördünüz?!

Feldşerin əsəbi danışmağı Həmidə də sirayət elədi:

– Mənə inanmırsınızsa, bu dəqiqə, – Həmid pencəyini çıxartdı, köynəyini soyunanda Mişa sözə qarışdı:

– Yoldaş hərbi feldşer, mənim ayağım cəbhədə yaralanıb, onunçün evə məzuniyyətə gəlmişəm. Həmid də mənimlə bir yerdə müalicəxanaya gedir, cərrah onun da yarasına baxır.

Həmid Mişanın şahidliyi ilə kifayətlənməyib, dalını həyətdə ipdən paltar yığan İrinaya çevirərək köynəyini soyundu.

– İnanmırsınız, sarğını açın, baxın!

Həmidin yarası yenə də çalın-çarpaz sarınmışdı. Mirzə Vahid sarğıya baxınca qırışlı çöhrəsi işıqlandı:

– Qolubçik, kefinə toxunmasın. Mən gözümlə görməsəm inanmaram. Zəmanə belədi. İndi bildim ki, sənə başqa həkim baxıb, bəsdi, geyin.

Həmid geyinmədi.



– İndi ki, ancaq gördüyünüzə inanırsınız, bəs onda yaranı niyə açmırsınız, açın baxın.

– Day mənim baxmağım lazım deyil. Sarğıdan görürəm ki, ona ayrı əl dəyib. Kimsə açıb, təzədən sarıyıb. Mən o cür sarımıram. Kifayətdi, geyin, qolubçik.

Həmid geyindi. Qanı qaralmışdı. Daha hərbi feldşerin üzünə baxmırdı. Davud da tutulmuşdu, Mişa da. Mirzə Vahid bu pərtliyin səbəbini özündə gördü:

– Ay uşaqlar, – dedi, – xahiş edirəm, məni düzgün başa düşün. İncıməyin. Onu bilin ki, mən nə eləyirəmsə, özümçün yox, xəstələrin, yaralıların xeyriçün, onların sağlamlığı naminə eləyirəm.

Otaqdan çıxan İrina, Mirzə Vahidin sözlərini eşidib, qocanı müdafiə elədi:

– Yoldaş, hərbi feldşer, deyirsiniz ki, Həmid sizdən inciyib. Nahaq yerə, əksinə, bura gəldiyinizə görə o sizə minnətdar olmalıdır. Siz indi az təsadüf edilən əsil tibb işçilərindənsiniz? Hamı sizin kimi qayğıkeş olsaydı, xəstələr papaqlarını göyə atardılar.

Mişa yarıkinayə, yarızarafat arvadına sataşdı:

– Gör necə də həmkarının tərəfini saxlayır.

– Əlbəttə, mən saxlamasam, kim saxlayacaq?

Mirzə Vahid pensnesinin bir şüşəsinin qırağından ehmalca tutub İraya göz yetirdi:

– Necə həmkar? Bəyəm siz də tibb işçisisiniz! Ya mənim qulağım pis eşitdi?

– Mən şəfqət bacısıyam, hörmətli hərbi feldşer.

– Deyirəm axı, qolubka, niyə suyunuz mənə belə şirin gəlir. Şəhər müalicəxanasında işləyirsiniz?

– Xeyr, mən də sizin kimi hərbi xidmətdəyəm. – Mişanı göstərdi. – Ərim, cəbhədə yaralanıb, onunla evə gəlmişəm, həm də...

Mirzə Vahid İranın hamiləliyini görüb mehribanlıqla gülümsündü:

– Bəllidi, qolubka. İndi mən öz xəstəmdən tamamilə xatircəm oldum. Təbib evdədi. – Əlini çantasına atdı. – Özümlə ehtiyatçün tənzif də, dərman da gətirmişəm, sizə verə bilərəm, gərəyiniz olar. – Çantanı açıb bir topa tənzif və xırdaca şüşə qablarda sürtgü yağları çıxartdı. – Götürün!

İrina almaq istəmirdi.

– Götürün, qızım, iki xəstəniz var, evdə artıq dərman olmağının zərəri yoxdu, lənət heçə.

Davud tənzif və dərmanları qəzet parçasına büküb gavalı ağacının altındakı kətilin üstünə qoydu. Mirzə Vahid ərklə Həmidi qınadı:

– Cavan oğlan, incimə, mənim sənə canım yanır, heyifsən, qədrini bil. Sənin kimi pəhləvan oğulları qorumaq biz tibb işçilərinin borcudu.

İlk görüşdən qarayaxa təsiri bağışlayan Mirzə Vahid getdikcə Mişanın, elə Həmidin özünün də rəğbətini qazanırdı.

Qoca çantasını bağlayıb əlinə götürdü:

– Həmid, mən gedirəm. Haçan lazımın olsam, alaya, yanıma gələ bilərsən. Köməyimi səndən əsirgəmorəm. Biz getdik, sağlıqla qalın, əzizlərim.

İrina ilə Mişa feldşerin qabağını kəsdi. Mişa dedi:

– Hara gedirsiniz, qonağımız olun. Həmid müsəlmandı, araq, şərab içmir. Siz də müsəlmansınız, yəqin ki, içmirsiniz. Samovar çayımız var, onda qalın, çay için.

– Yox, mən o mömin müsəlmanlardan deyiləm, cavanlıqda içkinin küpünə girmişəm, desəm, mübaliğə olmaz. İndi, əfsus ki, mədəm kardan düşüb, pəhriz saxlayıram. Amma məmnuniyyətlə bir stəkan ev çayı içərəm. – Davuddan soruşdu: – Qalaqmı, qolubçik?

Təklif Davudun ürəyindən oldu:

– Mən də çay içərəm, yoldaş Şuşinski.

Mişa qonaqları otağa dəvət elədi.

## IX

Polina İvanovna bu günə xüsusi hazırlıq görmüşdü. Günortadan axşam süfrəsinin xörəklərini bişirir, mətbəxdən çıxmırdı. Axşam onlar yeni ili – min doqquz yüz iyirminci ili qarşılayacaqdılar. Mişa və İra Həştərxandan çoxdan getmişdilər, yenə qocalar Həmidlə qalmışdılar. Mişa Moskvada Qızıl Ordu komandirləri üçün açılmış kursda oxuyurdu, İra Petroqradda anasının, bacısının yanına qayıtmışdı, yeni il ərəfəsində oğlan doğub özü ana olmuşdu.

Bu gün yenə Mişadan məktub gəlmişdi. O, ata-anasının yeni ilini təbrik edir, Pyotr Anisimoviçdən xahiş edirdi ki, izn versin, nəvəsinin adını Petya qoysunlar.



Mişanın bu məktubunu alanda qocalar şadlıqlarından ağladılar. Həmid də sevindi ki, Mişanın oğlu olub, cavan ər-arvad oğlan istəyirdi. Hamı istəyinə belə çataydı...

Bu gün Qradovlar ailəsi üçün ikiqat bayram idi, yeni il sevinci ilə yeni insanın dünyaya gəlməsi fərəhi bir-birinə qarışmışdı.

Həştərxana bərk qar düşmüşdü. Volqa çayı buz bağlamışdı. Hələ danışırdılar ki, Volqa Xəzərlə qovuşduğu yerdə dəniz də donub. Xəzərin donması Həmidə möcüzə kimi görünürdü. Abşeronda qış necə sərt keçsə də, dəniz donmurdu. Burada Volqa elə buz bağlamışdı ki, at min, üstündə çap.

Yeni ilin nə üçün qışın soyuğunda, şaxtada bayram edilməsini Həmid anlamırdı. O eşitmişdi ki, yeni il təbiətdə hər şeyin yenidən oyanması deməkdir.Yanvar ayında nə təzə il?! Həmid görmüşdü ki, Bakıda camaat yeni ili mart ayında, Novruz topu altında bayram eləyir. Onu da deyirdilər ki, təzə il hansı heyvanın üstündə təhvil olursa, həmin il o heyvanın xasiyyətinə uyğun olur. Dünyanın necə də qəribə qanunları var. Bakı da, Həştərxan da Xəzərin sahillərindədir, aralarında o qədər böyük məsafə də yoxdur, ancaq bu şəhərlərin hərəsində yeni ili ayrı-ayrı vaxtlarda bayram eləyirlər. Birində qışın oğlan çağında, o birində yaz girən günü.

Bu qışı doğma şəhərdə, anasıgilin yanında keçirməyə ümid eləyən Həmid indi bilmirdi ki, Bakıya haçan gedəcək. Xəzərin yuxarı hissəsi buz bağlamışdı. O qalınlığında buzu heç iri gəmilər yarıb keçə bilməzdilər, yelkənli qayıq ona nə eləyərdi?! Umur baba da o gedən idi, daha qocadan bir səs-soraq çıxmamışdı. Həmid çox gözlədi, axırda soyuqlar düşməmişdən qabaq naəlac qalıb Pyotr Anisimoviçə qoşulub onların neft gətirdikləri körpüyə getdi, orda Həmidgilə dedilər ki, düşmənlər yolları tutub, bənd-bərəni elə bağlayıblar ki, gəliş-gediş kəsilib, bizim də yoldaşlardan xəbərimiz yoxdur. Həmid indi həm dayısı Turabdan, həm də Umur babadan nigaran idi. Ancaq camaat danışırdı ki, ingilislər Bakıdan çıxıb gediblər, bu gün-sabah orada da Şura hökuməti qurulacaq, camaatın dediyi çox zaman doğru çıxırdı, kaş, bu dəfə də doğru olaydı!

Həmid yavaş-yavaş Həştərxana, işlədiyi zavoda, dəmirçiliyə alışsa da, Bakıya qayıtmaq üçün günləri sayırdı. Payızdan bəri, demək olardı ki, tək qalmışdı. Noyabrda Fəttah toy eləmişdi (tatarların nə tamaşa toyları olurmuş). Fəttah evlənəndən bəri əvvəlkitək daha

işdən sonra Həmidlə bir yerdə olmurdu. Onu qınamaq da olmazdı, arvadını evdə qoyub axşamlar yoldaşı ilə gəzməyə çıxmayacaqdı ki?! Həmidin daşoynatmaqdan da əli soyumuşdu. Kazarmada yaralanandan sonra daşlar talvarın altında atılıb qalmışdı. Onları bircə dəfə götürüb məşq eləməmişdi, eləmək həvəsi də yox idi.

İra Həştərxandan gedənə kimi Həmidə rus əlifbasını öyrətmişdi. İndi özü yazıb, höccələyə-höccələyə oxuyurdu. Rus dilini yaxşı başa düşsəydi, rəfdəki qalın kitablardan götürüb oxuyar, başı qarışardı. O, çarəsizlikdən Pyotr Anisimoviçə yoldaş olub qalmışdı.

Soyuqlar düşəni məhəllələri də xəlvətlənmişdi. Qabaq, mağul axşamüstülər kişilər işdən gəlib küçədə domino, loto oynayır, maraqlı söhbətlər danışırdılar, bir də görürdün ki, gecə oldu. Onda Həmid elə də xiffət çəkmirdi. Keçmə uzun, cansıxıcı qış gecələrindən, adam bilmir ki, neyləsin, gündə neçə saat yatmaq olardı?! Həmid bikar olanda daha çox fikir eləyir, darıxırdı.

Burada Həmid üçün gözlənilməz yeniliklərdən biri də bu idi ki, Narodnaya bulvarnaya küçəsində yaşayan totuq bir tatar qızı ona bənd olmuşdu. Elə bil qız Həmidi güdürdü, hər gün Həmid zavoddan çıxıb evə gələndə onunla yolda, ya taxta tövlənin tinində, ya da dövlətli Kononovun evinin yanında rastlaşırdılar. Əvvəllər tatar qızı Həmidi görəndə gülümsəyib ötürdü, sonra gördü ki, oğlan məhəl qoymur, qız onun böyründən köksünü ötürüb keçirdi. Həmin qız Fəttahın arvadını tanıyırdı. Axırda o, Həmidi istədiyini Fəttahın arvadına dedi, o da öz ərinə, Fəttah da bunu gəlib Həmidə bildirdi, Həmid bu xəbəri çox soyuq qarşıladı.

Tatar qızının tez-tez yollarına çıxmasını Pyotr Anisimoviç də hiss eləmişdi, qoca axırda dilə gəlib Həmidə dedi ki, oğul, niyə onunla yoldaşlıq eləmirsən, sənin üçün sinov gedir, görünür, tifil qız özü ilə bacarmır, nə olar, ona xoş üz göstər, könlünü al. Qızla dostluq eləmək, yoldaş olmaq üçün heç də vacib deyil ki, onu sevəsən. Məgər gəncliyində qızlarla oğlanlar dostluq eləmirlər? Bəzən bu dostluq uzun illər davam edir, onların ailələri də yaxın olurlar.

Pyotr Anisimoviçin bu tövsiyəsindən sonra Həmid tatar qızı ilə küçədə rastlaşanda salamlaşırdı. Ancaq onların arasındakı münasibət salamlaşmaqdan uzağa getmədi. Şaxtalar düşəni Nəzifə də az-az görünürdü.



Davudla dostlaşmışdılar, o ara-sıra icazə alıb şəhərə çıxanda Həmidi görməyə gəlirdi. Neçə ay idi ki, Davud da görünmürdü. Müsəlman alayı Həştərxandan harasa getmişdi. Daha bakılı əsgərlərdən şəhərdə gözünə dəyəni olmurdu. Qabaqlar küçədə rastlaşanda onlar Həmidə yaxınlaşıb özlərini nişan verirdilər. Həmid kazarmada çıxış eləyəndən bəri Həştərxanda bakılı əsgərlərdən dostları çoxalmışdı.

Davud bir dəfə Həmidə demişdi ki, qərdeş, zavodda çəkic vurmaqda nə görmüsən, gəl bizim alaya yazıl, özümüzünkülərin arasında ol, darıxmazsan. Bakıya da bizimlə bir yerdə qayıdarsan. Biz hər halda Azərbaycana hamıdan tez gedəcəyik. Həmid onda Davudun sözünü qulaqardına vurmasına indi peşman idi. Bəlkə, bu saat Davudgilin alayı Azərbaycan torpağını, Bakını düşmənlərdən təmizləmək üçün döyüşə girişmişdi. Əsgər yazılsaydı, Həmid də onların sıralarında olardı. Mişa Rusiyanın azadlığı uğrunda yaralanmışdı. Məgər Həmid ondan əskik kişinin oğlu idi, öz ata-baba torpağını o, Rusiyanı sevəndən az sevirdi? Yeri gəlsəydi, Həmid öz vətəni yolunda ölməyə hazır idi. O da torpağını sevməsəydi, kim sevəcəkdi?! Ürək yanmayanda gözdən yaş çıxmır. Həmid indi o söhbəti yadına salıb özünü qınamaqla Davudda da təqsir görürdü. Əgər Davud təkid eləsəydi, Həmid bəlkə də yumşalardı... Nə isə, daha keçib...

İşıqlar çoxdan yanmışdı. Polina İvanovna mətbəxdən çıxmırdı, biş-düşünü qurtarmamışdı. Pyotr Anisimoviç də qulaqlığı laxlayan eynəyini gözünə taxıb qələmi mürəkkəbə batırır, oğluna, gəlininə məktub yazırdı. Mişa da, İra da qocalara göndərdikləri məktublarda həmişə Həmidə salam yollayırdılar. Çox sağ olsunlar ki, Həmidi yaddan çıxarmırdılar. O da Mişanı, İranı unutmurdu. İra Həmidə əlifba öyrədəndə qızı yaxından tanımışdı, gözəl xasiyyəti vardı. Evlənmək sarıdan Mişanınkı gətirmişdi.

Pyotr Anisimoviç iki məktub yazdı, hamının, Polina İvanovnanın, Həmidin, öz adından Mişanı və İranı balaca Petyanın anadan olması münasibətilə təbrik elədi.

Zərflərin ağzını bağlayıb taleyindən razı halda onları cibinə qoydu ki, sabah aparıb yola salsın.

Yeni ili qarşılamaq üçün Pyotr Anisimoviç saat on ikini gözləmədi, xörəklər hazır olan kimi Polina İvanovnaya dedi ki, süfrə açsın, stol hazır olanda qədəhlərə araq süzüb sağlıq söylədi. Hamıya cansağlığı, xoşbəxtlik arzuladı. Üzünü Həmidə tutub dedi ki, yeni il

ərəfəsində mən baba olmuşam, Polina – nənə. Bu, bizim ailə üçün xoşbəxtlikdi. İnsan xoşbəxtliyinin qədrini bilməli, onu qorumalıdı. Mən təzə söz demirəm, yəqin sən ağsaqqallardan belə-belə sözlərdən çox eşitmisən. Balaca Petyanın dünyaya gəlməsi Qradovlar nəslinin davam etməsi deməkdir. Mən atam Anisimi, Mişa məni, Petya Mişanı əvəz edəcək. Bəlkə də "əvəz etmək" sözü yerinə düşmür, mən fikrimi düz ifadə edə bilmirəm. Çünki həyatda hər insanın öz yeri var, biri o birinə bənzəmir, nə iləsə ondan seçilir. Oğulun atadan, nəvənin babadan yaxşı cəhətdən fərqlənməsi o nəslin xoşbəxtliyidi. Gərək həyatda övlad öz valideynlərindən heç olmasa bir pillə yuxarı qalxsın. İnkişaf da bundadı. İl də belədi. Bu il ötən ildən, gələn il isə bu ildən seçilməli, il ildən yaxşı olmalıdı. Əlbəttə, illərin uğurlu, uğursuz olması insanlardan, onların əməllərindən asılıdı. Həmid, mən istərdim ki, bu il sənin üçün, sənin indi gözü yolda qalan anan üçün uğurlu olsun, şadlıq ili olsun.

O gecə Həmid birinci dəfə arağın dadına baxdı, acılıqdan boğazı qovuşsa da, qədəhi axıra kimi içdi. Sonra gedib möhkəm yatdı. Yuxuda gördü ki, yollar açılıb, Bakıdadır.

## X

Gəminin göyərtəsində məhəccərə söykənən Həmid fikirli-fikirli Xəzərə tamaşa eləyirdi.

Həştərxandan gələn gəmidə xeyli adam vardı, onların hamısı Bakıya gedirdi. Hava xoş olduğundan sərnişinlərin çoxu kayutlarda oturmayıb, göyərtəyə qalxmışdı. Həmidə elə gəlirdi ki, ətrafdakı sərnişinlərin heç biri onun kimi sevinmir, heç birinin də onun kimi Bakını görməyə ürəyi əsmir.

Xəzər, bakılılar demişkən, quzu kimi idi. Gəminin burnu suların hamar aynasını parçalaya-parçalaya irəlilədikcə arxasında uzun, əriyib yayılan köpük zolağı qoyurdu. Uzaqdan Abşeron yarımadası, sahilə düşmüş aypaaraya bənzəyirdi. Həmid orda-burda qaralan adalara baxırdı. Bu adaların bir çoxunun adını bilirdi. Şahilan, Pirallahı, Kiçikzirə, Qumzirə... Həmid Pirallahıda olmuşdu. Bir dəfə atası ilə Hövsandan Bakıya qayıdanda dənizdə tufana düşmüşdü, dalğalar onların qayıqlarını qabağına qatıb Pirallahıya aparmışdı. Gecəni adada qalmışdılar.



Bir ildən çox çəkən ayrılıqdan sonra Həmid Bakıya, ata-baba yurduna nigaran qayıdırdı. O vaxtdan evdən, anasından, qardaşlarından xəbərsiz idi.

Gəmi tələsmədən Bakıya gedirdi. Dəniz təhlükəsiz idi. Daha onların qabağını kəsən yoxdu. Azərbaycanda Şura hökuməti qurulmuşdu.

Həmid Umur babanın yelkənli qayığında Həştərxana getdiyi günü xatırladı. Onda bilmirdi ki, necə yerə gedir, orada tanımadığı adamların arasında güzəranı nə təhər keçəcək?! İndi Həştərxanda Pyotr Anisimoviç, Polina İvanovna kimi ona valideynlik eləyən qocaları, dostu Fettahı qoyub gedirdi.

Gəmi sahilə yaxınlaşdıqca Həmid dəniz qırağındakı şəhər evlərinin arxasından ucalan Qız qalasını axtarırdı. Uşaqlar danışırdılar ki, qalanın üstünə çıxıb baxanda şəhərin hər yeri ovuc kimi görünür. Sahildə tüstülənən uca borular gözünə dəyəndə Həmid təyin elədi ki, ora Qaraşəhərdir, tüstü zavodlardan çıxır.

Şəhərin dəniz sərnişin körpüsü Qız qalasından çox da uzaqda deyildi. O, binaların dalından başı güclə seçilən Qız qalasına baxa-baxa pıçıldadı: "Daha çatmışıq, axır ki, gəlib çıxdım Bakıya... Bundan sonra dünya dağılsa da, ayrı yerə getməyəcəyəm. Ölsəm də qoy burda ölüm, doğma şəhərimdə, ata-baba yurdumda..."

Göyərtəyə toplaşanlar şirin-şirin danışır, deyib-gülürdülər. Həmid onlara məhəl qoymurdu. Özü ilə idi, qulağının dibində qeybətini eləsəydilər də eşitməzdi. "Barı, evdəkilər sağ-salamat olaydı, bir iş gəlməyəydi onların başına".

Həmidin taxta çamadanında, bir də üstdən qayışla sarınmış boğçasında xeyli hədiyyə vardı, köynəklər, baş və əl yaylıqları, corab, ayaqqabı. Təsəvvür edirdi ki, balaca qardaşları bu hədiyyələri alanda necə sevinəcəklər. Bəs anası, övladcanlı Rübabə?! O, Həmidi duz kimi yalayacaqdı...

– Çatdıq, çatdıq! – deyə bir oğlan uşağı atılıb düşə-düşə əl çaldı. – Çatdıq, ata! Qız qalasını görürsən?

– Görürəm, oğul.

O biri sərnişinlər də nəsə dedilər. Səs səsə qarışdı, danışıq danışığa, ağız deyəni qulaq eşitmədi. Gəmi də şəhərə çatdığını körpüdəkilərə xəbər verirmiş kimi, ucadan fit çaldı. Göyərtədə basabas düşdü. Hamı çamadan və çantaları əlində qabağa yığılmışdı. Həmid

gözünü açıb dövrəsinə baxanda gördü ki, hamı qabağa keçə-keçə onu arxada qoyub.

Gəmi körpüyə yan alıb lövbər saldı. Pilləkən verdilər. Hamı düşdü. Həmid tələsmədi, körpüyə axırıncı endi, ayağı vətən torpağına dəyəndə rahatca nəfəs aldı.

Bir əlində çamadan, o biri əlində boğça Sahil küçəsinə çıxdı. Körpünün qabağında nə bir fayton vardı, nə də qazalaq. Hamısına gəmidən qabaqca düşənlər minib getmişdilər. Bir hambal onun şeylərini götürüb aparmaq istədi, Həmid dedi ki, gərək deyil, əmi, özüm apararam.

Həmid qabaqlar bu gur Sahil küçəsindən çox keçib, bir neçə addım aralıdakı yük körpüsünə işə getmişdi. Onun burdan ayrıldığı müddətdə zahirən heç nə dəyişməmişdi, küçə həmin küçə idi, adamlar da həmin adamlar. Təkcə şaşkası göbəyindən sallanıb yerlə sürünən "girdovoylar" gözə dəymirdilər. O, bir istədi ki, iş yerinə dəyib yoldaşları ilə görüşsün, Mirhadi ilə danışsın, öyrənsin körpüdə nə var, nə yox... Sonra fikrini dəyişdi: "Ayrı vaxt gələrəm, ora getsəm, ləngiyərəm".

Körpüdən aralananda qabağına bir boş fayton çıxdı, faytonçu dedi ki, oğul, otur, hara deyirsən aparım səni, çox almayacağam. Həmid minmədi. Bakı üçün bərk darıxmışdı, piyada getdi ki, küçələrə baxsın.

Şamaxı yoluna kimi bir nəfər tanışa rast gəlmədi. Quba meydanına çatanda ayaq saxladı.

Quba meydanı...

Bura Həmidin ən çox sevdiyi, tamaşasından doymadığı Bakı meydanlarından idi. Taxta bazarın və iri karvansaranın arasındakı açıqlığa şəhər əhli Quba meydanı deyirdi. Ona görə Quba meydanı deyirdilər ki, yazın ortalarından başlanmış ta payızın soyuqları düşənə kimi bura Taxta bazarın filialına çevrilirdi. Yayda kənd və qəzalardan o qədər meyvə-tərəvəz gətirirdilər ki, Taxta bazar tutmurdu. Kəndlilər mallarını meydana töküb açıq havada satırdılar. Bura gələnlərin çoxu qubalılar olduğu üçün adını Quba meydanı qoymuşdular.

Qubadan gələn meyvə ilə dolu öküz arabalarını meydanda saxlayırdılar. Çox vaxt alma-armudu boşaltmırdılar, elə arabada qalırdı. Öküzü açıb meydanın sağ cinahındakı karvansaranın həyətində bağlayırdılar. Mal sahibləri gündüz meyvəsini satır, axşamlar gedib karvansarada gecələyirdilər.



Bazara gələnlər elə bilirdilər ki, Qubadadırlar. Satıcılar Quba ləhcəsində qəndil-sinab, qızıləhmədi almalarını, abasbəyi armudunu tərifləyə-tərifləyə müştəri çağırırdılar. Onların geyimləri də başqa yerlərdən gələnlərin geyimlərindən seçilirdi.

Həmid heç nə almasa da, hərdən Quba meydanının bu ucundan girib, o ucundan çıxmağı xoşlayırdı. Yayda meydandakı alma, armud, qovun, qarpız, soğan, badımcan qalaqları günəşin qızılı şüaları altında neçə rəngə çalırdı. Meydan rəngkarlıq sərgisinə bənzəyirdi.

Qışda meydandan əl-ayaq çəkilirdi. Qəzalardan qoz, fındıq, qax, payız alma-armudu gətirənlər Taxta bazarın dükanlarında yer tuturdular. Meydan faytonçulara qalardı. Qara çuxalı faytonçular faytonlarını növbə ilə saxlayır, müştəri gözləyirdilər...

Həmid meydana baxanda gözləri güldü. Əvvəlkitək qələbəlik idi, şirin alver gedirdi. Meydanın girəcəyində "sələb", "bamiyə", "Hüseynqulu dovğası" qışqıranların səsi bir-birinə qarışmışdı. Həmid ayrı şey yox, bir stəkan sinəyumşaldan sələb içdi, bazara girməyə tənbəllik elədi.

O, məhəllələrində tanış bir adam görmədi. Həyətlərinə qədəm qoyanda anası arxası qapıya sarı quyudan çəlləklə su çəkirdi. Əkizlər – Mikayılla İsmayıl su ilə dolu ləyəndə taxta şumaqədərlərinin palçığını yuyurdular. Qapının cırıltısını Rübabə eşitdi, ancaq İsmayıl Həmidi anasından əvvəl gördü:

– Məmə, ay mə, qədeş gəldi, Həmid gəldi!

Əkizlər qapıya, qardaşlarının qabağına qaçdılar. Rübabə Həmidin adını eşidəndə qolları əsdi, quyudan çəkdiyi çəlləyin ipi əlindən çıxıb guppultu ilə suya düşdü.

Qardaşları hərəsi bir tərəfdən "qədeş, qədeş" deyə Həmidin ayaqlarına sarmaşdılar. Rübabə özünü oğlunun üstünə atdı. Onu qayımqayım qucaqlayıb sümükləri çıxmış sinəsinə basdı. Ana da ağlayırdı, əkizlər də. Həmid kövrəlmişdi. O, Rübabənin vaxtsız ağarmış saçlarından öpdü. Bu doğma saçlardan ana ətri gəlirdi, onun öz anasının iyi. Həmid bu əvəzsiz ətri özü üçün lap körpəlikdən ana döşlərindən süd əməndə kəşf eləmişdi.

Həyəcandan Rübabənin arıq vücudu əsirdi. Sanki titrəməqızdırması vardı. Əkizlər kənara çəkilib böyük qardaşlarına baxırdılar. Həmid anasının qulunc unu ovuşdururmuş kimi, əlini onun kürəyində gəzdirdikcə Rübabə toxtaq tapırdı.

– Ay bala, ay qurbanın olum, bu çağacan hardeydin?!

Həmid anasını qucağına götürdü, arvad necə də sınıxmışdı, quş kimi yüngül idi, gətirib püstə ağacının altına salınmış kilimin qırağındakı döşəkçədə oturtdu.

– Qədəmlərinə qurban olum, ay Həmid, inana bilmirəm ki, sən gəlmisən. – Rübabə balaca uşaq kimi oğlunun saçlarını sığalladı. – Day səni gözümdən iraq qoymayacağam, day ayrılığa dözmərəm, bəsdi çəkdiklərim...

– Mən heç yerə getməyəcəyəm, məmə...

Səsə qonşular axışıb gəldilər. Həyət doldu. Rübabəyə gözaydınlığı verdilər. Həmidin əlini sıxdılar.

Ara sakitləşəndə Həmid anasından soruşdu:

– Sənə nə olub, məmə, bəyəm xəstəsən?

– Bir azar-bezarım yoxdu, sənin fikrini çəkməkdən bu kökə düşmüşəm, ay bala. Başım gicəllənirdi, Gülbacı xala baxıb dedi ki, qanın çoxluğundandı. Məndən bir küpə qan aldı, babatlaşdım.

Gülbacı ara həkimi idi. Qonşular ona "Çöpçü Gülbacı" da deyirdilər. Həkimlərə verməyə pulu olmayan məhəllə kasıb-kusubu türkoçarə ilə ucuz qiymətə müalicə eləyərdi.

Camaat arasında qan təzyiqi artanlardan xalq üsulu ilə qan alardılar. Həmid bildi ki, anasının qan təzyiqi var. Qabaqlar onun belə xəstəliyi yox idi, təzə olmuşdu.

Rübabə Həmidin əlindən yapışıb oxşaya-oxşaya evə apardı, oğluna gözü dolusu tamaşa elədi.

– Maşallah, yaman gözlərə ox batsın, yekə kişi olmusan, day mənim nə dərdim var?!

Həmid çamadanını, boğçasını açdı. Gətirdiyi hədiyyələri anasına, qardaşlarına verdi. Əkizlər ayaq açıb yeriyəndən belə yaraşıqlı ayaqqabı geyməmişdilər.

– Payın çox, cibin dolu olsun, ay bala.

Əkizlər o biri otağa qaçıb tez-tələsik təzə köynəklərini, ayaqqabılarını geyindilər.

– Uşaqların üst-başı tökülmüşdü, nə yaxşı bunları alıb gətirmisən. Heç bilmirdim ki, nə eləyim, yeməklərini güclə çatdırırdım. Bazarda hər şey od qiymətinədi. Balağanın Allah ölənlərinə rəhmət eləsin, o bizə sən gedəni hərdən əl tutur. Mən də qəssabdan qarın alıb qutab bişirirəm, Mikayıl, İsmayıl aparıb Quba meydanında satırlar, dolanırıq. Un bahalanıb. Qəssab bazarında zəhrimar qarın da az olur.

– Bunların hamısına mən günahkaram, məmə, mən evdə otursaydım, Nardarana güləşməyə getməsəydim, sizi bu vəziyyətə salmazdım. Uşaqların üst-başına, sənə baxıram, ürəyim ağrıyır.

– Neynək, neynək, ay başına dönüm, əslikar cansağlığıdı. Sağ-salamat olaq, qalanları tez düzələr. Qonşu arvadlar danışırdılar ki, Kömür meydanının üstündə pal-paltar tikən fabrikdi-nədi ondan açıblar, qızları, qadınları işə götürürlər. Mən də ora işə girmək istəyirdim, başgicəllənməsi tutdu, qaldım.

Həmid yumruğunu dizinə sıxmışdı. "Ay namərd Çopur Abdulla, məni yurdumdan-yuvamdan didərgin saldın, anamgil də belə başsız-köməksiz qaldılar..."

– Məmə, deyirsən Balağa sizə kömək eləyir?

– Mən onun üzünü görməmişəm, cəmi ölənləri behiştlik olsun, sən Bakıdan gedəni gah arvadı Sərvinaz xanımla, gah da qızı Nurlu ilə hərdən bizə ətdən, yağdan, undan pay göndərir, yayda da mer-meyvə. O bizə yaxın qohum kimi əl tutub. Balağanı görüm heç vədə neynim deməsin.

Həmid Balağanı ikicə kərə görmüşdü. Nardaranda, bir də körpüdə. Onunla çörək kəsməmişdi, insanlığına, xasiyyətinə o qədər bələd deyildi. "O mənim boynuma böyük minnət qoyub. Dükanbazarın belə bahalığında hər kişi bu cür əliaçıqlıq eləməz. Dəyanətli adammış. Bizim ailəyə qanbir qohum kimi qahmar durub. Gərək sabah gedib onu tapım, bu yaxşılıqlarçün minnətdarlıq eləyim".

Bəs Rübabə oğluna Turabdan niyə bir söz demirdi, heç onun adını dilinə gətirmirdi? Onlar Turabla çox mehriban idilər. Rübabənin dar günündə onun dadına birinci Turab çatmalıdır. Həmid anasından dayısını soruşmaq istədi, sözünü tez də uddu, düşündü ki, Turabın başında bədbəxt bir hadisə olar, qardaşını onun yadına salmaqla dərdini təzələyər. "Ya o vaxtdan daydaydan bir xəbər-ətər yoxdu, ya da ona nə isə olub. Turab Bakıda olsaydı, anam çoxdan uşaqlardan birini onlara qaçırtmışdı ki, mənim gəldiyimi desin. Bir azdan İsmayıldan, Mikayıldan birini xəlvətə çəkib soruşaram, görüm dayday hardadı? Hələ mən Zığa gedib Umur babanı da görməliyəm. O kişidən də nigaranam..."

Başını dizlərinə əyən Həmidin gözü ayağı altındakı Lənkəran həsirinə dəydi. Bəs əvvəllər bunun yerinə evə döşənən əlvan naxışlı xalça hanı? Anası yayda həyətə saldığı köhnə həsiri evə niyə döşəyib?! Həmid anasından heç nə soruşmadı, bildi ki, çarəsizlikdən aparıb satıb. "Heyif, heyif o xalçadan, bu ikigöz evdə ən qiymətli şey o idi. Kasıblığın üzü qara olsun... nənəmdən yadigar idi..."

Rübabə və əkizlər Həmidin qabağında oturmuşdular, gözlərini ondan çəkmirdilər. Baxırdılar, üzləri gülürdü. Necə sevinməyəydilər, evin dirəyi – ailənin köməyi qayıtmışdı.

– Ay oğul, darıxmışam, gözü dolusu sənə baxmaq istəyirəm, baxıram doymuram, doymayacağam da. Yol gəlib yorulmusan, dur əl-üzünü yu. Soğanbozbaşı bişirmişəm, bir tikə çörək ye, yəqin acsan.

– İştaham yoxdu, məmə.

– İştah diş altındadı. Çoxdandı məmənin bişirdiyi xörəklərdən yeməmisən, bilsəydim ki, bu gün sən gələcəksən, düşbərə bişirərdim. Sən düşbərəni çox istəyirsən axı.

Həmid uzunboğaz ayaqqabılarını çıxartdı, köynəyini soyundu. Quyudan köhnə adəti ilə çəlləklə su çəkdi, yuyunanda Rübabə dedi:

– Yoldan gəlib havanı dəyişmisən, quyunun suyu soyuqdu, qoy ona isti su qatıb qızdırım, iraq-iraq xəstələnərsən, peşmanlıq olar.

– Həştərxanda buzlu su ilə çiməndə mənə soyuq dəyməyib. Bu sudan azarlayaram? Mən indi əvvəlkindən də möhkəməm, məmə, qorxma, orda bərkə-boşa, istiyə-soyuğa alışmışam, öyrəncəliyəm.

– Elə demə, qadovu alım, özgələri o yana qalsın, adamın öz gözü özünə dəyər. Tfu, tfu, gözdən, nəzərdən uzaq olasan.

Mikayıl çəlləkdən tayqulpla su götürüb Həmidin əlinə tökürdü. Həmiddən olsaydı, Mikayıla deyərdi ki, çəlləyin suyunu əndər başıma. O, Həştərxanda bu quyunun yanında durmağın, belə yuyunmağın çox həsrətini çəkmişdi.

* * *

O gecə Həmid şirin yuxuya getdi. Səhərə yaxın göy guruldayıb ildırım çaxmasaydı, hələ də yatacaqdı. Oyandı, leysan tökürdü, yağış tez kəsdi. Otaqları başladı ordan-burdan tappatap dammağa. Rübabə yatmamışdı, qalxdı; əkizlər də oyandılar. Rübabə əl-ayağa düşdü, uşaqların yorğan-döşəyini dammayan yerə çəkdi. Həmid durub geyindi.



– Su aydınlıqdı, – deyə Rübabə evin dammağından yamanca dilxor olan Həmidə təskinlik verdi.

O, anasının gözlərindəki narahatlıq və məhzunluğu oxuyub otaqda qarışqara gəzindi. Rübabə oğlunun darıxdığını görüb dedi:

– Eybi yoxdu, ay bala, damıb-damıb axırda kəsəcək, kişisiz, baxımsız evdi də, çox şükür ki, sən gəlib çıxmısan.

Hava işıq olsaydı, Həmid dama çıxıb baxardı. O, qapını açıb həyətə boylandı. Həyətin çala-çuxurunda su göllənmişdi. Havanın asta-asta işıqlanmasını görəndə Həmid rahat oldu.

Uşaqlar yuxulu idilər, yorğan-döşəkləri damcı tutmayan yerə çəkilən kimi yatmışdılar.

– Həmid, sən də yıxıl yat, hələ səhərə çox qalıb.

Rübabə yağış suyu ilə dolan tavanı, təşti, ləyəni aparıb boşaltdı, yenə gətirib əvvəlki yerinə qoydu. Yağış kəssə də, hələ ordan-burdan təkəm-seyrək damcı düşürdü.

Səhər hava tamam açıldı, gün çıxdı. Sanki obaşdan leysan tökməmişdi. Həmid nərdivanı qoyub dama çıxdı. Qır bir neçə yerdən çatlamışdı. Bir yanda isə dam çökmüşdü, yekə çuxura su yığılmışdı. Həmid suyu süpürgə ilə navalçaya axıtdı, sonra aşağı düşüb anasına dedi:

– Damın qırı çatdaq-çatdaqdı, gərək dəyişilsin.

– Ona bizim gücümüz çatmaz, oğul. Bəlkə, hələlik dəlmə-deşiyi sementlə tutaq?

– Sementimiz var?

– Görüm, bəlkə qonşulardan tapdım.

Rübabə sement gətirdi.

Həmid dedi:

– Bəs Mikayıl, İsmayıl hanı, yatıblar?

– Oyaqdılar, yorğan-döşəkdə uzanıb mırt vururlar.

– Çağır, gəlib mənə kömək eləsinlər.

– Bu tələsikdə? Dam qaçmır ki, çay-çörəyinizi yeyin, sora asudəliklə işinizi görərsiniz.

– Damı sementləmək nə qədər vaxt aparacaq ki, tez qurtararıq.

Əkizlər söhbəti eşidib ağız-ağıza verərək içəridən qışqırışdılar:

– Qədeş, gəlirik.

Həmid nərdivanı qoyub dama çıxdı. Əkizlər də bir-biri ilə bəhsə girərək geyinib onun dalınca dama dırmaşdılar.

– Yavaş, ay Allah saxlamışlar, yıxılarsınız. Qoyun, oturmuşuq yerimizdə. Çəpiş kimi dəcəllik eləməyin.

Mikayıl qabağa düşdüyü üçün İsmayıl incidi. Söylənə-söylənə qardaşını dümsüklədi:

– Tez ol çıx də, yolumu kəsmə!

Əkizlər dama çıxan kimi qardaşlarına kömək etmək əvəzinə çimdikləşdilər. Həmid onlara gözünü ağartdı.

Damın qırı, kim bilir, haçan salınmışdı, çat-çat idi. Gərək qoparılıb təzədən əridiləydi, bir neçə yerdə çökmüşdü, görünür, tavanın taxta-şalbanı çürükləmişdi, onlar da dəyişilməli idi. Bunların hamısını eləmək üçün filan qədər xərc lazım idi. Həmiddə bir az pul vardı, onu damın təmirinə sərf eləsəydi, bəs işə düzələnə kimi nə ilə dolanardılar?

Həmid navalçanın qırağındakı yarığa ovcu ilə sement tökəndə həyət qapısı cırıltı ilə açıldı. İçəri bir çarşablı qadın girdi. O, həyətdə çarşabını başından götürdü. Gələn gənc qız idi, on yeddi, on səkkiz yaşı ancaq olardı, elə də zərif, həlim sifəti vardı ki, deyərdin mələkdir, göydən yerə enib. Bu qız kim idi, bu vədə Həmidgilə niyə gəlmişdi? Özünü onlarda necə də sərbəst aparırdı? Hər kim idisə, evdə kişi olmadığını da bilirdi.

Qız əlindəki zənbili yerə qoyub barmaqlarını açıb-bükdü, görünür, zənbil ağır imiş, qulpu əlini incitmişdi.

Həmid əl saxlayıb qıza baxa-baxa Mikayıldan xəbər aldı:

– Kimdi bu qız?

– Eh, tanımırsan, Nurludu də.

– Nurlu kimdi?

– Buna bax e... Nurlunu da tanımır? – Həmidin Nurlunu tanımaması Mikayıla qeyri-adi iş kimi gəldi. – Sənin yoldaşının qızıdı də.

Həmid təəccüb elədi, o hansı yoldaşı idi ki, bu boyda qızı olsun...

– Mənim hansı yoldaşım?

– Balağa əmini deyirəm də. Balağa əmi bəs sənin yoldaşın deyil? Bəs məmə deyir ki, yoldaşındı?!

Nurlunun gəlişindən xəbər tutan Rübabə qonağı qarşılamağa çıxdı. İstiqanlılıqla öpüşdülər. Nurlu zənbili ona verdi:

– Anam yolladı, Rübabə xala, əncir riçalı ilə mövücdür. Nənəm kənddən göndərmişdi bizə, bu da sizin payınızdı.



– Çox sağ olun, Sərvinaz xanım bizə xəcalət verir, ay Nurlu. Mən sizin yaxşılıqlarınızı qəbir evinə kimi unutmayacağam.

Rübabə qonağı otağa apardı. Həmid qardaşlarından soruşdu:

– O bizə tez-tez gəlir?

Mikayıl dedi:

– Nurlu? Tez-tez gəlir. Hərdən Sərvinaz xala da onunla gəlir.

Həmid sementi damın haşiyə daşlarının arasındakı yarığa tökdü. Torbanın dibində qalan sementi navalçanın qıraqlarındakı çuxurlara əndərib, əllərinin tozunu təmizlədi.

Damdan düşdülər. Həmid nərdivanı götürəndə İsmayıl öyünə-öyünə dedi:

– Qədeş, məmə danışır ki, sən özündən böyük, zorba pəhləvanın kürəyini qoymusan yerə.

Həmid zarafata saldı:

– Mən onu yıxmamışam, o özü yıxılıb, öz xoşu ilə.

Əkizlər qardaşlarının sözünü həqiqət kimi başa düşdülər. Mikayıl lağ eləyərək burnunu çəkdi.

– Özü yıxılıb? Day o, nə pəhləvan oldu? Pəhləvan da özü yıxılar?

– Əvvəl özü yıxıldı, sonra da peşman olub cinnəndi mənə.

Rübabə ilə Nurlu həyətə çıxdı. Qız Həmidi görüncə yaşmaq tutdu. Rübabə ilə sağollaşdı, oğlanların yanından ötəndə astaca dedi:

– Həmişə evinizdə-eşiyinizdə olasınız, Həmid qədeş.

Həmid Nurlunun onunla salamlaşmasını gözləmirdi, çaşdı, qızın dalınca dedi:

– Ə... çox sağ olun... sağ olun... Nurlu xanım. Məndən Balağa qədeşə salam söyləyin. Gələcəyəm onu görməyə.

– Salam göndərən sağ olsun.

Rübabə qonağı küçə qapısına kimi ötürdü.

– Balalar, qurtardınız damda işinizi?

– Nə mümkündü, elədik, məmə. Ancaq sement çox davam gətirməz, qır təzələnməlidi.

– Salamatlıq olsun, ay Həmid, təzələrik. İndi tez olun, əllərinizi yuyun, çayımızı içəyin, saat onu keçib.

Rübabə ayrı vaxt səhərlər süfrəyə şor-çörək qoyurdu, bu gün Həmidin gəlişi münasibətilə kərə yağı, bir də Nurlunun gətirdiyi əncir riçalından qoymuşdu. Əkizlər sevinə-sevinə ağızlarını marçıldatdılar.

– Bu gün bayramdı ki...

– Riçal da var.

– Yeyin, balalar, nuşi-can!

Rübabə Həmidin çörəyini götürdü ki, yağ yaxsın, oğlu razı olmadı:

– Uşaq deyiləm ki, mənə qulluq eləyirsən, məmə, özüm yaxaram. Sən rahatlıqla çörəyini ye.

Rübabə arvad gözünü Həmiddən çəkmirdi. "Üstümüzdən əskik olmayasan, gəlişinlə bu kasıb evimiz yaraşığa mindi, ay Həmid. Xata-bala səndən uzaq olsun, qadan gəlsin mənim bu arıq canıma. Sən bizim pənahımızsan. Xudaya, balalarımı sənə tapşırıram. Mənə yazığın gəlsin, dünyada varım-yoxum, sevincim-fərəhim bunlardı. Bu üç oğulu mənə çox görmə".

Əkizlər daraşmışdılar riçala, bəhsə giribmişlər kimi tezliklə dolu kasanı yarı elədilər. Həmid isə riçaldan dadmamışdı. Rübabə dedi:

– Canım-ciyərim, əncir riçalından niyə yemirsən? Sərvinaz xanım göndərib, sənin indiyəcən üzünü görmədiyimiz dostun Balağanın arvadı Sərvinaz xanımı deyirəm. Bayaq Nurlu gətirib.

Həmid riçaldan təndir çörəyinin arasına qoyub yedi.

– Səndən çıxmayan iş, ay məmə, nə əcəb qonağı belə tez qoydun getsin, çay içməyə saxlamadın?..

– Nurlu həmişə bizə gələndə çox oturur. Bu gün sənin gəldiyini biləndə utandı, qalmadı, dedi ki, gedib Həmidin qayıtmasını atama xəbər verim.

Həmid çayını içib süfrədən çəkildi. Əkizlər o qədər yemişdilər ki, nəfəsləri darıxırdı. Rübabə arvad süfrəni yığışdırdı:

– Ayrı şey istəmirəm, hamımız həmişə, bax beləcə bir yerdə olaq, cansağlığı ilə.

Həmid Balağanın onun anasına, qardaşlarına belə qayğı göstərməsindən çox mütəəssir olmuşdu. "Mən o kişinin yaxşılıqlarından necə çıxacağam?.. Qızı gedib deyəcək ki, gəlmişəm. Gərək mən onu qabaqlayım, kiçiyəm".

– Məmə, necə baxırsan, mən istəyirəm ki, gedib Balağanı görüm, minnətdarlıq eləyim.

– Get gör, bala, hələm-hələbət gör. O kişi bizim ağır günlərdə dadımıza çatdı.

– Evlərini tanımıram.

– Uşaqlar tanıyırlar. Nurlu ilə onlara gediblər, səni aparарlar.



– Onda ayaqüstü iş yoldaşlarıma dəyim, görüm körpüdə nə var, nə yox, gəlib uşaqlarla bir yerdə gedərəm.

– Küçəyə çıxırsan, gözdə-qulaqda ol, bala, Çopur Abdullanın adamlarından qorxuram.

– Qorxma, məmə, o əhvalatdan bir il keçib, indi ayrı əyyamdı, elələrinin əl-ayağını yığışdırıblar.

– Nə qədər yığışdırsalar da, namərd namərdliyində qalır.

Həmid qabaqlar hər səhər körpüyə işə gedəndə yolunu Bazarnı küçəsindən salardı. Bu küçə onun yolu üstündəki o biri küçələrdən gur idi. Sübh açılandan ta axşam düşənə kimi gəliş-gedişli, səs-küylü olurdu. İki bazarın – Quba meydanındakı Taxta bazarla Qəssab bazarı arasındakı bu küçədə Qulaməli adlı xoşrəftarlı, gonbul bir "girdovoy" növbə çəkirdi. Qulaməli əllərini dalına qoyub, şiş qarnını irəli verərək küçənin bu başından o başına gedir, qayda-qanuna nəzarət eləyirdi. Uşaq əmziyi dodaqları arasında sıxıb sorduğu kimi, Qulaməli də həmişə fiti ağzında hazır yeriyə-yeriyə yolçulara göz qoyur, elə ki biri cızığından çıxırdı, o dəqiqə fit çalır, ona barmağını silkələyib xəbərdarlıq eləyir, sonra bığlarını tumarlaya-tumarlaya uzaqlaşırdı.

Qulaməli Həmidin yadından çıxmırdı. Qorodovoy deyən kimi o gəlib dururdu gözləri qabağında. Həmidə yəqin idi ki, daha Qulaməli orda olmayacaq, ancaq maraqlandı görsün Bazarnıda neçə adam növbə çəkir.

Həmid Şamaxı yolundan sovuşanda Qubalılar məscidinin qənşərindəki səkidə şirniyyat satanların başına yenə də xeyli uşaq yığılmışdı. Şirin alver gedirdi. Halva, xoruzlu konfet, noğul, peşmək alan uşaqların üzləri gülürdü. Həmid tanıyandan bura həmişə belə basırıq olurdu. O, balaca olanda atası hər pul alanda oğluna üç-beş qəpik xərclik verirdi. Həmid tez cumurdu bura, küncüd halvası alırdı. O, küncüdlü halvanı çox xoşlayırdı.

Bazarnı küçəsi əvvəlkitək gəliş-gedişli idi. Küçədən adamlar, faytonlar, bir də hələ şəhərdə seyrək olan avtomobillər gəlib keçirdi. Yolçuların çoxunun geyimi köhnə idi.

Həmid Qəssab bazarına kimi yolboyu bir-birinin böyrünə düzülmüş dərzi, papaqçı, baqqal, əllaf, dəmirçi, çörək, xalça-kilim, xırdavat dükanlarına tamaşa eləyə-eləyə getdi. Dükanlarda növbənöv mal vardı, içəri girib baxan çox idi, alan az. Hər şey baha idi.

Qəssab bazarındakı xüsusi ət dükanlarında donuz ətindən başqa, hər cürə ət vardı: təzə mal, qoyun, camış, quş əti. Qənarələrdən uzaqdan müştəri çağıran yağlı şaqqalar asılmışdı.

Həmid fikirləşdi ki, gərək qayıdanda piti üçün qoyun ətindən bir girvənkə alıb aparsın.

O, Qəssab bazarından aşağı enib Parapetə çıxdı, oradan da Olginski küçəsi ilə dəniz körpüsünə, köhnə iş yerinə yollandı. Həmid bu küçələr üçün darıxmışdı, elə bil Bakıdan yüz il idi ki, çıxmışdı.

Körpüdə yoldaşları – yükdaşıyan fəhlələr Həmidi ürəkaçıqlığı ilə qarşıladılar. Onun gəlişi nahar fasiləsinə düşmüşdü. Hamı – tanıyan da, onun üzünü görməyib adını eşidən də qonağı yeməyə dəvət elədi. Həmid tox idi, hamıya "sağ olun" deyib körpüyə göz gəzdirdi, elə bir dəyişiklik yox idi, ancaq divarlara şüarlar yazılmış qırmızı parçalar vurulmuşdu: "Yaşasın fəhlə-kəndli hökuməti olan Şura hökuməti!", "Yaşasın dünya inqilabı!", "Bütün ölkələrin proletarları, birləşin!"

Həmid yoldaşlarından Mirhadini soruşdu, dedilər ki, onun girli qızılı varmış, arvad-uşağını götürüb qaçıb İrana. İndi körpüdə əvvəllər "Hacıyarəli" gəmisində matros olan Həbib adlı bir kişini böyük qoyublar. Fəhlələr ona "Matros Həbib" deyirlər.

Həbib otağında çay içirdi, yoldaşları Həmidi onu yanına aparıb tanış elədilər. Matros Həbib dedi:

– Sənin barəndə eşitmişəm, başına gələn qəzadan da xəbərdaram. Səni təqib eləyən hər kimdisə, adını mənə de, çekaya çatdırım, damlasınlar, onun dilindən kağız alsınlar ki, sənin başından bir tük belə əskik olsa, cavabdehdi. Görüm onda o, nə qələt eləyəcək?

– Özüm onlarla bacararam, Həbib yoldaş, mən bura gəlmişəm xahiş eləyim, əvvəlki yerimə işə götürəsiniz.

– Götürərik, elə bizə işçi lazımdır. Sənin kimi işçinin isə gözümüz üstə yeri var. İşə haçan çıxırsan?

– Evdə balaca səliqə-sahman yaratmaqda anama kömək eləyirəm. Biri gündən gəlsəm, necə olar?

– Yarayar, yoldaş Həmid. Familyan nədi?

– Xələfov.

– Yoldaş Həmid Xələfov, birigün səni gözləyirik. Bura, dəftərimə elə belə də yazacağam.

Həmid Bakı üçün darıxmışdı. Körpüdən çıxıb çoxdan görmədiyi tanış küçələri gəzdi. Gözü dolusu şəhərə baxdı. O hələ də inana bilmirdi ki, Bakıdadır, doğma şəhərinə qayıdıb, birisi gündən işə gedəcək.



## XI

Qubalılar məscidinin minarəsində əlini qulağının dibinə qoyub, azan çəkən azançının səsi dalğa-dalğa qonşu məhəllələrə yayılır, dindar müsəlmanları yenə namaza çağırırdı.

Əkizlər qabağa düşmüşdülər, yanaşı gedirdilər. Həmid də onların dalınca. Mikayılla İsmayıl kimin hünərli olmasını böyük qardaşlarına göstərmək üçün bəhsə girmişdilər. O deyirdi, bu deyirdi, bir-birlərinin sözlərini yarımçıq qoyurdular. Mikayıl:

– Mən Balağa əmigildə çox olmuşam, – dedi, – ora gözüyumulu gedərəm, inanmırsan, çıxart yaylığını, bağla gözlərimi.

İsmayıl kürəyini yerə vermədi:

– Eh, buna bir bax, gör nə döyür döşünə? Sən ora o qədər getmisən ki, tanıyırsan də. Mən Balağa əmigildə səndən az olmuşam. Gündüz nədi ki, lap axşamın qaranlığında dalı-dalı gedib onların evini taparam.

Əkizlər mübahisə eləyir, gözləyirdilər ki, böyük qardaşları sözə qarışar, onların ikisindən birinə üstünlük verər. Hər ikisi də özünü haqlı və hünərli hesab eləyirdi. Ancaq Həmiddən səs çıxmırdı, onun fikri başqa yerdə idi. Dayısı Turab yadından çıxmırdı.

Həmid körpüdən evə qayıdanda gördü ki, dayıdostusu Suğra onlardadır, Həştərxandan gəldiyini kimdənsə eşidib. Baldızına gözaydınlığı verməyə gəlib.

Həmid dayısı Turabın öldürüldüyünü əkizlərdən öyrənmişdi, belə qərara gəlmişdi ki, axşam dayıdostusunun yanına getsin. Suğra onu qabaqlamışdı. Suğra çoxdan görmədiyi Həmidin boynunu qucaqlayıb ağlaya-ağlaya demişdi: "Həmişə evində, ananın, qardaşlarının yanında olasan, ay bala. Turab səni də, bizi də arxasız qoyub getdi..."

Turabı haradasa ağlar öldürmüşdülər, qəbrinin yeri də bilinmirdi. Onun üç oğlu qalmışdı, böyüyü on iki yaşında idi. Gərək Həmid bacardıqca dayıdostusuna əl tutaydı. Eh... yazıq Turabın heç otuz altı yaşı tamam olmamışdı.

Onlar Qubalılar məscidindən uzaqlaşdıqca azançının səsi zəifləyirdi. Mikayıl qışqırdı:

– Qədeş, çatdıq, bu da Qanlıtəpə küçəsi.

İsmayıl etiraz elədi:

– Eh, əcəb də çatmışıq. Qədeş, Mikayıl düz demir. Nə olsun ki, bura Qanlıtəpə küçəsidi. Hələ Balağa əmigilin evinə xeyli var,

çatmamışıq. Bax, oranı görürsən. O, qabağında iri tut ağacı olan evi deyirəm. Balağa əmigil orda olurlar.

Mikayıl İsmayılın ağzını əydi:

– Çatmamışıq, çatmamışıq... Necə çatmamışıq? Tut ağacına kimi nə qədər yol var ki, on beş addım, iyirmi olsun.

Həmid əkizlərin birini o birinin ayağına vermədi, qardaşlarının arasında sülh yaratdı:

– İkiniz də düz deyirsiniz.

Onun tərəfini saxlamadığına görə Mikayıl Həmiddən inciyib qabağa qaça-qaça dedi:

– Mən getdim, siz də gəlin!

İsmayıl əksinə Həmidin əlindən yapışdı:

– Mən qədeşlə gəlirəm.

Mikayıl qaçıb tut ağacının altında gözlədi. Qardaşları gələndə hamıdan əvvəl daş hasarlı həyətin qapısını döydü. Qapıya Nurlu çıxdı. Qız oğlanın gəlişindən şad oldu:

– Xoş gəlmisən, ay Mikayıl.

Qız kənarda duran Həmidlə İsmayılı görmədi. Qapını örtəndə Mikayıl xəbərdarlıq elədi:

– A... nöş qapını örtürsən, Nurlu?! Həmid qədeş də gəlib, İsmayıl da.

Nurlu bilməyib qapını qonaqların üzünə bağladığına görə utandı. Tez qapını açdı:

– Bağışlayın, sizi görmədim. Buyurun, gəlin.

Həmid salamlaşıb həyətə keçdi, kandarda dayanıb soruşdu:

– Balağa qədeş evdədi?

– Atam evdədi.

Nurlu qabağa düşdü, yeyin-yeyin pillələri qalxıb qabağında meynə budaqlarından kölgəli talvar düzəldilmiş eyvana çıxdı. Əkizlər də bu evin məhrəm adamı kimi otağa getdilər. Həmid həyətdə gözlədi. Balağa tez aşağı düşdü. Həmidlə doğma qardaş kimi görüşüb qucaqlaşdı:

– Xoş gəlmisən, həmişə elinin-gününün arasında olasan.

– Sağ olun, Balağa qədeş.

Həmid bilməzdi ki, üzünü cəmi üç dəfə gördüyü yad kişi ona tez bir zamanda belə yaxın olar, ailələri arasında ünsiyyət yaranar. O bu uğurlu görüşə çox şad idi.



Balağa qonağı içəri apardı. Sərvinaz xanım da gəlib Həmidlə görüşdü. Onu əlvan xalçalar döşənmiş iri otaqda yuxarı başda əyləşdirdilər. Həmid tanış-bilişlərdə, getdiyi evlərdə bu sayaq bəzədilmiş səliqəli otaq görməmişdi. Divarlara da xalça vurulmuşdu. Xalçanın birinin üstündən çalın-çarpaz iki gümüş, minalı xəncər asılmışdı, o birindən qızılı çərçivəyə salınmış eşmə bığlı kişi şəkli. Şəkildəki yaraşıqlı kişi sir-sifətdən Balağaya oxşayırdı, bu ya onun atası idi, ya da babası. Otağın ortasındakı mizə saçaqlı tirmə salınmışdı. Həyətə açılan iki pəncərənin arasına qrammofon qoyulmuşdu, onun da qabağında bəzəkli nərdtaxta.

Həmid otağa göz gəzdirəndə Balağa dedi:

– Rübabə bacını yaman nigaran qoymuşdun, danış görək hardaydın, nə ilə məşğul idin?

– Həştərxana getmişdim, Balağa qədeş.

– Həştərxanın harasındaydın, şəhərin özündəydin, ya kəndində?

Həmid Həştərxanda keçən günlərindən, başına gələnlərdən danışdı, dedi ki, yerim pis deyildi, ancaq Bakı üçün bərk darıxırdım.

Balağa tütün kisəsindən bir çimdik tütün götürüb qəlyanının odluğuna basdı, onu damağına qoyub alışdırdı, çəkə-çəkə Həmidə göz yetirdi:

– Maşallah, xeyli dəyişmisən, kişiləşmisən.

– Ayrı şəraitə düşmüşdüm, şərait insanı dəyişir, – pencəyinin cibindən pul çıxartdı. – Mən Bakıda olmayanda siz anamgilə əl tutmusunuz, o yaxşılıqlar üçün mənim və anamgilin minnətdarlığını qəbul eləyin, çox sağ olun, Balağa qədeş, mən ömrüm boyu özümü sizə borclu hesab eləyəcəyəm. – Həmid pulu mizin üstünə qoydu. – Bu sizin mən burda olmayanda evimizə göndərdiyiniz pulların kiçik bir hissəsidi. Qalanını qazanıb yavaş-yavaş qaytararam, yenə körpüdə işə düzəlmişəm.

Balağa qəlyanını sümürə-sümürə təmkinlə qulaq asırdı, qaş-qabağını sallamışdı, sanki aralarında söz olmuşdu. O, ərklə Həmidi qınadı:

– Ayıb olsun sənə, Həmid, məni nə hesab eləyirsən?! Bəyəm, mən o pulları geri almaqçün sizə göndərmişdim?! Yox, mən bununla heç kəsin boynuna minnət qoymuram. Biz göz açıb görmüşük, dədə-babadan eşitmişik ki, insan insana dar gündə kömək əlini uzatmalıdı. Sağlığına, mənim hələ ki, dolanmağa pulum var. O pulu da öz

pəlvana, güclü rəqibə təslim oldum. Sənə heyfim gəldi. Çopur Abdullanın xəyanətkar olduğu mənə məlum idi. Nardaran yolunda bir nəfərin qazalağınıza güllə atdığını eşidəndə bildim ki, səni də girləyib. Odu ki, gəlib xəbərdarlıq elədim. Ancaq sən Bakıdan gedən kimi nədənsə fikrimə gəldi, birdən bundan belə nəticə çıxararsan ki, mən Çopur Abdullanın xəyanətini özümdən uydurmuşam, səni aradan çıxarım, meydan qalsın mənə.

Həmid dedi:

– Nə danışırsınız, o fikir heç yatanda yuxuma da girməz.

– Mən ürəyimdən keçənləri sadalamaqla səni nədəsə ittiham eləmək niyyəti güdmürəm, Həmid. Xasiyyətim belədi, bir adam ürəyimə yatdı, ona qanım qaynadı, qurtardı getdi, onunla axıra kimi səmimi oluram. Əgər sənin zərrə qədər mənə hörmətin, ehtiramın varsa, götür o pulu, qoy cibinə və bir də adını tutma, şərtləşdik?

Həmid çarəsiz qaldı, pulları qaytarıb cibinə qoydu, Balağa da söhbətin səmtini dəyişdi:

– Bəs heç xəbər almırsan mən indi nə ilə məşğul oluram. Köhnə işimə qayıtmışam, maarif komissarlığının mətbəəsində qəzet çapçısıyam, yerimdən narazı deyiləm, qazancım da babatdı.

– Mətbəədə işləyirsiniz? Sizinçün çapçılıq kiçik iş olmaz ki?

– Kiçik niyə olur, köhnə peşəmdi.

– Pəlvanlıqdan tamam əl çəkmisiniz? Mən sizə mərdimazarlıq eləmişəm.

Balağa əlini yellədi:

– Düz demirsən, sən olmasaydın da əvvəl-axır biri mənim dərsimi verəcəkdi. Ancaq bilmirəm qarşıma kim çıxacaqdı, o, xahişimə qulaq asacaqdımı?! Sən alicənablıq göstərdin, o qədər adamın qabağında məni yıxıb xar eləmədin. Mən camaatın nəzərində güləşmə meydanından məğlubedilməz pəlvan kimi getdim. Bu, qanan üçün böyük yaxşılıqdı. O ki qaldı pəlvanlıqdan getməyimə, tamam getməmişəm, Həmid, mətbəə işçilərinin klubunda həvəskar pəlvanların dərnəyini açmışam.

Nurlu otağa gəldi, mizin üstündəki tirməni yığışdırıb yerinə ağ süfrə saldı, sinidə çay, mürəbbə gətirdi. Qız qonaqdan utanırdı, başını aşağı dikmişdi, ancaq Həmid onun üzünü görə bildi. Bayaq Nurlu onlara qapı açanda imkan olmamışdı qıza yaxından baxsın. Necə də gözəl idi. Nurluya baxmasını ətrafdakılara, hətta qızın özünə də hiss



etdirmək istəmirdi, yaxşı deyildi. Ha çalışırdı ki, Nurluya baxmasın, bacarmırdı.

Çay dəsgahını hazırlayan Nurlu tez getdi. Balağa qablara qızılgül mürəbbəsi tökdü, armudu stəkanı qabağına çəkdi, çay içə-içə dedi:

– Həmid, mən səninlə böyük qərdeş, xətrini istəyən bir adam kimi danışmaq istəyirəm.

– Buyurun, Balağa qədeş, mən də elə sizi özümə böyük qərdeş hesab eləyirəm.

Balağa keçib Həmidlə yanaşı oturdu:

– Həmid, mən sənin xeyirxahınam, – dedi, – arzum da budu ki, həyatda özünə layiq yer tutasan. Üzünə deyirəm, qoltuğunun altı yellənməsin, səndə əsil pəlvanlıq vergisi var. Bu, hər kəsə nəsib olan xoşbəxtlik deyil. Gərək öz qədrini biləsən və qüvvəni yerində, sənə layiq olan sahədə sərf eləyəsən. Deyirsən ki, təzədən körpüdə işə girmisən. Nahaq, lap nahaq, bu güclə yük daşımaq heyifdi, körpüdə gəmi yükləyib-boşaldan çox tapılar. Mənə qulaq assan, məsləhət görürəm ki, pəlvanlığın dalınca gedəsən. İndi şərait dəyişib. Çopur Abdullanın dövrü keçdi, hökumət sənin kimiləri qanadı altına alır, imkan yaradır bacarığını göstərməyə.

Nurlu gəlib Balağadan soruşdu:

– Ata, çay gətirim?

Stəkanların ikisi də boş idi.

– Gətir, qızım.

Həmidin gözü Nurlunun stəkanları götürən zərif əllərinə sataşdı, qızın barmağında üzük vardı. O, ani olaraq fikirləşdi: “Nişanlısı var yəqin. Belə gözəl qızların başının üstünü tez alırlar”.

– Mənim təklifim ağlına batırmı?

Fikri Nurlunun yanında qalan Həmid Balağaya qəti cavab vermək əvəzinə nəm-nüm elədi.

– Mənimlə açıq danış, Həmid, bunu ancaq sənin xeyrinçün deyirəm.

– Balağa qədeş, mən sizin kiçiyinizəm, xahiş edirəm, inciməyəsiniz. Pəlvanlığa getmək fikrim yoxdu. Çopur Abdulla ilə, sizinlə güləşməyim də təsadüfi oldu. Mən bir də o qələti eləmərəm.

– Səni qınamaq olmaz, Çopur Abdullanın namərdliyi çoxunun gözünü qorxudub.

– Mən Çopur Abdulladan qorxmuram.

– Yox, Həmid, o, qorxulu adamdı. Gərək namərddən ehtiyatlı olasan, onların xənconi həmişə əbasının altında gizlənir, fürsət tapan kimi zərbəni endirirlər. O çağdan Çopur Abdulla şəhərdə bir-iki dəfə rastıma gəlib. Mən ona sənin dalınca adam saldırdığını, siz Nardarandan gedəndə qazalağınıza arxadan naməlum çaparın güllə atmasını dedim. Çopur Abdulla and içib dedi ki, mən o namərdliyi şənimə sığışdırmaram, Balağa. İnan ki, Həmidgilin qazalağına güllə atılmasını eşidəndə cin vurdu beynimə, mən ölüm, bu da kişilikdəndi?! Bir də Həmid kimdi ki, ağzından süd iyi gələn uşaq. Mən aparsam, böyük-böyük pəlvanlarla ədavət apararam, çəkişməyinə dəysin, yoxsa uşaq-muşaqla. O gün heç Həmid məni yıxa bilərdi?! Mən ona əhəmiyyət vermədim, xala xətrin qalmasın güləşdim. Həmid də elə bilir ki, məni doğrudan yıxdı. Ay-hay... Mən elələrinə can verərəm. Hünəri varsa, gəlsin bir də güləşək, böyük puldan da mərc qoşaq, camaat tamaşa eləyib görsün kim nəyə qadirdi.

Nurlu sinidə çay gətirdi və çıxdı. Həmid çox çay içən deyildi, qızın xatirinə bir neçə stəkan da içərdi.

Bu ara küçədə yoğun səslə qışqırdılar: "Su, içməli şollar suyu, gəlin, qurtardı, şollar suyu, su!.." Balağa arvadını səslədi: "Sərvinaz, suçu gəlib, qabları doldurmağı yaddan çıxarmayın". O, qalxıb açıq pəncərədən küçəyə boylandı. Həmid də qalxıb pəncərə qabağına gəldi. Suçu, eşşək arabasını küçənin sağında saxlayıb gəzinə-gəzinə müştəriləri çağırırdı. Arabaya qoşduğu zorba, ağ eşşəyin başına torba salmışdı, o xırta-xırtla quru çörəkləri yedikcə qırıntıları qənbərliyə tökülürdü. Suçunun səsini eşidən qız-gəlin, oğul-uşaq əllərində satıl, vedrə, səhəng küçəyə axışdı. Nurlu da iki vedrə ilə küçəyə çıxdı. Əkizlər özlərini yetirib hərəsi ondan vedrənin birini aldı.

Arabanın üstünə qoyulmuş iri çəlləyin dalında növbə düzüldü.

Qapıda duran Nurlu böyüklərin qoltuğu altından sürüşüb qabağa çıxan Mikayıla, İsmayıla gülə-gülə tamaşa eləyirdi. Suçu məhəllə sakinlərinin bəzilərinə suyu nəqd pulla, bəzilərinə nisyə verir, sonra hər ayın başında hesablayıb hamısını birdən alırdı. O, əkizləri tanımırdı, pul vermədiklərinə görə uşaqların vedrəsini doldurmadı. Bu vaxt Nurlu gəlib suçuya dedi ki, vedrələr onlarınkıdır.

Balağa pəncərədən çəkildi. Həmid də yerinə qayıdanda xalça üstünə vurulmuş kişi şəklinə bir də baxdı. Bu dəfə şəkil ona ayrı cürə



göründü. Bığlı kişi həm Balağaya oxşayırdı, həm də Nurluya. Həmid özlüyündə ata ilə qızın sifətinin cizgilərini müqayisə elədi.

O gün Balağa ilə Həmid xeyli oturdu, söhbətləri tutdu, isinişdilər.

Həmid qardaşlarını yanına salıb Balağagildən qayıdanda hava qaralmışdı, küçələrin fənərləri yanırdı.

* * *

Əkizlər yatmışdılar. Həmid borcları vermək üçün Həştərxandan gətirdiyi pulları anasına uzatdı:

– Al, xərclik elə, məmə, gör uşaqlarçün, özünçün əyin-başdan nə ala bilərsən.

– Nöşün qaytarmadın Balağanın borcunu?

– Almadı.

– Gərək verəydin. Bunları alsaydı, mağul bir az yüngülləşərdik, qalanını sora xırda-xırda verərdik.

– Balağa qədeş sizə göndərdiyi pulun adını çəkdiyimə görə məndən incidi.

Rübabə iynəni saplayırdı, əl saxladı:

– Bəs nə sayaq olacaq?

– Qoy bir fikirləşim, sağlıq olsa, onun əvəzini bir yolla çıxarıq.

Rübabə pulları götürüb yaylığının ucuna düyünlədi.

– Bu pul olmasaydı, camaat necə bir-biri ilə quzu kimi yola gedərdi. Kimə lazımdırsa, gedib dükan-bazardan alardı. Onda nə kasıb olardı, nə dövlətli.

– O cür nağıllarda olur, məmə.

Rübabə yaylığı yumurlayıb qoynunda gizlətdi:

– Nağılı insanlar qoşmayıblar?! Nə olar, dolanışıq da nağıllardakı kimi olsa, fağır-fuğur bundan sevinər. Bu gün siz Balağagildə olanda sən yaşda oğlanla bir sinli kişi gəlmişdi bizə, Mikayılla İsmayılı məktəbə yazdılar. Mənə dedilər ki, gəl səni də yazaq, oxumaq öyrən. Dedim ki, hər şeyim vardı, bircə oxumağım qalmışdı. Gülüb getdilər.

Rübabə yırtıq-yamağını qurtardı. İynə-sap qabını yığışdırıb Həmidin də yerini saldı, özününkünü də.

– Gecdi, oğul, biz də yataq, – dedi.

Həmid Həştərxandan qayıdanı Rübabə asudələşmiş, iştahası, yuxusu qaydaya düşmüşdü. Arvad indi başını yastığa qoyan kimi

yuxulayırdı. Həmidinki əksinə olmuşdu. Həştərxanda olanda elə bilirdi ki, Bakıya gedib anasıgili sağ-salamat görsə, nigaranlığı keçəcək, rahatlanacaq. Ancaq evə gələni onun qayğısı xeyli artmışdı.

Gecənin bir çağı yenə yağış başladı, yenicə huşa gedən Həmid o dəqiqə gözlərini açıb dikəldi. Yağış elə tökürdü ki, elə bil bu saatca damı deşib çıxacaq. "Barı bu gecə otaqlar dammayaydı. Səhər çəkdiyimiz əziyyət hədər getsə, heç nə..."

Həmid yatan otaq dammırdı. O qalxıb anası yatan otağa baxmaq üçün ara qapını açanda Rübabə qaranlıqdan dilləndi:

– İndiyəcən yatmamısan?

– Yağışa oyandım, otağınız dammır ki?

– Hələ ki, dammır. Damanda nə olar, öyrəşmişik, ovgar olma, get yat, məmə sənə qurban.

Həmid gəlib yerinə uzandı, yağış şıdırğı töksə də, otaqlar dammırdı. O rahat idi, daha damı döyəcləyən damcılar əsəblərinə təsir eləmirdi. Ancaq bu damcıların qopardığı gurultu və tappatap ona Həştərxanda müsəlman alayının klubundakı çıxışını xatırladırdı. Onda Həmid hər nömrəni göstərəndən sonra əsgərlər əl çalır, ayaqlarını döşəməyə döyür, onu yenidən səhnəyə çağırırdılar. Əgər axırda boynu yaralanmasaydı, o axşam nə gözəl keçəcəkdi... Həmid özü də o günkü çıxışından, tamaşaçılardan az həzz almırdı...

Daşoynatmağı öyrənməyini və Həştərxanda camaat qabağında çıxışlarını Həmid heç anasına da deməmişdi. "Görəsən, Balağa qədeş də daşoynatmağı bacarırmı? Daşoynatmaq pəlvanlıq kimi şeydir də, bacarmamış olmaz, neçə ilin pəlvanıdı".

Həmid Nurlunu görəndən qız fikrindən çıxmırdı. O, Nurlunu görmək üçün imkanı olsaydı, hər gün Balağagilə gedərdi. Ancaq necə gedəydi, yaxşı düşməzdi. Onlara getməyə gərək bir səbəb olaydı, evdəkilər duyuq düşməyəydilər.

Nurlunun xəyalı ilə Həmidi yuxu apardı.

– Həmid, ay Həmid.

O, adının ucadan çağırılmasına diksindi, oyananda gördü ki, anası Rübabə balışının yanını kəsdirib.

– Ay bala, ay başına dönüm, qıymırdım səni oyatmağa, bivaxtdı, dur geyin, işə gecikirsən.

Həmid durub tələm-tələsik geyindi.



## XII

Bakı limanında gecədən içi taxta-şalbanla dolu iri bir gəmi dayanmışdı. Deyirdilər ki, o, Rusiyadan gəlib.

Həmid səhər işə gedəndə qoca fəhlə Səfər dayı ona dedi ki, sən Bakıda olmayanda bura bir nəfər gəlmişdi, səni soruşdu, dedik yoxsan, inanmadı. Bir-iki gün gəlib körpünün ətrafında dolandı, sonra görünmədi. Həmid xəbər aldı kimdi? Səfər dayı dedi ki, təhər-töhüründən şəhər əhlinə oxşamırdı. Çopur Abdulla gəlib durdu Həmidin gözü qabağında, fikirləşdi ki, soruşan Çopur Abdulla olmaz, hər kimsə onun adamlarındandır. "Balağa qədeş məni vaxtında aradan çıxartdı".

Həmid çiynində iri bir şalban gəmidən enəndə aşağıda matros Həbiblə üz-üzə gəldi. Matros Həbib dayanıb camaatın işləməsinə göz qoyurdu. Həmidin ağır şalbanları tək daşıması onun döşünə yatdı:

– İşləmək buna deyərəm, afərin, Xələfov!

Həmid şalbanı anbarın qabağındakı açıqlığa qoyub qayıtdı. Orda iki fəhlə şalbanları səliqə ilə üst-üstə yığdı. Xeyli şalban vardı, adamboyu dörd sıra yığılmışdı, beşinci sıra da yarı olmuşdu.

Qabaqlar Həmid Ənzəlidən, Lənkərandan, Həştərxandan, Krasnovodskdan gələn gəmilərin yükünü çox boşaltmışdı. Onda çox vədə mal sahibləri – tacirlər, ağalar özləri, ya da onların adamları körpüyə gəlib fəhlələrə göz qoyurdular ki, yükü boşaldanda ora-bura atıb zay eləməsinlər.

Bu gün körpüyə öz malının dalınca gələn yox idi. Yük hökumətin idi. Bundan sonra da gələn olmayacaqdı, ağalar ağalıqdan düşmüş, tacirlərin əl-ayağı yığışdırılmışdı.

Qəlyanını sümürə-sümürə körpüdə gəzib işin gedişinə nəzarət eləyən Matros Həbibin gözündən heç nə yayınmırdı, elə ki, biri tənbəllik elədi, Matros Həbib deyirdi:

– Bura bax, ay yoldaş, ağalarla birdəfəlik qurtardıq, işləmirsən – xoş gəldin, bizə tənbəl lazım deyil. İnqilabı bununçün eləməmişdik.

Fəhlələr danışırdılar ki, Həbib işə can yandırmadığı üçün iki nəfərə xəbərdarlıq eləmişdi, düzəlməmişdilər, onları işdən çıxarmışdı. Tənbəl adam gözünün düşməni idi. Bəzən iş ləngiyəndə özü də qollarını çırmalayıb qoşulurdu fəhlələrə, yük daşıyırdı. Odur ki, körpüdə heç kim Matros Həbibin bir sözünü iki eləmirdi.

Həmid birinci gündən Matros Həbibin sevimlisi oldu, onu başqalarına nümunə göstərməyə başladı. Həmidin kisələri qoşa-qoşa daşımasını görəndə deyərdi:

– İşləyəndə belə işləyəsən, baxanda ürək açılır. Yoxsa əlayarımçıq iş görən adamlarla inqilabın nailiyyətlərini möhkəmləndirmək olmaz.

İnqilab sözü Həbibin dilindən düşmürdü. O, körpüdə görülən hər işi inqilabla bağlayırdı.

İşə başlamasından on-on beş gün sonra nahar fasiləsində Həmid sahildə dayanıb dənizə tilov atan balıqçılara baxırdı. Böyründən qulağına tanış səs dəydi:

– Nə bic balıq imiş, soxulcanı tilovdan didişdirib apardı, özü düşmədi. İndi mən ona bicliyini göstərərəm.

Balıqçı, tayqulpluda tərpəşən soxulcanlardan birini götürüb tilovun ucuna keçirdi və onu təzədən suya atdı.

Bu, kimin səsi idi, Həmidə belə tanış gəlirdi? O, yaxına gəlib üzünə baxanda balıqçı yerindən sıçradı:

– Həmid?

– Davud, sənsən?!

Balıqçı, Həmidin Həştərxanda rast gəldiyi əsgər Davud idi, indi adi paltar geyinmişdi.

– Alə, Həmid, Həştərxandan haçan gəlmisən? Sən burda neynirsən, balıq tutursan?

– Əvvəlki yerimdə işləyirəm. Burada körpüdə yükdaşıyanam.

Davud içində bir neçə xul, şahmayı balığı olan vedrəsini dala çəkdi:

– Ayaq üstə dayanma, gəl otur burda, söhbət eləyək.

Həmid oturmadı:

– Nahar fasiləsinə çıxmışam, indi zəng vurulacaq.

– Belə-belə işlər, demək, yenə körpüdə yük daşıyırsan? – Tilovun ipi tərpəndi. Davud elə bildi ki, balıq düşüb, onu tez çəkib sudan çıxartdı, qarmaq boş idi, tilovu təzədən dənizə atdı. – Alayımız Həştərxandan Bakıya gələndən sonra ara sakitləşən kimi bizi əsgərlikdən buraxdılar. Salyanski kazarmadakı hərbi məktəbə, komandirlik oxumağa göndərdilər, getmədim, voyenni olmaq təbiətimə ziddi. Mənə sakit bir iş lazımdı, başımı aşağı salıb çörək pulu qazanım, saatsazlıq kursuna girmişəm. Evdə xarab olan saatınız varsa, gətir düzəldim.

– Elə bu?.. Bəs bir yerdə işləmirsən?



– Necə işləmirsən, işləməyib dolanmaq olar? Həm də gecələr mədəndə qarovulçuluq eləyirəm, axranam. Hərdən boş vaxtım olanda bura balıq tutmağa gəlirəm. – Həmidin üst-başına, köhnə pencəkşalvarına fikir verdi. – Sənə baxıb təəccüb eləyirəm. Alə, Həmid, bu güclə gəlib körpüdə fəhləlik eləyərlər? Burdan ayda nə qədər alırsan, köpük-quruş? Meylin olsa, o pulu ayrı yerdə ikicə günə qazanarsan.

Elə bil Davud Həmidlə deyildi, o, barmağını vedrəyə salıb yuxarıda üzən xul balığı hürküdürdü.

– Burda mənimçün pis keçmir. Çörək pulum çıxır, bəsimdi.

– İndi heç kəs çörək pulu dərdi çəkmir, hərəyə bir iş veriblər, dolanır. Amma sənin kimi igidin körpüdə yük daşıması heyifdi. Mən sənin kimi olsam, bura ayaq basmaram. Barı, özünə təmiz bir iş tap. İstəsən, mən səni bizim saatsazlıq kursuna düzəldə bilərəm.

Hələ də vedrədəki balıqlarla əylənən Həmid şaqqanaq çəkib güldü:

– Məndən saatsaz olar? Qaş düzəldən yerdə vurub gözünü də çıxararam, basaram mexanizmi əzik-əzik olar. Saatsazlıq invalid sənətidi. Mənə yaraşmaz.

Davud pərt oldu:

– Alə, bu nə sözdü, bəyəm mən invalidəm?! Saatsazlıq ağayana sənətdi, əl-ayağın, üst-başın tərtəmiz, oturub işini görürsən, saat mexanizmini sındırmaqdan qorxursansa, orda tikiş maşını təmir eləmək kursu da var, ona yazıl.

– Yerimdən şikayət eləmirəm, qərdeş.

Körpüdə nahar fasiləsinin qurtarmasını bildirən zəng səslənəndə Həmid qalxdı:

– Sağlıqla qal, mən getdim.

– Bəs səninlə necə görüşək, əvvəlki məhəllədə olursunuz, mənə dediyin yerdə?

– Elə ordayıq.

– Bəlkə, sizə gəldim.

– Gəl, axşamlar evdə oluram.

Həmid körpüyə qayıtdı, işin axırına qədər gecə gələn gəminin taxta-şalbanını boşaldıb qurtara bilmədilər, üstəlik, günorta yük dolu bir gəmi də körpüyə yan aldı. Matros Həbib təntimişdi, işin qurtarqurtarında fəhlələri yığıb dedi:

– Yoldaşlar, əlimyandıdayıq, bir gəmini boşaltmamış o biri gəlib, hər kəs mümkün eləyirsə, evdə vacib bir işi yoxdursa, qalsın, nə qədər

hava qaralmayıb gəmidən taxta-şalbanı boşaldıb qurtaraq, bu gəmi getsin. Mən bunu sizdən xahiş edirəm, yoldaşlar. Çünki mənim inqilabımızın bizə verdiyi səkkiz saatlıq iş gününü pozmağa haqqım, səlahiyyətim yoxdu. Sizdən acizanə surətdə ricam budu ki, məni düzgün başa düşün.

Fəhlələrdən Matros Həbibə qulaq asanlar da oldu, ona etiraz edənlər də. Üç-dörd nəfər söylənə-söylənə çıxıb getdi. O birilər gəmidəki taxta-şalbanı boşaltmayınca evə getmədilər.

Ertəsi gün Həmid körpüdən çıxanda Matros Həbib ondan soruşdu:

– Yoldaş Xələfov, harda yaşayırsan?

– Şamaxı yolundakı karvansaranın dalında.

– Onda dayan, bir yerdə gedək, sənə yoldaş olum. Biz də Toyuqyeyən hamamının böyründə oluruq.

Həbib Namazzadə gəmidə çoxdan xidmət eləməsə də, köhnə matros paltarını soyunmamışdı, başında günlüksüz papaq, əynində nimdaş buşlat vardı, qədd-qaməti də sərv ağacı kimi dübbədüz.

– Bu gün ay işlədik ha...

– Nə deyirsən de, körpünü sakit görəndə elə bil çalğısız toyda oturmuşam, darıxıram. Gərək körpü arı yuvası kimi səhərdən axşamacan qaynasın, gəminin biri gedib, o biri gəlsin.

Matros Həbib yanı ilə addımlayan Həmidin boy-buxununu birinci dəfə görürmüş kimi dedi:

– Xələfov, səndən nə gəmi kapitanı olar?! Anadan xalis dənizçi doğulmusan.

Matros Həbibin sözü Həmidə gülməli göründü. Son zamanlarda kiminlə tanış olurdusa, hərə ona bir peşənin dalınca getməyi məsləhət görürdü. Mirhadi deyirdi ki, yük daşımaq sənin boynuna biçilib. Fəttah, Pyotr Anisimoviç deyirdi ki, sən gərək ağır atlet olub daş qaldırasan. Balağa deyirdi ki, sənin yerin xalça üstüdür, pəlvan olmalısan. İndi də Həbib Namazzadə ona ayrı peşəni məsləhət bilirdi. Həmid güldü.

– Gülmə, Xələfov, mən sənin xeyrinə deyirəm.

– Məndən kapitan olar?

– Nöşün olmur, kapitan da olar, miçman da.

– Ora mən girən kol deyil, yoldaş Namazzadə.

– Razılıq versən, mənim Xəzər hərbi dənizçilərinin siyasi şöbəsində bir tanışım var, səni düzəldərəm ora.



Həmid düşünmədən qətiyyətlə dedi:

– Yox, yoldaş Namazzadə, Mirhadi kişinin sözü olmasın, mənim yerim elə körpüdü, yük daşımaqdı.

Matros Həbib mısmırığını salladı:

– Xələfov, mən deyirəm dəmdən dəmə, sən deyirsən damdandama. Ay yoldaş, ay mənfəətini bilməyən yazıq, mən sənə o şeyi məsləhət görürəm ki, həm sənin özünə, həm də bizim inqilabımıza daha çox xeyri var. Səndə günah yoxdu, cavanların çoxu belədi, böyüklərin sözünə qulaq asmayanlar sonra zərərini çəkirlər. Neynək. Xudahafiz. Mənimki səninlə buracandı. Burda bir köhnə dəlləyim var, başımı qırxdırmağa gedirəm.

Matros Həbib Qəssab bazarının yanında ondan ayrıldı. Həmid bərk acımışdı, yeyin-yeyin evə yollandı. Bazarındakı dərzi dükanının qabağından sovuşanda arxasından qadın gülüşü eşidib çevrildi. Biri sürməyi, o biri innabı rəngdə çarşaba bürünmüş iki qız yanından ötüb küçənin o tayına keçdi. Həmid ötəri gördüyü qızların birini Nurluya oxşatdı. O gün onlara gələn Nurlu da innabı çarşab örtmüşdü. "Qızlar mənim yanımdan ötəndə niyə güldülər? Bəlkə, onların biri Nurludu, güldü ki, mən dönüb ona baxım..."

Həmid də küçənin o tayına keçdi, tini burulan qoşa qızı görmədi. Zərgər dalanına kimi gedə-gedə küçədən keçənlərə göz qoydu, qızları görmədi, yan-yana düzülmüş zərgər dükanlarındakı müştərilərə baxdı, qızlar orda da yox idilər. "Mənə nə düşüb ki, onları axtarıram?"

Həmid əvvəllər evlənməyi xəyalına da gətirmirdi, ancaq Nurlunu görəndən bəri onunla ailə həyatı qurmaq, ən şirin və əlçatmaz arzusu olmuşdu. "Nurlu mənə gələrmi?! Bəlkə, nişanlıdı, göbəkkəsməsi var? Birdən adaxlısı olsa... olmasa necə? Onda da hələ məsələ həll olunmur. Nurlunu alıb hara gətirim, bizim içinə yağış tökülən evə?" Nurlunu o cür rahatlıqdan ayırıb köhnə evə gətirmək Həmidə ar gəldi: "Mənim nəyim var, bir həsirəm, bir də Məmmədnəsir".

## XIII

Çapçılar klubunun qabağında cavanlı-qocalı xeyli kişi yığılmışdı. Bu axşam klubda Balağa Aslanzadənin təlim verdiyi gənc pəhləvanların birinci çıxışı olacaqdı. Klubun elan lövhəsinə vurulmuş afişada Balağanın adı, familiyası iri hərflərlə yazılmışdı, gələnlər oxuyur, danışa-danışa içəri keçirdilər.

Həmidlə Davud gələndə tamaşanın başlanmasına az qalmışdı.

Həmid qapının qabağında Umur babaya oxşayan bir saqqallı, şaqqalı kişi görüb diksinən kimi oldu. Əgər qocanın başına gələn qəzanı bilməsəydi, ona yaxınlaşar, salamlaşardı. Umur baba axırıncı dəfə Həştərxana gəlib Həmidlə görüşəndən sonra daha Bakıya qayıtmamışdı. İngilislər onları dənizin ortasında yaxalayıb öldürmüşdülər. Bunu Həmid Zığa gedib qocanın kürəkəni Hənifədən öyrənmişdi. İndi Umur babanın sahildəki balıqçı komasında onu böyük nəvəsi təzə gəlini ilə yaşayırdı.

Umur baba da Turab kimi inqilab naminə, azadlıq yolunda qurban getmişdi. Turab firqəçi idi, bolşevik idi, ancaq Umur baba firqənin nə olduğunu bilmirdi. O, sularında əsrlərdən bəri dədə-babasının balıq tutub güzəran keçirdiyi dəli Xəzəri azad görmək istəyirdi. Qoca hər dəfə dənizdə xarici gəmilərlə rastlaşanda elə bilirdi ki, əcdadının müqəddəs ruhunu təhqir eləyirlər, dünya başına fırlanırdı.

Həmid saqqallı qocaya baxa-baxa qalmışdı. Davud onun qolundan dartdı:

– Nə baxırsan, alə, qoca görməmisən? Gəl gedək, yer tutaq, ayaq üstündə qalarıq.

Onlar içəri getdilər. Zaldakı yerlərin yarısından çoxu tutulmuşdu. Qapıya yaxın qıraq yerlər boş idi, orada əyləşdilər. Kluba gələnlərin əksəriyyəti mətbəə işçiləri idilər. Fəhlələrin bəziləri iş paltarında idi, evə gedə bilməmişdilər. Zaldan qurğuşun, rəng iyi gəlirdi.

Tezliklə boş yerlərin hamısı doldu. Divar dibində ayaq üstdə dayananlar da çox idi, səs-küy, danışıq bir-birinə qarışmışdı. Həmidin qulağına arxadan tanış səs gəldi, onu haradasa eşitmişdi. Dönüb əyləşənlərə göz gəzdirdi, sağına, soluna baxdı, tanış bir adam görmədi.

– Dayoğlu, ay dayoğlu, burda bir boş yer var, gəl əyləş.

Tanış səsə Həmid yenə arxaya döndü. Üç sıra dalda əyləşən kök bir kişi keçiddə ayaq üstündə qalan arıq kişini yanına çağırırdı. Arıq kişi basabasda onun yanına keçə bilmirdi. "Bu kişi kimdi? Səsi mənə necə tanış gəlir?" Bu tərəfə dönəndə Həmid onun üzünü gördü. Çopur Abdulla idi. Səhv eləmədiyinə tamamilə əmin olmaq üçün bir də dönüb baxdı: "Çopur Abdulladı".

Davud dedi:

– Alə, sənə nə olub, yumurtası tərs düşmüş toyuq kimi yerində vurnuxursan?



Həmid nədən ötrü geri çöndüyünü Davuda demədi.

"Yaxşı əlimə düşüb... Tamaşa qurtaranda onunla görüşərəm..."

Çopur Abdulla tək deyildi, "dayoğlu" deyə çağırdığı kişidən başqa, onun yanında özü kimi bir şaqqalısı də əyləşmişdi. Camaat sakitləşsə də, onlar ucadan danışırdılar.

Çopur Abdulla deyirdi:

– Başlasınlar da, kimi gözləyirlər? Duzlu badımcanı bardağa dolduran kimi camaatı yığıb doldurublar bura. İstidən bişdik ki, qapıları da möhkəm bağlayıblar, içəri hava gəlmir.

– Abdulla, ağlın nə kəsir, yəni gəlməyimizə, sən demişkən, burda istidən bişməyimizə dəyər? Bir şey görəcəyik?

Çopur Abdulla ağzını nırçıldatdı:

– Onu gözləmə.

Onların yanlarında əyləşən tanımadıqları cavan fəhlə dedi:

– Mən eşitmişəm, aralarında bir-iki nəfər qabiliyyətlisi var.

Çopur Abdulla onunla razılaşmadı:

– Yaxşı pəlvanı çölə töküblər ki, ya... gedib istədiyin qədər yığasan. Balağadı da, odu söndürüb küllə oynayır. Fəhlə-fühləni yığıb, pəlvan hazırlayıram deyə bununla özünü hökumətin gözünə soxur. Pəlvanı da dəstə ilə hazırlayarlar? Bu da təzə çıxıb?

Cavan fəhlə mətbəənin hərf yığıcısı idi. Balağanı uzaqdan tanıyırdı, onun haqqında pis söz eşitməmişdi. Çopur Abdullanın danışığı oğlanda etiraz doğurdu:

– Balağanın özünü hökumətin gözünə soxmağa ehtiyacı yoxdu. Məşhur pəlvandı, hamı onu sevir, yaxşı da kişidi. Mətbəədə də vicdanla işləyir. Başqası olsaydı, güləşmə həvəskarları ilə məşq keçdiyi üçün hökumətdən haqq alardı, o, müftə eləyir.

– O da onun çoxbilmişliyindəndi, – deyə Çopur Abdulla cavan fəhləni avam yerinə qoydu. – Sən elə qəliz şeyləri başa düşməzsən, bacoğlu.

Cavan fəhlə söz altında qalmadı:

– Bəlkə, sizinçün qəlizdi, amma mən burda qəliz bir şey görmürəm, əmi.

Çopur Abdulla cavan fəhləni acıladı:

– Alə, səninlə danışan var, nə bir köpüklük qutab kimi girmisən ortaya?!

Çopur Abdulla özündən çıxsa da, cavan oğlan coşmadı:

– Əmi, mən fikrimi deməkçün sizdən icazə almalıyam?!

– Əh... cəhənnəmə-gora ki, çənə özünündü. Nə qədər istəyirsənsə, çərənlə.

– Bu olmadı ki, siz dava-dava deyirsiniz. Biz bura gənc pəhləvanlara baxmağa gəlmişik, dava eləməyə yox.

Çopur Abdulla acıqla yanpörtü əyləşib dalını cavan fəhləyə çevirdi və yoldaşı ilə söhbətini davam etdirdi:

– Sən öləsən, bu Balağanın bəxti var e... Zalım oğlunu qovuq kimi üfürüb şişirdə-şişirdə göyün yeddi qatına qaldırıblar, içində də bir şey yoxdu.

Cavan oğlan Çopur Abdullanın hirslənməsindən həzz alırmış kimi ehmalca qımışdı. Həmid onların sözləşməsini eşidirdi. Oğlan onun ürəyindən tikan çıxarırdı.

Sürməyi pərdə tərpəndi. Balağa səhnənin qabağına çıxdı. Tamaşaçılar onu görüb qızğın alqışladılar. Həmid də əl çala-çala dönüb Çopur Abdullaya baxdı, onun qaşqabağından zəhər tökülürdü. Nə o əl çalırdı, nə də yoldaşı. Balağanı alqışlayanlar sanki Çopur Abdullanın dədəsini söyürdülər.

Balağa dedi:

– Əziz yoldaşlar, indi sizin qarşınızda öz yoldaşlarınız, gənc pəhləvanlar çıxış edəcəklər. Onların hamısı həvəskardı. İşdən sonra boş vaxtlarını güləşməyə sərf edirlər. Bu gənclərin arasında elələri var ki, mən əminəm, onlar yaxın gələcəkdə Şura Azərbaycanının, bizim cümhuriyyətin adını başqa yerlərdə keçirilən yarışlarda namusla, ləyaqətlə ucaltmağa qadirdilər.

Tamaşaçılar Balağaya sözünü axıra kimi deməyə macal verməyib alqışlayırdılar. Həmid elə ürəkdən çəpik çalırdı ki, ovuclarının içi qızarmışdı.

– Əziz yoldaşlar, bir də sizə xatırladıram. Bu gün biz yarış keçiririk. Gənc pəhləvanların göstərmə çıxışı olacaq, yəni yıxan, yıxılan olmayacaq.

Tamaşaçılardan bəziləri etirazlarını bildirdi:

– Nə yıxılan olacaq, nə yıxan?! Bu, nə sözdü, day o nə güləşmə oldu? Bir kərəmlik denən ki, tiatır çıxaracıyıq, siz də ərtistlərə baxacaqsınız.

– Kabab iyinə gəldik, gəlib gördük ki, eşşək dağlayırlar.



Tamaşaçıların etirazı Çopur Abdullaya ləzzət verirdi. O çönüb sağında əyləşən cavan fəhləyə eşitdirdi:

– Balam, kişilər düz deyirlər də, biz bura tiatra baxmağa gəlmişik?! Güləşirlər, adam balası kimi güləşsinlər. Biz də baxıb deyək ki, kimin qabında nə var. Yoxsa, nə göstərməbazlıqdı.

Cavan fəhlə Çopur Abdullanın dediklərini saya salmayıb daha da ucadan əl çalırdı. Sanki onlar kim kimi üstələmək barəsində bəhsə girmişdilər. Çopur Abdullanın sözlərini Davud da eşitdi, dönüb arxaya baxdı, görsün qeybət eləyən kimdir:

– Həmid, daldakıların söhbətini eşidirsən?

– Bayaqdan qulağım onlardadı, dəyirman kimi üyüdürlər.

– Onlar kimdi, tanımırsan ki? O yekəpər Balağanın kölgəsini qılınclayır, elə bil, atasını öldürüb.

Balağanın işarəsi ilə pərdə açıldı. Kiçik səhnənin sağında və solunda gənc pəhləvanlar boy sırası ilə düzülmüşdülər. Ortaya iri xalça salınmışdı. O, balaca səhnənin dərinliyində, görümlü yerdə dayanaraq gənc pəhləvanların bir-bir adını çəkir, harda işlədiyini deyir, tamaşaçılara təqdim edirdi. Onların arasında mətbəə işçilərindən başqa, şəhərin mədən və zavodlarında işləyən fəhlələr də vardı. Adı çəkilən hər gənc pəhləvan bir addım irəli çıxıb alqışlara baş əyir, yerinə keçirdi. Adı axırda çəkilən bəstəboy, kürən oğlan irəli çıxanda Çopur Abdulla dedi:

– Alə, bu, bizim əminəvəsi Firuzdu ki... O da pəlvanlıq öyrənir?!

Yanında əyləşən Çopur Abdullaya tənə vurdu:

– Qohumun sənin kimi gözəl pəlvanı qoyub Balağaya şagirdlik eləyir. Bu, nə haqq-hesabdı?

– Əh... Qoy getsin, Firuzdan da pəlvan olar?!

– Görəsən Balağa bilir Firuz sənin qohumundu?

– Çox güman bilmir, qurdlunun biridi, bilsə, onu yaxına buraxmaz, salam-kəlamımız olsa da, mənimlə çoxdan qanlı-bıçaqdı.

Birinci Çopur Abdullanın əminəvəsi Firuzla onun özütək pota bir oğlan güləşdi. Gənc pəhləvanların ikisi də usta kimi güləşir, bic, gözlənilməz fəndlər işlədir, hərə öz bacarığını göstərirdi. Lakin Firuz rəqibindən daha cəld və güclü görünürdü. O, hər fənd işlədəndə tamaşaçıların əl çalmasından hiss edilirdi ki, camaatın rəğbəti Firuzadı. Çopur Abdulla qürrələnə-qürrələnə yoldaşını dümsüklədi:

– Balam, yenə də sağ olsun bizim nəsil. Görürsən Firuz nə qan eləyir...

Çopur Abdullanın yoldaşı haqqına danışdı:
– Balağa da sağ olsun ki, ona elə fəndlər öyrədib.
– Yenə Balağa?! – Elə bil udduğu tikə Çopur Abdullanın boğazında qalmışdı, gücənə-gücənə udqundu. – Əgər Firuzun qabında bir şey olmasaydı, Balağanın babası qəbirdən xortlayıb gəlsəydi də, onu pəlvan eləyə bilməzdi. Sən də nə Balağa, Balağa salmısan, alə...
Birinci iki pəhləvan göstərmə güləşini qurtarıb minnətdarlıqla müəllimləri Balağanın əlini sıxanda Çopur Abdulla dodaqaltı deyinə-deyinə bığını sığallayırdı.
O axşam güləşən genc pəhləvanların hamısını hərarətlə qarşıladılar. Hamı, hətta ayaq üstə duranlar da qalıb axıra kimi onlara tamaşa elədilər. O axşam Həmidin gözü səhnədə güləşən genc pəhləvanlarda qalmışdı, qulağı arxasında əyləşib əvvəldən axıradək ağzını Allah yoluna qoyub hərzə-hərzə danışan Çopur Abdullada. Camaat dağılışanda Həmid Davuda dedi:
– Sən o çopur kişini gözdən qoyma, mən Balağa qədeşə xəbərdarlıq eləyib, tez gəlirəm.
Həmid foyeyə cumub səhnə arxasına gedən qapını axtardı. Davud tələsmədən yoldaşları ilə danışa-danışa klubdan çıxan Çopur Abdullanın dalına düşdü. Çopur Abdulla kəhrəba təsbehini şaqqıldada-şaqqıldada çevirib, heyifsilənirdi:
– Bu axşam da belə güdaza getdi. Məni Çəmbərəkəndə bir dostum düşbərə-qutaba çağırmışdı, getmədim. Mən də qutabın ölüsü, gərək gedəydim.
– Klubda da pis olmadı, Abdulla qədeş, – yoldaşı ondan təsbehini alıb çevirdi. – Gəlib tamaşa elədik, bildik ki, indi də pəlvanları dəstə ilə kluba yığırlar, məktəbdə olan kimi üstlərinə də bir müəllim qoyurlar.
Çopur Abdulla dedi:
– Müəllim də, nə müəllim...
Davud aralı gedir, Çopur Abdullanı gözdən qoymurdu. Hava qaralmışdı. İşıqlar yansa da, yenə küçə qaranlıq idi. Klubdan yüz metrə kimi aralanmışdılar. Həmid gəlib çıxmırdı. "Bu harda qaldı, yubanacaq, sonra gəlib məni tapmayacaq..." Davud gedə-gedə tez-tez dönüb arxaya baxırdı, nigaran idi. Bir də dönüb baxanda gördü ki, Həmid ona əl eləyib çağırır. Geri qayıtdı.
– Məni nöş çağırdın? Çopur aradan çıxar ki...



– Balağa deyir ki, qoy rədd olub getsin. Biz Çopur Abdullaya baş qoşsaq, onun tayı olarıq.
Çopur Abdullagil harasa çıxıb getdilər. Həmidlə Davud klubun qabağına gəlib Balağanı gözlədi. Davud soruşdu:
– O çopur kişi kim idi güdürdüm?
– Sənə Həştərxanda deməmişdim, nöşün ora qaçmışam. Məni Bakıdan didərgin salan bu Çopur Abdulla idi.
– Belə de... Klubda yaman qazlı-qazlı danışırdı.
Həmid Nardaran əhvalatını Davuda danışdı. Davud əlini dizinə vurdu:
– Bunu indi deyərlər? Bilseydim, onu buraxmazdım getsin. Mən ona bir-iki kəlmə yaxşı söz deyərdim.
– Düzü, mən də onu çoxdan axtarırdım. Ürəyim dolu idi, Balağa məsləhət görmədi danışım.
– Bica yerə, gərək onunla birlikdə danışaydıq, sənin dalınca o vaxt adam saldırmasını boynuna almasa da, görərdi ki, əclaflığından çoxu xəbərdardı. Onun atasını dalına sarımaq lazımdır.
Balağa gəlib söhbətin üstünə çıxdı:
– Kimin atasını dalına sarımağı məsləhət görürsən?
– Kim olacaq, Çopur Abdullanı deyirəm.
– Siz də ədavət aparmağa adam tapdınız?! O bu dünyaya belə gəlib, belə də gedəcək. Qozbeli qəbir düzəldər.
Həmid dostu Davudla Balağanı tanış elədi.
– Bu da səninlə körpüdə yükdaşıyandı?
– Yox, Davud saatsazdı.
– Saatsaz? – Balağa Davudun əlini sıxdı, onun barmaqları ağrısa da, üzə vurmadı. – Bundan sonra saatımız xarab olanda day uzağa getmərik.
– Gözüm üstündə yeriniz var, Balağa qədeş, dükanım Bazarnıdadı, buyurun gəlin.
Onlar evə gedəndə Balağa Həmiddən xəbər aldı:
– Çopur Abdulla səni görmədi ki?
– Gərək ki, görmədi.
– Ağıllı iş görüb, ona bənd olmamısan. Cəncəl, xatalı adamdan gen dolanmaq məsləhətdi. Hərçənd indi Çopur Abdulla kimilərin əl-ayağını yığışdırıblar, ancaq nanəcib nanəcibliyində qalır. Mən eşidəndə ki, o, dəyirmanda işə düzəlib, çox sevindim, dedim başı işə qarışar, yan-yörəsindəkilərlə öcəşməz.

Həmid soruşdu:

– Nə işə düzəlib?

– Çopur Abdulla özünü ağır işə verər? Hacı Zeynalabdin Tağıyevin keçmiş dəyirmanında qarovulçuların böyüyüdü.

– Qaroul böyüyü? Mən elə bildim kisə daşıyır? O bazbırıtda kişiyə qarovulçuluq yaraşmır.

– Ay Həmid, nə qoyub, nə axtarırsan? Çopur Abdullaya baş girləməyə bir yer lazımdı, qarovulçuluq da gözdən pərdə asmaqçündü. Gəlin, Çopur Abdullanı yaddan çıxaraq.

Balağanın kefi kök idi. Təlim verdiyi gənc pəhləvanları tamaşaçıların hərarətlə qarşılaması onun ürəyindəndi, çox sevinirdi.

– Ay uşaqlar, cavan pəlvanlar sizin də xoşunuza gəldi, ya mənə görə onları tərifləyirlər?!

Həmid də, Davud da gənc pəhləvanların güləşməsinə maraqla tamaşa eləməsini söyləyəndə Balağa qürurla qımışdı. Həmid:

– İkisi mənim lap çox xoşuma gəldi, – dedi, – birinin adı Xəlildi, o birinin...

– Hə, o biri də Firuzdu. Mən onlara böyük ümid bəsləyirəm. İstəsə, Xəlildən ola pəhləvan olar. Mətbəədə kağız daşıyır. Bir gün həyətdə gördüm, gözümə xoş gəldi. Ondan sonra cavan pəhləvanları yığıb klubda məşq keçirmək fikrinə düşdüm. Bunu eşidib ayrı yerlərdən də axışıb gəldilər. Nəhs olsa da, onların arasından on üçünü seçib götürdüm. Firuz da yaxşıdı. Qabaqlar Suraxanıda mədəndə usta şagirdi olub. Ordan beş-altı aydı gəlib mətbəəyə. Mənim yanımda işləyir. – Balağa Həmidə üz tutdu. – Gərək sən də cavan pəhləvanlara qoşulaydın, ora əsil sənin yerindi.

– Mən daş qaldırmaq istəyirəm.

Həmid Həştərxanda daş qaldırmaqla məşğul olduğunu Balağaya danışanda Davud da onun müsəlman alayının klubundakı çıxışını o ki var, tərifədi.

– Gərək siz də orda olub baxaydınız, Balağa qədeş. Həmid qan elədi. Qızıl əsgərlərin alqışından, döşəməyə təpik döyüb Həmidi çağırmasından az qalırdı ki, klub uçulsun, mərəkə idi...

– Sən də çox küyə basma.

– Küyü-zadı yoxdu. Mən gördüyümü deyirəm. Balağa qədeş də sənin daş qaldırmağına baxsa, sözlərimi təsdiq eləyər.



Bu yenilik Balağanı maraqlandırdı:

– Daş qaldırmaq da yaxşıdı, Həmid, – dedi. – Əgər daş qaldırmaqla məşğul olmaq istəyirsənsə, mənim sənə o barədə köməyim dəyər.

– Kömək eləyin, Balağa qədeş, – Davud əlini Həmidin enli kürəyinə vurdu, – sizin köməyinizə çox ehtiyacı var.

– Həmid, evdə daşın var?! Yoxsa məndə ikidi, birini sənə bağışlaya bilərəm.

– Varımdı, məşqçün ayrı şey-şüy də tapmışam. Hərdən məşğul oluram.

Balağa gənc pəhləvanların uğurlu çıxışını, camaatın tərifini unutmuşdu. Bütün fikri Həmiddə idi.

– Bu qiyamətdi ki, orda elədiklərini mənə göstərə bilərsən?

– Göstərərəm.

– İşdən sonra gec olar. Onda qalsın cümə gününə, mütləq gəlib sənə arxayınlıqla baxaram. Məni sevindirdin, Həmid.

Onlar belə şərtləşdilər ki, gələn cümə günü Balağa da, Davud da Həmidgildə olsunlar.

## XIV

Balağa ilə Davud Həmidgilin təzə ağardılmış, əhəng iyi gələn iri otaqlarında əyləşib ev sahibini gözləyə-gözləyə söhbət eləyirdilər. Balağa ay yarımdan çox idi ki, hər cümə günü onlara gəlir, Həmidin məşqinə nəzarət yetirirdi. Davud isə bununla üçüncü dəfə idi ki, Həmidin daş oynatmağına tamaşa eləyirdi. Deyirdi sən indi mənim Həştərxanda gördüyüm Həmidsən, əməlli-başlı ustalaşmısan.

O biri cümə günlərində məşq zamanı Həmidə ara-sıra irad tutan Balağa, bu gün hər nömrənin axırında ona: "bu yaxşıdı, – demişdi, – keç o birinə". Balağa Həmidin boynunda şalban və qarnı üstündə iri daş sındırmağından başqa, bütün nömrələrə dönə-dönə baxıb bəyənmişdi. O iki nömrəni ev şəraitində göstərmək mümkün deyildi.

Mizə dirsəklənən Davud əvvəl qolundakı saata, sonra otağın qar kimi ağappaq divarında taqqataqla işləyən xoruzlu saata baxdı.

– Dörd dəqiqə qabağa qaçır. – O, durub saatın kiçik əqrəbini bir dövrə fırladıb, vaxtı öz saatı ilə düzəltdi. – İndi saniyəsinə söz ola bilməz, dübbədüzdü.

Davud saatsazlığa başlayanı belə idi, qohum-əqrəba, dost-tanışlargilə gedəndə saatlara göz qoyur, vaxtı dəqiq göstərməyənləri ev sahibindən icazə istəmədən durub düzəldirdi. Hamı Davudun bu şakərinə alışmışdı.

Həmid məşq zamanı bərk tərləmişdi. Quyunun sərin suyu ilə yuyunub gəldi, qonaqları otaqda tək qoyduğu üçün üzr istədi. Balağa dedi:

– Gəl otur, dincini al, bu gün işlədin, arada tənəffüs də eləmədik. Səni bərk yorduq, zərəri yoxdu, bunun faydası var.

Həmidin tərdən islanmış qara, qalın saçları yağ sürtülmüş kimi işıldayırdı, sifəti də allaşmışdı, sanki hamamdan çıxmışdı.

Davud barmağını qol saatının üstünə qoydu:

– Vaxta baxırdım, Həmid, düz bir saat qırx üç dəqiqə məşq elədin.

– Bugünkünü məşq adlandırmaq doğru olmaz. Biz əsil çıxışa tamaşa eləyirdik. Həmid, açığını deyim, çox sevindim. Mən heç də peyğəmbərlik iddiasında deyiləm. Ancaq buna tamamilə arxayınam ki, sən daş qaldırmaqda müvəffəqiyyət qazanacaqsan. Mənə qulaq assan, razılıq versən, sənin sirkdə çıxışını təşkil edərəm.

– Mən də Balağa qədeşin təklifinə tərəfdaram, Həmid. Sirkin müdiri sən göstərdiyin nömrələrin birinə baxsa, ağzı açıla qalacaq.

Rübabə əlində yun köynək gəlib oğluna dedi:

– Ay bala, daşlarla əlləşib tərləmisən, bu köynəyi üstdən geyin, soyuq dəyməsin, sətəlcəm olarsan. Gözümüzü sənə dikmişik.

Həmid, anası rahat olsun deyə, yun köynəyi alıb üstdən geydi. Balağa ata idi, Rübabənin həyəcanını anlayırdı.

– Rübabə bacı, Həmid maşallah, buz baltası kimidi, ona nə olacaq?

– Ay Balağa, neynim, gözüm qorxub. Köhnə kişilər: "Ehtiyat igidin yaraşığıdı", – deyiblər. Gərək bu tərəfdən işini möhkəm tutasan ki, sonra peşman olmayasan. Düzünə qalanda, Həmidin o daşlarla oynamasından mənim heç xoşum gəlmir. Bilmirəm bunu kim onun beyninə yeritdi? Ay başınıza dönüm, o ikipudluqlar bu həyətə gələni mənim dincliyim yoxdu. Həmid o ağırlığında daşları göyə atıb sinəsini qabağa verəndə ürək-göbəyimi yeyirəm. Dilim-ağzım qurusun, deyirəm birdən daş uşağın başına düşər, qabırğalarını sındırar. Bu, xalis əcəllə oynamaqdı, ölümü satın almaqdı. Ha yalvarıb-yaxarıram ki, Həmid, əl çək bu şeytan işindən, düşər-düşməzi olar, sözə qulaq asmır. Barı siz bunun başına ağıl qoyun, xatadan uzaq olsun. Sizdən



çox təvəqqe edirəm, bu işdə mənə kömək eləyin. Amma sizin bura gəlib Həmidə tamaşa eləməyinizdən belə görünür ki, ikiniz də onun daş oynatmağını bəyənirsiniz.

Rübabənin doluxsunduğunu görən qonaqlar pərt oldular. Həmid qalxıb anasının boynunu qucaqladı:

– Daş oynatmağa məni nə Balağa qədeş, nə də Davud həvəsləndirib, məmə, özüm istəyirəm. Bunu mən onlara demişəm. Balağa qədeş məsləhət gördü ki, pəlvanlığa gedim.

Rübabə çarqatının ucunu nəm kirpiklərinə basdı:

– Heç pəlvanlıq eləməyini də istəmirəm, daha çarəm nədi, o boyda daşın altına sinə verməkdənsə, yenə pəlvanlıq yaxşıdı. Çopur Abdullanın görüm ciyəri yansın. O da pəlvanlıq eləməyini burnumuzdan gətirdi. Axtarsan, hamısı boş şeydi. Heyif deyil, körpüdə yük daşımaq...

Balağa Rübabənin gözlərinin yaşarmasından mütəəssir oldu:

– Rübabə bacı, – dedi, – onu bilin ki, mən Həmidin xeyirxahıyam. Onu oğlum kimi sevirəm, razı olmaram dırnağına kiçik bir tikan da batsın. Hələ indiyəcən eşitməmişəm ki, daş oynadanların bircəsi ondan zərər çəksin. Siz bu çağacan mənə etibar eləmisiniz, yenə də eləyin. Həmidin xoşbəxtliyi sizə zəhmli görünən bu soyuq daşlardadı. Körpü onun yeri deyil.

Rübabə Balağaya çox inanırdı. Bu da ona yaxşı bəlli idi ki, Balağa ancaq onun oğlunun ağ gününü, xoşbəxtliyini istəyir. O, qonaqları qınamağına peşman oldu.

– Vallah, heç özüm də bilmirəm ki, nə danışıram. Başıma gələn müsibətlər məni təntidib.

Otağın qapısı zərblə açıldı. Mikayıl başını içəri soxub dalınca gələn qardaşı İsmayılı qabaqladı:

– Mömə, sac pul kimi qızarıb, gəlmirsən?

– Nə tez?

İsmayıl Mikayılı şeytanladı:

– Mömə, mən eləməmişəm, sən gedəndən sonra o, ocağa yekə bir odun qoydu.

– Ay dəcəllər, bircə dəqiqə dinc oturmursunuz.

Rübabə getdi. Tədarük görmüşdü, qonaqlar üçün sac qutabı bişirəcəkdi.

Balağa şaqqaşaq təsbeh çevirirdi. Davud əsgərsayağı tütün eşirdi. Həmid də Balağanın fikirli gözlərinə baxırdı.

Davud araya düşən süstlüyü dağıtmaq üçün dedi:

– Əşşi, görün o gün nə olub. Bir ata qohumum var. Təzəpirdə mürdəşirdi, zəhləm gedir, onunla əl verəndə elə bilirəm ki, əlim ölü əlinə dəyir, pisniyabətin biridi. Xarab olan bir qədimi saatını dükana düzəltdirməyə gətirmişdi. Mənə nə desə yaxşıdı? Deyir ki, ay Davud, bu inqilabı nöşün eləyib Niğalayı yıxdınız? Deyirəm ki, inqilab elədik, camaat azadlığa çıxdı, bəyəm bu azdı? O gülüb deyir ki, yox e... Sən məni düzgün başa düşmədin. Soruşuram bəs sən özün bu inqilabdan nə qazanc hasil elədin? Burdan basa-basa getmişdin Həştərxana, əlinə silah almışdın, vuruşurdun. Bakıya gəlib müsavatdan hakimiyyəti aldınız. Bunun sənə nə faydası? Bunları eləmişdin ki, saatsaz olasan? Əyyami-qədimdən belədi, padşahı yıxanlar yağlı tikəyə sahib olurlar, hərəsi bir gəlirli işdən yapışır. Yoxsa, yenə mən də belə, sən də. Əgər mən bu çağacan ölüyuyandım, sonra da ölüyuyan qalacağamsa, onda bu inqilabı niyə eləyirdim? Aldım qoz, satdım qoz, mənə qaldı şaxşaxı...

Saatını düzəldib qurtaranacan mürdəşir üzünü yumuş mürdəşirə bir Quran söz dedim. O, başını bulayıb dedi ki, toyuq bir qıçlıdı ki, bir qıçlı.

Davud mürdəşirin ağzını yamsılaya-yamsılaya yası-yastı danışırdı, gülürdülər. Güləndə Balağanın sağ yanağında çuxur əmələ gəlirdi. Həmid bir dəfə Nurlunu güləndə görmüşdü, onun da sağ yanağında çuxur əmələ gəlirdi, atasınınkı kimi. Həmid Balağaya baxırdı. Qızı necə də oxşayırdı, iri qara gözlərini, şabalıdı saçlarını, dolu sifətini, Nurlu sanki Balağadan borc almışdı.

Axır vaxtlarda Nurlu onlara az-az gəlirdi. Çoxunda da günorta-çağı, Həmid işdə olanda. Ancaq keçən ay cümə günü o evdə olanda gəlmişdi. Onda Həmid ikipudluqları həyətə töküb şirin məşq eləyirdi. Qız həyətdə əkizlərin yanında dayanıb ona baxırdı. Həmid daşları dalbadal göyə atıb sinəsini qabağa verirdi. Birdən Nurlu özü də bilmədən həyəcanla qışqırdı:

– Ay aman...

Qışqırığa mətbəxdə iş görən Rübabə qorxub həyətə cumdu:

– Nə oldu, ay uşaqlar?

O, Həmidə və əkizlərə heç nə olmadığını görüb nəfəsini dərdi:

– Bu ikipudluqlar bu həyətə gələni səksəkə içindəyəm, ay qadanızı alım, mənə yazığınız gəlsin.



Həmid anasına dedi:

– Mömə, sən nahaq yerə hövllənirsən.

– Deyirsən də, ay bala...

Mikayıl:

– Ay mə, – dedi, – qorxub qışqıran Nurlu bacı idi, elə bildi ki, ikipudluq Həmid qədeşin üstünə düşdü, qışqırdı. Buna bax e, – güldü. – Day bilmir ki, mənim qərdeşim elə güclüdü ki, o daşları top kimi atıb-tutur.

Aram olan Rübabə indi gördü ki, əkizlərin yanında duran qız Nurludur, dil-ağız elədi:

– Xoş gəlmisən, qızım, – dedi. – Həmid saqqalı ağarmış səni də qorxutdu?

Nurlu qışqırmasına peşman olmuşdu, astaca salam verdi.

– Gücüm çatsaydı, ay Nurlu, atamın goru haqqı, bu daşları bir-bir götürüb tökərdim quyuya, mağul birdəfəlik asudə olardım.

Həmid gülə-gülə dedi:

– Ay mömə, bu daşlardan o qədər var ki, quyuya tökərsən, gedib ayrılarını gətirərəm.

Rübabə söylənə-söylənə Nurlunu otağa apardı. Həmid yenə həyətdə məşq elədi. Rübabə bir azdan qapıdan boylanıb əkizləri səslədi:

– İsmayıl, Mikayıl, bir hovur gəlin bura.

Həmid tək qaldı, yorulmuşdu. İki saatdan çox idi ki, məşq eləyirdi. Püstə ağacının budağından asılan dəsmalı götürüb tərini quruladı. Köhnə kətildə əyləşib dincini alanda Mikayılla İsmayıl sevinə-sevinə həyətə çıxdı. İkisinin də əynində sürməyi mahuddan təzə gödək palto vardı.

Mikayıl özünü darta-darta:

– Qədeş, görürsən? – dedi.

İsmayıl gəlib lap Həmidin qabağında durdu:

– Yaraşır? Nurlu bacı tikib bizimçün.

Həmid qardaşlarını o yan-bu yana döndərib, baxdı, gödək palto elə tikilmişdi ki, ikisinin də əynində qutu kimi dururdu. Bu paltoların parçasını ona keçən ay yaxşı işlədiyinə görə körpüdə mükafat vermişdilər. Matros Həbib onunla bərabər daha iki fəhləyə bu mükafatları verəndə demişdi ki, inqilabi hökumətimiz işə can yandıranların qədir-qiymətini bilir, özünüzə palto tikdirib sağlıqla geyin. Həmidin paltosu pis deyildi, uşaqlarınkı köhnəlmişdi. O, sürməyi mahudu

anasına verib tapşırmışdı ki, çatsa, əkizlərə gödək palto tikdirsin, çatmasa pencək. Deməli, parça iki gödək paltoya çatmışdı. Həmid indi bildi ki, anası mahudu Nurluya tikməyə verib.

– Ay uşaqlar, ikinizinki də əntiqədi, yaraşır, mübarəkdi!

– Qədeş, görürsən Nurlu bacı nə yaxşı qızdı?

– Hə, keçən Novruz bayramında bizə sətin köynək də tikmişdi.

Əkizlərin biri Həmidin bu üzündən, o birisi o biri üzündən öpüb təzədən içəri getdilər. Həmid də içəri gedərdi, qızın ondan utandığını yadına salıb getmədi ki, o sıxılar. Ancaq Nurlunun qışqırığı Həmidin qulaqlarında idi. "Ay aman!.." O bu həyəcanlı səsdə təşviş və qorxudan əlavə bir gizli qayğı da duyurdu. Bir qızın istəklisinə olan qayğısı...

O gün Nurlu onlarda həmişəkindən çox oturdu. Gözü otağın qapısında qalan Həmid də o gün həmişəkindən çox məşq elədi.

Nurlu gedəndə Rübabə onu ötürdü:

– Qızım, Sərvinaz xanıma, Balağa qədeşə bizdən çox-çox salam yetir, sənin də əllərin var olsun, əkizləri sevindirdin.

– Rübabə xala, nəyiniz var gətirin tikim, atam mənə təzə zinger tikiş maşını alıb.

– O gün olsun səninçün gəlinlik paltarı tikilsin, qızım.

Həmid məşqini qurtarıb həyətdə gəzinir, dincini alırdı. Nurlu ona sarı dönüb utana-utana dedi:

– Sağ olun.

Nurlu getdi, ancaq onun həyəcanlı səsi Həmidin qulağında qaldı. "Ay aman!.." Uzun müddət bu səsi, qızın qışqırığını unuda bilmədi... Unutmaq da istəmədi...

Balağanın təsbehi əlindən çıxıb şaqqıltı ilə yerə düşdü. Davud onun yaxınlığında oturmuşdu, təsbehi götürüb mizin üstünə qoydu.

– Həmid, – dedi, – sən mütləq camaat qarşısında çıxış eləməlisən. Əgər səhv etmirəmsə, indi bütün konsert və tamaşa ocaqları xalq maarif komissarlığına baxır. Mənim orda bir tanışım işləyir. Soruşaram sirkdə, ya şəhər klublarında daşoynatmaqçün kimdən icazə almaq lazımdı. Gücü çatsa, o özü də bizə kömək eləyər, xeyirxah kişidi. Ancaq sirkə düzəlsən, gərək mütləq işdən çıxasan, bir əldə iki qarpız tutmaq olmaz.

Həmid Balağanın təklifi barəsində düşünürdü. O, körpünü atmaq istəmirdi.



– Həmid, nə deyirsən?

– Balağa qədeş, mümkün olsaydı, ikisini də eləyərdim.

– O mümkün deyil, daşoynatmağı özünə peşə seçən gərək gündə neçə saat məşq eləyə. Sən bütün günü körpüdə yük daşıyacaqsan, işdən sonra yorğun adamın daşlarla əlləşməsinin nə səmərəsi?! Bunun bir yolu var, körpüdən getməlisən. Mənim məsləhətim budu ki, tamaşa ocaqlarının mötəbər komissiyası sənin göstərdiyin nömrələrə baxıb çıxışına icazə versə, işdən get. Bir neçə ay klublarda, sirkdə çıxış elə. Bax, əgər bu xoşuna gəlməsə, yenə qayıt körpüyə, nə itirirsən, ağa durur, ağacan durur.

Həmid nigaranlıqla xəbər aldı:

– Komissiya mənim elədiklərimi bəyənərmi?

– Məncə, bəyənməlidi.

Davud vaxtı soruşurlarmış kimi saatına baxdı və təsdiqedici bir ifadə ilə dedi:

– Alə, Həmid o komissiyada olanlar daş qaldırmağı Balağa qədeşdən artıq bilirlər?! Minnətləri olsun ki, sənin kimi güclü bir ağır at... e... – deyəcəyi söz yadından çıxdı. Balağa onun demək istədiyini soruşdu:

– Ağır atlet?

– Hə, ağır atleti işə götürürlər. Mən əminəm ki, tamaşaçılar sənə bircə dəfə baxsalar, çıxışlarına bilet tapılmayacaq.

Həmid təvazökarlıqla dedi:

– Davud, sən də ağ eləmə.

– Ağ niyə eləyirəm, mərc də tutaram səninlə, bir yaxşı saatdan...

Rübabə nimçədə səliqə ilə iki sıra qalaqlanmış buğlanan qutab gətirdi. Ona kömək eləyən Mikayıldan dolu sinini aldı. Hər kişinin qabağına bir boşqab qoydu, ortaya göyərti, sumax düzdü və qonaqlara dedi:

– Götürün, isti-isti yeyin, qutab soyudu, heç nə.

Kişilər acmışdılar, dadlı ət qutabından iştahayla yedilər, Rübabə bir nimçə də gətirdi.

– Bu da göy qutabıdı.

Göy qutabının yarıdan çoxu yeyildi. Qonaqlar süfrədən əllərini çəkəndə Rübabə Balağadan soruşdu:

– Bir qərara gəldiniz, Həmid bu dəmir-dümürlə qurtarır, ya yox?

– Yox, ay mömə, körpüdən çıxmaq istəyirəm.

– Körpüdən çıxırsan? Yox, məmə sənə qurban, amanın günüdü, ac qalarıq. Onda gərək ağzımızı göyə açaq.

Balağa Rübabənin təşvişə düşməsini görüb onu sakitləşdirməyə çalışdı..

– Sənə inanmaya bilmirəm. Ancaq körpü arxayınlıq idi. Bu şoğərib daşların axırda bir xatası çıxar, ondan qorxuram.

– Rübabə bacı, dolanışığınız barəsində heç narahat olmayın. Həmid körpüdən getsə, ordakından qat-qat çox qazanacaq. Siz bunda da mənə inanın, Rübabə bacı, xata çıxmaz.

Rübabə qabları siniyə yığa-yığa fikirləşirdi. Həmid nigaran idi. Balağa ilə Davud körpüdən getməyi ona inandırandan sonra axırıncı söz Rübabənin idi. Həmid anasının arzusunun əksinə getmək, onun kövrək qəlbini sındırmaq istəmirdi.

Cavabı ləngitdiyindən bilinirdi ki, Rübabə tərəddüd edir. Bu dəfə Davud arvadı dilə tutdu:

– Rübabə xala, Həmid daşoynatmağı sevir, biz də səndən xahiş edirik, onu həvəsdən salma, izin ver.

– Nə deyirsiniz, Rübabə bacı? Hamımız sizi gözləyirik. And olsun o tək balam Nurlunun əziz canına, əgər oğlum olsaydı, o, daşoynatmağa məndən icazə istəsəydi, deyərdim ki, get, uğur olsun.

Rübabə arvad yavaş-yavaş yumşalırdı:

– Balağa qədeş, sən də, Davud da deyirsiniz, ağıl ağıldan üstün olur, Həmid özü də çox istəyir. Mən sizin qabağınızda nə eləyə bilərəm, neynək, getsin.

– Bu ayrı söz, Rübabə bacı.

Qonaqlar getdilər. Rübabə oğluna dedi:

– Axır ki, istəyinə nail oldun, Allah işini avand eləsin, ay bala.

## XV

Bakının küçələrindəki teatr afişaları lövhəsində iri, əlvan rəngli bir afişa yapışdırılmışdı. Yolçuları gendən çağıran afişanın üstündə böyük hərflərlə yazılmışdı ki, cümə günündən Bakı sirkində cavan, istedadlı ağırlıqqaldıran Həmid Xələfovun ilk çıxışları olacaq. Biletlər qabaqcadan sirkin kassasında satılır. Afişanın ortasında Həmidin iri portreti, kənarlarında tamaşa zamanı onun göstərəcəyi nömrələrin şəkilləri vurulmuşdu.



O gün Həmidin uçmağa qanadı yox idi, şəhəri gəzir, küçələrə vurulmuş afişalarına uzaqdan baxırdı. Hər yerdə onun afişasının qabağına cavanlı-qocalı xeyli adam yığılmışdı. Şəkillərinə tamaşa eləyə-eləyə danışırdılar. Camaatın onun ilk çıxışına belə maraq göstərməsi Həmidi ruhlandırmışdı. Elə istəyirdi ki, bu üç gün sürətlə keçsin, cümə günü tez gəlsin.

Birinci günə Həmid kassadan qırx bilet götürmüşdü. Onları tanışlara, qonşulara paylamışdı və iyirmisini də özü aparıb matros Həbibə vermişdi ki, körpüdə işləyən fəhlə yoldaşları arasında bölüşdürsün. Biletlərin hamısı birinci sırada, bir-birinin yanına idi. Həmid çox istəyirdi ki, Balağa özü ilə qızını da sirkə gətirsin. Buna görə də onlara əkizlərlə üç bilet göndərmişdi. Balağa Nurlunu tamaşaya gətirəcəkdimi? Həmid əmin idi ki, Nurlu onun sirkdə çıxış edəcəyini atasından eşitməmiş deyil, afişasını da hamıdan əvvəl görüb. Həmidin afişası Balağagilin mətbəəsində çap olunmuşdu. O gün Balağa axşam işdən gələndə özü ilə götürdüyü altı afişanın beşini yolüstü dönüb Həmidgilə vermiş, onu təbrik eləmişdi, birini isə özü ilə evə aparmışdı. Afişanı görmək öz yerində, Həmid çox istəyirdi ki, Nurlu sirkə gəlib, ona tamaşa eləsin.

Rübabə arvad oğlunun şəklini afişada görəndə sevincdən ağlamışdı. "Sənə qurban olum, ay oğul". Əkizlərin hərəsi afişanın birini qapıb qonşulara qaçmışdı. Onu hamıya göstərib demişdilər: "Görürsünüz qədeşimin şəklini hara vurublar. Bunları küçələrə yapışdıracaqlar. Həmid sirkdə daş oynadacaq".

Rübabə Həmidin afişasındakı şəklini öpüb onu böyük otağın yuxarı başına – divara, əri Murtuzun şəkli ilə yanaşı vurdu, qapı ağzında durub gözü dolusu tamaşa elədi. Sonra otağa girdi-çıxdı, afişaya baxdı. Birini də ehmalca büküb sandıqda ən qiymətli şeylərin arasına qoydu ki, yaxşı qalsın.

Həmid özü də afişasına anasından az baxmırdı, ancaq indi ona Nurlunun gözü ilə baxırdı, görsün orda nə təhər çıxıb, qızın xoşuna gəlirmi?! Afişa Həmidin ürəyincə idi, bəs Nurlunun necə?

Balağa afişanı verib gedəndən sonra Rübabə oğluna dedi:

– Yazıq Murtuz bu əfişəni görsəydi, ürəyi dağa dönərdi. O bədbəxt hadisə olanda nə yaşı vardı ki... Sağ qalsaydı, indi əllinin içindəydi. Kişiçün əlli yaş nədi?! Bəyəm onun qara torpağın altında yatmalı vaxtı idi?! Sağlığında da ömrü-günü nəm quyularda keçdi.

Yazıq kişi balalarını da doyunca görəmmədi. Səksən yaşlı qocalara baxıb öz-özümdə deyirəm, Murtuz da yaşasaydı... Eh, ay oğul, yazıya pozu yoxdu.

Sirkdə çıxış eləməsinə razılıq alandan sonra Həmid indi də bir şeyin xiffətini eləyirdi, birdən onun tamaşasına adam gəlməz, zal boş olar. Bu, Həmidə ağır zərbə olardı. Həmid kim idi ki? Limanda yük daşıyan qara fəhlə... Tamaşaçılar məşhur artistlərin, adlı-sanlı pəhləvanların çıxışına gedib baxır. Onu hələ heç kəs tanımırdı. Həmid bu təşvişini nə Balağaya dedi, nə də sirrini-sözünü gizlətmədiyi anasına. Sonra gördü ki, yaxşı eləyib bu barədə onlara bir söz deməyib, təşvişi, həyəcanı nahaq imiş. Ertəsi gün Davud ona dedi ki, bizim məhəllə uşaqlarından sirkə, sənin tamaşana bilet almağa gediblər. Birinci, ikinci günə bilet olmayıb, onlar növbəyə durub, üçüncü tamaşaya bilet alıblar.

İlk çıxışı axşamı Həmid sirkə vaxtından bir saat tez gəldi. Balağa da onunla idi. Çıxışına lazım olan şeyləri bir də yoxladılar. İkipudluqlar, zəncir, əymək üçün dəmir çomaq, qarnı üstündə daş parçalamaq üçün gürzlər, şalban, taxta lövhə, hamısı hazır idi. Onlar Həmidin çıxışını idarə eləyən konferansye ilə hansı nömrədən sonra hansının gəldiyini dürüstləşdirdilər. Balağa Həmidə ürək-dirək verib salona, arvadının və qızının yanına getdi.

Dazbaş, dilli-dilavər konferansye maneję çıxıb, tamaşaçılarla salamlaşdı. Onlara Həmid barəsində qısa məlumat verdi.

Salonda bir alqış, səs-küy qopdu ki, elə bil içəridə bomba partlatdılar, lərzədən divarlar əsdi, cərgələrdəki skamyalar yerindən laxladı. Çalınan çəpikdən, fıştırıq səsindən qulaq batdı.

Qırmızı atlazdan köynək və qısa, qara tuman geymiş Həmid manejə çıxanda alqış daha da gücləndi, iri salon tufanlı, qasırğalı dəniz kimi dalğalandı. Həmid sevinc və həyəcandan qızarmışdı. Üstünə salınan projektorların gur işığında daha da gözəl görünürdü. Yaraşıqlı, əsil kişiyə xas olan bədən quruluşu vardı. Geyimi də onu xeyli qəşəng eləmişdi. Bu idman kostyumunu Balağa şəhərin ən mahir dərzisinə tikdirib ona hədiyyə vermişdi. Həmid nağıllardakı Məlikməmmədi xatırladırdı. O, gülümsəyə-gülümsəyə tamaşaçılara baş əydi.

Həmid birinci sırada əyləşənlərin içindən Nurlunu axtardı. Qız anası ilə atasının arasında oturmuşdu. Rübabə ilə əkizlər də onlarla yanaşı idi. Bir az o yanda Davud kiçik qardaşı ilə əyləşmişdi. Onlar-



dan o yana – keçidə kimi olan bütün yerləri Həmidin iş yoldaşları, liman fəhlələri tutmuşdular. Matros Həbib müştüyü damağında məmnun-məmnun Həmidə baxırdı.

Tamaşaçıların hərarətli alqışlarından ruhlanan Həmid çıxışına az vaxt aparan nömrələrlə başladı. Əvvəlcə ikipudluqları daldan tullayıb qabaqda tuta-tuta gendən baxanlara adi görünən, əslində çətin bir nömrə göstərdi. O bunu elə cəld və asanlıqla eləyirdi ki, elə bil ikipudluqların içi boş idi. Onlar bir ox ətrafında fırlanıb havada dövrə cızaraq Həmidin düz ovcuna düşürdü.

İlk nömrə tutdu. Balağanın gözü Həmiddə idi. O, sakit baxışları ilə şagirdinə deyirdi ki, hər şey qaydasınca gedir, karıxma. Həmidin isə gözü Balağanın sağında əyləşən Nurluda qalmışdı. Balağa elə bilirdi ki, Həmid ona baxır.

Həmid sirkdə Nurlunu görəndən bütün fikri qızda idi, sanki salonda ondan savayı tamaşaçı yox idi. Bu axşam yalnız onun üçün çıxış edirdi. Nurlu yerində sakit otursa da, çöhrəsi gülürdü. Bu gülüş Həmidə yeni qüvvə, cəsarət, inam verirdi.

İlk nömrədən sonra manejə Həmidin ayaqları altına iki dəstə gül atdılar. O, gülləri götürüb konferansyeyə verdi.

İkinci nömrəni göstərməmişdən əvvəl tamaşaçılardan üç nəfərini manejə çağırdı. Nə eləyəcəklərini onlara başa saldı. Üç zorba kişinin birini boynuna mindirdi və o birilərin hərəsini bir qoltuğuna aldı. Sonra üzünü orkestrə sarı tutdu, orkestr qaytağı çaldı. Həmid tamaşaçıların alqışları altında şıdırğı rəqs elədi.

Bunun ardınca Həmid yerə uzandı. Onun üstünə iri taxta lövhə qoydular. Sirk xidmətçilərindən altı nəfər köməkləşib həmin lövhənin üstünə piano qaldırdılar. Cavan bir oğlan altına kətil qoyub pianonun qabağında əyləşdi və şövq ilə "Çahargah" muğamını çaldı. Sonra xidmətçilər Həmidin üstünə ikinci bir piano da qoydular. İndi də gödəksaçlı cavan qadın gəlib onun arxasında əyləşdi. Oğlanla qadın pianolarda bir yerdə "Qalanın dibində bir quş olaydım" mahnısını çaldılar. Bakıda belə bir səhnəni birinci dəfə görən tamaşaçılar heyrətdən bir-birinə dəydilər.

Bu axşam Rübabə özü də yaxşı geyinmişdi, əkizlər də. Onun əynində qəhvəyi şaldan paltar vardı, başına ağ haşiyəli Gəncə kəlağayısı örtmüşdü. İsmayılla Mikayıl Nurlunun tikdiyi mahud paltonu geymişdi. Murtuz vəfat eləyəni onlar belə bəzənib-düzənməmişdilər.

Sərvinazla yanaşı əyləşən Rübabənin fərəhdən gözləri yaşarmışdı, yanındakılara hiss etdirmədən yaylığını nəm kirpiklərinə basırdı. "Axır ki, mən də başqaları kimi sevindim, ölmədim, övlad fərəhinin ləzzətini bildim. Bu nə böyük xoşbəxtlik imiş, xudaya, bu xoşbəxtliyi mənə çox görmə. Oğlumu pis nəzərlərdən qoru".

Həmid qolbaq kimi biləyinə doladığı dəmir çomağı çıxartdı, onu başı üstünə qaldırıb tamaşaçılara göstərdi. Yenə gurultulu alqış qopdu. Bu alqışların içində onun ən çox ürəyinə yatanı Nurlunun və bir də anasının alqışları idi. Bu unudulmaz axşamın Həmidə ən böyük və əvəzsiz mükafatı o iki nəfərin alqışı oldu. Sanki o əllərdən Həmidin vücuduna doğma bir hərarət axırdı.

Alqışlar kəsilmirdi, Həmid birinci sıraya yaxın gəlib tamaşaçılara baş əyəndə Nurlu daha da bərkdən əl çaldı, onların baxışları birləşdi. Bu anda Həmid duydu ki, özünü itirəcək, tez üzünü yana çevirdi, yuxarı sıralarda əyləşən tamaşaçılara əl elədi. Qız bundan məyus oldu. Əllərini yanına saldı. Həmid təzədən manejin ortasına qayıdanda gördü ki, Nurlu bayaqkı Nurluya oxşamır, məyus oturub. Bu ona təsir elədi.

Həmid əvvəllər ona keçilməz bir maneə kimi görünən şalbanı bu dəfə çox asanlıqla sındırdı, əllərini yuxarı qaldırıb alqışlarla minnətdarlığını bildirəndə Nurluya baxdı, qız yenə əl çalırdı, ancaq bayaqkı kimi şən deyildi.

Balağanın məsləhəti ilə Həmid ən çətin nömrəni axıra saxlamışdı.

Həmid manejin ortasında uzandı, sirkin xidmətçiləri köməkləşib onun üstünə iri daş qoydular. Tamaşaçılardan dörd nəfər şaqqalı kişi çağırdılar. Onlar gürzləri götürüb düşdülər dəyirman daşının üstünə, vur ki, vurasan. Hər dəfə gürzlər daşa dəyib guppuldayanda sanki o zərbələr Rübabəyə dəyirdi, arvad qorxudan nəfəsini çəkib oturmuşdu, ürəyinin içini yeyirdi. Bu nə idi? Həmidin o böyüklükdə daşın altında uzanması bir yana qalsın, üstəlik, zorba kişilər də amansız-amansız ona gürzlə zərbəni zərbə dalınca endirirdilər. Rübabə dözə bilmirdi, az qalırdı ki, manejə qaçıb kişilərin əlindən gürzləri alsın, hərəsinə bir neçə ağır söz də desin. Axı onun gözünün işığı Həmid zərbələrin altında ölə bilərdi... Rübabənin ürəyi partlamaq dərəcəsinə gəlmişdi. O dönüb Balağanı köməyə çağırmaq istəyəndə sirki titrədən alqış səsinə diksindi, daş sınmışdı. Kişilər gürzləri kənara qoydular, hərə öz yerinə qayıtdı. Həmid üstündəki taxta lövhəni dəyirman daşının



parçaları ilə qarışıq yana aşırıb ayağa qalxdı. Onun yorğunluq tökülən çöhrəsi gülürdü. Nurluya baxdı, qız da gülürdü, başqaları da. Təkcə Rübabə gülmürdü, o süst-məst idi. "Bu day ağ oldu. Qarnında daş sındırmaq hardan çıxdı, ay başınıza dönüm?! Mən bunu birinci dəfə idi ki, görürəm. Bu ki əcəllə oynamaqdı. Əzraillə öcəşməkdi. O ağırlığında daşa, o böyüklüyündə çəkiclərin zərbəsinə tab gətirmək olar?! Allah eləməmişkən, olmadı elə, oldu belə... Onda mən başıma haranın külünü tökərəm?! Yox, ayrılarına dözsəm də, buna razı olmaram".

Tamaşa qurtarmışdı. Yuxarı sıralardakı tamaşaçılar da aşağı enərək manejin dövrəsinə yığılıb yaxından Həmidə baxırdılar. Ordan-burdan ona gül dəstələri atırdılar. Üz-gözündən tər axan Həmid əyilə-əyilə camaatın arası kəsilməyən alqışlarına təşəkkür eləyirdi. Basırıqda ucadan qışqırırdılar:

– Afərin, Həmid!

– Eşq olsun sənə, Həmid!

Manejə xeyli gül atmışdılar. Həmid onlardan qucaq dolusu götürüb öz adamları oturan sıranın qabağına gəldi. Bir dəstəni anasına, birini Sərvinaz xanıma, o birini Nurluya verdi. Qalanını da Balağa ilə Davudun arasında bölüşdürdü. Bunu görən tamaşaçılar Həmidi daha da hərarətlə alqışladılar.

Basırıqda özünü birtəhər manejə salan Matros Həbib üst-başını düzəldə-düzəldə Həmidə yaxınlaşdı. Əlindəki gül dəstəsini ona verib pəncəsi üstdə qalxaraq üzündən öpəndə papağı başından düşdü. Camaat gülüşdü. Matros Həbib özünü sındırmadı, papağını yerdən götürüb şənlənə-şənlənə manejdən çıxdı.

Camaat Həmidi buraxmaq istəmirdi. O, alqışlar altında manejdən getdi. Sirkin xidmətçiləri manejdə qalan gül dəstələrini yığıb içəri apardılar. Salon yavaş-yavaş boşaldı. Balağagil, əkizlərlə Rübabə axırda bayıra çıxdılar.

Sirkin dal qapısının qabağına xeyli adam yığılmışdı. Çoxu gənc idi. Həmidi gözləyirdilər ki, ona yaxından baxsınlar.

Rübabə arvad Həmidə hirslənsə də, ovqatının təlx olmasını Balağagilə bildirmədi. O, bayırda qadınlara qoşularaq gülüb danışırdı. Balağa ilə Davud səkinin qırağında dayanıb şirin-şirin söhbət eləyirdi. Əkizlər daş oynatmaqdan başları çıxırmış kimi qızğın mübahisəyə girişmişdilər: o deyirdi ki, Həmid qədcş gərək şalbanı belə sındıraydı, bu deyirdi ki, yox, elə...

Kənarda dayanıb Həmidi gözləyən tamaşaçılar birdən əl çaldılar. Rübabə arvad təəccüblə dönüb o tərəfə baxanda əkizlər onu səslədilər:

– Mömə, ay mə, qədeşə bax.

– Qədeş gəldi, ay mə...

Həmidin qucağında gül dəstələri sirkin dal qapısından çıxdığını görən cavan fəhlələr onu alqışlayırdılar. Əkizlər qardaşlarının qabağına qaçıb qıçlarını qucaqladılar. O çox şən idi. Mikayılla İsmayılın ikisinin də üzündən öpüb anasıgilə yaxınlaşdı. Qadınların üçünün də əlində gül vardı, Həmid özü ilə gətirdiklərini də onlara verdi. Özü də bilmədi ki, necə oldu dəstənin ən gözəli Nurluya düşdü. Bu, əkizlərin nəzərindən yayınmadı. Mikayılın:

– Nurlu bacı hamıdan qəşəngdi, yaxşı ki qədeş güllərin ən gözəlini ona verdi, – deməsi qızı utandırdı.

Öz adamları Həmidi təbrik eləyəndən sonra cavan fəhlələr gəlib bir-bir istiqanlılıqla onun əlini sıxdılar, xoş sözlər dedilər, uğurlar diləyib getdilər. Davud Həmidə dedi:

– Bir dayan görüm, – Həmid ayaq saxladı. Davud cibindən gümüş saat çıxartdı. – Bu anker saatı mənə atamdan qalıb. Mən də bizim hamımız üçün əziz bayram olan ilk çıxışın günü bunu sənə bağışlayıram.

O, zəncirli cib saatını Həmidin əlinə qoyub ovcunu yumdu.

– Bu nə xəcalətdi, ay Davud?

– Xəcaləti-zadı yoxdu. Kasıblığın üzü qara olsun. Gərək mən bu gün sənə bunun qızılını bağışlayaydım.

Həmid saatı təriflədi:

– Bu, mənim üçün əvəzsiz bəxşeyişdi, Davud. Deyir, dost payı şirin olur, hər nə versən, qailəm.

Sirkin qabağından bir fayton keçirdi. Davud əl elədi ki, dayansın, əkizlər qabağa qaçdı və faytonu içi dolu görüncə durdular. Balağa hamıya dedi:

– Ay camaat, hava xoşdu, burdan evəcən piyada getməyə nə sayaq baxırsız? Həm də bizə azı üç fayton lazımdı. Onların hamısını birdən hardan tapaq?

Əkizlər qışqırdılar:

– Piyada gedəyin, piyada.

Balağa dedi:

– Söz qadınlarındı, onlar buna necə baxırlar?



Nurlu dilləndi:

– Ata, piyada gedək.

Rübabə də, Sərvinaz xanım da piyada getməyə tərəfdar çıxdılar.

İndiyədək Həmidin belə sevindiyi olmamışdı. Bu gün onun ikiqat bayramı idi. İlk çıxışı arzuladığından uğurlu keçmişdi. Həm də ömrünün bu xoşbəxt çağlarında Nurlu da onun yanında idi. Hələ ürəyini qıza açmasa da, onun fikrini bilməsə də, ümidini itirmədi. Ona belə gəlirdi ki, əgər Nurlu Həmidə ərə getməyə razılıq versə, buna nə qızın valideynləri, nə də Rübabə etiraz eləyər.

Balağa "İyirmi altılar" bağından çıxanda Həmidə dedi:

– Mən çox şadam ki, sən həyatda öz yerini tapdın. Hər kəs həyatda öz yerinə düşsə, həm özü xoşbəxt olar, həm də bundan ətrafdakılar qazanarlar. Çox vaxt insanların müsibəti onların həyatda öz yerlərini tapmamasından başlanır. Bu ona bənzəyir ki, qoyuna deyirlər uç, zirvələrə yüksəl, qartala deyirlər düzdə gəz-dolan. Qartalı qartal eləyən onun yüksəkdə uçub zirvələrdə məskən salmasındadı. Sən Həmidi də başqalarından fərqləndirən gücündü. Mən əsil Həmidi sirkin manejində gördüm.

Davud Həmidin sağına keçdi.

– Balağa qədeş qızıl kimi söz deyir. Bayaq allahlıq eləyirdin, Həmid, baxırdım sənə, paxıllığım tuturdu. O güc məndə olsaydı, heç əlimi saata-maata bulaşdırardım?! Day ləngitmə, sabah get körpüyə, ərizəni ver, çıx işdən.

Balağanı söz tutdu:

– İşdən çıxsın? Bəyəm Həmid yenə limanda işləyir?

– Hələlik öz hesabıma otpuskaya çıxmışam.

– Bundan sora da yük daşımaq fikrindəsən?

Həmid Balağaya söz vermişdi ki, mütləq işdən çıxacaq, vədinə əməl eləmədiyinə görə onun yanında utandı. Həmid arxayın deyildi, arxayın olsaydı ilk çıxışı belə uğurlu keçəcək, ərizə yazmağı təxirə salmazdı. And içmişdi, çıxışı soyuq qarşılansaydı, o bir də daşoynatmağın adını tutmayacaqdı. Həmid fikirləşirdi ki, gedib suyu süzülə-süzülə geri qayıtmaqdansa, sonra işdən çıxmaq məsləhətdir.

– Matros Həbiblə danışmışam, sabah körpüdə haqq-hesabı çürüdürəm, Balağa qədeş.

Onlar danışa-danışa gəldikləri üçün bir də göz açıb gördülər ki, Quba meydanındadırlar. Rübabə Balağagili, Davudu qardaşı ilə

evlərinə çaya dəvət elədi. Balağa zarafatyana dedi ki, belə bir fərəhli hadisəni bizə çay verməklə qeyd etmək istəyirsən, böyük qonaqlıq eləməlisən. Rübabə də söz altında qalmadı, dedi ki, çay hesaba düşmür, qonaqlıq öz yerində, gələn cümə günü hamınızı nahara çağırıram. Belə də vədələşdilər. Onlar şənliklə ayrıldılar. Davudgil bir tərəfə getdilər, Balağagil o biri tərəfə. Həmid Nurludan ayrılmasına heyifsiləndi. Bu gün səhərin gözü açılana kimi onunla Bakının küçələrini gəzsəydi, yorulmazdı.

Evə gələn kimi Rübabə paltarını soyunmamış balaca Quranı götürüb Həmidin başına dolandırdı.

– Səni bu müqəddəs kitaba tapşırıram, bala, qoy o səni yaman gözlərdən qorusun.

– Mənə nə olacaq, ay mömə?

Rübabə oğluna qulaq asmadı, bir azdan evi üzərlik iyi bürüdü.

## XVI

Sirkin iri salonu boş idi, yalnız qabaq sıralarda adamlar orda-burda təkəmseyrək əyləşmişdilər, gözlərini də dikmişdilər manejə. Həmid səhərdən orda məşq eləyirdi. Sirkin bikar olan xidmətçiləri gəlib qıraqda ona baxırdılar. Həmid bəzən eyni nömrəni altı-yeddi dəfə təkrar eləyirdi, qan-tərin içində idi, özü də yorulmaq bilmirdi.

Bu axşam onun beşinci çıxışı olacaqdı. Əvvəlki dörd çıxışının hamısı uğurlu keçmişdi. Sirkə düşməyə bilet tapmaq olmurdu, alverçilər əldə ikiqat, üçqat baha qiymətə satırdılar. Şəhərin hər yerində – dükanlarda, bazarda, toyda-yasda ondan danışırdılar, adı dillərdən düşmürdü.

Sirkin müdiriyyəti Həmidin birhəftəlik çıxışını əvvəlcə iki həftə, sonra da uzadıb bir ay eləmişdi. Tamaşaya maraq, sirkə axın azalmırdı. Ətraf kəndlərdən də dəstə-dəstə axışıb gəlirdilər. Kassanın kiçik pəncərəsinin şüşəsini neçə kərə basıb sındırmışdılar, axırda çarəsiz qalıb karton vurmuşdular. Axşamlar nizam-intizam, qayda-qanuna nəzarət etmək üçün sirkin qabağında milis nəfərləri gəzişir, növbə çəkirdilər.

Bu dörd axşamın dördündə də Balağa ilə Davud Həmidlə bərabər sirkə gəlmiş, birinci sırada, əvvəlki yerlərində əyləşib ona tamaşa eləmişdilər. Hər gecə üçü də qucağı güllə dolu evə qayıtmışdı. Balağa



danışırdı ki, Nurlu dedi: "Ata, elə bil sirkdə Həmid yox, sən çıxış eləmisən, güllərin də hamısını yığıb gətirmisən evə, bəs onun özünə nə qalıb?" Mən də dedim: "Qızım, sən hələ Davudu görməmisən, onunku mənimkindən çox olur. Bir belə də Həmidə qalır". Həmid qəsdən Davuda çox gül verirdi ki, Balağanın ürəyinə ayrı fikir gəlməsin. Əgər mümkün olsaydı, hər axşam tamaşaçıların ona bağışladığı gül dəstələrinin hamısını yığıb Nurluya göndərərdi. Nurlu ancaq Həmidin birinci axşamına gəlmişdi. Amma Həmidə elə görünürdü ki, qız hər axşam sirkə gəlib ona tamaşa eləyir və hamıdan da çox Nurlu ona əl çalır.

Rübabə arvad Həmidin qarnı üstündə daş sındırmağından narazı qaldığını o gecə sirkdən gələndə bildirmədi, istəmədi onun gözəl əhvali-ruhiyyəsini pozsun, səhərə kimi gözlədi. Ertəsi gün oğlu çay-çörək yeyib sirkə məşqə gedəndə onunla bərk danışdı, and verdi ki, o nömrəni göstərməsin, xatalıdır. Həmid Rübabəni başa saldı ki, həmin nömrənin onun həyatı üçün heç bir qorxusu yoxdur. Anasını arxayın eləməkdən ötrü evdə xalça üstündə körpü dayandı. Göstərdi ki, daşın ağırlığı, gürzlərin zərbələri dizlərində və ovuclarında saxladığı taxta lövhəyə düşür.

Səhər ana-oğul oturub qonaqlıq barəsində danışırdılar. Rübabə dedi ki, çoxdandır bu evdə şadlıq məclisi olmayıb. Mən gərək on beş-iyirmi nəfərlik süfrə açım. Belə şey həmişə olmur. Camaatın qabağına qabiliyyətlə çıxmaq üçün yaxşı hazırlıq görmək lazımdır.

Rübabə əri Murtuzu, qardaşı Turabı anıb göz yaşı axıtdı, bəxtindən, taleyindən şikayətləndi. "Nə olaydı, – dedi, – indi bu şad gündə onlar da bizimlə olaydılar..."

O gündən Rübabə əl-ayağa düşüb qonaqlığın tədarükünü görürdü. Hər axşam da gündüz elədikləri barəsində oğluna hesabat verirdi. "Bu gün filan şey tapıb aldım".

Həmid qonaqlığı, Nurlu ilə bir stolun arxasında oturmağı səbirsizliklə gözləyirdi.

...Həmid sirkin manejində bayaqdan məşq eləyirdi. O, tərləyən ovuclarına tabaşir tozu sürtəndə gördü ki, Davud birinci sıradan əl eləyir. Fikirləşdi ki, görəsən niyə Davud gündüz-günortaçağı, işin şirin vaxtında dükanı bağlayıb gəlib.

– Xeyir ola, Davud?

– Məndən birinə bir zərər dəydiyini görmüsən?

– Sən elə oğlan deyilsən.

– Mənə nə boyun olursan, sənə şad xəbər verim?

– Xətrin nə istəyirsə.

– O nisyə oldu, nisyə girməz kisəyə. Nəqd olsun, bir qonaqlıq.

– Qonaqlıq? Onsuz da mən sizə gələn cümə günü bir qonaqlıq verəcəyəm.

– Bunun ona dəxli yoxdu.

– Yaxşı, "Novbahar " restoranında ayrı bir qonaqlıq məndə.

Davud pencəyinin qoltuq cibindən bir yığın qatlanmış qəzet çıxartdı.

– Bugünkü qəzetlər səndən yazıblar, birində daş qaldıran yerdə şəklin də var.

Davud "Yeni yol", "Gənc işçi", "Bakinski raboçi" qəzetlərini bir-bir açır, orda Həmid barəsində yazılanları göstərib verirdi ona. Həmid məqalələrin adlarına baxanda dodaqları qaçdı: "Fəhlə möcüzə göstərir", "Afərin, Həmid", "İnsan gücü tükənməzdir".

– Yazılara nə gurultulu adlar qoyublar.

– Hələ bu harasıdı, sən onların içini oxu.

Həmid manejin qırağında əyləşib, "Gənc işçi" qəzetində şəkli ilə çap olunmuş "Fəhlə möcüzə göstərir" məqaləsini ürəyində oxumağa başladı. Davud qəzeti ondan aldı:

– Lal kimi oxumağın nə ləzzəti. Qoy mən ucadan oxuyum, sən qulaq as, – Davud öskürüb boğazını arıtladı, – hə, oxuyuram. "Üç gün əvvəl heç kəs bilmirdi ki, Bakıda belə bir oğlan yaşayır. İndi hamı ondan danışır. Yük limanının qara fəhləsi Həmid Murtuz oğlu Xələfovdan. O, ikipudluqlarla əsil möcüzə göstərir. Həmid Xələfovun çıxışının ikinci axşamı bir tamaşaçı manejə enib dedi ki, mən bu daşların həqiqətən ikipudluq olmasına inanmıram. Kişi bircə-bircə daşların qulpundan yapışıb hıqqana-hıqqana qaldıranda tamaşaçılar gülüşdülər. O, axırda üzr istədi və yerinə qayıtdı..."

Onlar həmin hadisəni xatırladılar. Davud dedi:

– Müxbir gör bir nəyi qəzetə yazıb.

– Əslinə qalanda o gün kişinin manejə çıxıb, camaatın gözü qabağında daşları yoxlaması mənim xeyrimə oldu.

– Dalını özün oxuyarsan, izin ver, mən gedim dükana, sən də məşqini elə, axşam yenə tamaşadayam.

– Gəl, gözləyəcəyəm. Balağa ilə səni birinci sırada görəndə özümü rahat hiss edirəm.



Davud getdi. Qəzetlərdə onun barəsində məqalələrin çıxması, şəklinin çap olunması Həmidə ruh verdi. O əmin idi ki, Balağa özü qəzetləri görüb və mətbəədən onların hərəsindən birini götürüb aparıb evə. Çox güman Nurlunun da orada yazılanlardan xəbəri var. Həmidə də bu lazım idi.

Həmid arxayın idi ki, Balağa bu axşam tamaşaya gələndə o qəzetləri də özüylə gətirəcək. Sonra yadına düşdü ki, gecə onlar evə gedəndə Balağa dedi: "Sabah ikinci növbədə işləyəcəyəm, sirkə gəlməsəm, nigaran qalma". Həmid fikirləşdi ki, Balağanın yeri boş qalacaq. Kaş, onun əvəzinə tamaşaya Nurlu gələydi. Həmidin xəyalından keçsə də, bilirdi ki, ata-anası qızı axşam sirkə tək buraxmaz, köhnəlmiş adətləri ürəyində pisləyirdi. "Həştərxanda qızlar Fyodr Samarskinin çıxışına tək gedib baxırdılar, bəs bizdə niyə getməsinlər?" Həmid təsəvvür edirdi ki, Nurlu bu axşam sirkə gəlsə, necə yaxşı olar. Qız oturar onun gözü qabağında, camaat Həmidə baxar, o da nömrələri göstərə-göstərə Nurluya.

O axşam Həmidin çıxışı müvəffəqiyyətlə keçdi, ondan sonrakı gün də. Tamaşaya o qədər adam gəlmişdi ki, çoxu keçidlərdə ayaq üstündə dayanmışdı. Sirkin müdiri deyirdi ki, bu, qəzetlərdə çıxan tərif məqalələrinin təsirindəndir. Camaat onları oxuyub bura axışır.

O biri gün də Balağanın tamaşaya gəlməməsi Həmidi nigaran qoydu: "Bəlkə, xəstələnib, bəlkə, bu axşam da ikinci növbədə işləyir?" Balağanın dalbadal üçüncü tamaşaya da gəlməməsi Həmidə təəccüblü göründü. "Vacib işi olsaydı, gündüzdən mənə xəbər verərdi".

Səhər əkizlərin hərəsinin əlinə bir dəstə gül verib Balağagilə yolladı ki, öyrənsinlər o, niyə görünmür. Həmid o gün sirkə məşqə həmişəkindən gec getdi, evdə ləngiyib qardaşlarının qayıtmasını gözlədi. Əkizlər tez qayıtdılar. Mikayılın, İsmayılın da nəfəsi darıxırdı, onlar yolu qaça-qaça gəlmişdilər. Və ikisinin də qorxu, təlaşdan gözləri kəlləsinə çıxmışdı – sinələri dəmirçi körüyü kimi qalxıb-enirdi, ikisi də birdən dedi:

– Qədeş, bilirsən nə olub?!

– Bilmirəm, deyin görüm nə olub?

Əkizlərin ikisi də karıxa-karıxa, dilləri dolaşa-dolaşa danışırdı, biri o birinə mane olurdu. Həmidin səbri daraldı:

– Biriniz susun, biriniz danışın, başa düşüm. Mikayıl, sən danış.

Mikayıl dedi:

– Sərvinaz xala ilə Nurlu dedi ki, Balağa əmini tutublar...

– Tutublar?
– Hə, gecə gəlib aparıblar.
– Nəyə görə?
– Bilmirəm, Sərvinaz xala bizə demədi.

Oğullarının söhbətini eşidib qonaqlar üçün düyü arıdan Rübabə həyətə çıxdı, əhvalatdan xəbər tutunca çaşıb qaldı:

– Yazıq kişi, görəsən günahı nə imiş?

Həmid anasına qoşulub Balağagilə getdi. Sərvinaz da, Nurlu da onları görəndə hönkür-hönkür ağladı. Rübabə kövrəldi. Sərvinaz xanımdan soruşdu:

– Bu nə qəzadı?

– Səbəbini bilmirəm, ay Rübabə bacı. Balağa mətbəədə ikinci növbədə idi, işdən evə kefi kök qayıtmışdı. Özü ilə bir yığın təzə qəzet də gətirmişdi, bizə göstərdi, dedi ki, bunların hamısında Həmiddən yazıblar, oxudu, qulaq asdıq. Çox sevindik, sizdən xeyli danışdıq. Sonra da yıxılıb yatdıq. Gecənin bir yarısı qapı döyüldü. Balağa qapıya gedib soruşdu ki, kimdir gələnlər, dedilər çekadanıq. Qapını açdı. İki nəfər idi, bir yaşlı, o biri cavan. Yaşlısı bizə bir möhürlü kağız göstərib dedi ki, gərək evinizi axtaraq. Axtardılar, şübhəli heç nə tapmadılar. Balağaya dedilər ki, geyin, bizimlə getməlisən. Kişini apardılar.

– Bəs demədilər niyə aparırlar, hara aparırlar?

– Heç nə demədilər.

Həmid çekanın adını eşidəndə bildi ki, hər nəsə Balağanı ağır iş üstündə həbs eləyiblər, onlar adi məsələ üçün adamı gecə gəlib evindən aparmazlar.

– Çekanın onu həbs eləməsi pis idi. Sərvinaz xala, hər nədisə, Balağa qədeşi ağır işdə təqsirləndirirlər.

Sərvinaz naəlac qalmışdı:

– Balağanı siz də az-çox tanıyırsınız. Onun kimə bir yamanlığı dəymişdi, ay Həmid?

– Mən ondan ancaq yaxşılıq görmüşəm, Sərvinaz xala.

Rübabə də razılığını bildirdi:

– Başımın üstündə Allah var, gərək haqqına danışım, o bizə dar gündə doğmalıq eləyib. Mən də, balalarım da bunu yaddan çıxarmarıq.

Sərvinaz xanımla Nurlu pəjmürdə idi, əllərini qoyunlarına qoyub oturmuşdular. Evin başıpapaqlısının qəfildən həbs edilməsi onları sarsıtmışdı. Həmid köməksiz qadınlara baxa-baxa oğlunu Həştərxana yola salıb, gözləri yolda qalan anasını xatırladı. Sərvinazgilin vəziyyəti daha ağır idi. Bu iki-üç gündə Nurlu aşkar solmuşdu. "Bu günlərdə Nurlunu, onun anası Sərvinaz xanımı köməksiz qoya bilmərəm, həm Nurlunun öz xətrinə, həm də mənim boynumda böyük haqqsayı olan Balağanın xətrinə".



Nurlu məlul-məlul Rübabə arvada baxırdı. Qızın çöhrəsində hüzn vardı, Həmid onu bu sayaq qayğılı və məhzun görməmişdi. Ürəyinə od düşdü. O, Balağagildə oturduğu yarım saat ərzində gözünü Nurludan çəkmədi, Nurlu isə yalnız bircə dəfə başını qaldırıb ona baxdı. Bu vaxt Həmidin yadına Nardaranda Balağa ilə güləşməsi düşdü. Basılmaqdan qorxan Balağanın gözlərində də eyni ifadə vardı. Bu gözlər – ata ilə qızının gözləri bir-birinə oxşasalar da, onlardakı məna ayrı idi. Ömründə ilk dəfə həyatın sərtliyi ilə üz-üzə durmuş və bundan özünü itirmiş Nurlunun kədərli çöhrəsi Həmidi kövrəltdi. Nurlu ona heç nə demədi. Demək də lazım deyildi, Həmid hər şeyi başa düşürdü. Başa düşürdü ki, bu ailənin onun köməyinə ehtiyacı var.

– Sərvinaz xala, – dedi, – mən gedim görüm kimdən Balağa qədeş barəsində nə öyrənə bilərəm.

– Get, oğlum, sən get, mən hələ burdayam, gör neynirsən, bəlkə, bizə təskinlik verən bir xəbər gətirdin.

Rübabə arvad oğlunu yola salıb özü Balağagildə qaldı.

Həmid birbaşa Davudun dükanına gəldi. O, gözündə zərrəbin iş görürdü. Addım səsinə başını qaldırmadan dedi:

– Buyurun.

Davud səsindən Həmidi tanıdı, zərrəbini gözündən çıxarıb:

– Xoş gəlmisən, ay Həmid. Səndən nə əcəb?

– Səninlə vacib bir söhbətim var.

Həmid əhvalatı Davuda danışdı. O, ağzını nırçıldatdı:

– Əgər Balağanı çekanın adamları tutublarsa, işi şuluqdu. Heç kəsdən, heç nə öyrənə bilməzsən, Həmid, çəkil dayan qıraqda, əl-ayağa da düşmə. Görsələr ki, onunla çox maraqlanırsan, səni də tutub qatarlar Balağaya. Dəvə gördün? Heç qığını da görmədim. Nə işin var, başını salırsan cəncələ.

Davudun tövsiyəsi Həmidi açmadı:

– Mən sənin yanına gəlmişdim ki, bu işdə mənə bir kömək eləyəsən. Əsgər olmusan, fikirləşdim ki, bəlkə, çekada işləyən bir tanış-bilişin var. Ona deyəsən Balağadan bizə bir xəbər gətirsin. Sənin bu işə qarışmamağım bir yana dursun, hələ məni də kənara çəkirsən. Niyə belə kölgəndən qorxursan?

Davud Həmidin ondan inciməsini əsassız saydı:
– Mən sənə nə dedim ki, kefinə toxundu?
– Deyirsən ki, çəkil dayan qıraqda. Bir günahım olmayan yerdə məni niyə damlasınlar?
– Bəyəm damlananların hamısının günahı olur, heç günahsızları damlamırlar?
– Bəzən damlayırlar, ancaq əvvəl-axır o, bəraət qazanır, düzlüyə zaval yoxdu.
– Nahaq dolaşan bəraət qazanana, təmizliyə çıxana kimi anadan əmdiyi süd burnundan gəlir. Mən sənin yaxşılığına deyirəm, Həmid, istəyirsən sözümə qulaq asma, öz işindi. Qərdeş, məndən incimə, mən belə işə baş qoşa bilmərəm.
– Mən səni heç belə bilməzdim, ay Davud, axı sən inqilab əsgəri olmusan.
– Əşi, inqilab əsgəri olmağın bura nə dəxli var?! Əgər mənə inanırsansa, məsləhət görürəm bu işdən uzaq olasan.
– Məsləhətinə görə çox sağ ol.
Həmid Davudun dükanından çıxıb körpüyə yollandı, ümidi Matros Həbibə qalmışdı. O, bərk ayaqda kara gələn idi. Həmid arxayın idi ki, gücü çatsa, bu işdə ona kömək eləyər.
Körpüdə iri bir gəmi dayanmışdı. Fəhlələr buğda taylarını anbara daşıyırdılar. Həmid rəisin otağına getdi. Matros Həbib tək idi, kiminləsə telefonla danışırdı. O, içəri girən Həmidi görüncə söhbətini müxtəsər eləyib dəstəyi asdı, qonağa yer göstərdi:
– Otur, Həmid, xoş gəlmisən, sən bizim körpünün həmişə ən əziz adamısan, fəhlə pəhləvanına inqilab salamı. Qəzetlərdə yazılanları oxumuşuq, müvəffəqiyyətlərin bizi də sevindirir.
Matros Həbib Həmidin bikef olduğunu duyunca qayğı ilə soruşdu:
– Niyə belə bikefsən, atalar demişkən, dəryada gəmin batmayıb ki?
– Yoldaş Həbib, mənim sizinlə çox mühüm bir iş barəsində söhbətim var.
– Buyur.
Həmid gəlişinin səbəbini bildirdi. Matros Həbib müştüyünü dodağına qoydu, papirosu tüstülədə-tüstülədə onu dinlədi:
– Qəliz məsələdi. Mənim də Balağadan xoşum gəlirdi. O vaxt onun sənə və ailənə kömək eləməsi göstərir ki, xeyirxah kişidi, bizim adamdı. Həm də deyirsən ki, mətbəə fəhləsidi. Çeka kimi-kimi, fəhləni bica yerə tutmaz. Görəsən, Balağa inqilabın ziddinə nəsə eləyib.



– O elə adam deyildi, yoldaş Həbib.
– Mən sənə inanıram, Xələfov, amma çekaya səndən və özümdən artıq inanıram. Orda qərəz-filan ola bilməz. Çekaya işləməyə hər yerindən duranı götürmürlər, inqilaba, xalqa sadiq şəxsləri seçirlər.
– Balağanı səhvən həbs eləyə bilərlər. Sizdən çox xahiş edirəm, yoldaş Həbib, əgər orda bir tanışınız işləyirsə, öyrənsin görək Balağanın günahı nədi.
Matros Həbib, Həmidin belə bir çətin xahiş ilə ona müraciət edəcəyini gözləmirdi. Başqası bu məsələ üçün onun yanına gəlsəydi heç üzünə də baxmaz, qapıdan qaytarardı, ancaq Həmiddən keçə bilmirdi, öz aləmində götür-qoy edirdi ki, görsün ona hansı yolla, nə cür köməyi dəyər. Matros Həbib:
– Yadıma düşdü, – dedi, – mənim çekada bir tanışım var, onunla "Hacıyarəli" gəmisində matros olmuşuq. İstəsə, o öyrənə bilər, Balağanı niyə tutublar. Mən ondan xahiş eləyərəm. Axşam sənin xətrinə onlara gedərəm. Çəmbərəkənddə olurlar.
– O bunu öyrənsə, mənim boynuma böyük minnət qoyarsınız, Yoldaş Həbib. Balağanın arvadını, qızını görsəniz nə sayaqdı, sizin də onlara yazığınız gələr.
– Onu da deyim ki, çekanın adamları ağızdan bərk olurlar, bəlkə, o mənə Balağa barəsində bir söz demədi, onda necə olsun?
– Deməsə, nə eləyə bilərsiniz, yoldaş Həbib?
Həmid limandan sirkə getdi. Bircə saat məşq eləmək istəyirdi ki, axşam hazır olsun, gündüz məşq eləyəndə manejə arxayın çıxırdı. Məşq elədi, ancaq fikri Balağanın yanında olduğu üçün məşqi canına sinmədi. Heç tərləmədi də. Tərləməyəndə ona elə gəlirdi ki, məşq eləməyib. Günorta sirkdən çıxıb Balağagilə getdi. Anasını orda görmədi. Sərvinaz xanımla Nurlu əlləri qoyunlarında eyvanda oturmuşdular. Onlar Həmidi görəndə ikisi də xoş xəbər eşitmək ümidi ilə ayağa qalxdı. Həmid Matros Həbiblə olan söhbəti onlara deyəndə təskinlik tapdılar.
– Sabah, ya biri gün cavabını deyəcək mənə.
– Nə yaxşı ki, sən varmışsan, ay Həmid, yoxsa biz arvad xeylağı neynəyəcəkdik?! Belə işdə qabağa düşən bir kişi lazım idı ki, gedib qapıları döysün, soruşsun.
Həmidin səhər əkizlərlə onlara göndərdiyi güllər dəstə ilə şüşəbəndin səkisində qalmışdı.

Həmid cümə günü onları qonaq çağırmağı qət eləmişdi. Rübabə hər şeyi hazırlamışdı. Bir gecədə necə hər şey alt-üst olmuşdu... Kimin ağlına gələrdi ki, Balağa tutulsun. Balağa Şura hökumətinin tərəfdarlarından idi. Həmid buna zərrə qədər şəkk-şübhə eləmirdi və lazım gəlsəydi, ona zamin durmağa hazır idi.

– Sərvinaz xala, mənim fikrimcə, nə isə orda bir dolaşıqlıq olub. Balağa qədeş barəsində səhv eləyiblər. O tutulmalı adam deyil. Çekanın haqq-hesabı Şura hökumətinin düşmənləriləd i.

– Ay Həmid, sən də mənim balam. Ə tövbə... İstəyirlər Quran gətirsinlər, ona əl basım ki, Balağa heç vədə hökumətin ziddinə getməyib. Əgər sözümdə yalan varsa, qoy məni də tutub kişinin yanına bassınlar.

Nurlu da dilləndi:

– Atamın heç kəslə işi yox idi, Həmid. Sən onlara de ki, istəyirlər gəlib qonşulardan xəbər alsınlar. Qonşular kimin nə yuvanın quşu olmasını hamıdan yaxşı bilirlər.

– Balağa qədeşə, mən özüm kimi inanıram, Nurlu.

Həmid ilk dəfə idi ki, qızla belə yaxın otururdu. O, üç-dörd gün əvvəl Nurlu ilə bir yerdə olanda belə bir mövzuda danışacaqlarını xəyalına da gətirməzdi. Qıza ayrı sözlər deyəcəkdi. O sözləri ürəyində neçə dəfə ölçüb-biçmişdi.

Sərvinazla Nurlu Həmidə elə böyük ümidlə baxırdılar ki, guya o, bu işdən möhkəm yapışsaydı, Balağanı tezliklə buraxdıra bilərdi. Öz aləmlərində onların buna əsası vardı. Hər necə olsa, o boyda sirkdə Həmidə çıxış eləməyə icazə vermişdilər. Hər axşam ona mindən çox adam tamaşa eləyirdi. Gündən-günə şəhərdə məşhurlaşırdı, qəzetlər ondan yazırdılar, görkəmli yerdə şəklini verirdilər, bəyəm bu, kiçik iş idi. Çekada işləyənlər bunu görmürdülər?!

Həmid çətin vəziyyətdə qalmışdı. Çox istəyirdi ki, Balağagilə bir köməyi dəysin. Ana-qız ona sidqi ürəkdən inanır və güvənirdi.

Həmid evlərinə gələndə anası dedi:

– Oğul, başına dönüm, elə güman elə ki, sən doğma qərdeşinin yolunda çalışırsan, hələlik hər işini qoy kənara, Balağayçün əlləş. Dünya borc dünyasıdı. İndi də gərək biz onlara kömək eləyək.

O axşam tamaşaçılar Həmidi hərarətlə qarşılasalar da, həvəssiz çıxış elədi, biletlər qabaqcadan satılmasaydı, tamaşanı təxirə saldırardı. Salona baxdı, hər yer dolmuşdu. Davud öz yerində əyləşmişdi.



Balağanın yerini tutmuşdular. Həmid kassaya tapşırmışdı ki, bütün çıxışlarına o yerlərin biletlərini heç kəsə satmasın. Amma indi orda hər kimsə yad adam oturmuşdu.

Yenə də Həmidə xeyli gül gətirmişdilər. Onların birini də özü götürmədi, hamısını sirkin xidmətçilərinə bağışladı, paltarını geyinib bayıra çıxanda Davud sirkin qabağında gəzinirdi. Həmid istədi ki, özünü görməməzliyə vursun, ötüb keçsin.

Davud onu qabaqladı:

– Yəni elə balacayam ki, məni görmürsən?!

Həmidin qoluna girdi:

– Nə mısmırığını sallamısan, məndən incimisən?

– İncimişəm.

– Lap nahaq yerə.

Həmid dönüb Davuda tərs-tərs baxdı:

– Hələ bir danışmağa dilin də var?!

– Həmişə düz söz acı olur. Mən səni istədiyimdən, xatadan uzaq eləməkçün yoldaşlıq məsləhəti görürəm. Deyirəm ki, Balağa əhvalatına baş qoşma, bu, sənə toxunur. Səndə günah yoxdu, günah məndədi, neynim ki, xeyrini bilmirsən.

Həmid gileyləndi:

– Deyir qara səni basınca, sən qaranı bas. Səninki döndü buna.

– Qınamaq asandı, Həmid, xeyrini bilən kişi başı girməyən yerə bədənini soxmaz. Balağa məsələsi sən girən kol deyil, qərdeş, gücün çatmayan yerə girişmə. Yavaş-yavaş adam arasına çıxırsan, oturduğun budağı kəsmə, yıxılarsan, qol-qıçın sınar. İkincisinə qalanda sən hardan bilirsən ki, Balağa təmiz adamdı, əlindən bir xata çıxmayıb? Bəyəm o elədiyi işlər barəsində gəlib hər gün sənə məlumat verirdi?! İndi elə qarışıq zamandı ki, adam doğma qərdeşinə də zamin durmağa ehtiyat edir.

Həmid Davudun sözünü yarımçıq kəsdi:

– Nə danışırsan, Davud?! O nə sayaq qərdeşdi ki, bir ananın qarnından çıxan qərdeşinə inanmır?!

– Sən, görünür, elə qərdeşləri görməmisən, mən görmüşəm. Bir ananın qarnından çıxan iki qərdeşin hərəsi bir yol seçir, sora da hərəsi səngərin bir tərəfində dayanıb biri o birinə atəş açır. Əgər çeka Balağanı tutubsa, demək, onun nə isə günahı var.

Həmid özündən çıxdı:

– Hardan bilirsən?

Kənarda dayanıb onlara baxan tamaşaçılar elə zənn elədilər ki, Davud ağır bir söz dedi, buna görə də Həmid hirsləndi. Tez bir-iki nəfər gəlib ondan soruşdu:

– Bu səndən nə istəyir, Həmid qədeş, dərsini verək?

– Nəkarədi ki, o sənə öcəşə, biz ölmüşük bəyəm?!

Həmidə havadar çıxan oğlanların gözləri qaynayırdı. Biri qıcanıb hazır dayanmışdı. Davud ehtiyat eləyib, özünü Həmidin qoltuğuna verdi. Həmid oğlanlara acıqlandı:

– Sizin bizimlə işiniz olmasın, özümüz bilərik, çıxın gedin.

Oğlanlar yoldaşlarının yanına qayıtdılar. Sonra hamısı dönüb dala baxa-baxa çıxıb getdi. Həmid də Davudu qoyub getmək istəyirdi, fikirləşdi ki, birdən oğlanlar geri dönüb Davudu əzişdirərlər, ləngidi.

– Sənin bərkdə heç əlin yox imiş, ay Davud... Nədən çəkinirsən, böyük vəzifən var, onu əlindən alacaqlar?

– Mən heç nədən qorxmuram və heç kəsin yanında gözükölgəli deyiləm.

Onlar dinib-danışmadan sirkdən xeyli aralanmışdılar. Davudu hədələyən oğlanlar da harasa çıxıb getmişdilər. Həmid Davudu qoyub Parapetə sarı yollandı, yuxarı qalxıb Bazarnıya burulanda tinin ucundakı qır tiyanın altından səs eşitdi. İki uşaq orda söhbət eləyirdi. Həmid dayandı. Şəhərdə sahibsiz-yurdsuz uşaqları küçələrdən yığıb uşaq evlərinə göndərsələr də, onların bəziləri qaçıb gündüzlər orda-burda girlənir, gecələr isti tiyanların altında yatırdılar.

Həmid uşaqlar üçün narahat oldu, ayaq saxlayıb qulaq asdı, onların biri deyirdi: "Dala çəkil, yerimi dar eləmə, hara soxulursan..." O biri deyirdi: "Məni itələmə, dala çəkilsəm kürəyim bayırda qalacaq, üşüyürəm axı". Neçə il əvvəl küçələrində olan bir hadisə Həmidin yadına düşdü. Özü görməmişdi, atası yana-yana danışırdı ki, qışın soyuğunda iki balaca oğlan tiyanın altındakı çalaya girib kürək-kürəyə verərək şirin yuxuya gedir. Səhərin alaqaranlığında qırçılar gəlib tiyanın altına çır-çırpı atıb od vururlar, bilmirlər ki, orda uşaqlar yatıblar. Elə bu vaxt tiyanın altından uşaqların çığırtısı, şivəni qalxır. Özlərini itirən qırçılar tiyanın altından kösövləri götürüb, alovu söndürənə kimi uşaqların birinin qorxudan bağrı çatlayır, o birini yarımcan xəstəxanaya aparırlar.



O çağdan Həmid axşamlar harda tiyan görsəydi, kibrit yandırıb altına baxardı, uşaq olanda qorxudub oradan qovurdu.

Həmid oğlanları səslədi:

– Ay uşaqlar, çıxın ordan. – Hay verən olmadı. – Sizinlə deyiləm? – Yenə səsini çıxaran olmadı. Sanki tiyanın altında ins-cins yox idi. Həmid onları qorxutdu. – Çıxmırsınız, onda od vuraram tiyana. – Bu dəfə də susdular. – Bax, xəbərdarlıq edirəm, bir... İki... – Həmid cibindən kağız çıxardıb şaqqaşaqla əzdi. – Yandıraram ha... – Kibrit çəkiləndə uşaqlar qorxdular:

– Əmi, yandırma, çıxırıq.

– Çıxın, yandırmaram.

– Bizi tutmazsan ki?

– Yox, mən adamtutan deyiləm.

– Sən milisioner deyilsən, bəs kimsən?

– Yoldan keçən.

– Aldatma, milisionersən, çıxsaq, tutacaqsan bizi.

– Mən milisioner deyiləm, daşoynadanam.

– Daşoynadan? Adın nədi?

– Həmid Xələfov.

– Küyə basma, sirkdə daşoynadansan? Biz sirkin damına çıxıb ordan Xələfova tamaşa eləmişik, ona oxşamırsan, aldatma.

– Dedim ki, mən Həmid Xələfovam, inanmırsınız, çıxın baxın.

Uşaqlar cəsarətləndilər, tiyanın dal tərəfindən çıxıb qaçdılar. Həmiddən əlli-altmış metr aralı durub soruşdular:

– Doğrudan daşoynadansansa, onda bizə pul ver, xərcləyək səninçün.

Həmid cibinə əl atdı, nə qədər pulu vardısa sayını bilmirdi, hamısını çıxarıb uşaqlara uzatdı.

– Gəlin, götürün.

– Deməzsən ki, aldatdım. Buna bax e... Xam tapıb, istəyir ki, yaxına gedək, bizi qamarlasın.

– Belə əliaçıqsansa pulu yumurla, at, götürək.

Həmid pulu yumurlayıb uşaqlara sarı tulladı:

– Götürün.

Oğlanlardan biri pulu cəld göydə qapdı.

– Bu nə yaxşı əmidi.

– Əmi deyil, alə, Həmid Xələfovdu. Sağ ol, Həmid qədeş, indi bildik ki, sən sirkdəki o pəlvansan.

Oğlanlar sevinə-sevinə gedəndə Həmid onlara dedi:

– Bax, xəbərdarlıq edirəm, gələn dəfə sizi burda görsəm, vay halınıza, tutub verəcəyəm milisionerə.

– Sən Həmid Xələfovsan. Həmid qədeş adamtutan deyil. Onsuz da biz bu tiyanın, ya da alayısının altında gecələyəcəyik.

Uşaqlar qaçıb getdilər. Həmid evlərinə gəldi... Aylı gecə idi. Anası qapıdan boylanıb intizarla gözləyirdi.

– Ay oğul, indiyəcən hardeydin? Ürək-göbəyim düşdü, sirk haçandı ki, qurtarıb.

Həmid anasına tiyan altında yatan uşaqlara rast gəlməsini danışdı. Rübabə arvadın onlara rəhmi gəlsə də, hirsləndi:

– Bilmirəm onlar bu küçələrdə his-pasın içində avaralanmaqda nə görüblər, nöşün yetimxanaya gedib orda insan kimi yeyib-içməkdən, isti yerdə yatmaqdan qaçırlar?!

Rübabə arvad oğlu paltarını dəyişənəcən yemək hazırladı. Həmid hər gecə sirkdən gələndə yatmamışdan qabaq bir boşqab dovğa ilə yarım dənə dağlı çörəyi yeyirdi. O yuyunub çörək yeyəndə Rübabə də gəlib oğlunun böyründə əyləşdi.

– Sabah körpüdə işləyən o kişi Balağadan sənə xəbər gətirəcək? Sərvinazgilin gözü yoldadı.

– Gətirməlidi, axşama söz verib, görək nə deyəcək.

– Barı, yaxşı xəbər gətirəydi. Fağır qızın matı-qutu quruyub. Nurlunu deyirəm e... Üzünə baxanda ürəyim yandı.

– Məncə, Balağa qədeşi orda çox saxlamamalıdırlar. Əgər bir şeydən şübhələniblərsə, yoxlayıb məsələni aydınlaşdırandan sonra onu buraxmalıdırlar.

– Allah ağzından eşitsin, ay Həmid.

Həmidin Həştərxandan Bakıya qayıdanı belə ağır günü olmamışdı. O, çörək yeyib çarpayıya uzandı. Rübabə də gedib yatdı. Otağa sükut çökdü. Davudun Həmidə bağışladığı anker saatının çıqqıltısından başqa həniri eşidilmirdi. Həmid saatın aramsız və ahəngdar çıqqıltılarına qulaq asa-asa fikirləşirdi. İki yaxın dostu vardı, biri həbs edilmişdi, o biri isə bərk ayaqda geri çəkilmişdi...

Neçə gün idi ki, sirkdə Balağanın yeri boş qalırdı. Yalnız bu axşam kimsə oturmuşdu. Sabahdan, çox güman, Davud da daha tamaşaya gəlməyəcəkdi... "Kaş Balağanın işi Matros Həbibin o tanışında olaydı. Onda Balağaya köməyi dəyərdi. Çox çək-çevirə salmazdı. İşi aparandan çox şey asılıdı. İstəsə belə də döndərə bilər, elə də".



## XVII

Həmid ertəsi gün Nurlugilə getmədi, gedib nə deyəydi?! Onların gözləri yolda idi, gərək yaxşı-pis Balağadan bir xəbər aparaydı. Həbiblə nahardan sonra görüşməyi vədələşmişdilər. "Görək Həbib kişi bizi sevindirəcəkmi?! Xoş xəbərlə qapı açmaq adama ləzzət verir, bəd xəbərlə gedib nə eləyəsən?.."

O gün Həmid sirkdə çox həvəssiz məşq elədi. Elə bil əvvəllər hər dəfə məşq eləyəndə yeddiqat tər tökən o deyildi, başqası idi. Həmid məşqi tez qurtardı, vaxtı çox idi, ürəyi susuzluqdan yanırdı. Malakan bağının tinindəki çayçıda bir çaydan çay dəmlətdirib hamısını içdi. Orada çox oturmadı. Körpüyə yollandı, hələ nahar fasiləsi başlamamışdı. O, sahildə balıq tutanların yanında ləngidi, sonra Həbiblə vədələşdikləri vaxtda onun görüşünə getdi. Həbib müştüyü damağında eynəyini gözünə taxıb nəsə yazırdı. Həmid otağa girib düz Həbibin qabağındakı qıçı laxlayan kətildə oturdu. Kətil onun ağırlığından təkəri yağlanmamış araba kimi cırıldadı. Matros Həbib eynəyinin altından onu süzərək, çox soyuq salamlaşdı. Həmid onun danışmasını gözləmədi:

– Balağadan bir şey öyrənə bildiniz?

– Öyrənmişəm.

Sevincdən Həmidin ürəyi atıldı:

– Nə yaxşı oldu.

– Sevinmə, yoldaş Həmid, əfsus ki, mən sənə Balağa Aslanzadədən xoş xəbər gətirməmişəm.

Həmidin sevinci kədərə döndü. Matros Həbibdən ayrı söz soruşmağa dili gəlmədi.

– Sənin o Balağanın işi şuluxdu.

– Nöşün, yoldaş Həbib?

– Daha nöşünü yoxdu ki, Balağa xalis konturdu.

– Kontur? Kontur nədi, yoldaş Həbib?

– Bilmirsən? Kontur müsürmanca, yəni əksinqilabçı. Rusca konturrevolyusener deyirlər. Qısası kontur olur.

Həmidin təəccübdən boğazı qurudu. Həbib nə danışırdı? Necə yəni Balağa əksinqilabçıdı? O görmüşdü ki, əksinqilabçı əlinə silah alıb ağqvardiyaçılar kimi Şura hökumətinin, inqilabın əleyhinə vuruşsun. Balağa bunların heç birini eləməmişdi və eləməzdi də. Həbib

nədən ötrü ona bu adı verirdi, Balağanın əksinqilabçılığını nə ilə sübut edirdilər?!

– Yoldaş Həbib, bəs siz çekada işləyən o dostunuzdan soruşmadınız ki, Balağa Aslanzadənin əksinqilabçılığı nədən ibarətdi?

– Soruşdum, dedi ki, o, mətbəədə çap elədiyi qəzetdə Şura hökumətinin əleyhinə çıxıb. Qəzetin həmin nömrəsi neçə min nüsxə camaat arasında yayılandan sonra xəbər tutublar.

Matros Həbib, qəzet, mətbəə adı çəkəndə Həmid Balağanın çox möhkəm dolaşmasını və oradan bu tezliklə qurtara bilməyəcəyini yəqin elədi.

– O nə yazıb qəzetə?

– Nə yazacaq?! Kontur bizim xeyrimizə yazar?! Qəzet idarəsində yazıblar. "Şura hökumətinin xalq arasında hörməti, tərəfdarları çoxdur". Balağa bunu döndərib özü istəyən kimi eləyib "Şura hökumətinin xalq arasında hörməti, tərəfdarları yoxdur". – Matros Həbib eynəyini çıxarıb kağız qalağının üstünə atdı. – Sən öz vicdanınla de, bəyəm Şura hökumətinin xalq arasında hörməti, tərəfdarları yoxdu? İddiaya və mühakiməyə bir bax!

Həmid etiraz elədi:

– Mən Balağanı tanıyıram, o, elə söz yazmaz.

Matros Həbib eynəyini taxıb Həmidə çəp-çəp baxdı:

– Necə yazmaz? Yazıb da. Qəzeti maşında o çap eləyib, ya mən?!

– O çap eləyib. – Həmid mat qalmışdı. – Şura hökumətini camaat istəmir, onun tərəfdarları yoxdu? Bu ki, ağ yalandı.

– Gərək sən bunu Balağaya deyəydin. Özü görmürdüsə, barı görənlərin sözünü eşidəydi.

– Sözümə nə məna verirsiniz verin, ancaq açığını deyim ki, mən yenə də Balağanın o əqidədə olmasına inana bilmirəm.

– Nahaq yerə. Bu saat inqilabın düşmənləri onlara lazım olan adamları pulla satın alırlar. Və həmin adamların əli ilə sakitcə öz işlərini görürlər. Sonra da çəkilib dururlar qıraqda. Nə bilirsən, bəlkə, Balağanı da bir vasitə ilə öz tərəflərinə çəkiblər.

Həmid körpüdən çıxıb dəniz qırağı ilə bir xeyli getdi. Bir də gözünü açanda gördü ki, gəmi təmiri zavodunun yanına gəlib. Baş alıb Bayıla gedir, geri çevrildi. O, Nurlugilə getmək istəmirdi. Gedib nə deyəydi? Qadınlar Həmiddən xeyir xəbər gözləyirdilər. Onlar hələ nəyəsə ümid bəsləyir, Balağanın tezliklə evə qayıdacağına şübhə



eləmirdilər. Gedib necə deyəydi ki, Balağanı gözləməyin, o, əksinqilabçılıqda ittiham edilir, vəziyyəti çox ağırdır.

Sahildə balıqçılar qayaların üstündə oturub dənizə tilov atmışdılar. Qağayılar balıq iyinə lap alçaqdan uçur, qaqqıldaşırlar. Ayrı vaxt qağayılara tamaşa eləməkdən xoşlanan Həmid bu gün onların səsindən qıcıqlanırdı. O, yerdən xırdaca bir daş götürdü, qağayıları qorxutmaq üçün suya vızıldatdı. Quşların tükü də tərpənmədi, ancaq sahildə balıq tutanlar təəccüblə dönüb Həmidə sarı baxdılar. Biri qəzəblə donquldandı. "Bu neynir, alə? Görmür ki, balıq tuturuq, hürküdüb qaçırdır?" Başqa biri də nə isə dedi. Həmid eşitmədi. Üçüncü isə onun üzünə baxa-baxa gülümsəyib salam verdi, sonra sirr açırmış kimi yavaşca dedi: "Siz Həmid Xələfovsunuz. Mən sizin şəklinizi divarlarda görmüşəm". Həmid oğlana cavab vermədi. O tərəfdə xalça-palaz yuyan qadınlara sarı getdi. Qız-gəlinlər topuğa kimi suyun içində durub ləpədöyəndə sərdikləri xalça-palazları yuyurdular, o yanda da neçə quru xalça qalaqlanmışdı, onlar hələ yuyulmamışdı.

Həmid gendə dayanıb qadınlara tamaşa elədi.

Cavan bir gəlin yaş kilimə gilabı sürtür, sonra əli ilə onu kilimin üstünə yaydıqca gilabı sabun kimi köpüklənirdi. Gəlin axırda kilimi suya basıb çıxartdı və bürmələyib iri bir daşın üstünə qoydu. Onun böyründəki ahıl qadın ağ gilabı ilə zərif naxışlı iri bir xalçanı yuyurdu, hərəkətlərindən məlum olurdu ki, bu işdə səriştəsi var. O, iki dəfə gilabı çəkib yuyandan sonra xalça hanadan indicə çıxmış kimi üzə gülürdü. Hər kiminsə varlı adamınkı idi. Belə xalçaların sahibi özü dünyasında dəniz qırağına xalça yumağa gəlməzdi. Qadın tez-tez başını qaldırıb o birilərə baxırdı ki, aparmasınlar. Bir yeniyetmə oğlan bayaqdan o yan-bu yana gəlib-gedirdi. Qadın onu görmüşdü, gözdən qoymurdu, yanındakılara xəbərdarlıq elədi. "Ağız, ayıq olun, bu gədə xəspuşa oxşayır, bayaqdan buralarda gir-gir girlənir". Palaz yuyan cavan qız ona hay verdi: "Balaxanım xala, qorxma, mən də onu görmüşəm, gilabıdan bir yumrusunu seçib qoymuşam əlimin altına, yaxın gəlsə çırpacağam başına".

Qadınların söhbətini eşidən Həmid teştin içindəki ağ gilabı parçalarına baxdı, onlardan birini götürüb kimə vursaydın, birtəhər eləyərdi. Həmid bilirdi ki, gilabı xalça-palaz yumaq üçün yaxşı idi. Eşşəklə Masazırdan, Hökməlidən gətirib şəhərdə satan kəndlilərdən Rübabə o qədər ağ gilabı, göy gilabı almışdı ki... Həmid anasından eşitmişdi

ki, gilabı ilə baş yuyanda saç ipək kimi yumşaq olur, tükləri tökülməyə qoymur. Hətta, qoca arvadlar deyirdilər ki, gilabı ilə yuyulan baş ağarmır, o, dərman kimi xeyirlidir. Həmid əvvəllər saç saxlamırdı, başını dibindən qırxdırırdı. İndi isə saçını sabunla yuyurdu, gilabının xeyrini görməmişdi.

O, sahili gəzir, buradakı adamlara, dənizdə qayıq sürən idmançılara baxırdı ki, eyni açılsın, ancaq Balağanı və Matros Həbibdən onun barəsində eşitdiyini unuda bilmirdi. "Balağa yaman yerdə ilişib. Necə olub ki, o, qəzetin elə əksinqilabi sözlə çıxmasına yol verib? Görəsən, bunu özü qəsdən eləyib, ya başqası ona badalaq vurub?.. Özü, ya ayrısı fərqi yoxdu, olan olub. İndi buna Balağa cavabdehdi, tutduğu işin altından çıxa bilməz... Bəlkə, mən Balağanı yaxşı tanımıram? – Həmid də Balağadan şübhələnməyə başlamışdı. – Bəlkə, üzdə özünü bir cür göstərir, ürəyində ayrı şey düşünür?! Hardan bilim?.. Nə deyim, mat qalmışam. Axı, Balağa xain adama oxşamır. Xain nə qədər ehtiyatlı davransa da, əvvəl-axır xainliyini büruzə verir".

Həmid dəniz qırağından kəsə yolla Balağagilə üz tutdu. O, qadınlara söz vermişdi ki, günortadan sonra bir xəbər gətirəcək. Onlara indi getməsəydi, axşam sirkdə olacaqdı, tamaşadan çıxıb ora getmək də gec idi. Həmid keçmişdə Tağıyevin qazamatı, indi isə mərkəzi dustaqxana adlanan yerə çatanda addımlarını yavaşıtdı... Burdan Balağagilin evi çox uzaq deyildi. "Necə olub ki, indiyədək mənim ağlıma gəlməyib, Balağanın işinə gedim, çapxanada onun yoldaşlarından soruşum... Onlar bu işdən xəbərsiz olmazlar. Bəlkə, təzə bir şey öyrənə bildim..."

Yarı yoldan geri dönən Həmid yeyin-yeyin çapxanaya yollandı. Birinci növbənin qurtarmasına az qalmışdı. Vaxtında ora çatsaydı, həm birinci, həm də ikinci növbənin fəhlələrindən Balağanı soruşa bilərdi, biri bilməsəydi, o biri ona deyərdi.

Həmid özünü mətbəəyə yetirəndə birinci növbə yenicə qurtarmışdı. Fəhlələr iki-üç, üç-üç küçəyə çıxırdılar. Həmid ləngər vura-vura yeriyən tosqun bir kişini saxladı.

– Əmi, Balağanı tanıyırsınız?

– Hansı Balağanı, mətbəədə iki Balağamız var, biri...

– Mən Aslanzadə Balağanı soruşuram.



Kişi Həmidin təhər-töhürünə baxdı. Görsün o kimdir, hardan gəlib. Həmidi çekanın əməkdaşlarına oxşatdı.

– Mən onu siz deyən də tanımıram. – Kişi əyilib çiyni üstündən dalca gələn pota oğlanı göstərdi. – Bax, o kök oğlan Aslanzadə ilə bir yerdə işləyirdi. Nə lazımsa, o sizə deyər, bağışlayın, mən tələsirəm.

Kişi daha Həmidə qulaq asmaq istəməyib uzaqlaşdı. Onun nişan verdiyi cavan fəhlə küçəyə çıxanda Həmid qabağını kəsdi:

– Mənə dedilər ki, siz Balağa Aslanzadə ilə bir yerdə işləmisiniz?

Pota, yoğun ağac kötüyünə bənzəyən gənc oğlan Həmidi təpədən dırnağa süzdü. Həmdin də gözü onda idi. Fikirləşirdi ki, bu oğlan ona hardan tanış gəlir.

Pota oğlan dedi:

– İşləmişəm, necə məyər?

– Yəqin eşitmisiniz Balağanı tutublar?

– Eşitmişəm.

Həmid bir də soruşdu:

– Bilmirsiniz ki, Balağanı nöşün tutublar?

Bura kimi Həmidi çekanın əməkdaşı hesab eləyən və onunla çəkinə-çəkinə danışan pota oğlanın dili açıldı:

– Sözünüzdən belə görünür siz, Balağa Aslanzadənin qohumusunuz.

– Qohum deyiləm, ancaq belə hesab elə ki, onunla qohumam.

– Hə, neynək. – Pota oğlan çönərək bayaqdan dinib-danışmayan yoldaşını ötərgi süzdü. – Mən Balağanın nöşün tutulmasını deyə bilmərəm. Qəzetdə Şura hökumətinin əleyhinə zərərli söz yazıb. Yazıb deyəndə ki, qəzet idarəsinin yazdığını tərsinə döndərib. Mən Balağanın əlinin altında şagird idim, bir maşında işləyirdik. O gün Balağa birtəhər idi. Qəzeti şirin çap eləyən yerdə nabor dağıldı, köməkləşib onu təzədən yığdıq. Mən icazə alıb su başına getdim, tək çap elədi, sonra o harasa getdi, qayıdanda hirsli-hirsli qəlyan çəkirdi. Çapı qurtarıb evə getdik, səhər işə gələndə eşitdik ki, bizim çap elədiyimiz qəzetdə əksinqilabi cümlə gedib. Balağanı tutublar. Məni də aparıb dindirdilər, gördülər ki, bir günahım yoxdu, buraxdılar... O gün sən demə, Balağa naboru qəsdən dağıtmışdı ki, bu yolla Şura hökumətinin xalq arasında hörməti, tərəfdarları "çoxdu" sözünü dəyişib "yoxdu" eləsin. Sən bir adamda bicliyə, hiyləyə bax a... Səhv düşsə, "yoxdu"da nöş düşür, alayı sözdə düşəydi də! Bircə hərfi götürüb

yerinə alayısını qoymaqla gör nə sayaq aləmi qarışdırıb. – Oğlan Həmidə üz tutdu. – Sənin yaxın adamın olsa da, bağışla e, Balağa yaman xain imiş. Mən yazığı da özüylə dolaşdıracaqdı, bəxtim gətirdi. Düzü, elə əvvəldən Balağadan heç xoşum gəlmirdi. Onun qarnının altını bilmək olmurdu.

Pota oğlan yoldaşından soruşdu:

– Düz demirəm, Şıxbala?

Yoldaşı hay vermədi. Pota oğlanın biləyindən tutub dartdı:

– Gəl, alə, gedənin dalınca danışmazlar. Balağa yaxşı çapçı, yaxşı da pəhləvan idi. Onun qəzetdə o cür yazması ilə nə işimiz, qoy böyük adamlar ayırd eləsinlər. Biz balaca adamlarıq.

Pota oğlan yoldaşını saxlayıb Həmidi süzə-süzə hırıldadı:

– Deyəsən, axı mən səni tanıdım, Həmid Xələfovsan?

Şıxbala da Həmidə diqqətlə göz yetirdi:

– Yaxşı tanımısan, Firuz, bu, daşoynadan Həmid Xələfovdu, üz-gözündən görmürsən, biz çap elədiyimiz afişada şəkli olan oğlandı. Balağanın yoldaşları da özü kimi pəhləvanlardı.

Pota oğlan Həmidə yaltaqlandı:

– Sən Həmidi kimə tay tutursan, Şıxbala? Balağa düşmən idi, əksinqilabçı idi, bu, bizim adamdı.

Şıxbala pota oğlanı dartıb özü ilə apardı:

– Gəl, alə, gəl!

Onlar danışa-danışa getdilər. Firuz deyirdi: "Yadımdadı, Balağa bu Həmidi bizə çox tərifləyirdi".

Həmid yeriyəndə gövdəsini o yan-bu yana əyən pota oğlanın dalınca baxanda yadına düşdü ki, onu hardan tanıyır. Bu, Balağanın çox tərif lədiyi Firuz idi. O deyirdi ki, Firuz qabaqlar Suraxanıda, mədəndə usta şagirdi olub, ordan beş-altı aydır ki, gəlib bizim mətbəəyə, mənim yanımda işləyir. Mərifətli oğlandı, istəsə, ondan gözəl pəlvan olar.

Həmid daha Balağa barəsində heç kəsdən heç nə soruşmadı. Burada bundan əlavə bir şey öyrənə bilməyəcəkdi. Balağa Firuzdan xeyirxahlıqla danışırdı, onu gələcəyinə inanırdı. Firuzun "düzü, elə əvvəldən Balağa mənim xoşuma gəlmirdi" deməsi Həmiddə heyrət doğururdu. Niyə görə Balağa əvvəldən bu gənc oğlanın xoşuna gəlməsin? Bəlkə, buna Firuzun əlində bir əsası vardı? Nədən ötrü Balağa şagirdindən ağızdolusu danışdığı halda, Firuz öz ustasından



belə bədgüman olsun? Əgər Balağa pis idisə, onda nədən ötrü Firuz bu çağacan dözüb dayanır, ayrı ustanın yanına getmirdi? Həmid yol gedə-gedə fikirləşirdi. Bəzən insanlar necə də üzüdönük olurlar. O bu əqidədə idi ki, əgər Balağa həbs edilməsəydi, Firuz ustasının barəsində belə deməzdi. Yıxılana balta vuran çox olar.

Həmid Balağa barəsində öyrəndiklərini gəlib anasına dedi. Rübabə heyifsilənə-heyifsilənə əlini əlinə vurdu:

– Yıxıldı kişinin evi, yaman yıxıldı... Bu, çox ağır işdi, Həmid. Yəni Balağa belə işə baş qoşar? Lap mat-məəttəl qalmışam... Nə bilim...

– Mən də məəttəl qalmışam, ay mömə. Bu əhvalatı Sərvinaz xalagilə necə gedim deyim?..

– Eşitsələr, qol-qanadları sınacaq. Ümid eləyirdilər ki, Balağanı orda çox saxlamazlar, kişinin bir günahı yoxdu. O adamtutan yerin adı nədi, orda günahı olmayanı dindirib sora evinə buraxırlar. – Rübabə Sərvinazgilin hayına qaldı. – Bu gün sən gedib onlara bir söz demə, ay oğul. Sabaha kimi gözləyək, görək neynirik...

O axşam da Həmidin çıxışına xeyli tamaşaçı gəlmişdi. Bütün yerlər tutulmuşdu. Yalnız manejə açılan qapı ilə üzbəüz birinci sıradakı iki yer boş idi. Onların biri Balağanın idi, o biri Davudun. Bildi ki, Davud bu gün özü gəlməyib. Həmid elə-belə də gözləyirdi. Yaxşı ki, o yerlər çox boş qalmadı. Həmidin fikrini cəlb eləyir, mane olurdu. Yuxarı sıralardan iki əsgər düşüb orada əyləşdi.

Həmid gecə sirkdən çıxıb evə tək gəldi. Bütün günü həm ora-bura getməkdən, həm də ruhən bərk yorulmuşdu. Ölü kimi yatdı. Səhər də həmişəkindən gec oyandı, tez yuyunub çörəyini yedi. Anasına qoşulub Balağagilə getdi. Qadınlarla Rübabə arvad danışacaqdı, gəlib gördülər ki, Sərvinaz xanım xəstələnib, yataqdadır. Nurlu da əlləri qoynunda onun balışının yanını kəsdirib oturub. Onlar Həmidgilin gəlişinə sevindilər. Rübabə içəri keçdi, Həmid şüşəbənddə qaldı, qadın yatan otağa getmədi ki, Sərvinaz narahat olar.

– Ay oğul, heç yaxşı olmadı, qoy durub geyinim. Sən də gəl içəri.

Rübabə qalxıb geyinmək istəyən Sərvinaz xanıma mane oldu:

– Ay rəhmətliyin qızı, nöşün durursan yerindən, yat, azarlısan. Həmid orda tək oturanda nə olar.

Şüşəbənddə taxtın üstünə yuyulmuş, hələ ütülənməmiş xeyli paltar yığılmışdı. Həmid ayaq üstə qalmışdı. Oturmaq heç yadına da düşmürdü. Fikri yuxarı başda divara vurulmuş afişasında qalmışdı.

O dünən də bu afişanı görmüşdü. Ancaq əməllicə baxmağa imkanı olmamışdı. "Görəsən kim bura vurub? Balağa, ya Nurlu, yox, Nurlu istəsəydi də, ata-anasından həya eləyərdi". Şəklini bu evdə görmək Həmidə çox xoş idi, demək, o, həmişə Nurlunun gözünün qabağında idi.

Nurlu Həmid üçün stul gətirdi:

– Əyləşin, Həmid.

Atasının həbs edilməsi, bu gərgin günlərdə anasının da xəstələnib yorğan-döşəyə düşməsi Nurlunu lap karıxdırmışdı, gecələri doyunca yatmamaqdan, ağlamaqdan qızın gözləri şişmişdi, ancaq o, Həmidə əvvəlkindən gözəl və cazibədar göründü. "Nurlu hələ heç nə bilmir, xəbəri yoxdu ki, atasının işi necə müşküldü. Əgər Balağanın barəsində eşitdiklərim doğrudursa, ən azı on-on beş il işi var. Ondan da ağır cəza ola bilər..."

Həmid eşitdi ki, qadınlar ağlaşır. Nurlu da... O dözmədi, həyətə düşdü, yarpaqları saralmış meynə talvarının altında gözlədi. Ağlaşma səsi həyətə də gəlirdi. Həmid ayaq altına səpələnmiş xəzəli ayaqlaya-ayaqlaya gəzindi.

Həmid talvarın altında gəzsə də, qulağı evdəydi. "Anam onları vəziyyətdən hali eləyib. Nə qədər acı olsa da, həqiqəti bu başdan bilmələri yaxşıdı. Neynək, ağlayıb, ağlayıb, aram olarlar".

Şüşəbəndin qapısı cırıltı ilə açıldı. Nurlu içəridən başını çıxarıb:

– Orda niyə gəzirsiz, Həmid, gəlin içəri, – dedi.

Qızın gözləri qızarmışdı. Həmid onun titrək səsində özünə yaxın olan bir adamın qayğısını duydu. Şüşəbəndə qalxıb Nurluya dedi:

– Fikir eləməyin, Nurlu, bu ağır günlərdə mən sizi tək qoymaram.

Qız kövrəldi, dodaqları titrədi. Həmid bu anlarda Nurlunun başını öz sinəsinə qoyub ona təsəlliverici sözlər deyər, ovundurardı. Ancaq hələ ixtiyarı çatmırdı.

Nurlu Həmidi otağa, qadınların yanına dəvət elədi. Sərvinaz xanım geyinib oturmuşdu; əziz adamının ölüm xəbərini alıbmış kimi matı-qutu qurumuşdu. O, Həmidi görəndə dərdi açıldı:

– Bu nə iş idi Balağa eləyib, bizi tək qoydu, ay Həmid.

Rübabə:

– Tək nöşün olursunuz, ay Sərvinaz xanım. Tək düşmənin olsun, mən də səninləyəm. Elə hesab elə ki, dörd uşağımız var – üç oğlumuz, bir qızımız.



– Siz ki bu ağır günlərimizdə bizə belə həyan olursunuz, nə deyim, söz də tapmıram, Allah sizi bizə çox görməsin.

– Biz sizinçün neyləmişik ki, ay Sərvinaz xanım, bəs Balağa qədeşin boynumuzdakı haqq-sayı?

Nurlu çay gətirib getdi, qız çıxanda Sərvinaz xanım dedi:

– Nurluya baxıram, dərdim daha da artır. Atası gedəni qızın boğazından su da keçmir. Bilmirəm bunun halı necə olacaq?

– Belə olmaz, Sərvinaz xanım. Nurludan muğayat ol, de canının hayına qalsın. Ürək-dirək ver.

– Çox demişəm, faydası yoxdu. Bugünkü xəbər onun ümidini lap qırdı.

İndiyə qədər susan Həmid də dilləndi:

– Sizi öyrətmək olmasın, Sərvinaz xala, həyatda hər şey ola bilər. İnsan gərək çətinliklərə, gözlənilməz hadisələrə dözməyi bacarsın, özünüzü ələ alın, Nurlunu qoymayın fikir çəksin. Balağa qədeş yoxdu, mən varam.

– Ömrün uzun olsun, oğul, səndən çox razıyıq.

Həmid qadınların ah-ufuna qulaq asanda pis olurdu, çayını içdi.

– Mömə, sən otur, mən sirkə məşqə gedirəm. İki gündü əməlli-başlı məşq eləmirəm.

Nurlu içəri girəndə Həmidin qalxdığını görüb təəccüb elədi:

– Nə tez gedirsiniz, Həmid?

– İşim var, Nurlu, yoxsa oturardım.

Nurlu Həmidi qapıya kimi ötürdü:

– Sizdən bir xahişim var, atam barəsində nə öyrənsəniz mənə deyin. Anamın ürəyi xəstədi, ona hər sözü demək olmaz. Bir də çox xahiş edirəm, məndən heç nə gizlətməyin.

– Gizlətmərəm, Nurlu.

Ayrıldılar. Həmidə elə gəldi ki, Nurlu qapıda durub dalınca baxır, tinə çatanda dözmədi, çönüb göz yetirdi. Qızı qapıda görməsə də, onunla ikilikdə danışmağa imkan tapmasına şad idi. Həmid yavaş-yavaş bu ailəyə məhrəm olurdu. İndi hərdən anası ilə, ya tək Balağagilə getsəydi, yersiz görünməzdi.

Sirkin qabağında Həmidə qara meşin gödəkcəli və qara meşin kepkalı cavan bir kişi yaxınlaşdı:

– Salam, Xələfov.

Həmid tanımadığı bu kişinin salamını soyuq aldı. Qara meşin gödəkcəli dedi:

– Mən çekanın əməkdaşıyam. – Cibindən bir qırmızı kitabça çıxartdı, – bu da mənim vəsiqəm.

Həmid heç nə başa düşmədi. "Bu kişinin harda işləməsinin mənə nə dəxli var, vəsiqəsini nöş göstərir, ondan soruşan var?!"

Qara meşin gödəkcəli yavaşca dedi:

– Zəhmət olmasa, mənimlə getməlisiniz, Xələfov.

– Hara?

– Görərsiniz.

– Mən məşq eləməliyəm, axşam da çıxışım olacaq.

– Hamısını bilirik, narahat olmayın, Xələfov.

Həmidin canına qorxu düşdü. "Balağanı dolaşdıran kimi, məni də dolaşdırdılar, görəsən, hansı əclaf məni şeytanlayıb. Yalandan nəsə deyib".

– Ay yoldaş, mən bu axşam çıxış eləməliyəm, camaata bilet satılıb, bəs necə olsun?

– Onu bilirik.

– Məni həbs edirsiniz?

– Yoldaş Xələfov, bir az səbirli olun, bura sorğu-sualın yeri deyil, gedəyin, orda sizə hər şey məlum olar.

Həmidin etiraz eləməyə sözü qalmadı. "Mənimki də buracanmış. Tutulmağımı evə nə sayaq xəbər verəcəyəm? Anam yazıq eşitsə, özündən gedəcək..."

## XVIII

Yarım saatdan çox idi ki, Həmid çekanın dəhlizində oturub gözləyirdi. Onu gətirən qara meşin gödəkcəli kişi demişdi ki, gözlə burada, naçalnik bərk məşğuldu. İşini qurtaran kimi səni çağıracaq. Həmid intizar içində gözləyirdi.

Xaki rəngində köynək, qalife şalvar geymiş, beli tapançalı gümrah kişilər ara-sıra Həmidin yanından keçəndə ona ötərgi nəzər salır, bu qapıdan çıxıb, o biri qapıya girirdilər. Həmid darıxırdı, onunla danışmaq istəyən naçalnikin nə çox işi varmış. O hələ çoxmu gözləyəcəkdi?! Görəsən Həmidi nədə təqsirləndirirdilər, günahı nə idi? Bir



səbəb olmadan onu çağırmazdılar. Həştərxandan Bakıya qayıdandan bəri hara getdiyini, nə elədiyini bir-bir yadına saldı, görsün başqasında şübhə doğuran bir iş tutmayıb, kiminsə yanında artıq-əskik danışmayıb ki. Bəzən adam qızışır, ağına-bozuna baxmadan ağzına hər nə gəldi deyir. Həmid bu barədən arxayın idi. Onu heç nədə günahlandıra bilməzdilər. Şura hökumətindən də yerdən göyə qədər razı idi, ağzı təzə-təzə çörəyə çatmışdı. Bəs onu bura niyə gətirmişdilər? "Ayrı səbəb ola bilməz. Bəlkə, Balağa nədəsə məni şahid göstərib, istəyir ki, onu burda naçalniklərin yanında təsdiq eləyim?.. Əgər bildiyim işdisə, niyə təsdiq eləməyim, eləyərəm..."

Vaxt gedir, Həmid darıxır, narahatlığı, həyəcanı artır, fikrinə cürbəcür şeylər gəlirdi. Ürəyi də susuzluqdan yanırdı. "Gözümün kökü saraldı. Nə vaxtacan oturub gözləyəcəyəm? Bəlkə, naçalnikin yadından çıxıb ki, məni bura gətiriblər?.."

Bu vaxt meşin gödəkcəli kişi bayaq girdiyi qapıdan boylanıb Həmidi çağırdı:

– Xələfov, durun, gəlin bura.

Həmid içəri girdi. O belə təsəvvür edirdi ki, böyük naçalnik çox zəhmli adam olar, qaşqabağı yer süpürər. Amma otağın küncündə qoyulmuş stolun arxasında, anası Rübabə demişkən, "üz-gözündən nur yağan" orta yaşlı bir kişi əyləşmişdi. Baxışlarından yorğunluq tökülürdü, elə bil onu yuxudan kal durğuzmuşdular. Stola dirsəklənib papiros çəkirdi. Onu görəndə Həmidin həyəcanı azaldı. "Pis adama oxşamır, axırı xeyir olsun".

Rəis yazı stoluna söykənmiş uzunsov stolun dövrəsinə düzülən boş stulların birində əyləşməyi Həmidə təklif elədi. O, Həmidin bərk həyəcan keçirdiyini hiss elədi və dedi:

– Xələfov, ürəyinizə ayrı şey gəlməsin, biz sizi söhbət eləməkçün bura çağırmışıq.

Uzunsov stolun üstündəki qrafin su ilə dolu idi, yanında stəkan da vardı. Həmidin qrafinə baxması rəisin gözündən qaçmadı.

– Xələfov, su istəyirsiniz?

– İcazə versəydiniz, içərdim, yoldaş naçannik.

– İçin.

Həmid stəkanı ağzına kimi doldurub başına çəkdi. Elə bil bu bir stəkan su güclü dərman idi, içən kimi təsirini göstərdi. Həmidin tarıma çəkilmiş əzələləri boşaldı, sinəsi genişləndi, sakitləşdi.

Rəis papirosunun kötüyünü külqabıya atdı, hərəkətlərindən hiss edilirdi ki, qəsdən ləngiyir. Həmidin sakit olmasını gözləyir. Rəis söhbətə keçdi:

– Xələfov, burda özünüzü evinizdə olan kimi hiss eləyin. Biz də sizin yoldaşlarınız.

Həmid üzdə büruzə verməsə də, ürəyində rəisə güldü: "Ay hiss elədim a... Dildə demək asandı..."

Rəis soruşdu:

– Xələfov, Balağa Aslanzadəni tanıyırsınızmı?

– Tanıyıram, yoldaş naçannik.

– Onun barəsində nə bilirsiniz, tələsməyin, hamısını bizə danışın. Sizdən bircə xahişim var, hər şeyi olduğu kimi deyin, yaxşını yaxşı, pisi pis, heç nədən çəkinməyin.

– Yoldaş naçannik...

– Bağışlayın, sözünüzü kəsdim, Xələfov, mənim familim Hacıyevdi.

Həmid Balağa ilə tanışlıqlarının hardan başlanmasını, ailələri arasındakı bu ünsiyyətin necə yaranmasını olduğu kimi danışdı və axırda barmağında gəzdirdiyi firuzə qaşlı üzüyü çıxarıb stolun üstünə qoydu.

– O çağdan bu üzük məndədi.

Hacıyev üzüyü götürüb baxdı, bir söz demədən Həmidə qaytardı. O, cibinə qoymaq istəyəndə rəis dedi:

– Üzüyü yenə barmağınıza taxa bilərsiniz, Xələfov.

Həmid üzüyü barmağına taxdı. Hacıyev soruşdu:

– Aslanzadə barəsində daha nə deyə bilərsiniz?

– Nə bilirdimsə, hamısını sizə danışdım, yoldaş Hacıyev.

– Fikirləşin, bəlkə, nə isə yadınızdan çıxıb?

Rəisin dönə-dönə onun Balağa barəsində daha nə bildiyini soruşması Həmidi nigaran qoydu. "Bəlkə, məndən gəlib bunlara nə isə çatdırıblar, deyiblər ki, mən də Balağa ilə əlaqədaram, indi onu öz dilimdən eşitmək istəyirlər?.."

– Xələfov, sizin afişalarınızdan biri Aslanzadəgilin şüşəbəndindən asılıb, görmüsünüzmü?

– Görmüşəm.

– Bilmirsiniz ki, o sizin afişanızı öz evindən niyə asıb?

Sual Həmidə qəribə göründü: "Necə niyə asıb? Afişadan xoşu gəlib, xoşu gəlməsəydi, asmazdı".



– Mən özlüyümdə bunu belə izah edirəm, Balağa məni şagirdi hesab eləyirdi, ona görə.

Həmidi bura gətirən meşin gödəkcəli oğlan danışmaq istədi, rəis ona necə baxdısa, səsini çıxartmadı. Hacıyev soruşdu:

– Sizin Aslanzadə ilə qohum olmaq fikriniz vardımı?

Rəisin nəyə işarə elədiyini Həmid anladı. O, Nurlu ilə evlənmək fikrini heç kəsə, öz anasına da deməmişdi. Bəs Hacıyev bunu hardan bilirdi? Həmid özünü o yerə qoymadı.

– Qohum olmaq?.. Mən sizi başa düşmürəm, yoldaş Hacıyev.

Meşin gödəkcəli oğlan dözmədi:

– Yoldaş Hacıyev xəbər alır ki, sən Aslanzadə Balağanın qızını alıb onunla kürəkən-qayınata olmaq istəyirdin? – dedi.

Həmid heç nəyi gizlətmədi:

– Mənim Nurludan çox xoşum gəlir, yaxşı qızdı. Əgər o, mənə gəlməyə razılıq versəydi, evlənərdim.

Rəis soruşdu:

– Siz ona evlənməyi təklif eləmisiniz, razı olmayıb?

– Xeyr. Mən bu barədə Nurluya bir söz deməmişəm, fikrim vardı deyəm.

– Aslanzadəyə necə?

– Balağaya da heç nə deməmişəm, ürəyimdən keçirdi ki, deyim, bu əhvalat araya düşdü.

– Deməməyiniz yaxşı olub, Xələfov.

– Yaxşı olub?.. Nöşün?..

– Bu, sizin xeyrinizədi.

Həmid istəyirdi ki, desin, "əksinə", dayandı. Hacıyev nədən ötrü deyirdi: "Sizin xeyrinizədi". Bu, ona qaranlıq qaldı. Hacıyev sözünü bir də təkrar elədi:

– Onlara elçi göndərməməyiniz yerinə düşüb, evlənmək elə işdi ki, rəsmiyyətə düşəndən sonra onu pozmaq hər iki tərəfçün ağırdır.

Hacıyevin telefonu zəng vurdu, o, dəstəyi qaldırıb zəng eləyənin kim olmasını soruşmadan dedi:

– Mən məşğulam, zəhmət olmasa, yarım saatdan sonra zəng vurun. – Dəstəyi asıb sözünü davam etdirdi: – Xələfov, biz sizin təmiz adam olmağınızı bilirik. Bilirik ki, atanız Murtuz namuslu, vicdanlı kişi olub, ömrünün axırınacan əlinin zəhmətilə dolanıb. Siz yeniyetmə oğlan olanda quyuya yıxılıb ölüb. Dayınız Turab mətin inqilabçı olub.

İnqilab yolunda, Şura hökuməti yolunda canını qurban verib. Çox namuslu, pak ailəniz var. Açığını deyim, biz istəmirik ki, siz Balağa Aslanzadə ilə qohum olasınız. O, çox ciddi bir işdə ittiham olunur. Günahı sübuta yetib, şahid onun üzünə durub, cəzası ağır olacaq. Biz, yəni bu şöbənin əməkdaşları sizə məsləhət görürük ki, Aslanzadənin ailəsindən uzaq olasınız. Sizi şəhərdə tanıyanlar çoxalır, getdikcə daha da məşhurlaşırsınız. Göz qabağında olan adamlardan çox danışırlar. Aləmə səs yayılacaq ki, filankəs filankəsin qızını aldı. Bunu hərə bir cür yozacaq, xoşa gəlməyən danışıqlar başlanacaq və ilaxır. Biz də insanıq, yaxşı bilirik ki, siz Balağanın qızı Nurlunu sevirsiniz. Sevdiyi qızdan ayrılmaq cavan oğlana çətindi. Əgər bu sevgidən keçmək sizə ağırdırsa, onda evlənməyi müəyyən müddət təxirə salın. Hələlik nişan, elçilik məsələsi olmasın. Çünki siz onlara elçi göndərsəniz, qonşulara xəbər yayılacaq. Bu barədə indi söz-söhbət olması məsləhət deyil.

Həmid gözləmirdi ki, Hacıyev söhbəti Nurlunun üstünə gətirər. Balağa kimi inandığı bir insanın düşmən çıxmasının düz olduğunu eşitməsi bir yana dursun, hələ bundan sonra sevdiyi qıza da bir müddət yaxın düşməməli idi.

– Xələfov, bu, bizə bəllidi ki, Balağa o vaxt sizə yaxşılıq eləyib, indi siz də qabağa düşüb onunçün nə isə eləmək istəyirsiniz. Əlbəttə, atalar demişkən, yaxşılıq yerdə qalmaz. Kişi gərək yaxşılığın əvəzini çıxsın. Əsil kişi dar gündə dostunun əlindən tutmalıdı, təkrar edirəm, dostunun. Balağa isə bizim düşmənimizdi. O sizi, məni, – Hacıyev Həmidin qabağında əyləşən meşin gödəkcəli oğlanı göstərdi, – bunu azadlığa çıxaran quruluşun, xalq hökumətinin əleyhinə işləyirdi. Şura hökumətinin yaşını barmaqla saymaq olar, o təzə-təzə qanad açır. Biz quruluşumuzun möhkəmlənməsi üçün qüvvəmizi əsirgəmirik. Hələ çətinliklərimiz, çatışmazlıqlarımız çoxdu, çalışırıq ki, sabahımız bu günümüzdən firavan olsun. Balağa kimi çörəyi dizinin üstündə olanlar ayağımızın altını qazırlar. Belə olan surətdə Balağa sizin necə dostunuz ola bilər? Onun dostları da özü kimi bizim sinfi düşmənlərimizdilər.

Həmid bu yerdə özünü yığışdırdı. Hacıyev onu qorxutmaq istəmirdi, buna görə də fikrini aydınlaşdırdı:

– Biz sizi bədxahlarımız cərgəsinə qoymuruq. Qoymaq niyyətimiz də yoxdu. Ancaq bundan sonra siz yenə də Balağa Aslanzadə üçün çalışsanız, biz istər-istəməz fikrimizi dəyişməli olacağıq.



Hacıyev danışırdı, Həmid ona qulaq asa-asa fikrə getmişdi. Meşin gödəkcəli oğlan bu söhbəti, dəxli yoxmuş kimi, soyuqqanlılıqla dinləyirdi.

Rəis sözünə ara verdi, papiros yandırdı, pəncərənin nəfəsliyini açdı və gəlib Həmidlə üzbəüz əyləşdi.

– Xələfov, mən sizdən on-on beş yaş böyük olaram. Həyat təcrübəm də sizinkindən xeyli artıqdı. Sizin vəziyyətinizi çox gözəl təsəvvür edirəm, bilirəm ki, burda eşitdikləriniz heç də xoşagələn sözlər deyil. Biz sizi istəyən adamlarıq. Bunları da sizə canımız yandığından deyirik. Balağagildən uzaq olmağınız xeyrinizədi.

Həmid təəccüb eləyirdi ki, Hacıyev Balağanın ailəsi ilə onların ailəsi arasındakı yaxınlığı hardan bilir? Nurlunun adını ona kim deyib. "Naçannik mənimlə elə danışır ki, guya işin içində olub..."

Söhbət uzandı, Həmid yəqin elədi ki, Hacıyev Balağa barəsində çox şey bilir.

Rəis Həmidi yola salanda tapşırdı:

– Burda olmağınızı və elədiyimiz söhbəti heç kəs bilməməlidi.

Həmid dedi:

– Arxayın olun, məndən söz çıxmaz, yoldaş naçannik...

Bura gələndə xofa düşən Həmid Hacıyevin yanından sakit gedirdi, ancaq elə bil çiyinlərindən ağır yükü götürüb ürəyinin üstünə qoymuşdular. Nurludan necə əl çəkəydi?!

Meşin gödəkcəli oğlan Həmidi keşikçilərin yanından keçirib qapıya qədər ötürdü.

Həmid küçəyə çıxanda gün əyilmişdi, saatına baxdı, Hacıyevin otağında çox oturmuşdu, evə tələsdi. Sirkdə tamaşanın başlanmasına iki saatdan az qalırdı. İndi anasıgil nigaran idilər. Həmid həmişə naharda evdə olurdu. O, yeyin-yeyin gedir, fikirləşirdi ki, kaş, bu axşam çıxışı olmayaydı. Yaman əzgin idi. Hər gecə sirkdə çıxış eləyib evə qayıdanda heç belə yorğun olmurdu, həm də çıxışdan sonra nə qədər yorğun olsa da, əhvalı pozulmurdu.

Həmid çətin vəziyyətdə qalmışdı. Balağanın ailəsilə əlaqəni necə kəsəydi? Bu gündən belə onlara getməməyini necə əsaslandıraydı, axı aralarında küsmək üçün bir söz-söv olmamışdı? Həmid dərindən düşünəndə belə nəticə çıxarırdı ki, Hacıyev işin içindədir, o, çox şey bilir, ancaq hamısını açıb Həmidə demir, onun xeyri üçün çağırıb bu cür xəbərdarlıq elədi.

Həmid evə gələndə gördü ki, anası əlləri qoynunda qapıda dayanıb:

– Ay Həmid, ay qadan alım, hardaydın indiyəcən? Day məndə can qalmadı. Uşaqları Sərvinazgilə göndərdim, ağlıma gəldi ki, həlbət Balağadan təzə nəsə öyrənmisən, xoş xəbərdi, onlara getmisən, gəlib dedilər ki, orda yoxsan. İndi də uşaqları sirkə yollamışam. Ay saqqalı ağarmış, bilmirsən ki, sən evə gec gələndə mən dəli-divanə oluram?..

Həmid anasının gileyini dinləyir, düşünürdü ona necə cavab versin ki, inandırıcı çıxsın. Hacıyevin yanında olmasını deyə bilməzdi, buna görə də anasını sakitləşdirmək üçün mehribanlıq elədi, onun boynunu qucaqladı:

– Ay mömə, bəyəm balaca uşağam, mənimçün nigaran olursan? Həştərxandakı yoldaşlarımdan birinə rast gəlmişdim. Quba meydanındakı cızbızxanada oturub söhbət eləyirdik.

Rübabə oğlunun sözünə inandı. Birdən Həmidin yadına düşdü ki, Quba meydanındakı cızbızxananı hələ keçən həftə söküblər, indi də onun yaxınlığındakı əllaf, baqqal dükanlarını və tərifi dillərdə gəzən təbrizli Məhərrəmin çörəkxanasını sökürlər. Onların yerində beşmərtəbəli, dörd tini tutan bir bina tikəcəklər. Mənzillərinin də hamısını verəcəklər evsiz fəhlələrə. Onu da danışırdılar ki, Bakıda bu böyüklüyündə bina olmayacaq. Həmidin yadına düşdü ki, onlar – ana-bala bu barədə bir neçə gün əvvəl söhbət eləyiblər. Əkizlər də danışırdılar ki, sökülən dükanlardan hər biri pişik boyda siçovullar çıxıb qaçanda kişilər, oğlanlar daşla, ağacla vurub öldürürdülər.

Cızbızxananın sökülməsi oğlunun gəlişindən sevinən Rübabənin yadına da düşmədi.

– Daha cızbızxanada nöşün otururdunuz, yoldaşını götürüb gələydin evimizə, bozbaş bişirmişəm.

– Təklif elədim, dedi ki, gedib evdəkilərə əziyyət verməyək.

Acından Həmidin qarnı quruldayırdı. Səhər evdən çıxandan Hacıyevin otağında içdiyi bir stəkan sudan savay, dilinə heç nə dəyməmişdi. Səhər də alayarımçıq yemişdi. Cızbızxana söhbətindən sonra daha evdə nahar eləyə bilməzdi, gərək dözəydi, sirkə gedəndə yolüstü bir yerdə qəlyanaltı eləyərdi.

Əkizlər gəldilər – Həmidi görcək ikisi birdən onun qucağına atıldı:

– Qədeş!



– Qədeş gəlib ki, mömə...

Axşam Həmid evdən həmişəkindən tez çıxdı. Qəssab bazarının tinindəki pitiçi o biri dükanlardan gec bağlanırdı. Ora döndü, içəridə müştəri az idi, bir pay piti gətirtdi. Sirkə vaxtında gəldi. O bu axşam birinci günkü çıxışından əvvəlki kimi çox həyəcanlı idi, ehtiyat edirdi ki, fikri qarışıq olduğundan əlindən bir xata çıxar, ikipudluqlar ayağına düşər, ya da ayrı bir peşmanlıq baş verə bilər, ona görə də Hacıyevlə olan söhbəti unutmağa çalışırdı, unuda bilmirdi. Hər şeyi yaddan çıxarsa da, Nurlu yadından çıxmırdı. Səhər qız onu ötürəndə qapıda dediyi sözlərdən sonra Həmid onlara necə getməyəydi? Axı Nurlu ona arxalanırdı.

Bərk həyəcanlı olsa da, o axşam Həmidin çıxışı uğurlu keçdi, bütün nömrələri alqışla qarşılandı. Nə sirkin xidmətçiləri, nə də konferansye bildi ki, Həmidin qanı bərk qaradır. Evə gələndə anası ona dedi:

– Davud gəlmişdi.

– Nə istəyirdi?

– Sən demə, gündüz uşaqlar səni axtaranda Davudun da dükanına gedibmişlər. O da səndən nigaran qalıb, xəbər tutmağa gəlmişdi, eşidəndə ki, sağ-salamatlıqdı, sən sirkdəsən, getdi. Ay oğul, sən tək məni yox, yoldaşlarını da nigaran qoymusan.

Rübabə oğlunun üzündən öpüb o biri otağa yatmağa getdi. Həmid təzə çay dəmləyib içə-içə fikirləşdi necə eləsin ki, daha Balağagilə getməsin. Bilirdi ki, bu, həm özü üçün, həm də Sərvinaz xalagil üçün çox çətin olacaq, ayrı əlacı yox idi, bu qərara gəldi ki, Balağagilə getməyini belə mənalandırsın. Anasına desin bundan sonra mənim kişisi olmayan evə getməyim yaxşı deyil, artıq-əskik danışığa, qeybətə səbəb olar. Balağa qədeş evinə qayıtmayınca mən ora getməyəcəyəm.

Həmid səhər yuxudan duran kimi bunu anasına dedi. Rübabə məyus oldu:

– Dərindən fikirləşəndə görürəm, ay oğul, sən haqlısan, müsəlman məhəlləsidi, kişinin tutulduğunu eşidəndə ağızlarını Allah yoluna qoyanlar tapılacaq. Qızın şərə düşməsinə mən də razı ola bilmərəm. Heç insafdı ki, Nurlu kimi qıza böhtan deyilsin. Mən Sərvinazı başa salaram, bundan sonra Balağagilə özüm gedərəm, ya da uşaqları yollayaram.

– Mən onlara əl tutmağa hazıram. Ancaq bunu heç kimə deməyin, nə lazımdı camaat bilsin ki, onların əli aşağıdı, korluq çəkirlər.

– Bu da düz sözdü, ay sənin ağlına, qanacağına mömə qurban olsun.

Rübabə geyinib Sərvinazgilə getdi, Həmid də çox istədi anasına qoşulsun, Nurlu ilə araları təzə-təzə açılışırdı, bilirdi ki, qız onu gözləyir. Ancaq heyf, heyf, bu əhvalat araya düşdü... Həmidin əlindən nə gələrdi? Anasını yola salanda pıçıldadı: "Sən saydığını say, gör fələk nə sayır".

## XIX

Həmid iki aya yaxın idi ki, Balağagilə getmirdi. Lazım olanda ora anasını, qardaşlarını yollayırdı. Rübabə hər həftə onlara xərclik aparırdı. Vüqarlı qadın olan Sərvinaz xanım əvvəlcə xərcliyi almaqdan boyun qaçırdı. Rübabə and verib, bir Quran söz deyəndən sonra axır ki, onu yola gətirdi. Ərinin tezliklə evə qayıtmaq ümidini itirən Sərvinaz xanım dedi ki, kor-şil deyilik, evin küncündə oturub qalaq. Axtarıb özünə bir münasib iş tapdı. Qonşuluqlarındakı Yaşılgünbəz məscidi bağlayıb, orada xalçaçılıq sexi açmışdılar. Kim istəyirdi gəlib orada işləyirdi, istəməyən xalçanın saplarını, ölçüsünü, şəklini alır, aparıb evində toxuyurdu. İş götürmə üsulu ilə idi, çox da qazanmaq olardı, az da. Bu, Sərvinaz xanımın ürəyincə idi. Nurlunun da əlindən az-maz xalça toxumaq gəlirdi, anasına kömək eləyirdi. Bu işin bir tərəfi də vardı. Sərvinaz xanım adam arasında olmaqdan qaçırdı. İşdə arvadlar ondan soruşacaqdılar: "Ərinə nə olub?" O, həqiqəti deməliydi. Buna hərə bir cürə baxacaqdı. Bəziləri eşidəndə ki, əri Şura hökumətinin düşməni kimi tutublar, bunu onun başına qaxınc eləyəcəkdilər. Sərvinaz da sözgötürən deyildi, araya dava düşəcəkdi. Evdə işləmək qulaq dincliyi idi. Ana-bala əl-ələ verib işləyərdilər, həm də başları qarışardı, fikir çəkməzdilər.

Xalça dəzgahını şüşəbənddə işıqlı yerdə qurmuşdular. Rübabə danışırdı ki, haçan Balağagilə gedirdi, Nurlu ilə Sərvinazı xalça toxuyan görürdü. "Əla da xalça toxuyurlar, zalım qızı Sərvinazın qızıl kimi əlləri var".

Həmid Balağagildən çıxandan Nurlunu görməmişdi. O ümid eləyirdi ki, heç olmasa qız arada onlara gələr, gəlməmişdi. Həmidin gözü yolda qalmışdı. Sözarası Rübabə ona dedi ki, Nurlu evdən küçəyə də



çıxmır. Arteldən sap almağa, toxuduqları xalçanı aparıb təhvil verməyə Sərvinaz xanım özü gedir. Nurlu üçün darıxan Həmid bir dəfə Hacıyevə verdiyi vədini pozaraq onlara yollandı. Yol gedə-gedə hərdən dönüb arxaya baxdı, görsün onu güdüb eləyən yoxdur ki, gözünə şübhəli adam dəymədi. Kömür meydanına kimi beləcə getdi. Bazara çatanda addımlarını yavaşıtdı, dayandı, sonra geri qayıtdı.

Nurlu ilə bir şəhərdə olmaq, onu görməmək ağır idi. Həmid buna görə də qastrol səfərlərinə çıxmağa can atırdı.

Həmid Gəncə, Quba səfərinə hazırlıq görürdü. Gələn həftədən Gəncədə çıxışları başlanırdı, afişaları küçələrə yapışdırılmışdı.

Sirkdəki məşqdən sonra evə qayıdan Həmid Parapet bağından keçirdi, qabağına qəfildən Çopur Abdulla çıxdı. Həmid onu görmürmüş kimi böyründən sovuşmaq istədi. Çopur Abdulla üzünə salıb onu dindirdi:

– Baho... üzünü görək, ay Həmid, balam, məşhur olmusan, daha bizim kimiləri saya salmırsan. Bu olmadı, ağac bar verdikcə başını aşağı əyər.

Çopur Abdullanın çox işgüzar görkəmi vardı, əlində qara meşindən təzə portfel tutmuşdu. Çopur Abdulla xeyli dəyişmişdi, qalın, uzun bığını qısaldıb naziklәşdirmişdi, başına sürməyi papaq əvəzinə mahud kepka qoymuşdu. Həmidə elə gəldi ki, Abdulla arıqladığı üçün üzünün çopurları daha da dərinləşib.

Həmid özünü tanımamazlığa vurdu:

– Mən sizi tanımadım, deyin görüm kimsiniz?

– Tanımadın? Mən ölüm, doğru deyirsən?

– Sizinlə zarafatım var? Tanısaydım deyərdim də.

Çopur Abdulla özündən çıxdı:

– Alə, Həmid, yəni bu qədər dəyişmişəm ki, məni tanımayasan. Heç sənə sözüm yoxdu. – Ağzı köpüklənə-köpüklənə özünü təqdim elədi. – Mən bir vaxt adı dillərdə gəzən, barmaqla göstərilən pəlvan Abdullayam. Abdulla Əlizaman oğlu, indi tanıdın?!

Həmid gülümsündü:

– Çopur Abdulla?

Abdulla Əlizaman oğlu "Çopur" ləqəbi ilə çağırılmaqdan xoşlanmırdı. Özündən gücsüz adamın nə haqqı vardı ki, onun üzünə çopur desin. Həmid bunu eşitmişdi, onu cırnatmaq istədi. Abdulla təbiətinin əksinə olaraq özündən çıxmadı:

– Hə, mənə dost-aşna ərklə Çopur Abdulla da deyir.

– Yadıma düşdünüz.

– Amma mən səni görən kimi tanıdım, göz dəyməsin, ağayana olmusan, vidin-sumbatın dəyişib. Ağ gün adamı ağardır. İndi yol sənin kimi cavanlarındı, mənimki qurtardı.

– Sözündən belə çıxır ki, sizin gününüz qaradı.

Çopur Abdulla dərhal Həmidin sözünü kəsdi:

– Mən elə deməd im, ay Həmid, qoy görək, sən allah, günahımız olmadan bizi şərə salarsan. Namusla işimizi görüb çörək pulumuzu qazanırıq.

Həmid Çopur Abdullanın parıldayan portfelinə baxdı:

– Harda işləyirsiniz belə?

– Dəyirmanda.

– Tay daşıyırsınız?

– Yox, əşşi, sən də ağ eləmə, yəni mən bu sayaq acizəm ki, yazı-pozu bilə-bilə gedib tay daşıyım?!

– Onda ya buğda üyüdürsünüz, ya kisə doldurursunuz?

Həmid yaxşı bilirdi ki, Çopur Abdulla bu işlərin heç birinə getməz, onu təbdən çıxartmaq üçün belə deyirdi.

Abdulla qürrələndi:

– Naçannikəm.

– Naçannik? Dəyirmanın böyüyü?

– Yox. O cür işlərə köhnə firqəçiləri qoyurlar, mən firqəyə təzə girmişəm, qaraul naçannikiyəm. Sən də firqəçisən?

– Mən bespartiyniyəm.

– Hə, başa düşürəm. Əşşi, daşoynadana firqəyə girmək nə vacib! Firqə, vəzifə sənin gücün, üstəlik də cavanlığın. Eh... Mənim kimi yaşa dolmamısan ki, yaxşı qulluq hayına qalasan...

Çopur Abdulla əda ilə portfelini yellədi:

– İndi qulluq sahibi olmuşam. O böyüklüyündə dəyirmanın keşiyini tapşırıblar mənə. Şura hökumətinə canla-başla qulluq eləyirəm.

Həmid haçandan Çopur Abdulla ilə danışmağa girəvə axtarırdı. İndi özü onun qabağını kəsmişdi:

– Abdulla, sizdən bir söz soruşacağam, olan olub, keçən keçib, mənə mərd-mərdanə cavab verin.

Çopur Abdulla vacib bir xəbər eşidəcəkmiş kimi ağzını açıb, ətli çənəsini qaldıraraq diqqətlə Həmidə qulaq asdı.



– Hərçəndi köhnə küllükləri eşələməzlər, ancaq o çağdan nigaranam. Həqiqəti bilmək istəyirəm. Siz də kişitək boynunuza alın. Biz Nardarandan qayıdanda niyə mənim dalımca atlı göndərdiniz? Bəlkə, onun bizim qazalağa atdığı güllə birimizə dəyəydi.

Çopur Abdulla adi bir əhvalat eşidirmiş kimi çox sakit dayandı, Həmid sözünü qurtaranda o dedi:

– Mən sizin dalınızca atlı göndərməmişdim. Bunu kim sənə deyib?

– Mötəbər bir şəxs.

– Kimdi o şəxs, gətir dursun üzümə.

– Tək o demir, hamı danışır ki, kim Çopur Abdullanın kürəyini yerə vurursa, tezliklə o pəhləvanı aradan götürürlər.

Çopur Abdulla coşdu:

– Səndən başqa onu hər kim deyirsə, çox qələt eləyir. Sənin ağlınca, mən elə alçaq işə əl ataramını? Hansı əclafın belindən gələn bunu uydurub? Mən namərd deyiləm arxadan güllə atdırım. Sən deməsən də, bilirəm mənim barəmdə bu şayiəni Balağa yayır. Bədəbədə qalanda mən səninlə nəyin ədavətin aparıram? Sən ki məni düzünəqulu yıxmamısan. Bunu bütün Nardaran əhli gördü. Bir olan Allah gördü ki, mən sənə əhəmiyyət vermədim, dedim, cavan oğlandı, yıxaram pərt olar, baş qoşmadım, sən də məni yıxdın. Əgər Nardarandan tez çıxıb getməsəydin, səninlə bir də güləşəcəkdim, heyif, tüpürdün dabana.

– Siz bunların hamısını ciddi deyirsiniz?

– Lap ciddi. Çünki sənin o sayaq məni yıxmağın kov deyil. Əsil pəlvan kişi kimi yıxar.

Başqaları bilməsə də Həmid çox yaxşı bilirdi ki, Çopur Abdulla gözünün içinə kimi yalan danışır, ancaq onun yalanını necə sübut eləyəydi?! Burda, şəhərin mərkəzində – Parapetin ortasında, camaatın gözü qabağında onun kürəyini yerə qoyub çıxaydı sinəsi üstünə, onda nə bəhanə tapardı. Həmid qıcıqlandı: "Dəli şeytan deyir ki, burda bunun dərsini ver, yumsun ağzını... Eh... Ona baş qoşan onun tayı olar..."

Çopur Abdulla elə zənn elədi ki, Həmid dinmirsə, demək, onun dediklərini təsdiq eləyir, keçdi ikinci məsələyə:

– O ki qaldı qazalağa, mənim güllə atdırmağıma, xalis böhtandı. İnanmırsansa, qoy onda Qurana and içim.

Çopur Abdulla ciblərini axtardı, baş barmaq boyda qızıl quran-qabı çıxartdı:

– Bax, bu müqəddəs kitaba and olsun ki, mən sənin dalınca adam saldırmamışam. Yalan deyirəmsə, Quran mənə qənim olsun.

Çopur Abdulla Quranı üç dəfə öpüb gözünə basdı. Həmid tərəddüd elədi: "Belə çıxır ki, özgəsi imiş qazalağa güllə atan. Bunun xəbəri yox imiş. Balağa qədeş yanılıb".

Çopur Abdulla Quranı cibində gizlətdi:

– Sənin sözün mənə yaman təsir elədi, Həmid. Yoxsa, yanımda Quran olmasını heç kəsə bildirmirəm, xatalıdı. O böhtan məni özümdən çıxartdı, and içməyə vadar oldum. Bilsələr ki, mən firqə üzvüyəm, cibimdə Quran gəzdirirəm, məni sabah firqədən çıxarıb atarlar bayıra. Sən bu Quran, bir daş altda, bir daş üstdə, kimsə eşitməsin.

– Mən xəbərçi deyiləm.

Çopur Abdulla:

– Bilirəm ki, sən arxalanmalı, sözübütöv oğlansan, – dedi. – Araya nifaq salan Balağadı. Yoxsa səninlə nə düşmənçiliyim? Eşidəndə ki, o vaxt Bakıdan harasa getmisən, barmağımı dişlədim. Dedim, ay dadi-bidad, Balağa mənim qorxumla yazıq Həmidi bişirib aradan çıxarıb ki, öz meydanı gen olsun. Mən Nardarandan qayıdandan sizin qazalağa güllə atanı da Balağanın adamı hesab eləyirəm. İblis oğlu iblis öz işlərini yıxır mənim üstümə. Bu gün bu söhbətin açılması lap yerinə düşdü. Həmid, gəl sabah səninlə gedək Balağagilə, bu sözləri sənin yanında deyim onun üzünə.

– Balağa yoxdu, onun dalınca danışmayaq.

– Hara gedib? Əvvəl-axır o xarabasına qayıdacaq, ya yox. Onda gedərik onlara.

Həmid Çopur Abdullanın cəsarətlə danışmasından və hər şeyi Balağanın üstünə yıxmasından onun Balağanın tutulmasından xəbərsiz olmasına şübhə elədi. "Bunu ki, aləm bilir. Çopur Abdulla niyə eşitməsin?"

– Balağanı tutublar.

– Tutulub? Nə üstdə?

– Çap elədiyi qəzetdə pis söz gedib.

– Pis söz üstdə heç kəsi qoduxluğa basmazlar. Yəqin Balağa hökumətin əleyhinə nəsə zərərli söz buraxıb. Ondan nə desən gözləmək olardı, çünki mayası fitnə-fəsadla yoğrulmuşdu. Həmişə xəbislərin axırı belə olur, nə tökərsən aşına, o da çıxar qaşığına.



Həmidin əli gicişirdi, az qalırdı ki, Çopur Abdullaya yağlı bir şillə ilişdirsin, küçədəkilərdən utanırdı. Buna da baxmazdı. Çopur Abdullanın onu dolaşığa salmasından ehtiyat edirdi, qorxurdu ki, beşini də üstünə qoyub onu şeytanlasın. "Kaş Balağa bayırda olaydı, Çopur Abdullanı aparardım onlara, onda əsil həqiqət aşkara çıxardı. İndi hansına inanasan, Balağaya, ya buna?.."

Çopur Abdullanın elə etiqadla Qurana and içib onu gözünün üstünə basması Həmidin fikrini haçaladı. O, uşaqlıqdan evdə ata-anasından dönə-dönə eşitmişdi ki, yalandan Qurana and içmək, əl basmaq günahdır, kim olursa olsun, bu yalana görə, tez ya gec cəzasını çəkəcəkdir. Həmid Çopur Abdullaya inanmırdı, qabağını kəsən, fikrini parçalayan Quran idi.

– Tələsirəm, mən gedim, axşam sirkdə çıxışım var.

Həmid Çopur Abdulla ilə sağollaşmadan evə gəldi. Rübabə həyətdə ocaq qalayıb yenə sac qutabı bişirirdi. Həmid bilirdi ki, təkbaşına qutab bişirmək əziyyətli işdi, çox vaxt aparır, anası bunu ondan ötrü eləyir, dedi:

– Ay mömə, nöşün özünçün iş çıxarırsan, ayrı xörək bişirəydin, asan olaydı.

– Neynim, ay oğul, görürəm ki, sən qutabı çox istəyirsən. O biri gün də çıxıb gedirsən Gəncəyə, ordan da Qubaya, yarı canım qalacaq yanında, yemək-içməyindən nigaran olacağam. Uşaqlar olmasaydı, mən də səninlə gedərdim.

– Körpəyəm ki, mənimçün belə narahat olursan?

Rübabə sacdan bişmiş qutabları götürüb yerinə təzə bükülmüşlərini saldı. Dolu boşqabı oğlunun qabağına çəkdi. Həmid anasının çallaşan saçlarından öpdü.

– Gəlsənə, mən Gəncədə, Qubada olanda sən hər gün xörək bişirib burdan ora göndərəsən.

– Sən zarafata sal, vallah, mümkün olsaydı, göndərərdim ki, xatircəm olum.

– Mən sənin bığlı, saqqallı uşağınam.

Həmid quyunun qırağındakı dolu çəlləyin suyu ilə yuyundu, ocağın qırağındakı kətildə əyləşib qutablardan isti-isti yedi. O, anasının bükməsini tanıyırdı. Bugünkü qutablar bir boyda olsalar da, bükümü ayrı idi. Həmid buna göz yetirəndə Rübabə soruşdu:

– Hansı səliqəlidi?

Həmid bu sualdan anladı ki, anasına kimsə kömək eləyib. Ancaq xəyalına gətirmədi ki, o, Nurlu ola bilər. Odur ki, Rübabəninkini yox, o biri qutabları təriflədi. Anası dedi:

– Onu bükən özü də gözəldi. Onlar Nurlunun əlindən çıxıb.

Həmid anasından utandı, bilsəydi ki, qutabları Nurlu büküb, tərifləməzdi.

– Bu gün Nurlu bizə gəlmişdi. Mənə xeyli kömək elədi. Sənin qabağınca çıxdı, tez gəlsəydin, görərdin. Bizdə çox oturdu. Elə istiqanlı qızdı ki, kaş mənim belə bir qızım olaydı.

Həmid ürəyində Çopur Abdullaya lənət yağdırdı. "Bəlkə də, Nurlu bizə məni görməyə gəlibmiş. Parapetdə yubanmasaydım, qızı görərdim. O mərdimazar oğlu hardan çıxdı qabağıma..."

Sac çox qızmışdı. Rübabənin qutabları onun üstünə salmağı ilə götürməyi bir olurdu.

– Sərvinazgil sənin Gəncəyə, ordan da Qubaya getməyini eşidəndə bikef oldular. Deyirdilər ki, Həmid bizim dayağımızdı. O, uzaqda olanda elə bil kimsəsiz qalırıq. Qoy Bakıya tez qayıtsın. Eh... Yazıqlar neynəsinlər, sənə arxalanırlar.

Həmid boşqabdakı qutabları yeyib qutardı, anası tabaqdakılardan götürüb onun qabağına qoyanda Həmid ayağa qalxdı:

– Doydum, mömə, bəsimdi.

– Onda otur. Səninlə söhbətim var.

Həmid yağlı barmaqlarını tabağın üstünə salınmış qar kimi ağ dəsmala sildi. Nurlunun onlarda olmasını eşidəni qız fikrindən çıxmırdı. "Fürsəti necə əldən buraxdım. Kim bildir, o bir də bizə haçan gələcək?! Səfər üstündə Nurlunu görməyim lap yerinə düşərdi..."

Qutabların hamısı bişib qurtarmışdı. Rübabə süfrənin ununu çırpıb tabağın üstünə çəkdi ki, əkizlər məktəbdən gələnə kimi qutablar isti qalsın. Ocaq öləziyirdi. Rübabə kilimin qırağında bardaş qurub oturdu:

– Həmid, – dedi, – mən səninlə Nurlu barəsində danışmaq istəyirəm. Əvvəlcə, bir de görüm, o sənin ürəyinə yatırmı?

Həmid bildi ki, anası bunu niyə soruşur və onun fikrini öyrənəndən sonra nə təklif eləyəcək. Tərəddüd elədi. Nə deyəydi? Desəydi ki, Nurlu xoşuna gəlir, Rübabə dərhal təklif eləyəcəkdi evlənsinlər. Əgər həqiqəti gizlədib desəydi ürəyimə yatmır, onda da anası soruşacaqdı, nöşün, Nurlunun nəyi xoşuna gəlmir? Nə cavab verəydi? Həmidin Nurluya pis deməyə dili gəlmirdi. Onunla evlənmək ən



böyük arzusu idi, ancaq Hacıyevlə olan söhbət qabağını kəsmişdi. Nə eləyəydi?

Oğlunun fikrə getdiyini görən Rübabə elə zənn elədi ki, Həmid ondan utanır.

– Oğul, utanma, – dedi, – əvvəl-axır bir qız bir oğlanındı. Sən də həmişə subay qalmayacaqsan ki... Nurlu çox qanacaqlı, qabiliyyətli qızdı. Gözəlliyi də öz yerində, maşallah, namxuda, ceyran kimidi, qohum-qonşuda Nurlu kimi qız yoxdu.

– Doğru deyirsən, mömə. Nurlu ağıllı, kamallı qızdı.

Həmidin Nurlunu tərifləməsi kərə yağı kimi Rübabənin canına yayıldı.

– Oğul, sənin evlənmək, özünə ömür yoldaşı tapmaq vaxtın çatıb. Mən çox istərdim ki, Nurlu təkin halal südəmmiş bir gəlinim olsun.

Həmid ürəyində sevindi ki, Nurlu anasının da xoşuna gəlir. Qardaşları Mikayıl və İsmayıl da ona doğma bacı kimi baxırlar. Axır vaxtda bu qız bütün ailənin əzizi olub. Həmid belə imkanı çoxdan axtarırdı. Balağa məsələsi ortaya düşməsəydi, anasının bu təklifini göydə qəbul eləyərdi. Amma indi...

– Mən hələ evlənmək istəmirəm, mömə...

Həmidin bu laqeydliyi Rübabə arvada anlaşılmaz göründü:

– Nöşün evlənmək istəmirsən, ay oğul?

– Mənim indi evlənməkdən daha vacib işlərim var.

– Vacib iş? – Rübabə maraqla soruşdu, – onlar hansı vacib işlərdi ki, mən bilmirəm?

– Bilirsən, mömə, əvvəla bu ev-eşiyə gəlin gətirmək mənim üçün eyibdi. Misal var deyirlər, əvvəl axurunu düzəlt, sonra get, at al.

– Atan rəhmətlik Murtuz kimi mənimlə zərbi-məsəllə danışırsan.

– Yadımdadı... Atam karastılarını əlinin altına yığmayınca heç vədə təzə quyu qazmağa başlamazdı. Biz təzə-təzə dirçəlirik, qabaqda o qədər görüləsi işimiz qalıb ki, mən onları sahmana salmayınca evlənmərəm. Arvad alanın gərək bir ətək pulu olsun. Toy, xeyir iş ömürdə bir dəfə olur, ya onu əməlli-başlı eləmək lazımdı, ya da heç eləməmək.

Oğlunun dedikləri Rübabənin ağlına batırdı:

– Orası elədi. Mən də istəyirəm oğluma ata-baba adətilə düşmən gözü çıxaran toy eləyim. Ancaq indi nə Sərvinaz xanımın, nə də mənim ona gücüm çatar. Dəm-dəsgahla toya filan qədər pul lazımdır, onu hardan tapaq?

– Mömə, gəl bu işdə tələsməyək. Mən əyər-əskiklərimi qaydaya salım, sonra toy tədarükü görərik.

Həmidin gətirdiyi bəhanəyə inanan Rübabə fikrindən əl çəkmədi, başqa təklif elədi:

– Neynək, toy məsələsində hələ gözləyərik. Onda gəl sən möməyə qulaq as, işimizi bərk tutaq, bizi qabaqlamasınlar. Səni nişanlayım Nurluya, yoxsa böyürdən müştəri çıxar, Sərvinaz xanım razılıq verər, peşman olarıq, əlimiz heç yerə çatmaz.

Həmid:

– Mömə, – dedi, – gəl söhbəti saxlayaq, indi yol üstündəyəm. Səfərdən qayıdaram, arxayınlıqla məsləhətləşərik.

– Nə deyirəm ki, ancaq razı olsaydın, sən səfərdə olanda, mən gedib Sərvinaz xanımdan qızın hərisini alardım. Sonra haçan desəydin, onda üç-dörd nəfər sözü keçən, hörmətli kişini qayda-qanunla onlara elçi göndərərdik.

Həmid buna razı olmadı:

– Yox, gözləyək, mömə.

Oğlunun onun hər təklifinə "yox" deməsi Rübabənin könlünü sındırdı. O, ehmalca qalxıb ocağın başından qab-qacağı yığışdırdı. Həmid camaatdan çox eşitmişdi, deyirdilər ki, filankəs ürəyində bir cür düşünür, dilində ayrı söz deyir, cələrinə nifrət eləyirdi. İndi özü həmin adamlar kimi yalan danışırdı. "Eh, ay mömə, səni başa düşürəm, məndən incimməkdə haqlısan, neynim, birini bilirsən, o birini yox. Elə bilməməyin yaxşıdı".

Rübabə ocağın qabağına döşədiyi kilimi götürüb küçədə tozunu çırpanda, Həmid anasına kömək eləmək istədi, arvad qoymadı:

– Ayıbdı, kişi kilim çırpmaz, – dedi. – Bu, zənən xeylağının işidi, sən get, bir hovur dincəl.

Həmid necə dincələydi ki, özü də istəmədən ürəyindən olan bir təklifi bilə-bilə rədd eləmişdi, vicdan əzabı çəkirdi...

## XX

Sərnişin gəmisi Həştərxan limanına yan alanda, Həmid göyərtədə dayanıb sahilə baxırdı. Körpüdə xeyli adam vardı, bəzilərinin əlində gül dəstəsi. O, sərnişinləri qarşılayanlar arasında qastrol qayğıları ilə məşğul olan inzibatçını axtardı. Qabaq sırada gül dəstəsini



başı üstünə qaldırıb uzaqdan onu haylayan Fəttahı tanıdı. "Gör kimi görürəm?!"

Həmid gəmidən düşəndə gördü ki, Fəttah tək deyil, Pyotr Anisimoviç başda olmaqla on iki il əvvəl gəmi təmiri zavodunda bir yerdə işlədiyi fəhlələrin çoxu onu qarşılamağa gəlib. Təəccüb elədi ki, onun Həştərxana gəlməyini yoldaşlarına kim deyib. Həmid bunu qabaqcadan nə məktubla, nə də teleqramla kimsəyə xəbər verməmişdi.

O, çamadanını yerə qoyub hamı ilə bir-bir görüşdü. Fəttahla, Pyotr Anisimoviçlə isə qucaqlaşıb öpüşdü.

– Deyin görüm, bu gün Həştərxana gəldiyimi kim sizə xəbər verib?

Fəttah öyünə-öyünə dedi:

– Mən.

– Bəs sənə kim deyib?

– Özüm. Burda nə çətin iş var ki... Gördüm şəhərin küçələrində bir afişa vurulub, üstündə sənin şəklin və ad-familiyan. Gedib incəsənət işçiləri idarəsindən Həştərxana haçan gələcəyini öyrəndim, vəssalam.

Pyotr Anisimoviç Həmidi məzəmmətlədi:

– Bu gəlməyini özün bizə niyə yazıb bildirməmisən?

– Qəsdən bunu sizə xəbər vermədim, istəmədim ki, işdən-gücdən ayırım. Mehmanxanada yerimi rahatlayıb gələcəkdim sizə.

Pyotr Anisimoviç etiraz elədi:

– Mən heç nə eşitmək istəmirəm, mehmanxana-zad yoxdu. Burda sənin öz evin var, gedərik bizə.

Pyotr Anisimoviçin işarəsi ilə Fəttah Həmidin çamadanını götürdü. Vağzaldan Qradovgilə yollandılar.

Həmişə bu evə gələndə Polina İvanovnanın onu qarşılamasına adət eləmiş Həmid qarını görmədi. Böyük otaqda stol açılmışdı. Üstündə içki, soyuq xörəklər. Pyotr Anisimoviç qonağı stolun yuxarı başında oturtdu. Həmid indi bildi ki, məclis xüsusilə onun şərəfinə düzəlib.

– Siz rahat əyləşin, mən bu dəqiqə gəlirəm.

Pyotr Anisimoviç mətbəxə keçdi. Həmid ona çox yaxşı tanış olan bu otağa göz gəzdirdi. Bufet təzə idi, bir də çarpayı. Onda bax, orda, küncdə yanaşı iki dəmir əsgər çarpayısı qoyulmuşdu. Birində Pyotr Anisimoviç yatırdı, o birində Polina İvanovna. İndi onların yerində bir dənə nikellənmiş yaraşıqlı çarpayı vardı. Üstündə zolaq-zolaq yun

adyal, divardan yumşaq divanın üstündən rəssam Pavel Fedotovun "Mayorun elçiliyi" rəsminin ucuz çərçivəyə salınmış surəti asılmışdı. Otağın kağızı da dəyişdirilmişdi, əvvəl açıq-çəhrayı idi, indi göyümtül.

Qoca, mətbəxdən sinidə bir dəst qədəh gətirib qonaqların qabağına düzdü. Həmid nigaran idi. "Bəs Polina İvanovna hardadı?" Pyotr Anisimoviç iki dəmir çuxurda kələm şorbası gətirib təzədən mətbəxə qayıdanda Həmid dözmədi:

– Petya dayı, Allah xətrinə, gəlin, siz də əyləşin. Heç nə lazım deyil. Stolun üstündə hər şeydən artıqlaması ilə var, hamıya bəs eləyər.

– Siz başlayın, mən də gəlirəm.

Həmid böyründə əyləşən Fəttahdan soruşdu:

– Bəs Polina xala hanı?

Fəttah qədəhlərə araq süzə-süzə dedi:

– Xəbərin yoxdu? Polina İvanovna bir il olar ki, rəhmətə gedib.

– Hardan bileydim...

– Petya dayı o vaxtdan tək qalıb. Oğlu Mişa arvad-uşağı ilə Moskva vilayətində yaşayır. Kişini yanlarına çağırırlar, getmir.

– Mişa yenə hərbi qulluqdadı?

– Hə, rütbəsini artırıblar.

Pyotr Anisimoviç çuxur qabda kartof soyutması gətirdi.

– Bu da mən. – O, Həmidin sağ tərəfindəki boş stulda oturub dolu qədəhi qaldırdı. – Uşaqlar, içəyin bunu bizim əziz qonağın – Həmidin sağlığına. O, Həştərxan şəhərinə xoş gəlib. Qoy bura həmişə belə gözəl, bizi sevindirən işlərçün gəlsin.

Hamı bildi ki, Pyotr Anisimoviç Həmidin on iki il əvvəl bura Bakıdan qaçıb gəlməsinə işarə eləyir. Fəttah qədəhini Həmidə sarı uzatdı:

– Yaxşı sağlıqdı, Petya dayı, hamımızın qəlbindən xəbər verir.

Qonaqlar öz qədəhlərini Həmidin qədəhinə vurdular. Pyotr Anisimoviç arağı dodaqlarına aparıb yerə qoydu:

– Əziz Həmid, incimə ki, mən sənin sağlığına içmirəm, xəstəyəm, həkimlər qadağan eləyiblər.

– Xahiş edirəm, ürəyiniz nə sayaq istəyirsə, o cür də eləyin, Petya dayı. – Süfrəni göstərdi. – Bilmirəm xəstə-xəstə bu qədər əziyyət çəkmək nəyə lazımdı? Buna görə mən sizə gəlməyimi qabaqcadan xəbər vermirdim.



– Onu düz demirsən, oğul, sənin şərəfinə stol açmaq mənə çox xoşdu.

İkinci qədəhləri Pyotr Anisimoviçin sağlığına içdilər. Sonra Həmidin təklifi ilə ayağa qalxıb Polina İvanovnanın xatirəsini yad etdilər.

O gün fəhlə yoldaşları axşama kimi Həmidlə bir yerdə yeyib-içdilər, söhbət elədilər, hərə öz işindən danışdı. Həmid öyrəndi ki, Fəttahın üç uşağı var, ikisi qız, biri oğlan. Pyotr Anisimoviç arvadı öləni canını sağ görmür, ürəyi ağrıyır, bir aya kimi xəstəxanada yatıb, oradan çıxandan sonra da təqaüddədir. Həkimlər ona ağır işdə işləməyə icazə vermirlər.

Camaat dağılışanda qədərindən çox içib keflənən Fəttah Həmidin qolundan yapışdı ki, geyin gedək, gecəni qal bizdə. Həmid dedi ki, gecəni gedib mehmanxanada qalacağam, orada mənimçün otaq tutublar, heç kəsə əziyyət vermək istəmirəm. Pyotr Anisimoviç qəti etiraz elədi:

– Elə şey yoxdu, – dedi. – Mehmanxananı yaddan çıxart.

Həmid qocanın sözünü yerə salmadı. Fəttah hamıya xəbərdarlıq elədi ki, şənbə günü onlarda qonaqdırlar. Fəhlələr sağollaşıb getdilər. Həmid süfrəni yığışdırmaqda qocaya kömək elədi.

– Təklik yaman dərddi, Həmid, Allah heç bəndəsinə qismət eləməsin. Polinadan sonra hər şeydən soyumuşam. Ağzımın dadı da, sağlamlığım da onunla gedib.

– Külfətə öyrənmiş adama qocalanda tək qalmaq çox ağırdır...

Gecə Həmid divanda yatdı, Pyotr Anisimoviç çarpayıda.

Qocanın ürəyi dolu idi:

– Qabaqlar, yəni mən sən yaşda olanda, eşidəndə ki, filan dul qoca evlənib, gülməyim tuturdu. Düşünürdüm ki, qoca kişinin arvad nəyinə gərəkdi. O yaşda təzə eşqə düşmək qoca yabının ürgələrə qoşulub cıdırda yorğalamağına oxşayır. O vaxt mən səhv eləyirmişəm. İndi görürəm ki, kişiyə arvad daha çox qoca vaxtında lazımdı... – Qocanın səsi titrədi. – Oğul, sözlərimdən belə məna çıxartma ki, Petya dayı qadınsız yaşaya bilmir, evlənmək üçün sinov gedir. Xeyr, bircə o qalmışdı. Mənim üçün həyatda heç kəs Polinanın yerini verməz.

– Dərdinizi başa düşürəm, Petya dayı.

– Hə, sən mənə Bakıdan, özündən danışmadın, Həmid. De görüm, oğuldan, qızdan nəyin var?

Pyotr Anisimoviç Həmidin yaralı yerinə toxundu:

– Hələ evlənməmişəm, Petya dayı.

– Bu çağacan subay qalmısan, niyə? Otuz yaşın olub. Sənin indi azı yeddi-səkkiz yaşında oğlun-qızın olmalıydı. Yoldaşlarından geri qalmısan, Həmid. Olmaya, gözəl qadınlara başın qarışıb, evlənmək yadına da düşmür?! Cavan, boylu-buxunlu, gözəl kişisən, yəqin qızlar, qadınlar səni dinc qoymurlar. O əyləncələrin axırı yoxdu, özünə layiqli bir ömür yoldaşı seç, ailə qur.

– Petya dayı, başqaları məni tanımasa da siz, Allaha şükür, azdan-çoxdan tanıyırsınız. Mən əvvəldən belə işlərin aludəsi deyiləm.

– Səni yaxşı tanıyıram, ancaq elə qadınlar var ki, ilanı yuvadan çıxarır.

– Xoşbəxtlikdən, mənim qabağıma eləsi çıxmayıb.

– Qadınlar barəsində zarafat eləyirəm. O öz yerində, Həmid, day yubatmaq olmaz. Evlən, məni də Bakıya toyuna dəvət elə, gəlib şəhəri görərəm.

– O vaxt məktub yazıb sizi neçə dəfə Bakıya qonaq çağırdım. Gəlmədiniz.

– Gələrdim, Həmid, Polina canını sağ görmürdü. Mən də Bakıya gəlmək, onu burda tək qoymaq istəmirdim.

Pyotr Anisimoviç köks ötürdü. "Zavallı qoca..." – Həmid öz dərdini Pyotr Anisimoviçdən gizlətdi. "Mən də Bakıda qərar tuta bilmirəm, nə yaxşı bu daş qaldırmağım varmış, şəhərləri gəzirəm. Sən doğru deyirsən, Petya dayı, vaxtında evlənsəydim, indi mənim məktəbə gedən uşağım vardı. Anam da bunu mənə deyib".

...Onda Həmid Tiflisdən qastrol səfərindən qayıtmışdı, divanda uzanıb dincəlirdi. Anası gəlib dedi:

– Həmid, nə vədədir ki, sənin cavabını gözləyirəm. Ay oğul, Allah qabağına halal südəmmişini çıxarıb, bəxtindən üz döndərmə. Gəl toyunu eləyək, qurtarıb getsin. Sağlığına azdan, çoxdan qəpik-quruşumuz da var. İndi nəyi gözləyirsən? Sərvinazgilə elçinin biri gedib, biri gəlir. Nurlunu istəyənlər qapılarının kandarını çıxarıblar. Qız hamıya da "yox" deyir. Mən belə hiss eləyirəm, Nurlunun da, anasının da meyli sənədi. Sən də barı bir hərəkətə gəl. Bilsəm ki, onunla evlənmək istəmirsən, təkid eləmərəm, görürəm qız xoşuna gəlir.

Həmid qəti cavab vermək üçün anasından sabaha kimi möhlət istədi. Rübabə dedi:

– Bu vaxtacan gözləmişəm, bir gün nədi ki, lap on gün də gözləyərəm, ancaq bu işi birdəfəlik qurtar getsin. Ya "hə", ya da "yox".



Həmid anasından bir gün möhlət alsa da, sabah da arvada cavab vermədi, o biri gün də. Rübabə də onu tələsdirmədi. Bu ara Həmidi idarələrinə çağırıb dedilər ki, səni Mineralnıye Vodıya qastrola dəvət edirlər, gedərsənmi? Razılıq verdi. İdarədən evə qayıdanda gördü ki, Nurlu onlardadır. Qızı çoxdan görməmişdi, sevindi, onunla görüşüb hal-əhval tutdu. Oğlunun Nurlu ilə mehribanlığı Rübabəni daha da ürəkləndirdi:

– Nurlu bayaqdan bizdədi, ay Həmid, – dedi, – istəyirdi səni görüb getsin. Gözləyirdi, yaxşı ki, şəhərdə çox yubanmadın.

Əkizlər hərəsi mizin bir küncündə əyləşib hesabdan misal həll eləyirdilər. Başları dərsə qarışmışdı. Onlardan çıxmayan iş, dinib-danışmırdılar. Həmid sonra öyrəndi ki, qardaşları bəhsə giriblər, görsünlər müəllimin evə verdiyi misalı kim tez və səhvsiz həll eləyə bilər.

Rübabə Həmidə nahar hazırlayanda qonşu oğlan hövlnak həyətə girib yeyin-yeyin dedi:

– Anam deyir ki, əlində nə işi varsa qoyub, tez bizə gəlsin, Rübabə xala.

Rübabə qonşu həyətə keçdi.

Görünür misal çox çətindi, əkizlər qımıldanmırdılar da, başlarını aşağı əyib səylə yazıb-pozurdular. Həmid yuyunub gələndə Nurlu bir tərəfdə əlini çənəsinin altına qoyub oturmuşdu. Qız Həmidə dedi:

– Mən sənə yemək hazırlayaram.

O, balaca otağın başındakı mətbəxə keçdi. Həmid yayda evi əməlli-başlı təmir eləyəndə bu mətbəxi də təzə tikdirmişdi.

O, Nurlunun dalınca mətbəxə keçdi:

– Sən nə zəhmət çəkirsən, anam gəlib mənə yemək verər.

Mətbəxdə stolun üstündə göyərti və çörək qoyulmuşdu. İçəridən zəfəranlı küftənin ətri gəlirdi. Nurlu kasaya xörək tökə-tökə dedi:

– Bəlkə, Rübabə xala gec qayıtdı, o çağacan ac qalacaqsan?

Nurlunun ona qulluq eləməsi Həmidin ürəyindən idi, etiraz eləmədi.

– Gəlsənə, sən də mənimlə nahar eləyəsən, özünçün də xörək çək, Nurlu.

– Mən ac deyiləm, utanmıram, ac olsaydım, səninlə birlikdə yeyərdim.

Səhərdən ac olan Həmid Nurlunun gətirdiyi küftəni iştahla yedi. "O gün gələydi, Nurlu bu evin gəlini olaydı, mənim qabağıma belə xörək qoyaydı, nahar eləyəydik ikimiz də bir yerdə".

Qız stolun o biri ucunda əyləşib ona baxa-baxa dedi:

– Həmid, atam yanımızda yoxdu, sən onun yaxın yoldaşısan, mən səndən vacib bir məsələdə məsləhət almağa gəlmişəm.

– Buyur, bacardığımdan məsləhət verməyə hazıram.

– Məni bir neçə yerdən istəyirlər. – Bunu demək Nurlu üçün çox çətin idi. Qız başını əyib Həmidin üzünə baxmırdı. – Anamın fikri var ki, onlardan birinə versin. O oğlan qonşuluğumuzdakı məktəbdə kimya müəllimidi. Anama qohumluğu da çatır. Nə məsləhət görürsən?

Həmid duruxdu, Nurlu ondan nə soruşurdu? Məgər bilmirdi ki, Həmid onu sevir? Nə olsun ki, bu barədə Nurluya bir söz deməmişdi. Bəs qız duymurdu, görmürdü Həmid hər dəfə onunla rastlaşanda nə çəkir?!

Həmidə belə gəlirdi anası Nurludan xoşları gəlməsini bu çağacan Sərvinaz xanıma andırmış olar. Bu elə məsələ idi ki, Sərvinaz xanım da qızına deməyə bilməzdi. Bəs onda bu nə danışıq idi?

Həmid soruşdu:

– O oğlan sənin xoşuna gəlirmi?

– Dünyada hər şey adamın ürəyi istəyən kimi olsaydı, nə vardı ki?!

– Mən... mən sənə nə deyə bilərəm. Ürəyin sənə nə deyirsə, o cür də elə.

Həmidin cavabı qıza toxundu. Nurlu əmin idi ki, vəziyyəti ona desə, Həmid hərəkətə gələr. Nurlu bu barədə çoxdan söz açmaq istəyirdi. Evdə dönə-dönə götür-qoy eləmişdi. Neçə dəfə fikrindən vaz keçmişdi, düşünmüşdü ki, yaxşı çıxmaz. Axırda bu qərara gəlmişdi ki, mütləq görüşüb onunla danışsın. İndi Həmidin laqeydliyi ona təhqir kimi gəldi.

Qızın gözləri doldu. Qonşu otaqdakı əkizlər səsini eşitməsəydilər, hönkürtü ilə ağlayardı.

Həmid xəbər aldı:

– Niyə ağlayırsan?

Nurlu səbəbini demədi.

– Atam yadıma düşdü. – Qız yaylığını gözünə basdı. – Səndən çox xahiş edirəm, bu söhbət ikimizin arasında qalsın.



Nurlu durdu ki, evlərinə getsin, Həmid dedi:

– Gözlə, anam indi gələr.

Nurlu qalmadı:

– Çoxdan gəlmişəm, anam nigarandı, gedirəm.

Nurlu getdi. Həmid onu üreyisınıq yola salmağına peşman oldu. "Necə əbləhlik elədim. Nurlu məni özünə məhrəm sanıb gəneşirsə, mən nə haqla ona etibar etməyim?! İşin nə yerdə olduğunu bilsə, məni on il də gözləyər".

Rübabə qonşudan gəldi:

– Bəs qız necə oldu, ay uşaqlar?

Əkizlər dilləndilər:

– Evlərinə getdi.

Rübabə daha heç nə soruşmadı.

O həftə Həmid Mineralnıye Vodıya yola düşən günü anası səhər bazara getmişdi, yol tədarükü görsün. Arvad tövşüyə-tövşüyə gəlib dedi:

– Mənim qorxduğum bu idi ki, o da gəldi başıma, ay Həmid.

Həmid anasının əlindən dolu zənbili alıb onu püstə ağacının altındakı skamyada oturtdu:

– Əyləş, nəfəsini dər, sonra deyərsən görək nə olub?

– Day bundan betər nə olacaq?! Mən çox dedim, sən az eşitdin! Dünən axşam Nurluya elçi gəlib. Sərvinaz xanım hərisini verib, qızın barmağına üzük taxıb gediblər.

Həmid Nurlunun başqasına ərə getməyə belə tez razılıq verməsini gözləmirdi. Anasının gətirdiyi bu xəbərin doğruluğuna şübhə elədi:

– İnanmıram, bu, arvadların uydurmasıdı.

– İnan, ay oğul, inan! Tağıyevin qazamatının qabağında Sərvinaz xanıma rast gəldim. Arvad özü dedi. – Əlini dizinə vurdu. – Mən bunun axırının belə olacağını görürdüm. Odu ki, səni tələsdirdim, ay bala, ancaq nə faydası, mən deyib, mən də eşitdim.

– Oğlan nəçidi?

– Balağagilin qonşuluqlarındakı məktəbdə nədənsə dərs verir. Sərvinaz xanım dedi, yadımda qalmadı.

Həmid bildi ki, Nurlunun nişanlandığı oğlan Sərvinaz xanımın qohumu, kimya müəllimidir. "Qız gəlib mənə xəbərdarlıq elədi, əhəmiyyət vermədim. Sanki basaratım bağlanmışdı. Hardan bileydim ki, məsələ bu tezliklə həll olunacaq?!"

Rübabə oğlunu başısoyuqluq elədiyinə görə qınayıb içi dolu zənbili götürdü və söylənə-söylənə mətbəxə keçdi.

Həmid də öz otağına keçdi. Nurludan həmişəlik ayrıldığını xəyalına gətirəndə onu dəhşət bürüdü. "Neynim?!" Düz yolla getdiyi yerdə birdən uçuruma düşən adam kimi özünü itirmişdi. Bu, nə idi, Nurlu nə eləmişdi? O fikirləşə-fikirləşə otaqda vurnuxurdu. Həmid kitab rəfinin üst qatında, cildlərin qabağında qoyulmuş kəhrəba təsbehi götürdü. Həmişə fikirli olanda bu təsbehi əlinə alıb çevirirdi. O, yadigar idi, Həmidə dayısı Turab bağışlamışdı. Bir-birinə dəyən kəhrəba dənələrinin şaqqıltısı tezliklə onu bezikdirdi. Təsbehi yumurlayıb ovcuna aldı. Gəlib divanda oturmaq istəyəndə üzbəüzdəki divara vurulmuş ilk afişası gözünə dəydi. Kaş o günlər olaydı... O günlər geri qayıdardı. İndi adı-sanı, pulu, hörməti vardı, ancaq dostları yox idi. Balağa o sayaq getmişdi, Davuddan da nə vaxt idi ki, ayrı düşmüşdü, bircə Nurlu qalmışdı, o da belə... "Neynim?.."

Ovcunda hiss elədiyi ağrı Həmidi düşüncələrdən ayırdı. O özü də bilmədən təsbehi barmaqları arasında necə sıxmışdısa, kəhrəba dənələri əzilib xıncım-xıncım olmuşdu. Bir dənənin iti ucu ovcuna sancılmışdı. Həmid pəncərəni açıb təsbehin ovuntularını küçəyə vızıldatdı və baş barmağını yaranın üstünə basdı ki, qan axmasın. "Eləsə bu işdə mənə ancaq Nurlu özü kömək eləyə bilər. Mən onunla görüşüb, danışmalıyam..."

Həmid anasına bir söz deməti. Evdən çıxıb Balağagilə sarı üz tutdu, yeyin-yeyin yeriyirdi. Sanki qızla görüşməyə qabaqcadan vədələşmişdilər, indi ora gecikirdi. Həmidə isti oldu, köynəyinin yaxasının düymələrini açdı. Bir neçə tini yeyin-yeyin gedib Kömür meydanının yanından ötəndə addımlarını yavaşıtdı, "hara tələsirəm, məni onlarda gözləyən var?.. Gedib Sərvinaz xanımın yanında Nurluya nə deyim?! Deyim ki, nişanı qaytar, səninlə evlənirəm. Yox, bu cür olmaz. Qayda belədi, xeyir işdən sonra gərək gedib "mübarək olsun" deyəsən. Bunu eləməməyim bir yana dursun, qıza deyim o oğlanı rədd elə? Mənə deməzlər ki, bəs indiyəcən hardaydın? Əgər evlənmək fikrin vardısa, onda niyə qabağa düşüb elçi göndərmirdin? Niyə məsələnin bu dərəcəyə çatmasına razı oldun?". "Hər şey həll edilib, gedib. Nişan qaytarılmayacaq. Biz o rüsvayçılığa razı ola bilmərik, eşşəyə minmək bir eyib, düşmək iki eyib". Elə bil Həmid onların evində idi, Sərvinaz xanımın kinayəli-kinayəli dediyi bu sözlərə



xəcalətdən tər tökə-tökə, özünü qınaya-qınaya qulaq asırdı. "Mən Nurlu ilə tək danışmalıyam. Tək ona hər şeyi deyə bilərəm. Mənə qulaq assa, başa düşər. Son söz onundu. O istəsə, Sərvinaz xanımı da yola gətirər. Ana-qız aralarında dil taparlar".

Həmid Balağagilə getmədi, evin ətrafında xeyli fırlandı, çalışdı ki, başqalarının diqqətini cəlb eləməsin, tanış adamlarla rastlaşmaqdan da qaçdı. O, neçə saat bu ümidlə gözlədi ki, bəlkə Nurlu evdən çıxıb harayasa getdi, onda qızın qabağını kəsib danışsın. Nurlu küçəyə çıxmadı. Həmid heç Sərvinaz xanımı da görmədi. Vaxt keçirdi, axşam Mineralnıye Vodıya yola düşəcəkdi, çamadanlarını yığmamışdı. Belə qət elədi ki, bu gün heç yerə getməsin, ora bir gün gecikse, dünya qara geyməz. Çox danışarlar, qabaqcadan satılan biletlərin pulunu cibindən verər, vəssalam...

Evə qayıdanda gördü ki, anası bərk nigarandı. Rübabə dedi: "Ay bala, hardaydın bu çağacan, yol üstündə deyilsən bəyəm?" Həmid vəziyyətdən çıxmaq üçün bəhanə tapdı, dedi: "Bayaq idarəmizdən zəng vurub məni çağırmışdılar, ordaydım. Xəbər verdilər ki, çıxışlarım bir-iki günlüyə təxirə salınır, yola düşməyim".

Həmid Balağagilin evinin ətrafında iki gün də fırlandı. Altdakı gün, doğrudan, idarələrindən onlara zəng çalıb Həmidə dedilər ki, niyə yola düşməmisən? Kislovodskdan həyəcanlı teleqram vurublar, qastrolun pozulmasından bərk qəzəbləniblər, bu nə işdi? Həmid dedi: "Xəstə idim". Rəis dedi: "Gərək onda bu barədə onlara teleqram vuraydın, işlərini biləydilər". Söhbət uzandı, rəis dedi, Həmid dedi, axırda bu qərara gəldilər ki, Həmid axşam mütləq yola düşsün, o biri gün Yessentukidə qastrolu başlanırdı. Özünü vaxtında ora çatdırsın. Kislovodskdakı təkin olmasın.

Həmid bu qənaətlə qastrola getməyə razılıq verdi ki, Nurlu hələ evdən bayıra çıxmırsa, Bakıda qalmağın mənası yoxdur, onu tezliklə görə bilməyəcək. Yəqin indi Nurlu Həmidə nifrət eləyir, belə vəziyyətdə qızın gözünə görünməyin xeyri olmaz, qoy bir az keçsin, Nurlunun hirsi soyusun. Qastroldan qayıdanda onunla görüşüb danışar.

Yessentukidən çıxışa başlayan Həmid Pyatiqorskda, Kislovodskda, Jeleznovodskda tamaşalar verdi, oradan Krımın kurort şəhərlərinə getdi.

Səfəri iki ayacan çəkdi. Bakıya gəldiyi gün anası evdə yox idi. Təzəpirə namaz qılmağa getmişdi. Qardaşları evdə idi, onlar Həmidə

dedilər ki, Nurlunun əntiqə toyu oldu, biz də getmişdik mömə ilə. Çox adam gəlmişdi, toyda ikimiz də oynadıq.

Qol-qanadı sınıb yanına düşən Həmid iş yerinə xəbər verdi ki, neçə ildir istirahətsiz işləyirəm, ömrüm səfərlərdə keçir, bərk yorulmuşam. Mənə bir-iki ay toxunmayın, dincəlim.

İcazə alıb evdə oturdu...

Bayaqdan Pyotr Anisimoviç danışırdı. Fikri öz başına gələn əhvalatın yanında olan Həmid onun dediklərini eşitmirdi.

– Elə bil dilotu yemişəm. O qədər danışdım, oğlan yorulub yatdı.

Həmid hay verdi:

– Yatmamışam, Petya dayı, sizə qulaq asdım, xəyalıma ayrı şey gəldi...

* * *

Dəmir hasarlı qəbirin qabağında dörd kişi papağını çıxarıb sükut içində dayanmışdı. Onların üçü mülkü paltarda idi, biri hərbi geyimdə. Hərbçi Pyotr Anisimoviçin oğlu Mişa idi. Mixail Qradov anasının ölümünün ildönümü münasibətilə komandanlıqdan icazə alıb gəlmişdi. Mülki paltardakılardan biri Pyotr Anisimoviç idi. İkincisi Həmid, o biri Fəttah. Onlar Polina İvanovnanın qəbrini ziyarətə gəlmişdilər.

Polina İvanovnanın qəbrinin üstünə təzə gül dəstələri qoyulmuşdu.

Arvadının məzarını Pyotr Anisimoviç özü daşla hörüb, dövrəsinə şəbəkəli dəmir hasar çəkmişdi. O, həftənin çox gününü burada olurdu, bir əli məzarda idi, gah orasını səliqə-sahmana salırdı, gah burasını. Qəbiristana gələnlərin bəziləri elə bilirdi ki, qoca burda qulluq eləyənlərdəndir. Hətta bir kişi Pyotr Anisimoviçə yaxınlaşıb demişdi ki, atasının qəbrinin üstünü götürmək istəyir, bundan ötrü nə qədər alar. Sonra yanıldığını bilincə qocadan üzr istəmişdi.

Kişilər qəbiristandan çıxıb evə yollandılar.

Mişanın Həmiddən çoxdan xəbəri yox idi. Dünən gecəyarı gəlib onu evlərində görəndə sevindi.

Mişa bir ilə yaxın idi ki, Həştərxandan çıxmışdı, atasını o görən idi. Kişi bu bir ildə yamanca düşmüşdü. Mişa o vaxt anasının ölümünü eşidib tələsik komandanlıqdan icazə alıb arvadı ilə Həştərxana gəlmişdi. Atasının yanında cəmi beş gün qalmışdı, oturub qoca ilə doyunca söhbət də eləyə bilməmişdi. Yoxsa onda Pyotr Anisimoviçi



birtəhər dilə tutub özü ilə aparardı. Mişa atasına kənardan baxır, özünü qınayırdı: "Kişi şam kimi əriyib gedir, daha bunu burda tək qoymaq olmaz..."

– Ata, İrina da, Petya da mənə tapşırıblar ki, sənsiz qayıtmayım.

– Həmişəlik yox, bir həftəliyə, on günlüyə gedərəm, nəvəmi görməyə.

Onlar bazarın yanından keçəndə gördülər ki, kişilər su köşkünün qabağına yığışıb pivə içirlər. Fəttah dedi:

– Gəlsənə, biz də pivə içib sərinlənək.

Cavanlar ayaq saxladılar, Pyotr Anisimoviç dedi:

– Ay uşaqlar, izin verin, mən gedim evə, dincəlim, nasazam, siz qalın.

* * *

Mişa ilə Həmid çəllək pivəsindən doyunca içib, Volqanın sahilinə çıxdılar. Sahildə uşaqlı-böyüklü əyləşib sərinlənənlər çox idi. Sərnişin körpüsünün qulağındakı skamyada iki uşaqla qarabuğdayı, yaraşıqlı bir qadın oturmuşdu, uzaqdan onlara baxıb gülümsəyirdi. Bu, kim idi? Nəyə gülümsəyirdi? Skamyanın yanından keçəndə qadın salam verdi. Həmid elə bildi ki, o, Mişa ilə salamlaşır. Mişa da elə bildi ki, Həmidin tanışıdır. Bir az aralarında Həmid duruxdu, dönüb geri boylandı, tanıdı onu: Nəzifə idi, bir vədə onun dalınca düşən, gəmi təmiri zavodunun yoluna çıxıb Həmidi gözləyən tatar qızı Nəzifə. Həmid gec də olsa, əlini qaldırıb onunla salamlaşdı. Nəzifə gülümsünə-gülümsünə başını tərpətdi.

"Nəzifə də Nurlu kimi ana olub..."

Nurludan sonra heç kəs Həmidin ürəyinə yatmırdı, bu səbəbdən də evlənmirdi. Əkizlər böyüyüb yekə oğlan olmuşdular, ikisi də tələbə idi, sənaye institutunda birinci kursda oxuyurdular. Bu gün-sabah onlar da evlənməli idi, böyük oğlunun özünə ailə qurmaması Rübabə arvada dərd olmuşdu.

Həmidin ömrü səfərlərdə keçirdi. Bakıda az-az olurdu. Anası indi firavan dolansa da, ötən günlərin həsrətini çəkirdi: "Oğul, evimizə qonaq gəlib-gedirsən, – deyirdi, – haçanacan belə olacaq, haçanacan gözüm yollarda qalacaq... Bilsəydim ki, daşoynatmağın belə işləri var, razı olmazdım onu özünə sənət seçəsən. Nə çoxdu şəhərimizdə yaxşı-yaxşı işlər, onların birinin qulpundan yapışardın, qurtarıb

gedərdi. Yoxsa mən neynirəm bu ev-eşiyi ki, oğlumun üzünü görməyə il boyu həsrət qalım?"

Həmidə Şamaxı yolunun başlanğıcında tikilmiş beşmərtəbəli böyük binanın beşinci mərtəbəsində iki otaq vermişdilər. Küçə balkonları Quba meydanındakı Taxta bazarın yerinə salınmış Təzəbağa baxırdı, rahatlığa çıxmışdılar.

Ancaq o təzə mənzilin səfasını görməmişdi. Ora köçdükləri iki ilin heç iki ayını evdə yatmamışdı. Bir qastrol səfərindən gəlib o birinə gedirdi. Həmid istəsəydi, bu səfərlərin bəzilərindən imtina edərdi. Özü etmirdi, təzə mənzil Nurlunun ərə getdiyi kimya müəllimi Muxtarın evinə yaxın idi. İndi onlar qonşu olmuşdular. Nurlugilin həyət qapısı doğum evinin döngəyə açılan qapısı ilə üzbəüz idi. Beşmərtəbənin altında böyük ərzaq dükanı vardı, ətraf küçələrin sakinləri də ayın-oyun almağa ora gəlirdilər. Həmid bir neçə dəfə Nurlunu baqqaliyyə dükanında görmüşdü, Həmid onunla üz-üzə gəlməkdən qaçırdı. Hər dəfə də görəndə dükanın o biri qapısından çıxıb gedirdi. Nurludan ona görə qaçmırdı ki, acığı gəlirdi. Xeyr! Nurlunu indi daha çox görmək istəyirdi. Nə eləyəydi ki, görməyə üzü yoxdu, onun qarşısında günahkar idi, bağışlanmaz günahkar. Həmid indi dərk eləmişdi ki, həyatının həlledici anında acizlik göstərib. Qız özü ayağına gəlib, xəbərdarlıq eləmişdi ki, əgər onu istəyirsə, cəld tərpənsin, sonra gec olar. Həmid qorxmuşdu. Nədən qorxmuşdu? Mövqeyindən, ləkələnməyindən? Bəs Həmidin çiynindən olan o arıq kimya müəllimi? Məgər o, Nurluya elçi göndərəndə bilmirdi ki, qızın atası Balağanı düşmən kimi həbs eləyiblər? Nurlu bunu ondan gizlədə bilməzdi, çünki Muxtar Sərvinaz xanımın qohumu idi, vəziyyətdən xəbəri vardı. Ona neylədilər? Heç nə! Həmidin Balağagildən ayağı kəsilsə də, onların ailəsində olan yenilikləri eşidirdi. Muxtar Nurlu ilə evlənəndə məktəbdə adi müəllim idi. Keçən dərs ilindən tədris hissə müdiri olmuşdu. Bir qəşəng oğlu var idi. Həmid hər dəfə bunları yada salanda, özünə nifrət eləyirdi. Öz əli ilə öz ayağına balta çalmışdı. İçi özünü yandırırdı, çölü özgəni. Gendən baxanlar ona həsəd aparırdılar. "Həmid xoşbəxtdi, – deyirdilər, – adı-sanı, var-dövləti, anası, iki ağıllı qardaşı. Adama dünyada daha nə gərəkdi? Təkcə ailə qurmayıb, onun da taxsırı özündədi. İstəsəydi, çoxdan evlənmişdi, hansı qız Həmidə getməz?!"

Həmid Bakıda olanda ətrafında gedən bu xoşagəlməz danışıqları eşidəndə, küçədə Muxtara rast gələndə qanı qaralırdı. Buna görə



doğma şəhərində az olurdu, il uzunu səfər çamadanı əlindən düşmürdü...

...Mişa ilə Həmid evə gələndə hava qaralmışdı. Pyotr Anisimoviç soyunub yerinə girmişdi. Amma oyaq idi. Mişa ondan xəbər aldı:

– Ata, nə təhərsən?

– Ürəyim bir balaca şıltaqlıq eləyir, keçib gedər.

– Bəlkə, həkim çağırım, ata?

– Yox, oğul, gərək deyil. Həkim gəlib dərman yazacaq, o dərmanlardan məndə var, içmişəm. Dincələcəyəm, keçib gedəcək. Bunlar hamısı qocalıqdandı.

Cavanlar Pyotr Anisimoviçin rahatlığını pozmamaq üçün o biri otağa keçdilər. Saat hələ heç səkkiz olmazdı. Bu vaxt yatmaq tez idi, bəs nə eləyəydilər. Mişa dedi:

– Həmid, gəlsənə səninlə kinoya gedək, ikinci seansa çatarıq.

– Gedək. Təzə film göstərilir: "Həyat vəsiqəsi". İlk səsli filmdi. Görənlər çox tərifləyir, deyirlər ki, artistlər ekrandan danışırlar.

– Onu mən də görməmişəm. Bizim komandirlərdən baxanlar olub. Tərifləyirdilər.

Mişa ilə Həmid "Modern" kinoteatrına getdilər. Gecə evə qayıdanda gördülər ki, Pyotr Anisimoviç səssiz-səmirsiz yatıb. Onu oyatmamaq üçün sakitcə soyunub yerlərinə girdilər.

Həmid səhər erkən durmağa adət eləmişdi. O oyananda Mişa otaqda yox idi. Mətbəxdə qaynamağa qoyulmuş çaydan cızıldayırdı. Həyətə çıxdı. Mişa qurşağa kimi soyunub yuyunurdu.

– Bu gün yuxuya qalmısan, Həmid.

– Hə, məndən çıxmayan iş.

– Elə mən də gec durmuşam, dünən bərk içmişdik, ondandı.

– Niyə duranda məni oyatmamısan? Məşqimin vaxtına az qalır, gecikəcəyəm.

– Hər gün məşq eləyirsən?

– Çalışıram hər gün məşq eləyim. Gündüz məşqim olanda, axşam özümü yaxşı hiss eləyirəm.

– Sənin iki işin olur ki, həm gündüz, həm də axşam.

– Buna öyrənmişəm, Mişa.

– Sənətindən xoşun gəlirmi?

– Gəlir də sözdü. Məşq eləmək də, mənə axşam camaat qarşısında çıxış eləmək kimi ləzzət verir.

– O, böyük şərtdi.

Mətbəxə keçdilər. Mişa çay dəmlədi, Həmid çörək doğradı, süfrə hazır olanda Mişa dedi:

– Bu gün atam nə çox yatıb? Gedib oyadım, gəlib bizimlə çay içsin.

Mişa Pyotr Anisimoviç yatan otağa keçdi. Həmid üç fincan çay süzdü. Mişanın getməyi ilə rəngi-ruhu qaçmış halda qayıtması bir oldu:

– Həmid, atamın vəziyyəti xarabdı, sən ondan muğayat ol, mən gedib təcili yardım çağırım.

Həmid stuldan dik atıldı:

– Ola bilməz?!

Mişa küçəyə cumdu. Həmid Pyotr Anisimoviç yatan otağa keçdi. Qoca arxası üstə uzanmışdı, əlləri sinəsində köynəyinin yaxacasını didişdirə-didişdirə çapalayırdı, sanki boğazından yapışıb sıxırdılar, oksigen dolusu nəfəs ala bilmir, boğulurdu. Həmid pəncərələri tay-batay açıb soruşdu:

– Pyotr Anisimoviç, sizə nə olub?

Qoca heç nə eşitmirdi, öz hayında idi. Həmid onun yaxasının düymələrini açdı, rəfdən bir kitab götürüb Pyotr Anisimoviçin üzünü yellədi. Qocanın halı pisləşirdi. Həmid aciz qalmışdı. "Mişa harda ləngidi, görəsən, həkim çağıra bildimi? Təcili yardım tez gəlsəydi..."

Həmid qorxurdu ki, həkim gələnə kimi qoca keçinər.

Mişa qayıtdı:

– Necədi?

– Əvvəlki kimi. Həkim çağırdın?

– Bu saat gəlməlidi.

Mişa ilə Həmid Pyotr Anisimoviçin yanını kəsdirib dayandılar. Qoca əziyyət çəkirdi, biri onun üzünü yelləyir, o biri yaylıqla alnın, gicgahlarının tərini silirdi.

Təcili yardımı çox gözləmədilər. Həkim gəlib Pyotr Anisimoviçə iynə vurdu. Oksigen balışını ağzına tutdu. Kişi yavaş-yavaş özünə gəldi. Həkim təcrübəli idi. Pyotr Anisimoviçi xəstəxanaya aparmağı, orada müalicə olunmasını təklif elədi, o, boyun qaçırdı. Mişa ilə Həmid də çox dedi, onların da sözü qocanın beyninə batmadı. Həkim dərman yazıb getdi.

Halı yaxşılaşan Pyotr Anisimoviç dikəlib əyləşdi. Mişa balışı atasının arxasına qoydu.

– Ata, niyə qalxdın, uzan, dincəl.

– Uzanmaq istəmirəm. Sizi qorxutdum, ay uşaqlar. Birinci dəfə deyil, mən hərdən belə oluram. Havam çatmır, boğuluram.



– Bizi niyə çağırmırdın, ata, bəlkə mən heç otağa gəlməyəydim, sən əziyyət çəkə-çəkə qalacaqdın?

– Özüm çağırmırdım. Bilirdim ki, bir azdan keçib gedəcək.

– Yox, ata, bunu belə başlı-başına qoymaq olmaz, gərək həkimə gedib mütləq müalicə olunasan.

– Nə həkimbazlıqdı, gəlib adama artıq əziyyət verirlər.

– Ata, həkim dedi ki, sən möhkəm xəstəsən, təxirə salınmadan müalicə olunmalısan. Mən onunçün xəstəxanaya getməyini təkid eləmədim ki, səni özümlə Moskvaya aparım, orda əməlli-başlı müalicə olunasan.

Həmid də qocanı qınadı:

– Belə olmaz, Pyotr Anisimoviç, qabağınızda dağ kimi oğlunuz var. Mişa ilə Moskvaya gedin. Orda böyük həkimlərə, professorlara sizi göstərsin, birdəfəlik müalicə olunun.

– Daha neynim, ikiniz də təkid eləyirsiniz, gedərəm. Ancaq başa düşün, mən orda çox qala bilmərəm.

Ertəsi gün Mişa Moskvaya iki bilet aldı. Elə o həftə Həmidlə Fəttah ata-oğulu vağzala yola salmağa getdilər.

Həmidin Həştərxanda qastrolu hələ qurtarmamışdı. Pyotr Anisimoviç evin açarlarını verib dedi ki, nə qədər şəhərdədir, onlarda qalsın. Həmid qalmadı, şeylərini yığışdırıb mehmanxanaya köçdü.

Pyotr Anisimoviç Həştərxandan könülsüz gedirdi, bikef idi. Fəttah onu şənləndirmək üçün Molla Nəsrəddinin məzəli lətifələrindən danışdı. Qocanın üzü gülsə də, ürəyi açılmırdı. Ona elə gəlirdi ki, Polina İvanovnanı burada tək qoyub getməkdə böyük günah işlədir, həmişəki kimi onun qəbrini ziyarətə getməsə, arvadının gözləri yolda qalacaq.

Qatar tərpənəndə qoca doluxsunmuşdu...

## XXI

Şamaxı yoluna xeyli adam yığılmışdı, çoxu da qoca idi.

Qubalılar məscidini sökürdülər.

Beş nəfər oğlan linglə məscidin Şamaxı yoluna tərəf olan hasarını dağıdırdı, daşlar diyirlənib enli küçəyə döşənmiş qəmbərliyə düşürdü. Aşağıda hər iki metrdən bir yerə dirək basdırılmışdı. Bu dirəklərə ip bağlayıb sədd çəkmişdilər ki, aşağı diyirlənən iri daşlar adamların üstünə düşməsin. Həm də küçənin bir o başında, bir də bu başında

qoluna qırmızı bağlamış növbətçilər dayanmışdılar. Onlar gəlib-gedənlərin səmtini döndərirdilər.

Bədən tərbiyəsi texnikumundan gələn Həmid Şamaxı yolundan sovuşanda Qubalılar məscidinin söküldüyünü görüncə təəccüb elədi. O, üç ay idi ki, Orta Asiyada tamaşalar verirdi. Bakıdan çıxanda bu məscid sağ-salamat idi, indi bircə hasarı qalmışdı, onu da sökürdülər.

Həmid Qubalılar məscidindən çoxdan çıxmışdı, uşaqlıqda küçədə oynayıb susayanda məscidin həyətinə cumur, sərin sudan o qədər içirdi ki... Həmidə elə gəlirdi ki, heç yerdə bu suyun tayı-bərabəri yoxdur. Bəs məscidin həyəti? Həmid ömründə belə gözəl və səfalı guşə görməmişdi. Fəvvarəli hovuz, hündür ağaclar, rəngbərəng güllər-çiçəklər, yayın bürküsündə adamın canına yayılan sərinlik...

Məscidin Şamaxı yolunun həndəvərində olan bütün binalardan uca minarəsi necə olmuşdu? Həmid bir dəfə yoldaşı ilə dəmir şuma-qədərdən mərc tutmuşdu ki, bu yaşıl minarə onunla üzbəüzdə olan Kəblə Balobbanın üçmərtəbəli mülkündən çox-çox hündürdür. İki nəfər onlar, üç nəfər də kimin haqlı olduğunu təsdiq eləyən "münsiflər heyəti" mülkün damına çıxıb Həmidə haqq qazandırmışdı. Həmid yuxarısında şəbəkəli məhəccər olan zərif naxışlı minarənin tamaşasından doymurdu. Üstünə gün düşəndə bu minarə bir cür rəngə çalırdı, yağış yağanda başqa cür, qar tökəndə isə bir başqa cür. Azançı Baxşəli kişinin namaz vaxtı minarədə əlini qulağının dibinə tutub xoş avazla oxuması Həmidin yadından çıxmırdı.

Hasar sökülsə də, toz-torpaqdan Şamaxı yolundan məscidin həyəti yaxşı görünmürdü. Həmid maraqlanıb Bazarnı küçəsinə Kəblə Balobbanın mülkünün qabağına gəldi. Orada adam daha çox idi. Yığılıb dəstə-dəstə danışırdılar. Tamaşa eləyənlər arasında sakit-sakit ağlayanlar da vardı.

Hovuzlu yaşıl həyətdən bir nişanə qalmamışdı. Hər yan sökük-sökük idi. Fəhlələr məscidin daşlarını daşıyıb yastı arabalara yükləyirdilər. Arabanın biri gedir, o biri gəlirdi. Daş-kəsəyi daşıyıb Qız qalasının qabağında qurudulan dənizə tökürdülər. Hava sakit idi, toz göyə qalxmışdı.

Gözü eynəkli, səliqə ilə geyinmiş arıq kişi öz evi sökülürmüş kimi yana-yana söylənirdi. "Belə də ağılsızlıq olar?! Bu cür binanı da sökərlər?! Bu sənət əsəridi, abidədi... Başqa ölkələrdə onları göz bəbəyi kimi qoruyurlar. Xristianlar heç vəchlə kilsəni dağıtmazlar. Dəliyə yer ver, əlinə bel ver, buna deyiblər. Ata-babaların yadigarına



belə münasibət tamamilə yanlışdı. Lenin belə yazmayıb axı. Şura hökuməti belə demir. – Kişi qəzəblənmişdi. – Bir paraları özlərindən hoqqa çıxarırlar. Harda yazılıb ki, memarlıq abidəsi dağıdılsın... Bu, inqilabın amalına zidd hərəkətdi".

Yandan bir cavan kişi deyinən eynəkli qocaya acıqlandı: "Əşşi, ağzını nə qoymusan Allah yoluna?! Dilini dinc qoy, əksinqilabi söz danışma, tutub apararlar, əlli-ayaqlı gedərsən. Məscidi sökürlər, sənə nə?!" Hirs vurdu kişinin beyninə: "Necə yəni, sənə nə? Məgər bu bina bizim deyil, xalqın deyil?.." Çarşablı qoca arvad sözə qarışdı: "Əşşi, bu məscid sizin, xalqın nöşün olur, qurbanı olduğum Allahın evidi. Əlinə ling alıb məscidi dağıdanlar onun qəzəbinə gələcəklər..."

Həmiddən o tərəfdə daha nə barədəsə mübahisə edirdilər. O eşitmirdi.

İki fəhlə xərəkdə daş-kəsək gətirib yastı arabaya boşaltdı. Bu vaxt eynəkli qoca camaatın arasından çıxıb arabaya sarı cumdu, daş-torpağın içindən ucu görünən köhnə qılıncı dartıb götürdü: "Belə şeyi atarlar?! Bu ki cinayətdi". Qoca, torpağa bulaşmış qılıncı başqasının onun əlindən almasından qorxurmuş kimi bərk-bork köksünə basdı. Çarşablı arvad dedi: "Bu kişinin başına hava gəlib". Çoxu onun sözünə inandı. Qoca, çarşablı arvada əhəmiyyət vermədi, kənara çəkilərək qılıncı gözünün qabağına tutub ora-burasına baxdı: "Bu, bizim qədim Bakını düşmənlərin basqınından qoruyan əcdadlarımızın silahıdı. Siz nə bilirsiniz, ay yazıqlar? Hardan da biləsiniz, kim sizə deyib?"

Qoca Həmidin səliqəli geyimindən və sözlərinə diqqətlə qulaq asmasından onu özünə məhrəm hesab elədi. "Bunlar bilmirlər ki, neçə əsr əvvəl burda çöl-biyaban olub. Bakı əhli – bizim dədə-babalarımız onda İçərişəhərdə yaşayırmış. Onlar şəhərə soxulmaq istəyən işğalçıları bu təpədə qarşılayıblar. Burda qanlı döyüşlər gedib. Burda vətən yolunda neçə-neçə igid canını qurban verib. Adsız qəhrəmanın bu qılıncı muzeyə qoyulmalıdı. Onlar isə bunu zibilə qatıb atırlar. Əsil vətənpərvər öz tarixinə bu sayaq laqeyd münasibət bəsləməz!.."

Eynəkli qoca qılıncı götürüb söylənə-söylənə getdi. Həmidin dalında duran qaraqaş, qaragöz oğlan dedi: "Bu, universitetdə bizim tarix müəllimimiz dosent İbadzadədi. Çox maraqlı leksiya oxuyur..."

Dosent İbadzadə toz-torpaqlı qılıncı əlində camaatdan ayrılıb gedəndə ona lağ eləyib gülən də oldu. Tələbə oğlanın acığı tutdu.

"Sən onlara bir bax, ələ salmağa adam tapıblar! İbadzadə düz deyir də. Gərək elə uşaq bağçası tikməkçün bu məscidi sökəydilər?! Aşağıdakı o xırdaca dükanlar sahiblərindən savay, kimə lazımdı? Heç kimə! Ordakı çayçı, pitiçi, papaqçı kiminsə ovcuna filan qədər basıb, ona görə də o dükanlara dəymirlər..."

Həmid orada çox qalmadı. Camaatın arasından çıxıb evlərinə yollandı. Bir həftədən sonra idman texnikumunun buraxılış imtahanları başlayırdı. Həmid də idman texnikumunun qiyabi şöbəsinin son kursunda oxuyurdu. Bu yay o, diplom alacaqdı. Bakıya Orta Asiyadan dünən gecə qayıtmışdı. İmtahanlara hələ bundan sonra oturub hazırlaşmalıydı. Birinci imtahan tarixdən idi. Həmid keçdikləri tarixi pis bilmirdi. Ancaq Bakı haqqında bayaq qocaman tarix müəlliminin dediklərini birinci dəfə eşidirdi: "Öz şəhərimizin tarixini əməllibaşlı bilmirik. Bizə qədim, indi yalnız adı qalan dövlətlərin yaranmasını öyrədirlər. Dosent İbadzadə doğru deyirdi. Əgər məscidi sökən fəhlələr öz tariximizi bilsəydilər, o qılıncı aparıb zibillə qarışıq atmazdılar".

Həmid evə gələndə anası ona bir neçə məktub verdi:

– Ay oğul, poçtalyon bu gün gətirib.

Həmid zərfləri açdı. İkisi Aşqabad və Buxara şəhərlərindən gəlmişdi. Həmiddən sonra yerli qəzetlərdə onun çıxışları barəsində dərc olunan məqalələri kəsib göndərmişdilər. Həmid harada olurdusa, tanışlarından xahiş edirdi ki, ondan danışan məqalələri mütləq dalınca yollasınlar! Onları qovluqlara yığıb saxlayırdı. Kitab dolabının rəflərində belə qovluqlar iyirmidən çox idi.

Üçüncü zərf Salyandan gəlmişdi. Məktubu Cəlil Əkbərov adlı birisi göndərmişdi. Həmidin Salyanda tanışı yox idi. "Cəlil Əkbərov kimdi?.." O, kağızı açıb oxudu:

"Hörmətli Həmid yoldaş, siz məni tanımırsınız, amma mən sizin barənizdə Balağa Aslanzadədən çox eşitmişəm. Mən dustaqlıqdan təzə qayıtmışam. Ordan keçən ay gələndə yolüstü sizə getdim, evdə olmadınız. Ananız dedi ki, başqa şəhərdəsiniz, gec gələcəksiniz. Mənim sizinlə ikilikdə, Balağa barəsində vacib söhbətim vardır. Bu məktubu yazmaqda məqsədim budur ki, görüm sizinlə harda və haçan görüşə bilərəm. Cavabınızı gözləyirəm.

Hörmətlə, Cəlil Əkbərov. Salyan şəhəri,
25 aprel 1935-ci il"



Həmid məktub əlində mətbəxə gəlib göyərti təmizləyən anasından soruşdu:

– Mən burda olmayanda bizə Balağa qədeşin yanından bir kişi gəlib?

– Bir topal kişi gəlmişdi, yadımdan çıxmışdı sənə xəbər verim. Ancaq hardan gəldiyini demədi. Səni soruşub çıxıb getdi. Üst-başı birtəhərdi, gözlərindən cin yağırdı. Qorxub heç onu içəri dəvət eləmədim. Necə məyər?

– Bu məktubu o göndərib.

– Nə yazıb?

– Balağadan mənə nəsə demək istəyir.

Rübabə əlini göyərtidən çəkdi:

– Nə yaxşı, ay Həmid, qoy gəlsin görək kişidən nə xəbər gətirib.

Həmid fikirləşdi ki, əgər o, Cəlilə məktub yazıb Bakıya çağırsa, filan qədər vaxt keçəcək. Bir də anası deyirdi ki, onun üst-başı tökülürdü, bəlkə heç kişinin Bakıya gəlməyə yol pulusu yoxdur. Qərara gəldi ki, özü Salyana getsin.

"Deməli, Balağa sağdı. Görünür, ona çox iş kəsiblər. Tutulmasından on il keçir".

– Mömə, xəbərin yoxdu ki, Balağa evlərinə məktub göndərir?

– Sərvinaz xanıma küçədə hərdən rast gəlirəm, məktub olsaydı, mənə deyərdi. O yana qalanda, o topal kişi əgər Balağanın yanından gələndisə, onda Sərvinaz xanımgilə nöşün getməyib, səni xəbər alırdı?

– Elə məni də nigaran qoyan budu, ay mömə.

– İndi neynəmək istəyirsən?

– Sabah səhər Salyana gedirəm. O kişi ilə görüşməyə.

– Get də, görək nə öyrənirsən.

Həmidin Salyana gedib qayıtması azı üç gün çəkəcəkdi. Qabaqda texnikumda onu çətin imtahan gözləyirdi, vaxt itirməmək üçün yolda, mehmanxanada oxumağa özü ilə tarix dərsliklərini götürdü. "Bu Cəlil hər kimdisə Balağanın yanından gəlibsə, mənə çox şey deyə bilər. Ancaq burda bir cəhəti anlamıram. O, Sərvinaz xanımgilə niyə getməyib. Ev adreslərini bilmir? Onu Balağadan alıb gətirərdi, ondan əlavə, Balağa mənim təzə evimin yerini bilmir, beşmərtəbəni ondan sonra tikiblər. Burda nə isə var..."

Həmid gəmi ilə Salyana yola düşdü.

Hava sakit idi, gün də çıxmışdı. O, gəminin göyərtəsində, dalda bir yerdə əyləşib tarix kitabını açdı ki, keçdikləri bəhsləri bir də təkrar eləsin, səhifələri oxuyub başa çıxsa da, təzə heç nə öyrənə bilmədi. Oxuduqları yadında qalmırdı. Kitabı büküb balaca çamadanına qoydu. "Barı imtahanqabağı basa-basa Cəlil Əkbərovun yanına getməyimə dəyəydi. Onun mənə deyəcəyi vacib söz nə ola bilər?!"

Həmid Salyanda gəmidən düşən kimi körpüdə işləyən bir qocadan Cəlil Əkbərovu evini soruşdu. Qoca onu tanıyırdı. Həmidə dedi ki, Cəlilin dərzi dükanı onun evinə yaxındır, bu vədə orda olar. Rastabazarı küçəsində kimdən Hidayətin dərzi dükanını soruşsan, nişan verər. Hidayət Cəlilin dədəsidir, dustaqlıqdan qayıdanı dükanda o işləyir, atası qocalıb. Burada iki dərzi dükanı vardı. Həmid çox axtarmadı. Qabağına çıxan birinci dükan Cəlilinki oldu.

Cəlil ayaq maşınında şalvar tikirdi. Həmidi müştəri zənn elədi:

– Qulluğunuz, bacoğlu?

– Mən Həmid Xələfovam.

Cəlil tez eynəyini çıxarıb maşının böyrünə qoydu və Həmidə əl verdi:

– Nə zəhmət çəkmisiniz, kağız yazsaydınız, mən gələrdim Bakıya. Nahaq o qədər yolu gəlmisiniz.

– Salyanı görməmişdim. Özüm kağız yazmayıb gəldim. Həm ticarət, həm ziyarət.

Cəlil önlüyünü açıb üst-başının sapını təmizlədi və mehribanlıqla dedi:

– Gedəyin bizə. – O, dükanı bağlamaq üçün iri, girvənkə qıfılı götürdü. – Bizə qonaq gəlməyiniz mənim üçün böyük şərəfdir.

Həmid axsaya-axsaya qapıya sarı gedən dərzini saxladı:

– Hörmətinizə görə minnətdaram. Mənim vaxtım çox azdır. Elə burda mənə xoşdur, oturun danışaq.

Cəlil yenə üz vurdu:

– Bizim də öz adətimiz var, Həmid yoldaş, qonağa hörmət mənim borcumdu.

Həmid əyləşdi.

– Siz də əyləşin, söhbətimizi eləyək, Cəlil müəllim...

– Müəllim?.. – dərzi heyrətlə Həmiddən soruşdu. – Siz hardan bilirsiniz ki, mən tutulmamışdan əvvəl müəllim olmuşam.



– Mən sizə hörmət əlaməti olaraq müəllim dedim. Sizin barənizdə heç nə bilmirəm.

Cəlil girvənkə qıfılı könülsüz əvvəlki yerinə qoydu.

– Mənim əsil sənətim müəllimlikdi. Bakıda gimnaziya bitirmişəm. İstismarçı sinfinə mənsub deyiləm. Atam həmişə dərzi olub, inqilabdan qabaq da, sonra da. Ailəmizin çörək pulu iynə-sapdan çıxıb. Nəslimizdən əməlli-başlı təhsili olan mən idim. O da belə. Nə isə... Dərziliyi uşaqlıqdan atamdan öyrənmişəm. Sonra da Sibirdə karıma gəlib. İndi vətənə dönüb müəllimlik eləməməyimin səbəbi var. Səbəb də odu ki, müəllimlik hüququmu alıblar. Mən bunun fikrini çəkmirəm. Axtarsanız, elə dərzilik də faydalı sənətdi. Camaatı yaxşı-yaxşı geyindirib sevinc bəxş edirsən. İşimdən razıyam.

Cəlilin özündən danışması Həmidi açmadı.

– Hörmətli Cəlil, – dedi, – mən sizin məktubunuzu alan kimi işimi-gücümü atıb gəlmişəm bura. Məni Balağa Aslanzadənin taleyi maraqlandırır, mümkünsə, ondan danışın.

– Baş üstə. Mən elə onun barəsində danışmaq üçün sizi görmək istəyirdim.

– Çox xahiş edirəm, hörmətli Cəlil, çəkinməyin, Balağadan nə bilirsinizsə, hamısını danışın, o mənim dostum, xeyirxahım idi.

– Yaxşılığı yaddan çıxarmamaq əsil kişiyə xas olan sifətdi. Yaxşı gündə, adamın işləri yağ kimi gedəndə hamı ona yaxşılıq eləyər. Kişi ona deyərəm ki, pis gündə arxanda dursun, sənə həyan olsun. Orda ağır dəqiqələrimdə Balağanın mənə çox yaxşılığı dəyib. Mən onları unutsam, gözümə ağ gələr. Eh, binəvanın işinin çoxu getmişdi. Qalsaydı, o da cəzasını çəkib gələn il vətənə qayıdacaqdı.

– Sizin sözünüzdən belə çıxır ki, Balağanın başında nə isə var, ona nə isə olub.

Cəlil qaşqabağını salladı:

– Balağa həlak oldu. Kişi bir anın içində əlimizdən getdi. – Cəlil heyifsiləndi. – Elə bununçün də mən Bakıya gələn kimi Balağagilə getmədim. Adresinizi öyrənib sizə gəldim ki, məsləhətləşim. Orda Balağa söhbətlərində bizə sizdən çox danışırdı. Deyərdi "Yaxşı ki Bakıda Həmid var. Qızımı, arvadımı başsız qoymaz". Mən də bundan bilirdim ki, siz Balağaya, ailəsinə çox yaxınsınız. Belə qərara gəldim onun ölümünü əvvəlcə sizə xəbər verim, bir yerdə götür-qoy eləyək, görək bunu arvadına, qızına necə deyək. Onun ölümünü

yadıma salanda indi də tüklərim biz-biz olur. – Cəlil öskürdü. – Biz meşədə odun doğrayırdıq. Balağa usta odun doğrayanlardan idi. Onu bizə briqadir qoymuşdular. Hamımızın başı işə qarışmışdı. Qəfildən Balağanın çığırtısını eşitdik. Hayına çatanacan iş-işdən keçmişdi. Üstünə zorba şam ağacı düşmüşdü...

– Bu hadisə haçan olub?

– İki il olar. Otuz üçün payızı idi. Balağanın ölümü çox gözlənilməz oldu. Orda Bakıdan bir boy oğlu yatırdı. Qaplan Aslanbəyov. Köhnənin havası hələ də başında qalmışdı. İyirmi ikinci ildə Suraxanıda neft mədəninə od vuran yerdə yaxalanmışdı. Hə, Balağanın Qaplandan zəhləsi gedirdi. Qaplanın da onu görən gözü yox idi. Elə hey mübahisə eləyirdilər. Balağa Qaplana deyirdi ki, əsil kişi də öz vətəninin sərvətini məhv eləyər? Yüzlərlə insanın alın təri ilə qurduğu buruqlara od vurmağa əlin necə qalxdı? Qaplan deyirdi ki, mənim yandırdığım buruqlar vətənin nöş olsun. Halal ata-baba malımdır. Nə sayaq razı olum ki, yoluqlar, qazan dibi yalayanlar gəlib mənim torpağıma yiyə dursunlar, onun neftini çıxarıb xeyrini görsünlər? Onda mənə binamus deyərlər. Ölərəm, o adı üstümə götürə bilmərəm. Balağa deyirdi ki, niyə öz xalqını təhqir eləyirsən, adam çörəyini yediyi xalqa dal çevirməz. İndi ölkədə hər şey milliləşib. Torpaq da xalqındı, onun bütün sərvətləri də. Qaplan cin atına minirdi. Ağzı əyilə-əyilə deyirdi ki, mən xalq-malq tanımıram. Dünyada bir dövlətli var, bir də kasıb. Kasıb ağlının naqisliyindən kasıb olur. Ay Balağa, bəs sənə nə düşüb sinəni qabağa verib şuraları müdafiə edirsən, onlar səni bizim yanımıza vəkil qoyublar? Səni tutanın gözünə dönüm, əcəb eləyib. Burda yata-yata şuraların təəssübünü çək görüm, nə qədər çəkirsən.

Qaplan Balağa ilə qanlı-bıçaq idi. Gücü çatsaydı, onu çoxdan aradan götürmüşdü. Sakit durub məqam gözləyirdi. O gün, nəhayət, meşədə öz işini gördü. Hamı Balağanın ölümündə Qaplandan şübhələndi. Neyləyəydin ki, bunu ona sübut eləmək olmazdı. Heç nə. Kişinin qanı arada batdı. Aktda yazdılar ki, bədbəxt hadisə nəticəsində həlak olub. Lagerdə məndən savay, bizimkilərdən beş-altı nəfər vardı. Yığışıb onu müsəlman adəti ilə basdırdıq. Heyif, heç ölməli kişi deyildi. Hərdən dərdini bizə danışırdı. Fağırı nahaqdan dolaşdırıblar. And içib deyirdi ki, mən düşmən deyiləm. Kimsə qəsdən o gün qəzetdə gedən məqalədə "çoxdur"u "yoxdur" eləyib. Yazının mənasını dəyişib. Bununla məndən inqilabdan qabaq olmuş əhvalatın, mənə bağışlanan, elə o gün də itirdiyim bir brilyant üzüyün əvəzini çıxdılar. Balağa onu da deyirdi ki, mənə zərbəni inandığım bir gəncin əliylə vurdular. Əvvəldən onu yaxşı tanımamışam. Eh... Dünyadı da... İçimizdə cürbəcür insanlar var. Hamını tanımaq çətindir. – Cəlil üzünə qonan milçəyi qovladı. – Birinə gəlib deyirlər: filankəs sənə pislik eləyir, inanmır; cavab verir ki, bəyəm mən filankəsə yaxşılıq eləmişəm ki, o, mənə pislik eləsin. İndi baxıb görürsən ki, sənə pislik ən çox yaxşılıq elədiyin adamdan dəyir. Ahıl kişilər deyiblər ki, ilahi, sən məni dostumdan gözlə, düşmənimlə özüm bacararam. Balağanın yalandan üzünə duran, klubda güləşmək öyrətdiyi, mətbəədə əlinin altında şagird işləyən oğlan olub.

– Şagirdi?

– Hə. Balağa onun adını yana-yana çəkirdi. Heyif, yadımda qalmayıb. Ancaq o cavan oğlanın qohumunun adı yadımdadı. Çopur Abdulla. Qabaq pəhləvan olub. Onu birinci dəfə Balağa yıxıbmış. Elə o çağdan da Balağa ilə qanlı-bıçaq imiş.

– Mətbəədə Balağa ilə bir yerdə işləyən o oğlanı mən görmüşəm. Əgər mən deyəndirsə, onun adı Firuzdu. İndi yadıma düşür, o vaxt Balağa Firuzun gələcəkdə yaxşı bir pəhləvan olacağını deyərdi.

– Elə sən deyən oğlandı, Firuzdu.

– Firuz onun üzünə durub nə deyib?

– Deyib ki, usta Balağa oturub-durub Şura hökumətinin əleyhinə danışır. Sözü-söhbəti budu ki, Şuralar Azərbaycanı inək kimi sağıb aparırlar.

Həmid Balağanı hamıdan yaxşı tanıyırdı. Bilirdi ki, o heç zaman belə söz deməz, inqilabda iştirak eləməsə də, yeni quruluşun tərəfdarlarındandı. "İndi başa düşürəm ki, o vaxt mən Balağanın nə üstündə tutulmasını öyrənməkçün mətbəəyə gedəndə Firuz nöşün onun kölgəsini qılınclayırdı. Deməli, Çopur Abdulla Balağadan köhnənin heyfini çıxmaqçün qohumu Firuzu mətbəədə onun yanına şagird qoydurubmuş. Mən buna əminəm ki, qəzetdə "ç" hərfini götürüb yerinə "y" qoyan da Firuzdu. Əvvəl qəzetdə sözü dəyişib. Bunun ardınca Balağanın üzünə durub ki, əksinqilabi sözlər danışır. Hamısı qabaqcadan düşünülübmüş. Kişiyə çoxdan tələ qururmuşlar. Bizim saymadığımız Çopur Abdulla Balağanın qanına bais oldu. Məni də... İndi ya mənə verər Allah, ya da Çopur Abdullaya..."

Həmid Balağanın həbs edilməsini, o gərgin günlərdə haralara getməsini xatırlayırdı. Cəlil qonağın fikrə getdiyini görüb:

– Oturun, mən bu dəqiqə gəlirəm, – deyərək dükandan çıxdı. Xəyala gedən Həmid heç nə eşitmədi. Cəlil tez qayıtdı. Üstündə qəzet, sap qırıntıları, mahud parçaları olan mizi təmizlədi. Bu vaxt bir kişi əlində stəkan-nəlbəki, çaydan içəri girib Həmidlə salamlaşdı və gətirdiklərini qoyub getdi. Cəlil armudu stəkanlara çay tökdü:

– Vətəndaş Həmid, – Cəlil çaşdığını bilincə pərt oldu. – Lagerdə dilim öyrənib. On il naçalniklərə "vətəndaş" demişəm, yoldaş Həmid, məni bağışlayın. Bura gələni neçəsinə çaşıb "vətəndaş" demişəm.

– Eybi yoxdu, sözünüzü deyin, yarımçıq qaldı.

Dükana çiynində naxışlı xurcun, başında motal papaq, çarıqlı-dolaqlı bir kişi girdi.

– Salam, ay Cəlil. Mənim o pencək-şalvarım hazırdı?

– Hazırdı, ancaq düymələrini tikməmişəm. Həm də görürsən ki, qonağım var, zəhmət çək, sabah gəl.

Həmid neçə saat idi ki, dərzi dükanında idi. Düşündü ki, Cəlilə işləməyə mane olur, yarımçıq qalmış sözünü desəydi, durub gedərdi.

Xurcunlu kişi dərzidən soruşdu:

– Usta, onda sabah yenə Arbatandan şəhərə gələcəyəm. Salyanda bir para işim var. O çağacan düymələrini də tikərsən, gedəndə apararam.

– Hə, gəl əmi, lap arxayın ol, qurtararam.

Kişi getdi. Cəlil sözünə davam etdi:

– Sizə bunu demək istəyirdim ki, ordan özümlə Balağanın saatını, bir də işləyib qazandığı pulları gətirmişəm, xeyli puldu, iki min üç yüz əlli beş manat. Bakıda olanda sizə verəcəkdim, arvad-uşağına çatdırasınız.

"Cəlil elə danışır ki, guya biz indi də Balağanın ailəsiylə yaxınlıq eləyirik. Daha bilmir ki, gəliş-gedişimiz kəsilib. Nurlunu uzaqdan-uzağa görürəm. Sərvinaz xanımla haçan görüşdüyüm yadımdan çıxıb".

– Siz məni ağır vəziyyətdə qoyursunuz, hörmətli Cəlil.

– Mən pulu da, saatı da burdan onlara poçtla yollaya bilərəm, ancaq sizin verməyiniz bir ayrı məsələ.

Həmid Sərvinazgilə getmək istəməsə də, Cəlilin oradan gətirdiyi pulları və saatı Bakıya aparmaqdan boyun qaçırmağa üzü gəlmədi,



həm də fikirləşdi ki, qoy o belə güman eləsin ki, Həmidgil yenə Balağanın ailəsinə yaxındılar. Cəlil bir anın içində ləyaqətli insan kimi onun nəzərində ucaldı. "Vicdanlı kişidi ki, Balağanın o qədər pulunu, saatını o vaxtdan saxlayıb, indi ailəsinə qaytarır. Başqası olsaydı, onların başına çoxdan daş salardı. Sərvinaz xanımgilin bundan xəbəri yoxdu. Cəlil mənə də deməyə bilərdi".

– Həmid yoldaş, bir də xahiş edirəm, Balağanın ailəsinə çatdırasınız ki, onun Salyanda bir dostu var, həmişə mən onların qulluğunda hazıram.

– Mütləq deyərəm.

Həmidin könlündən Balağanın saatını görmək keçdi. O, qızılsuyuna salınmış gümüş cib saatını çox görmüşdü. Bunu da bilirdi ki, saatın qapağında içəri tərəfdən nə isə yazılıb. Həmid saatı görsəydi, dərhal tanıyardı. O, Cəlildən soruşdu:

– Saat yanında deyil ki?

– Dustaqlıqda həmişə cibimdə olurdu, qoruyurdum. Salyana gələn kimi özümünkü evdə qalmışdı, onu qoluma bağladım. – Cəlil biləyindəki qızıl qolbaqlı saatı göstərdi. – Balağanınkını pulu ilə öz dəsmalına düyünləyib gizlətmişəm ki, itməsin. Lazımsa, bu saat gedib gətirrəm.

– Neynək, sonra gətirərsiniz.

Çay stəkanlarda buza dönmüşdü. Çaydan da soyumuşdu. Cəlil dedi:

– Həmid, mənimçün sizin kimi məşhur adamla bir yerdə oturmaq böyük şərəfdi, sizinlə tanış olmağıma çox şadam. Mən istərdim ki, siz də məni yaxşı tanıyasınız. Dustaqxanaya düşənlərin hamısı pis deyil. Bəzən qurunun oduna yaş da yanır.

– Sizi nəyin üstündə həbs eləmişdilər, Cəlil?

– Boynuma alım ki, mənim günahım vardı, dilimi dinc qoymurdum. Cır-cındırlıları iş başında görəndə, Şura hökumətinin çox davam gətirməsinə inanmırdım. Burda bir nəfər vardı, adını çəkmirəm, rəhmətə gedib. Mən onu uşaqlıqdan tanıyırdım. Üzr istəyirəm, iki eşşəyin arpasını bölə bilmirdi, savadsızın biri idi. İnqilabdan sonra necə oldusa, onu götürüb yaxşı vəzifəyə qoydular. Yandım-töküldüm. Cavan oğlan idim. Araz aşığımdan idi, Kür topuğumdan. Heç nədən qorxmurdum. Yeri düşdü-düşmədi başladım onun əleyhinə danışmağa. Deyirdim ki, filankəs təkin əfəllərlə kommunizmi tez qurmaq olar. O dözdü-dözdü,

bir gün böhtana düşdüm, məni yaxaladılar, getdim, dünyanın qurtaracağına. Ora ölkənin müxtəlif yerlərindən olan dustaqları yığmışdılar. İçimizdə kimlər yox idi, ağqvardiyaçılar, qolçomaqlar, nə bilim, daha kimlər. Hərənin ağzından bir avaz gəlirdi. Oturub-durub deyirdilər ki, bu Şuralar müvəqqətidi, çox davam gətirsələr, beşcə il. Zalım oğlu o Qaplan Aslanbəyov məni yaman qaralamışdı. Hərdən məsxərəyə qoyub deyirdi ki, sənin dərdin bizim hamımızınkından böyükdü, ay yazıq, düşmüsən dilinin bəlasına. Barı, bir mənfəətli, abırlı iş görəydin, eşidən-bilən sənə "afərin" deyəydi. Yoxsa, sən bir dılğırı haçansa tənqid eləmisən, xoşuna gəlməyib, las toyuq kimi səni qamarlayıb basıblar bura. Mən sənin halına acıyıram. Adə, Cəlil, sənin kimi də maymaq olar? Bu tənələrə bir dəfə dinmədim, ikincisində hirsimi içimə saldım, üçüncüsündə barıt kimi partladım, atılıb yapışdım onun nazik hülqumundan. Balağa gəlib bizi ayırmasaydı, kim bilir nə olacaqdı.

Cəlil sözünə ara verib soruşdu:

– Başağrısı vermirəm ki?

– Yox, yox, əsla.

– Sözün düzü, bilmirəm nədən ötrü sizi görən kimi mənə xoş təsir bağışladınız. Odu ki, dərdim açılıb. Mən beləyəm. Boğazdan yuxarı danışmağı bacarmıram. Ya gərək susam, ya da həmsöhbətimlə düşündüyümü danışam, ondan heç nə gizlətməyəm. Axı, mən nədən ötrü gedib filan qədər cəza çəkdim? Axı, mən düşmən deyiləm və heç vədə düşmən olmamışam. Əsil müəllim də xalqına işıq, tərəqqi gətirən bir quruluşun əleyhinə çıxarmı? Mən inqilabın xalqa verdiyi gözəl imtiyazlardan istifadə edə bilməyən vəzifə sahiblərinin əleyhinə olmuşam. Haçandan bəri ayrı-ayrı kütbeyin idarə və təsərrüfat başçılarının əleyhinə danışmaq hökumətin əleyhinə çıxmaq olub? Xalqın düşməni mənim kimilər yox, inqilabın qayəsini, mahiyyətini öz mənafeləri naminə təhrif eləyənlərdi.

Cəlil qəzəblənib ucadan danışdığını duyub səsini alçaltdı.

– Onlar öz yerlərini möhkəmlətmək üçün gördükləri nöqsanlardan ürəyi yana-yana danışanlara düşmən damğası vurub aradan götürürdülər. Biz müsəlmanlar hər işin ağını çıxartmışıq. Sabir demişkən, "harda müsəlman görürəm, qorxuram".

Həmid Qubalılar məscidi sökülən günü universitetin tarix müəllimi qoca dosentin dediyi sözləri xatırladı; Cəlilə rəhmi gəldi. "Günahı olmadan gedib o qədər yatmaq yaman dərddi".



– Olan olub, keçən keçib, indi çalışmaq lazımdı ki, bundan sonra təmiz adamları qəsdən dolaşdıranlara imkan, meydan verilməsin. Mən bədbin deyiləm. Gələcəyə ümidlə baxıram. Hörmətli Həmid, buna əminəm ki, bir müddətdən sonra iş başına daha savadlı, tədbirli oğullar gələcəklər, görürəm elə yavaş-yavaş gəlirlər də. O vaxt, inqilabın ilk illərində rəhbər kadrlar çatışmırdı, bəzi təsadüfi adamları götürüb böyüdürdülər.

Həmid Çopur Abdullanın hiyləsinin qurbanı olmamaq üçün Bakıdan qaçanda doğma şəhərinin, anasının və qardaşlarının necə xiffətini çəkməsini xatırladı. "Mən onda dostlar arasında idim, sərbəst gəzib dolanır, sərbəst işləyirdim, deyən yox idi ki, gözün üstə qaşın var, yenə də orda evçün darıxırdım".

– Mən orda o cür şaxta-çovğunlardan sağ-salamat çıxıb Salyana qayıtmışam, bu, böyük səadətdi. Mən bu səadətin qədir-qiymətini bilirəm...

– Bu özü də şərtdəndi, Cəlil müəllim.

– Siz allah, mənə müəllim deməyin, onda diksinirəm. Usta deyin. Müəllimliyi tamam yadırğamışam, mən indi ustayam. Usta Cəlil. Dərzi Cəlil.

Həmid Cəlilə ruh verdi:

– Siz indi dərzilik eləsəniz də, amma təbiətən müəllim yaranmısınız. Sizin düz danışmağınız, sözü üzə deməyiniz əsil müəllimə xas olan sifətdi.

Həmid çoxdandı Cəlilin dərzi dükanında idi. Müştərilər gəlib qapıdan boylanır, ustanın içəridə kiminləsə mehriban-mehriban danışmasını görüb çıxıb gedirdilər. Həmid ayağa durdu:

– Bu gün mən sizə çox mane oldum, bir iş görə bilmədiniz. Gedirəm, gəlin vədələşək, o əmanətləri sizdən haçan ala bilərəm? Sabah səhər Bakıya yola düşürəm.

Cəlil də qalxdı. O, qonağın çiynindən idi, üzünə fikir verməsəydin, boy-buxunundan deyərdin ki, Cəlil Həmidin yanında uşaqdır. "İnanmaq olmur ki, bu cılız kişi elə çətinliyə dözüb, özü də sağ-salamat qayıdıb. Cəlil Balağanın yarısıycandı, o həmişəlik qürbətdə qaldı. Eh, tale ayrı şeydi..."

– Gəlməyinizlə getməyiniz bir oldu, hörmətli Həmid. Gəlibsiniz, barı bir-iki gün qalıb dincəlin, sizi şəhərlə, Salyanın kəndləri ilə tanış eləyim.

– Həvəslə qalardım. İdman texnikumunda qiyabi oxuyuram, bu günlərdə imtahan verəcəyəm, hazırlaşmalıyam.

– Onda gedəyin, gecəni bizdə qalın.

– Xahiş edirəm, məndən inciməyin, usta Cəlil.

Cəlil güldü:

– Bax belə, usta Cəlil, bu, mənə xoş gəlir.

– Usta, izin verin gedib mehmanxanada otaq tutub yerbəyer olum, axşam bir yerdə çörək yeyərik. Ancaq sizin evdə yox, restoran, ya aşxana varsa, orda.

Həmid çıxanda Cəlil onu saxladı:

– Dayanın, mən getməsəm, mehmanxanada sizə fərli otaq verməzlər. Heç olmasa, qoyun, sizi gedib orda rahat eləyim. Buna nə sözünüz?!

– Ona etiraz eləmirəm.

Mehmanxanaya gəldilər. Həmidə dedilər ki, ayrı otağımız yoxdur, ona üç nəfərlik nömrədə bir çarpayı təklif elədilər. Cəlil yağlı dilini işə saldı, növbətçinin qulağına nəsə pıçıldadı, sonra onun stolunun yan gözünü açıb ora bürmələnmiş kağız pul atdı. Qaşqabağından zəhrimar tökülən növbətçinin donu açıldı, cibindən bir dəstə açar çıxartdı, cingildədə-cingildədə gedib dəhlizin o başında, xəlvət yerdəki otağın qapısını açdı.

– Sizə padşaha layiq otaq verirəm, – dedi. – Əziz qonağımıza hər şey qurbandı.

Növbətçi otağı tərifləyib dağ başına qoysa da, bir şey deyildi. Ancaq Həmid razı qaldı. Başqası ilə bir otaqda yata bilmirdi. Cəlil otağa göz gəzdirib dedi:

– Bunun padşaha layiq otağı belə olanda, gör o birilər nə kökdədi?..

Xırdaca otağa dəmir çarpayı, köhnə şifoner, stol və iki stul qoyulmuşdu. Otaq təzə təmir olunsa da, çarpayının yuxarısında, divarda haçansa öldürülmüş ağcaqanadların yeri qalmışdı. Növbətçi açarı qapının üstündə qoyub getdi. Cəlil Həmidə dedi:

– Bunun padşaha layiq otağı dədəsinə dəysin. Gül kimi evi qoyub, görün bir harda qalırsınız, daşı tökün ətəyinizdən, gəlin gedəyin bizə.

Həmid fikrindən dönmədi. Cəlil xudahafizləşib getdi. Həmid dəhlizdə qoyulmuş əlüzyuyanda qurşaqdan yuxarıyacan yuyundu. Otağın pəncərəsini taybatay açıb çarpayıya uzandı. "Balağa iki il qabaq həlak olsa da, evdə ümidlərini üzməmişdilər, onu gözləyirdilər.



İndi onlara gedib necə deyəsən ki, Balağa həlak olub, bu da onun pulu, saatı?!"

Lapdan qopan külək pəncərənin taylarını çırpdı. Həmid pəncərəni bağlasa da, nəfəsliyi açıq qoydu.

"Çopur Abdullanı, Firuzu tapıb onlarla əməlli-başlı danışmasam, ürəyim partlayar".

Axşam Cəlil mehmanxanaya vədələşdiklərindən tez gəldi. Balağanın pullarını, saatını gətirmişdi.

– Bu da o fağırın əmanəti.

Həmid saata baxdı, halqasına qızılı zəncir salınmış saat Balağanınkı idi. O bu saatı həmişə jiletinin alt cibinə qoyurdu, zəncir ordan sallanırdı. Həmid saatın qapağını açdı, içərisi yazılmışdı. Böyük əqrəbi doqquzla onun arasında durmuşdu, kiçik əqrəbi altının... "Saatın ömrü sahibinkindən çox oldu..."

– Sizin ən böyük savab işiniz odu ki, bunları dünyanın qurtaracağından götürüb gətirmisiniz Balağanın ailəsinə.

Həmid çamadanını bağlayıb çarpayının altına itələdi. Cəlil dedi:

– Elə bil üstümdən bir dağ götürüldü. Hövl eləyirdim ki, əmanəti sağ-salamat öz sahibinə – mərhumun vərəsəsinə çatdırım.

Həmid qalstukunu taxıb, pencəyini geydi. Cəlil danışırdı, o isə geyinə-geyinə fikirləşirdi, Balağanın ölümünü Nurlugilə necə deyəcəkdi?!

## XXII

Çiskinli payız günü idi.

Həmid küçəyə açılan balkonlarının məhəccərinə dirsəklənib evlərinin qənşərindəki təzə bağa, beşmərtəbənin qabağında olan iki və üç nömrəli tramvayların dayanacağına yığışan adamlara, dərsdən qayıdan əliçantalı uşaqlara tamaşa eləyirdi. İnstitutlarda, məktəblərdə məşğələlər təzəcə başlanmışdı, şəhər əhli yaylaqlardan, bağlardan qayıtmış, küçələr gurlaşmışdı.

Həmid özü də Bakıya təzə qayıtmışdı. İki ay idi Sibir şəhərlərində tamaşalar verirdi. Hər dəfə də səfərdən dönəndə bura – küçə balkonuna çıxıb ətraf küçələrə, camaata baxmağı adət eləmişdi. Sanki o bu yolla doğma şəhəri ilə görüşür, yerliləri ilə salamlaşırdı.

Rübabə mətbəxdə nahar hazırlayırdı. Mikayılla İsmayıl mədəndə idilər, biri "Stalinneft"də mühəndis idi, o biri təzə istifadəyə verilən "Buzovnaneft"də. Mədəndən evə axşamüstü qayıdırdılar, ikisi də boylu-buxunlu gözəl oğlan olmuşdu, bir-birinə çox oxşasalar da, İsmayıl daha yaraşıqlı idi. Qara, nazik bığ saxlamışdı. Mikayılın bığdan acığı gəlirdi. Tanış-biliş onları bir-birindən bu bığdan ayırırdı. Uşaqlıqda yola getməsələr də, indi əkizlər çox mehriban olmuşdular. Hərəsi lay divar kimi, ucaboylu. Üç qardaş qapıdan girəndə Rübabə arvad oğullarına fərəhlə baxır, "Tfu, tfu, yaman gözə ox batsın, – deyirdi, – ölmədim, balalarımın ağzının çörəyə çatmasını gördüm. O gün olsun ki, onların toylarını eləyim. Həmid böyükdü, gərək əvvəl o qabağa düşüb özünə bir halal südəmmiş tapsın ki, kiçik qardaşlarının da yolu açılsın. O qurban olduğumdan da bir hərəkət görmürəm. Elə bil qır töküb üstündə oturub. Həmid nə rəhmətlik atasına çəkib, nə də dayısına. Murtuz evlənəndə iyirmi iki yaşı vardı, Turabın iyirmi dörd. Həmid qırxı haqlayıb... Qorxuram evlənməyə, ömrü boyu subay qala. Ayrı bir nisgilim, nigaranlığım yoxdu".

Qapının zəngi çalındı. Həmid balkondan eşidib dəhlizə çıxanda Rübabə onu qabaqladı.

– Kimdi, mömə?

– Poçtalyondu, sənə kağız gətirmişdi.

Rübabə zərfi oğluna verdi. Həmid açıb oxuyanda anası soruşdu:

– Kim göndərib, ay bala?

– Bədən tərbiyəsi texnikumundan gəlib, məni diplomumu almağa çağırırlar.

– O çağdan almamısan?

– Yox, elə burda yazırlar ki, iki ildi texnikumu qurtarmısan, niyə gəlib almırsan diplomunu?

– Düz deyirlər də, nöş gedib almırsan? Oxumusan, filan qədər əziyyət çəkib imtahan vermisən.

Həmid məktubu zərfə qoydu, yazı stolunun küncünə atıb yenə balkona çıxdı. Salyana, dərzi Cəlilin yanına getməsini xatırladı. Onda – iki il əvvəl Balağanın ölüm xəbərini, Çopur Abdullanın ayrı bir fitnə işlətdiyini eşidib Bakıya dilxor qayıtdığı üçün ilk imtahanı verənə kimi özünə gələ bilmədiyinə görə gedib tarixdən "dörd" almışdı, əslinə qalanda, Həmid üçə cavab vermişdi. O, məşhur, hörmətli adam olduğundan müəllim qiymətini bir xal artırmışdı. Qalan



imtahanlardan beş alsa da, diplomu fərqlənmə ilə olmamışdı, gözündən düşmüşdü, onu almağa tələsməmişdi.

Həmid Salyandan Bakıya qayıdan kimi Çopur Abdullanı axtarmağa getdi. Axtarışı Çadrovı küçəsindən başlamışdı. Həmid Çopur Abdullanın öz dilindən eşitmişdi ki, o, Çadrovı küçəsində olur. Çadrovı uzun idi, Hüseynbala açıqlığından başlayıb dəmir yol vağzalının yanında qurtarırdı. Həmid bütün günü Çopur Abdullanı axtarmağa sərf elədi. Küçənin o ucundan soruşa-soruşa gəlib axırına çıxdı. Çopur Abdullanı bir nəfər də tanıyan olmadı. O ya küçələrini Həmidə düz deməmişdi, ya da Həmid onu yaxşı eşitməmişdi.

O biri gün Həmid səhər çayını içib dəyirmana yollandı. Dəyirmanın qabağında içi buğda ilə dolu üç vaqon dayanmışdı. Fəhlələr çalov ilə buğdanı kisələrə doldurur, içəri daşıyırdılar, vaqonların altına, ətrafına xeyli sarı buğda səpələnmişdi. Onları süpürüb yığan yox idi, bu, heç kimin də yadına düşmürdü. Sərçələrin, sığırçınların bayramı idi. Dəstə ilə gəlib doyunca dənləyir, pırıltı ilə uçub gedirdilər.

Dəyirmanın qapısında bığlarının ucu qulaqlarına çatan, qara şinelli, arıq bir kişi dayanmışdı. Həmid yanaşıb dedi:

– Mənə sizin naçannikiniz lazımdı, əmi.

Qarovulçu, Həmidə diqqətlə nəzər yetirdi, yəqin fikirləşdi görən bu kimdir, hansı böyük qulluğun sahibidir ki, onunla danışmır, birbaşa rəisi çağırtdırır, dedi:

– Bu dəqiqə çağırtdıraram, qərdeşoğlu.

Kişi, budkasındakı telefonun dəstəyini qaldırıb kiminləsə danışdı, dedi ki, bir nəfər gəlib, burda naçanniki gözləyir, zəhmət olmasa o, darvazaya çıxsın.

Darvazaya ortaboylu, qıvraq bir kişi gəldi.

– Məni istəyən kimdi?

Qarovulçu, Həmidi nişan verdi.

– Bu oğlan, yoldaş Həsənov.

Həsənov familiyalı kişi salamlaşıb Həmidi içəri dəvət elədi.

– Buyurun, gedəyin mənim otağıma.

Həmid yerindən tərpənmədi. Mat qalmışdı, bəs buranın qarovul rəisi Çopur Abdulla deyildi? O, Həmidi aldatmışdımı? Çopur Abdulladan hər nə desən gözləmək olardı, şöhrət naminə, başqasının qabağında qürrələnmək üçün aşağı işdə olub, özünü rəis kimi qələmə verə bilərdi. Bəs Balağa? Axı, o da Çopur Abdullanın dəyirmanda qarovul rəisi olduğunu deyirdi. Bəlkə həmin dəyirmanı səhv salmışdı,

ayrısı idi? Balağa deyirdi ki, o, Hacı Zeynalabdin Tağıyevin keçmiş dəyirmanında işləyir. Həmid düz gəlmişdi. Bura Tağıyevin dəyirmanı idi.

Həsənov Həmidin tərəddüdünü görüb, elə zənn elədi ki, o, içəri keçməyə çəkinir.

– Buyurun, – dedi, – gedəyin içəri, hörmətli yoldaş, orda danışarıq.

Həmid yenə içəri getmədi.

– Bağışlayın, mənə siz yox, Abdulla lazımdı, – dedi, – demişdilər ki, o burda qarovul naçannikidi, ona görə gəlmişəm.

Qoca qarovulçu Həmidə tərs-tərs baxa-baxa rəisin yerinə cavab verdi:

– Sən Abdulla Qəmbərovu istəyirsənsə, o çoxdan, – barmaqlarını şəbəkə kimi bir-birinin üstə qoyub gözlərinin qabağına tutdu, – yatır, tutublar, işindən qənbərqulu çıxdı. O, burda naçannik idi, qoyunu qurda tapşırmışdılar, oğurluq elədi.

Təzə qarovul rəisi Həsənov xudahafizləşib içəri getdi. Həmid pis vəziyyətdə qalmışdı.

Qarovulçu dəyirmana getmək istəyən bir qadının vəsiqəsini yoxlayıb buraxdı və hələ də yerində dayanıb fikrə gedən Həmidin yanına gəldi:

– Mən də elə güman eləyirdim ki, sənə yoldaş Həsənov lazımdı, bica yerə kişini əziyyətə salıb ordan bura çağırdım. Qərdeşoğlu, Abdulla Qəmbərov sənin yoldaşın olsa da, çox qəlp adam idi. Səhərdən axşamacan düzlükdən, təmizlikdən dəm vururdu, özünü peyğəmbər kimi qələmə verirdi. Sora məlum oldu ki, sən demə, bunlar hamısı quru söz imiş. Bir-iki nəfər əliəyri ilə əlaqəyə girib gecələr dəyirmandan unu tay-tay daşıyıb aparırmışlar. Bu minvalla hökumətin iki yüz otuz üç pud ununu oğurlayıblar. Suduna mən də getmişdim, əvvəl oğurluğunu danırdı, boynuna qoydular, səsini kəsdi, on iki il iş verdilər. Elə nadürüstə on iki il nədi? Mən hakim olsaydım, onu dar ağacından asdırardım. Çifayda, bizdə adam asmaq yoxdu, gərək olaydı; Abdulla Qəmbərov kimilər asılmalıdı. Məncə, camaatın çörəyini oğurlayanlar ən ağır cəzaya layiqdirlər.

Həmid Çopur Abdullanın tutulmasından müəyyən təsəlli tapsa da, onu burada görməməyinə təəssüf eləyirdi. And içmişdi, bu dəfə Çopur Abdulla ilə çox möhkəm danışacaqdı! Fikirli-fikirli pıçıldadı:

– Heyif...



Qarovulçu Həmidə şübhəli baxdı:

– Qərdeşoğlu, Abdulla Qəmbərovun qoduqluğa salınmasına heyifsilənirsən?

Həmid anladı ki, qoca onun sözünü ayrı cür başa düşüb, dedi:

– Əmi, mən Abdulla Qəmbərovun tutulmasına heyifsilənmirəm, əksinə, onun cəzalanmasına şadam. Ona görə heyifsilənirəm ki, Qəmbərovu burda görüb onunla ürəyim istəyən kimi danışa bilmədim, deməyə sözüm çox idi, heyif... O, camaatın çörəyini oğurlamaqdan başqa, neçə-neçə ev yıxıb, qanlara bais olub.

– Belə de... İnanıram, qərdeşoğlu, Abdulla Qəmbərov zatıqırıq idi. Zatıqırıqdan hər nə desən gözləmək olar.

– Mən bura ondan elədiyi əclaflıqların haqq-hesabını çəkməyə gəlmişdim, heyif gecikmişəm. Çopur Abdulla elədiyi bir cinayətin cəzasını alıb, o birilər qalır.

Qarovulçu bığlarının nazik uclarını eşə-eşə arxayınlıqla:

– Mərdimazar cəzasını mütləq almalıdı, intəhası geci-tezi var, – dedi, – heç nə yerdə qalmır, əvəzini çıxırlar.

Həmid qoca ilə sağollaşıb, körpüyə yollandı. Neçə aydı ki, ordan çıxmışdı, ara-sıra fəhlə yoldaşlarının yanına gəlib görüşür, hal-əhval tuturdu. O, Bakı yük limanından işdən çıxsa da, yoldaşlarını unutmurdu. O vaxtdan bəri limanın yükdaşıyanlarının yarıdan artığı dəyişmişdi, köhnələr getmişdi, yerlərinə təzələri gəlmişdilər. Təzələr də ona köhnə fəhlələrin dili ilə "bizim Həmid" deyirdilər. Həmid Bakıda seyrək çıxış eləyirdi, ancaq həmişə doğma şəhərində tamaşalar verəndə Matros Həbibə bilet göndərirdi ki, yükdaşıyanlara paylasın.

O, körpüdə qarovulçudan və üç-dörd nəfər qulluqçudan savayı, ayrı adam görmədi. Bəs yükdaşıyanlar harada idilər? Həmid kontora gəldi. Matros Həbib yerində əyləşib eynəyi burnunun üstündə qəzet oxuyurdu. Otaqdan kəkotu iyi gəlirdi, armudu stəkanda sarı kəkotu çayı buğlanırdı.

– Xoş gördük, yoldaş Həmid, həmişə sən gələsən.

– Həbib dayı, sakitlikdi, bəs uşaqlar hanı?

– Evə buraxmışam, gedib dincəlsinlər. Bu gün səhər bir gəmi gəlməli idi, gəlmədi. İdarədən səhər zəng eləyib dedilər ki, gözləməyin, axşam olacaq. Uşaqları bikar saxlamadım, axşam gələcəklər.

Matros Həbib xeyli düşmüşdü, saçı-saqqalı ağarmış, enli alnına qırışlar xış çəkmişdi. O, burda Mirhadinin yerinə gələndə ucaboylu,

yanaqlarından qan daman sağlam dənizçi idi. İndi qocalmışdı, çənəsinin altından buxaq sallanmışdı, ağzında mərcan kimi yan-yana düzülmüş dişləri də geydirmə idi. Həmid ona baxırdı, sanki Matros Həbibin siması güzgü idi, orda özünü görürdü. İllər necə də hiss edilmədən gəlib getmişdi, o da indi burada tayı iki-iki, üç-üç daşıyan oğlan deyildi.

Matros Həbib stəkandakı çaydan bir qurtum içdi, çimçəşə-çimçəşə birini də onun üstündən. Görünür, kəkotu çayını ürəyi götürmürdü, onu dərman kimi içirdi.

Həmid yoldaşlarını görə bilmədiyinə heyifsilənirdi: "Bu gün nə uğursuz gündü, hara gedirəmsə, işim düz gətirmir..."

– Uşaqlar tez-tez səni xatırlayırlar, Həmid. Elə bil səni burdan dünən yola salmışıq.

Həmid Matros Həbibə baxır, Balağa barəsində fikirləşirdi. Onlar təxminən yaşıd olardılar. "Balağa dolaşdırılmasaydı, indi Həbib dayı kimiydi..." Həmidin yadına düşdü ki, onda – Balağa tutulanda Matros Həbibin yanına xahişə gəlmişdi. Matros Həbib də əvvəl-əvvəl onun günahsız olmasına inanırdı, sonra fikrindən döndü.

Həmid dərzi Cəlildən Balağa haqqında eşitdiklərini danışdı və dəyirmana Çopur Abdullanı görməyə getdiyini dedi. Matros Həbib əlini stola çırpdı:

– Pa atonnan, o Çopur Abdulla nə əclaf imiş, alə!.. Heyif, sən o vədə onu mənə göstərmədin, üzünə bircə kərə baxsaydım, bilərdim nə yuvanın quşudu. Səndə də taxsır var, ay Həmid, boynuna al, onda eşidəndə ki, dalınca adam salıb səni öldürmək istəyir, dedim hər kimdisə adını mənə de, çekaya çatdırım, damlasınlar, demədin. Bəlkə də desəydin, nə Balağa dolaşardı, nə də dəyirmandan o qədər un oğurlanardı. Çox güman Çopur Abdulla bizim bilmədiyimiz ayrı əclaflıqlar da eləyib, onların da qabağı alınardı. İlan birini çaldı, onu öldürmədin, gedib başqasını çalacaq. Belə işdə amansız və qətiyyətli olmaq gərəkdi.

Matros Həbibin sözləri Həmidin ağlına batırdı. Gərək Həştərxandan qayıdan kimi Çopur Abdullanı o özü axtarıb tapaydı, əvvəl axtarmamışdısa da, çapçılar klubunda görəndə, onunla haqq-hesabı çəkəydi. Heç Balağaya gənəşməyəydi. "Balağa məni Çopur Abdullaya baş qoşmağa qoymamaqda düz iş görmədi, onu özü üçün qənim saxladı".



– Həbib dayı, o mənim səhvim oldu, təkcə Çopur Abdulla məsələsində yox, ümumiyyətlə, mənim həyatda səhvlərim çoxdu. Bu da mənim ləngliyimdən, bir az da ürəyiyumşaqlığımdan irəli gəlir.

– Ürəyiyumşaq olmaq gözəl xasiyyətdi. Həmid, amma ləngIik, qəti anlarda tərəddüd eləmək həmişə xeyirlə qurtarmır.

Matros Həbibin dediklərini Həmid yaxşı bilirdi. Bu, sübuta ehtiyacı olmayan bir həqiqətdi. Əfsus ki, çox vədə insan özü də istəmədən ona yaxşı bəlli olan işlərdə bağışlanmaz səhvlər buraxır. Bu da şahmat oyununa bənzəyir. Bir də görürsən ki, bir mahir şahmatçı yarışı zamanı adi həvəskarların da yol vermədiyi kobud səhv buraxır, ağır vəziyyətə düşür, ya da görürsən şahmatçının başı düşünməyə elə qarışır ki, vaxtı ötürür, uduzub peşman olur. Həmid də indi sonradan peşman olan belə şahmatçılara oxşayırdı.

O, körpüdən çıxıb evə qayıtdı. Sabah mütləq mətbəəyə, Firuzu görməyə gedəcəkdi.

...Rübabə arvad yazı stolunun küncünə atılmış zərfi götürüb mürəkkəbqabının yanına, göz qabağına qoydu ki, Həmid görsün, şəhərə çıxanda texnikuma gedib diplomunu almaq yadından çıxmasın. Evlərində iki diplom vardı: Mikayılla İsmayıla sənaye institutunu bitirəndə vermişdilər, Rübabə onları bərk yerə qoymuşdu. Zarafat deyil, əkizlər o diplomları almaq üçün hərəsi on beş il oxumuşdu. Həmidinki bu evə gələn üçüncü diplom olacaqdı.

Rübabə otaqdan küçə balkonuna boylanıb Həmiddən soruşdu:

– Ay bala, bu diplomdu-nədi, o sənə elə gərək deyilsə, məvacibini artırmırdılarsa, day onu almağa nöş əziyyət çəkirdin? Mikayılla İsmayılın əllərində o kağız olmasaydı, onları incinar qoymazdılar.

– O mənə də lazımdı, mömə, diplom qara günümdə əlimdən tutacaq.

– Elə demə, mömə sənə qurban, Allah eləməsin sənin qara günün olsun, düşmənlərin, səni gözü götürməyənlər qara günə düşsünlər.

...Körpüdən qayıtdığı günün səhərisi Həmid Balağanın işlədiyi qəzet və jurnallar çap olunan mətbəəyə getdi. Köhnə mətbəə sökülmüş, yerində bağ salınmışdı. Öyrəndi ki, indi qəzet və jurnallar dəniz qırağındakı iri, ikimərtəbəli təzə mətbəədə çap olunur. Oradan birbaşa həmin mətbəəyə getdi. Kadrlar şöbəsinin müdirinin yanına qalxdı. Müdir saçlarına dən düşmüş yaraşıqlı, suyuşirin bir qadın idi. Deyəsən Həmidi tanıdı, ona ehtiram göstərdi. Həmid gəlişinin məqsədini

dedi. Müdir Firuzun familiyasını soruşdu, o bilmədi, qadın mətbəə işçilərinin şəxsi işlərini bir-bir gözdən keçirdi, orada Firuz adlı adam görmədi. Bir nəfər Firuzə adlı qadın vardı, o da süpürgəçi idi. Həmid məyus oldu, kadrlar şöbəsinin müdiri ona dedi ki, hələ ümidinizi üzməyin, mətbəənin köhnə işçilərini çağırıb soruşaram, bəlkə, onlar Firuzun yerini bildilər. Çap sexinin üç köhnə fəhləsi gəldi. Həmid onlara Firuzun xarici görünüşünü, əlamətlərini təsvir elədi. Heç biri tanımadı. Qocalar Balağanı tanıdıqlarını desələr də, onun yaxşılığına söz deməkdən ehtiyat elədilər.

Firuzu görməyə çox ümid eləyən Həmid mətbəədən suyu süzülə-süzülə qayıtdı. O çox istəyirdi ki, heç olmasa, Firuzu tapıb danışsın, görsün necə olub ki, o, Balağanın üzünə durub, kişinin barəsində olmayan şeyləri deyib. Bunu Firuz özü eləyib, ya onu Çopur Abdulla öyrədib. Balağanın həbs edilməsindən on ildən artıq keçmişdi. Bəlkə də, indi Firuz o vaxt yalandan şahid durmasını çoxdan unutmuşdu...

Çopur Abdulla hardasa həbsxanada yatırdı, Firuzun da yeri bilinmirdi. Həmid neyləyəydi? Məcrasına sığmayan çay kimi hiddəti coşub-daşırdı. İntiqam almaq, tənbeh eləmək hissi heç zaman Həmidin düşüncəsinə belə hakim olmamışdı. Neçə gün əsəbi, acıqlı gəzib-dolandı. Elə bu vəziyyətdə də texnikumda buraxılış imtahanlarını verdi.

Həmidin Salyandan gəlməsindən xeyli keçmişdi. Balağanın saatını, pullarını aparıb Sərvinaz xanıma verməmişdilər. Bir gün anasına dedi ki, sən apar ver, mömə. Rübabə də dedi ki, yox, oğul, mən tək getsəm, pis çıxar. Balağa ölüb, gərək ailəsinə başsağlığı verək, gəl, bir yerdə gedək. Həmid qara xəbərlə onlara getmək istəmirdi. Ancaq Qara dəniz sahillərinə yola düşürdü: Soçi, Tuapse, Novorossiysk şəhərlərində çıxışları olacaqdı. Balağanın əmanətlərini qayıdana saxlamaq yaxşı deyildi.

Sərvinaz xanım Nurlunu köçürəni tək qalmırdı, otaqların birini Bakıya tibb institutuna oxumağa gələn iki naxçıvanlı qıza kirayə vermişdi. Qızlar evdə ona həm qulaq yoldaşı olmuşdular, həm də ayda iyirmi manat verirdilər, Sərvinaz xanım xırda-xuruş xərclərinə sərf eləyirdi.

Həmid Balağagildən çoxdan çıxmışdı. Sərvinaz xanım onların bu gəlişinə şad oldu. Həvəslə Nurludan danışdı, nəvələrini təriflədi, sonra qonaqların bikef olduqlarını duyunca şübhəyə düşdü. Rübabə



məsələni təmkinlə açıb dedi. Sərvinazın qışqırığına kirayənişinləri – naxçıvanlı qızlar da gəldilər. Hamısı arvadın dərdinə şərik olub ona təskinlik verdi. Sərvinaz xanım yana-yana dedi: "Mən əvvəlinci gündən Balağanın düşmən olmasına inanmırdım, ay başınıza dönüm, neynim ki, sözümə qulaq asan yox idi. Nurlunun iki oğlundan birinə Balağanın adını qoymaq istəyirdik. Qoymadıq. Qorxduq ki, deyərlər uşağa düşmənin adını verirlər. Eh, fani dünya, necə hər şey tərsinə dönür?!"

Qara xəbər tez yayıldı. Qonşular Balağanın ölümünü eşidib Sərvinaza başsağlığı verməyə gəldilər. Otaq doldu. Rübabə onlarda qaldı, Həmid evlərinə gəldi. Sərvinazın yanıqlı-yanıqlı oxşayıb ağı deməsi ona yamanca təsir eləmişdi, bu anlarda Çopur Abdulla əlinə keçsəydi, hər tikəsini qulağı boyda eləyərdi. Yumruqlarını sıxıb asta-asta yeriyirdi. Sanki kimsə qarşısına çıxacaqdı, onunla ölüm-dirim döyüşünə girməyə hazırlaşmışdı.

Balağagildən dilxor çıxan Həmid bir də başını qaldıranda gördü ki, Cəfər Cabbarlı küçəsində, öz məhəllələrindədir. İndi Şamaxı yolunun adını Cəfər Cabbarlı qoymuşdular.

Həmid küçə balkonunda çoxdan dayanmışdı. Rübabə oğlunu çağırdı:

– Ay bala, yel əsir, bir köynəklə balkonda nə qədər dayanmaq olar, azarı satın alırsan? İçəri gəl.

Xəzri əsirdi. Həmid otağa qayıtdı. "Yəni mən Çopur Abdullanı bir də görməyəcəyəm?"

# İKİNCİ HİSSƏ

## XXIII

Üçüncü həftə idi ki, müharibə başlanmışdı. İyunun iyirmi ikisində səhər radio faşist qoşunlarının qəflətən Sovet İttifaqına basqın eləməsini xəbər verəndə Bakıda yaranan şaşqınlıq, vəlvələ sovuşsa da, müharibənin vahiməsi öz işini görmüşdü. On doqquz günün ərzində insanlar da dəyişmişdi, şəhərin ahəngi də. Fabriklərin, mədənlərin, zavodların divarlarında yeni şüarlar yazılmışdı: "Hər şey cəbhə üçün, hər şey qələbə üçün", "Bizim işimiz haqdır, düşmən darmadağın olacaq".

Şəhərin küçələrində getdikcə kişilər seyrəkləşirdi. Əli silah tutanlar səfərbərliyə alınırdılar. Yük maşınlarını da yığıb cəbhəyə, hərbi hissələrə göndərirdilər.

Gecələr sanki şəhər köçürdü. Bayırdan əl-ayaq çəkilir, məhəllələr, meydançalar qəribsəyir, ətrafa zülmət çökürdü. Orda-burda zəif göy işıqlar yanırdı. Gecələr şəhərdə hərbi patrullar ikibir-üçbir gəzişir, rastlarına çıxanların sənədlərini yoxlayır, parolu soruşur, şübhə doğuranları tuturdular.

Ərzaq qıtlaşmışdı, dükan-bazarda uzun növbələr olurdu. Müharibənin çətinlikləri addımbaşı özünü göstərirdi.

Cəbhələrdən hər gün ağır xəbərlər gəlirdi.

Həmişə ilin bu vaxtı şəhər sakinləri Abşeron bağlarına, yaylaqlara dincəlməyə gedirdilər, bu il heç kim şəhərdən çıxmamışdı, ailələrin çoxunun başıpapaqlısı cəbhəyə getmişdi, getməyənlər də qalıb orduya çağırılmasını gözləyirdilər.

Həmidgilin evləri şəhərin Oktyabr rayonunda idi. Onların hərbi komissarlığından səfərbərliyə alınanları əvvəl şəhər kazarmasına aparırdılar. Oradan da dəstə-dəstə hərbi hissələrə, cəbhələrə yola salırdılar.



Kazarmanın alaqapısının və məftildən çəkilmiş uzun hasarının qabağında gün çıxandan gün batana kimi uşaqlı-böyüklü, qocalı-cavanlı xeyli adam olurdu. Onlar buraya hələ cəbhəyə yola salınmamış oğullarını, qardaşlarını, ərlərini, atalarını görməyə gəlir, ayın-oyun gətirirdilər.

Həmidi hələ orduya çağırmamışdılar. İsmayıla mədəndən "bron" düzəltmişdilər. Mikayılı isə dünəndən kazarmaya gətirmişdilər.

Kazarmanın dövrəsinə çəkilmiş məftil hasarın o tayında kişilər çox idi, bu tayında – bayırda arvad-uşaq. Onlar hasarın qabağına yığılıb öz adamları ilə danışırdılar. Səfərbərliyə alınanlar da mülki geyimdə idilər, onlara hələ hərbi paltar verməmişdilər.

İsmayıl səhər tezdən mədənə getmişdi. Rübabə ilə Həmid çaylarını içib kazarmaya, Mikayılı görməyə gəlmişdilər. Həmid müharibə başlanan günü – Stalinin "Bacılar, qardaşlar" deyə əhaliyə müraciət elədiyi gün Kiyevə qastrol səfərinə gedəcəkdi. O burdan da Ukraynanın ayrı şəhərlərinə yola düşəcəkdi, bileti əlində idi, səfər təxirə salındı. O heç Bakıda da çıxış etmək istəmirdi, evdə oturub hərbi komissarlığın çağırışını gözləyirdi, nədənsə onu axtaran yox idi.

Məftil hasarın bu üzündən o üzünə, o üzündən də bu üzünə əllər bir-birinə uzanmışdı, kimi öz adamına tütün-ərzaq verir, kimi də dərdləşirdi.

Həmid kənarda durmuşdu. Rübabə arvad hasarın kərpic sütununun dalında, o taydakı başıqırxıq oğlanlara baxır, Mikayılı axtarırdı, oğlu gözünə dəymirdi. O nigaran idi. "Bəlkə, gecə ilə Mikayılı tez cəbhəyə yola salıblar?! Bəs camaat danışırdı ki, bura gətirdiklərini həmin gün yola salmırlar, bir-iki gün qalır. Eləsi də var ki, araqdan-konyakdan verib öz adamlarını çox saxlatdırırlar".

Rübabə dünən Mikayılla hərbi komissarlıqdan buraya gətirilən göygöz oğlanı görüncə toxtadı. "Mikayıl da buradadı". O, əl eləyib göygöz oğlanı çağırdı:

– Xala sənə qurban, dünən səninlə bura hündür oğlan gəlib, adı Mikayıl, o haradadı, çağıra bilərsən?

– Mikayılın başını qırxırlar, xala, indi o da gələr, istəyirsən, gedib çağırım.

– Hə, çağır, de ki, anangil gəlib.

Oğlan Mikayılı çağırmağa getdi.

Həmid bir az aralıda gəzinirdi. Özünün xəbəri yox idi, üç-dörd nəfərin gözü onda qalmışdı. Hətta bir yeniyetmə oğlan gəlib lap yaxından ona diqqət yetirdi. Həmid bunu hiss eləmədi, fikri anasından beş-altı adam o yanda, iki əli ilə hasarın məftilindən yapışıb bir kişi ilə danışan qadında idi. Arxası ona sarı olan qadın necə də Nurluya oxşayırdı, tərslikdən, o, üzünü bu tərəfə çevirmirdi ki, görsün, Nurludur, ya özgəsi. Həmid dözmədi, axırda özü gedib oğrun-oğrun ona nəzər yetirdi. Sevincdən ürəyi əsim-əsim əsdi. Qadın Nurlu idi, yanında on dörd-on beş yaşlarında bir oğlan. Həmid bildi ki, danışdığı bəstəboylu kişi Nurlunun əridir, yeniyetmə isə oğlu. Oğlan anasına çox oxşayırdı. Həmid Nurlunun ərini belə yaxından görməmişdi, yaraşıqlı kişi idi.

Başı ərinə qarışan Nurlu Həmidi görmədi. Ancaq hasarın qabağına toplaşanların çoxu onu tanıdı, bir-birlərini dümsükləyib pıçıldadılar: "Həmid Xələfova, bax! O, Həmid Xələfovdu". Bunu Nurlunun oğlu da eşitdi, dönüb onlardan bir neçə metr aralı dayanmış Həmidə baxdı.

Həmid camaatın onu tanımasını istəmirdi, diqqət mərkəzində olmaqdan acığı gəlirdi, başını aşağı əydi. Özünü elə göstərdi ki, guya heç nədən xəbəri yoxdur. Lakin bilmədi ki, Nurlunun oğlu onu ata-anasına göstərdi.

Mikayılı çağırmağa gedən oğlan qayıdıb dedi ki, o bu saat gəlir. Rübabə oğlana razılıq elədi:

– Sağ-salamat qayıdasan, ay oğul. Gün o gün olsun ki, dava qurtarsın, Bakı vağzalına hamınızı belə dəstə ilə qarşılamağa gələk.

Çox çəkmədi ki, Mikayıl da yüyürə-yüyürə gəldi. Rübabə oğlunu görəndə doluxsundu. Həmid anasını məzəmmət elədi:

– Ağlayıb uşağın ürəyini xarab eləmə.

Mikayılın da saçını dibdən qırxmışdılar. O, boynunun, alnının tüklərini çırpa-çırpa dedi:

– Bizi keçəl elədilər.

– Neynək, ay bala, yerinə təzəsi gələr. Demədilər ki, sizi hara yollayacaqlar?

– Heç kim bilmir, bir söz də demirlər, ay mə.

Mikayıl da böyüyüb qardaşı kimi şaqqalı bir kişi olmuşdu. Sir-sifətindən Həmidə bənzəyirdi. Mikayıl gülüb-danışır, özünü çox şən göstərirdi, elə bil harasa istirahətə gedirdi, onu yola salmağa gəlmişdilər. O, anasına təsəlli verməkdən ötrü belə eləyirdi.



Rübabənin gözü Mikayılın üzündə qalmışdı. Onun gülüb-danışmasından xoş olsa da, ürəyindən qara qanlar axırdı. Mikayıl cəbhədən sağ-salamat qayıdacaqmı?.. Bəlkə də, bu gün onun oğlu ilə son görüşü idi. "Bu qədər adamı yığıb töküblər bura, hələ dalı da gəlir. Gör alayı yerlərdə, Urusiyyətdə nə qədər şəhər var, onların hərəsindən bir belə kişi yığıb davaya göndərsələr, qabaqlarında dayanmaq olar? Ay, o İtlerin ciyəri yansın. Köpəkoğlunun özü kimi də adı var. Necə dünyanı bir-birinə vurdu. Barı, bu dava çox çəkməyəydi. O köpəkoğlunun cəzasını verəydilər, camaat tapdaq altında qalıb qırılmayaydı..."

Rübabə qolunu məftilin arasından salıb Mikayılın əlindən yapışmışdı. Həmidlə Mikayıl danışır, o da oğullarına baxırdı:

– Hara getsən, tez evə məktub göndər, yerini bilək.

– Adresimi bilən kimi sizə kağız yazacağam.

Rübabə Mikayıla tapşırdı:

– Əgər istəyirsənsə nigaran olmayım, gözüm yollarda qalmasın, onda mənə tez-tez kağız yaz, Mikayıl. Kağızın arası kəsilsə, dilim-ağzım qurusun, ürəyimə min cürə fikir gələcək.

– Yazaram, mömə.

Həmidin gözü Nurluda idi. O hər dəfə Nurluya rast gələndə həm sevinir, həm də ötən günlər yadına düşür, qəmlənirdi. Onda buraxdığı səhv üçün özünü bağışlamırdı, bağışlamayacaqdı da. Kaş o illər geri qayıdaydı. Həmid heç nəyə baxmaz, heç nədən çəkinməz, Nurlunu başqasına ərə getməyə qoymazdı. Günah özündə idi. Nurlu deyəndə ki, məni bir kimya müəllimi istəyir, Həmid inanmamışdı. İndi həmin kimya müəllimi onun bir neçə addımlığında Nurlu ilə nə barədəsə mehriban-mehriban danışırdı. Bir neçə il əvvəl Nurlu Həmidə beləcə yaxın idi. Muxtar uzaqdan ona baxırdı. İndi yerlərini dəyişmişdilər. Özü də həmişəlik.

Həmid Nurluya baxırdı. Fikirləşirdi ki, o, indi azacıq kökəlsə də, bədəninin yaraşığı heç pozulmayıb. Üzünə də heç bir boya-filan vurmamışdı. "Muxtar xoşbəxt kişidi, gözəl arvadı, oğlu... mehriban ailəsi var". Həmid Nurlunun yanında duran oğlana həsrətlə baxırdı. Valideynləri danışır, o, böyüklərə mane olmadan ara-sıra atasının üstünə qonan tozu çırpır, əlini onun pencəyinin düymələrində gəzdirir, bilmirdi ki, öz qayğısını nə sayaq büruzə versin. Muxtar da arvadı ilə danışa-danışa oğlunun saçlarını tumarlayırdı.

Həmid atasının sözlərini xatırladı: "Ailəsiz insan yuvasız quşa bənzəyir..." Mən yuvasız quş kimiyəm, ömrümün çoxu mehmanxanalarda keçir, arvad yox, uşaq yox. Nurlu ilə evlənsəydim, indi mənim o boyda oğlum vardı.

– Bu, nə yığıncaqdı?

Ucadan deyilən bu sözlərə hamı dönüb baxdı.

Kazarmadakı köçürmə məntəqəsinin rəisi, gödəkboylu mayor alaqapıda keşikdə duran əsgərə acıqlandı və səfərbərliyə alınmış kişilərə əmr elədi:

– Dağılın, tez dağılın!

Səfərbərliyə alınanlar ailə üzvləri, qohumları ilə vidalaşıb hasardan çəkildilər. Mikayıl istədi ki, əyilib anasının üzündən öpsün, başı məftilin arasından keçmədi, əlindən öpdü.

– Sağlıqla qal, mömə, Həmid, sağ ol.

Mikayıl qardaşının əlini sıxdı:

– Gedin evə.

Camaatın mayora acığı tutdu:

– Əzizlərimizlə danışmağı bizə çox görür. Ona nə var ki, bizimkilər davaya gedirlər, o oturub burda, rahat yerdə.

Hasarın o tayındakı bir cavan kişi mayoru saya salmadı:

– Hərbi and içməmişəm, mənə heç nə eləyə bilməz, qoy səsinin yoğun yerinə salıb nə qədər istəyirsə, qışqırsın, mənə nə.

Cavan kişi əllərini uzadıb hasarın üstündən arvadından körpə qızını alıb marçamarçla öpdü. Mayor ona bir söz deməyib uzaqlaşdı.

Mikayıl anası, qardaşı ilə vidalaşdı, dönüb onlara baxa-baxa getdi. Rübabə arvadın gözləri yaşarmışdı.

Muxtar arvadı və oğlu ilə sağollaşıb əl eləyə-eləyə ayrıldı.

Səfərbərliyə alınanlar çıxıb getsələr də, onların ailə üzvləri, qohumları dayanıb, mayorun dalınca çox söyləndilər:

– Nə yaxşı bundan artıq vəzifəsi yoxmuş.

– Qoy itilib getsin, rütbə quludu, böyüklüyünü bizə göstərir.

Camaat orada çox dayandı, ümid elədi ki, mayor çıxıb gedər, yenə adamları hasarın yanına qayıdar, lakin heç kəs gəlmədi.

Rübabə arvad əli kəlağayısının ucunda Mikayıl gedən səmtə baxırdı. Həmid qəsdən elə yerdə dayanmışdı ki, Nurlu bu yana dönəndə onu görsün. O, Nurlu ilə danışmaq istəyirdi.



Nurlunun oğlu Həmidi göstərib anasına nəsə dedi. Nurlu oğlunun göstərdiyi səmtə baxanda Həmid üzünü anasına sarı çevirdi, guya heç nə görmür. Nurlu onların yanına gəldi:

– Salam, Rübabə xala, – Rübabə Nurlu ilə öpüşdü. – Siz necəsiniz, Həmid?

Həmid salamı alıb Nurlu ilə əl verdi, oğlunun saçlarını sığalladı:

– Maşallah, yekə oğlun var ki!

Həmid Nurluya onun kimi "siz" yox, "sən" deyə müraciət elədi.

– Bu böyük oğlumdu, kiçiyi nənəsinin yanında qalıb. Xeyir ola, siz bura nöşün gəlmisiniz, Rübabə xala?

– Mikayılı əsgər aparırlar, ay Nurlu. Bəs sən kimi yola salırsan?

– Ərimi.

– Mikayılla bir yerə düşüb ki, gərək onları tanış eləyək, davada bir-birilərindən muğayat olarlar.

– Sabah onları tanış eləyərik, Rübabə xala. Muxtar böyükdü, gözü onun üstündə olar.

Nurlu Həmidin xəyalında utancaq qız kimi qalmışdı. İndi o, dilli-dilavər, istiqanlı qadın olmuşdu. Geyimindən hiss edilirdi ki, güzəranı xoş keçir, firavan dolanırlar.

Nurlu gözünü Həmiddən çəkməyərək Rübabə arvaddan soruşdu:

– Oğlanlardan heç kimi evləndirməmisiniz ki?

Nurlu Rübabənin yarasına toxundu:

– Həmid evlənmir, kiçiklər də böyük qardaşlarından qabağa düşmək istəmirlər. Eh, nə bilim, ay Nurlu.

Nurlu sanki Rübabə arvadın şikayətini gözləyirdi. Həmiddən soruşdu:

– Nöşün evlənmirsiniz, Həmid?

Həmid istehza ilə qımışdı:

– Qocalmışam, kimin nəyinə lazımam.

Rübabə arvad hirsləndi:

– Sən allah, bu nə sözdü, ay qadanı alım?!

– Elə deməyin, Həmid, qızların sizə ərə getməyə minnəti olsun. İstəyirsiniz mən qabağa düşüb sizə bir yaxşı qız tapım?

Rübabə arvad Nurlunun təklifini bəyəndi:

– Tap, ay Nurlu, tap, xala sənə qurban. Həmidə qalsa, evlənməyəcək. Bəlkə onda hərəkətə gəldi. – Mən çox şad olaram bu işdə Həmidə bir köməyim dəysə.

Həmid Nurluya minnətdarlıq elədi:

– Qayğına görə sağ ol. – Anasına dedi: – Mömə, sağlıq olsun, dava qurtarsın, qollarımı çırmalayıb düşəcəyəm qabağa, Mikayılı da evləndirəcəyəm, İsmayılı da.

– Ay bala, bəs özün?

– Özümünkü keçdi, hər işin öz vaxtı var.

– O fikri başından çıxart, oğul.

Rübabə oğlunun nədən ötrü Nurludan imtina etməsinin səbəbini bilməsə də, duyurdu ki, Həmid Nurlunun dərdini çəkir. O, hərdən Sərvinazdan, qonşu arvadlardan Nurlu barəsində eşitdiyini gəlib evdə danışanda görürdü ki, Həmid çox maraqlanır. Bu qənaətə gəlmişdi ki, oğlu Nurlunun xiffətini eləyir, ona görə də başqa qızla evlənmir. Həmid Uraldan, qastrol səfərindən qayıdan günü ona demişdi: "Oğul, görünür, Nurlu qismətin deyilmiş, haçanacan subay gəzəcəksən, sənin tay-tuşlarının yekə oğul-qızları var, bu gün-sabah qayınata olacaqlar, gərək hər işi öz məqamı çatanda eləyəsən. Sən vaxtını ötürürsən".

Bu sözlər Həmidə təsir eləmədi.

Nurlu da Həmidin əvvəl onu istəməsini, sonra nə üçün onunla evlənməməsinin səbəbini başa düşmürdü. Ancaq bunu yaxşı bilirdi ki, o, Həmidin yadından çıxmır, indi də onu istəyir, gözü dalınca qalıb.

Qoluna qırmızı bağlayan bir sarışın leytenant gəlib kazarmanın qabağında dayanan camaata dedi:

– Yoldaşlar, nahaq burada gözləyib vaxtınızı itirməyin, çıxın gedin evinizə, sabah səhər gələrsiniz.

Camaat donquldandı:

– Mayor gedib, indi də bunu göndərdi. Nə kələk adammış.

– O ki belə yapışıb, day bu gün əsgərləri bura buraxmayacaqlar.

Camaat narazılıqla dağılışdı. Tək-tük qalıb gözləyənlər də oldu. Rübabə arvaddan olsaydı, o da getməzi. Həmid:

– Gəlin, biz də gedəyin, gözləməyin faydası yoxdu, – dedi.

Onlar – Nurlu oğlu ilə, Həmid də anası ilə Yeddinci paralel küçəsinə, iki nömrəli tramvayın dayanacağına yollandılar. Nurlunun oğlu Fuad bayaqdan Həmidə baxırdı. Rübabə arvad sanki heç Fuadı görmürdü. O birdən əlini oğlanın kürəyinə vurdu:

– Ay Nurlu, maşallah, nə qəşəng oğlun var.



– O gün olsun sizin də nəvələriniz beləcə yanınıza düşsün, Rübabə xala.

– Eh... mən o günü görməyə ümid eləmirəm, qızım.

– Görəcəksiniz, Rübabə xala, illər elə tez gəlib keçir ki, bir də göz açıb görürsən südəmər uşaq böyüdü, instituta girdi.

– Sərvinaz xanım neynir, onu çoxdan görmürəm?

– Arvad canını sağ görmür. Oturub-durub deyir ki, bilsəydim Balağanı harda basdırıblar, Muxtara qoşulub ora gedərdim, heç olmasa, sümüklərini gətirib öz şəhərimizdə dəfn eləyərdik, gözümün qabağında olardı, cümə axşamları qəbrini ziyarət eləyərdim.

– Yazıq Balağa... Sərvinazı çox ürəyim istəyir, gərək gedib ona bir deyim.

– Nahaq gəlib-getmirsiniz, Rübabə xala, biz sizə yaxın oluruq, evimiz doğum evinin döngəsindədi.

– Mən də nasazam, qızım, gözlərim əməlli seçmir. Bu dava da araya düşdü. Elə sənin də evin kişisiz qaldı, nə sayaq dolanacaqsan?

– Çətin olacaq, day neynim, hamı necə, mən də elə. Bir az qazanıram. Beşmərtəbənin qabağındakı "Bənövşə" bağçasında işləyirəm. Sağlıq olsun, təki kişilər davadan salamat qayıtsınlar, biz burda dolanarıq.

Vağzala gedən iki nömrəli tramvay gəldi, içi dolu idi. Rübabə arvad birtəhər yer eləyib əyləşdi. Nurlu ilə Fuad qapı ağzında ayaq üstdə durdular. Həmid elə yerdə dayandı ki, tramvaya minib-düşənlər onları sıxışdırmasınlar. Nurlunun sağ çiyni Həmidin sinəsinə dirəndi. O, həya ilə qımışdı:

– Yeriniz narahat oldu, Həmid.

– Neynək, iki dayanacaqdan sonra düşürük.

İkinci paralel küçəsindəki dayanacaqda Nurlunun arxasında duran qoca düşürdü, o çəkilib kişiyə yol verəndə böyürdən itələdilər, elə oldu ki, özü də bilmədən Nurlu Həmidlə üzə-üzə dayandı. O sıxılırdı, lap Həmidin sinəsinə nəfəs alırdı. Həmid də özünü narahat hiss edirdi.

İkisi də dinməz-söyləməz dayanmışdı. Həmid öz aləmində idi. Nurlu soruşdu:

– Çoxdan day şəhərdə çıxış eləmirsiniz?

Həmidə Nurlunun yenə onunla maraqlanmasını eşitmək xoş idi.

– Qastrolda çox oluram, – dedi, – yenə gedəcəkdim, müharibə başlandı, qaldım.

– Elə bil sizin sirkdə ilk çıxışınıza dünən baxmışam. Anamla hərdən o günü xatırlayır, heyifsilənirik, bəxtəvər günlərimiz idi.
– Mən də o günü unutmuram, Nurlu, unutmayacağam da...
Fuad böyüklərin söhbətinə qulaq asırdı. Həmid həlimliklə onun qıvrım saçlarını sığalladı, oğlan dedi:
– Həmid əmi, Bakıda haçan tamaşanız olacaq?
– Gələn ay.
Özü də bilmədən Fuadın ağzından qaçdı:
– Bizə bilet göndərərsinizmi, Həmid əmi?
– Neçəsini istəsən.
– Dörd dənə. Sərvinaz nənəyə, anama, mənə, bir də Cahangirə.
– Cahangir kimdi, Fuad?
– Balaca qardaşım.
Nurlu oğlunun Həmiddən bilet xahiş eləməsindən xoşlanmadı:
– Həmid, siz zəhmət çəkib bilet göndərməyin, özümüz alarıq.
– Nə fərqi var, Nurlu, mən göndərəndə nə olar?
Sərnişinlər içəridə əyləşən Rübabənin qabağını tutmuşdular. O nə Həmidgili görürdü, nə də söhbətlərini eşidirdi. Arvad oğluna xəbərdarlıq elədi:
– Çatanda deyin, mən də vaxtında düşüm.
– Deyərəm, mömə.
Dayanacağa azacıq qalanda Təzəbağın qabağında düşmək istəyənlər qapı ağzında elə basabas elədilər ki, Nurlu ilə Fuad nədənsə qorxub analarının qucağına qısılan körpələr kimi Həmidin enli sinəsinə sığındılar. Nurlu və balası onun qolları arasında idi. Taleyin necə amansız hökmləri vardı. Bu iki nəfər ona tamamilə yad adamlar idilər, ancaq doğma ola bilərdilər... Həmid özünü ələ alıb anasını səslədi:
– Düşürük, mömə.
– Gəldim, ay bala.
Rübabə arvad ayağa qalxdı.
Nurlu indi hiss elədi ki, Həmidin sinəsinə çox sığınıb, sanki yuxudan ayıldı, tez geri çəkildi. Fuad da anasına baxıb arxasındakı kişini itələyib Həmiddən aralandı.
Tramvay Cəfər Cabbarlı küçəsində dayandı. Həmid anasını bir də çağırdı:
– Gəlirsən?
– Gəldim, ay bala.



Bir neçə cavan tələsik düşdü, çıxış boşaldı. Həmid Nurlunu və Fuadı düşürdüb anasını gözlədi. Bayırda bürkü idi, tramvay dayananda içəridə nəfəs çəkmək olmurdu, heç olmasa, hərəkət eləyəndə açıq pəncərələrdən içəri yel dolur, sərnişinləri sərinlədirdi.
Həmid anasının əlindən yapışıb düşürtdü. Nurlu ilə Fuad onları aşağıda gözləyirdilər. Basabasda Nurlunun ipək donu əzilmişdi. Elə bil təndir üstündən yenicə qalxmışdı, sifəti qıpqırmızı idi.
– İçəridə istidən bişdik.
– Hə, Rübabə xala, bu yay yamanca isti keçir, avqust da belə olsa, şəhərdə cızdağımız çıxacaq.
– Bağınız yoxdu bəyəm?
– Var. Mən tək, Muxtarsız gedib bağda qala bilmərəm, heç o həvəsim yoxdu.
Həmid, Rübabə arvad çox dil tökdülər ki, Nurlu onlara getsin, getmədi, dedi, işim var, sağlıq olsun, gələrəm. Onlar ayrıldılar. Nurlu oğlu ilə Beşmərtəbənin altındakı baqqaliyyə dükanına getdi, Həmidgil evlərinə qalxdılar. Rübabə arvad beşinci mərtəbədə olan mənzillərinə qalxıb-enəndə arada heç olmasa iki dəfə dayanıb dincini alırdı. Azarlı, ya bikef olanda bu beşmərtəbə onun gözündə on beş mərtəbə kimi görünürdü. Sanki ayaqla göyün yeddinci qatına qalxırdı. Bura təzə köçəndə pillələri birnəfəsə çıxırdı. Həmid anasının yuxarı çətin qalxdığını bilirdi. Neçə kərə ona demişdi ki, mömə, gəl səni qucağıma alıb, evə qaldırım, Rübabə razı olmamışdı: "Uşağam ki, məni qucağa alasan", – demişdi.
Rübabə oğluna:
– Sən mənə bənd olma, – dedi, – çıx, qapını aç, mən də yavaş-yavaş gəlirəm.
Həmid qapını açdı, pəncərələr də taybatay idi. O tərləmişdi, yel tutan yerdə dayanıb sərinləndi. Nurlu ilə təsadüfi görüşü qardaşının əsgər getməsini yadından çıxarmışdı. Salyan kazarmalarının uzun hasarı qabağına xeyli adam yığılmışdı. Həmid onların arasında Nurlunu görməyə də bilərdi, çox yox, onlardan onca metr aralıda dursaydı, görməyəcəkdi də. Bu, uğurlu təsadüf idi. Həmidə belə gəlirdi ki, Nurlu da bu görüşdən məmnundur. Lakin dərindən fikirləşdikcə, bu sevinc Həmidə mənasız görünürdü. "Məndən soruşan yoxdu ki, nə üçün belə sevinirsən, bu görüşlər sənə nə verir?! Bu ona bənzəyir ki, mən odu söndürüb, təsəlli olmaq üçün küllə oynayıram..."

Rübabə arvad tövşüyə-tövşüyə içəri girdi, özünü divanın üstünə salıb kəlağayısını başından açdı:

– Qəbir evinə kimi deyəcəyəm, ay Həmid, Nurlu ilə evlənməməkdə böyük səhv elədin. Maşallah-namxuda, gör nə cuvanəzən olub, adam bir dəfə baxmaqla gözü doymur. Ağıl-kamal, boy-buxun hamısı var. Səni də istəyirdi...

Həmid bir neçə ilin ərzində birinci dəfə anasının yanında səhvini etiraf etdi:

– O zaman mən başısoyuqluq elədim, mömə, günahım böyükdü.

Rübabə arvad əli ilə üzünü yelləyə-yelləyə ah çəkdi:

– Mən bu günü qabaqcadan görürdüm. Köhnə kişilər bica yerə deməyiblər ki, böyüyün sözünə baxmayan böyürə-böyürə qalar.

– Buna görə mən tənbeh olunmalıyam.

Həmid tənbeh olunmasını dilinə indi gətirsə də, əslində o çoxdan tənbeh olunmuşdu, nə vaxt idi ki, cəzasını çəkirdi. Rübabə arvad oğlunun etirafını eşidəndə pis oldu. O, Həmidin Nurlunu əldən vermesinə belə peşman olmasını bilmirdi. Arvad araya söz qatdı ki, Nurlunu Həmidin yadından çıxartsın:

– Sabah ora gedəndə gərək hələm-hələbət Mikayılı Muxtara tapşıraq.

– Mən Muxtarla tanış deyiləm, onu uzaqdan-uzağa görmüşəm.

– Neynək, Nurlu gələcək, deyərik, onları tanış eləyər.

Rübabə arvad mətbəxə keçdi görsün sabah Mikayıla nə bişirib apara bilər. Həmidin gözü divardan asılan şüşəli çərçivəyə salınmış afişaya dikilmişdi. Bu, onun sirkdəki ilk çıxışının afişası idi. Ondan sonra Həmidin müxtəlif dillərdə bundan çox yaraşıqlı onlarla afişası çıxmışdı. Lakin bu afişa Həmidə təkcə ilk afişası kimi əziz deyildi. Onu muştuluq kimi Balağa mətbəədən götürüb onlara gətirmişdi. Həm də o tamaşada Nurlu birinci sırada əyləşib Həmidə əl çalmışdı.

## XXIV

Rübabə arvadın gözlərinə qara su gəlmişdi. Yaxşı görmürdü. İki aydı ki, Bakının tanınmış göz həkimləri, professorları baxırdılar, xəstəxanada müalicə olunurdu, ancaq yarı canı cəbhədə olan Mikayılın və evdə baxımsız qalan Həmidlə İsmayılın yanında idi. Gözləri görsəydi, xəstəxanada bircə gün də qalmazdı. Bir cəhət də vardı ki, evə getsəydi, ona da baxan, qulluq eləyən lazım idi?



Anasının başına bu qəza gələni Həmid başqa şəhərlərə qastrola getməkdən imtina eləmişdi. Bakıda hərbi hospitallarda yaralıların qarşısında, klublarda çıxış edirdi. İsmayıl düşüb qalmışdı mədəndə, həftədə bir dəfə evə çimməyə, paltarını dəyişməyə gəlirdi. Mikayıldan tez-tez məktub alırdılar. Həmid onları aparıb xəstəxanada anasına oxuyurdu. Mikayıl ali təhsillilər üçün qısamüddətli vzvod komandirləri kursunu bitirmişdi. Muxtar da, o da bir batalyonda ayrı-ayrı rotalarda vzvod komandirləri idilər. Orada dostlaşmışdılar, hətta bir yerdə şəkil çəkdirib göndərmişdilər. Nurlu əlində şəkil Rübabənin yanına gəlmişdi ki, arvada oğlundan xoş xəbər versin, görmüşdü ki, həmin şəklin birini də Mikayıl evlərinə göndərib. Bu gündən Nurlu onlara ayaq açmışdı. Sonra da neçə dəfə Rübabə arvadın yanına gəlmişdi. Həmid evdə olmamışdı.

Bazar ertəsi idi. Bayırda narın, sulu qar yağırdı. Həmid üzünü qırxırdı, xəstəxanaya – anasına dəyməyə gedəcəkdi. O, ülgücü, fırçanı silib yığışdıranda qapının zəngi çalındı, gedib açdı. Nurlunu görəndə sevindi:

– Xoş gəlmisən, Nurlu!

– Sağ ol.

Nurlu içəri keçdi. Boynu, qollarının ağzı xəzli paltosunun yaxasında, çiynində ərimiş qar dənələri narın şüşə qırıntısı kimi parıldayırdı. Ayağında qara boti, başında ağ yun şal vardı. Soyuqdan çöhrəsinə qızartı çökmüşdü.

– Soyun, Nurlu.

Nurlu üstünün qarını kənardakı şəlpəyə çırpıb soyundu. Həmid onun paltosunu alıb asqının qarmağına taxdı. Qonağı otağa dəvət eləyəndə yadına düşdü ki, tək olmasını ona deməyib.

– Anam xəstəxanadadı.

– Rübabə xalaya nə olub?

– Arvad oturduğu yerdə gözləri tutulub.

Nurlu heyifsilənə-heyifsilənə otağa keçdi, divar dibində dayanıb Həmidin ona yer göstərməsini gözlədi. Həmid şadlığından özünü itirmişdi. Nurlu innabı rəngli jaketinin yan cibindən bir üçkünc əsgər məktubu çıxartdı.

– Gəlmişdim Rübabə xalaya şad xəbər verməyə, – dedi, – bu gün Muxtardan məktub almışam. Yazır ki, Mikayılın komandir olduğu vzvod Tula şəhəri uğrunda gedən döyüşlərdə mərdlik göstərdi. Onu

"Qırmızı bayraq" ordeni ilə təltif eləyiblər. – Nurlu məktubu Həmidə uzatdı. – İstəyirsən, al, oxu.

Həmid məktubu aldı, Nurlunun qolundan tutub divanda oturtdu, özü də onun yanındakı stulda əyləşdi və kağızı oxumağa başladı:

"Mənim əziz və sevimli Nurlum, heç yadımdan çıxmırsan. Səkkiz aya yaxındır ki, ayrılmışıq, amma elə bil səkkiz ildir səni, balalarımı görmürəm".

Özgəsinin məktubunu oxumaq yaxşı deyildi. Həmid Mikayıldan danışılan yerləri axtardı. Ondan lap axırda yazılmışdı. Muxtar Mikayılı arvadına tərifləyirdi. "Qardaşı Həmidlə tanış deyiləm, bilmirəm necə adamdır, ancaq Mikayılın yoldaşlıqda misli-bərabəri yoxdur, olduqca mehriban, qayğıkeş oğlandır. Mən onunla bir yerdə döyüşməyimə şadam".

Həmid məktubda öz adını görüb maraqlandı görsün onun barəsində Muxtar daha nə yazır, heç nə tapmadı. Məktub bu sözlərlə qurtarırdı: "Bizimkilər faşistlərin qabağını saxlayıblar, irəliləməyə qoymurlar. Tezliklə onların başlarını əzəcəyik. Bu ayrılıq uzun sürməyəcək. Həsrətlə səni öpürəm, mənim heç zaman nuru üstümdən əskik olmayan Nurlum. Sənin Muxtarın. 17 fevral 1942-ci il".

Həmid fikirləşdi: "Muxtar arvadını çox istəyir. Niyə də istəməsin? Nurlu elə bir qadındı ki, onu yarımçıq sevmək olmaz". Həmid məktubu qatlayanda düşündü, bəlkə, Nurlu qəsdən ərinin məktubunu oxumağa verib ki, Muxtarın onu necə çox istəməsini bildirsin. Dərhal da özünü qınadı: "Bəlkə də, heç Nurlu bunu ağlına gətirməyib. O bizə gələndə hardan bilirdi ki, anam evdə yoxdu, məni tək görəcək və bu məktubu oxumağa verəcək. Bu bir təsadüfdü, o, Mikayıldan yazılanları oxuyub, şad olmağımçün mənə verdi, nahaq bu fikrə düşürəm".

Məktubu Nurluya qaytardı:

– Şad xəbərçün sağ ol.

– Mən də Mikayılın orden almasına sevinirəm, Həmid. O elə uşaqlıqdan atıb-vuran, cəsarətli oğlan idi.

– Anam bunu eşitsə, sevinəcək.

– Rübabə xala hansı palatada yatır, mən onun yanına getmək istəyirəm.

– Yeddinci palatada.



Nurlu ayağa qalxdı:

– Mən gedim, işdən çıxıb bura gəlmişəm, yenə ora qayıtmalıyam, birdən soruşub-eləyən olar. Həm də Rübabə xala evdə yoxdu, ürəyim onu istəyirdi.

– Rübabə xala evdə olmayanda nə olar, mən ki burdayam.

– Biz qadınıq, Rübabə xala ilə söhbətimiz tutur. Bir də məni burda görüb-eləyən olar. Yad, subay kişi ilə bir yerdə olmağımdan söz çıxararlar.

Həmid həsrətlə dedi:

– Nurlu, sən indi daha gözəl olmusan.

Nurlu gülümsündü:

– Mənə kompliment deyirsən?

– Yox, Nurlu, həqiqi sözümdü, komplimento ehtiyacın yoxdu.

Nurlu qayğı ilə soruşdu:

– Nə üçün evlənmirsən? O gün də bunu səndən xəbər aldım. Qocalmağını bəhanə elədin. Kaş bütün qocalar sənin təkin olaydı.

– Evlənməməyimin səbəbini bilmirsən?

Nurlu başını tərpətdi. Həmid peşmanlıqla dedi:

– Təqsir məndə oldu, ləng tərpəndim. Ancaq sən ərə getməyə tələsdin.

Nurlu daha Həmidə baxmırdı, o qeyri-ixtiyari yenə divanda əyləşdi. Gözünü stolun üstünə salınmış güllü müşəmbəyə dikmişdi, sanki orada hansı naxışısa qaralamışdı, ehtiyat edirdi ki, üzünü yana çevirsə, onu itirər.

– Yox, Həmid, mən tələsmədim, nə üçün yaramı təzələyirsən?! – Köks ötürdü. – Bütün günah səndə oldu. Nə gizlədim, bilirdim ki, məni sevirsən. Səni özümə ən yaxın adam sanırdım, odu ki, gəlib sənə dedim məni istəyirlər. Təsəvvürünə də gətirmirsən ki, qızın gedib oğlana belə bir söz deməsi nə qədər çətin və əskiklikdi. Mən sevgim naminə ona da getdim. – Nurlu qəhərləndi. – Sən laqeydlik göstərdin. Mən axmaq elə xəyal edirdim ki, anamın məni başqasına ərə verməyini eşitsən, özündən çıxacaq, elə o axşam bizə elçi göndərəcəksən. Ancaq sənin halına təfavüt eləmədi, mənə məsləhətin bu oldu: "ürəyin sənə nə deyirsə, o cür də elə". Qəzəbdən o gecə kirpiklərim qovuşmadı. Məni istəyənlərin içində Muxtar o birilərindən xeyli fərqlənirdi. Səhər anama dedim ki, Muxtara getməyə razıyam.

Həmid özü ilə danışırmış kimi pıçıldadı:

– Səni qınamıram, Nurlu! Sənin yerinə ayrı qız da olsaydı belə eləyərdi. Günah özümdə oldu. Özü yıxılan ağlamaz. Mən buna şadam ki, ərin səni çox istəyir, mehriban, qədirbilən adamdı.

Nurlu heyrət elədi:

– Hardan bilirsən?

– Bayaq sənin mənə verdiyin məktubdan.

– Həqiqətən, Muxtar gözəl insandı.

– Sevinirəm ki, heç olmasa sən özünə yaxşı ailə qurmusan.

– Həyatımdan şikayətlənmirəm, ərim evcanlıdı, iki oğlum var, birini o gün kazarmadan gələndə gördün. Firavan dolanırdıq. Dava hər şeyi pozdu, neynəmək olar, camaat necə, mən də elə.

Həmid istəməsə də bəxtindən şikayətləndi:

– Mənimki gətirmədi, Nurlu. Təbiətin qanunu belədi: dəyən meyvə vaxtında dərilmədi, yerə tökülüb çürüyür.

– Bu bənzətməylə razılaşmayacağam, Həmid. Əgər yerə tökülən meyvəni tez yığsalar, çürüməz. Yenə də gec deyil, sən istəsən özünə ailə qura bilərsən, arvadın da olar, uşaqların da. Yeri gəlmişkən qoy deyim, mən eşitmişəm ki, sən hardasa, başqa şəhərdə arvad saxlayırsan, ondan bir oğlun da var. Anandan çəkinib onu Bakıya gətirmirsən, Rübabə xala ayrı millətlə evlənməyinin əleyhinədi.

Həmid əllərini saçlarına aparıb başını qaşıdı və ah çəkdi.

– Eh, Nurlu, Nurlu, sən də o ara arvadlarının uydurmalarına inanırsan?!

– Mən inanmıram, ancaq inananlar çoxdur. Sən o şayiələrə son qoymaqçün evlənməlisən.

Həmid Nurludan imdad diləyirmiş kimi yalvarıcı ifadə ilə dedi:

– Başqasını sevə bilmirəm, Nurlu. Sevmədən də evlənməyin nə mənası?! Mən onunla yaşaya bilmərəm, günahsız bir qadını alıb bədbəxt eləməyi rəva görmürəm.

– Yazıq Həmid...

Həmid Nurlunun bu iki kəlmə sözündə o qədər qayğı və mərhəmət duydu ki, az qaldı qalxsın, onu bağrına basıb, dodaqlarından öpsün. Bir anın içində hər şeyi unutdu, unutdu ki, Nurlu ayrısının arvadıdır, aralarında keçilməz bir sədd var. Qollarını açıb Nurlunu qucaqlamaq istəyəndə sanki qüvvətli bir əl onun biləyindən yapışıb saxladı. Nurlu elə bil Həmidin xəyalından keçənləri duymuşdu, ondan qorxurdu. Nəfəsini çəkib oturmuşdu. Həmid özünü ələ aldı və qalxıb otaqda gəzindi. Nurlu da durdu:



– Çox oturdum, Həmid, mən gedirəm.

– Gedirsən?! Yəqin bizə gəlməyinə peşmansan, gəlib mənim şikayətlərimi eşitdin, qanın qaraldı.

– Qanım qaralsa da, gec-tez biz səninlə belə bir söhbət eləməliydik. Nigarandım. İndi bəzi şeylər mənə aydın oldu. Mən kazarmadan qayıdan günü sənə dediyim sözün dalından qaçmıram.

Həmid ha fikirləşdi, Nurlunun kazarmadan qayıdan günü dediyi o sözü xatırlaya bilmədi.

– Hansı söz?

– Həmid, o vaxt demişəm, yenə də deyirəm, mən qabağa düşüb evlənmək işində sənə kömək eləyə bilərəm.

Həmid Nurlunu birinci dəfə görürmüş kimi üzünə xeyli baxdı. Sanki onun sir-sifətində bir eyib, əyər-əskik tapmaq istəyirdi. Nurlu sıxıldı, saçlarını sığallamaq bəhanəsilə üzünü yan çevirdi.

– Nurlu, qayğınçün çox sağ ol. İndi davadı, nə evlənmək?! Daha vacib işlər var.

– Düz demirsən, Həmid, məyər insanlar davada sevmirlər, evlənmirlər, bu nə sözdü?

– Sevirlər. Mən o barədə düşünmürəm.

– Nahaq yerə.

Nurlu Həmidi qınasa da, ürəyində ona haqq qazandırırdı: "Görünür o məni mən bildiyimdən çox istəyir..." Nurlu Muxtarla evləndiyi ilk ayları xatırladı. Əvvəllər heç Həmid onun gözləri qabağından getmir, fikrindən çıxmırdı. Xəlvətə çəkilib ağladığı günlər də olurdu. İsti-isti Nurlu Həmidin nə üçün onunla evlənmək istəməməsini belə yozmuşdu. "Nə olsun ki, mən Həmidin xoşuna gəlirəm, o ki məni ürəkdən sevmir. Sevsəydi, belə eləməzdi, yəqin ayrı gözaltısı var, qızın işi ayrıdı. Görünür oğlançün evlənməyə qızdan xoşu gəlmək hələ azdı. Oğlan sərbəstdi, onun hər hərəkətindən pis məna çıxarmırlar, istədiyi qıza yanaşıb ürəyini açır, biri onu rədd eləyirsə, ikincisinə söz deməyi özünə ar sanmır. Qız belə eləyə bilməz".

Nurlunun gözü Həmidin dalınca qalsa da, bir çox qadınlar kimi taleyinin hökmü ilə barışmış, Muxtardan nəcib, insani sifətlər görüb mehrini ona salıb sevmişdi. Uşaqları olandan sonra ailələri lap möhkəmlənmişdi.

Nurlu indi Həmiddən o, başqasına ərə getdiyi üçün evlənmədiyini, bu çağa kimi subay qaldığını eşidəndə o vaxt onun barəsində haqsız nəticə çıxarmasına peşman idi.

Əvvəlcə evə getməyə tələssə də, Nurlu iki saata yaxın idi ki, Həmidgildə idi. Heç hiss eləməmişdi ki, vaxt haçan gəlib gedib.

Nurlunun gözü otağın küncündəki bədənnüma güzgüyə sataşanda hürkən kimi oldu. Həyəcandan çöhrəsi lalətəkin idi. Bu halda pillələkəndə kim onu görsəydi, şübhəyə düşərdi. O, Həmidə dedi:

– İcazə versən, əl-üzümü yuyaram.

– Əlbəttə, – Həmid hamamxananın işığını yandırdı, – buyur!

Nurlu üzünə bir-iki ovuc su vurdu. Kranın üstünə bərkidilmiş xırdaca güzgüdə çöhrəsinə baxdı, allığı keçirdi. Həmid öz fikirləri, düşüncələri ilə idi, Nurlunun nədən ötrü üzünü yumasının mahiyyətinə varmadı. Qonaq əl çantasından darağını götürüb saçlarına sığal verdi və dəhlizə çıxdı. Həmid orada onu gözləyirdi.

– Mən getdim.

– Sənin burda çox qalmağın mənə xoşdu, neynim, artıq saxlamağa da haqqım yoxdu.

Nurlu qapı ağzındakı asqıya tərəf getdi ki, paltosunu götürsün. Həmid cəld tərpənib onu qabaqladı, paltosunu tutdu, Nurlu geyindi. Həmid qabağa keçdi ki, qapının kilidini açsın, nəfəsləri bir-birinə qarışdı. Onun ürəyindən keçdi, heç olmasa ömründə bircə dəfə Nurlunu öpsün, bir də gördü ki, dodaqları Nurlunun isti dodaqlarına yapışıb. Nurlu diksindi, tələsik qapını açıb çıxdı. Həmid sanki kefli idi, ayıldı, cəld bayıra çıxıb pillələri düşən Nurludan üzr istədi:

– Məni bağışla, Nurlu, bağışla...

Həmid bilmədi ki, qonşuların eşitməməsi üçün astadan dediyi bu sözləri Nurlu eşitdi, ya yox, nigaran qaldı. İrəli keçib peşmanlıqla qapını örtdü: "Nöşün belə elədim?!"

* * *

Həmid yığışıb göz xəstəxanasına getdi, Mikayılın sağ-salamat olmasını, orden almasını anasına deyib onu sevindirdi. Rübabə də bu gün ona bir professorun baxdığını və gözlərinin sağalacağını vəd eləməsini xəbər verdi. Həmid oradan evə kefikök qayıdanda, yolda – Bakı Sovetinin qabağında onu çağırdılar. Səsi dərhal tanıdı. Davud idi, neçə il idi ki, onu görmürdü, bilmirdi haradadır, nə sayaq dolanır.



– Həmid, salam, əməlisaleh adamsan, dünəndən ürəyimdən keçirdin, sabah fronta gedirəm, fikirləşirdim ki, necə eləyim Həmidlə halallaşıb gedim, davadı ölüm-itim var, bəlkə görüşmədik, sən məndən incimisən, gəl barışaq.

Həmid o vaxt Balağaya görə Davuddan incimişdi. Sonra hirsi yatmış, qəzəbi soyumuşdu. Köhnə yoldaşı ilə barışmaq istəyirdi. Yaxşı oldu ki, Davuda rast gəldi. Mehribanlıq elədi:

– Salam, Davud, necəsən?

– Sağlığına, babat dolanırdım.

Yolun ortasında dayanmışdılar, küçədən gəlib-keçənlərə mane olurdular. Davud özünəxas istiqanlıqla Həmidin qoluna girib onu divar dibinə çəkdi.

– Rübabə xala, Mikayıl, İsmayıl nə sayaqdır, yəqin indi ikisi də böyük oğlan olublar, küçədə rast gəlsəm, heç tanımaram. Sənin oğuldan, qızdan nəyin var?

Həmid ona anasından, qardaşlarından danışdı. Özünün hələ də subay olmasını deyəndə Davud fikrə getdi. O vaxt Həmidin Balağanın qızını istəməsi yadına düşdü. Qızın özgəsinə ərə getməsini kimdənsə eşitmişdi. Balağadan xəbəri yox idi. Davud Həmiddən nə üçün subay qalmasının səbəbini soruşmadı. Həmid özü də ona bu barədə bir kəlmə demədi. Davud xəbər aldı:

– Balağa qayıtmadı?

– O bədbəxt oğlunun ipini elə dolaşdırmadılar ki, aça bilsin.

Həmid Salyana, Cəlil Əkbərovun yanına getməsindən, Balağanın başına gələn müsibətdən danışdı. Davud coşdu:

– Çopur Abdulla köpəkoğlu atmaralı idi. Mən onu çapçıların klubunda cavan pəlvanlar güləşən gün gördüm, görən kimi də dedim dəyyusdu, bunun əlindən nə əclaflıq desən, gələr. Mən sənin yerinə olsaydım, Həştərxandan qayıdan kimi onun yaxasından yapışıb çəkərdim sözü keçən beş kişinin yanına, dişimin dibindən çıxanı deyərdim. Artıq-əskik danışsaydı, yumruğu vurardım ağzına, Allaha şükür, güc səndə.

– Bu dəfə day o əlimə keçsə, sağ çıxmaz.

– Hardan tapacaqsan, nə bilirsən qazamatdan haçan qayıdacaq. O, dəryada balıq sövdasına oxşayır. Xülasə, Çopur Abdullanın Balağanı güdaza verməsi bir yana qalsın, ailəsinə də ləkə vurdu.

– Balağanın ailəsi az əziyyət çəkmədi.

Davud özündən danışıb, Bakı Sovetinin böyründəki İçərişəhər qapısına işarə elədi:

– Ora, qohum-əqrəba ilə vidalaşmağa getmişdim, axı mənim ana tərəfim İçərişəhərdəndi. Dayım, xalalarım, onların uşaqlarının çoxu indi orda olurlar. Cavanlarımızın hamısı frontdadı, indi də məni çağırıblar.

– Böyük oğlun hardadı, Davud?

– Murad voyenni lyotçikdi, burda aviokluba yazılmışdı. Əsgər aparan kimi lyotçik oldu, "Qırmızı ulduz" ordeni, "İgidliyə görə" medalı da var, o birilər kiçikdirlər, məktəbə gedirlər. Müsürmanın nəyi olmasa da, oğul-uşağı bol olur, mənimki də sağlığından beşdi, üçü qız, ikisi oğlan.

– Maşallah, maşallah, böyük külfətsən ki...

– Səkkiz başıq.

– Bəs bu bahalıqda onlar sənsiz nə cür dolanacaqlar?

– Hökumət çörək, produkt kartoçkaları verəcək. Mənə görə onlara voyenkomatdan kömək eləyəcəklər. Murad da hər ay məvacibini evə yollayır, frontda pul onun nəyinə gərəkdi. Uşaqlar birtəhər dolanarlar, sağlıq olsun.

– Yaxşı yol, Davud, get. Mən də tezliklə gəlirəm sənin dalınca.

– Səni də əsgər aparırlar, nöşün? Balam, səníntəki lazımlı adamlara bron verib arxada saxlayırlar ki. Bəs sənə nədən ötrü vermirlər ondan?

– Mənə də bron veriblər, Davud. Özüm day qalmaq istəmirəm, anamın xəstəxanadan çıxmasını gözləyirəm. O çıxan kimi mən də gedirəm.

Davud birini bilirdi, o birini yox. Həmid ona hamısını demədi. Demədi ki, hər dəfə Bakının hospitallarında tayqol, tayqıç, əlləri gipsin içində boynundan asılan yaralı əsgərlərin qarşısında çıxış eləmək çox ağırdır. O, ikipudluqları havaya atıb sinəsini qabağa verəndə səhnəyə dikilən baxışlardan istehza oxuyurdu, sanki ona deyirdilər, hörmətli Xələfov, burada, arxada gözəl, sakit binalarda sinəni daşın qabağına vermək, dəmir çubuğu biləyə sarımaq nə böyük qəhrəmanlıq imiş, hünərin varsa, cəbhəyə get.

Hərbi hospitallarda Həmidi hərarətlə qarşılayır, alqışlayır, hörmətlə yola salırdılar. Oralarda Həmidə toxunan bir söz deməmişdilər. Ancaq keçən ay Rübabə arvad rayon icraiyyə komitəsinə çörək və



ərzaq kartoçkaları almağa getmişdi, evə qayıdanda çırtma vursaydın, qanı çıxmazdı. Həmidə Bakı Sovetinin qərarı ilə ağırlıqqaldıran olduğu üçün iki kartoçka verirdilər, camaata kartoçka paylayan cavan qadın Rübabə arvadı acılamışdı: "Buna bir bax e... – demişdi, – bığıburma oğlu arxada qalıb, camaatın ərləri, oğulları gedib frontda vuruşur, bunun davaya getməməsi bir yana dursun, elə bil göydən zənbillə düşüb, iki kartoçka alır..." Rübabə söz altında qalan deyildi, necə lazımdısa kartoçka paylayan cavan qadının cavabını vermişdi, ancaq evə gələndə hirsi soyumamışdı. Axşam Həmid anasını bikef görüb səbəbini soruşdu. Rübabə demədi, oğlu dayısı Turabın goruna and verəndə, həqiqəti gizlədə bilmədi. Həmid də əvvəlcə kartoçka paylayana qəzəbləndi, dərindən düşünəndə üzünü görmədiyi o cavan qadına haqq qazandırdı.

Hava soyuq olsa da, Həmidlə Davud küçədə çox dayanıb söhbət elədilər, ayrılanda qucaqlaşıb öpüşdülər.

## XXV

Orduya getməsindən iki aydan artıq keçsə də, Həmid cəmi on gün idi ki, cəbhəyə – ön xəttə gəlmişdi. Onların atıcılıq diviziyası Cənub-Qərb cəbhəsinin ən qızğın döyüşlər gedən sahəsində – Xarkov istiqamətində müdafiə mövqeyi tutan birləşmənin tərkibində idi.

Orduya gəlməmişdən Həmid elə zənn edirdi ki, cəbhədə onun təkin güclü kişilərə daha çox ehtiyac var. Xahiş eləmişdi, onu piyada hissəsinə göndərmişdilər. Bilirdi ki, piyadalar döyüşdə hərdən düşmənlə süngü-süngüyə gəlir, səngərdən çıxıb əlbəyaxa vuruşur. Həmid özünə arxayın idi. Təkbətək döyüşdə faşistlərin beşinə can verməzdi. Ancaq cəmi bircə kərə – ön xəttə gəldiyinin üçüncü günü süngü döyüşündə iştirak eləmişdi.

O, cəbhəyə necə düşməsini heç kəsə danışmamışdı. Əmin idi ki, yoldaşlarından biri də buraya onun kimi çətinliklə gəlməyib.

Həmid respublika hərbi komissarı Ağaəmi İsmayılova ərizə verəndən sonra xeyli gözlədi, ondan bir cavab çıxmadı, komissarlığa getdi, şöbədə dedilər ki, xahişiniz qəbul olunmayıb. Bu barədə sizə məktub göndərib xəbər verəcəkdik, yaxşı ki özünüz gəlmisiniz. Həmid aram olmadı. Evə gəlib respublika Ali Sovetinin sədri Mirbəşir Qasımova bir tutarlı ərizə yazdı. Səhərisi onu yola salıb gələndə poçt

qutularında kağız gördü. Qardaşı Mikayıldan gəlməsini ümid eləyib çıxartdı. Məktub anasına göndərilmişdi. Onu yazan Matveyev familiyalı birisi idi. Həmid belə bir kişini tanımırdı. İntizar içində kağızı açıb oxudu. Hissə komandiri polkovnik Matveyev məktubda leytenant Mikayıl Xələfovun Tula vilayətinin azad edilməsində mərdliklə vuruşub həlak olmasını bildirir, onların ailəsinə bu böyük itkiyə görə komandanlıq adından başsağlığı verirdi. "Ваш сын лейтенант Михаил Халафов пал смертью храбрых 31 декабря 1941 года в бою за освобождение города Белева от немецко-фашистских захватчиков. Выражаю свое соболезнование..."

O gün Həmid Çənbərəkəndindəki göz xəstəxanasına, anasına dəyməyə gedəcəkdi, getmədi. Qardaşının ölüm xəbəri onu elə sarsıtmışdı ki, qorxdu orda dərdini büruzə verər. Rübabə arif arvad idi, belə hadisəni heç cür ondan gizlətmək mümkün deyildi.

Həmid yaylığını dolan gözlərinə basdı. Mikayıl yox idi. O, bir daha bu qapıdan içəri girməyəcəkdi...

Mikayılı Salyan kazarmalarından yola salması Həmidin yadına düşdü. Onda haradan biləydi ki, o görüş son görüşləri olacaq?! Ayrılıq yaman dərddi. İstəkli adamdan ayrılmaq isə daha böyük dərddir.

Həmidin fikrinə gəldi ki, Muxtar Mikayılın ölümünü evə, arvadına yazmamış olmaz. "Nurlu bunu bilər. Özü gəlib bizə demir. Övladın qara xəbərini gəlib onun ata-anasına demək çox çətin işdi".

O, Mikayılın ölümünü anasından gizlətdi. Ertəsi gün xəstəxanaya gedəndə özünü elə apardı ki, guya heç nə olmayıb, hər şey əvvəlki qaydasındadır. Rübabə arvada dedi: "Mikayıldan kağız gəlib, sağ-salamatdı, hamımıza salam-dua göndərir". Rübabə Həmidə dönə-dönə tapşırmışdı: "Nəbadə mənim balnitsada yatdığımı Mikayıla yazasan". Yenə də ondan soruşdu: "Çaşıb anası ölmüşümə mənim gözlərimin işıqdan düşməsini yazıb-eləməmisən ki? Bilsə, odun-alovun içində uşaq fikir eləyər". Həmid dedi: "Nə danışırsan, ay mömə, elə işi cəbhəyə yazarlar?"

Rübabə xəstəxanada çox yatmadı. Gözləri babatlaşan kimi xahiş elədi onu buraxsınlar, həkimlərin yazdıqları dava-dərmanı içib müalicəsini evdə davam etdirər. İzn verdilər.

Mikayılın ölümü hər şeyi Həmidin yadından çıxartmışdı. O indi cəbhəyə getməyə daha inadla çalışırdı. Yaxşı ki, Ali Sovetə yazdığı ərizənin cavabı o istəyən kimi oldu. Rayonlarının hərbi komissarı



onu çağırıb dedi: "Xələfov axır ki siz deyən oldu, hazırlaşın, bir-iki günə sizi cəbhəyə göndəririk".

On gün idi ki, Rübabə xəstəxanadan çıxmışdı. İsmayıl bütün həftəni mədəndə olurdu. Qarını tək, köməksiz qoymaq olmazdı. Həmid komissardan on gün möhlət aldı. Həm də cəbhəyə könüllü getdiyini anasından gizlətdi. Dedi ki, bronun vaxtı qurtarıb, daha uzatmırlar. Məni də ayrıları kimi əsgər aparırlar. Qardaşı İsmayıldan başqa, heç kəs Həmidin brondan imtina etdiyini bilmədi. İki qardaş Mikayılın cəbhədə həlak olmasını hamıdan gizli saxladı. Bu elə bir xəbər idi ki, başqaları bilsəydi, biri çaşıb ağzından qaçırsaydı, bəs idi. Dərhal qonşular, qohumlar arasında yayılacaqdı və gec-tez gəlib çatacaqdı Rübabənin qulağına. Onlar bəri başdan ehtiyatla tərpəndilər.

Rübabənin gözləri əvvəl kimi kimi olmasa da, tədricən sağalırdı, evdə yavaş-yavaş iş görməyə, yır-yığış eləməyə başladı. O, canının qədrini bilən idi. Həkimlərin təyin elədikləri dərmanlardan içməlisini içdi, gözünə tökülməsini vaxtı-vaxtında gözünə damcılatdı. Həmid günlərin bir günündə anası və qardaşı ilə vidalaşıb cəbhəyə getdi.

Həmid əsgərlikdə peşəkar daşoynadan olduğunu gizlətdi. Ondan soruşanda "Arxada nəçi olmusan?", deyirdi ki, Bakı Filarmoniyasında estrada dəstəsinin inzibatçısı idim. Həmidin qorxduğu bu idi ki, hissədə daşoynadan olmasını bilsələr, onu arxada saxlayıb, ora-bura əsgərlərin qarşısında çıxış eləməyə göndərərlər. O vuruşmaq istəyirdi. Əsgərlərin qarşısında çıxış eləmək olsaydı, daha ərizə yazıb xahiş niyə eləyirdi onu cəbhəyə göndərsinlər, elə Bakıda qalıb şəhərin hərbi xəstəxanalarında çıxış eləyərdi. Naxoş anasını evdə tək qoyub bura gəlməzdi.

Borvenkov dirsəyindən hücum eləyən Cənub-Qərb cəbhəsinin zərbə dəstəsi düşmənin müqavimətini qırıb neçə kilometr irəliləmiş, gəlib bir yaşayış məntəqəsinin sağ cinahında müdafiə mövqeyi tutmuşdu. Faşistlər Cənub-Qərb cəbhəsinin zərbə dəstəsinin qəfil əks-hücumundan çaş-baş olub geri çəkilsələr də, tez də özlərinə gəlib bizimkilərin qabağını saxlayıb, əldən verdikləri mövqelərini almaqdan ötrü hücuma hazırlaşırdılar. Onlar dünəndən bizimkiləri ardı-arası kəsilmədən top, mina atəşinə tutur, gərgin vəziyyətdə saxlayıb imkan vermirdilər ki, yerlərini möhkəmlətsinlər.

Gecənin qaranlığında piyadalar, topçular, daldalanmaq üçün səngər, xəndək qazmış, rabitəçilər qərargahla əlaqə saxlamaqdan ötrü başlarına mərmi qəlpələri yağa-yağa telefon xətti çəkmişdilər.

Göyə atılan fişənglər yeri işıqlandırır, faşist topçuları bizimkilərə tez-tez atəş açır, işləməyə qoymurdular.

Yay idi, hava tez işıqlanırdı. Gündüz güclü atəş altında işləmək mümkün deyildi. Səhər açılana qədər bizimkilər yerlərini möhkəmlətməli idilər.

Alman komandanlığı belə bir məqsəd güdürdü: bizimkiləri gərgin vəziyyətdə saxlayıb, yerlərini bərkitməyə qoymasınlar, bunun dalınca əks-hücuma keçsinlər.

Düşmən təyyarələri dəstə-dəstə qoşunlarımızın arxasına uçur, ikinci eşelonda duran hissələri bombalamağa cəhd göstərirdilər.

Həmidgilin səngərləri dərin idi. İçində ayaq üstündə duranda başlarını azacıq əyirdilər ki, bayırdan görünməsinlər. Otdeleniya bütün gecəni əlləşib səngər qazmışdı. Həmid hamıdan artıq işləmişdi. Gənclikdə atası Murtuzdan öyrəndiyi quyu qazmaq peşəsi burada əlindən tutmuşdu. On nəfərlik səngərin bir qolunu o, təkbaşına qazmışdı. Ancaq bir belin sapını sındırıb, yoldaşından aldığı ikinci belə daha güc gəlməmişdi, ehtiyatlı olmuşdu. Sivri şəkildə qazılmış dar səngərdə durub atəş açmaq rahat idi. Pulemyot üçün də yöndəmli yer düzəltmişdilər. Patron qutuları əl-ayağa dolaşmamaq üçün, onlardan ötrü taxça ovmuşdular.

Döyüşçülər səngərdə daldalanmışdılar. Mərmilər gah onların qabağında, gah arxalarında, gah da cinahlara düşüb partlayırdı. Çarpanaqlar vıyıltı ilə başları üstündən ötüb keçirdi. Bizim toplar da düşmənin mövqeyinə atəş açırdı. Ancaq onların atəşi elə güclü deyildi.

Səngərin pilləsindəki alüminium qazança diyirlənib içəri düşdü, qazançada içmək üçün döyüşçülərin ehtiyat suyu vardı. Çarpanaq onun böyrünü əzib deşmişdi. Qazança diyirlənib yefreytor İvan Tkaçın uzunboğaz ayaqqabısına dirənib dayandı. Onun içində qalan üç-dörd damcı su torpağa axdı. Qəzəblənən Tkaç qazançanı götürüb hitlerçilərə sarı vızıldatdı:

– Əclaflar!

Otdeleniya komandiri Vasili Çiqrinov dönüb mənalı-mənalı yefreytora baxdı:

– Acığını qazançadan niyə çıxırsan?



– Neynim, ay serjant, bizimkilər patrona, mərmiyə qənaət eləyirlər, bizə deyirlər ki, çox işlətməyin. Almanlar su kimi işlədirlər, elə bil zavod böyürlərindədi, onları güllə-mərmi sarıdan korluq çəkməyə qoymur.

– Varlığa nə darlıq, bu köpək uşağının topları, tankları, təyyarələri də bizimkindən çoxdu, bizim də bu qədər silahımız olsaydı, nə vardı ki...

Həmidin gözü odlu-odlu danışan, ürəyindəki həmişə dilinin ucunda olan İvan Tkaçda qalmışdı. O bu rotaya təyin olunan günü Tkaçla ilk dəfə starşinanın yanında rastlaşanda qardaşı Mikayıl yadına düşdü. Fikirləşdi necə də bir suyu Mikayıla oxşayır. Vanya da azərbaycanlı təki qarabuğdayı, qaraqaş, qaragöz, anası Rübabə demişkən, Tanrıya tabaq aparan idi. "Bu da bizim Mikayıl kimi sözü ürəyində saxlayan deyil. Qorxu-hürkü bilmir. Bu xasiyyətinə görə uşaqlıqdan İsmayılla Mikayıl yola getmirdilər. İt-pişik kimi boğuşurdular. Doqquz ay ana qarnında bir yerdə qalıb bir döşdən süd əmsələr də, ayrı-ayrı oğlanlar idilər. Taleləri də oxşamadı".

Bir mərmi Həmidin yaxınında səngərin qabağındakı dikdirə dəyib partladı, torpaq onların başlarına səpələndi. Döyüşçülər divara sıxılıb bunun ardınca ikinci mərminin düşməsini gözlədilər. İkinci uzağa düşdü. Həmid dəbilqəsini başından çıxarıb torpağını üfürdü, çiyinlərinin də tozunu çırpdı. "Üstümüzə düşsəydi birtəhər olmuşduq. Allah eləməsin, adam bu dar səngərdə oturduğu yerdə bomba, mərmi altında qalsın. Bu cür ölüm çox axmaq ölümdü. Barı həlak olanda da havayı yerə həlak olmayasan, yaman dərddi. Düşmənlə qarşılaşmaq ayrı məsələ, bilirsən ki, qarşıda kim dayanıb, kişi təkin döşünü irəli verib vuruşursan, ya o qalib gəlir, ya da sən".

Bu dəfə arxa tərəfdə eyni vaxtda iki mərmi birdən düşüb partladı. Həmidgilin üstünə daha çox torpaq səpələndi, tozanaq qopardı. Tozanaq yatanda Vasili Çiqrinov soruşdu:

– Xətər toxunan olmadı ki, ay uşaqlar? Kolya, salamatlıqdı?

– Hələlik sağam.

Kolya Frolov cavan, gonbul oğlan idi. Həmidin sağ tərəfində oturmuşdu. Vzvodun ən sərrast atıcısı sayılırdı. Ona avtomat vermişdilər, almamışdı. Karabin tüfəngi vardı. Karabindən daha sərrast nişan alırdı. Əsgərliyə Sibirdən gəlmişdi. Nəsillikcə ovçu olmuşdular, uşaqlıqdan atası ilə əlində tüfəng meşələrdə gəzmişdilər, qaranlıqda da gözləri

yaxşı görürdü. Kolya Frolov səngərdə özünə elə yer seçmişdi ki, ətrafı ovuc içi təkin görürdü. Zarafatla deyirdi ki, bu gün pis adamın üzünə çıxmışam, bazarım kasaddı, süftə eləməmişəm.

O gün nisbətən sakit keçdi, almanlar günortadan sonra atəşlərini seyrəkləşdirdilər. Bizim uzaqvuran toplarımız əvvəlki qaydada onların mövqelərini atəşə tuturdu. Düşmənin bombardmançı təyyarələri isə yenə qoşunlarımızın arxasına uçub bombalayırdı.

Zenit toplarımız faşistlərin bir "Yunkers-88"ni vurdu, o, qara tüstü buraxa-buraxa gəlib guppultu ilə neytral sahəyə – özlərinə yaxın bir yerə düşdü və altına mazut tökülmüş qır tiyanı kimi alışdı. Paraşütlə tullanan təyyarəçini külək harasa yan tərəfə aparırdı. Kolya Frolov onun dalınca baxa-baxa dedi:

– Necə əlimdən çıxdı. – Paraşütlə səngərin arasındakı məsafə çox idi. Karabinin gülləsi ora çatmazdı. – Barı o köpəkoğlu öz yerlərində düşməyəydi, bizimkilər tutaydılar.

Paraşüt endi, onlar bilmədilər ki, hara düşdü.

Axşama yaxın vzvod komandiri baş leytenant Batrakov Vasili Çiqrinovu çağırıb dedi ki, hitlerçilər bura xeyli tank cəmləşdiriblər, hər ehtimala qarşı hazır olun, kimin tankvuran qumbarası yoxdursa, starşinadan al, onlara payla. Çiqrinov yoxladı, kimdə tankvuran qumbara yox idi, verdi. Ehtiyat üçün bir qutu da özündə saxladı. Qumbaranı əlinin altına qoyan İvan Tkaç Frolova sataşmağa başladı:

– Kolya, qumbara nəyinə gərəkdi? Sənə nə var ki, bəd ayaqda karabinlə də keçinərsən. De görək, əlin gətirsə, bir karabinlə neçə tank vura bilərsən?

Frolovun əsəbləri çox sakit idi, onu özündən çıxarmaq, cırnatmaq çətin məsələ idi.

– Sən məni dola, – dedi, – dola nə qədər keyfin istəyirsə. Amma mən sənə göstərəcəyəm, bacaranın əlində karabin bəzən topa, pulemyota bərabərdi.

İvan Tkaç lağ elədi:

– Gör e... mən heç nə bilmirəm ki... yazıq canım, hardan da bilim. Səhvimi boynuma alıram. Kolya, səhv buraxmaq ayıb deyil. Səhv buraxıb, səhvini qanmamaq ayıbdı. Sən karabinin kəramətini göstərərsən, biz də görərik. Şərtləşdik?

– Göstərəcəyəm də, Vanya, səbrin olsun.

– Faşist tankını elə vurarsan ki, o əclaf bir də yerindən tərpənməsin.



Səngərdə gərgin dəqiqələrdə İvan Tkaçın zarafatları yerinə düşürdü, döyüşçülərin çatılmış qaşları aralanır, dodaqları qaçır, gözləri gülürdü. Yoldaşları vzvodda çoxundan kiçik olan İvanın məzələrinə alışmışdılar.

Həmidin bir tankvuran qumbarası vardı, bunu otdeleniya komandirinə özü demədi, birini də ondan aldı. Qumbaraların ikisini də səngərin divarındakı oyuğa qoymuşdu. Gərək olanda əl atıb götürəcəkdi. Vasili Çiqrinov tankların həmləsini yatırmağa hazır olmağı xəbərdarlıq eləyəndə, Həmid öz qumbarasını yoxladı.

Bizim yüksəkdən uçan bombardmançı təyyarələrimiz dəstə ilə Həmidgilin səngərinin üstündən ötüb almanların döyüş mövqelərinə sarı getdi, bir azdan düşmənin zenit toplarının gurultusu, tökülən bombaların partlaması eşidildi.

Düşmən arxasına bir dəstə də bombardmançı təyyarəmiz uçdu. Lakin uzaqvuran toplarımız əvvəlki qaydada fasilələrlə atəş açırdı. Hücumdan qabaq artilleriya hazırlığı – güclü top atəşi olmalı idi, olmadı.

Hava qaraldı.

Gecə əksinə oldu, faşistlərin təyyarə dəstələri arxamıza uçub bombaladı. Səhərin ala-toranında isə qəflətən onların toplarının güclü, arasıkəsilməz atəşi başladı. Həmidgilin üstünə qəlpə, daş-kəsək səpələndi. Yumaq kimi yumrulanıb səngərin divarlarına sıxıldılar. Yaralanıb orda-burda qalanların zarıltısı atəşin qulaqbatıran uğultusu altında eşidilmirdi.

Həmid çöməlib avtomat tüfəngini paçasının arasına dayayaraq əlini tətiyin üstünə qoymuşdu. "Burdan sağ-salamat qurtarmaq, kəfəni yırtıb çıxmaq təkin bir şeydi. Vanya demişkən, bunlar o qədər mərmini hardan və necə bura gətiriblər?!"

Düşmənin artilleriya hazırlığı on beş dəqiqə çəkdi. Səngərlərimizə açılan atəş seyrəkləşdi. İndi onlar bizimkilərin arxa xəttini topa tutmuşdular. Həmid döyüşən orduya, cəbhəyə təzə gəlsə də bilirdi ki, düşmənin güclü top atəşi soyuyan təki piyadaları, tankları hücuma keçir. Artilleriya hazırlığı hücuma keçən qoşunun yolunu manеələrdən təmizləmək üçündür.

– Hərə öz yerinə keçsin!

Baş leytenant Batrakovun komandasını eşidən döyüşçülər qalxıb atəş xəttində yerlərini tutdular. Bu ara atəş soyuyar-soyumaz, təpənin

arxasından düşmən tankları çıxıb tükürpədən vahiməli səs çıxara-çıxara hücuma keçdi. Faşistlər bizim əsgərlərin gözünün odunu almaq, qorxuya salmaq üçün tankların sirenlərinə güc vermişdilər.

Həmid əvvəllər tankların uzaqdan atəş açıb sonra haradasa yoxa çıxdığını görmüşdü, ancaq hücuma keçən tankla belə üz-üzə dayanmamışdı. O, tankvuran qumbaraları əl altına qoydu. "Kolya demişkən, bacaranın əlində karabin, lap elə mənim avtomatım topa, pulemyota bərabər olsa da, bu tankların qabağında nə eləyə bilər?! Tankın qabağına tank çıxararlar! Bəs bizim tanklar harda qalıb?"

Bizim toplar düşmən tanklarına atəş açsalar da, onlar partlayışların arasından keçə-keçə irəliləyirdilər, uzaqdan seçilirdi ki, tankların üstündə piyadalar da var.

Dəstəsindən aralanıb irəli çıxan "Pantera" növlü tank ətrafında partlayan mərmilərə məhəl qoymurdu, atəş aça-aça şığıyırdı, üstündə də əli avtomatlı soldatlar. Onlar da bizim səngərlərə avtomatdan atəş açırdılar. Həmidgilin səngəri ilə həmin tankın arasındakı məsafə yüz metrdən çox olardı. Sağ cinahdan qırx beş millimetrlik topdan düşmən tankına atəş açdılar, mərmi ona dəymədi, dala düşüb partladı, bir də atəş açdılar, o da yan keçdi. "Pantera" manevr eləyib topçuların nişan almasına mane oldu. Həmidgilin səngərini atəşə tuta-tuta, lap yaxına gəlməyə, səngərlərdə çaxnaşma salmağa cəhd göstərirdi. Üstünə doluşan avtomatçı soldatlar da sağa-sola od püskürürdülər.

Həmidin böyründə duran Vanya Tkaç yerində qaynayırdı:

– Bu alçaqlara baxın e... görün bir hara soxulurlar?!

Sanki topçular Vanyanın sözünü eşidirdilər. Bu dəfə "Pantera"nın tən ortasından necə tutuzdurdularsa, o silkələnib yerində dayandı, qırx beş millimetrlik topdan zirehdələn mərmi ilə atəş açmışdılar, mərmi zirehi deşib içəridə partlamışdı. "Pantera"nın üstündəki avtomatçılar hoppanıb yerə yatdılar və bizim arxadan atəş açan yüz iyirmi millimetrlik alay minaaxtaranlarının minalarının torpaqda açdığı kalafalara sarı süründülər. Kolya Frolov onlardan birini vurdu, bu ara vıyıldıya-vıyıldıya "Pantera"nın yanına düşən mərmi onların axırına çıxdı.

Müdafiə xətti boyu, ordan-burdan atəş pərdəsinin arasından sivişib irəli çıxan ağ xaç nişanlı düşmən tankları atəş aça-aça bizim səngərlərə yaxınlaşırdılar. Onlarla bizimkilərin arasındakı məsafə elə idi ki, daha ağır toplardan, böyük kalibrli minaatanlardan tanklara



atəş açmaq olmazdı, mərmilərin qəlpələrindən özümüzünkülər zərər çəkə bilərdilər.

Həmidgilin səngərlərinin həndəvərində partlayan düşmən mərmiləri onları baş qaldırmağa qoymurdu. Çarpanaq Vasili Çiqrinovun otdeleniyasından birinin – cavan özbəyin gicgahına elə sancılmışdı ki, oğlanın canı o dəqiqə çıxmışdı. İkinci çarpanaq tambovlu kişinin qulağını üzdən sıyırıb keçmişdi, yara yüngül idi, rotanın səhiyyə təlimatçısı onun qulağını fərdi paketlə sarımışdı, kişi səngərdə qalıb vuruşurdu.

Bayaq Tkaç zarafata salıb sözünü demişdi. Frolov isə ona karabinin nəyə qabil olmasını göstərmək istəyirdi. Kolya fürsətdən istifadə eləyib eksperiment elədi, ancaq bunu heç kəs, hətta səngərdə onunla çiyin-çiyinə vuruşan Həmid də bilmirdi. Bir az əvvəl qırx beş millimetrlik topun vurduğu "Pantera"nın sürücü baxacağını karabindən nişana alıb atəş açdı. Tanka yaxın gedib baxmaq mümkün olmasa da, Kolya uzaqdan fəhmlə təyin elədi ki, gülləsi baxacağın şüşəsinə dəyib. Düşündü ki, əgər bu güllə "Pantera" vurulmamış şüşəyə dəysəydi, mütləq sürücünün gözünə sancılacaqdı. Döyüşün qızğın çağında sürücünün sıradan çıxması kiçik məsələ deyildi. Vanya, Tkaçın lağ elədiyi karabin bacaranın əlində yeri düşəndə lap topun gördüyü işi görə bilərdi.

Kolya faşist avtomatçılarını nişana alıb atəş açsa da, çox istəyirdi ki, "Pantera"ya yaxın gedib gülləsinin sürücü baxacağına dəyməsini öz gözləri ilə görsün. Heyif, səngərdən çıxmaq olmazdı...

Almanların durduğu təpənin dalından ordan-burdan "Pantera"lar çıxır, dərhal da döyüşə qoşulurdu. Sanki, təpənin altında tank dayanacağı vardı, faşist komandanlığı istədikləri anda onları döyüşə buraxırdı.

Sovet komandanlığı da düşmənin qabağına "T-34" tankları çıxartmışdı, ancaq onlar almanlarınkından az idi.

Piyadalar "T-34"-ləri görüncə elə bil əl-qolları açıldı. Onlar ürəklənmişdilər, "Pantera"ları mümkün qədər yaxına buraxdılar ki, vurmaq asan olsun.

Sağ cinahda bizim tanklarla almanların tankları qarşılaşmışdılar, tank döyüşü gedirdi.

Bir "Pantera" özününkülərdən aralanıb topdan atəş aça-aça Həmidgilin səngərlərinə sarı şığıyırdı.

Həmid cəbhəyə gələni birinci dəfə idi ki, faşist tankı ilə belə üzbəüz dayanmışdı. "Pantera" yaxınlaşdıqca zəhmi adamı yerə mıxlayırdı. Topdan atəş açması o yana qalsın, tırtıllarının çıxartdığı səsdən qulaq tutulurdu. Həmid gözü tankda, qumbaranı hazır saxlayıb, dişini dişinə sıxmışdı. "Qoy bir az da yaxına gəlsin, bir az da..."

Həmid arxayın idi ki, atdığı qumbara boşa çıxmayacaq; təlimdə vzvod yoldaşlarının hamısından uzağa tullamışdı, qumbara düz hədəfin üstünə düşmüşdü.

"Pantera" indi də pulemyotdan atəş açırdı. Piyadaların səngəri ilə onun arasındakı məsafə əlli metrdən az olardı. Həmid daha gözləmədi, "ya Allah" deyib səngərdən dikəldi və var gücü ilə qumbaranı "Pantera"nın üstünə tulladı, aşağı yatıb gözlədi, qumbara partladı, onun ardınca ikisi də partladı. Həmidin gözlədiyi olmadı, tırtılların xırıltısı kəsilməmişdi. Tanka xətər dəyməmişdi, yenə də pulemyotdan piyadaların səngərinə güllə yağdırırdı, güllələr Həmidin qabağına düşüb torpağa batırdı. O yenə dikəldi, qumbaranın partlayıcısını ayaqda qoyub tulladı, bu dəfə daha səngərdə gizlənmədi, qumbaranın dalınca baxdı, qumbara tanka dəymədi, Həmid hirslə tulladığı üçün o, "Pantera"nın arxasına düşüb partladı: "İkisini necə zay elədim..." Həmiddə qumbara qalmamışdı. Özünə acığı tutdu, səngərin taxçasındakı ehtiyat qumbarasından birini götürəndə İvan Tkaçın çığırtısını eşitdi:

– Hə, əclaf, indi gəl görüm, necə irəli gəlirsən?!

Həmid qalxıb baxanda gördü ki, "Pantera"nın sağ tırtılı dağılıb, ancaq onun heyəti qülləni döndərir ki, atəş açsınlar, aman vermədi, qumbaranı qəzəblə vızıldatdı. Zirehdələn qumbara qülləni deşib keçdi, tank od tutdu.

Yaralı döyüşçünü əvəz eləyən otdeleniya komandiri Vasili Çiqrinov dəzgahlı pulemyotun arxasına yatıb faşist avtomatçılarını atəşə tuturdu. Kolya Frolov səsini çıxarmadan karabini ilə faşist soldatlarını bir-bir dənləyirdi.

İvan Tkaç Həmidi təriflədi:

– Eşq olsun, Xələfov, qülləyə yaxşı ilişdirdin.

"Pantera" alovun içində görünmürdü. O yanda da bir düşmən tankı yanırdı, təpənin qabağındakı çökəkdə isə bir "T-34" dayanmışdı, o da vurulmuşdu.



* * *

Düşmənin hücumu yatırılmışdı.

İki saatdan artıq çəkən qızğın döyüşdə hər iki tərəf xeyli canlı qüvvə və hərbi texnika itirmişdi. Döyüş çölündə faşistlərin yeddi tankı, bizimkilərin dörd tankı, dörd də hərəkət eləyən topu qalmışdı, həndəvərə səpələnən meyitlərin sayı bilinmirdi.

Baş leytenant Batrakovun rotasının adamlarından iyirmi üçü tələf olmuşdu, rota komandirini yarımcan halda arxaya aparmışdılar, danışırdılar ki, sağ qalmasına ümid yoxdur. Vzvod komandirlərindən də biri həlak olmuşdu.

Ara sakitləşəndə təhlükəsiz yerdə olan meyitləri yığdılar, səngərin arxasındakı bomba çalalarının birini dərinləşdirib qardaş məzarında basdırdılar. Həmid rotalarının adamlarına fikir verdi, görsün kimlər qalıb. Ölənlərin çoxu cavanlar idilər. Mikayıl yaşda olan cavanlar.

Bir həftəyə yaxın idi ki, Həmid anasına kağız yazmırdı, daha doğrusu, yazmağa macal eləmirdi. Əvvəl göndərdiyi məktubların məzmunu eyni idi, sağ-salamatam, məndən nigaran qalmayın, ana, gözünə fikir ver, müalicəni kəsmə, gözlə zarafat olmaz. Onu da yazırdı ki, ana, Mikayılın məktubunun arasının kəsilməsinə heç narahat olma, cəbhədə belə şeylər olur, əsgərlər bəzən uzun müddət elə yerə düşürlər ki, özləri sağ-salamat olurlar, ancaq nə evə məktub yaza bilirlər, nə də qohumlarının göndərdiyi məktublar gedib onlara çatır. Mən bunu gəlib burda – davada öyrənmişəm, bu çətinliklər müvəqqətidir, keçib gedər.

Rübabə Həmidin yazdıqlarına Quran ayəsi kimi inanırdı, bu ümidlə də gözləyirdi ki, bir gün Mikayıldan xəbər çıxacaq.

Həmid evdən tez-tez məktub alırdı. Rübabə arvad İsmayıla dönə-dönə tapşırmışdı, böyük qardaşına hər gün məktub yazsın. Hər gün olmasa da, İsmayıl Həmidə günaşırı, ya da həftədə iki məktub göndərirdi, hər məktubun başında yazırdı ki, biz sarıdan heç nigaran olma, salamatlıqdır, mömənin gözləri tamam sağalıb, əvvəlki təkindir. Həmid arxayın deyildi ki, qardaşının anası haqqındakı yazdıqları doğrudur. Çünki göz müalicəxanasında mötəbər professorun dilindən eşitmişdi ki, anası tamamilə sağalmayacaq, ancaq onlar əllərindən gələni eləyəcəklər, arvadın gözləri tutulmasın. Yaşlı adamların

müalicəsi ləng gedir, həmişə də istənilən nəticəni vermir. O, məktubda yazılanlara şübhə ilə baxırdı, düşünürdü ki, İsmayıl qəsdən belə yazır, o, cəbhədə fikir çəkməsin.

Rübabə arvad məktublarının birində ona ərəb əlifbası ilə səliqəylə yazılmış işıldaqlı bir kağız da göndərmişdi. İsmayıl anasının dili ilə yazırdı ki, Həmid, qadanı alım, bu duadır, gülləbatmazlıq duası. Təzəpirdə mollaya yazdırmışam, qoy cibinə, sənə o faşist ciyəriyanmışların gülləsi batmasın. Həmid mollaya, duaya etiqad eləmirdi, lakin Həmiddən ötrü o dua anasının əli dəydiyi üçün əziz idi.

Əsgərlərin dilinə dünəndən bəri isti xörək dəymirdi.

Axşam starşina darı sıyığı ilə mal əti konservi verdi. Ləzzətlə şam elədilər. Şam təzəcə qurtarmışdı ki, batalyondan zəng çalıb dedilər, korpus komandiri hissələri gəzir, bəlkə sizin də rotaya gəldi, hər ehtimala qarşı hazırlıqlı olun. Yaralanıb arxaya gedən rota komandirini vzvod komandiri leytenant Xlebnikov əvəz edirdi. O, komandirləri çağırıb tapşırmışdı qayda-qanuna diqqət versinlər.

Vanya Tkaç yenə zarafata saldı: "Fikir verin, uzunboğaz çəkmələriniz, yaxalıqlarınız təmiz, üzünüz qırxıq olsun. Yoxsa, general sizi tənbeh eləyər, əzazil kişidi". Uşaqlar gülüşdülər. Kolya Frolovla, Həmid Xələfov bir tərəfdə asta-asta söhbət eləyirdi. Məsələ burasında idi ki, sibirli ovçu qaranlıqda nəzərdən yayınıb günorta karabindən sürücü baxacağına güllə atdığı "Pantera"nın yanına sürünmüşdü. O yoxlamaq istəyirdi görsün, güllə baxacağa dəyibmi! Kolya tankın alt lükünü açıb maşının içərisinə boylandı, qaranlıqda heç nə görmədi, əlini ora-bura sürtdü, sürücünün yeri boş idi, qüllə atıcısının da yerində heç kəs yox idi. Tanka girdi. İrəlidə qolu qüllənin sağ tərəfindən sallanmış bir ayağa toxundu. Kolya diksinib ucadan qışqırdı: "Hendi xox!" Heç kəsdən səs, cınqır çıxmadı. Yəqin elədi ki, qoluna toxunan ölü ayağıdır, aram olub əlini sürücü baxacağına sürtdü, baxacağın qalın şüşəsi qırılmışdı. Kolya arxayın idi ki, bu, onun gülləsinin yeridir, çox şad oldu və "Pantera"dan çıxıb səngərə, yoldaşlarının yanına qayıtdı: "Mən indi İvana karabinin kəramətini göstərərəm".

Həmid Kolyanın "Pantera"nın yanına süründüyünü görmüşdü, geri qayıdan kimi ondan soruşdu:

– Qənimət götürməyə getmişdin?

Frolov tankın yanına nə üçün süründüyünü dedi və Həmidə tapşırdı:



– Bu barədə İvana bir kəlmə də demə, bu dəfə faşistlər hücum eləsələr, bir tankı belə nişan alıb atacağam, sonra hamının yanında ona haqlı olduğumu sübut eləyəcəyəm.

Heç kim gözləmirdi ki, korpus komandiri onların rotasına gəlsin, ancaq general gəldi, yanında da on-on iki yüksək rütbəli zabit, səngərlərə düşdü, döyüşçülərlə söhbət elədi, danışığından hiss olunurdu ki, o, rotadan razıdır, niyə də razı olmayaydı? Batrakovun atıcıları faşistlərin güclü həmləsini yatıranda mərdliklə vuruşmuş, düşmənin ikiqat artıq qüvvəsi qarşısında dəyanətlə durmuşdular.

Həmid korpus komandirini görməmişdi, heç adını da bilmirdi.

General səhərki döyüşdə ən çox fərqlənən əsgərləri yanına çağırmağı Xlebnikova əmr elədi. Çiqrinovun otdeleniyasından üç nəfəri çağırdılar, Həmid də onların arasında. Xlebnikov Həmid Xələfovun adını çəkəndə korpus komandiri soruşdu:

– Həmid Xələfov? O kimdi, Bakıdandı?

Səngər qaranlıq idi, üzlər yaxşı seçilmirdi. Həmid irəli çıxdı:

– Mənəm. Bəli, mən Bakıdanam, yoldaş general.

– Sən Həmidsən? Yaxın gəl görüm!

Həmid səsi tanıdı. Bu, Mişa idi, Pyotr Anisimoviçin oğlu Mişa. Onların Həştərxanda son dəfə görüşməsindən on il keçmişdi. Onda Mişa Qradov mayor idi. Sən taleyin hökmünə bax, Həmid özü də bilmədən gəlib Mişanın korpusuna düşmüşdü. O bu xoş təsadüfə şad oldu:

– Sizi dinləyirəm, yoldaş general.

– Məni tanıdın?

– Bəli, tanıdım.

General Qradov Həmidlə mehriban görüşdü və dedi:

– Çox şadam ki, sən mənim korpusuma düşmüsən, üstəlik də yaxşı vuruşursan.

Generalın yanında bir kapitan dayanmışdı, o da qərargahdan gəlmişdi, korpus komandirinin göstərişlərini qeyd eləmək üçün hərdən qazmanın küncünə sıxılır, planşetini dizinin üstünə qoyur, göy işıqlı fənərini yandırıb yazırdı. Həmidgilin batalyon komandirləri mayor Nikolayev də kapitan yazanda əyilib ona nəsə deyirdi.

Həmid çəkilib bir qıraqda dayanmışdı. Generala baxırdı. Mişa ona bu on il ərzində xeyli qocalmış kimi görünürdü. Bəlkə də, heç belə deyildi, qaranlıqda yaşından böyük görünürdü. "Bu odun-alovun

içində, bu qədər adamın dərdini çəkmək məyər asan işdi?! General olsa da, ondan da böyükləri var, onların qabağında cavabdehdi. Soruşurlar: "Filan qədər adam niyə öldü?", "Filan kəndi, filan qəsəbəni niyə düşmənə verdin?!", "Niyə geri çəkilirsən?" Bu sualların hamısına cavab verməkdən ötrü fil səbri, dəvə dözümü lazımdı, bu, hər kişinin işi deyil..."

General Qradov Həmidin yanına gəlib əlini onun çiyninə qoydu:

– Çoxdan bu rotadasan?

– Üçüncü aydı, Mi...

Həmid dilinin ucuna gələn "Mişa" sözünü qaytardı, generala tabe olanların yanında sıravi əsgərin ona adı ilə müraciət eləməsi hörmətsizlik kimi çıxardı. Həmid dedi:

– Petya dayı hardadı? İra, balaca Petya Moskvada yaşayırlar?

– Moskvada?! Haçandı orda evimizin qapısı qıfıllı qalıb. Petya indi böyük oğlan olub. Baltik donanmasında xidmət eləyir. İra mənim təki hərbiçidi, bizim orduda tibb-səhiyyə batalyonunun rəisidi. Hissələri buradan çox da uzaqda deyil.

– Pyotr Anisimoviç hardadı? Necədi?

General Qradovu müşayiət eləyən zabitlər gördülər ki, onlar şəxsi söhbətə keçdilər, mane olmamaq üçün bir-birinə him eləyib səngərin o başına addadılar. General Qradov dedi:

– Atam çoxdan vəfat eləyib. O, həmin il Moskvadan qayıdıb Həştərxanda qəflətən keçindi. Elə bil kişi doğma şəhərə qayıtmağa bənd imiş. Onu anamın yanında dəfn elədim. Özü vəsiyyət eləmişdi. Arvada öyrənmişdi, qoca tək yaşaya bilmədi. – General Həmiddən soruşdu. – Ailən böyükdü, sənin oğuldan-qızdan nəyin var?

Mixail Petroviç Həmidin yaralı yerinə toxundu. O elə yaşda idi ki, çox qanuni və təbii olaraq tez-tez belə bir sual verirdilər.

– Subayam, Mixail Petroviç, övlad, ailə qayğısından azadam.

– Prinsipial kişisən, sözünün üstündə möhkəm durmusan. – General, Həmidin sıravi əsgər olmasına təəccüb elədi: – Nə əcəb səni əsgər aparıblar? Göstəriş var ki, sənin kimi sənət adamlarına bron verib arxada saxlasınlar.

– Məni də saxlamışdılar, brondan özüm imtina eləmişəm. Bura gələndən sonra belə hərəkət eləməyimdən çox razıyam. Bu gün səhərki kimi ağır döyüşləri görəndə fikirləşirsən, arxada qalıb kiminsə hesabına yorğan-döşəkdə rahat yatmaq kişilikdən deyil.



– Əgər burda rotada ağırdırsa, səni öz yanıma, korpusun arxasına apara bilərəm!

Həmid generala qardaşının Belev şəhəri ətrafında həlak olmasını demədi. Onu da demədi ki, cəbhəyə həm də Mikayılın intiqamını almağa gəlib. "Korpusun arxasında baş girləyəcəkdimsə, onda day bura niyə gəlirdim, oturmuşdum öz evimizdə". Qardaşının intiqamını almaq olmasaydı da, o rotanı, isinişdiyi uşaqları qoyub arxaya getməzdi. Getsəydi, yoldaşları buna necə baxardılar?! Deməzdilər ki, Xələfov isti, təhlükəsiz yer axtarır, bu boyda cəmdəklə əlinə fürsət düşən kimi aradan çıxdı. Digər tərəfdən rotada İvan Tkaça, Nikolay Frolova, o biri uşaqlara öyrənmişdi, bir evin, böyük bir ailənin üzvləri kimi olmuşdular. Həmid Mixail Petroviçə dedi:

– Səndən bircə xahişim var, mənim ağır atlet olmağımı, camaat qabağında çıxış elədiyimi heç kəsə demə. Bunu rotamızda bilmirlər. Bilsələr, məni rahat qoymazlar, ora-bura dartarlar. Konsert briqadalarına salıb hissələrə göndərərlər, indi məndə o həvəs yoxdu.

– Xahişin elə bu idi?

– Hə.

– Bu, nə xahiş oldu? Ayrı sözün?

– Ayrı sözüm budu ki, sənə bir komandir təkin böyük müvəffəqiyyət arzulayıram.

General Qradov səngərin o başında dayanan zabitlərin yanına getdi. Onunla gələn cavan kapitan yenə fənorin göy işığını yandırıb bir küncə sıxılaraq nə isə yazırdı. Korpus komandiri tapşırmışdı ki, onlar hissələri gəzəndə yavəri yerlərdə gördüyü çatışmazlıqları, hansı hissənin nəyə ehtiyacı olmasını qeyd eləsin. Sonra qərargaha qayıdan kimi kapitan tez həmin qeydlərin əsasında müfəssəl məlumat hazırlayıb generala təqdim edirdi. Korpus komandiri onları nəzərdən keçirir, təcili ölçü götürülməsi üçün əmr verirdi.

Kapitanın dəftərçəsində Xlebnikovun rotası barəsində çox yazılmışdı. Rotanın vəziyyəti ağırdı, təxirə salınmadan sıradan çıxmış adamların əvəzinə təzələri göndərilməli idi.

General Qradov gedəndə Xlebnikova dedi:

– Leytenant, bugünkü döyüşdə fərqlənənləri mükafata təqdim eləyəndə çalışın yaddan çıxanı olmasın.

Korpus komandiri və onu müşayiət eləyən zabitlər gedən kimi yoldaşları Həmidin başına yığışdılar.

Vanya Tkaç dedi:
– Həmid Murtuzoviç, bu nə əhvalatdı, generalla oturub-durursunuz, gərək bundan sonra sizinlə ehtiyatlı davranaq.
Kolya Frolov Həmiddən soruşdu:
– Qradov da bakılıdı, bir yerlisiniz?
Başqa birisi dedi:
– Yəqin gənclikdə əsgərlikdə bir yerdə xidmət eləyiblər.
Həmid, Mixail Petroviçlə necə tanış olmasını təfsilatı ilə danışmadı, bircə bunu dedi ki, mən onun atası Pyotr Anisimoviçlə lap çoxdan gəmi təmiri zavodunda bir yerdə işləmişəm.
Rotada bir çoxları ona qibtə elədilər. Zarafat deyildi. Həmid korpus komandirinin özü ilə şəxsən tanış idi. O gündən yoldaşları Həmidə ayrı gözlə baxdılar, komandirlər ona xüsusi hörmət elədilər. Həmid üçün isə bunun elə bir əhəmiyyəti yox idi.

## XXVI

Çadırdakı çarpayıların ikisi tutulmuşdu. O birilər boş idi. Günorta ağır yaralıları arxaya yola salmışdılar. Qalan iki nəfər yüngül yaralı idi, onları burda müalicə eləyəcəkdilər. Yaralının biri Həmid idi, səhər döyüşdə onun sol qolunu çarpanaq üzdən yayılıb getmişdi. Rotanın səhiyyə təlimatçısı yaranı sarımışdı. Onu arxaya yollayanda getmək istəməmişdi. Qolunu əvvəlkitək qaldırıb-endirəndə elə incitmirdi. Rota komandiri əmr elədi ki, tibb-səhiyyə batalyonuna getsin. Bəlkə də leytenant Xlebnikov belə bir yüngül yara ilə ayrısının rotada qalmasına icazə verərdi, Həmidə vermədi. Axı korpus komandiri özü onu Xlebnikova tapşırmışdı muğayat olsun. Həmid hiss eləyirdi ki, rota komandiri ona xüsusi qayğı göstərir. Onun bu qayğıya qəti ehtiyacı yox idi. Ancaq Xlebnikovu rotaya təzə başçı qoymuşdular, pis kişi deyildi. Rota komandiri olmağa çox həvəs göstərirdi, bəri başdan işini möhkəm tuturdu ki, yüksək rütbəli rəislər onun barəsində bədgüman olmasınlar.
Həmid tibb-səhiyyə batalyonuna biyara gedirmiş kimi getmişdi. Burada onun yarasını açıb təzədən sarımışdılar, iynə də vurmuşdular ki, yara simləməsin. Həkim demişdi: "Bir-iki gün qalın, irinləməsə, sizi rotaya buraxarıq". Həmid həkimdən xahiş eləmişdi onu rotaya buraxsın, həkim demişdi ki, mənim buna səlahiyyətim çatmaz, batalyonun rəisi var, mayora müraciət elə. Rəisin familiyası Sorokina idi. Həmid onu gündüz ağır yaralıları arxaya yola salanda görmüşdü, qırx-qırx beş yaşlarında yaraşıqlı qadın idi, əyninə tikilmiş hərbi geyim ona çox yaraşırdı. Tabeliyində olan adamlarla danışığından məlum olurdu ki, zabitəli qadındır, bir sözü iki dəfə deməyi sevmir. Həmid Sorokinanın oturduğu avtofurqona getdi. Xahişini dedi. Mayor qulaq asmaq da istəmədi.
– Buraxa bilmərik, yoldaş, lazım olmasaydı, biz özümüz sizi rotaya qaytarardıq. Bura kurort deyil, heç kimi nahaq yerə burda saxlamırıq, ona vaxtımız və ixtiyarımız da yoxdu.
Həmid rəisin yanından peşman çıxdı. "Nə özünü dartır, heç adamla danışmaq da istəmir... Gözlə, ay burda qaldım ha..." Həmid belə qərara gəldi ki, gecəni burada qalsın, səhər tezdən özü çıxıb gedər rotaya. Heç kəsə də xahiş, minnət eləmək lazım deyil. Mayor bilsə, ona nə eləyəcək?!
Həmid çarpayıda uzanmışdı. Səhərin açılmasını gözləyirdi. Çadır qonşusu kök kişi rabitəçi idi, telefon xətti çəkəndə bilməyib yerə basdırılmış minanın üstünə çıxmışdı, onda bəxti gətirmişdi ki, budundan yüngül yaralanmışdı. Gündüz yarasını sarıtdıran kimi çarpayıda tirlənib ölü kimi yatmışdı, dünyadan xəbəri yox idi. Görünür nə vaxtdan yuxuya həsrət imiş, burada əlinə girəvə düşmüşdü. Həmid də bərk yorğun idi, belə bir çarpayıda yatmağı çox arzulamışdı. Tərslikdən, indi yuxulaya bilmirdi.
Srağagün general Qradovun ön xəttə gəlməsi, Həmidgilin rotasında olmasının xeyri bu idi ki, ölən, yaralanıb arxaya göndərilənlərin əvəzinə təcili təzə adamlar vermişdilər, yeni avtomatlar, xeyli ehtiyat patronu, zirehdələn qumbara almışdılar. Ertəsi gün faşistlər yeni həmlə etmiş, müdafiə xəttini yarıb irəliləməyə cəhd göstərmişdilər. Cəhdləri fayda verməmişdi, bu dəfə də müqavimətə rast gəlib, geri oturmuşdular. Lakin bunun ardınca komandanlıqdan əmr alınmışdı, Həmidgilin alayı gecənin qaranlığında döyüşsüz yığışıb geri çəkilmişdi.
Təzə sahədə döyüşçülər səngər qazıyıb yerlərini bərkidəndə almanlar onları top atəşinə tutmuşdular. Həmid də onda yaralanmışdı.
Onu səhər bura gətirəndə çadırların hamısı ağır yaralılarla dolu idi. Bayırda xərəklərdə ağacların arasında uzananlar da vardı. Həmid yüngül yaralılarla hələlik bayırda gözləmişdi. Ağır yaralıları arxaya

yollayandan sonra çadırlar boşalmışdı, yüngül yaralılar on nəfər olardı, axşamüstü ön xətdən bir neçə yaralı gətirmişdilər. Həmid onların üzlərini görməmişdi. İniltilərindən aydın idi ki, vəziyyətləri çox da yaxşı deyil.

Tibb-səhiyyə batalyonundakı həkimlər, feldşerlər, şəfqət bacılarının başlarını qaşımağa vaxtı yox idi. Onlar bir dəstəni arxaya yola salan kimi ardınca ayrıları gəlirdi. Həmid indi görürdü ki, cəbhədə gündə nə qədər adam yaralanır, nə qədər ölür. Kiçik sahədə bir gündə bu qədər adam sıradan çıxanda, gör Şimal dənizindən tutmuş Qara dənizə kimi uzanan cəbhə xəttində nə qədər ölən, yaralanan olur. "Müharibədə insanlar özləri də istəmədən, duymadan necə də qəddarlaşırlar..."

Bayırdan ayaq tappıltısı, ara-sıra maşın səsi gəlirdi, yaralı gətirirdilər, inilti, ufultu eşidilirdi və yenə ətrafa gecənin sakitliyi çökürdü. Haradasa uzaqda avtomat atəşinin taqqıltısı qopub yatırdı.

Aylı, ulduzlu gecə idi, çadırın xırdaca pəncərəsindən içəri ayın zəif işığı düşmüşdü. Həmidin ürəyindən bayıra çıxıb Nurluya məktub yazmaq keçdi, yazsaydı, necə olardı?! Nurlu ondan məktub almağına necə baxardı?! Yazsın, yazmasın?! Onun ərli arvada, həm də əri cəbhədə vuruşan arvada məktub göndərməyə haqqı vardımı?! Haqqı? Bəyəm o ayrısının arvadını yoldan çıxarır, köhnə tanışı kimi Nurluya məktub yaza bilməzdimi?! Bəlkə, Muxtar cəbhədə yaralanıb Bakıya gəlmişdi, ya da o, müharibə əlili olub evə qayıtmışdı, arvad-uşağının yanında idi. Həmidin məktubu Muxtarın əlinə keçsəydi, necə olardı? O, arvadına yad kişinin məktub yazmasından təəccüblənməzdimi? Bəlkə də Muxtar heç indi sağ deyildi, döyüşdə həlak olmuşdu, onu da Mikayıl kimi hardasa dəfn eləmişdilər. Həmid bica yerə məktubunun Muxtarın əlinə keçməsindən ehtiyat edirdi... Bəlkə də Muxtar Həmidlə eyni cəbhədə vuruşurdu, bundan xəbəri yox idi?! Hər şey, hər şey ola bilərdi. Axı Həmid nədən ötrü məktub barəsində düşünürdü. İş burasında idi ki, o, Nurlugilin hansı küçədə yaşamasını bilirdi, evlərinin nömrəsini yox. Məktubu hara göndərəydi? Basin küçəsi böyük idi, orada xeyli ev vardı, poçtalyon Həmidin məktubunu aparıb hansı evə verəydi?..

Bu məktub məsələsi Həmidin beyninə hardan girmişdi? Niyə nisyə şeylər barəsində fikirləşirdi?! Əlinə gözəl imkan düşmüşdü, niyə çadır qonşusu kimi yıxılıb yatmırdı? Nə qədər yatsaydı, qənimət



idi, sabah səhər rotaya qayıdacaqdı. Orada belə şərait hardandı. "Mən də bu hay-hayda gör bir nə fikirləşirəm?"

Göydən təyyarə motorlarının uğultusu gəlirdi. Həmid cəbhəyə təzə gəlsə də, səsindən bizim təyyarələrlə düşməninkini ayırd eləməyi bacarırdı. Uçanlar faşist təyyarələri idi. Həmid kiminləsə danışırmış kimi ucadan dedi: "Nadürüst uşaqları, camaatı gecə də rahat qoymurlar. Bunlar nə sayaq adamdılar?!"

O, uğultusundan əsgərlərin "çərçivə" adlandırdığı kəşfiyyatçı, "fokke-Vulfla", bombardmançı "Yunkers"ləri bir-birindən seçməyi də öyrənmişdi. Bu vaxt dəstə ilə uçanlar "Yunkers"lər idilər. Səsləri də bərkdən çıxırdı. Alçaqdan uçurdular. Həmid çadırdan bayıra çıxıb baxmaq istədi, xeyir ola, düşmən aviasiyası yenə belə niyə fəallaşmışdı? Faşistlər hücuma hazırlaşırdılarmı?! O, çarpayıda yerini rahatlamışdı, eşiyə çıxmağa tənbəllik elədi. Təyyarələr harasa uçub getdilər, ətrafa sakitlik çökdü.

Gecənin bir yarısında Həmid bombaların partlayışına diksinib qalxdı, əvvəl elə bildi ki, yuxu görür, lap yaxına düşən bombanın dalğasından çadırın bir tərəfi üstünə aşıb qəlpələr vıyıltı ilə böyürdən keçəndə tez yerə yatdı. Qonşusu, yaralı rabitəçi də ayıldı, yuxulu-yuxulu qorxu içində soruşdu:

– Bu nədi, ay qardaş?

– Bizi bombalayırlar, yat aşağı!

Rabitəçi üzüqoylu yerə yatdı. Bir-birinin dalınca düşən bombalar partlayır, yeri titrədirdi. Bayırdan söyüş, qışqırıq eşidilirdi.

Tibb-səhiyyə batalyonuna qəfildən basqın eləyən faşist təyyarələri bombalarını töküb getdilər. Həmid dikəldi. Çadırın yerdən çıxıb böyrü üstdə düşən dayağını qaldırdı. Onların heç birinə xətər toxunmamışdı. Tez bayıra çıxdılar.

Çadırlar yerlə yeksan olmuşdu. Az-çox bütöv qalan iki çadırdan biri Həmidgilinki idi. Orda-burda bombalardan yerdə kalafalar açılmışdı. Ayın zəif işığında tibb-səhiyyə batalyonunun çox müdhiş görkəmi vardı, yan-yörədən yaralılar inildəyir, köməyə çağırırdılar. O tərəfdə ağacların arasındakı avtofurqon od tutmuşdu. Həmid gündüz orada olmuşdu, batalyon rəisinin yanına xahişə getmişdi. Fikirləşirdi ki, kaş tibb xidməti mayoru onun içində olmayaydı.

Furqonun qabağında vurnuxan hərbi feldşer həyəcanla qışqırdı:

– Kişilər, orda niyə dayanmısınız, xüsusi dəvət gözləyirsiniz? Gəlin, furqonun odunu söndürək, qadınlar yaralılara yardım göstərsinlər.

Avtofurqon böyrü üstə aşmışdı, motor hissəsi od tutmuşdu, alov tədricən qızışırdı. Yanğın böyüsəydi, həndəvərindəki ağaclar alışacaq, meşəyə yayılacaqdı.

O yandan da iki kişi gəldi, oldular beş, bel tapdılar, tez-tez torpaqdan götürüb alovun üstünə atdılar. Rabitəçi haradansa çadır cındırı tapıb oda döyəcləyir, bir ucdan söndürürdü, tüstünün acılığından boğaz göynəyirdi.

Furqonun alovu öləziyəndə feldşer dedi:

– Gəlin, tez qapını açağın, rəisimiz, mayor ordadı.

Həmid bir yandan, feldşer özü də o biri yandan bellə burub, qapını sındırdılar, içəridən buğum-buğum tüstü çıxdı.

– Yoldaş mayor, yoldaş mayor, İrina Alekseyevna...

Mayordan hay çıxmadı. Feldşer kişilərdən birini köməyə çağırdı, rabitəçi irəli yeriyib kömək elədi, mayoru avtofurqondan çıxartdılar. Onu yeldəyən açıq yerdə uzatdılar. Rəisin üzündə həyat əlaməti yox idi. Feldşer onun nəbzini yoxladı, ürəyi döyünmürdü, ancaq əli hələ isti idi. Feldşer dedi:

– Tüstüdən boğulub.

O, mayorun ürəyini masaj elədi, təsiri olmadı, Həmid bir yandan, başqa bir döyüşçü o biri yandan rəisin qollarını, ayaqlarını yeyin-yeyin büküb açdılar ki, qanı hərəkətə gəlib, onu ayıltsın, mayor ayılmadı, keçinmişdi.

Tibb-səhiyyə batalyonundakı yaralılardan beşi bomba altında qalıb həlak olmuşdu, birinin də halı çox xarabdı, yaşamasına ümid yox idi.

Meyitləri gətirib rəisin yanında uzatdılar, üstlərinə də plaşbürüncək çəkdilər. Yaralılara yardım göstərib qurtaran tibb bacıları mayorun yanına gəlib ağlaşırdılar.

Avtofurqonun odunu söndürsələr də, yenə yel vurduqca ora-burasından közərtilər qızarırdı, yaralı rabitəçi gedib onları söndürdü. Həmid çəkilib bir tərəfdə çöməlmişdi.

Rəisin müavini kapitan rütbəli həkim telefonçu qızı tələsdirir, qərargahla rabitənin qaydaya düşməsini soruşurdu, qız da deyirdi ki, hardasa xətt qırılıb, gediblər düzəltməyə. Həmid fikirləşirdi ki, tibb-



səhiyyə batalyonunu daha burada saxlamaq olmaz, onları təzə yerə köçürməlidirlər, faşistlər yerlərini öyrənmişdilər, gəlib bir də bombalaya bilərdilər.

Həmid uçulan çadırlarına baxa-baxa pıçıldadı: "Bu dəfə də bəxtim gətirdi. Yoxsa indi məni də uzatmışdılar o meyitlərin yanına..."

Bir çadır operasiya üçün idi, yaxşı ki, ona heç nə olmamışdı. Cərrahiyyə alətləri kənarda qurulmuş həmin çadırın içində idi.

Havanın işıqlanmasına çox qalırdı. Həmid bilsəydi ki, qaranlıqda asanlıqla batalyonlarını tapar, heç burada dayanmaz, çıxıb gedərdi, qalıb nə eləyəcəkdi?! Yan-yana düzülmüş altı meyitə baxanda ürəyi sıxılırdı, ağır yaralıların iniltisi də bir tərəfdən...

Obaşdana yaxın tibb-səhiyyə batalyonuna iki "Villis" maşını gəldi. Rəisi əvəz eləyən kapitan həkim maşınların qabağına çıxdı. "Villis"-dən düşən korpus komandiri general Mixail Qradov idi. Onun arxasınca srağagün generalla onların batalyonuna gələn və dəftərçəyə qeydlər eləyən cavan kapitan düşdü, daldakı maşından da üçü düşdü. Hamısı yüksək rütbəli zabitlər idilər. Həmid əvvəl elə bildi ki, korpus komandiri tibb-səhiyyə batalyonunun bombardman olmasını və rəisin ölümünü eşidib gəlib. Sonra eşitdiyi onu heyrətdə qoydu. Tibb-səhiyyə batalyonunun rəisi korpus komandirinin arvadıdır. Dünən Həmidə suyu şirin gələn, yaraşıqlı mayor özgəsi yox, İra imiş. İrina Alekseyevna... Necə də onun ağlına gəlməyib?! Axı Mixail Petroviç Həmidə demişdi ki, İra tibb-səhiyyə batalyonunda rəisdir. Həmid hardan biləydi ki, onunla hökmlə danışan, əzazil tibb xidməti mayoru İrina Alekseyevna Həştərxanda gördüyü İradır. Zarafat deyildi ki, o vaxtdan iyirmi ildən çox keçmişdi. Heç bu dolu, yaraşıqlı qadının Həmidin Həştərxanda gördüyü, ona rus əlifbasını öyrədən İraya oxşarı yoxdu. Dayan, dayan, deyəsən, vardı axı, Həmid öz hayında olduğu üçün ona əməlli fikir verməmişdi. Həmid mayorun simasını yadına salmağa başladı. İra onun yaxşı yadında idi. O indi onları müqayisə elədi. Səma kimi göy gözləri, ucu düymə burnu elə əvvəlki idi, heç dəyişilməmişdi. Səsi də dəyişməmişdi. Həmid özünü qınadı: "Niyə mən mayoru görəndə onun İra olmasını bilməmişəm?! İş burasındadı ki, heç İra da məni tanımayıb..." Bir-birlərini tanımamaqda onların heç birini qınamaq olmazdı. Elə vəziyyətdə, elə yerdə qarşılaşmışdılar ki, tanışlıq verməyə imkan olmamışdı. Həmid inanmırdı ki, ön xətdən xeyli aralı yaralı döyüşçülərin qayğısına qalan, hər dəqiqə

əcəllə əlbəyaxa olan bu zabitəli qadın özü bir neçə saatdan sonra gözlərini əbədi olaraq yumsun...

General Qradov meyitlər uzadılan talaya gəlib onu müşayiət eləyən tibb-səhiyyə batalyonu rəisinin müavinindən xəbər aldı:

– O hansıdı?

Kapitan qıraqdakı meyiti nişan verdi. Qradov diz çöküb, plaş çadırın ucunu meyitin üzündən qaldırdı. Adamların dalında durub boylanan Həmid heç nə görmədi. Ay işığında İrina Alekseyevnanın üzü əməlli seçilmirdi. Mixail Petroviç əyilib arvadının üzündən öpdü və sakit-sakit ağladı. Rəisin ölümündən sarsılan tibb bacıları və sinli feldşer qadın da ağlayırdı.

Həmid Mixail Petroviçin yanına gəldi. Generalın dərdi, itkisi ağır idi, neçə illik əziz həyat yoldaşı əlindən getmişdi, bu itki ondan ötrü əvəzsiz idi.

Korpus komandiri plaş-çadırı arvadının üzünə çəkib, dikələndə Həmid onun əlini sıxdı və pıçıldadı:

– Sənin dərdin, mənim də dərdimdi, Mixail Petroviç.

General Həmidi indi gördü.

– Sən də burdasan? Görürsən başıma nə gəlib?

– Ağır dərddi.

– Bir orduda olsaq da, bir həftəyə yaxındı İranı görmürdüm. Bu da bizim son görüşümüz... Petyadan məktub almışdım, hazırlaşırdım ona göstərim, oğlundan çoxdandı bir xəbər-ətər yox idi, nigarandı. Nigaran da getdi...

Tibb bacıları aram olmurdular.

Rəis müavini korpus komandirinə İrina Alekseyevna Sorokinanın (Həmid Qradovun arvadının ayrı familiyası olmasını bilmirdi. Dünən burda Sorokina familiyasını eşidəndə onun ağlına gəlmirdi ki, bu, İradır) necə həlak olmasını dedi. General Qradov bomba düşən yerləri gəzib baxdı. Yaralılardan ağır vəziyyətdə olanları salamat qalan iki çadırda yerləşdirilmişdi. O biriləri açıq havada, ağacların arasında uzatmışdılar. Camaat əziyyət çəkirdi. Korpus komandiri onunla gələn polkovnikə əmr elədi ki, tibb-səhiyyə batalyonunun yerini təcili dəyişdirsin və yaralıların arxaya göndərilməsi ilə şəxsən məşğul olsun.

Tibb-səhiyyə batalyonuna uzanan şose yolunun qırağında, gəliş-gedişli yerdə məzar qazdılar, döyüşçülərin meyitlərini plaş-bürüncəyə



büküb məzara qoydular. General Qradov arvadını özü qucağına alıb torpağa tapşırdı. O, İrina Alekseyevna ilə vidalaşanda dodaqaltı nəsə pıçıldadı, sonra gözüyaşlı qalxıb kənara çəkildi.

Ay göyün tən ortasına qalxmışdı, bayaqdan səmanın aynasında ordan-burdan axan seyrək bulud topaları sovuşub getmişdi. Aydınlıqda məzara bellə torpaq atanların kölgəsi də görünürdü. General, arvadının məzarına beş-altı bel torpaq atdı, beli ondan alan Həmid fikirləşirdi ki, Həştərxanda Pyotr Anisimoviçin ailəsində hamıdan artıq onu başa düşən İra idi, sadə, qayğıkeş İra. Mişanın bütün ailəsi cəbhədə idi. Barı axırı xeyir olaydı.

Arvadının ölümü Mixail Petroviçə ağır təsir eləmişdi. O, Həmiddən bura necə düşməsini soruşmağı da unutdu, gedəndə qəmli-qəmli dedi:

– İra ayrı cəbhədə, arxada bir hospitalda cərrah idi. Mən yazıb komandanlıqdan xahiş elədim ki, onu bizim cəbhəyə köçürsünlər, yanımda olsun. İkimizin də başı qarışırdı, bəzən həftələrlə görüşmürdük. Bica yerə arvadı yerindən eləmişdim. Nə isə, görünür taleyin hökmü belə imiş.

General, arvadının torpağından bir ovuc götürüb yaylığının arasına tökdü və cibində gizlətdi. "Villis"ə əyləşəndə Həmidə dedi:

– Sağlıqla qal.

Generalla gələn qoca polkovnik korpusun qərargahına qayıtmadı, tibb-səhiyyə batalyonunda qaldı. Harasa zəng çaldı, kiminləsə danışdı, əmr elədi ki, təcili yük maşınları göndərsin. Həkimləri, feldşerləri və tibb bacılarını yığıb tapşırırdı ki, vaxt azdır, köçürlər, tez yır-yığış eləsinlər. Camaatın başı köçməyə qarışdı. Həmid də onlara kömək elədi. Dan yeri ağaranda rəisi əvəz eləyən kapitandan icazə almadan, xəlvəti meşənin ayağından keçən şose yoluna çıxdı. Oradan tez-tez maşınlar gəlib-gedirdi. Əl qaldırdı, ön xəttə mərmi aparan bir üçtonluq maşının kuzovuna qalxıb hissələrinə getdi.

* * *

Həmidinki gətirdi, hissələrini çox axtarmadı, yük maşını onların batalyonlarının böyründə duran topçu alayına mərmi aparırdı, üçtonluqdan düşəndə öz poçtalyonlarını gördü. Hələ ona bir məktub da gəlmişdi, açıb oxudu, qardaşı İsmayıl yazırdı ki, Bakıda salamatlıqdır, onlar sarıdan nigaran olmasın, yaxşıdırlar. Həmid yoldaşlarının arasında

olmadığı bir sutka ərzində rotalarında heç bir dəyişiklik olmamışdı. Ön xətdə sakitlik idi. General Qradovun arvadının bombardmanda həlak olma xəbəri ora da çatmışdı. Həmiddən soruşdular ki, necə oldu, sən də orda idin, danış görək. O, gördüklərini dedi.

Rota komandirinin başı söhbətə qarışdı, heç Həmiddən tibb-səhiyyə batalyonundan nədən ötrü belə tez qayıtmasının səbəbini xəbər almadı.

O gün ön xətdə axşama kimi sakitlik oldu. Ancaq hərdən faşistlərin batareyaları bizimkilərin mövqelərinə atəş açırdılar. Bizimkilər atəş nöqtələrinin yerini bildirməmək üçün onlara cavab vermirdilər. Yüksəkdən uçan düşmən kəşfiyyatçı təyyarəsinin uğultusu kəsilmirdi.

Gecə gündüzdən də sakit keçdi.

Həmid səngərdə əvvəlki yerini tutmuşdu, yenə Nikolay Frolovla yanaşı idi. Sibirli onun avtomatını özünə verib dedi:

– Al, yiyəsi üçün darıxırdı. Başqasını bilmirəm, mənim əlim bir tüfəngə yatdı, ona öyrəşdim, qurtardı getdi, oldu mənə doğma. Hər tüfəngin öz xasiyyəti var, sanki canlıdı, gərək onun dilini biləsən, yoxsa o sənin sözünə qulaq asmaz, düz vurmaz. Yaxşı tüfəng ovçunun arxasıdı.

Kolya Frolov tüfəng barəsində çox şey dedi. Həmid onları dinləsə də, hamısı ona fərziyyə kimi gəlirdi. Avtomatına baxdı, disk dolu idi, onu səylə silib təmizləmişdilər, zavoddan təzəcə çıxmış kimi par-par parıldayırdı.

– Sağ ol, qardaş, – dedi, – avtomatı karlı saxlamısan.

– Qayda belədi, lazım oldu-olmadı, gərək yarağı saz saxlayasan.

Səhərin gözü yenicə açılmışdı ki, qəfildən faşist topları Qradovun korpusunun müdafiə mövqelərini güclü atəşə tutdular. Atəş elə sıx idi ki, mərmi mərminin böyrünə düşürdü. Partlayış partlayışa calanırdı. Həmid cəbhəyə gələni belə artilleriya hazırlığı görməmişdi. Ayağının altında yer silkələnirdi, sanki zəlzələ idi. Göydən də "Yunkers"lərin dəstələri səngərlərin üstünə bomba tökürdülər. Bombaların partlayışı mərmilərin səsinə qarışmışdı. Həmid əsgərlərdən qəlpənin göydən dolu kimi yağdığını çox eşitmişdi, mübaliğə hesab edirdi, indi onu da gördü, nə dəhşətli imiş...

Həmidin böyründə səngərin divarına sıxılmış Frolovun üzünə toz-torpaq qonmuşdu, bir qaşı sanki çallaşmışdı, ana istəkli balasını bağrına basan kimi sibirli də karabinini bağrına basmışdı, gözləyirdi.



Qəlpələr eşşəkarısı kimi vızıldaya-vızıldaya bələdən-beləyə şığıyırdı.

Almanların artilleriya hazırlığı on dəqiqə çəkdi. Bu on dəqiqədə Qradovun korpusunun sahəsinə bir aləm mərmi, mina, bomba töküldü. Korpusun hissələri etibarlı səngər və xəndəklərdə daldalanmasaydı, bu atəşdən salamat çıxan döyüşçü, top, pulemyot olmazdı. Həmidgilin rotası doqquz nəfər itirdi. Qalanları yerində möhkəm dayanmışdı.

Artilleriya hazırlığı soyuyar-soyumaz düşmən piyadaları tankların müşayiəti ilə hücuma keçdilər. Asanlıqla irəliləməyə ümid bəsləyən faşistlər müqavimətə rast gəlsələr də, dayanmadılar, onlardan bir dəstəsi Həmidgilin səngərinə çatdı, səngərin içinə düşənlər də oldu. Əlbəyaxa vuruşma başlandı, Həmid avtomatının qundağı ilə ikisini yerə uzatdı. Kolya Frolov olmasaydı, üçüncü soldat arxadan onun nəfəsini kəsəcəkdi. Sibirli karabinin qundağı ilə faşistin gicgahından necə ilişdirsə, səsini də çıxartmadı.

Səngərə tökülüşən alman soldatlarının biri də sağ qalmadı, piyadalarla korpusun müdafiə xəttini yarmaqdan əl üzən faşist komandanlığı döyüş meydanına əlavə tanklar buraxdı, Həmidgilin rotasının döyüşçüləri onlardan yalnız birini vura bildilər, o birilər atəş aça-aça irəliləyib bizimkilərin arasında şaşqınlıq saldılar.

Rotanın döyüşçülərində bir dənə də tankvuran qumbara qalmamışdı, hamısını işlətmişdilər, avtomatla, pulemyotla o boyda zirehli maşınlara nə eləmək olardı?!

Bir "Pantera" düz Həmidgilin üstünə gəlirdi. Həmid qəzəbindən yanıb-tökülürdü. "Gərək qumbaradan birini saxlayaydım. – O, bayaq boşa gedən son qumbarası üçün heyifsiləndi. – Gəlin, əclaflar, gəlin, hələlik meydan sizinkidi..." Həmid hiddətindən özü də bilmədi ki, nə eləyir, tətiyi sıxıb avtomatının diskindəki güllələrin yarısını "Pantera"nın tırtılına buraxdı, güllələr dəmirlərə dəyib yerə töküldü.

"Pantera" onların üstünə gəlirdi, aralarındakı məsafə azalırdı.

"Pantera" indi tələsmirdi, yavaş-yavaş gəlirdi, Həmid istəyirdi ki, o tez gəlsin, gəlib onların üstündən tez keçsin, bu dəhşətli saniyələr mümkün qədər tez sona yetsin. Xırıldaya-xırıldaya nəhəng tısbağa kimi asta-asta irəliləyən "Pantera" sanki qumbaraların qurtarmasından xəbərdardı və bu ləngliyi ilə səngərdəkilərə psixi təsir eləyirdi.

"Mənim də axırım belə çatdı..."

Tankın kölgəsi səngərin üstünə düşəndə elə bil kimsə əlini uzadıb Həmidin hülqumundan yapışdı, o, taqətsiz halda gözlərini yumub səngərin qabaq tərəfinə sıxıldı...

* * *

Həmid özünə gələndə hava qaralmışdı. Əvvəlcə elə zənn elədi ki, gündüzdür, gözlərinin qabağı tor gətirir, buna görə də ətraf ona belə qaranlıq görünür. İstədi qalxsın, qalxa bilmədi, səngərin divarı üstünə uçmuşdu, dizə kimi torpağın altında qalmışdı, qucağının torpağını yerə tökəndə hiss elədi ki, əlləri sağ-salamatdır. Ayaqlarından nigaran idi, onlar elə keyimişdilər ki, elə bil daş parçası idilər. Həmid hövl içində yeyin-yeyin torpağı çəngələyib yana tökdü. "Barı, ayaqlarım salamat olaydı... Bəs bizimkilər hanı, səs-səmir eşidilmir?!"

Səngərdə vahiməli bir sükut vardı. Həmid qıçlarının üstündən ovuc-ovuc götürüb kənara atdığı torpağın səsindən savayı heç nə eşitmirdi. "Tək qalmışam?! Bəs uşaqlar necə olub? Lələ köçüb, yurdu qalıb". Həmid təəccüb eləyirdi ki, o böyüklüyündə tank səngərlərinin üstündən keçib, amma ona bir şey olmayıb. "Əgər ayaqlarım salamatdırsa, mənim bu dəhşətdən xətərsiz çıxmağım əsil möcüzədi..."

O, gözlərini gen açıb səngərin ora-burasına baxdı, sağında qaraltı görüb, səslədi:

– Orda kim var?

Hay verən olmadı, bir də səslədi:

– Kim var, kim yox?.. Hay verin!

Dinən olmadı. "Bizimkilər geri çəkiliblər, bu qaraltılar, güman ki, meyitlərdi, əlbət məni də ölmüş bilib gediblər..."

Ayaqlarını çəkib torpağın altından çıxartdı, əlini topuqlarına, dizlərinə sürtdü, yaralanan yeri yox idi, ancaq sağ dizinin kündəsi tuluqlanmışdı, əl dəyəndə ağrıyırdı. O, tankın altından belə sağ çıxmasına və heç yerinin yaralanmamasına inana bilmirdi. "Bu vəziyyətdə mindən biri sağ çıxar, o da mənim bəxtimə düşüb. Bundan sonra day mənə zaval yoxdu..."

Həmid qalxdı, addım atanda dizi sancdı. Ancaq elə ağrı idi ki, dözmək olardı. O bir az aralıdakı qaraltının üstünə tökülmüş torpağı təmizləyib baxdı. Kolya Frolov idi. Əlini sibirlinin alnına qoydu, ilıqdı. "Ölməyib, sağdı!" Əlini əlinə aldı, Kolyanın əli də isti idi. Həmid ümidlə yoldaşının yaxasını açdı, onu silkələdi.



– Kolya, Kolya!

Frolov astaca gərnəşsə də hay vermədi.

"Sağdı, sağdı..." Həmid onun belindən yapışıb açıq yerə çəkəndə sibirli yavaşca nıqqıldadı. "Görəsən, harası yaralanıb?" Həmid fikirləşdi ki, kibrit olsaydı, yandırıb yoldaşının nədən ötrü nıqqıldadığını görər, kömək eləyərdi.

Həmid o biri qaraltılara da baxdı, biri baş serjant Vasili Çiqrinov idi, çoxdan keçinmişdi. Onun yanındakı ufalı Samat Nəzərov telefon cihazının üstünə düşüb qalmışdı. Həmid Kolya Frolovun yanına qayıtdı, saatı yatmışdı. Səhərin açılmasına nə qədər qalırdı? O nə eləməli, öz batalyonlarını necə və harada axtarmalı idi? Almanlar burdan çoxmu uzağa getmişdilər?! Həmid Kolya üçün narahat oldu. "Barı bunun yarası ağır olmayaydı. Mən ona necə kömək göstərə bilərəm?! Heç fərdi paketim də yoxdu, yarasını sarıyam. Yaranı boş-boşuna, dərmansız sarımağın nə faydası?!"

Bir yerdə çox oturmaqdan Həmidin canına nəm səngərin soyuğu keçmişdi, üşüyən kimi oldu, əl-qolunu hərəkətə gətirib qızışdı.

Gecənin sakitliyini lap yaxından gələn maşın səsi pozdu. Səngərin sağ cinahından köhnə şose yolu keçirdi. Həmid başını səngərin içindən çıxarıb qulaq asdı, səs ordan gəlirdi. Bu, nə maşın idi? Hara gedirdi?! O, diqqətlə qulaq verdi. Səsdən belə güman etmək olardı ki, yoldan bir yox, bir neçə maşın keçir. O, yerə əyilə-əyilə səngərdən çıxdı, ehtiyatla həndəvərə göz gəzdirdi, kimsə yox idi, olsaydı da qaranlıqda heç nə görməyəcəkdi. Yadına düşdü ki, avtomatını götürməyib, geri qayıdıb avtomatını axtarıb tapanacan maşınlar çıxıb getdilər.

Həmid fürsəti əldən verdiyinə görə özünü qınadı: "Bəlkə onlar bizim maşınlar idilər, qabaqlarına çıxardım, bizi mindirib aparardılar. Kolya o vəziyyətdə, mən də axsayıram. Əgər biz, doğrudan da, düşmənin arxasında qalmışıqsa, onda gərək axtarıb partizanları tapaq. Bəs partizanları necə tapaq, onlar tində durub bizi gözləyirlər?!"

Həmid avtomatı bir tərəfə qoyub, səngərdə rahat uzanmaq üçün Kolya Frolova yer hazırlayanda yenə şose yolundan maşın səsi gəldi. O, silahını qamarlayıb cəld səngərdən çıxanda əzilən dizi bərk sancdı, məhəl qoymayıb yola yaxın getdi, kənarda dalda bir yerdə dayanıb baxdı. Qaranlıqda uzaqdan yolda qara siluetlər görünürdü. Dallarına top bağlanmış maşınlar Şərqə tərəf gedirdilər. Həmid siluetlərindən təyin elədi ki, maşınlar almanlarındır, onlar cəbhə xəttinə gedirdilər,

buna şübhə ola bilməzdi. Lap uzaqdan, hərdənbir çətinliklə eşidilən top atəşinin gurultusu gəlirdi. Almanlar səhər tezdən hücuma keçib müdafiə xəttini yarmışdılar, indi gecəyarı idi. Deməli, onlar bu müddətdə bir neçə kilometr irəliləyə bilmişdilər. Həmid indi anladı ki, düşmən arxasında qalıblar. "Bayaq yoldan keçib-gedənlər də düşmən maşınları imiş. Allahın altında bir topum olaydı, çəkəydim düz bura, bu əclaf uşaqlarına bir toy tutardım ki... Sən işə bir bax, gözüm görə-görə faşist toplarını sağ-salamat buraxıram gedib bizimkilərə atəş açsınlar".

Maşınlar uzaqlaşdılar, yol kimsəsizləşdi. Həmid kolun dalından qalxıb səngərə qayıtdı. "Görünür, buralarda hələ partizan dəstələri yoxdu. Yoxsa faşistlər yoldan belə sərbəst keçə bilməzdilər..."

Şose yolu sakitləşmir, yenə də oradan maşının səsi gəlirdi. Həmid yaxına gedib baxmasa da, səsin uzaqlaşmasından təyin edirdi ki, bu maşınlar da bayaqkı kolonnalar kimi eyni istiqamətə gedir, alman komandanlığı ön xəttə təzə qüvvələr çıxarır.

Kolya Frolov zarıdı. Yoldaşını uzatmaq üçün səngərin açıqlığında yer düzəldən Həmid işini yarımçıq qoyub onun yanına gəldi.

– Nə var, Kolya?

– Başım gicəllənir, həm də susuzluqdan dil-dodağım quruyub, mənə bir içim su.

Həmid o tərəfdə, səngərin yarığında bir əzik qumquma görmüşdü, o yadına düşdü, gedib gətirdi, dibində bir-iki qurtum su qalmışdı. Qumqumanın qapağını açıb ağzını Kolyanın dodaqlarına dayadı.

– İç, burda bir azca var.

Frolov yöndəmsiz oturmuşdu. İçəndə qumqumanın içindəki o üç-dörd qurtum suyun yarısı sinəsinə damcıladı, ağzı islandı, ancaq sudan boğazına getmədi.

– Bundan mənə nə olacaq, day yoxdu?

– Yox.

Həmid əlini səngərin güman gələn yerinə sürtdü, qaranlıqda ayrı qumquma tapmadı, ancaq pulemyot yarığının qırağında ağzı bağlı bir qazança tapdı, ağır idi, içinə nəsə tökülmüşdü. Ümidlə qazançanın qapağını açdı, burnuna şorba qoxusu dəydi. Dünən starşina şama onlara buğda yarmasından şorba bişirtdirmişdi. Həmid dünəndən ac idi, dilinə heç nə dəyməmişdi, bu boyat şorbanı həvəslə başına çəkdi. Ancaq fikirləşdi ki, şorba suludur, Kolyanın yanğısını söndürər.



– Kolya, su yoxdu, al bu şorbanı iç.

– Sən içirt, onun da yarısını dağıdaram.

Həmid qəzet parçasına büküb uzunboğaz ayaqqabısının boğazında gizlətdiyi alümin qaşığını çıxardıb şorbanı Kolyaya içirtdi.

– Sağ ol, Həmid, ancaq suyun yerini heç nə vermir.

Onlar səhərin açılmasını gözlədilər. İşıqlananda Həmid Frolovun yarasına baxdı, başının dalı harasa dəyib çapılmışdı, güllə, qəlpə yarası deyildi, qan boynuna axıb saçlarında laxtalanmışdı. Ciblərində ehtiyat üçün fərdi tibb paketi yox idi, Həmid səngərdən bir əleyhqaz tapdı, onun çantasını çıxartdı, tikişlərini aradan qopardıb Kolyanın yarasını sarıdı. Yara üzdən olsa da, Frolov başını tərpədə bilmirdi. Tərpədəndə ona elə gəlirdi ki, yer ayağının altından qaçır. Başı harayasa dəyib, beyni silkələnmişdi.

– Düşmən arxasında bu kökdə mən nə eləyə bilərəm?!

– Darıxma, Kolya, fikirləşib bir yol taparıq.

– Fikirləşməkdən keçib, mən yerimdən tərpənə bilmirəm, bir yol var, məni burda qoyub vaxt ikən başına bir çarə qılasan.

– Sarsaq söz danışırsan, necə yəni səni burda qoyub gedim?! Sən məni nə hesab eləyirsən?

– İkimizin bir yerdə qalmasının nə mənası?! Sən getsən, əlin silah tutur, vuruşarsan, qalsan, mən burda sənin əl-qolunu bağlayacağam.

– Yox, Kolya. Bundan sonra ölsək də, bir öləcəyik, qalsaq da, bir yerdə qalıb, son nəfəsimizəcən vuruşacağıq.

– Nahaq inad eləyirsən, Həmid.

– Necə olursa olsun, biz səninlə cəbhə xəttindən o taya keçib, özümüzünkülərə qoşulmalıyıq.

– Mən olmasam, sən təkbaşına cəbhə xəttini keçərsən, ancaq mən sənin əl-ayağına dolaşacağam. Azı yeddi pudam, özü də yeriyə bilmirəm, gərək məni dalına alıb aparasan. Bəyəm yüz-iki yüz metr yol gedəcəyik ki, birtəhər aparasan, xeyli yoldu, buna dözmək olar? Güc çatar?

– Dözərəm, Kolya, Allah güc paylayanda səxavətini məndən əsirgəməyib. Lazım gəlsə, səni dalına alıb lap dünyanın o başına aparacağam.

Səhər açılmışdı. Həmid səngəri gəzdi ki, görsün nə var, nə yox, gözünə ayrı bir meyit dəymədi. Ölüb səngərdə qalan iki nəfər idi. Baş serjant Vasili Çiqrinov, bir də rabitəçi başqırd Samat Nozərov. "Bu tezliklə heç kim gəlib meyitləri dəfn eləməyəcək, onlar burda

elə belə də qalacaqlar". Həmid əvvəlcə bu cür düşündü ki, üstlərinə torpaq töksün, elə səngərdə qalsınlar. Sonra fikrini dəyişdi. "Yox, onlar səngərdə qalsalar, itib batarlar, yerləri bilinməz. Onsuz da Kolya ilə axşamın qaranlığında yola çıxacağıq. Gündüz işığında bizi görərlər. Hava qaralanacan xeyli vaxt var, görüm neynirəm?!"

Həmid Kolyaya dedi:

– Gözlə, gedib yolu bələdləyim, indicə qayıdıram, – Həmid Kolyanın karabinini uçqunun altından çıxarıb toz-torpağını çırpdı, yoldaşına verdi. – Ehtiyat igidin yaraşığıdı, al, bəlkə kara gəldi.

Karabinin xəzinəsi dolu idi. Frolov tüfəngi yanına qoydu. Həmid çöldə kol-kosun arasında daldalana-daldalana ətrafı müşahidə elədi, aşağıdan keçən yola baxdı. Əlbəttə, şərqə sarı hərəkət eləmək rahat və arxayın idi, qabaqlarına dərə-təpə çıxmayacaqdı, azmayacaqdılar. Lakin yoldan tez-tez faşist maşınları keçirdi. Həmid qərara gəldi ki, gəliş-gedişli yerlərdən mümkün qədər uzaq olub yollarını xəlvətdən salmalıdırlar. Ayaq dəyməyən yolda dalında o ağırlığında kişini aparmaq asan məsələ olmasa da, ayrı əlacı yox idi.

O, səngərə qayıtdı, Kolya qoyub getdiyi kimi də qalmışdı. Addım səslərinə gözlərini açdı:

– Bir şey öyrənə bildin?

– Yolu balaca bələdlədim, yavaş-yavaş yan-yörəmizə baxa-baxa gedərik.

Həmid Çiqrinovla, Nəzərovun meyitlərini basdırmağa səngərdən təxminən səksən-yüz metr aralı şose yoluna çıxan cığırın qənşərində hamar bir yer görmüşdü. Bunu Kolya Frolova demişdi, sibirli, yoldaşlarının həlak olmasına heyifsiləndi.

– Təkbaşına meyitləri ora nə cür aparacaqsan?

– Gündüzdən qəbir qazıyıb qoyacağam, axşam onları bir-bir qucağıma götürüb apararam.Vaxtımız çox getməz. Sən burda gözləyərsən, onları basdıraram, sonra yola çıxarıq.

Kolya Həmidin təklifini bəyəndi:

– Təkbaşına əldən düşəcəksən.

– Neynək, sən məni gözlə, işdi ləngisəm, nigaran qalma.

Həmid bayaq səngərin pulemyot yarığının qırağında gödək saplı bel görmüşdü, gedib onu götürdü, qəbir üçün seçdiyi yerə gəldi. İkinəfərlik bir qardaş məzarı qazdı, yeyin-yeyin işlədiyindən bərk yorulmuşdu, dincini almaq üçün üzbəüzdəki kolun dalında əyləşdi, gözləri



qəbirin içindən çıxan nəm torpaqda qalmışdı. "Samatla Vasyanın ömür yolu buracanmış. Samat Ufadan gəlib, Vasya Voronejdən, davadan qabaq bir-birlərini tanımırdılar. İndi mənzilləri həmişəlik bir olacaq, bir yerdə yatacaqlar, sümükləri çürüyüb bir-birinə qarışacaq. Biri müsəlman, o biri xristian. Torpaq dinə, millətə, əqidəyə fərq qoymur, səxavətlidi, qoynunda hamıya yer verir. O biz insanlarıq ayrı-seçkilik salırıq, bu böyüklükdə işıqlı dünyanı bölük-bölük eləmişik. Dünyanı on bu boyda eləsələr də, yenə bəzilərinə yeri darlıq eləyər..."

Həmid axşamüstü əvvəl Vasili Çiqrinovun meyitini qucağına alıb gətirdi, onun ardınca Samat Nəzərovunkunu. Bir ananın əkiz balası təkin onları nəm torpaqda yanaşı uzatdı. Həmidə elə gəldi ki, qardaşı Mikayıl həlak olub, onu vətəndən uzaqda dəfn eləyir, gözləri yaşardı, qəhərini boğub meyitlərin üstünə bellə torpaq atdı. "Rahat yatın, əziz qardaşlar, torpağınız yumşaq olsun".

Qəbirin üstünü örtəndən sonra Həmidin yadına düşdü ki, başdaşı lazımdır. "Bunu belə qoymaq olmaz, camaat hardan bilsin ki, qəbirdi, dağılıb gedər, bir parça taxta olsaydı, adlarını yazardım, davadan sonra yerli camaat üstünü götürərdi".

Həmid ətrafı axtardı, elə bir taxta parçası tapmadı. Səngəri gəzdi, orada da yox idi, əlinə bir əsgər qazançası keçdi, bıçağının ucu ilə qazançanın böyründə yazdı. "Burada voronejli, baş serjant Vasili Çiqrinov və ufalı sıravi əsgər Samat Nəzərov dəfn edilmişdir. 25 may 1942-ci il".

Alümin qazançanın yarısını başdaşı əvəzinə qəbirin nəm torpağına basdırdı ki, yazı üstdə qalıb oxunsun. Bununla da kifayətlənmədi, koldan nazik bir çubuq kəsib diqqəti gendən cəlb etmək üçün haşiyə kimi qazançanın qırağına bərkitdi. "Bu ayrı məsələ, indi bilinir burda adam basdırıblar, dağıtmazlar..." Həmid dinməz-söyləməz məzarın önündə bir neçə saniyə dayandı: "Əlvida, qardaşlar..."

Təkbaşına bu qədər işi görən Həmid yorulsa da, özündən razı halda Kolya Frolovun yanına qayıtdı:

– Mən hazır, Kolya, gedək?

Frolov bu işdə yoldaşına kömək eləyə bilmədiyinə heyifsilənirdi.

– Bəs dincini almırsan?

– Gedək, yolda alaram, vaxtımız çox olacaq.

Kolya Frolov istədi özü qalxsın, başı gicəlləndi.

– Sənə dedim axı mənə bənd olma, çıx get, qulaq asmadın.

– Onu eşitmişəm.

Həmid öz avtomatını, Kolyanın karabinini götürdü və çöməldi.

– Dalıma minə bilərsən?

– Yox.

Həmid hiss elədi ki, Kolya ona əziyyət verməmək üçün özünə nə qədər çətin olsa da, ayaqla getmək istəyir, ancaq gedə bilmir, yoldaşını dalına aldı.

– Uff...

Kolya elə həyəcanla ufuldadı ki, Həmid onu yerə qoydu.

– Nə oldu?

– Sənə deyirəm ki, gedə bilmərəm, qalxanda başımdan dəhşətli bir ağrı qopur, az qalıram ölüm, inanmırsan.

– İnanıram, nə sayaq sənə rahatdırsa, o cür əyləş dalımda, Kolya, əzizim, mənə əziyyət olmasını fikirləşmə.

Frolov Həmidin dalına minib iki əlini onun boğazına doladı ki, yıxılmasın. Bu vəziyyətdə – bir əlində iki silah tutan Həmidə hərəkət eləmək çətin olsa da, birtəhər səngərdən çıxdı. Xəlvət yolla cəbhə xəttinə sarı irəlilədi. Təxminən beş yüz metr getmişdi ki, qaranlıqda xışıltı eşidib dayandı, elə bildi ki, qarşıdan kimsə gəlir, ehmalca Kolyanı yerə endirib avtomatını hazır tutdu. Xışıltı kəsildi. Həmid nigaran qaldı, bu nə xışıltı idi, onların izinə düşmüşdülərmi, ya qarşılarına tülküdən, çaqqaldan çıxmışdı?! Gözlədilər, xışıltı təkrar olunmadı, Kolya lap astadan pıçıldadı:

– Yəqin qabağımızdan qaçan vəhşi heyvandı, biz onu hürkütdük.

– Heyvan olsa eybi yoxdu, xatası çıxmaz. Faşistlər olmasınlar.

Onlar bir müddət gözlədilər. Həmid dincini aldı, bərk acımışdı, ona elə gəlirdi ki, qabağına bir qoyunun ətini qoysaydılar, bir oturuma hamısını yeyərdi. Aclığa nə qədər dözmək olardı?! Əgər bilsəydi ki, sabah səhər, ya axşam, ona yeməyə bir şey verəcəklər, o çağacan dözərdi. Kolya da acımışdı, səhər içdiyi yarım qazança şorbanın üstündə idi.

– Gedək, Kolya!

– Gedək, qardaş.

Həmidə belə gəlirdi ki, onlar irəlilədikcə addım-addım cəbhə xəttinə yaxınlaşırlar. Lakin cəbhə xətti onlardan saatbasaat uzaqlaşırdı. İndi heç uzaqdan partlayış səsi, mərmilərin, bombaların gurultusu da eşidilmirdi.



Onlar bir ayaq-bir ayaq irəliləyirdilər. Kolya üzünü onun kürəyinə qoymuşdu, yoldaşının nəfəsi Həmidin boynuna dəyirdi. Sərin may axşamı idi. Haradansa qurbağa qurultusu eşidilirdi. Başqa vaxt qurbağa səsindən zəhləsi gedən Həmid indi istəyirdi ki, o susmasın. Gecənin bu vədəsi çöllərin kimsəsizliyi onların xeyrinə olsa da, maneəsiz irəliləsələr də, qurbağaların səsi sanki ona deyirdi ki, ətrafa tökülən mərmi və bombalar təbiətdə bütün canlıları tələf eləməyib, həyat öz məcrası ilə gedir, ümidsiz olmayın.

"Müharibədəki çətinlik və məhrumiyyətlər insanları necə də bir-birilə doğmalaşdırır, yadlar yaxın olurlar. İndi Kolya mənə pənah gətirir, cəmisi üç aydı tanışıq, ağır vəziyyət bizi əvvəlkindən də mehriban eləyib..."

– Həmid, day dözə bilmirəm, qardaş, məni yerə qoy.

Həmid Kolyanı ehtiyatla şeh düşmüş torpağa uzatdı. Onlar böyük zəminin içi ilə irəliləyirdilər. Tapdalanan taxıldan xoş qoxu gəlirdi.

– Bayaqdan səsimi çıxartmır, dişimi sıxıb dözürəm, Həmid, başımın içinə sanki, ağır bir çəkiclə zərbəni zərbə ardınca endirirlər.

– Bir hovur gözləyək, bəlkə, keçib getdi.

Həmid avtomatını götürüb daldalanmaq üçün ətrafda sığınacaq axtarmağa getdi. Göydə ulduzlar sayrışsa da, yerdə bir işıq, işıltı görünmürdü. O fikirləşirdi ki, kaş yaxınlıqda bir ev olaydı, orada yerli camaatdan bir nəfər qalaydı və Kolyanı tapşırardı ona. Bu vəziyyətdə kişini hara aparaydı, ona nə köməyi dəyə bilərdi?!

Həmid azmamaqdan ötrü Kolyanı qoyduğu yeri nişanlamışdı, zəminin qırağına xeyli daş-kəsək yığmışdı. O, həndəvəri çox dolandı, gözünə yaşayış məntəqəsi, bir ev dəymədi, yalnız iki zəmini ayıran şose yolunun ətəyində damının yarısı uçmuş bir talvar gördü, o da kara gəlməzdi. Həmid geri qayıtmaq istəyəndə çöldə kol-kosların arxasında zolaq kimi uzanan bir qaraltı görüb oraya getdi. Bura ortasından bilək yoğunluğunda su axan, içini ot-alaq basmış bir ensiz yarğan idi. Həmid yarğana düşdü, onun içi ilə xeyli getdi, ins-cinsə rast gəlmədi, düşündü ki, açıqlıqda taxılın içində qalmaqdansa, yenə buralar yaxşıdır, uzaqdan görünmür, həm də su yaxındadır, bu da şərtdən idi. Səhər Kolyanı yarğanda qoyub ərzaq axtarmağa gedə bilərdi.

Həmid yoldaşını qoyduğu yeri çox axtarmadı. Kolyanı ehtiyata qucağına aldı, yarğana gətirib ehmalca uzatdı, yeri narahat olsa da, bir də tərpədib ona artıq əziyyət vermədi. "Səhərə kimi birtəhər dözər. Hava işıqlananda axtarıb buralarda ona yöndəmli bir yer taparam".

Sibirli nıqqıldaya-nıqqıldaya gərnəşdi:

– Ölürəm, qardaş...

– Bir az da döz. Hava işıqlansın, bir ev tapıb səni ora aparacağam, Kolya.

– Bəlkə də heç səhərə çıxmadım, sənin əl-qolunu bağlamışam. Biz səninlə cəbhə xəttini keçə bilməyəcəyik, bu, xam xəyaldı.

– Xam xəyal deyil, Kolya, cəbhə xəttini keçib bizimkilərə qoşulmaq olar, hələ imkan var.

– Tək getsən, əlbəttə, keçərsən, ancaq mənimlə yox.

Həmid nə cavab verəydi, yoldaşı doğru deyirdi.

– Oy başım...

Kolya Frolovun başından bəzən elə dəhşətli ağrılar başlayırdı ki, yazıq o dünyaya gedib-qayıdırdı, ucadan ufuldamağa taqəti qalmamışdı.

"Bu da işdi, yoldaşın gözünün qabağında əziyyət çəksin, ona bir kömək eləyə bilməyib, baxa-baxa qalasan?!"

Gecə ildırım çaxdı, göy guruldadı, narın yağış yağmağa başladı. Həmidin dərdi-qayğısı az idi, biri də böyürdən çıxdı. O yarğanı dolanıb, yağış tutmayan bir yer axtardı. Kolyanı qoyub gəldiyi yerdən əlli-altmış metr o yana bir oyuq tapdı, əlini salıb yoxladı, içi quru idi. Kolyanın orada daldalanması üçün Həmid oyuğu mütləq böyütməli idi. Böyüdərdi, bu, nə çətin iş idi, ancaq bel lazım idi, onu haradan tapaydı? Həmid oyuğun üzbəüzündəki iri koldan bir neçə çubuq qırdı, onlarla oyuğun divarını ovub torpağı ovxalaya-ovxalaya xeyli əlləşdi. Çubuqların hamısı sındı, oyuğu bircə qarış böyüdə bildi.

Havadan hiss edilirdi ki, səhərin açılmasına az qalıb, yağış da əvvəlki təkin narın-narın tökürdü. Həmidin çiyinləri, kürəyi islanmışdı. Kolya divarın dibində yatmışdı. Oranı yağış çox tutmasa da, bir tərəfi islanırdı. Həmid Kolyanı qucağına alıb gətirəndə ufuldaya-ufuldaya dedi:

– Məni hara aparırsan, qardaş, qoy burda qalım?

– İslanırsan.

– Mənimki islanmaqdan keçib.

Həmid Kolyanı gətirib qurşağa kimi oyuğa soxdu. Onun ayaqları bayırda qaldı, yeri yumşaq olsun deyə öz köynəyini çıxartdı, balış kimi bürmələyib onun başının altına qoydu.

– Yerin nə sayaqdı?



– Yerdi də, ölmək olar...

– Sən də söz danışdın.

Həmid bayaq çubuq qopartdığı koldan iki qalın budaq qırıb gətirdi, onların bir ucunu Kolyanın bayırda qalan ayaq tərəfində yerə basdırdı. Sonra əynində qalan alt köynəyini soyundu, dirəklərin üstünə atıb talvar kimi düzəltdi ki, yağışın suyu axıb Kolyanı islatmasın. Ağ köynək uzaqdan nəzəri cəlb eləyərdi, ehtiyat üçün Həmid kolun xırdaca yarpaqlarından bir qucaq dərib talvarın üstünə tökdü.

Həmidin əynində təkcə qalife şalvarı qalmışdı, gecənin sərinliyində üşümürdü. O elə gərgin idi ki, üşümək yadına düşmürdü.

Kolya Frolovun nıqqıltısı kəsilmişdi. Həmid hövlləndi. "Birdən Kolya...". Əyilib yaxından fikir verdi, sibirlinin nəfəsi gedib-gəlirdi, yuxuya getmişdi. Həmid sakitləşdi, elə onun böyründəcə avtomatını qucağına alıb, kürəyini divara söykəyib dincəldi. Axşam içi ilə addımladıqları zəmi fikrindən çıxmırdı, o bu yarğandan çox da uzaqda deyildi, taxılı sütül olsaydı, eybi yoxdu, ondan doyunca yemək olardı. "Buralarda taxıl gec yetişir. Bizim yerlərdə mayın axırlarında – elə bu vədələrdə arpa biçilir, buğda sünbülləri də dənlə dolur. Buralarda yazın nəfəsi indi-indi duyulur. Yəqin indi Bakı bazarlarında gilas, alça, çiyələk boldu..."

Həmidi oturduğu yerdə yuxu apardı.

## XXV

Qucağında tutduğu avtomatını kiminsə zərblə dartmasından Həmid diksinib qalxmaq istəyəndə başına dəyən təpikdən böyrü üstə aşdı.

– Hendi xox!

Hava işıqlanmışdı. Həmid qəfil zərbədən özünə gələndə gördü ki, qabağında dörd yekəpər alman soldatı dayanıb. Dördünün də avtomatının lüləsi onlara tuşlanıb. Soldatların arxasında yerdə məftil sarınmış bir qarqara vardı. Həmid yəqin elədi ki, bunlar alman rabitəçiləridirlər, yarğanın içi ilə harasa telefon xətti çəkirlər, təsadüfən onların üstünə çıxıblar.

Soldatların qışqırığına Kolya Frolov da ayılmışdı, yerində qurcalanaraq söyürdü:

– Bu əclaflar, hardan gəldilər?!

Soldatlardan biri – üzü çilli, kürən kişi qışqırdı, Kolya qalxmadı. Soldat elə bildi ki, onları saya salmır, avtomatının tətiyini sıxıb lap Kolyanın yanında, yarğanın divarına bir qatar güllə buraxdı. Kolyanın bu dəfə də qalxmadığını görüb onun ayağından yapışaraq hirslə oyuqdan bayıra dartdı. Başı yerlə sürünən sibirlinin bağırtısı ərşə qalxdı. Həmid hiddətindən boğulurdu, istədi yeriyib soldatın boğazından yapışsın, o biri soldat atəş açaraq hədələdi ki, yerindən tərpənməsin.

Kolya Frolov ağrıdan yerdə qıvrılırdı. Soldat onun başının üstünü kəsdirib qışqırırdı ki, ayağa qalxsın. Həmid dözmədi, qəzəblə dedi:

– Qanın, qalxa bilmir, yaralıdı, beyni silkələnib.

Rus dilini bilməyən soldatlar elə zənn elədilər ki, Həmid onları hədələyir, avtomatın lüləsini iki yerdən onun qabırğasına dayayıb barmaqlarını tətiyin üstündə oynada-oynada qorxutdular. Həmid bundan xeyli qəzəblənsə də, dişini-dişinə sıxıb dözməkdən savayı ayrı əlacı yox idi. Almanlar dörd idilər, hamısı da avtomatlı, Həmidgil iki nəfər – Kolya da o vəziyyətdə. Almanlar əliboş olsaydılar, Həmid təkbaşına onların öhdəsindən gələrdi.

Kolya Frolov soldatları söyürdü:

– Əclaflar. Vəhşilər, o silahdan biri məndə olsaydı, sizə göstərərdim mən kiməm...

Həmid hiddətindən boğulurdu. "İt ilxısı, köpək sürüsü, bunlarla neynirsən? Kolya yazıq da o kökdə... buranı seçməkdə yaman ağılsız iş gördüm. Yağışdan islansaydıq da, gərək zəmidə gizlənəydik. Bir də mən ovcumun içini iyləmişdim, hardan biləydim ki, almanlar yarğandan telefon xətti çəkəcəklər?! Necə öz ayağımızla gəlib düşdük tora..."

Saata baxmasa da Həmid görürdü ki, səhər çoxdan açılıb, gün göy üzündə toplaşmış buludların arxasında qalmışdı, yağış da, görünür, çoxdan kəsmişdi.

Həmid bu çağacan yatıb yuxuya qalmasına peşman idi. "Gör necə yatmışam ki, başımın üstünü alıblar, oyanmamışam. Öldün, ya yatdın – heç bir fərqi yoxdu, dünyadan xəbərin olmur".

Üzü çilli soldat Kolyanın yaxasından yapışıb söyə-söyə qaldırmaq istəyəndə sibirli almanın biləyindən necə dişlədisə onun çığırtısından yoldaşları diksindilər. Soldatın biləyindən axan qandan Kolyanın üzünə sıçradı, o bundan iyrənib tüpürə-tüpürə yerdən bir çəngə yaş torpaq götürüb çənəsini siləndə iki yandan atəş açdılar, güllələr əlinə,



üzünə sancıldı, elə o anda da Kolya keçindi. Həmid daha dözmədi, atəş açan soldatın üstünə atılanda başına dəyən ağır zərbədən səndirləyib yerə yıxıldı, gözlərinin qabağı bir müddət qaranlıq gətirdi, yerdən qalxa bilmədi, burnuna dəyən spirt iyindən özünə gəlib gözlərini açanda gördü ki, bir soldat qumqumadan onun üzünə şnaps damızdıra-damızdıra əylənir. O biriləri də baxıb gülümsəyirdilər. Həmid qalxdı, başının dalı qoz boyda şişmiş, ancaq partlamamışdı. O fikirləşirdi ki, boş əllə dörd nəfər soldata müqavimət göstərməyin mənası yoxdur, faydasız ölmək əfəllik olar. Sağ qalsa, onu hara aparsalar, yenə qaçıb qurtarmaq ümidi var, belə ölməkdənsə ümidlə yaşamaq sərfəlidir. Sonra bunun əvəzini onlardan artıqlaması ilə çıxmaq olar.

Kolya Frolov üzüqoylu düşmüşdü. Onun üzündən və əlindən axan qan torpağı qızartmışdı.

Həmidin tüklü sinəsi, əlləri palçığa batmışdı, bu vəziyyətdə o çox heybətli görünürdü. Soldat avtomatın lüləsi ilə Həmidin belini dümsükləyib qabağa düşməsinə işarə elədi. O, son dəfə dönüb Kolyanın meyitinə baxdı. "Bağışla, qardaş, bağışla məni, sənin meyitini dəfn eləyə bilmədim..."

Həmid avtomatlarının lüləsini ona tuşlamış soldatların arası ilə addımlayırdı. Onu haraya aparırdılar? Güllələməyə? Yox, güllələsəydilər, elə burada güllələyərdilər. Bəs nə eləyəcəkdilər?! Həmidə bircə o bəlli idi ki, qabaqda onu daha dəhşətli şeylər gözləyir...

Səhər mehi əsirdi, gün gah buludların dalından çıxır, gah da gizlənir, sanki yerlə gizlənpaç oynayırdı.

Həmid cəbhəyə gələndə bütün çətinlikləri gözlərinin altına almış, ancaq əsir düşməyi fikrinə gətirməmişdi. "Bu nə qəza idi, mənim başıma gəldi?! Günah özümdə oldu, özümdə. Kolya yazıq da mənim ucbatımdan güdaza getdi. Barı bir adam çıxaydı onu basdırmağa, meyiti orda qalıb qurd-quşa yem olmayaydı..."

Həmid gedə-gedə yarğana baxırdı, onun elə yerləri vardı ki, əgər tapıb daldalansaydılar yarğanın içi ilə telefon xətti çəkən rabitəçilər onları görməyəcəkdilər. "Sübhdən ayılıb buraları gəzib baxsaydım, görərdim ki, daldalandığımız oyuqdan çox da uzaq deyil. Əfsus ki, çox zaman insan yalnız başı daşa dəyəndə necə kobud səhv elədiyini başa düşür. Allah eləməsin, tanış-biliş məni bu kökdə görsün... böyük biabırçılıqdı. Necə olursa olsun, mən tezliklə bunların əlindən qaçmalıyam..."

Onu yarğanın aşağısından keçən yolun qırağına gətirdilər. Almanlar burada şlaqbaum düzəldib keşikçi qoymuşdular. Yolun o tayında, qolu-qıçı tənziflə sarıqlı, sarıqsız on-on beş sovet döyüşçüsü çöməlib oturmuşdu, üstlərində də avtomatlı iki soldat dayanmışdı. Həmidi də gətirib o əsgərlərə qatdılar. Keçib kənarda oturdu. Hamının üz-gözündən zəhər tökülürdü. "Bunlar da mən dərddədilər..." Həmid onlara bir-bir göz yetirdi görsün batalyonlarından olan uşaqlardan yoxdur ki, tanış tapmadı. Lakin özününküləri görəndə təskinlik tapdı ki, tək deyil, bundan da çətinə düşsə, arxalanmağa adamlar var, onlar əl-ələ versələr, böyük qüvvədirlər.

Faşist təyyarələrinin uğultusu eşidildi. Onlar dəstə ilə gəlib Həmidgilin başı üzərindən uçaraq Şərqə tərəf getdilər. Həmid fikirləşdi ki, kaş bu təyyarələr bizimki olaydı, gəlib buranı bombalayaydılar, biz də öləydik, bu əclaflar da. Öləndə biləydik ki, öz bombamızdan ölürük.

Ober-leytenant rütbəli kürən bir zabit gəlib, çoban sürüdəki qoyunları sayan kimi barmağını silkələyə-silkələyə əsirləri saydı. Həmid də ürəyində saydı, on dörd nəfər çıxdı. Çoxu sağ-salamat idi, yaralanmamışdı. Onları sıraya düzdülər. Əsirlərin arasında təkcə Həmid qurşaqdan yuxarı lüt idi. Sırada üç-üç dayanmışdılar, onun sağına biləyi sarıqlı bir sıravi əsgər, soluna petlitsaları qırılmış, rütbəsi bilinməyən cavan kişi düşmüşdü. Əsirləri piyada, şose yolu ilə harayasa aparırdılar. Sir-sifətlərindən görünürdü ki, hamısı da Həmid kimi ac-susuzdur. Palçıqlı yolla hərə bir cür addımlayırdı. Heç elə bil hərbçilər deyildilər.

Həmidin sağıyla addımlayan biləyi sarıqlı sarışın əsgər soruşdu:

– Qardaş, lütsən, sənə belə soyuq olmaz?

– Soyuq dəyməkdən keçib.

– Necə yəni keçib?! – Oğlan yeriyə-yeriyə üst köynəyini soyunub Həmidə uzatdı. – Götür, geyin, mənə alt köynəyi də bəsdi.

– Sağ ol, qardaş...

Əsirləri aparan keşikçilər sıradakı danışığı eşidib şəkkə düşdülər, biri onlara yaxınlaşdı, Həmidin əyninə köynək geydiyini görüb arxayın irəli getdi.

Köynək Həmidin əyninə balaca idi, bədəninə kip yapışmışdı, boynu gəlmirdi yaxasının düymələrini bağlasın. Qolları da biləkdən



yuxarı idi. O bu görkəmdə özünə gülməli göründü. Alt köynəyində qalan biləyi sarıqlı, sarışın oğlan təskinliklə dedi:

– Eybi yoxdu, qız seçməyə getmirsən ki, canını soyuqdan, küləkdən saxlasın.

Həmidin tanımadığı bu qayğıkeş oğlana qanı qaynadı. "Elə bununla yoldaşlıq eləyərəm, arxalanmalı oğlandı. Xeyirxah adam qızıl kimidi – hər yerdə, hər şəraitdə nəcabətini bildirir". Sarışın oğlan Həmidin fikrə getdiyini görüb:

– İndi bizim dərdimiz də, qayğımız da birdi, – dedi, – gərək bir-birimizə arxa, kömək olaq, day mənim-sənin yoxdu.

Həmidin solu ilə yeriyən cavan kişi onların söhbətini eşidir, qarışmırdı.

Əsirlə yolun qırağı ilə gedirdilər, tez-tez onların yanından içi hərbi sursat, soldat dolu maşınlar gəlib keçirdi, hamısı da ön xəttə gedirdi. Oradan gələn maşınlar seyrək idi. Sarışın əsgər Həmidə pıçıldadı: "Gör nə günə qalmışıq ki, yurdumuzu viran qoyan, anabacılarımızı qıran vəhşilər dəstə ilə arxayın-arxayın gəlib yanımızdan keçirlər. Biz onlara heç bir şey eləyə bilmirik... Bu, yaman dərddi, qardaş..."

## XXVIII

Gecə yarıqaranlıq stansiyada duran qatarın vaqonları bir-birinə dəyib silkələndi. Yük vaqonlarında döşəmələrdə böyür-böyürə sıxılıb yatan əsirlər diksinib ayıldılar. Onlar maşinisti söyə-söyə təzədən büzüşərək yuxuya getməyə çalışdılar.

Həmid də oyanmışdı, təkcə yuxarıdakı nəfəsliyi açıq olan yük vaqonundan üfunət iyi gəlirdi. Həmid küncə düşmüşdü. Oranın havası lap ağırlaşmışdı, yayın istisində bu sayaq yol getmək it əzabı idi. Həmidgilin vaqonunun qabağında bayırdan almanca danışıq eşidildi, sonra qapının kilidini əlləşdirdilər və qapı xırıltı ilə açıldı. Bayırdan içəri təmiz hava gəldi, zəif göy işıq düşdü. Aşağıda relslərin arasında bir alman zabiti durub əlindəki kağızı fənərlə işıqlandırıb ucadan oxudu:

– Mollayef, Xələfof, Qəribof...

Zabit rus dilində alman ləhcəsi ilə səkkiz nəfəri səsləyib vaqondan düşməyi əmr elədi. Adları oxunanların hamısı azərbaycanlı idi.

Vaqonlardan düşənləri bir yerə yığdılar. On doqquz nəfər oldu. Nədən ötrü burada ancaq azərbaycanlıları düşürtdülər? Həmid nigaran qaldı.

O gün öz köynəyini çıxarıb Həmidə verən saratovlu sarışın oğlan ayrı vaqona düşmüşdü. Həmid onunla sağollaşa bilmədiyinə heyifsiləndi. Əgər dünən onları vaqonlara mindirəndə bilsəydi ki, bir də görüşməyəcəklər, onunla vidalaşardı, istiqanlı oğlan idi, heyif ki, tez ayrıldılar.

Əsirləri yarıuçuq, alaqaranlıq bir stansiyanın perronuna yığdılar. Qatar yola düşdü. Bura hara idi, onları nə üçün gətirmişdilər, niyə yoldaşlarından ayırdılar, nə məqsədləri vardı? Heç kim heç nə bilmirdi, hamı səksəkə içində susub gözləyirdi.

Qatar gedəndən azca sonra iri bir yük maşını gəldi. Onları kuzova doldurdular. Sallağı, sıx-sıx, nəfəs-nəfəsə oturdular. Kuzovun hər küncündə əli avtomatlı bir soldat əyləşdi. Maşın yola çıxdı. Ətraf yay gecəsinin zülmətinə bürünmüşdü. Səs-səmir, işıltı yox idi, elə bil hər şey məhv olmuşdu, canlı bir məxluq qalmamışdı. Əsirlərdən biri dilləndi:

– Ay qardaşlar, bizi hara aparırlar?

– Qonaqlığa, bizim üçün dəm-dəsgahlı süfrə açıb, intizarla yolumuzu gözləyirlər. İştahanı saxla.

Kiminsə rişxəndlə dediyi bu sözlərə gülənlər də oldu. Keşikçilər təpiklərini kuzovun taxtasına döyüb acıqlandılar.

– Sus!..

Həmid ortada oturmuşdu, səsini çıxarmırdı. O, orduya gələni bu qədər azərbaycanlı ilə bir yerə düşməmişdi. "Kaş bunların arasında məni tanıyan olmayaydı, biabırçılıqdı..."

Maşın şose yolunun çala-çuxuruna düşüb silkələnə-silkələnə gedirdi. Stansiya uzaqda qalmışdı. Kuzovdakıların bəziləri mürgüləyirdi. Kimsə arabir xoruldayırdı da. Həmidin diz qapağı əzildiyi üçün çox sallağı oturmaq ondan ötrü əziyyət idi, əlacı yox idi, gərək dözəydi. "Görəsən bunların hamısı mənimtəkin qəfildən ələ keçiblər, ya aralarında könüllü əsir düşənlər də var?! Qaranlıq gecə, həndəvərdə də ins-cins gözə dəymir. Nə qaçıb gizlənmək olar? Boş əllə neyniyəsən?! Allahın altında bir avtomatım olaydı. Bu soldatların qoparağını götürərdim. Neyniyim?! Bəlkə, haraylayıb deyim: "Qardaşlar, nə durmusunuz, biz çoxuq, gəlin bu soldatların üstünə atılıb tərk-silah eləyək!" Sözümə qulaq asarlarmı? Elə məsələ də burasındadı. Onlar harayımı eşidib hərəkətə gəlincə iş-işdən keçməzmi?! Tək özüm olsaydım cəhənnəmə. Bu qədər adamı qırğına verməremmi?!"



Həmid kuzovun künclərində ayıq-sayıq duran keşikçilərə göz yetirdi. Soldatın dördü də avtomatını atəş açmağa hazır tutmuşdu, balaca hərəkət olsaydı, tətiyi sıxacaqdılar. "Bunlara neyniyəsən ki, nəfəsləri kəsilsin? Əclafların tək biri sağ qaldı, vurub maşından aşırmadın, bəsdi – avtomatla hamımızı qıracaq..."

Hamı susub oturmuşdu. Həmid bilmirdi ki, bu anlarda onlardan kimin ürəyindən nə keçir, nə barədə düşünür. Ancaq o əmin idi ki, bu əl-qolları bağlanmış kişilərin içində nəyin bahasına olursa olsun qaçıb əsarətdən qurtarmaq istəyənlər çoxdur. Onlar kimlər idi? Bəlkə də dirsəyi onun böyrünə dirənən dolu kişi də, nəfəsi onun nəfəsinə dəyən cavan oğlan da onun kimi düşünürdü. Keşikçilər qulaqlarını şəkləyib dördgözlə onlara baxır, cınqırlarını çıxartmağa qoymurdular. Həmid yanındakılara nə sayaq danışıb ağızlarını yoxlayaydı, görsün onlar necə adamdırlar?!

Maşında qaranlıq çöllə xeyli yol getdilər. Gecəyarı dövrəsinə tikanlı məftildən iki sıra hasar çəkilən əsir düşərgəsinə gəlib çıxdılar. Onları üç-üç, beş-beş ayırıb böyük tövlələri andıran baraklara doldurdular.

Həmid gələnlərin üçü ilə bir baraka düşdü. O, içəri girəndə alaqaranlıq dəhlizdən burnuna ağır hava vurdu. Ləmə təkin quraşdırılmış iki mərtəbə taxtalarda böyürə-böyürə yatanlar gələnlərin səsinə, ayaqqabı tappıltısına oyandılar. Azərbaycan dilində pıçıldaşdılar:

– Xeyr ola, bu nə səsdi?

– Təzələrini gətiriblər.

Həmid danışığı eşitdi. "Deyəsən, axı burdakıların da hamısı azərbaycanlılardı. Nədən ötrü bu qədər azərbaycanlını bir yerə yığıblar?!"

Onları bura gətirən yekəpər soldat barakın küncünə aparıb boş taxtı göstərdi. Qabağa düşən arıq cavan oğlan ikinci mərtəbədəki taxta dırmaşa-dırmaşa dedi:

– Bizimçün burda lüks yerlər hazırlayıblar ki...

Onun dalındakı pota, dolu kişi cavan oğlanı dümsüklədi:

– Cəld tərpən, ay Fətəli, masqaranın yeri deyil, gözümdən yuxu tökülür, yatmaqçün ölürəm, vaxtı itirməyin, barı səhərə kimi bir az dincələk.

– Gəl, Mazan əmi, gəl uzan, səninçün qu tükündən yorğan-döşək hazırlayıblar, naznan dincələsən.

Mazan söylənə-söylənə, hıqqana-hıqqana çətinliklə dırmaşdı. Onun uşaq kimi gödək boyu, yumru bədəni, qısa qolları vardı. Həmid yuxarı axırıncı çıxdı, yer darısqal idi, iki nəfər ancaq yatardı, əlac nə idi, birtəhər yerləşdilər. Həmid divar dibinə düşmüşdü, pota kişi ortaya. Fətəli gördü ki, Mazan əl-qolunu geniş açıb yerin çoxunu tutur, Qarabağ ləhcəsi ilə dedi:

– Bu yoldaşlıqdan olmadı, Mazan əmi, ayağını yorğanına görə uzat deyiblər, bizi niyə qoz qabığına soxursan, elə elə ki, biz də yata bilək, yer üçnəfərlikdi.

Mazana cavab vermək sərf eləmirdi, mızıldana-mızıldana özünü yığışdırdı.

Həmidgilin hay-küyünə yuxudan ayılanlar keşikçinin barakdan getdiyini görüb soruşdular:

– Aranızda şəkili var?

– Lənkəranlı necə?

– Bəs Naxçıvan tərəfdən?

– Könüllü bu yana keçmisiniz, ya almanlar əsir alıblar?

Həmid daha özünü saxlamayıb lağ ilə dedi:

– Yoldaşlarımı bilmirəm, mən almanlardan xahiş elədim, məni əsir aldılar. Bu asudəliyin həsrətini çox çəkmişəm.

Bu sözdən hamı gülüşdü. Həmid qaranlıqda sual verənin üzünü görmədi. Alt qatdakı yerlərdə uzananlardan biri yoldaşlarına acıqlandı:

– Dilotu yemisiniz, qoyun barı, Allahın gecəsini rahat yataq. Gəlib hamımızı həyətə qovarlar, səhərəcən bizə təpik döydürərlər, özünüzə yazığınız gəlsin.

– Doğru sözdü, yatağın, səhər danışarıq.

Danışıq kəsildi. Kimsə öskürdü, kimsə dərindən ah çəkdi, kimsə yerində qurcalandı, sonra baraka sakitlik çökdü.

Həmid arxası üstə uzanmışdı. Hardan hara gəlib düşməsi ona nağıl kimi görünürdü. "Anam yazıq indi tanış-bilişə deyir ki, oğullarımın ikisi cəbhədə düşmənlərlə vuruşurlar. Day xəbəri yoxdu ki, Mikayıl həlak olub, mən də cəbhədən çox-çox uzaqdayam, əsirəm. Özümə də bəlli deyil ki, hardayam, buranın adı nədi".

Ortada yatan Mazan kişi haçandı yuxuya getmişdi, üsulluca fısıldayırdı, üzü Həmidə sarı idi, onun çiyninə nəfəs alırdı.



Həmid iki aydan artıq idi ki, ələ keçmişdi. Onları o qədər oraya-buraya sürükləmişdilər ki, təngə gəlmişdi. Bununla üç düşərgə dəyişmişdi. Neçə kərə onu sorğu-suala tutmuşdular. Hər dəfədə ilk sualları bu olmuşdu: "Partiya üzvüsən, kommunistsən?.." Demişdi ki, yox, ona inanmamışdılar.

Mazan da, Fətəli də çoxdan yuxuya getmişdi. Mazan xoruldayırdı, Fətəli isə yuxuda sayıqlayırdı. "Bilirəm məndən incimisən, – deyirdi, – incimə, məndə günah yoxdu, Əminə, vallah məndə zərrəcən günah yoxdu. Yaxşı bilirsən ki, səni canımdan artıq istəyirəm. Yollar bağlıydı, necə məktub yazaydım?! Giley-güzarı qoy bir tərəfə, de görüm, məni nə ilə sevindirmisən? O, beşikdə yatan körpə oğlandı, ya qız? Məni qınama, Əminə, istəyirəm ilkimiz oğlan olsun..."

Mazan kişi bu ara elə bərk xoruldadı ki, Fətəli ayıldı, yanındakılara baxdı, elə o anda dalını hirslə Mazana sarı çevirib uzandı. Mazan ucadan xoruldamaqda davam edirdi. Həmid üzünü divara çevirsə də, xorultu ona pis təsir eləyirdi. O əvvəlcə gözlədi, fikirləşdi yəqin Mazanın yeri narahat olduğundan belə xoruldayır. Özünü divara qısdı ki, kişi asudəliklə yatsın, onda xorultusu kəsilər. Xorultu yenə kəsilmədi. Həmid əlacsız qalaraq Mazanı yavaşca silkələyib oyatdı... O fısıldaya-fısıldaya xəbər aldı:

– Nə xəbərdi?

– Heç nə, yerin narahat idi, xoruldayırdın.

– Eh... Bununçun adamı oyadarlar? – Mazan hirslənmişdi. – Bəyəm qəstinsəyə düşmüsən, rahatlıq axtarırsan?

Həmid Mazanı oyatmaqda peşman oldu. "Xoruldamaq özündən asılı deyildi, nahaq onu yuxudan elədim".

Fətəli yuxulasa da, daha sayıqlamırdı. Həmid bildi ki, o yuxuda arvadı ilə danışırdı. "Çox güman arvadını evdə hamilə qoyub gəlib, nigarandı, bilmir... oğuldan, qızdan nəyi olub, binəva..."

Həmidin fikrinə gəldi ki, onun əsir düşməsini batalyonlarında heç kim ağlına gətirməyəcək. "Uşaqlar elə biləcəklər ki, mən də səngərdə tank altında qalıb ölmüşəm. Evə, anama yazacaqlar oğlunuz Həmid Xələfov vətəni düşmənlərdən qoruyarkən həlak olmuşdur. Qara kağız İsmayıl mədəndə olanda anamın əlinə keçsə, onda heç nə, qonşulara oxutdurub ölümümü eşitsə, arvadın bağrı yarılacaq. Day bilməyəcək ki, mən sağam. Əslinə qalanda ölmək, əsir düşüb bu sayaq

təhqir olunmaqdan qat-qat şərəflidi. Barı qara kağız İsmayılın əlinə keçəydi. Bu xəbər arvadın axırına çıxar... Görəsən, indi Nurlu necədi? Anam məktubda mənə yazmışdı ki, Nurlu hərdən gəlib onu yoluxur, mənim qara xəbərimi eşitsə, ona da deyəcək. Hamı məni ölmüş zənn eləyəcək, görəcək günlərim varmış..."

* * *

Səhər barakı bürüyən zəng səsinə ayıldılar. Ayıq yatan Həmid dik qalxdı. O biri düşərgələrdə onları bağırıb oyadırdılar.

Fətəli də oyanmışdı. Ancaq Mazan xoruldayırdı. Fətəli onu silkələdi, Mazan o biri böyrü üstünə çöndü. Fətəli dedi:

– İnsan zülmə tabedi, o biri düşərgədə növbətçi bağıranda qorxudan yerindən quş kimi sıçrayırdı. İndi saya salmır. Mazan əmi, qalx! Vaxtdı!

Mazan gərnəşə-gərnəşə dikəldi. Hamının geyindiyini görüb köynəyini könülsüz götürdü.

Camaat geyinib həyətə çıxdı, Həmid də çıxdı. Burada əsirləri qorxu, hədə, qışqır-bağırla bayıra qovmurdular. Geyinib həyətə çıxanlar gəlib sıraya düzüldülər.

Həmid həyətə göz yetirə-yetirə keçib sıranın axırında dayandı. Onun dalında uzun bir növbə düzüldü. Gözü eynəkli bir alman leytenantı iki soldatla gəlib sıradakıları saydı. Sonra rus dilində əmr elədi:

– Gedin yuyunun.

Həmid camaatın dalınca əl-üz yuyulan yerə getdi. O, altdan-altdan həyətə göz qoyurdu, görsün fürsət düşsə, haradan qaçmaq olar. Hər yan iki sıra tikanlı məftillə hasarlanmışdı. Düşərgənin ərazisi çox da böyük deyildi. Həyətdə cərgə ilə üç uzunsov taxta tikilidən əlavə, o başda birmərtəbəli kərpic bina və ikimərtəbəli taxta ev vardı. Belə hiss edilirdi ki, burada əvvəllər hansı anbarsa olub. Kərpic binanın qabağında yaraşıqlı kollar əkilmişdi.

Əlüzyuyanın qabağında adam çox idi, Həmid gözləməli oldu. Axuru andıran beş-altı vedrə su tutumlu uzun təknənin altından xırdaca deşiklər açmışdılar. Oradan axan suda növbə ilə yuyunurdular.

Həmid əsirlərin danışığına diqqət yetirdi, hamı azərbaycanlı idi. Biri qarabağlı, o biri şəkili. Lap qabağında duran kişi isə əlini ölçə-ölçə yoldaşı ilə Maştağa ləhcəsində danışırdı.



"Nə çoxdurlar. Bunları hardan bura yığıblar?"

Həmid də yuyundu. Talvarın altında düzəldilmiş aşxanada onlara səhər yeməyi verdilər, hərənin qabağına əl boyda qara arpa çörəyi, alümin çuxurda horra, bir qırıq qəndlə qalın stəkanda çay qoymuşdular. Buranın yeməyi də o biri düşərgələrindəkindən fərqlənirdi. Başlarının üstünü alıb onları tələsdirən də yox idi.

Səhər yeməyindən sonra camaat həyətə çıxıb papiros çəkirdi. Həmid fikirləşirdi ki, bu səxavət səbəbsiz deyil. Faşistlər ayrı düşərgələrdə əsirlərə divan tuturlar.

– Əşşi, o birilərə baxanda bura cənnətdi ki...

Həmid Mazanın səsini eşidib döndü. O, Fətəli ilə Həmidin yanına gəldi. Fətəli dedi:

– Tüpürüm belə cənnətə.

– Naşükürlük eləmə, o biri düşərgələrdə acından ayaq üstə güclə dururdun. Burda bizə adam kimi yemək verirlər.

– Əslinə qalanda beynəlxalq qaydalara görə, əsirlərə bundan da yaxşı baxmalıdırlar. Gecə o nə taxt idi yatdıq. Donuz kimi bizi tövlələrə təpiblər.

– Mən beynəlxalq qayda-zad bilmirəm. Bura xoşuma gəlir, döyüb-dolaşan olmasa, davanın axırınacan belə qalmaq olar.

– Fətəli, sənsən?..

Üzü çal tüklü bir kişi gendən təəccüblə Fətəliyə baxırdı.

– Dadaş əmi, sən də buradasan?!

Onlar qucaqlaşdılar. Kişi ağlayırdı. Onlar kənara çəkilib dərdləşdilər. Mazan Həmidə dedi:

– Görəsən, kişi Fətəlinin nəyidi? Belə yerdə qohuma-tanışa rast gəlmək uğurdu, tək qalmırsan.

Həmid Fətəligilə baxırdı. Bu gözüaçıq, sözü üzə şax deyən çəlimsiz oğlan onun ürəyinə yatmağa başlayırdı. Sanki onun arıq vücudu vulkandan yoğrulmuşdu, qaynayır, bircə an da sakit olmurdu. "İşi avand olsun, evdə yolunu gözləyən var".

– Gecə biz baraka gələndə bir söz dediniz, məni açdı.

Mazan yaxınlıq eləyib Həmidin etibarını qazanmağa cəhd elədi. Həmid ondan soruşdu:

– O nə sözdü ki, öz yadımda qalmayıb?

– Ay pir olmuş, elə söz heç yaddan çıxar?

Həmid yenə də dediyini yadına sala bilmədi. Mazan dedi:

– Mənim yadımda qalıb. Dediniz ki, mən özüm almanlardan xahiş elədim, məni əsir aldılar. Bizim içimizdə neçəsi könüllü əsir düşüb, ancaq bunu tək-tükü boynuna alır. Mən sizə sirrimi aça bilərəm, özüm əsir düşmüşəm. Vuruşmaq istəmirdim.

Bir hündürboylu kişi gəlib azərbaycanca ucadan dedi:

– Dünən gecə gələnlər eşitsinlər.

O, iyirmiyəcən adamın familiyasını oxudu. Həmidin də adını çəkdi, dedi ki, hamınız bir yerə yığılıb gözləyin, sizi bir-bir danışmağa çağıracaqlar. Familiyalar əlifba sırası ilə yazılmışdı. Birinci Fətəli Qəribovu çağırıb apardılar.

Bu ara bir cavan kişi iri cökə ağacının kölgəsində toplaşıb gözləyən təzə əsirlərdən soruşdu:

– Sizin içinizdə Həmid Xələfov kimdi, üzünü mənə göstərin, görüm.

Həmid dilləndi:

– Mənəm.

Cavan kişi ona baxıb hörmətlə dedi:

– Siz daşoynadan Həmid Xələfovsunuz, tanıdım.

Cavan kişi Həmidin əlini sıxdı:

– Sizi görməyimə çox şadam. Bir dəfə Qubada çıxışınıza tamaşa eləmişəm. Təsadüfə baxın, görün bir sizinlə harda və necə rastlaşırıq...

Həmid familiyasının olduğu kimi yazılmasına peşman idi. Xələfov geniş yayılmış familiyalardan deyildi, onu eşidən kimi hamının yadına Həmid düşürdü. Ona qalsaydı, düşərgədə kim olduğunu gizlədərdi. Nə eləyəydi ki, ələ keçəndə ciblərini axtarıb əsgərlik kitabçasını götürmüşdülər. Ayrı ad yazdıra bilmədi. Bütün siyahılara Xələfov kimi düşmüşdü.

Cavan kişinin Həmidlə hörmət-izzətlə görüşməsi həyətdəkilərin fikrini cəlb elədi. Bir anın içində onun daşoynadan Həmid Xələfov olmağını hamı bildi. Susuzluqdan yananlar bulaq başına yığılan kimi həyətdəki əsirlər də Həmidin dövrəsinə toplaşdılar. Çoxu gəlib onun əlini sıxmağı özünə şərəf sandı. Ayrısı olsaydı bundan sevinər, təsəlli tapardı. Həmid xəcalət çəkdi. Qabaqlar – bəxtəvər çağlarında da ətrafdakıların diqqət mərkəzində olmağı xoşlamırdı. İndi həyatının ağır günlərində bu, ona daha pis təsir eləyirdi. Həmidə yönələn mərhəmətli baxışlar onu utandırırdı.



Həmidin məşhur adam olduğunu bilən Mazan şaşırdı:

– Qardaş, bunu bizdən niyə gizlədirsən? Cidanı çuvalda gizlətmək olmaz.

Rəisin yanından qayıdan Fətəli yamanca pərt idi, üzünü cökə ağacının altına yığılanlara tutub xəbər aldı:

– Dəmirov kimdi, çağırırlar, getsin.

Bir arıq kişi yoldaşlarından ayrılıb getdi. Fətəli öz-özünə danışa-danışa cökənin qalın gövdəsinə söykəndi. Həmid ondan soruşdu:

– Sənə nə dedilər ki, qanın belə qaralıb?

– Nə deyəcəklər?! Hər şeyimiz vardı, bircə saqqal darağımız çatmırdı, onu da bizə mərhəmət göstərib faşistlər təklif eləyirlər. Onunçun bizi ordan-burdan yığıb töküblər bura.

– Nə təklif eləyirlər?

– Orda bir nərmənazik kapitan əyləşib. Azərbaycanlıdı, nemislərin adından bizimlə o danışır. Deyir ki, alman komandanlığı biz azərbaycanlıların qayğısına qalır, xalqımızın taleyini düşünür. Siz Allah, bir sözə fikir verin. Onun dediklərindən belə çıxır ki, guya Hitler bizi azadlığa çıxarmaq istəyir.

Fətəlinin Ruhulla bəyin yanından hansı xəbərlə qayıtması düşərgəyə təzə gələnləri çox maraqlandırırdı. Onlar oğlanın başına yığıldılar. Mazan ağzını açıb lap qabaqda durmuşdu:

– Bəs onların təklifi nədi, biz bu qayğıya görə nemislərə neyləməliyik?

Mazanın bu sualı çoxunu düşündürürdü, yerbəyerdən soruşdular:

– Hə, hə, onu de görək, bizi bura niyə yığıblar, nə istəyirlər?

Fətəli dedi:

– Onu istəyirlər ki, biz əlimizə silah alıb nemislərin tərəfində özümüzünkülərə qarşı vuruşaq.

Həmid başını tərpədə-tərpədə dedi:

– Məsələ aydındı.

Onun arxasından boylanan sinli bir kişi irəli çıxıb hamıya üz tutaraq dedi:

– Ay müsürman qardaşlar, xəbər verdilər ki, Əzrail uşaq paylayır. Mənim təkin bir kişi dedi ki, onunku özünün olsun, mənimkinə dəyməsin. Hitler bizə dəyməsin, onun qayğımıza qalmağını istəmirik. Bunlara nemis deyərlər, bizi bica yerə yığmayıblar, güllə qabağına verməyə adam lazımdı.

Fəteli sinli kişiylə bəhsə girirmiş kimi dedi:

– Keçəl suya getməz. Arı-namusu olan bir kişi bu əclaflığı boynuna götürməz. Fətəli ölmüşdü də... Əyninə nemis mundiri geysin, əlinə nemis silahı alıb qardaşlarının üstünə getsin. Bunlar bizi nə hesab eləyirlər?!

Başına toplaşanların çoxu Fətəliyə tərəfdar çıxırdı, onunla razılaşmayanlar da vardı. Bir kişi deyirdi:

– Buna bir baxın, bir qarış boyu var, başımıza ağıl qoyur.

Həmid Fətəlinin taleyi üçün narahat oldu. "Bu cavan oğlan ağınabozuna baxmır, ağzına gələni danışır, özünü xataya salacaq, heyifdi". Həmid qərara aldı ki, Fətəlinin dövrəsinə yığılanlar dağılışanda onu kənara çəkib nəsihət eləsin, desin ki, ürəyindəkiləri açıb hamıya danışma, gedib səni almanlara satarlar.

Mazan qapıdan qovulmuş tazı kimi başını qınına çəkib qıraqda var-gəl eləyirdi.

Arıq kişi rəisin yanından qayıtdı. Ayrısını çağırdılar. Beləliklə, bir-bir hamı çağırıldı. Familiyası "X" ilə başlayan Həmid lap axıra qaldı. Söhbətdən qayıdanların heç birinin üzü gülmürdü. Bəlkə də onların arasında almanların tərəfində vuruşmağa razı olan var idi. Ancaq əksəriyyətin əhvali-ruhiyyəsini görüb ürəyindəkini büruzə vermirdi.

Həmid söhbətə çağırılanda nahara az qalmışdı. Düşərgənin rəhbərliyi həyətin o başındakı birmərtəbəli kərpic binada yerləşirdi. Ona dedilər ki, dəhlizin küncündəki on birinci otağa gedərsən. Rəis orada oturur. Həmid qəsdən qapını döymədən içəri keçdi. İri otaqda iki nəfər əyləşmişdi. Biri yazı stolunun arxasında, o biri pəncərə qabağında. Stola dirsəklənən Fətəlinin dediyi nərmənazik kapitan idi. Pəncərə qabağında əyləşən Çopur Abdulla. Həmid duruxub kənarda dayandı. Çopur Abdulla qalxıb onun qabağına gəldi:

– Xələfov? Xoş gördük, məşhur daşoynadan pəlvan. Sən bir taleyə bax, gör bizi harda rastlaşdırıb. Həmid, səni bilmirəm, mən buna çox şadam, lap çox şadam.

Çopur Abdulla nərmənazik kapitana dedi:

– Ruhulla bəy, bu, Azərbaycanda tanınmış pəlvan Həmid Xələfovdu. Bizim onunla cavanlıqda bir güləşinə haqq-hesabımız olub. Sözüm onda deyil. Həmid kara gələn kişidi, burda bizə əməlli-başlı köməyi dəyə bilər.

Ruhulla bəy Həmidə əyləşməyi təklif elədi. O, tikan üstündə oturumuş kimi yanını ehmalca kətilin qırağına qoydu. Ruhulla bəyin



əynində alman zabiti geyimi vardı. Çopur Abdulla sovet əsgərinin formasında idi, ancaq heç bir nişanı, petlisası yox idi. "Bu, bura necə gəlib düşüb, dustaqxanada yatmırdı?!"

Kapitan Ruhulla bəy otağın ortasında duran Çopur Abdullaya baxdı. Həmidin də gözü onda idi. Çopur Abdullanın saçları, qalın bığı çallaşmışdı, alnında qırışlar iz salmışdı. Həmid onu axırıncı dəfə Bakıda görəndən bəri çox düşmüşdü, irəli çıxan qarnı xırdaca günbəzə oxşayırdı. Çopur Abdulla dinib-danışmayan Həmiddən xəbər aldı:

– Səsin çıxmır, eloğlu, mənimlə rastlaşmağına sevinmirsən, qürbətdə bir-birimizə arxa olarıq. Qabaqda aramızda nə olub olub, gəl onları yaddan çıxaraq. İndi ayrı məqam, ayrı işlər var, gücümüzü onlara sərf eləyək.

Həmid cavab verməyə tələsmədi. Çopur Abdulla səmimiyyət göstərdi:

– Ətağanın əddinə and olsun ki, doğru sözümdü, heç o yan-bu yanı yoxdu.

– Mən təkcə onu deyə bilərəm ki, sizinlə rastlaşmağıma çox şadam.

Həmidin cavabı Çopur Abdullaya ləzzət verdi:

– Bu oldu kişi sözü, mərd adamsan. – Əlini Həmidə uzadıb ovcunu açdı. – Onda vur bura!

Həmid əlini onun əlinə vurmadı. Çopur Abdulla bundan pərt olmadı:

– Neynək, – dedi, – vurmursan vurma, canın sağ olsun.

Kapitanın gözü Həmiddə idi, kirpiklərini qırpmadan ona baxırdı. Ruhulla bəyin ağ, hamar, təmiz üzü vardı. Sanki kosmetika salonundan yenicə çıxmışdı, yaşı otuz beşdən artıq olmazdı, görkəmindən zabitdən çox xarici işlər nazirliyinin əməkdaşına oxşayırdı. O, təmkinlə Çopur Abdullaya dedi:

– Əlizaman oğlu, əyləş bir görək. Biz cənab Həmid Xələfofu bura ciddi bir söhbətə çağırmışıq, tanışlığınızdan, aranızdakı inciklikdinədi ondan sonra danışarsınız, elə söhbətlərə vaxtınız olacaq.

Ruhulla bəy azərbaycanca səlis danışsa da, ləhcəsi şübhə oyadırdı. Belə təsir bağışlayırdı ki, başqa millətdən olan bir adam Azərbaycan dilini mükəmməl öyrənib.

– Cənab Həmid Xələfof (o da almanlar kimi familiyanın sonundakı "v" hərfini "f" kimi tələffüz edirdi). Mən Berlində yaşasam da,

vətənim Azərbaycanı, onun gözəl paytaxtı Bakını heç zaman unutmurdum. Bizim ailəmiz orda azərbaycanlı ailəsi olaraq qalırdı. Bakıda çıxan qəzet və jurnallardan alırdıq. Mən əsarətdə olan xalqımızın görkəmli elm, mədəniyyət xadimlərini, adlı-sanlı oğullarını tanıyırdım. Hamınızla fəxr eləyirdim. Bu gün sizinlə tanış olmaq səadəti mənə nəsib olduğu üçün özümü xoşbəxt hiss edirəm. Biz bu əlamətdar hadisəni qeyd eləməliyik. Əlizaman oğlu, mənim adımdan de, ordan içki gətirsinlər. Şampan şərabı olsa, yerinə düşər.

– O da mənim bu gözüm üstdə, Ruhulla bəy.

Onlar ikisi qaldı. Ruhulla bəy Həmidə yaxınlıq göstərdi.

– Mən təəssüf edirəm ki, – dedi, – sizin burda olmağınızı indi bildim, əvvəlcədən bilsəydim, razı olmazdım hamı ilə bir yerdə qalasınız. Neynək, tapşıraram günü bu gün sizi bura köçürərlər.

– Zəhmət çəkməyin, mənimçün yoldaşlarımın yanında qalmaq pis deyil.

– Heç hələ şey yoxdu. Təvazökarlıq eləməyin.

– Təvazökarlıq eləmirəm, hamı necə, mən də elə.

– Siz hamı deyilsiniz, Həmid bəy.

– Mən bəy də deyiləm, cənab kapitan.

Ruhulla bəy şaqqanaq çəkib yerindən qalxdı:

– Yazıqlar, Sovet hökuməti sizin gözünüzün odunu elə alıb ki, bəy sözündən ilandan qorxan kimi qorxursunuz. Mən sizə bəy deyəndə torpaqları, malikanələri olan bəy kimi müraciət eləmirəm. Məsələn, fransızlar bir-birinə müraciət eləyəndə hörmət əlaməti olaraq müsyö, ingilislər mister, ruslar qospodin, almanlar her deyirlər, biz türkdilli xalqlar isə bəy deyirik. Əgər ürəyinizə yoldaş sözü yatırsa, mən sizə yoldaş da deyə bilərəm.

Həmid etiraz elədi:

– Siz heç cür mənim yoldaşım ola bilməzsiniz. Siz kim, mən kim?!

Ruhulla bəy diplomat ədası ilə:

– Vəziyyətinizi başa düşürəm, Xələfof, – dedi. – Sizi incidiblər, kobud rəftar eləyiblər. Sizin yerinizə kim olsaydı, hövsələdən çıxardı. İnanın, sizinçün onların hamısı arxada qalıb. Məni özünüzə yoldaş bilin.

Çopur Abdulla içəri girib kapitana dedi:

– Ruhulla bəy, bu saat içki, yemək gətirirlər.

Kapitan ona cavab vermədi, fikri Həmiddə idi. Çopur Abdulla əvvəlki yerində əyləşdi, bu dəm qaraqaş, qaragöz bir oğlan əlində



üstünə ağ salfet salınmış padnos gəldi, qapı tərəfdəki mizin üstünə bir şüşə şərab, ağ çörək, konserv, üç nəfərlik çəngəl-bıçaq qoydu və bir söz demədən baş əyib getdi.

Çopur Abdulla stəkanlara şərab süzdü. Kapitan Ruhulla bəy stulunu götürüb mizin arxasında əyləşdi. Həmidi də dəvət elədi, o yerindən tərpənmədi.

– Mənimlə söhbətiniz qurtardısa, izin verin, gedim.

– Hara gedirsən, gəl bu çaxırdan vur, rəngin açılsın; fransız çaxırıdı, əntiqə şeydi, nöşün şadlığına şitlik eləyirsən, ay xeyrini bilməyən müsürman.

Çopur Abdullanın Həmidlə loru dildə danışması Ruhulla bəyə xoş gəlmədi. Gözlərini ona ağartdı.

– Hörmətli Həmid, – dedi, – mənimlə yoldaş olmaq istəməsəniz də, heç olmasa, gəlin bu şərabdan bir stəkan için.

– İçən deyiləm.

– Hə, hə, bildim, idmançılara içmək yaramaz. Onda yaxın oturub konservdən yeyin. Bəlkə elə zənn eləyirsiniz donuz ətidi, iyrənirsiniz, arxayın olun, mal ətidi.

– Acmamışam.

– Bir-iki tikəyə nə acmaq? Mən bunları sizinçün gətirtmişəm, tanışlığımız münasibətilə içək. İçmirsiniz, özünüz bilin.

Ruhulla bəy stəkandakı qızılı şampan şərabını başına çəkib əvvəlki yerinə qayıtdı. Çopur Abdulla da öz stəkanındakı şərabı içdi, ləzzətlə ağzını marçıldatdı və konservdən, çörəkdən götürüb ağzına təpdi. Ruhulla bəy ona məhəl qoymayıb söhbətə keçdi:

– Xələfof, ikimiz də kifayət qədər savadlıyıq, bir-birimizi başa düşərik. Məsələ belədi. Almanlar biz azərbaycanlılara böyük etibar göstərib, təkrar edirəm, böyük etibar göstərib, əlimizə silah verib, vətənimiz Azərbaycan torpağını azadlığa çıxarmaqçün imkan yaradır. Dünyanın bu qarışıq çağında bundan gözəl nə ola bilər?! Şəxsən mən bu müqəddəs məqsəd uğrunda ölməyə hazıram. And içirəm ki, on canım olsaydı, onunu da tərəddüd eləmədən bu yolda qurban verərdim. Amma, təəssüf ki, hamı bu müqəddəs işin mənasını, əsil mahiyyətini düzgün dərk etmir. Biz sizdən qabaq çoxunu çağırıb bu barədə danışmışıq. Sizdən nə gizlədim, bəziləri razılıq verməyiblər, aralarında nəm-nüm eləyənlər də var, neyniyəsən, öz xeyirlərini qanmırlar. Onların başına ağıl qoyan gərəkdi. Siz tanınmış adamsınız, onlara

müsbət təsir eləyə bilərsiniz. Mən sizdən xahiş eləyirəm, bu sahədə bizdən köməyinizi əsirgəməyəsiniz. Bu, bizim vətənimizə tarixi bir xidmət olar.

Həmid əllərini qoynuna qoyub kapitana qulaq asırdı. Ruhulla bəy onu nə hesab eləyirdi?! Həmidin özünü satqınlıq yoluna çəkmək istəməsi bəs deyildi, hələ bir deyirdi ki, çətin ayaqda dəyanətlə duran namuslu vətən oğullarına təsir eləyib, onları əyinlərinə faşist mundiri geyməyə razı salsın. "Sən bu alçaqda həyasızlığa bax, gör bir məni hara çəkir?! Xain elə bilir hamı onun kimi xaindi".

Həmid Ruhulla bəyi yaxalayıb boğmaq fikrindən özünü güclə saxlayırdı. O görürdü ki, burada qalsa, mütləq əlindən bir xata çıxacaq, ayağa durub qəzəbini boğa-boğa dedi:

– Siz çox ciddi bir məsələyə toxunursunuz. Mən özümü pis hiss eləyirəm. İzin verin havaya çıxım, bu barədə sonra danışarıq.

Ruhulla bəy nəzakətlə:

– Bu nə sözdü, – dedi, – əlbəttə, izin verirəm. Gedin, havanızı dəyişin.

Həmid bilmədi ki, otaqdan necə çıxdı. Həyət əsirlərlə dolu idi. O, səmtini itirmiş adam kimi yarı yolda – kolların yanında dayanıb həyətin təmiz havasından uddu. Bir tərəfdən haçandan bəri axtardığı Çopur Abdulla ilə rastlaşmağına sevinirdi. O biri yandan əksəriyyəti onun kimi qəfildən əsir düşmüş həmyerlilərini böyük bir xəyanətə sürükləyən mələk sifətli bir iblislə üzləşmişdi. Həmidin və düşərgədəki yüzdən artıq kişinin müqəddəratı Ruhulla bəydən asılı idi.

"Çopur Abdulla ilə belə yerdə görüşməyimi ağlıma gətirməzdim". Həmid məhkəmədə olan kimi Çopur Abdullanın günahını üzünə oxumamışdan onu cəzalandırmayacaqdı. Hətta istəyirdi ki, bu zaman bir nəfər onların yanında olsun, şahid kimi onun dediklərini eşitsin.

– Həmid əmi, burda niyə dayanmısınız, üz-gözünüz qızarıb?

Həmidi dindirən Fətəli idi. Onun yanına gəlmişdi. Həmid oğlanı görəndə ürəyi açıldı.

– Fətəli...

Əlini arxadan oğlanın sümüyü çıxmış çiyninə qoydu. "Məni belə oğulları fikrindən döndərməyə, satqınlığa sövq eləməyə çağırırlar".

– Həmid əmi, sizə də bizə deyəni dedilər?



– Hə.

– Siz buna necə baxırsınız? Camaat orda nigarandı, sizin qərarınızı bilmək istəyir.

– Hamı necə, mən də elə.

– Hamı eyni cürə fikirləşmir, Həmid əmi, yağlı dilə aldananlar da var.

– Mən sənin kimi fikirləşirəm, Fətəli.

– Qurban olum sizə, ay Həmid əmi. – Fətəli pəncəsi üstə qalxıb Həmidin tüklü üzündən öpdü. – Elə mən bu sayaq da fikirləşirdim, siz faşistlər tərəfə keçməzsiniz.

Gendən Həmidgilə baxan əsirlər Fətəlinin onu nə üçün öpməsinin səbəbini anlamadılar.

– Fətəli neçə yaşın var?

– İyirmi.

– İyirmi?! – Həmid Fətəlinin boy-buxununa fikir verdi. – Ancaq sənə az yaş vermək olar. Niyə belə tez evlənmisən?

Fətəli Həmidin onun evli olmasını haradan bilməsinə heyrət elədi.

– Mənim arvadım olmasını sizə kim deyib?

– Sənin öz dilindən eşitmişəm.

– Mənim dilimdən? – Fətəli həlimcəsinə gülümsündü. – Mən sizə o barədə bir söz deməmişəm.

Həmid bu gecə onun yuxuda sayıqlamasını, arvadı Əminə ilə danışmasını dedi.

– Hə, yuxuda Əminəni görmüşdüm, Həmid əmi. Soruşursunuz niyə tez evlənmişəm? Əminə ilə onuncuya kimi bir yerdə oxuyurduq. O məni istəyirdi, mən də onu, ancaq atası Əminəni başqasına ərə verirdi. Biz isə söz vermişdik ki, institutu qurtarandan sonra evlənək. Mən məcbur oldum, qızı götürüb qaçım, beləliklə, tez evləndim.

– Hansı rayondansan?

– Tovuzdan. Kənddə işləyirdim. Orta məktəbdə müəllim idim. Ordan da əsgər getmişəm. İndi bu da mənim günüm-güzəranım.

Həmid Fətəlinin səsindəki bədbinliyi hiss eləyib böyük qardaş kimi öyüd verdi:

– Burda hamı sən vəziyyətdədi, Fətəli. Hamımız bir olsaq, nə bizim o alman noxtalı öz tulalarımız, nə də faşistlər bizə bir şey eləyə bilərlər.

– İş bundadı ki, bizim aramızda o satqın tulaların dalınca getməyə həvəs göstərənlər var, camaatı çaşdıranlar da onlardı. Siz indi söhbətdə olanda mən həyətdə onlardan biri ilə mübahisə edirdim. Mən deyirdim ki, o çopur heyvərə, Əlizaman oğlu, arıq tazı Ruhulla bəy satqındılar. O deyirdi ki, yox, onların əqidəsi belədi, sən nahaq onları qınayırsan. Sonra nə bilim Ruhulla bəy satqın niyə olur. O, Almaniyada anadan olub, onların içində böyüyüb. İndi ata-baba yurdunun müstəqil olması uğrunda mübarizə aparırsa, bunun nəyi pisdi?! Mən də axırda dözməyib dedim ki, korsan, görmürsən faşistlər insanları qarışqa kimi qırır, kəndləri, şəhərləri viran qoyurlar, sən azadlıq buna deyirsən? Yan-yörədən mübahisəyə qarışan olmasaydı, onunla şapalaq davasına çıxacaqdıq.

– Əlbəttə, elə nacinsləri yerində oturtmaq lazımdır. Bununla belə ehtiyatlı ol, Fətəli. Dözək, görək bu tələdən nə cür qurtarırıq.

– Dözə bilmirəm, Həmid əmi, vallah dözə bilmirəm.

– Dözməlisən, çarə yoxdu.

Həmidgil camaatın yanına gələndə heç kəs cəsarət eləyib ondan bir söz soruşmadı. Əslinə qalanda soruşmağa lüzum yox idi. Fətəli Həmidi öpəndə onlar hesablarını götürmüşdülər. Bir hovur qabaq burada özündən xeyli yaşlı kişi ilə mübahisədə alman komandanlığı altında vuruşmağa razılıq verənləri satqın adlandıran Fətəli əgər Həmid pis iş tutsaydı, onu öpüb belə mehribanlıq göstərməzdi.

Nahardan sonra gəlib Fətəliyə dedilər ki, səni Əlizaman oğlu çağırır. Oğlan getdi, qayıdanda onun dodağı partlamış, sağ gözünün altı qançır olmuşdu. Kim ondan nə soruşdusa, heç kəsə bir söz demədi. Axşam Fətəli barakda yerində uzananda Həmidə əhvalatı danışdı. Onu Çopur Abdulla döyüb hədələyərək tapşırmışdı ki, dilini dinc qoysun, bir də camaatı yoldan çıxaran artıq-əskik söz danışsa, vay halına.

Fətəli qəzəbdən qəhərlənmişdi: "Mən özümü belə aciz bilməzdim, Həmid əmi".

Həmid onu birtəhər sakitləşdirib yatırtdı. O gün Mazan baraka gec gəldi – hardasa ilişmişdi, ya özü qəsdən gec gəlmişdi, Həmid bilmədi. Əslinə qalanda heç istəmirdi Mazan gəlib onların arasında yatsın. Onsuz da yerləri darısqal idi. Həm də Mazan orada olsaydı, Fətəli ilə belə açıq danışmaqdan çəkinərdi. Çopur Abdulla Fətəlinin düşərgədə nə danışdığını haradan bilə bilərdi? Əsirlərdən kimsə gedib bunu onun ovcuna yazmışdı. Bəlkə də, elə Mazan idi.



Mazan gəlib yuxarı dırmandı. Həmidə, Fətəliyə mane olmamaq üçün yerində büzüşüb yatdı.

Həmidi fikir aparmışdı. O, Çopur Abdullanı tezliklə, lap tezliklə aradan götürmək istəyirdi. Boş əllə bu qədər soldatın arasında onu necə susduraydı?

"Çopur Abdulla cəzasını almasa, burda çox alçaqlıqlar eləyəcək. Bəs Ruhulla bəy?! Onun da nəfəsi kəsilməlidir. Ruhulla bəy mənimlə yaxınlıq eləməyə can atır. Mən bundan istifadə eləməliyəm. Onları cəhənnəmə vasil eləyəndən sora özüm həlak olsam da zərəri yoxdu, dünyadan arxayın gedərəm..."

Ertəsi gün səhər tezdən düşərgədən güllə səsi gəldi, avtomatdan bir qatar atəş açdılar. Sonra həyəcan siqnalı verildi, hamı geyinib həyətə qaçdı, Həmid ayılıb geyinəndə Fətəlini yerində görmədi, zənn elədi ki, o ayaqyoluna gedib.

Həyətdə əsirləri sıraya düzdülər. Həmid sıraya boylanıb Fətəlini axtardı, gözünə dəymədi. "Bəs bu oğlan necə oldu?!"

İki soldat bir əsirin qolundan yapışıb yerlə sürüyə-sürüyə gətirdi. Sürütlənənin dalınca torpaqda qandan zolaq qalırdı.

Həyətin ortasında üzüqoylu uzadılan əsir tərpənmirdi, bilinmirdi ki, ölüb, ya sağdır. Həmid yaralını köynəyindən Fətəliyə oxşatsa da, inanmırdı ki, o olsun. "İkinci dəfə onu niyə döysünlər, bəlkə heç Fətəli deyil..." Həmid sıraya düzülənlərə diqqətlə baxdı, yenə Fətəlini görmədi.

Barakdakıların hamısı həyətə çıxıb düzüləndən sonra bir sarışın alman zabiti, Ruhulla bəy, bir də Çopur Abdulla gəldi. Ruhulla bəy də, alman zabiti də qaşqabağını sallamışdı. Çopur Abdullanın gözlərindən yuxu tökülürdü.

Sarışın zabit Ruhulla bəyə him elədi, o qabağa çıxıb dedi:

– Mən çox təəssüf edirəm ki, sizinlə belə bir... – əli ilə ortaya sərələnmiş əsiri göstərdi, – acınacaqlı səhnənin şahidi oluruq. Bilirsinizmi bu kimdi? – Hay verən olmadı. – Fətəli Qəribof. O, bir az əvvəl hasardan aşıb partizanların yanına qaçmaq istəyəndə keşikçilər vurublar. Əvvəlcə xəbərdarlıq eləyiblər, dayanmayıb, atəş açmağa məcbur olublar.

Əsirlər tərpəşdilər. Biri o birindən soruşdu: "Fətəli hansıydı, tanımırsan?" O dedi: "Yadıma düşdü, dünən həyətdə həyəcanla danışan gənc oğlan". – Heyifsiləndilər. "Bədbəxt oldu", "Ay qaragün", "Heyif ondan"...

Həmidə elə gəldi ki, qardaşını öldürüb meyitini göz dağı kimi onun qabağına uzadıblar.

Çopur Abdullanın vecinə də deyildi, ayaq üstdə mürgüləyirdi. Həmidin yadına dünən Fətəlinin partlayan dodağı, sağ gözünün altındakı qançır düşdü, oğlanın yanağında Çopur Abdullanın şana barmaqlarının yeri qalmışdı. İndi Həmidə elə gəldi ki, zərbələr Fətəliyə yox, ona dəyib, canından bir sızıltı keçdi, zərbələrin ağrısını öz bədənində hiss elədi. Əsəbdən var gücü ilə nərə çəkmək istədi.

Ruhulla bəy əllərini dalına qoyub əsirlərə nəsihət dərsi verirdi, yeyin danışdığı üçün bəzi sözlərini anlamaq olmurdu. O, Azərbaycan sözlərini alman avazı ilə dediyindən ayrı cürə səslənirdi. Həmidin arxasından biri atmaca atdı:

– Ay qardaşlar, vallah mənə nə deyirsiniz deyin, bu azərbaycanlı deyil, bizim dilimizi yaxşı öyrənmiş nemisdi.

– Mənim də onun azərbaycanlı olmasından gözüm su içmir.

– Qoyun görək nə qırıldadır.

Ruhulla bəy bunları eşitmirdi, eşitsəydi, boğazına belə güc gəlməzdi.

– Əziz həmvətənlilər, – deyirdi, – mən buna möhkəm əminəm ki, sizin aranızda Fətəli Qəribof kimilər yoxdu. O bura təsadüfən gəlib düşmüşdü. Bolşevik agenti idi, cəzasını da aldı. Bir də deyirəm, alman komandanlığı bizi ali bir məqsədçün bura toplayıb. Heç kəsi də zorla gətirməmişik, istəməyən sabah başqa ümumi düşərgələrə köçürülə bilər. Ancaq bunun dalını yaxşıca düşünün, ora qayıdanda peşman olarsınız, əliniz heç yana çatmaz. "Daldan atılan daş topuğa dəyər" misalını unutmayın.

Kimsə yenə yerindən söz atdı:

– Məsəllərimizi də necə tutuquşu kimi əzbərləyib.

– Siz də ağ eləməyin, hər nədisə, bu köpəkoğlu öz azərbaycanlımızdı.

– Azərbaycanlı elədi ki, vur öldür, dünyasında qürbətdə məskən salmaz, biz ayrı millətlərdən daha çox öz torpağımıza bağlıyıq. Bu kapitan əldəqayırma azərbaycanlıdı.



Kimsə sıradan onları sakit elədi:

– Sıss... qoyun görəyin bunun axır sözü nədi.

Ruhulla bəy qırılan nitqini davam etdirməzdən əvvəl dönüb arxasındakı soldatlara işarə elədi, onlar Fətəlinin meyitini gətirdikləri kimi sürüyə-sürüyə dartıb apardılar. Həmid özünü saxlaya bilmədi, irəli çıxmaq istəyəndə iki güclü əl onun biləklərindən yapışıb qoymadı. O, hirslə dönüb arxaya baxanda hündürboylu iki cavan kişi ona pıçıldadı: "Səbirli olun Həmid müəllim, yeri deyil..."

Ruhulla bəy dedi:

– Kim Fətəli Qəribof kimi eləmək niyyətindədirsə, qoy bu səhərki acınacaqlı əhvalatdan özünə nəticə çıxartsın.

Bir yöndəmsiz kişi əl qaldırıb dedi:

– Mən burda hamının qabağında sizə deyirəm ki, məndən soldat olmaz, ay kapitan. Bəyəm orda fərli vuruşub özümüzünküləri yarıtdım ki, sizinçün də bir iş görüm? Bəri başdan sizdən təvəqqe edirəm, məni hamı saxlanan lagerlərdən birinə göndərin, fəhləlik eləyim, daş daşıyım, razıyam. Açığını bilin, mən nemsə paltarını geyməyi bacarmıram.

Onun dalınca sıradan bir neçəsi səsləndi:

– Mən də o fikirdəyəm.

– Mən də.

– Məni də o siyahıya yazın.

Ruhulla bəy camaatın sakitləşməsini gözlədi, səslər kəsildi. Sıralardan qalxan etiraz sədaları Çopur Abdullanın yuxusunu qaçırtdı, o, gözlərini bərəldib əsirlərə baxırdı. Kapitan Ruhulla bəy Azərbaycan dilində gedən danışıqdan heç nə qanmayan sarışın zabitə nəsə pıçıldadı və yenidən camaata müraciət elədi:

– Mən burda deyilən sözləri eşitdim. Təkrar edirəm, burdan getmək heç zaman gec deyil. Mən günü bu gün o adamları ayrı düşərgələrə göndərməyə hazıram. Fəqət onlara məsləhət görürəm nə elədiklərini dərindən düşünsünlər, sonradan peşmanlıq olmasın. O adamlara atalarımızın bir misalını xatırlamağı özümə borc bilirəm: "Sonrakı peşmanlıq fayda verməz". Bununla da sözümü bitirirəm. Mənə sualı olan yoxdu ki?..

Dinmədilər.

Ruhulla bəy sarışın alman zabitinin qolundan yapışdı, çıxıb getdilər, camaat dağıldı. Həmid bayaq onun biləyindən yapışan cavan

kişilərin üzünə diqqətlə baxdı. Onlar gülümsünüb uzaqlaşdılar. Həmidi bir neçə nəfər araya aldı. Onlardan biri soruşdu:

– Siz bu işlərə nə cür baxırsınız? Mən kəmsavadam, özüm də ayrımam, hörmətli Həmid yoldaş, bizə bir məsləhət versəniz.

Həmidin gözü ovcunda torpaq gətirib Fətəlinin qanı bulaşan yerlərə səpən kişidə qalmışdı. Kişi qan izlərini örtə-örtə Allaha şikayətlənirdi:

– Ya pərvərdigar, sən bu zülmə necə dözürsən, bəndələrin əl-ayaq altında qırılıb gedir, niyə zalimlərin cəzasını vermirsən?! Nə vaxtacan torpağa qan su yerinə axacaq?! Qəzəbini göstərsənə.

Kişinin ürəkdən gələn nidasını eşidib Həmidə sual verən ayrım da, onun yanındakılar da dönüb baxdılar. Kişinin ovuclarındakı torpaq qurtardı. O yenə Allahla danışa-danışa torpaq gətirməyə getdi. Həmid əlini ayrımın çiyninə qoydu:

– Mənim məsləhətim budu ki, o kişi kimi oturub Allaha yalvarmaqdan kar aşmaz. Allah deyib ki, səndən hərəkət, məndən bərəkət, nəyin bahasına olursa burdan qurtarmaq lazımdı, vəssalam.

– Ay başına dönüm, ayrım da olsam, nənəm Sayalı arvadın goru haqqı, elə mən də bu uşaqlara onu deyirəm.

Ayrım yoldaşları ilə o tərəfə getdi. Həmid baraka qayıtdı.

Səhər yeməyinə az qalmışdı, əsirlər yuyunur, ülgüclərini qayışa çəkib üzlərini qırxırdılar. Həmidi saqqal basmışdı, üç gün idi ki, üzünə ülgüc dəymirdi. Saçlarına dən düşmüş, təxminən Həmid yaşında bir şivərək kişi ona mehribanlıq göstərib soruşdu:

– Üzünüzü niyə qırxmırsınız?

– Qırxacağam.

– Ülgücünüz yoxdursa, məndə var, verim.

Həmidin öz ülgücü yox idi, səngərdə qalmışdı, o biri düşərgələrdə yoldaşlarından alıb üzünü qırxırdı.

Kişi ülgüc gətirdi. Həmid üzünü qırxanda şivərək kişi dedi:

– Ehtiyatsızsınız.

Həmid elə güman elədi ki, kişi onun öz ülgücü olmamasına işarə eləyir.

– Varımdı, itirmişəm.

– Mən ülgüc barədə demirəm. Burda ehtiyatsız hərəkət edirsiniz, bayaq Fətəlinin meyitini soldatlar sürüyə-sürüyə dartıb aparanda əgər uşaqlar qolunuzdan yapışmasaydılar, siz irəli çıxıb onlarla tutuşacaqdınız, kim bilir nə ilə nəticələnəcəkdi. Mən sizi başa düşürəm,



vəhşiliyə dözmək qeyri-mümkündü. Elə bilirsiniz başqaları qəzəblənmir, lakin elə məqam var ki, gərək orda qəzəbini, nifrətini gizlətməyi, cilovlamağı bacarasan. – Şivərək kişi səsini alçaltdı. – Bayaq qolunuzdan yapışıb sizi saxlamağı uşaqlara mən dedim.

– Siz?

Həmid ülgücün tiyəsindəki tüklü sabun köpüyünü qezet parçasına sıyırıb çənəsinə aparanda şivərək kişinin ala gözlərinin içinə baxdı. Bu kim idi, nə üçün belə onun qayğısına qalırdı? Həmid yəqin elədi ki, bu arıq kişi nə üçünsə onunla maraqlanır. "O hardan bilirdi ki, mən ehtiyatsız hərəkət eləyəcəyəm, dalımca adam qoyub? Görünür əvvəl mən artıq-əskik hərəkət eləmişəm, duyuq düşüb".

– Soruşmaq ayıb olmasın, niyə məni belə izləyirsiniz?

– Siz tanınmış adamsınız. Mən sizi Bakıdan tanıyıram. İçərişəhərliyəm. Sizi qorumaq borcumuzdu. Bundan əlavə siz bizə çox lazımsınız.

Həmid hülqumunun üstündəki sabunlu tükləri qırxa-qırxa soruşdu:

– Sizə lazımam? Siz kimsiniz?

Həmid bu sözləri ucadan dedi. Şivərək kişi ehmalca baraka göz yetirdi.

Qapının qabağında iki nəfər xısınlaşırdı. Onlardan ehtiyat elədi, səsini yavaşıdıb dedi:

– Yenə ehtiyatsızlıq eləyirsiniz, hörmətli Həmid, yeri deyil, qalsın, bu barədə sonra danışarıq.

Kişi getdi, Həmid üzünü qırxdı. Nigaran idi, ona yaxınlıq göstərən bu kişi kim idi, inanmaq olardımı? O yana qalanda niyə də inanmayaydı. Həmidi istəməsəydi, bayaq onu xatadan qurtarmazdı. Özü də sözlü adama oxşayırdı, ona nə isə deyəcəkdi, sözü ağzında qaldı.

Həmid ülgücü silib təmizlədi, sahibinə qaytarmaq üçün həyətə çıxdı. Şivərək kişi gözünə dəymədi. Düşərgənin həyətini iki nəfər süpürürdü, biri o başdan, biri bu başdan.

O gün Həmid çox gözlədi ki, Ruhulla bəy onu söhbətini davam etdirməyə çağırar, çağırmadı. Nahardan sonra şivərək kişi özü gəlib Həmidi tapdı. Həyətin dalda yerində gəzinə-gəzinə danışdılar.

– Həmid, Fətəli havayı yerə həlak oldu. Mən bilsəydim o belə bir iş tutacaq, qabağını alardım. Biz hamımız burdan qaçıb qurtarmalıyıq, ancaq tək-tək yox, birlikdə. Ağılla iş görmək lazımdı ki, bir səmərəsi olsun, adamların tək-tək qaçması ilə məsələ həll olunmur.

– Səhər dediniz ki, sizə lazımam. Mən nədə sizə lazım ola bilərəm?

– Bu, belə baxanda sizinçün çox da çətin bir iş deyil, amma bizimçün böyük əhəmiyyəti var. Biz deyəndə mən yoldaşlarımı nəzərdə tuturam. Biz istəyirik ki, həmyerlilərimizi Ruhulla bəyin fırıldağından qurtaraq. O bizim xalqın oğullarını faşistlərin quyruğuna bağlamağa çalışır. Ruhulla bəy kimdi? Deyir guya azərbaycanlıdı. Mən buna qəti inanmıram. O, Azərbaycan, türk dillərini çox mükəmməl bilən almandı. Özünü azərbaycanlı kimi qələmə verir. Siz görməmisiniz, burdakı alman soldat və zabitləri ondan itdən qorxan kimi qorxurlar. Ruhulla bəy azərbaycanlı olsaydı, dünyasında almanlar ona elə tozim eləməzdilər. Görəsən onun əsil adı, familiyası nədi? Qərbdə bu üsuldan ən çox ingilislər istifadə eləyirlər. Ərəbcəni mükəmməl öyrənmiş ingilis kəşfiyyatçıları ərəb qəbilələrinə soxulub ruhani pərdəsi altında təxribatçılıqla məşğul olurlar. Əhali arasında Şeyx Əhməd, ya Şeyx Məhəmməd adı ilə tanınmış adam əslində ingilisdi.

Həmid şivərək kişiyə qulaq asa-asa Ruhulla bəylə görüşünü xatırlayırdı. Onda dili bilməsindən və qara qaş-gözündən savayı azərbaycanlıya xas olan bir əlamət yox idi.

– Hörmətli Həmid, sizin bir köməyiniz o olar ki, nə qədər gec deyil, yeri düşəndə camaatla söhbət eləyəsiniz, onlara deyəsiniz ki, alman ordusunda xidmət eləməyə razılıq verməsinlər. Əsirlər sizin bura düşməyinizi eşidəndə təsəlli tapdılar ki, əsarətdə tək deyillər, belə bir məşhur adam onların arasındadı.

Həmid gözlədi ki, şivərək kişi daha nəsə deyəcək, o dinmədi. Həmid xəbər aldı:

– Elə bu, xahişiniz bu idi?

– Bəli. Onu da deyim ki, adamların ümumi əhvali-ruhiyyəsindən belə görünür faşist ordusunda xidmət eləməyə həvəs göstərən təktükdü. Onların qabağını almaq bizim birinci dərəcəli işimizdi. Faşistlər belə bir şayiə yayıblar ki, guya Sovet İttifaqında yaşayan ayrı xalqlar onlara qarşı vuruşmaq istəmirlər. Buna görə də hər millətdən çıxan üç-dörd satqından, üzüdönükdən istifadə eləyib milli hissələr yaratmağa can atırlar.

– Mən xalqıma ləkə gətirən bu işi pozmaqçün hər nə desəniz eləməyə hazıram.

Şivərək kişi Həmidin biləyindən yapışıb sıxdı:

– Mənim adım İbrahimdi. Biz hamımız arxayındıq ki, siz belə deyəcəksiniz, Həmid yoldaş.



* * *

Ruhulla bəy Həmidi o axşam da çağırmadı. Həmid isə İbrahimə söz verdiyi kimi neçəsi ilə söhbətdə dedi ki, əsil kişi ölər, xain adını üstünə götürməz. Qardaşlar, mənim sizə tövsiyəm budu ki, yağlı dillərə aldanıb təmiz adınızı ləkələməyin. Elə iş tutmayın ki, gələcəkdə övladlarınız sizin yerinizə xəcalət çəksinlər.

Həmid gecə onu da ürəyində etiraf elədi ki, Mazan barədə bədgüman olmaqda haqsız imiş...

Gecə düşərgədə yatmaq saatı elan olunanda Fətəlinin yeri boş qalsa da, Mazan orada yatmadı, ötən gecəki kimi yenə də Həmidin böyrünə sıxıldı.

Həmid tənə ilə dedi:

– O yana çəkil, bəyəm yer sənə azlıq eləyir, məni küncə sıxırsan?

Mazan kövrək-kövrək dedi:

– Mən onun yerində necə yatım, Həmid qardaş, ürəyim gəlmir. O tifilin günahı nə idi, onu o cür qanına qəltan elədilər? Soldatlar Fətəlini yerlə sürüyəndə elə bildim doğma qardaşımın meyitinə hörmətsizlik eləyirlər, belə də vəhşilik olar?!

– Onda nə üçün özün əsir düşdün?

– Ağılsızlığımdan, gicliyimdən, hissəmiz mühasirəyə alınmışdı, sursatımız, yemək-içməyimiz qurtarmışdı, təslim olmurduq. Almanlar səngərlərimizə təyyarədən vərəqələr səpələdilər, orada yazılmışdı hər kim könüllü təslim olsa, ona dəyməyəcəyik. Dava qurtaran kimi evinə qayıdacaq. Mən külbaş da axmaq-axmaq yazıya inandım. Biri kabab iyinə gəlmişdi, gəlib gördü ki, eşşək dağlayırlar. Mənimki döndü ona... İndi bu müsibətləri görür, ikiəlli qapazı vururam başıma, deyirəm ki, öz cəzandı çək Mazan, öküzü öldürənə sürütdürərlər. Səhər Ruhulla bəy qoduq oğlu, Fətəlinin meyitini ortaya uzandırıb lovğalana-lovğalana nitq söyləyəndə əlimdə tapançam olsaydı, xəzinədəki güllələrin hamısını onun cəmdəyinə yeridərdim. Bizdə, biz müsürman aləmində kim olursa olsun, ölüyə o cür münasibət günahdı, kafir də bunlardan min dəfə yaxşıdı.

Həmid barakın zəif işığında Mazanın kirpiklərində işıldayan göz yaşını görəndə onun dediklərinin səmimiliyinə şübhə eləmədi.

Mazan Fətəlinin yerində yatmadı:

– Barı onu dəfn eləyəydilər, meyiti əl-ayaq altında atılıb qalmayaydı.

Həmidi Ruhulla bəydən artıq hiddətləndirən Çopur Abdulla idi. Ona görə yox ki, onun əlindən çoxdan yanıqlı idi. Ruhulla bəyin hansı millətə mənsub olması hələ bilinmirdi. O, faşist idi. Faşistdən hər növ əclaflıq gözləmək olardı. Çopur Abdulla isə hansı yuvanın quşu olsa da, damarlarında azərbaycanlı qanı axırdı, onun qəlbində azacıq da olsa, vətəninə, xalqına məhəbbət qalmalı idi və heç olmasa bu məhəbbətin naminə öz həmyerlilərinin taleyinə acımalı idi. Demək, Çopur Abdullada bu müqəddəs hissdən bir zərrə də qalmamışdı. Həmid əmin idi ki, o, faşistlərə sədaqətlə qulluq eləsə də, faşizmin mahiyyətini qanmır. Köpək yağlı tikəyə şirnikdiyi kimi, Çopur Abdulla da almanların ona burada kiçik vəzifə verməsindən zövq alır və onların qulluğunda hazır durur.

Həmid Fətəlinin ölümündə də Çopur Abdullanı əsil günahkar hesab eləyirdi. O belə düşünürdü ki, əgər dünən axşamüstü Çopur Abdulla Fətəlini elə amansız döyməsəydi, oğlan bu tələsiklikdə düşərgədən haradan, haçan və necə qaçmağı öyrənməmiş belə bir riskə getməzdi. Çopur Abdulla onu elə vəhşicəsinə döymüşdü ki, yazıq sümüklərinin ağrısından yerinə qor dolmuş kimi o tərəf-bu tərəfə çönür, bilmirdi necə yatsın. O kökdə Fətəlinin düşərgədən qaçmağı qət eləməsi gözləri bağlı güllə qabağına getməyə bərabər idi. Çopur Abdulla Həmidin qabağında bu qurbanın da cavabını verməliydi.

Həmid İbrahimlə təzə-təzə yaxınlıq eləsə də, azərbaycanlı əsirlərdən ötrü qurulmuş bu tələdə, onun şəxsində özünə simsar tapmasına sevinirdi.

Yerində qovrulan Mazan Həmidə dedi:

– Ruhulla bəy mənə alman ordusunda vuruşmağı təklif eləyəndə gərək ona birdəfəlik deyəydim ki, yox.

– Bəs sən ona nə demisən?

– Dedim, qoyun bir fikirləşim.

– Fikirləşdin?

– Bunu fikirləşməkçün çox vaxt lazım deyilmiş, adam burda bircə gün qalsa, hər şey ona aydın olacaq. Fətəli gözümün qabağında getdi güdaza, gərək tələsməyəydi. Bənd-bərəni elə bağlayıblar ki, burdan hələm-hələm qaçmaq olar?

– Fətəli cavanlığına saldı. Mənimlə məsləhətləşsəydi, onu bu fikirdən daşındırardım.



– Belə getsə, biz nemis ordusunda qulluq eləməkdən boyun qaçırsaq, nə sayaq olacaq?

– O bizim özümüzdən asılıdı, Mazan.

– Bizdən asılı olsaydı, camaat çoxdan bu işə əncam çəkmişdi.

– Əncam çəkmək lazımdı, Mazan, yoxsa hamımız Fətəli kimi qırılacağıq.

– Ölü bitik ki, dırnaq altında qalaq.

Həmid Mazana qulaq asır, fikirləşirdi: “Ruhulla bəy Fətəlinin meyitini camaata göstərməklə onları qorxutmaq, gözünün odunu almaq istəyirdi, əksinə oldu. Əsirlər bildilər ki, kiminlə bir sırada dayanacaqlar. Kimlərə arxalanırlar, kimlərlə yol yoldaşı olmalıdırlar”.

Mazan dodağını gəmirə-gəmirə dedi:

– Həmid qardaş, Ruhulla bəyin yanında bir yekəpər çopur kişi var, Əlizaman oğlu, ayrı əclafdı. Ona diqqət yetirmisinizmi?! Həyətdə camaatdan eşitdim, deyirlər yaman cəlladdı, elə də ağır əli var ki, lap gürzə oxşayır, onun “dadını” görmüşəm. Məni ora danışmağa çağıranda Əlizaman oğlu guya mənimlə salamlaşırdı, əlimi elə sıxdı ki, sümüyüm şıqqıldadı. Uşaq deyiləm ki, payımı götürdüm, bildim ki, o bu yolla məni qorxudur, Ruhulla bəyin təklifinə etiraz eləməyim. Mən ordan çıxanda dəhlizəcən ötürüb boynuma bir dümsük ilişdirdi, az qaldı üzüstə yerə sərələnim, yaxamdan yapışıb yıxılmağa qoymadı. “Yavaş, – dedi, – keflisən-nədi, ayağın ayağına dolaşır, get, yaşıyaxşı fikirləş, sonra səni yenə çağıracağıq”.

Həmid Mazana Çopur Abdullanı qabaqdan tanıdığını və onu çoxdan axtardığını demədi. Fikirləşdi ki, bundan sonra Çopur Abdullanın sağ qalması təhlükəlidir, aradan nə qədər tez götürülsə, o qədər nahaq qan tökülməsinin, cinayətin qarşısı alınar. “İyirmi beş il əvvəl mənim qanıma susamışdı, ondan qabaq da əliqanlı idi. Ayrılarını hesaba salmasam da, təkcə Balağa kimi gözəl insanı güdaza verdiyiçün Çopur Abdullanın dünyada yaşamağa haqqı yoxdu. Bu da onun son fəaliyyəti... Fətəlinin, atasının üzünü görməyən körpəsi yetimliklə dünyaya göz açacaq. Bədbəxt oğlu nisgilli getdi, bilmədi oğlu olub, ya qızı. Abdulla ilə haqq-hesabı tez çürütməliyəm, dəmiri istiisti döyərlər. Onun burda mənə mehribanlıq göstərməsi kələkdi, etibarımı qazanmaq istəyir, fürsət tapan təkin nəfəsimi kəsəcək. Mən onu qabaqlamalıyam. Bu dəfə uduzsam heç nə, o mənim də başımı yeyəcək...”

# XXIX

Həmidi yenə o günkü otağa çağırmışdılar. Ruhulla bəy yox idi, haradasa ləngiyirdi. Çopur Abdulla onu salmışdı çənəsinin altına:

– Mən sənin barəndə Ruhulla bəyə çox demişəm, atamın qəbriçün, o ki var tərifləmişəm. Mən kişi adamam. Uzaqdan baxana loru təsiri bağışlasam da, arifəm, tükü tükdən seçirəm. Həmid, sən bica yerə mənim barəmdə pis fikirdə olmusan. Bir dəfə şəhərdə mənə rast gələndə saymamazlığa salıb ötüb keçmək istəmisən, "neynək deyib" udmuşam, özüm yaxınlaşıb səninlə salamlaşmışam. Başqası olsaydı belə eləməzdi. Mənim ki səndən bir asılılığım, keçəcəyim yoxdu, Allaha şükür, deyəsən onunçün belə eləyirəm. Mən kinli-küdurətli adam da deyiləm, gözləyib haçansa, kimsədən nəyinsə əvəzini çıxım, xeyr a!.. Mən ona görə bunları deyirəm ki, əgər sənin ürəyində mənə qarşı bir şübhən, inamsızlığın varsa, silib atasan o yana. İkimiz də düşmüşük bura, nemislər camaatımıza, elə bizim özümüzə də mənfəəti dəyən bir iş başlamaq istəyirlər. Bu işdə sənin və mənim yaxından iştirakımız vacibdi. Bunun xeyrini, sağlıq olsa, səninlə sora görəcəyik, onda mənim atama rəhmət oxuyacaqsan.

Çopur Abdulla kirkirə kimi üyüdüb tökür, özünü Həmidin nəzərində təmizə çıxarmağa can atırdı. Həmid isə qulaq asmır, fikirləşirdi necə eləsin ki, bu gün onun nəfəsini kəssin. Çopur Abdullanın belindən qoburda nağan asılmışdı, qəfildən onun üstünə atılsaydı da Çopur Abdulla tapançanı çıxarmağa macal tapacaqdı. Atəş açılsaydı qonşu otaqlardakı almanlar axışıb onun köməyinə gələcəkdilər, Həmid ələ keçəcəkdi. "Bu köpək oğlunu nə təhər susdurum ki, sakit, salamat aradan çıxıb baraka qayıdım?! Ruhulla bəy indilərdə gəlməlidi, mən onsuz da bu tələsiklikdə Çopur Abdullaya heç nə eləyə bilməyəcəyəm. Qalsın ayrı vaxta, hərçəndi ona inanmaq axmaqlıqdı, ancaq dediklərində çox yox, onca faiz həqiqət olsa, hələ gözləmək olar. Mənimlə yaxınlıq eləməyə səy göstərir. Bəlkə bir neçə gün dözüb yoxlayaq, görək onun dedikləri nə qədər doğrudu, boğazdan yuxarı danışmır ki?.."

– Ruhulla bəy tapşırıb, burda mənim otağımın cinahında sənə bir xudmani otaq hazırlayırlar. Tək olacaqsan, ayrıca çarpayın-zadın, yemək-içməyin də ki bizimki təkin, şnabs da verirlər. Şnabs bilirsən nədi, nemiscə içkidi, keyfin istəyəndə vuracaqsan özünçün. Day nə istəyirsən?! Qonşu olacağıq, darıxmazsan.



– Mən o gün dedim ki, camaat harda, mən də orda.

– Nə camaat, camaat salmısan, ay xeyrini bilməyən müsürman? İndi elə vaxtdı ki, hərə öz başının hayına qalıb. Camaata day nə yaxşılıq eləyərlər, onları əsirlikdən azad eləyib quş darını dimdiyində gətirən kimi seçib ordan-burdan yığıblar bir yerə. Bir-iki nəfər şuluq salan, təpik atan olmasa, heç bura keşikçi də qoymazlar, özümüz öz qaraulumuzu çəkərik, almanlar çıxıb gedərlər, onların öz iş-gücü, dərdi-səri başından aşıb. İyirmi nəfər saldatı nöş burda saxlayırlar?! Çəm-xəm eləyənlər inadlarını qoysalar yerə batalyonumuzu düzəldərik, öz komandirlərimizi qoyarıq üstümüzdə böyük, nemis əfsərləri də bizə azdan-çoxdan kömək eləyərlər. Gedərik fronta. Sən sən olsan, ay Həmid, burda çox iş görərsən. Mənim bizim adamların arasında sənin təkin sözüm keçsəydi, onların başına ağıl qoyardım, danlayıb-dansayıb gözlərini açardım, xeyirləri ilə zərərlərini qanardılar.

Həmid bu yerdə daha özünü saxlamadı:

– Abdulla Əlizaman oğlu, – dedi, – ayıb şeydi ki, ona tamamilə arxayın ola bilərsən, mən burdakı əsirlərə xeyirləri ilə zərərlərini başa salmaqçün əlimdən gələni eləyəcəyəm.

– Hə, bu oldu xalis kişi sözü, elə Ruhulla bəyin də səndən xahiş elədiyi budu... Sən bu sözləri Ruhulla bəyin özünə de, qoy qulaqları ilə eşitsin. Burda bir-iki nəfər araqarışdıran, camaata dil verən, yoldan çıxaran var, nə bilim deyirlər ki, nemis ordusunda qulluq eləməyə razı olmayın, onlar sizi aldadırlar. Təkrar eləməyə cəsarət eləmirəm, pis-pis sözlər, böhtanlar deyirlər almanlara. Biz də işimizi möhkəm tutmuşuq. Day sənə demək olar, özümüzünküsən, camaatı ram eləməkdə bizə kömək göstərəcəksən. Biz bir-iki nəfər etibarlı adam tapmışıq, hər barakda onlardan biri var, gözdə-qulaqdadırlar, maneçilik törədən kommunist təbliğatçılarının, stalinçilərin adlarını öyrənib bizə deyəcəklər. Onda tamaşa eləyərsən, görərsən biz o nadürüstlərə burda nə toy quracağıq. Gərək o toyun havası o birilərin başından uzun zaman getməsin.

Həmid indi anladı ki, o gün Fətəlinin dediklərini Ruhulla bəy hardan bilib. "O satqınlardan biri gedib onların ovcuna yazıb. Buna görə Fətəlini çağırıb o cür döyüblər. – Həmid Fətəliyə tutulan divanı yadına salanda Çopur Abdullanın üstünə atılıb onu boğmaqdan özünü çətinliklə saxladı. – Tələsmə, Həmid, tələsmə, hər işin vaxtı, məqamı var..."

Çopur Abdulla Həmidə hörmət göstərmək istəyirdi:

– Utanma, vurmaq istəyirsənsə, məndə əla nemis şərabı var, gedib gətirim, otağım burdadı, – əlini sağa uzatdı.

– Mən sizə o gün dedim ki, içmirəm.

– Əsil müsürmansan, halal olsun. Onda gedək, sənə otağımı göstərim, gör ləleşin nə sayaq yaşayır. Səninki də o cürəsindən olacaq.

Həmid yerindən tərpənmədi. Çopur Abdullanın harada və nə şəraitdə yaşaması onu əsla maraqlandırmırdı. Onunla bir otaqda belə çox dözüb oturmasına özü də heyrət eləyirdi. Hövsələli olmasının bir səbəbi vardı. Ruhulla bəylə görüşüb açıq danışmağı qət eləmişdi.

Çopur Abdulla ərkyana Həmidin qolundan yapışdı:

– Sən allah, dur ayağa, gedək otağımı sənə göstərim.

Əgər gendən tamaşa eləyən Çopur Abdullanın Həmidlə bu rəftarını görsəydi düşünərdi ki, onların arasından su da keçmir. Həmid Çopur Abdullanın qolundan yapışıb əlini zərblə çəkib aralı oturdu. Çopur Abdulla göynəyən qolunu övkələdi:

– Göz dəyməsin, ay Həmid, mən səni birinci kərə Nardaranda gördüyüm kimisən, necə də gücünü qoruyub saxlamısan. Afərin! İndi heç fərli yemək-içməyin də yoxdu. Belə vurhavurda bu cür qalmaq böyük işdi, canımçün.

Dəhlizdən addım səsləri eşidildi. Həmid elə zənn elədi ki, Ruhulla bəydir gəlir, qapıya baxdı, içəri gələn olmadı, addım səsləri hardasa dəhlizin yuxarısında əridi. Həmid Çopur Abdullaya nəzər yetirəndə gördü ki, o, hərdən əlini dalına aparmaq bəhanəsilə qapağı açıq qoburunun yanında hazır tutur. "Bu çopur köpəkoğlu qazdan ayıqdı, mənə etibar eləmir. Qoburu açıq qoyub ki, çıxaranda tez olsun... Bayaq yaxşı ki, onu xırxalamaqdan özümü saxladım".

– Dur gedək, otağımı sənə göstərim, tənbəllik eləmə.

Əvvəlcə Çopur Abdullanın otağına baxmaq istəməyən Həmid birdən düşündü ki, baxmağın heç bir zərəri yoxdur. Həm Çopur Abdulla onun yumşaldığını fikirləşib arxayınlaşar, həm də buraları görüb bələdləməsi bəlkə sonra karına gəldi.

– Deyirsən, gedək də.

Çopur Abdulla Həmidi qabağa buraxıb özü dala düşdü, yenə də sağ əlini elə tutmuşdu ki, istədiyi anda tapançasını qoburdan çıxarıb atəş aça bilərdi.



Onlar dəhlizin o biri ucuna getdilər. Çopur Abdulla cibindən açar çıxarıb qapını açdı:

– Buyur!

Həmid içəri keçdi. O da öz növbəsində ayıq-sayıq idi, Çopur Abdullaya etibar eləmirdi, göz altından hərəkətlərinə fikir verirdi ki, əgər namərdlik eləyib arxadan vurmaq istəsə, özünü müdafiə eləsin.

Otaqda yumşaq yorğan-döşəkli çarpayı vardı, yığışdırılmamışdı. Həmid çoxdan idi ki, bu cür yataqda dincini almamışdı. Ortalıqdakı balaca uzunsov stolun üstündə yarım şüşə şərab, çörək tikələri, yeyilməmiş kolbasa, bulaşıq stəkan və beş-altı dənə kərpic qənd vardı. Otağın görkəmli yerində Hitlerin gümüşü çərçivəyə salınmış fotosu asılmışdı.

– Hə, necədi səninçün, davada da yaşamağı bacarırıq, ya yox?

– Bacarırsan.

Həmidin lağla dediyi bu sözü Çopur Abdulla tərif kimi qəbul elədi. O, gözucu saatına baxa-baxa stulu Həmidə tərəf itələdi, özü çarpayının ayaq tərəfində əyləşdi. Əlini də tapançasının tuşunda adyalın üstünə qoydu.

– Kişi ona deyərəm ki, harda olursa, hansı şəraitə düşürsə, orda insan kimi yaşamağı bacarsın. Biz axı dünyaya bircə dəfə gəlirik. Bizi bir də atamız əkməyəcək, anamız doğmayacaq.

– Onu doğru deyirsən ki, biz insan kimi ləyaqətlə yaşamağı bacarmalıyıq, Çopur Abdulla.

– Mənimlə zarafat eləyirsən, eybi yoxdu, ancaq başqalarının yanında məni belə çağırma, Abdulla Əlizaman oğlu de.

Çopur Abdulla yerini yaxşıca rahatlamışdı, durub Ruhulla bəyin iş otağına qayıtmaq fikri yox idi. Bu, Həmidi şübhəyə saldı. "Niyə belə eləyir, Ruhulla bəydən qorxub çəkinmir?!"

– Ora qayıtmayaq, Əlizaman oğlu?

– İşində ol, qayıdarıq. Ruhulla bəy gələndə uzaq başı bizi orda görməz, gələr bura.

Həmid Çopur Abdullanın arxayın danışmasından narahat olsa da üstünü vurmadı, yəqin elədi ki, burda nə isə bir iş var, özünü hər hansı gözlənilməz zərbəyə cavab verməyə hazırladı, stulun qırağında əyləşdi ki, lazım gəlsə, tez onu qamarlayıb Çopur Abdullanın başına çırpmaq çox vaxt aparmasın.

– Əlizaman oğlu, – Həmidin Çopur Abdullanı belə çağırması onun döşünə yatırdı. – Bəs necə olub ki, gəlib bura düşmüsən? Mən eşitmişdim ki, sən hardasa qazamatda yatırsan?

– Düz eşitmisən, yatırdım. Qazamat beledi ki, orda yaxşı işlədiyin bir gününü iki gün hesab eləyirlər. Dava təzə başlamışdı ki, mənim cəza müddətim qurtardı, ordan azad eləyib əsgər apardılar. Hamı necə əsir düşübsə, mən də o cür bunların arasına düşmüşəm. Onu da bilməmiş deyilsən ki, mən sovet quruluşunun əvvəldən düşməniyəm, axtarsan, heç bunlar da mənim ürəyimə yatan adamlar deyil, hamısı bir zibildi. Nemislər onunçun mənə lazımdı ki, istəyirəm Bakımızı, Azərbaycanı kommunistlərdən təmizləsinlər, özümüz olaq.

Həmid Çopur Abdullanın heç nədən çəkinmədən faşistlərin əleyhinə danışmasına heyrət eləmədi. O artıq əmin idi ki, Çopur Abdulla ilə bu görüş qabaqcadan hazırlanmış bir oyundur. Çopur Abdulla onun ağzını aramaq göstərişi alıb və Ruhulla bəy haradasa qəsdən ləngiyib bu söhbət üçün şərait yaradır.

– Əlizaman oğlu, məndən qorxmursan yanımda belə sözlər danışırsan?

Çopur Abdulla Həmidin xəbərdarlığını vecinə də almadı.

– Əvvəla, sən təksən, şahidin yoxdu, sorası odu ki, bilmirəm kiminlə nə danışıram?!

Həmid Hitlerin çarpayının dalında divardan asılan şəklinə işarə elədi:

– O ki sənin dediklərini eşidir, dərinə saman təpdirər.

– Sən də yaman məzəli kişisən.

– Mən bunları Ruhulla bəyə deyəcəyəm.

Çopur Abdullanın tükü də tərpənmədi:

– Üstünə beş-altısını qoyub desən də, o sənə inanmaz.

Çopur Abdulla ona tapşırılan rolu nə qədər səylə oynasa da hiss edilirdi ki, pis ifaçıdır. Həmid də ədəb-ərkan gözləyən tamaşaçı kimi bu oyunun inandırıcı olmadığını onun üzünə vurmurdu.

– Əlizaman oğlu, madam ki, sən mənə ürək qızdırıb bu cür sözlər deyirsən, onda sənə bir sualım var, onu da bilirəm ki, Allah tanıyansan, sən o cibində gəzdirdiyin Quran mənə düzünü de, Ruhulla bəyin milliyyəti nədi?



Çopur Abdulla bu yerdə bayaqkı sərbəstliyini itirdi:

– Məyər bilmirsən? O gün özü sənə demədi, azərbaycanlıdı?

– Mən onun azərbaycanlı olmasına inanmıram, təhər-töhüründən xalis almandı. Bizim dili yaxşı öyrənib.

– Necə yəni o nemisdi, nemisdən də müsürman olar? O birce Allaha and olsun, neçə kərə özüm görmüşəm döş cibindən Quran çıxarıb etiqadla öpüb gözünün üstünə basıb. Nemislər xristiandı, xaça sitayiş eləyirlər. Onlar Qurana inanmırlar.

– Bəlkə, sənə təsir eləməkçün, görəndə Quranı çıxarıb öpür.

– Yox, canım, xalis müsürmandı, özü də şiəsindən.

– Elədirsə, onda ayrı məsələ.

– Bəs necə, özün nemislərin içində anadan olasan, həm də müsürmanlığını bu sayaq qoruyub saxlayasan, zor işdi, atam-qərdeşim. Vallahi-billahi mən bacarmazdım, nöşün küyə basım.

Dəhlizdən addım səsləri eşidildi, kimsə o tərəfə getdi, kimsə yeyin-yeyin bu tərəfə gəldi. Almanca danışdılar. Həmidgil oturan otağın qapısı açıldı, kandarda Ruhulla bəy göründü. Çopur Abdulla ayağa qalxıb farağat vəziyyəti aldı, Həmid yerindən tərpənmədi, Ruhulla bəy dedi:

– Burdasınız? Mən sizi orda axtarırdım.

Çopur Abdulla mütiliklə dedi:

– Yerlimə otağımı göstərməyə gəlmişdim, cənab kapitan.

– Eləsə bəs niyə qonaq eləmirsən?

– Eləmək istəyirdim, razı olmadı.

– Qonağa hörmət eləmək istəyəndə bəyəm onun razılığını alırlar? Xəsislik göstərirsən, Əlizaman oğlu.

– Quran haqqı elə deyil, cənab kapitan.

Ruhulla bəy kandarda dayansa da, onun vurduğu ətrin xoş iyi yavaş-yavaş Çopur Abdullanın otağına yayılırdı. Həmid haçan idi ki, ətir qoxulamırdı. Burnu baraklarının qıcqırmış, tərli, tənbəkili havasına alışmışdı. Ətir iyi ona birtəhər gəldi.

Çopur Abdulla farağat vəziyyətində qalmışdı. Ruhulla bəyin əmrinə müntəzir idi. Kapitan dedi:

– Əlizaman oğlu, burda qal, Xələfof mənimlə getsin, o günkü söhbətimizi davam etdirək.

Ruhulla bəy də Həmidi qabağa buraxıb özü dalca gəldi. O da qoburunun qapağını açıq qoymuşdu. Bu, Həmidin gözündən yayınmadı.

Onlar Ruhulla bəyin iş otağına gəldilər. Qapı açıq idi, kapitan yerinə keçdi. Həmid təklif gözləmədən o günkü yerdə oturdu. Kapitan stolun arxasında donqarlanıb əyləşdi.

– Bilmirəm Əlizaman oğlu sizə deyib, ya yox, bu axşam otağınız hazır olacaq, gəlin, qalın. Mənim sözüm sözdü. Almanlar sözlərində, vədlərində dəqiq olurlar.

– Siz ki alman deyilsiniz.

Həmid, Ruhulla bəyin dilindən söz qaçırmasından istifadə edib onu haqlasa da, kapitan ustalıqla vəziyyətdən çıxdı.

– Əvvəla, mən sizinlə almanların, alman komandanlığının adından danışıram, bu bir, o biri tərəfdən bizim – azərbaycanlıların bir müdrik misalı var, deyirlər: atı at yanına bağlayarsan, həmrəng olmasa, həmxasiyyət olar. Mən almanların arasında göz açıb, pərvəriş tapmışam, bir növ alman xasiyyətliyəm.

Həmid hiss edirdi ki, qarşısındakı adi qurdlardan deyil, bərkdən-boşdan çıxmış hiyləgər qurddur. Ona alman olmadığını xatırladanda Həmidin çəkici zindanın hayanına vurduğunu Ruhulla bəy dərhal qandı və toxtaqlığını pozmadan məharətlə vəziyyətdən çıxdı. Keçən dəfəkindən fərqli olaraq, kapitan birbaşa mətləbə keçdi:

– Xələfof, görürəm siz işgüzar, qanacaqlı adamsınız, onunçun da söhbəti uzatmıram. Sizi o günkü xahişimin, təkrar edirəm, xahişimin cavabından ötrü çağırmışam. Əgər zəndim məni azdırmırsa, onda dediniz ki, özünüzü pis hiss edirsiniz, bu barədə sonra danışarıq. Mən sizi iki gün narahat eləmədim, yaxşı-yaxşı fikirləşməyə imkan verdim. İndi sizi dinləyirəm.

– Həmin söhbət barədə mənim fikrim qətidi. O işi ki, siz xahiş eləyirsiniz, mən onu bacarmaram. Burda hər kəs öz hərəkətinə cavabdehdi. Mən başqasına nədəsə təsir eləmək rolunu öz üstümə götürə bilmərəm.

Ruhulla bəy Həmidin cavabından məyus olmadı, qəddini düzəldib əlini təmiz qırxılmış uzun çənəsində gəzdirdi.

– Təəssüf, çox təəssüf, Xələfof. Biz sizə böyük ümid bəsləyirdik. Sizi açıqfikirli, qabağı görən və bu gün dünya miqyasında baş verən hadisələri soyuq mühakimə ilə təhlil eləməyə qadir olan bir azərbaycanlı hesab eləyirdik, – Ruhulla bəy qalxıb otaqda gəzindi və Həmidin xeyirxahı kimi ona məsləhət verdi: – Mən sizin yerinizə olsaydım, bu cür eləməzdim.



– Hərə öz ağlının çörəyini yeyir, Ruhulla bəy.

– Orası düzdü, Xələfof. Ağıl da dövlət kimi şeydi, hünər budu ki, ondan istifadə eləməyi bacarasan. Sonra peşman olub deməyəsən ki, gərək o vaxt filan işdə filan sayaq eləyəydim. Bunun sizə də aidiyyəti var, Xələfof.

– Məni hədələyirsiniz, cənab kapitan? Ona hökmünüz çatır, əlinizdəyəm, hər nə istəsəniz, eləyə bilərsiniz.

Kapitan yerində oturmurdu, sanki ayaq üstdə durmağı ilə Həmidə sübut etməyə çalışırdı ki, ondan yüksəkdir, həddini qansın.

– Yox, Xələfof, yanılırsınız, sizə xəbərdarlıq eləyirəm. Bunlar başqa-başqa şeylərdi. Mən kiməsə hədə-qorxu gələnləri xoşlamıram. Lazım gəlsə, dərhal cəzalandıraram. Hədə-qorxu köhnə üsuldu, artıq şeydi.

Həmid söz altında qalan deyildi, bir istədi Ruhulla bəyə desin ki, xalis alman köpəyisən, səndə bir qətrə də azərbaycanlı qanı yoxdur, stulu qamarlayıb onun təpəsinə çırpsın, özünü saxladı. "Çopur Abdullanı öldürməyincə mənim ölməyə haqqım yoxdu. O, tənbehsiz qalsa, qəbrim od tutub yanar..."

Ruhulla bəy elə güman elədi ki, Həmid onun "dərhal cəzalandıraram" deməsindən çəkinib özünü yığışdırdı. Kapitan danışığına mülayimlik qatdı:

– Vətən oğlumsunuz, sizə heyfim gəlir, Həmid. – Ruhulla bəy bu dəfə ona adı ilə müraciət elədi. – İstərdim ki, əlinizə imkan düşüb, daha doğrusu, sizinçün imkan yaradıblar, gələcək həyatınızdan ötrü düzgün yol seçəsiniz, – kapitan gəlib yerində əyləşdi. O, qəsdən sözünə ara verdi ki, bunun ardınca deyəcəyini xüsusi olaraq Həmidin nəzərinə çatdırsın. – Gəlin, əyri oturub düz danışaq. Deyirsiniz ki, guya başqasına nədəsə təsir eləmək vəzifəsini öz üstünüzə götürə bilməzsiniz. Əslində isə götürmüsünüz.

Ruhulla bəy yenə sözünə ara verdi, gözlədi ki, Həmid bu xəbərdən sonra həyəcanlanar, lakin onun halına təfavüt eləmədi.

– Bizim xahişimizə əməl eləmirsiniz, bu bir yana dursun, amma əksinə, camaata deyirsiniz ki, sözə-haya getməyin, sizi aldadırlar.

Həmid bildi ki, onu güdürlər, düşərgədə kiminlə görüşməsini, kiminlə yaxınlıq eləməsini Ruhulla bəyə xəbər verirlər, bundan sonra ehtiyatlı davranmalı, ayrılarının da qara siyahıya düşməməsinin qayğısına qalmalıdı.

Həmid fikrə getmişdi. Ruhulla bəyin tələsik işimi vardı, ya özü bilərəkdənmi söhbəti uzatmadı, dedi:

– Həmid, biz alicənablıq göstəririk, sizin camaat arasında dediklərinizin üstündən keçirik, belə hesab eləyirik ki, heç nə olmayıb. Bir şərtlə, siz öz səhvlərinizi düzəldəsiniz. Buna görə sizə iki gün möhlət veririk. İnsan səhv buraxa bilər, nədəsə yanıla bilər. Ancaq hünər odu ki, səhvini vaxtında qanıb düzəltməyi bacarasan. Bununla söhbətimizi qurtaraq. Əlizaman oğlu sizə otağınızın yerini göstərdi? Gəlin, orda qalın, fikriniz açılsın, sonra danışığı davam etdirərik.

– Mənə orda, uşaqların yanında qalmaq rahatdı.

– İşinizə baxın, bizdən sizə demək, öz alicənablığımızı göstərməkdi.

Kapitanın yanından çıxan Həmid həyətdə duranlar arasında İbrahimi axtardı ki, ona desin içimizdə satqınlar var, kim nə eləyirsə, nə danışırsa, Ruhulla bəyə çatdırırlar, ayıq olun. İbrahim həyətdə yox idi, Mazanı gördü, ona da yaxınlaşmadı. Çünki binadan çıxanda hamının gözü onda idi. Bəlkə də, Ruhulla bəyin casusları bu adamların arasında idilər.

Axşam yeməyində Həmid boylanıb İbrahimin harada oturmasını bələdlədi, gözlədi, elə elədi ki, yeməkxanadan çıxanda onunla yanaşı düşdü, ehmalca İbrahimi dümsükləyib pıçıldadı: "Səninlə vacib söhbətim var. Harda görüşək ki, gözdən, nəzərdən uzaq olaq?" İbrahim ona dedi ki, mənim əldəqayırma damam var, səhər həyətə gətirərəm, guya təsadüfən rastlaşırıq, bir yana çəkilib dama oynaya-oynaya danışarıq.

Səhər elə də elədilər, İbrahim damasını bir skamyanın üstündə açdı. Həmid skamyanın o başında, İbrahim bu başında əyləşdi, xısın-xısın danışdılar. Həmid ona Ruhulla bəylə olan söhbətdən dedi. Çopur Abdullanın kim olduğunu, birinci dəfə necə onunla üz-üzə gəlməsini nağıl eləyib dedi:

– İbrahim, vəziyyəti belə görürəm Ruhulla bəy onun tələb elədiyi işdən boyun qaçırdığımçün məni möhkəm cəzalandıracaq. Çopur Abdullanın əlinə girəvə düşəcək. Mən onları qabaqlamalıyam.

İbrahim Həmidə nə isə demək istəyəndə bir kişinin onlara sarı gəldiyini görüb pıçıldadı:

– O barədə sonra səninlə danışarıq.

Kişi gəlib cınqırını çıxartmadan oyuna tamaşa elədi. O, çox dayandı. Adama üç əl oynadılar, ikisini İbrahim uddu, birini Həmid.



## XXX

Camaat təzəcə soyunub yatmışdı ki, bir kürən kişi gəlib astadan Həmidə dedi:

– Sizi Əlizaman oğlu çağırır.

Bunu Mazan da eşitdi. Kürən kişi gedəndən sonra pıçıldadı:

– Allah xeyir eləsin, Həmid qardaş, deyirlər o köpəkoğlu birini tənbeh eləmək istəyəndə gecə yuxudan qaldırıb apardır.

Həmid geyinə-geyinə dedi:

– Narahat olma, Mazan.

Həmid barakdan gedəndə oyaq olanların hamısı onun çağırılmağından xəbər tutdu. Bəziləri nigaran-nigaran gəlib Mazandan soruşdular ki, nə olub, onu niyə çağırıblar, xeyir ola? Mazan çiyinlərini atdı.

"Ruhulla bəy mənə iki gün möhlət vermişdi. Gərək sabah çağıraydı, bu gün niyə çağırıb, özü də bu vədə?! Çopur Abdulla özbaşına iş görməyə cürət eləməz..."

Rəislər qalan kərpic binanın qabağında keşikçi dayanmışdı. Almanlar gündüzlər burada keşikçi qoymurdular. Həmidi gəlib çağıran kürən azərbaycanlı kişi olmasaydı, keşikçi onu içəri buraxmayacaqdı.

Dəhlizin işıqları yanırdı. Otaqların bir neçəsinin qapısı üstündəki yarım pəncərələrdən işıq gəlirdi. Ruhulla bəyin iş otağının işığı yanmırdı. Həmid fikirləşdi ki, yəqin indi o da Çopur Abdullanın yanındadır.

O, qapını döymədən içəri girdi. Çopur Abdulla yaxasının düymələrini açıb stol arxasında tək əyləşərək acgözlüklə təpişdirirdi. Qabağında rus arağı, şoraba, konserv və yarım kömbə çörək vardı. Həmidi görcək ağzındakı iri tikəni çeynəyə-çeynəyə dedi:

– Gəl otur, qayınanan səni çox istəyir.

Həmid qapının ağzından irəli getməyib soruşdu:

– Bu vədə məni niyə çağırtdırmısan?

Çopur Abdulla stolun üstündəkilərə işarə elədi:

– Görmürsən, öz bakılımsan, köhnədən tanışıq. Çağırmışam ki, yeyib-içək, danışaq özümüzçün. Quran haqqı, Həzrət Abbasın qələm olan qollarına and olsun, Bakıyçün bərk darıxmışam. Səndən vətənin iyini almaq istəyirəm.

– Yəni səndə vətənə heç olmasa bir qətrə məhəbbət qalıb?

– Nöş qalmasın, taxta-şalbanam bəyəm, ruhum-zadım yoxdu? Ay Həmid, tikanlı sözləri at bir tərəfə, gəl otur vuraq, gördün yemək, day nə demək?! Ruhulla bəyin qəsəbədə bir aşnası var, onun yanına kefə gedib, çox vədə gecəni orda qalır. Mən də neynim, dərdimi dağıtmaqçün belə şənlənirəm. Qulyabanı kimi təkbaşına otururam.

– Sənin dərdin də var?

Çopur Abdulla çörəyi fal-fal doğradı.

– Dərdsiz adam olar? Düzünü bilmək istəyirsənsə, lap padşahın da dərdi var.

Həmid gəlib oturdu, ara xəlvət idi, Çopur Abdulla kefli, onu səssiz-səmirsiz öldürmək olardı. Həmid belə bir fürsəti nə vaxt idi ki, axtarırdı.

– Abdulla, vətən yadına düşübsə, burda bir-iki nəfər bakılı var, niyə onlardan birini çağırıb hörmət eləmirsən?

– O yolma-yoluğu çox görmüşəm. Onlar mənim tayımdı? Mən Həmid Xələfovla bir stolun arxasında oturmaq istəyirəm. O Həmid ki məni Nardaranda biclikIə yıxdı, o Həmid ki adı dillərdə gəzir, şəkli rəngli afişalarda şəhərlərin divarlarına yapışdırılır, gəlib-gedən tamaşa eləyir.

Çopur Abdulla Həmid üçün də stəkana araq tökdü:

– Vur, rəngin açılsın.

Həmid arağı içdi. Bu, Çopur Abdullanın döşünə yatdı.

– İçəndə heç olmasa, bir sağlıq de.

– Mən sağlıqsız içməyi xoşlayıram.

– Bu işdə də başqalarından fərqlənmək istəyirsən.

– Başqalarından nədəsə fərqlənməyi qarşıma məqsəd qoymamışam, Çopur Abdulla.

– Yenə də Çopur?!

Bu dəfə Həmid araqdan özü stəkanına süzüb başına çəkdi, üstündən heç nə yemədi. Çopur Abdulla çəngəllə konserv bankasından iri bir tikə götürüb Həmidə uzatdı.

– Al, al ye, köpək oğlunun arağı zəhrimar kimi acıdı. Mən konyak içənəm, o da burda yoxdu.

Çopur Abdullanın əli havadan asılı qaldı, Həmid ətli çəngəli almadı. Ayrı vaxt olsaydı Həmid içməzdi, tüpürərdi onların arağına. Lakin o, bu gün içməli idi. Ancaq elə içməli idi ki, keflənməsin.



O bu gecə Çopur Abdullanı öldürmək qərarına gəlmişdi, qarşısında oturan əclaf da insan idi, dünyada insan öldürməkdən, canlıya qıymaqdan dəhşətli cinayət təsəvvür eləmirdi. "Bəs bu əclaf indiyəcən neçə nəfərin ölümünə nə sayaq fərman verib, kim bilir, özü neçəsini öldürüb?"

Həmid həyəcanlı idi, əllərinin əsməsindən ehtiyat elədi, düşündü ki, birdən Çopur Abdulla məsələni duyub onu qabaqlayar, əllərini stolun üstündən götürdü. Həmid keflənməkdən qorxmasaydı, araqdan bir az da içərdi. "Yox bu işi sonraya qoymaq olmaz. Onsuz da mənim bu tilsimdən qurtarmağım əjdahanın dişləri altından sağ çıxmaq kimi bir şeydi, fürsəti fövtə vermək ağılsızlıq olar".

– Həmid, bir sağlıq deyəcəyəm, arxayınam ki, sən məndən qabaq o sağlığa içəcəksən.

Həmid əlini stəkanın ağzına qoyub Çopur Abdullanın araq tökməsinə mane oldu.

– Mən analarımızın sağlığına içmək istəyirəm. Çək əlini sənə də araq töküm, bilirəm içəcəksən.

Çopur Abdulla Həmidin zəif yerinə toxunmuşdu. O, anasının sağlığına içməyə bilməzdi. Həmid əlini stəkanın ağzından götürdü. Çopur Abdulla stəkana araq tökəndə qəsdən daşırtdı.

– Mən anamı davadan da neçə il əvvəl görmüşəm, Həmid. Bilmirəm arvad sağdı, ya rəhmətə gedib, ancaq o mənimçün sağdı.

"Yazıq arvad bilsəydi ki, böyüyüb belə əclaf olacaqsan, səni öz bətnində tələf eləyərdi, heç dünyaya gətirməzdi. Biz hamımız körpəlikdə mələk kimi oluruq..."

İkisi də, hərəsi də öz anasının sağlığına içdi.

– Həmid, anam xanım arvaddı. Mən uşaq olanda öz dayəm olub, qulluğumda dayanıblar. Ancaq mən anamı bir işdə bağışlaya bilmirəm. Əlli dörd yaşım var. – Çopur Abdulla əlini ikrahla üzünə sürtdü. – İndi də bunun xəcalətini çəkirəm. Çopurluğumu mənə ləqəb qoyublar. Üç yaşımda çiçək çıxartmışam, üzüm səpib, anam məni tapşırıb dayəyə, o da qancıq qızı baxmayıb səpgilərin qaysağını qaşıyıb qopartmışam, üzüm olub çopur. Mən ölüm, Həmid, mən çirkin kişiyəm?

Həmid başını tərpətdi. Doğrudan da, Çopur Abdulla yaraşıqlı kişi idi. Həmidin yaxşı yadındaydı – ilk dəfə Abdullanı güləşmə meydanında görəndə onun boy-buxununa baxıb heyifsilənə-heyifsilənə demişdi: "Heç rəvamıdı ki, bu cür kişi çopur olsun..."

– Xaricin pis deyil.

– Elə demə, batinim ondan da gözəldi.

Bir azca qalmışdı ki, Həmid desin daxilin əfi ilan yuvasıdı, orda şahmarlar, gürzələr yatır. Görəsən bu anlarda mənim barəmdə nə fikirləşirsən, bu gecəki qonaqlığın arxasında hansı əclaflıq, fitnə gizlənir, ancaq demədi. O da fikrindəkiləri büruzə verməyə vaxtından əvvəl kartları açmaq kimi baxırdı. Həmid çalışırdı Çopur Abdullada belə inam yaratsın ki, onun bu çağacan elədiklərindən xəbərsizdi. Çünki Həmidə belə sərfəli idi.

Anası Rübabə gəlib Həmidin gözləri qarşısında dayandı. Necə hirsli, bikef olsa da anası haqqında düşünəndə hirsi soyuyur, ürəyi açılırdı, sanki onu boranlı, çovğunlu bir səhradan götürüb gülləri sayrışan çəmənliyə gətirirdilər, dincəlirdi.

Çopur Abdulla şüşənin dibindəki arağın yarısını öz stəkanına süzdü, o biri yarısını Həmidinkinə süzəndə o qoymadı.

– Sən allah, çək əlini, bu beş-altı qurtum araqdan sənə nə olacaq?!

Həmid fikrindən dönmədi. Çopur Abdulla arağın hamısını özünə töküb içdi. Sonra bir duzlu xiyar götürüb ağzına təpdi, keflənmişdi. Həmid Çopur Abdullaya inanmasını onun nəzərinə çatdırmaq məqsədilə arxayınlıqla qalxıb otaqda gəzindi, götür-qoy elədi, onun axırına necə çıxsın ki, gecənin bu sakitliyində hay-küy qoparıb yatanları oyatmasın. Həmid pəncərə qabağına gəlib bayıra baxdı, hər tərəf qapqara idi. Çopur Abdulla dedi:

– İndi ki, ayağa qalxmısan, aç o pəncərəni, təmiz havadan doyunca udaq özümüzçün.

Həmid pəncərəni taybatay açdı, bayırdan təmiz hava gəldi. O, ətrafa boylandı görsün binanın dalında nə var. Divardan təxminən bir metr aralı topa kollar əkilmişdi. Həmid qaranlıqda ayırd eləyə bilmədi ki, onlar nə koludur. Haradansa quş səsi gəlir, kəsilirdi. Həmid konserv qabında qalan ətləri çörəksiz yeyən Çopur Abdullaya yandan göz yetirdi, o, qarnının hayında idi. Bir istədi ki, şığıyıb Çopur Abdullanı xırxalasın, sonra yadına düşdü ki, pəncərə açıqdır. Bayıra səs gedər. "Nahaq bura gəldim... Yoxsa pəncərəni açdırmaq onun fikrinə gəlməyəcəkdi. Pəncərəni bağlamaq lazımdı, necə bağlayım şübhəyə düşməsin?.." Həmid yalandan üşəndi.

– Tərləmişdim, mənə soyuq oldu, bəlkə pəncərəni bağlayım, Abdulla?



– Xətrin nə sayaq istəyir, elə də elə.

Həmid pəncərənin taylarını bağladı. Çopur Abdulla arxayınlıqla stola yayılmışdı. Tapançasının qoburunun qapağı yenə açıq idi. Həmid tərəddüd eləyirdi, ona yaxınlaşsın, ya yox?! Çox fikirləşmədi, birdən qırğı kimi Çopur Abdullanın başının üstünü alıb, iki əlilə boğazından yapışaraq gücü çatdıqca sıxdı. Çopur Abdulla bunu gözləmirdi, şaşırmışdı. Çapalayıb xırıldaya-xırıldaya Həmidin əllərindən yapışaraq onları boğazından qoparmağa çalışırdı.

– Öl, öl, əclaf!.. Sənin cəzan budu, qatillər yaşamamalıdı.

– Xxx... neeynirsəəənnn?.. Bu... bu... buuurrraxxx...

Həmid Çopur Abdulla yarımcan oluncaya qədər boğazından buraxmadı, çətinliklə nəfəs alanda onu yerə uzatdı.

– Çopur Abdulla, sən indi öləcəksən. Çoxdan ölməli idin. Çünki çoxunun çırağını söndürmüsən: Soldat bazarında öldürtdüyün xiləli pəlvan Novruz yadındamı?! Böhtana salıb sürgünə göndərtdiyin Balağa Aslanzadə yadındamı?! Nəhayət, o gün vəhşicəsinə döydüyün Fətəlinin nə günahı vardı? Bunlardan başqa nə qədər müsibət, faciə törətmisən?! İndi də Ruhulla bəyə qoşulub bu günahsız insanları arxanızca uçuruma sürükləyirsiniz. Bu onların intiqamıdı.

Çopur Abdulla can versə də, Həmidin dediklərini eşidirdi. Qıcanaqıcana belindəki qoburu axtardı, tapançasını çıxarıb Həmidi vurmaq istəyəndə əli boşa çıxdı. Həmid tapançanı götürüb öz qayışının altına basmışdı. Çopur Abdullanın qəzəbdən və boğulmaqdan dombalmış gözləri sanki hədəqəsindən çıxıb, yerə düşəcəkdi. O, yaralı timsah kimi dırnaqları ilə döşəməni cırmaqlaya-cırmaqlaya stola sarı süründü. Həmid, Abdullanın məqsədini duymuşdu. Stolu onun üstünə aşırıb səs-küy qoparmaq, qonşu otaqdakıları köməyə çağırmaq istəyirdi. Həm də o, nəfəs aldıqca yavaş-yavaş dirçəlirdi. Həmid çarpayıdakı balışı götürdü, yerdən qalxmağa səy eləyən Çopur Abdullanın ağzına basıb sinəsi üstündə oturdu:

– Vətəninə, millətinə xainlik eləyənin yaşamağa haqqı yoxdu!

Həmid bir əli ilə balışı bərk-bərk Çopur Abdullanın ağzına basır, o biri ilə ilə onun boğazını kəlbətin kimi sıxıb nəfəs almağa qoymurdu.

Çopur Abdulla Həmidi sinəsi üstündən aşıra bilmədi, çapalaya-çapalaya gəbərdi. Həmid qalxdı, yubanmaq olmazdı, nə qədər ki gəlib əhvalatdan xəbər tutan yox idi, aradan çıxmalıydı. O, tapançanın xəzinəsini çıxarıb baxdı, içi dolu idi. Onu ayaqda qoydu. Otağı

axtardı, görsün kara gələn bir şey yoxdur ki, döşəyin altında fin bıçağı gizlədilmişdi. Həmid onu götürdü, Çopur Abdullanın meyitini bir yanda gizlətmək istədi, gəlib eləyən olsa, o dəqiqə gözə görünməsin. Əvvəlcə fikrindən keçdi ki, pəncərəni açıb onu topa kolların altına atsın. Bu fikrindən tez də vaz keçdi. Meyiti çölə atsaydı, bəlkə qonşu otaqlardan birinin pəncərəsi açıq idi, səsdən şübhəyə düşərdilər. O, Çopur Abdullanı sürüyüb çarpayının altına itələdi. Sonra meyiti lap küncə, divar dibinə söykədi. Səhər Çopur Abdullanı axtarsalar, tez tapmasınlar. Otağa göz gəzdirdi, içəridə adam öldürülməsinin bir izi, nişanəsi qalmamışdı.

Həmid bayırda rastına çıxanları şübhələndirməməkdən ötrü üst-başını qaydaya saldı. Bərk həyəcanlı idi. Adam boğmaq nə dəhşətli imiş, ilahi?!

Stolun üstündəki qrafin su ilə dolu idi. Həmid qamarlayıb acgözlüklə başına çəkdi, su cəhənglərindən sinəsinə damcılayırdı. Qrafinin suyu yarı oldu, Həmid onu yerinə qoyub əlinin dalı ilə sinəsinə damcılamış suyu çırpdı.

Dəhlizdən ayaq tappıltısı gəldi. Həmid pistoleti qayışın altından çıxarıb hazır tutdu, gözlədi, kimsə gəlib sovuşdu. Sonra qonşu otaqların hansınınsa qapısına açar salındı, kilid şıqqıldadı. Qapı açan nazik səslə almanca pəsdən oxuyurdu, səs haradasa əridi, dəhliz sakitləşdi. Həmid qapının kilidini açdı, işığı söndürüb çıxmaq istəyəndə dəhlizin həyət qapısı tərəfdən yenə addım səsi gəldi. Kimsə asta-asta, tənbəl-tənbəl yeriyirdi. Həmid deyindi. "Elə bil bu zalım uşaqları mənim çıxıb getməyimi gözləyirdilər..."

Bu dəfə Həmid daha gözləməyəcəkdi, hər kimsə gəlib qapıdan sovuşub öz otağına girən kimi o, dəhlizə çıxıb uzaqlaşacaqdı.

Addım səsləri lap yaxınlaşdı. Çopur Abdullanın qapısı ağzında kəsildi və kimsə çırtma ilə qapını taqqıldatdı.

– Abdulla bəy, Abdulla bəy, yatmısan?

Gələn Ruhulla bəy idi. Həmid onu səsindən tanıdı, hay vermədi, düşündü ki, o, Çopur Abdullanın yatdığını güman eləyib çıxıb gedər. Kapitan getmədi, yenə qapını tıqqıldatdı:

– Nə bərk yatmısan, Əlizaman oğlu.

Həmidin yadına düşdü ki, kilidi bağlamayıb. Ruhulla bəy itələsə qapı açılar, peşman oldu: "Bu hardan gəlib çıxdı?! – Həmid tapançanın lüləsini qapıya tuşlayıb durmuşdu. – Yox elə vaxtında gəlib.



İlanın əcəli gələndə yola çıxır, deyiblər. Bəlkə onu içəri çağırım?! – İşığı söndürdüyünə heyifsiləndi. – Yox, yerinə düşməz, işığın sönməsindən və mənim burda olmağımdan xoflanar. O, Çopur Abdullanı səsləyir, ev sahibi cavab vermir, deməz ki, Əlizaman oğlu hanı, sən nədən ötrü bu qaranlıqda oturmusan?.."

Çopur Abdullanın oyanmamasından şübhələnən Ruhulla bəy qapını yumruğu ilə döyəndə bir tayı açıldı. Kapitan elə zənn etdi ki, onu kimsə açdı.

– Əlizaman oğlu!

İçəridən səs çıxmadığını görüb, Ruhulla bəy kibrit alışdırdı, otağa keçdi. Həmid qapının açılan tayının dalında, qaranlıqda dayanmışdı. Kapitan onu görmədi. Kibrit yanıb qurtaranda od əlinə dəyməsin deyə Ruhulla bəy onu atıb, ayrısını alışdırmaq istədi, Həmid cəld arxadan şığıyıb ovcunu kapitanın ağzına basdı ki, çığırıb haray-həşir qoparmasın. Onu qucağına alıb çarpayının üstünə aşırdı və sakitcə boğdu. Zəif vücudlu Ruhulla bəy müqavimət göstərə bilmədi. Canı çıxanacan Həmid əlini onun ağzından və boğazından qoparmadı. Ruhulla bəy öldü, bilmədi ki, onu boğan kimdir.

Həmid açıq qalan qapını ehmalca bağlayıb işığı yandırdı. Ruhulla bəy daş kimi düşüb qalmışdı, ancaq üzü qıpqırmızı idi, indi daha yubanmaq olmazdı. Həmid onun pistoletini çıxardıb qoynunda gizlətdi, ciblərini axtardı, əlinə gərəkli heç nə keçmədi, barmağındakı qızıl üzüyə toxunmadı, işığı söndürüb bayıra çıxdı, dəhliz xəlvətlikdi. Vaxt da gec idi, saatı olmadığından Çopur Abdullanın otağında nə qədər qaldığını bilmədi. Dəhlizə çıxandan sonra xatırladı ki, gərək kapitanın qol saatını açıb götürəydi, onlara çox lazım idi. Lakin ona görə bir də geri qayıtmadı, dəhlizi keçib qapıdan çıxdı. Keşikçi bayaq onu buraxandı, yaxşı ki dəyişilib qapıda ayrısı durmamışdı, Həmidi saxlaya bilərdi. O, keşikçidə şübhə oyatmamaq üçün yalandan gülümsəyə-gülümsəyə sağollaşıb həyətə düşdü. Elə bil ki, Həmidi havasız dustaqxanadan azad eləmişdilər, bayırın təmiz havasından ciyərdolusu uddu. Götürdüyü tapançaların biri qoynunda idi, o biri köynəyinin qolunda. Lazım olsaydı qolundakını dərhal ovcuna sürüşdürüb özünü müdafiə eləyə bilərdi. Həmid arxayın idi ki, səhər yeməyinə kimi bu hadisənin üstü açılmayacaq. İndi gecə idi, hamı şirin yuxuya getmişdi. Səhər almanlar Ruhulla bəylə Çopur Abdullanı görməyib əl-ayağa düşəcək, onları axtaracaqdılar.

Həmid daha heç nədən qorxmurdu. İnnən belə ölsəydi də onu yandırmazdı, çoxdankı istəyinə çatmışdı. Gec də olsa, Çopur Abdulla cəzasını almışdı. Həmid sağ qalıb Firuzla da rastlaşmaq istərdi, lakin bu cəhənnəmdən sağ-salamat qurtarmağına çox da ümid eləmirdi. Təkcə öz hayına qalsaydı, indi yanında iki tapançası vardı, bəlkə də onların köməyi ilə burdan birtəhər qaçıb qurtarardı. Bəs yerdə qalanlar?.. Onlara kömək eləmək lazım idi. Düşərgədə iki tapança və bir fin bıçağı az qüvvə deyildi, bacaran onlarla çox iş görə bilərdi.

Həmid baraklarına tələsdi, tez İbrahimi tapmalı, əhvalatı ona danışmalıydı. Nə qədər işin üstü açılmamışdı, almanlar camaatı yığıb cəzalandırmamışdılar, onlar nə isə eləməli idilər.

Baraklarına gələn Həmid Mazanı qapı ağzında oturan gördü. O, Həmidin qayıtmasına sevinib dik qalxdı:

– Nə yaxşı qayıtdın, səni döymədilər ki?.. Orda ləngidin, nigaran qaldım, yuxum qaçdı.

Mazanın bu qayğıkeşliyinə Həmid mütəəssir oldu. Çəkinmədən ona etibar elədi:

– Səndən bir xahişim var, Mazan, – dedi, – get ikinci barakdan İbrahimi çağır.

– Baş üstdə, ancaq İbrahimin yerini bilmirəm.

– Bilirsən neyno?! Get barakın içinə gir, artırmada ucadan de ki, xahiş olunur İbrahim bayıra çıxsın.

– İbrahimin familiyası nədi?

– Familiyası?.. Adını çağırsan, o çıxar.

Mazan getdi. Həmidin həyəcanı sovuşsa da, nigaran idi. Bu əhvalatın axırı nə ilə qurtaracaqdı.

Mazan İbrahimlə birlikdə qayıtdı. Həmid ərklə ona dedi:

– Mazan, qardaşım, incimə, mənim İbrahimlə ikilikdə bir söhbətim var.

– Buyurun, niyə inciyirəm ki, adamın adama sözü olar. Siz danışın, mən də gedib yatım. – Əsnədi. – Gecəniz xeyrə qalsın.

Mazan gedəndən sonra İbrahim xəbər aldı:

– Bu kişi kimdi? Ona ürək qızdırmaq olar?

– Zərərsiz adamdı. Onunla bir taxtda yanaşı yatırıq. Məncə, ağzından söz qaçırmaz.

– Hər halda ehtiyatlı ol. De görüm bu vədə məni niyə çağırtdırmısan? Kişi gəlib məni elə səslədi ki, çoxu oyandı. Gördülər ki, mən harasa getdim. Bu bizə iş aça bilər.



– Səninlə təcili danışmalıyam. Kapitan Ruhulla bəylə Əlizaman oğlunu öldürmüşəm.

Həmid əhvalatı təfsilatı ilə danışdı.

İbrahim dedi:

– Tələsmisən, Həmid, tələsmisən, bizim planımız vardı.

– İndi nə eləmək olar ki, ayrıları bundan zərər çəkməsin?!

– Dayan, qoy bir fikirləşim. – İbrahim saatına baxdı. – Birə on dəqiqə işləyir. Alaqapıdakı keşikçi təzə dəyişilib. Gərək dörd saat gözləyək. Barı o çağacan onların ölümündən xəbər tutmayaydılar. Tutsaydılar, vəziyyət ağır olacaq.

– Niyə o çağacan vaxtı itiririk. Dörd saata aləmin işini görmək olar.

– Əlbəttə, rahat şəraitdə o vaxtda xeyli iş görmək olar. İndi bizim vəziyyətimiz ayrı cürdü, Həmid, tələfat verməməkçün biz çox dəqiq və ehtiyatlı olmalıyıq. Bilirsən, haçandı burdan qaçmaq planı hazırlayırıq. Az iş də görməmişik. Bizə bir neçə gün də lazım idi ki, bütün işlərimizi qurtaraq. Ancaq bu əhvalatdan sonra day gözləmək olmaz.

İbrahim qayğı içində fikrə getdi, Həmiddən soruşdu:

– Tapançaları mənə verərsənmi?

– Niyə vermirəm, al. – Pistoletləri İbrahimin ovcuna qoydu. – Məndə bir bıçaq var. Onu da verim?

– Ver, özün də hələlik get yerinə uzan ki, heç kəsi şübhəyə salmayasan, bir azdan görsən ki qapı açıldı-örtüldü və heç kim baraka gəlmədi, demək, o mənəm, ehmalca dur həyətə çıx. Nə eləyəcəyimi onda sənə deyərəm.

İbrahim tapançaları və fin bıçağını ciblərində gizlədə-gizlədə dedi:

– Bizə silah gərək idi, yerinə düşüb.

İbrahim Həmidlə vidalaşmadan getdi.

Gecə keçirdi, Həmidin yuxusu gəlmirdi, bu vəziyyətdə yatmaq olardı? O, baraka gəldi. Hamı şirin yuxuda idi. Səs salmadan taxtda dırmaşdı. Mazan sağ küncə sıxılıb xoruldayırdı, onu oyatmamaq üçün astaca sol küncdə uzanıb əllərini başının altına qoydu.

Həmidin gözləri qapıda qalmışdı. İbrahimdən xəbər yox idi. Bayaqdan bir nəfər subaşına gedib qayıtmışdı.

Barakın qapısı açıldı, içəri heç kəs gəlmədi, qapı ehmalca örtüldü. Həmid bildi ki, bu, İbrahimdi, sakitcə taxtdan endi, asta addımlarla həyətə çıxdı. Qapının dalında İbrahimlə bir cavan kişi durmuşdu. O:

– Həmid, – dedi, – tanış ol, bu bizim etibarlı yoldaşlarımızdan leytenant Saleh Məmmədovdu. – Həmid Salehlə əl verdi. – Biz belə qərara gəldik ki, planımızı qabağa çəkək, bütün işləri bu gecə, hava açılana kimi eləyək. Sənin bu işdə bizə köməyin dəyməlidi.

– Nə deyirsiniz, mən hazır.

– Mən hər şeyi sənə başa salacağam.

## XXXI

Gecə saat dördün yarısını keçmişdi. Düşərgənin alaqapısına gedən yolun qırağında köhnə dəmirçixana vardı. İndi oraya kardan düşmüş maşınlar, dəmir-dümür yığılıb qapısına iri qıfıl vurulmuşdu. Alaqapıda keşik çəkən soldatı dəyişən keşikçilər gəlib bu yoldan keçirdilər. Keşikçi düz saat dörddə dəyişilməliydi.

Dəmirçixananın böyründəki yemişan kollarının dalında üç nəfər əsir gizlənib alman keşikçilərini gözləyirdi. Həmid də onların arasında idi.

Üç nəfərdən ikisi keşikçilərin haradan gəlib keçməsini və qarovulun necə dəyişilməsini qabaqcadan öyrənmişdi. Bunu Həmidə də demişdilər.

"Tale insanı haralara aparıb çıxarmır, hansı sınaqlardan keçirmir?! Çopur Abdullanı Bakıda axtarırdım, əlimə keçmirdi, gəlib əsarətə düşdüm, o, mənim üstümdə böyük oldu".

Həyətin dərinliyindən soldat ayaqqabılarının tıqqıltısı eşidildi. Kol dibində gizlənən o üç nəfərin başçısı Saleh pıçıldadı:

– Deyəsən, gəlirlər.

Üçü də qulaq verdi, addım səsləri yaxınlaşırdı. Həmid bir neçə saat əvvəl Çopur Abdullanın otağında dayanıb dəhlizdən gələn addım səslərinə həyəcanla qulaq verməsini xatırladı. Onun ömründə belə gərgin və həyəcanlı gecə olmamışdı.

Üzlərini görməsələr də, dabanı nallı ayaqqabıların eyni ahənglə tappıldamasından təyin elədilər ki, gələnlər alman soldatlarıdır, alaqapıdakı keşikçini dəyişməyə gedirdilər.

Tappıltı güclənirdi.

Aşağıdan baxanda soldatların siluetləri aydın görünürdü. İki nəfər idilər. Biri növbəyə gedən keşikçi, o birisi növbə dəyişdirən. Soldatlar yanaşı gedirdilər, ikisi də avtomatlı idi.



Həmid kirpiklərini qırpmadan onlara baxırdı. Soldatların biri yekəpər idi, Çopur Abdulla boyda olardı. Həmid yanındakı Niyaza pıçıldadı:

– Yekəsi mənim.

Soldatlar asta-asta nəsə danışırdılar. Onlarla Həmidgilin arasında az məsafə qalmışdı. On beş metr, on metr, səkkiz metr, beş metr... üç metr... bir metr...

Eyni vaxtda Həmid bir yandan, Niyaz o biri yandan bir göz qırpımında soldatların üstünə atılıb əllərini ağızlarına basaraq dartıb kollara sarı sürüdülər. Həmid yekəpər soldatın hülqumundan elə möhkəm yapışıb qəzəblə sıxdı ki, kolun dibində hərəkətsiz düşüb qaldı. O biri soldatın da nəfəsini kəsib yeyin-yeyin paltarlarını soyundurdular. Vaxt keçirdi. Alaqapıda duran keşikçi növbənin yubandığından nigaran qalıb keşik otağına zəng vurub soruşsaydı, almanlar həyəcan qaldıracaqdılar, vəziyyət ağırlaşacaqdı.

Hələlik hər şey düşünülən kimi gedirdi. Həmid yekəpər soldatın, Niyaz isə o birinin paltarını geyib üst-başlarını qaydaya saldılar, Həmid ölünün paltarını geydiyi üçün çimçəşirdi, kiteldə soldatın bədəninin hərarəti qalmışdı, onu hiss eləyəndə sanki bədəninə zəhərli iynə batırırdılar.

Saleh razılıqla dedi:

– Başlanğıc uğurlu oldu, dalı da belə getsəydi, bəxtimiz gətirərdi.

Həmid ona təsəlli verdi:

– Dalı da qaydasıca olacaq.

Dəmirçixanadan o tərəfə, barakların yaxınlığındakı əlüzyuyanın tinində bir nəfər dayanıb keşikçiləri yoldan götürən yoldaşlarına göz qoyurdu. Həmidlə Niyaz alaqapıya sarı gedəndə bildi ki, hər iş qaydasındadır.

Əməliyyatın ən çətin hissəsi alaqapıda duran keşikçini aradan səssiz-səmirsiz götürmək idi. Onun budkasından keşikçilər otağına həyəcan zəngi vardı. Növbəyə gələnlərin özlərininki olmadığından şübhələnsəydi, dərhal zəngi basıb yoldaşlarını köməyə çağıracaqdı. Həmidgil bunu yaxşı bilirdilər. Onlar növbətçini dəyişməyə gedənlərin hansının sağda, hansının solda getdiyinə fikir vermişdilər. Elə o tərzdə də alaqapıdakı budkaya yaxınlaşdılar. Keşikçi onları görüncə budkadan çıxdı, xoş əhvalla almanca nə isə dedi. Həmidgil cavab vermədilər. Keşikçi sözünü bir də təkrar elədi, gələnlərin dinməməsi onu şübhəyə saldı, avtomatını hazır tutub dalı-dalı budkasına qayıtmaq istəyəndə Niyaz başa düşdü ki, içəri keçir zəngi basıb, kömək

çağırsın, aman vermədi, sərrast atəşlə alman soldatını budkanın ağzında yerə aşırdı.

Niyaz vurduğu keşikçinin avtomatını götürüb Salehlə qaranlıqda gözdən itdi. Həmid düşərgənin alaqapısını taybatay açıb avtomatını hazır tutaraq irəli baxırdı. Bir də gördü ki, baraklar tərəfdən qaraltılar gəlir. Bildi ki, əsirlərdir, onlara qapının açılmasını xəbər veriblər.

– Tez olun, qardaşlar!

Səs Həmidə tanış gəldi. İbrahim idi, adamları tələsdirirdi, iti tərpənsinlər.

Qabağa düşən bir dəstə, – əldən-ayaqdan iti olanlar alaqapıdan çıxıb qaranlıqda gözdən itdilər. Yuxudan kal oyananlar, dala qalmışdılar.

Düşərgənin o tərəfindən, almanların qaldıqları binanın səmtindən avtomat və tapança atəşinin səsi gəlirdi. Orada bərk atışma gedirdi.

Həmid avtomatını hazır tutmuşdu, düşünürdü ki, heyif, qapını baxımsız qoyub getmək olmaz. Hiss eləyirdi ki, almanlarla atışmaya girən yoldaşlarının güllləsi qurtara bilər, avtomatının diski dolu idi, onlara köməyi yerinə düşərdi.

Həmidin hesabına görə düşərgədən yüz nəfərdən çox əsir qaçmışdı, ancaq hələ yenə də qalırdı. Onlar niyə vaxtı itirirdilər, hər dəqiqənin bir hökmü vardı?! Salehgil necə olmuşdular? İbrahimin səsi gəldi, bəs özü necə oldu, harada ilişib?

Atışma gah qızışır, gah da seyrəkləşirdi. Həmid fikirləşirdi: yaxşı ki, atışma qapıdan uzaqdadır, əsirlər maneəsiz qaçıb aradan çıxırlar.

– Siz tez bunları burdan uzaqlaşdırın, o birilər də gəlirlər.

Qaranlıqda yenə İbrahimin səsi gəldi. Sonra özü göründü, əlində tapança vardı. İki nəfər xəstənin qoltuğuna girib aparanları qapıya ötürüb tapşırdı:

– Day ləngiməyib mən deyən istiqamətdə gedin, biz də gəlib sizə çatarıq.

İbrahim Həmidə dedi:

– Telefon xəttini kəsmişik ki, almanlar ayrı yerə zəng vurub xəbər verməsinlər. Burda səndən arxayınıq. Ancaq Salehgildən nigaranıq. Onlara kömək göndərmişik. Camaatın bəzisi çox ləng tərpənir. Orda, bizim barakdakı molla üç-dörd nəfəri dilə tutub qaçmağa qoymur, cəhənnəmə, biz onlara baş qoşmadıq, özləri bilərlər. Adam göndərmişəm, o biri baraklara baxsınlar, yatıb yaddan çıxan, qalan olmasın.

İbrahim atışma yerinə getdi.



Yenə qaranlıqda beş-altı nəfərin silueti göründü. Həmid gələnlərə diqqətlə baxırdı ki, almanlar olmasınlar. Mazan qabağa düşmüşdü. O, Həmidi qapıda görüncə çiçəyi çırtladı:

– Sizi axtarırdım, ona görə ləngidim. Sən demə, burdasınız. Qoyun, mən də sizə kömək eləyim, Həmid qardaş.

– Mazan, mən silahlıyam, bir iş olsa, özümü qoruya bilərəm, sən get, vaxt ikən aradan çıx, bəlkə sağlıq oldu, səninlə görüşdük.

Mazan da o birilərə qoşulub qaranlıqda qeyb oldu. Qapıdan çıxanlar dalına baxmadan götürülürdü. Bu, çoxuna möcüzə təkin görünürdü. İnana bilmirdilər ki, bu cəhənnəmin qapısından bu sayaq sərbəst, sağ-salamat çıxmaq olar.

Əməliyyatdan qabaq Saleh, İbrahim, Niyaz, Həmid, bir də adı Həmidin yadından çıxan caydaq kişi, gərək ki, İbrahim ona Cəmaləddin, ya Cəlaləddin dedi, bu qərara gəldilər ki, camaatın hamısı buradan qaçmayınca onlar yerlərindən tərpənməsinlər.

Caydaq kişi iki nəfər axsağı tələsdirə-tələsdirə qabağına qataraq qapıya gətirdi. Onları bayıra ötürüb dedi:

– Day qurtardı, orda on nəfərə kimi qalıb, burdan getmək istəmirlər, öz bəxtlərindən küssünlər. – Nigaranlıqla soruşdu: – İbrahimi görmədin ki?

– Bura gəlmişdi qabağınca, ora getdi. – Atışma meydanına işarə elədi. – Mən də Salehgildən xəbərsizəm.

Əlində tapança tutan caydaq kişi atışma yerinə cumdu.

Həmid qapı ağzında gəzinirdi, qulağına uzaqdan motor səsi dəydi. O bilirdi ki, haradasa, düşərgənin aşağısından şose yolu keçir. Gündüzlər, sakit havalarda oradan keçib-gedən maşınların səsi eşidilirdi. Həmid əvvəlcə belə zənn elədi ki, maşın o yoldan keçir, əhəmiyyət vermədi. Sonra motor səsinə diqqətlə qulaq asanda təyin elədi ki, maşın əks tərəfdən gəlir. Şübhəyə düşdü, gecənin bu vədəsi bu yandan gələn maşın hara gedə bilərdi?! Bu səmtdə yaxında qəsəbə, kənd yoxdu, düşərgənin o yanı seyrək meşəlik idi.

Maşın düşərgəyə sarı gəlirdi, buna şəkk-şübhə olmazdı.

Həyətdəki atışma zəifləsə də, İbrahimgildən bir xəbər-ətər yox idi, onlar orada niyə ləngiyirdilər?!

Həmid gələn maşın barəsində yoldaşlarına xəbər vermək üçün qapını baxımsız qoyub gedə bilməzdi. "Bunlar elə almanlardılar, əhvalatdan xəbər tutublar, köməyə gəliblər. Bəs İbrahim dedi ki, telefon

xəttini kəsiblər? Burada radio stansiyaları varmış, onunla özlərinkinə xəbər veriblər?! Tez uşaqları ayıq salmaq lazımdı, qaçıb aradan çıxaq..."

Həmid səs gələn tərəfə baxırdı. Qaranlıqda uzaqdan canavar gözü kimi işıldayan faraların göy işığı getdikcə irilənirdi. Həmid qət elədi ki, maşının yaxınlaşmasını gözləmək maymaqlıq olar, avtomatdan havaya dalbadal iki güllə atdı, elə bu ara caydaq kişi Salehi dalına alıb hıqqana-hıqqana gəldi:

– Kimə güllə atdın?

– Heç kimə, bura bir maşın gəlir, məncə, onlar almanlardı. Niyə ləngiyirsiniz?! Sizi çağırırdım.

– Vəziyyət ağırdı, Həmid. Niyazı vurublar. Saleh də belə... Almanlar bizimkilərə binadan atəş açıb yerdən qalxmağa qoymurlar.

– Görünür, bu yolla başınızı qarışdırırlar ki, kömək gəlib çatsın.

– İbrahimgil orda üç nəfərdilər, gülləlari də qurtar-qurtardadı.

Caydaq kişi zarıldayan Salehi hasarın qırağında yerə uzatdı ki, təzədən geri qayıtsın. Həmid dedi:

– Sən Salehi götür, tez burdan uzaqlaş, biz də dalca gəlirik, kömək eləyərik.

Cəmaləddin bir söz demədi, Salehi dalına alıb kəsə yolla getdi.

Maşının işıqları böyümüşdü, onunla düşərgənin arasında təxminən iki yüz metr məsafə olardı. Yol kələ-kötür idi, indi o, yavaş gəlirdi.

Həmid narahat idi. Dönüb gah maşın gələn səmtə baxırdı, gah da həyətə. "Bu İbrahim əcəllə oynayır, nədi?!"

Maşın lap yaxınlaşmışdı. Həmid İbrahimgilin gəlmədiyini görüb fikirləşdi ki, daha qapıda, göz qabağında dayanmaq mənasızdı. Həyətdəki atışma da kəsilmişdi. O, qapıdan on beş-iyirmi metr aralanıb dalda yer seçdi. Maşının yaxınlaşmasını gözlədi. Ancaq çox nigaran idi. "Atışma niyə kəsildi?! Allah eləməmişdən, birdən İbrahimgili vurub eləyərlər... Bəlkə onlar indi bura gəlirlər. Barı maşın qapıya çatınca özlərini yetirəydilər..."

Həmid qaranlıqda təsadüfən bir çalaya aşdı, əli palçığa batdı, dizləri islandı. Ancaq çaladan çıxmadı. Qırağa çəkilib alaném torpaqda uzanaraq düşərgənin qapısına baxdı. İçəridən gələn yox idi. Maşın isə lap yaxınlaşmışdı. "Yəqin nə isə olub, yoxsa İbrahimgil belə yubanmazdılar..."



Yük maşını düşərgənin qapısına çatan kimi soldatlar kuzovdan tullananda Həmid dözmədi, hiddətindən boğula-boğula onların ikisini vurub aşırdı, üçüncü ayağından yaralanıb axsaya-axsaya həyətə qaçdı. Soldatların yarısı həyətə cumdu, yarısı da qarasına düşərgənin qabağını atəşə tutdu, güllələr vıyıltıyla Həmidin başı üstündən keçdi, sağ qolunda sızıltı hiss elədi, avtomatı sol əlinə aldı. Soldatlar atəş aça-aça irəliləyirdilər. Həmid yaralanmasına heyifsiləndi. Sol əli ilə sərrast atəş aça bilməyəcəkdi. Onun hesabına görə diskdə üç güllə qalmışdı. Son anda onlarla özünü müdafiə eləyirdi.

Almanlar atəş aça-aça Həmidin daldalandığı çalaya sarı gəlirdilər, biri düz onun üstünə addımlayırdı. Həmid düşündü ki, qoy gəlsin, ona can verməz.

Sağ cinahdan soldatlara atəş açdılar, bir neçəsi yıxılıb daha qalxmadı. Həmidə sarı gələn almanlar avtomatlarının lüləsini o yana döndərib gülləni yağış kimi səpələdilər. Həmid yaddan çıxdı. Bunlar kim idi? Nə yaxşı köməyinə çatdılar.

Həmidin qolu bərk yaralanmışdı, tərpədə bilmirdi, qan axıb kitelin qolunu islatmışdı, yara sarınmasaydı qan çox axıb onu taqətdən salacaqdı. Həmid ilk növbədə buradan uzaqlaşıb, təhlükəsiz bir yer tapmalı idi, yarasını orada asudəliklə sarıyardı. Bu vəziyyətdə ona yük olsa da, diskində üç güllə qalmış avtomatını atmadı, sol çiyninə keçirtdi, əlini yaranın üstünə bərk-bərk basıb əyilə-əyilə çaladan çıxdı, qaranlıqda üzüaşağı qaçdı, xeyli getdi, düşərgədən yarım kilometrəcən aralanmışdı. Bədəni su içində idi, dayanıb nəfəsini dərdi, atışma kəsilmişdi.

Ətrafa sübhün sakitliyi çökmüşdü. Həmid bilmirdi ki, hara gedir, dosta rast gələcək, ya düşmənlərə, qarşıda onu nə gözləyir. Yoldaşlarından da nigaran idi. "İbrahimgili ya vurublar, ya da onlar maşınla gələn soldatların əlinə keçdilər".

Həmid əlini yaranın üstündən götürdü, qan laxtalanıb barmaqlarının arasında çiriş kimi olmuşdu. Əlini oturduğu yerin dövrəsində göyərmiş otlara sildi, hələ də əynində qalan alman kitelinin astarını cırıb qolunu dirsəkdən yuxarı sıxa-sıxa sarıdı, yara göynəyirdi, birtəhər dözdü, dişinin köməyi ilə sarğının düyününü bərkitdi. Susuzluqdan dili-ağzı qurumuşdu... "Heç Salehlə Cəmaləddindən də xəbərim olmadı. Onlar hara getdilər, belə vaxtda tək olmaq pisdi. Qoşa olanda adam bir-birinə dayaq, həyan olar..."

Həmid dünən axşam təsəvvürünə gətirməzdi ki, bu gecə belə ağır və gərgin olar, yoldaşının neçəsini itirər. Hamıdan artıq onu İbrahim yandırırdı. "Əsirlərin düşərgədən qaçmasını o təşkil elədi, amma yazıq özü həlak oldu..."

Hava mülayim idi, ancaq Həmid üşüyürdü, yarasından çox qan axmışdı, ondan idimi?! Qolu da ona ağırlıq eləyirdi. Sanki, sağ tərəfindən nə isə lazımsız bir şey asmışdılar, öz qolu deyildi.

Səmadakı bulud topaları harasa axıb getmişdi, dan ulduzu üzük qaşı kimi par-par parıldayırdı.

Həmid səhərin açılmasını gözləyirdi. Nə qədər ağır olsa da, bu gecəni ömrü boyu unutmayacaqdı. Bu mülayim gecədə çoxdankı arzusuna çatmış, nəhayət, Çopur Abdullanın cəzasını vermişdi, üstəlik əsirlikdən qurtarmışdı. Həmid üçün əsir olub faşistlərin qarşısında qul kimi dolanmaq ən böyük təhqir idi. Ancaq bir qolu yaralanıb yanına düşmüşdü. Ona tibbi yardım göstərilməli idi. Göstərilməsəydi də eybi yox, ölsəydi azadlıqda öləcəkdi, açıq səmanın altında, təbiətin qoynunda. Həmid bu azadlığın, bu sərbəstliyin həsrətini çox çəkmişdi. Yenidən ələ keçmək qorxusu olmasaydı, Həmid yerindən tərpənməz, yaranın ağrısına məhəl qoymayıb burada arxası üstə uzanardı.

Haradasa çaqqal uladı. Həmid durdu. Fikrinə gəldi ki, birdən almanlar onların dalınca it salarlar. Yola düzəldi, daha qaçmırdı, yüyürəndə qolu silkələnib onu incidirdi. Hava işıqlananacan buradan uzaqlaşmalı, bir yerdə daldalanmalı idi. Kolya Frolovla yatıb ələ keçmələri Həmidə ibrət dərsi olmuşdu.

Həmidin burnuna yanıq iyi gəldi, o qabağa getdikcə iy güclənirdi. Sübhün mehi onu hardansa qabağına qatıb gətirirdi. İrəlidə, üfüqdə kələ-kötür təpələrə oxşar dikdirlərin silueti görünürdü. Həmid onlara sarı gedirdi. "Getməyinə gedirəm, barı orda almanlar olmayaydı". Avtomatında üç güllə olsa da, tək əllə sərrast ata bilməyəcəkdi. O bu atəşlə yalnız kimisə qorxudardı, bununla da özünü təhlükədən çətin qurtarardı. Ancaq bir təsəlli vardı ki, çıxılmaz vəziyyətə düşəndə ələ keçməməsi üçün avtomatının lüləsini gicgahına qoyub tətiyi sıxmağı bacarardı.

Həmid irəlilədikcə üfüqdə təpəyə oxşar qaraltıları tədricən seçməyə başlayırdı. Qabaqda qaralan ağaclıq idi. Lakin bilmirdi ki, ora bağdır, ya meşə. Meşə olsaydı yaxşı idi, hələlik orda daldalanardı.



Ağaclıq yaxın görünsə də, getdikcə elə bil geriyə çəkilir, Həmidi də arxasınca çağırırdı. "Bu yol acı bağırsaq kimi nə yaman uzandı..."

Hava işıqlanırdı. Həmid indi aydın seçirdi ki, getdiyi yer meşədir, bu meşənin qırağı yanıb, orda-burda qaralan dirəklər yanmış ağacların gövdəsidir.

Həmid meşəyə çatanda hava işıqlanmışdı. Kənardakı ağacların hamısı ucdantutma yanmışdı.

O, yerə basdırılan qara dirəkləri andıran yanmış ağac gövdələrinin arasından keçib meşənin içinə girdi. İçərilərə getdikcə yanğının izləri azalır, yaşıllıqlar artırdı. Yanıq qoxusunu meşənin xoş iyi əvəz edirdi.

Həmid şam ağaclarının arasından keçən bir cığır görüb ona yönəldi, düşündü ki, qoy keçim, nə olar, olar, ya bəxt. Hər halda almanlar meşədə məskən salmazlar, onlara belə yerlərdə yaşamaq sərf eləməz. Cığırla bir xeyli getdi, sonra cığır haçalandı və sıx kolların arasında itdi. Qolu yaralı olmasaydı, Həmid özünü oraya toxuyub irəliləyərdi. Dayanıb fikrə getdi, nə eləsin? Geri qayıtsınmı? Qolunun qanaxması kəsilmişdi, o, budaqlara toxunsaydı ağrısı bir yana dursun, qan yenidən açılacaqdı. Həmid geri döndü, cığırın haçalandığı yerə gəldi, o biri yola çıxdı, bir neçə metr getdi, qabaq açıq idi, iyirmi-otuz addım atıb yan-yörəsinə göz yetirdi, üst tərəfdə kolların arasında bir qaraltı gördü. Tez avtomatını çiynindən əlinə sürüşdürdü, dayandı, özünü palıd ağacının arxasına verib baxdı. Qaraltı tərpənmirdi, irəli getməyə cəsarət eləmədi, bir istədi ki, səsləsin: "Orda kimdi?" Sonra səs çıxarmadı, ehtiyatla bir ayaq-bir ayaq irəli getdi, qaraltıya yaxınlaşdı və heyrətdən yerində donub qaldı. Ağac altında uzanan Saleh idi, ölmüşdü. Həmid o tərəf-bu tərəfə baxdı. Bəs Salehi aparan Cəmaləddin necə olmuşdu? Heç kəsi görmədi. O, hara getmişdi? Əlini Salehin alnına vurdu, meyit isti idi. "Cəmaləddin bunu burada niyə qoyub gedib? Bəs onun özü necə olub, tutmayıblar ki?! Yox, burada onu kim tutacaqdı ki, hər nəsə ayrı işdi..."

Salehin gözləri açıq qalmışdı. Həmid ona baxa bilmədi. Təzə tanış olduğu və ilk görüşdən ürəyinə yatan bu cəsur kişinin meyiti necə də meşədə atılıb qalmışdı. Yazığı niyə basdırmamışdılar? "Nə yaxşı ki son nəfəsdə azadlığa çıxdığını bildi, nisgilli ölmədi. Heyif ondan, ölməli kişi deyildi".

Salehin köynəyinin sol döşü al-qana batmışdı. Güllə ürəyinin üstündən dəymişdi, yeri də görünürdü. Həmidin Cəmaləddinə qəzəbi tutdu: "Bu insafsız hara gedib, bəlkə fikirləşib ki, Saleh onsuz da ölür, baş qoşmağın nə faydası?!" Bəlkə də Həmid tələsik nəticə çıxarmaqda yanılır, Cəmaləddinin dalınca nahaqdan söylənirdi?!

Həmid meyitin yanında oturmuşdu, onu burada belə qoyub getməyə ürəyi gəlmirdi.

Hava işıqlanmışdı. Quşlar səhərin açılmasına sevinib orda-burda budaqlarda civildəşir, haraylaşırdılar. Onların nə müharibədən xəbəri vardı, nə də Həmidin bu meşədə köməksiz qalmasından, həmişəki təkin öz quş nəğmələrini oxuyurdular.

Həmidin buraya gəldiyi tərəfdən xışıltı eşidildi. Bu nə xışıltı idi?! O heyvan idimi, quşlar kimi səhərin açılmasını görüb yuxudan oyanmışdı? Xışıltı artır və yaxınlaşırdı. Yox, heyvanın meşədə hərəkətindən bu cür səs çıxmazdı. Həmid ehtiyat elədi. Palıd ağacının dalına keçdi, yaralı qolu incidə-incidə güc-bəla ilə üzüstə uzanıb avtomatdan atəş açmaq üçün yerini rahatladı. Gələn hər kimsə, adam idi. Xışıltıdan belə görünürdü ki, bir nəfər deyil. Həmid hövlləndi, barı, gələnlər almanlar olmayaydılar. Onlar düşərgədən qaçanların dalınca dəstə göndərə bilərdilər. Bu da almanlara bəlli idi ki, qaçan əsirlər üçün meşə əlverişli sığınacaqdı. Onları ayrı yerdə yox, məhz burada axtarmaq lazım idi. Həmid gözlərini cığıra dikib irəli baxırdı, gələnlər isə danışırdılar. O diqqət yetirdi ki, ayırd eləsin, hansı dildə danışırdılar, almanca, ya ukraynaca. Ukraynaca olsaydı, qorxusu yox idi, Həmid əmin idi ki, yerli əhalidən ona bir xətər toxunmaz.

Gələnlər nəsə dedilər, sonra danışıq kəsildi, amma ayaq tappıltıları yaxından eşidilirdi. Həmid nigaran qaldı, bilmədi ki, gələnlər kimlərdi. Bu dəfə daha qaçıb aradan çıxmaq mümkün olmayacaqdı. Avtomatdakı üç güllənin biri də boşa çıxmamalıydı. Tək əllə nişan alıb atəş açmaq nə qədər çətin olsa da, Həmid gələnləri gözləyə-gözləyə irəlidə – cığırın burulan yerində bitmiş kolu gözəyarı nişan götürdü. Əgər gələnlər almanlar olsaydılar, onlar həmin kola çatanda Həmid atəş açsaydı, gülləsi hədəfə dəyəcəkdi. O, yarası göynəyə-göynəyə uzanıb gələnləri gözlədi.

Ağacların dalından iki baş göründü, budaqların arasından Həmid yaxşı seçmirdi, ancaq onlar hər kimdirlərsə, başları açıq idi. Almanlar belə yerdə dəbilqəsiz gəzməzdilər. Demək, gələnlər onları təqib eləyənlərdən deyildilər, bu özü böyük işdi. Həmid yenə də arxayın



olmadı, avtomatı hazır tutub gözlədi, birdən gələnlər almanların tərəfinə xidmətə keçmiş polisaylardan olardı, onlar heç sahiblərindən geri qalmazdılar.

– Uşaqlardan necə xəbərimiz olmadı, hara getdilər, nə sayaq oldular, kim öldü, kim qaldı.

Azərbaycan dilində deyilən bu sözləri eşidən Həmid qolunun ağrısını yaddan çıxarıb, ayağa qalxmaq istəyəndə büdrədi, alnı palıd ağacının gövdəsinə dəydi, yerə yıxıldı.

– Uffff!..

Həmid ağrıdan yerdə qovrula-qovrula qalıb qalxa bilmədi, yaralı qolu əzilmişdi, sanki hülqumundan yapışıb onu nəfəs almağa qoymur, boğurdular. Axır ki salamat əlini palıda dayayıb o biri böyrü üstünə çevrildi, yaşaran gözlərini geniş açaraq cığıra baxdı. İbrahim bir nəfərlə ona yaxınlaşırdı. Onlar Həmidi görmüşdülər. Addımlarını yeyinlədib köməyə gəldilər, Həmidi qaldıranda gördülər ki, sağ qolundan qan damcılayır. Onu palıdın altında oturtdular. İbrahim və onunla gələn cavan qarayanız oğlan Salehin meyitini görmədilər. Qarayanız oğlan avtomatını kolun dibinə qoyub Həmidin qolunun qandan islanmış sarğını açanda İbrahim dedi:

– Açma, elə üstündən sarı.

Qarayanız oğlan köynəyini soyunub yaxasından ətəyinə kimi cırdı və onunla Həmidin yarasını səliqə ilə sarıdı.

– Sən burda tək neynirsən? Saleh, Cəmaləddin, bəs o biri uşaqlar nə oldular?

Həmid necə yaralandığını danışıb Salehin meyitini göstərdi:

– Cəmaləddindən, o biri uşaqlardan xəbərim yoxdu. Mən bura gəlib Salehi orda gördüm, keçinmişdi.

Üçü də meyitin yanına gəldi.

– Belə çıxır ki, Cəmaləddin Salehin meyitini burda atıb gedib.

– Mən də o cür fikirləşirəm, İbrahim. Cəmaləddinin dalıyca xeyli söylənmişəm, düzü, mən onu tanımırdım. Belə anda yoldaşının ölüsünü atıb getmək ən azı nakişilikdi.

Qarayanız oğlan gileyləndi:

– Mən Cəmaləddini sizdən çox tanıyıram. Qorxaq deyil, ancaq laqeyd kişidi, başqasıyçün özünü qəti əziyyətə salmaz.

İbrahim əyilib əlini Salehin alnına qoydu:

– Görəsən, Cəmaləddin onu burda yaralı-yaralı atıb getməyib ki?!

– Nə biləsən.

Qarayanız oğlan dedi:
– Bu saat qəbir qazımağa bir karastı düzəldərəm.
O, cib bıçağını çıxarıb özünü sıx kolluğa toxudu. İbrahim Salehin meyitinin yanında durub fikrə getmişdi. Həmidin yarası necə ustalıqla sarınsa da qanaxması kəsilməmişdi. Sarığın üstündən sarınan köynək də qandan qızarmışdı. Yara indi əvvəlkindən betər ağrıyırdı, ancaq o bunu yoldaşlarına demir, dözürdü ki, qəbri qazıyıb Salehi arxayın basdırsınlar.
Qarayanız oğlan qol yoğunluğunda iki ağacla qayıtdı. Ağacların ikisinin də bir ucu külüng ağzı təkin kəsilib itilənmişdi. Onun birini İbrahimə verdi:
– Necədi?
İbrahimin cavabını gözləmədən ağacın iti ucunu zərblə qəbirin yerinə sancıb, güc gəldi, ala-nəm torpaqdan ovuc böyüklüyündə bir parça qopdu. İbrahim də ona qoşuldu. Qarayanız oğlan kimi ağacı torpağa sancıb qopartsa da, tərpənişindən məlum olurdu ki, yer qazmaq işində naşıdır. Qarayanız oğlan üç parça qopardıb kənara atanda, İbrahim ikisini qoparırdı.
Qəbir hazır oldu. İbrahimlə qarayanız oğlan köməkləşib Salehi ehmalca qəbirə qoydular, üstünə torpaq tökəndə Həmid də bir neçə ovuc götürüb atdı. İbrahim ürəkağrısı ilə dedi:
– Onunku da buracanmış. İgid adamdı, axıracan dəyanətlə vuruşdu. Saleh olmasaydı, biz orda alman soldatlarının qabağını çətin saxlayardıq.
Həmid dərin hüznlə kolların arasında dikələn təzə qərib məzara baxırdı.
– Barı ordan qaçanlar özlərinə hələlik bir etibarlı sığınacaq tapıb təzədən ələ keçməyəydilər.
– Mən buna əminəm ki, etibarlı sığınacaq tapacaqlar. Onların arasında elə uşaqlar vardı ki, bilirdilər, hara getməlidirlər. Orda onları qarşılayacaqlar, Həmid. Ola bilsin ki, qaçanlardan kimsə dəstədən ayrı düşüb, azıb, onu da buranın camaatı köməksiz qoymaz.
Qarayanız oğlan dedi:
– Gərək özünü molla kimi qələmə verib Ruhulla bəyin qabağında quyruq bulayan o Qədim kişini tənbeh eləyib gedəydik. Mən onu Bakıda davadan qabaq Kömür meydanında köhnə paltar, dəmir-dümür satılan bazarda dərvişlik eləyən görmüşəm. Deyirdilər ki, ona pul



verməyin, fırıldaqçının, nəşəxorun biridi. Amma burda ruhani kimi hörmətə minmişdi. Kaş nemislər qaçanların acığını ondan çıxaydılar...
– O özü cəhənnəmə, beş-altı nəfər sadəlövhü də tovlayıb təsiri altına salmışdı, onlar yazıq oldular.
Yoldaşları Salehlə son dəfə vidalaşıb yola düzəldilər.
Həmid İbrahimdən soruşdu:
– Biz hara gedirik? Mən susuzluqdan yanıram. Bəlkə, axtarıb buralardan bir az içməli su tapaq.
– Su axtarmağa vaxtımız hanı, Həmid, əgər dözə bilərsənsə, bir az da döz, bu meşənin o başında bir kənd var. Orda mənim tanışım yaşayır, gedib onlarda su da içərik, çörək də yeyərik.

## XXXII

Həmid dəmir çarpayıda uzanmışdı, qolunun yarasını araqla təmizləyib sarımışdılar. Yoldaşları onu kəndin qırağındakı evin sahibinə tapşırıb getmişdilər. Dünəndən burada idi, ev sahibləri – qarı ilə qoca ona canla-başla qulluq eləyirdilər. Həmid də çox istəyirdi ki, İbrahimgilə qoşulub gedəydi, gedə bilməmişdi, yarası qızdırma vermişdi, ona görə də qalmağa məcbur olmuşdu. İndi qızdırmadan bədəni od tutub yanırdı. Qocalar onun qızdırmasını salmaq üçün moruqla çay içirtmişdilər. Neçə dəfə əsgi isladıb alnına qoymuşdular, bir təsiri olmamışdı. Həmid bu yaşa gəlmişdi, bu sayaq qızdırmağı yadına düşmürdü, yoxsa İbrahimin sözünə qulaq asmaz, iyirmi-iyirmi beş kilometrlik yolu piyada getmək nə idi ki, onlara qoşulub gedərdi. Həmidin bu evdə qalması həm ev sahibləri, həm də onun özü üçün çox qorxulu idi. Buradakı polisay, ya da qonşu kənddə olan alman komendantlığı xəbər tutsaydılar ki, qocalar evlərində əsir düşərgəsindən qaçmış sovet döyüşçüsünü gizlədirlər, onların üçünü də dar ağacından asardılar.
İbrahimgil bəd ayaqda özünü qorumaq üçün Həmidin yanında tapança qoyub getmişdilər. Həmid silahı başının altında saxlayırdı. Vədələşdiklərinə görə, gedənlərin biri bu axşam burada olmalıydı, gəlib Həmidi araba ilə partizanların məskəninə aparacaqdılar. İbrahimin dediyinə görə, orada hərbi cərrah vardı.
Həmid düşünürdü ki, əgər meşədə Salehin meyitini görüb onu dəfn eləmək üçün ləngiməsəydi, bəlkə də heç İbrahimgillə rastlaşmazdı, kim bilirdi ki, indi bu nabələd yerlərdə onun halı necə olacaqdı.

Dünən axşam onlar bura gələndə ev sahibinin İbrahimi tanıması, ona görə Həmidlə qarayanız oğlana çox hörmət eləməsi Həmidə təəccüblü görünmüşdü. İbrahim əsir idi, buralarda yaşamamışdı, qoca kişi onu haradan tanıya bilərdi? Bu hələ bir yana dursun, qoca, İbrahimlə danışanda bir dəfə ona "yoldaş kapitan", o biri dəfə isə "Sərdar Əhmədoviç" demişdi. Bu nə idi, İbrahimin məgər iki adı vardımı? Bunlardan hansı onun öz adı idi, hansı ləqəbi?! İbrahimə haradan məlum idi ki, bu kəndin iyirmi-iyirmi beş kilometrliyində partizan dəstəsi məskən salıb və orada hərbi cərrah var? Bunu ona ev sahibi qoca ukraynalı demişdimi? Əgər qoca demişdisə, demək, İbrahim onu qabaqcadan tanıyırdı, bir-birilərinə etibar eləyirdilər. Elə idisə, bəs onda İbrahim əsir düşərgəsinə necə düşmüşdü?

Həmid çarpayıda uzanıb bunlar barəsində düşünə-düşünə havanın qaralmasını gözləyirdi. Vəd olunan araba bu axşam gəlməli idi.

Qoca ukraynalının evi elə yerdə tikilmişdi ki, onun pəncərəsindən kəndə gəlib-gedənlər görünürdü, elə bil ki, bura müşahidə məntəqəsi idi və ətrafa nəzarət eləmək üçün tikilmişdi. Bu evin bir üstün cəhəti də vardı. Arxası dərə idi. Dərənin bir ucu yağış sularından əmələ gəlmiş xırdaca gölə dirənmişdi. Həmid çarpayıda elə uzanmışdı ki, kəndə gələn yolu görürdü. Əgər orada bir şübhəli adam, maşın, motosiklet görsəydi, tez dərəyə enib kolların arasında daldalanmağa macal tapardı.

"Bu hava bircə tez qaralaydı, mən burdan itilib gedəydim. Barı bu xeyirxah qocalara bir ziyanım toxunmayaydı, mənim ucbatımdan dar ağacından asılmayaydılar..."

Kəndə gedən yolun qırağında bayaqdan bəri iki çəpiş otlayırdı, onlardan aralı bir qarı oturub əlini çənəsinə dayayaraq heyvanlara baxırdı. Həmidin gözü onda idi, xeyli vaxt idi ki, qarı orada oturmuşdu, onu ora keşik çəkməyə qoymuşdularmı, ya sadəcə olaraq öz çəpişlərini otarırdımı?!

Ev sahibinin arvadı səhərdən həyət-bacada dolanırdı, otağa ancaq qonağa yemək verəndən-verənə gəlirdi. Onun əri də bağçada rəndəmişarını yanına yığıb kiçik axurlar düzəldirdi. O axurların ikisi hazır idi, kənarda üst-üstə qoyulmuşdu, üçüncüsünü quraşdırırdı. Qoca xarrat, eynəyini gözünə taxıb elə şövq və səylə işləyirdi ki, elə bil evində əsir düşərgəsindən qaçan əsgəri gizlətməmişdi və bu işin üstü açılsaydı, ər-arvadı ölüm gözləmirdi.



Həmidin qolu əvvəlki təkin ağrıdırdı, ancaq artıq bu ağrılara alışmışdı. O bu saatlarda bir şeydən çox narahat idi. Bu qədər əzab-əziyyətə dözüb neçə kərə ölümlə üzləşə-üzləşə düşərgədən qaçandan sonra ələ keçsəydi, insafsızlıq olmazdımı?

Xoşbəxtlikdən, hava qaralana kimi kənd yolunda Həmid üçün təhlükə törədən nə bir alman maşını göründü, nə də polisay. Bəlkə də kəndin sakinlərindən – qonşuluqda yaşayanlardan qoca xarratın evinə ötən gecə kiminsə gəldiyindən xəbər tutan olmuşdu. Lakin onu gedib şeytanlayan olmadı.

Gecəyarı, kənd şirin yuxuya gedəndə qoca xarratın pəncərəsini tıqqıldatdılar. Nə Həmid yatmışdı, nə də ev sahibləri. Həmid hər ehtimala qarşı tapança götürüb özünü qapı dalına verdi. Qoca xarrat pəncərəni açıb, bayıra boylandı və pıçıldadı: "Sərdar Əhmədoviç, sizsiniz?", sonra arxayınlıqla qapını açıb gələni içəri buraxdı. İbrahim tək qayıtmışdı. Onun əynində indi ayrı paltar vardı, bu yerlərin sakinləri təkin geyinmişdi. Otağa girən kimi Həmiddən soruşdu:

– Nə təhərsən?

– Gördüyün kimi.

– Tez yığış, nə qədər sakitlikdi, gedək, görüb-eləyən olmasın, o yanda döngədə bizi araba gözləyir.

Həmid ev sahiblərinə ona sığınacaq verdikləri üçün minnətdarlıq eləyib İbrahimin dalınca həyətə çıxdı. Qoca xarrat qabağa düşüb o yan-bu yana boylandı, görsün onların izinə düşən, güdən yoxdur ki... Ətrafdan səs-səmir gəlmirdi. İbrahim Həmidin qoluna girdi, onlar kəndə gələn yolla yox, ayrı cığırla getdilər. İbrahimin qayıtması ilə sanki Həmidin baş gicəllləndirən qızdırması enmiş, yarasının ağrısı azalmışdı. Onlar – iki yoldaş şose yolu ilə paralel, aşağıdan salınmış cığırla kənddən uzaqlaşdılar.

Ulduzlu, sərin mehli gecə idi. Təbiət də şirin yuxuya dalmışdı, ətraf kəndlərin sakinləri də. Dava getməsəydi və ətraf kəndlərdə alman işğalçıları olmasaydılar, bu yerlərin ayrı səfası vardı.

Şose yolu kəndin aşağısında kolların, seyrək ağacların arasından keçirdi. Həmidgil ora çatanda at fınxırtısı eşitsələr də, yolda heç nə görmədilər, bu vaxt ağaclıqdan bir sinli kişi çıxdı:

– Yoldaş kapitan, sizsiniz?

– Bizik, İqnat dayı.

– Gözləyin, arabanı çıxarım yola.

Kişi kolların dalında saxlanmış tokatlı arabanı yola çıxartdı. Arabanın içinə quru ot döşənmişdi. Üçü də əyləşdi, yola düşdülər. Həmidlə İbrahim dalda oturub ayaqlarını aşağı sallamışdılar. Arabaçının arxası onlara sarı idi. İbrahim özünü qırağa verib Həmidə dedi:

– İstəyirsən uzan.

– Belə rahatdı.

Şose yolu ilə silkələnə-silkələnə gedən araba bəzən çala-çuxura düşürdü, onda Həmidin yaralı qolundan amansız ağrılar qalxırdı. Partizanların məskəni, deyilən kimi, iyirmi-iyirmi beş kilometr uzaqda idisə, hələ oracan xeyli vardı. Həmid səbirli olmalı, dözməli idi, yolda çox belə çala-çuxur, eniş-yoxuş olacaqdı. Bundan başqa, onlar almanlarla rastlaşa bilərdilər, o daha pis.

Kənd arxada qalmışdı, arabaçı yolun açıqlıqdan keçən yerinə çatanda mor ata qamçı vurub yeyin-yeyin sürdü ki, oradan tez sovuşsunlar. Mor at hamar şose yolu ilə yorğa gedirdi. Nallarından və arabanın təkərlərindən qopan toz tül pərdə kimi yolun üzərində havaya qalxıb, onların arxasında seyrəlirdi. Tozdan görünürdü ki, buralarda çoxdan yağış yağmayıb.

O biri əli ilə yaralı qolunu tutan Həmid soruşdu:

– İbrahim, uşaqlardan nə xəbər var?

– Çoxu sağ-salamatdı, gedib partizanlara qoşulublar, orda görəcəksən, itkin düşənlər də az deyil. Bilmirəm harda daldalanıblar.

– Cəmaləddin necə, o da ordadı?

– Yox. Bizimkilərdən onu xəbər aldım, biri dedi ki, yolda Cəmaləddinlə rastlaşdıq. Özü bizimlə partizanların yanına getməkdən boyun qaçırdı, dedi ki, cəhənnəmə olsun nemislər də, elə partizanlar da, gedirəm görüm başımı harda girləyə bilərəm. Mənə toxunmasınlar, heç kəslə işim yoxdu. Uşaqlara onu da deyib ki, Salehi düşərgədən dalıma alıb xeyli apardım, bir meşədə keçindi, dəfn elədim.

– Ay ağciyər, yalana bir bax.

– Uşaqlar hardan biləydilər ki, onlara yalan deyir. Müharibə ağır imtahandı, Həmid, onda hamı sonacan dəyanətlə tab gətirmir, çox paxırlar açılır, insanların müsbət və mənfi sifətləri üzə çıxır.

Arabaçı azərbaycanca gedən bu danışıqdan heç nə anlamır, onlardan bir söz də soruşmurdu.

Yol yarı olmuşdu. İndi araba təpələrin arasından keçən yolla irəliləyirdi. Üçü də silahlarını hazır saxlayıb həndəvərə göz qoyurdular.



Həmid:

– İbrahim, – dedi, – mən bir məsələdə çaşbaş qalmışam, xahiş edirəm düzünü deyəsən, sənin adın Sərdardı, ya İbrahim?

İbrahim gülümsündü:

– Mənim iki adım var, almanlarçün İbrahiməm, bizimkilərçün Sərdar. Buralarda mənə Sərdar Əhmədoviç də deyirlər.

– Nə deməkdi? Düşərgədə özümüzünkülər də səni İbrahim kimi tanıyırdı.

– Bunun səbəbi var.

– Onu bilmək olmazmı?

– Maraqlanırsansa, deyə bilərəm. Mən Daxili İşlər Komissarlığında xidmət eləyirəm, rütbəm kapitandı. Davadan qabaq Ukraynada yaşayırdım, arvadım buralıdır. Mən əsir deyildim, düşərgəyə komandanlığın xüsusi tapşırığıyla gəlmişdim. Adımı dəyişdirib qəsdən əsir düşmüşdüm ki, camaatımızın oradan qaçmasını təşkil eləyim.

– Belə de...

Onlar bir xeyli gedəndən sonra Həmid yenə soruşdu:

– Sən mənə orda Ruhulla bəy barəsində bir söz demişdin, yadındamı?

– Niyə yadımda deyil. Deyirdim ki, Ruhulla bəy almandı, bizimkiləri aldadıb özünü azərbaycanlı kimi qələmə verir. Bizim kəşfiyyat dəqiq təyin eləmişdi ki, davadan qabaq Berlində elə bir azərbaycanlı ailəsi yaşamayıb. Orda inqilab illərində Bakıdan qaçmış bir dövlətli neft mühəndisi yaşayırmış. İki qızı varmış, qırx birdə ailəsini götürüb Türkiyəyə köçüb. Adı Nurubəy olub, Nurubəy Kazımbəyov. Kapitan Ruhulla bəy uydurulmadı, o, xalis almandı.

Xeyli getmişdilər, yolun yarıdan çoxu arxada qalmışdı. Həmid salamat tərəfi üstə arabadakı ot qalağına söykəndi.

Sərdar dünənki qaçışdan danışdı:

– Hə, bizdən xəbəriniz olmadı axı. Siz alaqapını ələ keçirən kimi biz baraklarda camaata elan elədik ki, tez olun qaçın, yol açıqdı. Bir çoxu buna inanmadı. Dedik qapıda alman soldatı yoxdu, Həmid Xələfov dayanıb. Bir nəfər gedib baxdı və sevinclə gəlib qapıda sənin olduğunu xəbər verəndə əsirlər ürəkləndilər. İndi uşaqlar orda, partizan dəstəsində səni səbirsizliklə gözləyirlər. Yaralanmağını eşidib məyus olublar. Partizanların həkimi səninçün yer hazırlayıb. Təcrübəli cərrahdı, deyir ki, əlimdən gələni eləyəcəyəm. Hə, ara-sıra ora

arxadan təyyarə gəlib partizanlara ərzaq, sursat gətirir, gedəndə ağır yaralıları arxaya aparır. Lazım gəlsə, səni arxadakı hospitalların birinə göndərərik.

– Hələ bir mənzilbaşına gedib çıxaq, orda baxarıq.

Onlar dörd saatdan çox idi yolda idilər. Arabaçı elə yer olurdu ki, mor atın cilovunu boşaldıb bərk sürür, elə yer də olurdu ki, asta-asta gedirdilər. Ancaq səfərləri hələlik uğurlu keçirdi. Axıracan belə davam eləsəydi, tezliklə partizan düşərgəsinə çatacaqdılar.

Həmid arabada uzanıb gözlərini yummuşdu. Kapitan diqqətlə arxaya baxırdı, əgər dallarınca gəlib-eləyən olsa, vaxtında səmti azdırsınlar.

Həmid sussa da, ürəyində özü ilə danışırdı, qolundan, yarasından nigaran idi. "Həkimlər əməlli kömək eləməsələr bu qolla mən bir də daş qaldıra bilmərəm, hər şey bitdi. Gərək zəhrimar güllə elə qoluma dəyəydi, ayrı yerə dəysəydi, qiyamət qopardı?!"

Göydə sayrışan ulduzlar solğunlaşıb sönür, hava yavaş-yavaş işıqlanırdı.

Yol boyu bir kəlmə də danışmayan, yalnız atı qovanda və cilovu yığandan-yığana səsi çıxan arabaçı səhər alatoranlığından üfüqdə sıra dağlar kimi qaralan meşəni sezincə can rahatlığı ilə dedi:

– Day çatdıq, qorxusu yoxdu, oracan getmək nədi, şükür olsun ki, yolda mərdimazara rast gəlmədik.

Həmid yavaşca dikəlib irəli baxdı, heç nə görmədi, arabaçı nə görüb belə deyirdi? O bunu Həmidə təsəlli vermək üçünmü eləyirdi, ya qızdırmadan gözlərini aça bilməyən Həmid alatoranda bir şey seçmirdi?! O daha uzanmadı, irəli də baxmadı, düz oturmaq onunçun çətin idi, zəifləməsini Sərdara bildirməməkdən ötrü bir əli ilə arabanın qırağından bərk-bərk yapışmışdı ki, müvazinətini saxlasın.

Arabaçı Həmidin əldən düşdüyünü duymuşdumu, yoxsa, özü yoldaşlarının yanında olmağa tələsirdimi, mor ata bir-iki qamçı vurub qovdu. Araba yeyin gedəndə Həmidin yarası daha artıq ağrısa da, partizan dəstəsinə tez çatmağın xatirinə arabaçıya bir söz demədi.

Sərdar, Həmidin əziyyət çəkdiyini duymuşdu. Onu da müşahidə eləmişdi ki, Həmid yarasının ağrımasını qəsdən yanındakılara bildirmir.

– Axır ki çatdıq, bu da bizim meşə.



Həmid çönüb irəli baxdı. Ucu-bucağı görünməyən meşəlik idi. Yarpaqları saralmağa başlayan ağcaqayın ağacları uca qamətli, yaşıl iynəli şam ağaclarının arasında qəribə bir ahəng yaradırdı.

Mor at sanki yolu tanıyırdı, bilirdi ki, mənzilə çatıb, bir azdan qoşqudan açılıb dincələcək, başını yırğalaya-yırğalaya meşənin içinə gedən yola düşdü.

## XXXIII

Qatar Bakıya gecəyarı gəldi. Vağzal alaqaranlıq idi, göbələyə bənzəyən dəmir dairələrin altında gizlədilmiş göy şüşəli fənərlər ancaq ayaq altını işıqlandırırdı. Perronda on-on beş kişi dayanmışdı, onlar qatarı qarşılayırdılar.

Hərbi vaqondan düşənlərin əksəriyyəti yaralı, əlil idi. Onlar Bakıya ya qısamüddətli məzuniyyətə gəlmişdilər, ya da tamamilə sıradan çıxdıqları üçün həmişəlik. Həmişəlik gələn müharibə əlillərinin biri də Həmid idi. Köynəyinin sağ qolu boş idi, onu belinə bağladığı enliqayışın altına təpmişdi.

Həmid Bakıya hərbi hospitaldan çıxıb gəlmişdi.

Partizan dəstəsinin cərrahı Həmidin yarasına baxıb demişdi ki, müalicə eləmək mümkün deyil, bazu sümüyünə dəyən iki parçalanan güllə qolunu dağım-dağım eləyib, dirsəkdən yuxarı kəsilməlidir. Həmid cərrahın bu təklifindən çox məyus olmuşdu, razılıq verməmişdi. Bu söhbətdən iki gün sonra ora gələn təyyarə ilə Həmidi arxaya yollamışdılar. Soçidəki hospitalda həkimlər çox çalışmışdılar Həmidin qolunu müalicə eləsinlər, bir səmərəsi olmamışdı.

Həmidi Bakı vağzalında heç kəs qarşılamadı. O, kiminsə qabağına çıxmasını gözləmirdi də. Evdəkilər gəlişindən xəbərsizdilər. Qəsdən teleqram vurmamışdı, düşünmüşdü ki, qardaşı İsmayıl bütün həftəni mədəndə olur, onu işindən ayırmağa dəyməz. Anası da xəstədir, qarını narahat eləməyə nə hacət. Qabaqcadan bildirmədən getmək hamısından yaxşıdır, evdəkiləri intizarda qoymaz.

Sərin payız gecəsi idi. Həmid ağzı çözələnmiş əşya torbasını çiyninə keçirtdi, nimdaş, dezinfeksiya kamerindən təzə çıxmış, əzik şinelini salamat qollunun üstünə saldı, pillələri enib küçəyə çıxdı. Vağzalın qabağında qoluna qırmızı bağlamış iki hərbi patrul gəzişirdi.

Onlar Həmiddən vəsiqə soruşmadılar, kəsik qoluna, üst-başına baxıb ötüb keçdilər.

Sabunçu vağzalınacan yolda Həmidin qabağına çıxan olmadı. Tindəki baqqaliyyə dükanının qapısı ağzında bir qoca qarovulçu əyləşib qəzet parçasından eşdiyi papirosunu fısqırdırdı. Küçələr elə kimsəsiz və sakit idi ki, Həmid addım atdıqca uzunboğaz ayaqqabılarının dabanındakı nal qıra dəyib taqqıldayırdı.

Yol gedə-gedə Həmid fikirləşirdi ki, anası Rübabə onun bu gəlişindən yamanca sevinib, boynunu qucaqlayacaq. Zarafat deyildi, o, davadan, odun-alovun içindən çıxıb evə qayıdırdı. Həmid onu da gözünün qabağına gətirirdi ki, arvad oğlunun bir qolunun kəsildiyini görüb çox pis olacaq. Nə eləmək olardı, müharibə gedirdi, nə çox idi cəbhədə qolunu, qıçını itirən, Həmid də onlardan biri.

Doğum evinin yanından keçəndə pəncərələrin açıq nəfəsliklərindən burnuna dərman qoxusu dəydi. Elə bu ara pəncərələrin birindən körpə səsi eşidildi, başqa bir körpənin də səsi ona qarışdı, sonra ikinci səs kəsildi. "Əzəldən həyatın qanunu belədi, biri ölür, o biri dünyaya gəlir. – Həmid pəncərədən aralansa da, körpə inqəsini eşidirdi. – Görəsən hansı xoşbəxt atanın övladıdı. – Xoşbəxt sözündən hürkən kimi oldu. – Bəlkə, heç o yazıq indi sağ deyil, hansı cəbhədəsə həlak olub, uşağı onsuz dünyaya gəlib... Kaş elə olmayaydı".

Döngəyə çatanda Həmid küçənin sol səkisinə keçdi, Nurlugilin döngədəki evlərinin pəncərələri tramvay yoluna baxırdı. Həmid ora boylandı, uca binanın bütün pəncərələri kimi onlarınkı da qaranlıq idi, bu vədə hamı yatmışdı. "Nurlu şirin yuxudadı..."

Həmid daha küçənin sağına addamadı, yoluna düzəldi.

Beşmərtəbənin altındakı iri qastronomun keşiyini çəkən kök, sinli qadın mağazanın qabağında gəzişirdi. Həmid yanından keçəndə qarovulçu onun kəsik qoluna baxıb başını tərpətdi.

Həmid tini burulub həyətə girdi. Həyət iti Qaraca divar dibində başını pəncərələrinin üstünə qoyub mürgüləyirdi. İt addım səsinə gözlərini açıb baxdı. Həmidi tanıyınca dik qalxdı, dartındı və zingildəyə-zingildəyə quyruğunu buladı. Həmid əyilib onun qara, sallaq tükünü tumarlayanda barmaqları sümüyə dəydi. Heyvan bir dəri, bir sümük idi. Davadan əvvəl həyət uşaqları Qaracanı doyunca yedirdirdilər. İndi camaat özü bir qarnı ac, bir qarnı tox dolanırdı, heç kəs boğazından kəsib itə atmazdı. Həmid çiyninə keçirdiyi əşya torbasını



yerə qoyub açdı, oradan bir kömbə qara çörək çıxartdı, qırağından iri bir parça kəsib itə atdı. Heyvan çörəyi havada qapdı və tələm-tələsik çeynəməyə başladı, sanki qorxurdu ki, Həmid ona bu boyda tikə verdiyindən peşman olub, qalanını geri alar.

Həmid bloklarına girib qaranlıqda asta-asta pillələri qalxdı. "Anam yəqin yenə evdə təkdi, yatıb. Qatar gec gəldi, Bakıya cədvəldə yazıldığı kimi vaxtında çatsaydı, belə bivaxta düşməzdim..."

O, ürək çırpıntısı ilə zəngin düyməsini basıb gözlədi. Qapını açan olmadı. Düyməni bir də basdı, bu dəfə barmağını düymənin üstündə çox saxladı. Zəngə hay verən, qapını açan olmadı. "Anam bərk yatıb?! O ki ayıq-sayıq yatandı. Bəs nə əcəb səsi çıxmır?! Bəlkə arvad heç evdə yoxdu, mən zəngi nahaq basıram. O bu vədə harda olar, bəlkə təzədən xəstəxanaya düşüb?!"

Həmid pillələrin məhəccərinə söykənib bir müddət gözlədi. Səhərin açılmasına çox qalırdı. "Elə mən fikirləşən kimidi, anam evdə yoxdu. Yəqin gözlərinin ağrısı təzədən başlayıb. İsmayıl aparıb qoyub xəstəxanaya".

Həmid hospitaldan İsmayıla məktub göndərmişdi. Qardaşı cavabında ona yazırdı ki, heç bilmirsən məni nə təhər sevindirdin. Hissənizdən qara kağızın gəlmişdi, onu anamdan gizlətmişdim. Səni soruşanda deyirdim, ay mömə, Həmid də Mikayıl təkin elə yerdədi ki, ora məktub göndərmək olmur, darıxma, ikisindən də birdən xəbər çıxacaq. Sanki ağzım fal imiş, səndən məktub gəldi. Kaş Mikayılın barəsində yazılan da yalan olaydı.

"İndi anam məni görsə, necə şad olacaq. Gəlsənə, qapını bir də döyüm, bəlkə, arvad zəngin səsini eşitmir". O, qapını yumruğu ilə döyəndə gumbultusu bloka yayıldı.

– Mömə, ay mömə!

Həmidin qulağına içəridən addım tappıltısı gəldi.

– Arvad evdəymiş ki... Nə bərk yatıbmış...

Lakin bu vaxt Həmidgildin qapısı yox, divarları yapışıq olan mərtəbə qonşularının qapısı açıldı.

– Kimdi?

Aralı qalmış qapıdan boylanan qoca kişi Həmidi tanıdı və dərhal bayıra çıxdı.

– Həmid, sənsən?!

Həmid indi anladı ki, yanılıb, addım səsi onlardan yox, qonşu mənzildən gəlirmiş.

– Salam, Əvəz əmi, bağışlayın, sizi yuxudan elədim. Bayaqdan qapımızı döyürəm, açan yoxdu. Bəs anam hardadı, bilmirsiniz ki?

Əvəz kişinin əyni nazik idi, blokun sınıq pəncərələrindən yel çəkirdi, o, Həmidə dedi:

– Keç içəri.

– Sağ olun, bu vədə sizi incitmək istəmirəm. Evimizin açarı sizdə deyil ki?

– Bizdədir, İsmayıl verib. O bizə deyirdi ki, sən bu günlərdə Bakıya gəlməlisən.

Həmid açarı alıb qapını açanda, çox əlləşdi. Əvəz kişi:

– Görürəm, qapı açmağı yadırğamısan, – dedi, – ver mən açım.

Əvəz kişi qapını açdı, Həmid içəri keçdi, dəvət gözləmədən qoca da onlara getdi. Həmid dəhlizin işığını yandıranda Əvəz kişi onun bir qolunun kəsildiyini görüb diksinən kimi oldu.

Qocanın arvadı Bibixanım da gəlib Həmidə dil-ağız elədi:

– Xoş gəlmisən, ay oğul, həmişə evinizdə olasan. Cəmi gedənlər qayıtsınlar, o gün olsun sənin qardaşın Mikayıl, bizim Mansurumuz qayıtsın. – Arvad Həmidin qolunun kəsildiyini görəndə özünü itirdi, dili topuq vurdu. – Düşmənlərin, o faşistlərin görüm kökü yer üzündən kəsilsin, camaatı yurdundan, ocağından elədilər.

Həmid divanda əyləşdi, qocalara da oturmağı təklif elədi.

Ər, arvad biri Həmidin sağında, o biri solunda əyləşdi. Həmid qonşuların məyusluğundan, bir az əvvəl Əvəz kişinin onun "Bəs anam hardadır?" sualını cavabsız qoymasından hiss eləmişdim ki, anasının başına nəsə gəlib.

Üçü də bir müddət susub oturdu. Sonra Əvəz kişi sakitcə dedi:

– Oğul, Rübabə bacı yaxşı insan, mehriban qonşu idi, Allah ona rəhmət eləsin.

Həmidin qəhərdən gözləri doldu, kirpiklərindən asılan yaş yanağına süzüldü, yaylığını çıxarıb gözlərinə basdı. Kövrələn Bibixanım özünü ağlamaqdan saxlayıb ona toxtaqlıq verdi:

– Ay bala, hər bir yaranan bir gün bu fani dünyadan köçüb getməlidi. Heç kim dünyanı tutub qalmayacaq, səbirli ol, qaragün arvad axır vaxtlarda heç canını sağ görmürdü. Gözləri də lap işıqdan düşmüşdü. Sizin – Mikayılla sənin fikrinizi çəkmək də onu bir yandan



şam kimi əritmişdi. Yazıq arvad sizdən nisgilli getdi. Keçinən gecə mən onun yanında idim. Canı ağzından çıxanda sizin adınızı çəkdi. "Həmid, Mikayıl" dedi.

Həmid səssiz, sakit ağlayırdı. Əvəz kişi gedib mətbəxdən ona bir stəkan su gətirdi.

– Al, bunu iç.

– Anam haçan vəfat eləyib, Əvəz əmi?

– Novruz bayramı təzə sovuşmuşdu. Martın iyirmi doqquzunda.

Bibixanım ərinin sözünü təsdiqlədi:

– Hə, bayramdan bir həftə keçmişdi.

– Bəs İsmayıl bunu mənə niyə yazmayıb?!

– İstəməyib ki, orda fikir çəkəsən. İsmayıl sağ olsun, maşallah qeyrətli oğuldu, anasını ləyaqətlə dəfn elədi. – Əvəz kişi cəbhədə olan tək övladını xatırlayıb, ah çəkdi. – Eh, ata-ana üçün övlad çiynində gora getmək xoşbəxtlikdi.

Həmid stəkanın dibində qalan suyu başına çəkdi.

Bibixanım arvad ayağa durdu:

– Çox su içmə, ay oğul, gedib sənə çay qoyum.

– Sağ ol, Bibixanım xala, ürəyim su istəyirdi, içdim. Vaxtsız gəlişimlə sizin dincliyinizi pozdum. Qonşuluqda var olasınız.

Qocalar Həmidə xeyir-dua eləyib getdilər. İçərinin havası Həmidə ağır gəldi. Otağın küçəyə – Təzəbağa tərəf olan pəncərəsini taybatay açdı. Kim bilir, İsmayıl evdən haçan çıxmışdı, o çağdan qapı, pəncərə bağlı idi.

Otaqda gəzindikcə hərbi hospitaldan verilən təzə uzunboğaz ayaqqabıları "şıq-şıq" eləyir, Həmidi qıcıqlandırırdı. O, dəhlizə çıxıb uzunboğazlarını soyundu. Divar dibindəki asqının altında bir cüt şap-şup vardı, bir cüt də üzü naxışlı nəleyin. Nəleyin Rübabənindi, çoxdan dəbdən düşsə də, şəhərdə qoca arvadlar geyirdilər. Rübabə də onu xoş havalarda məscidə, məhərrəmliyə, hüzr yerlərinə gedəndə geyirdi. Həmid İsmayılın dabanı yastılanmış şap-şuplarını ayaqlarına keçirtdi.

"Anamı görə bilmədim, dünyadan həsrətli, gözləri yolda getdi. Nə yaxşı ki Bibixanım xala, Əvəz əmi təkin mehriban qonşular varmış, canı ağzından çıxanda arvadın yanında olublar..."

Həmid belinə kip bağladığı enli toqqanı açıb, üst köynəyini soyundu. Otağın küncündəki bədənnüma güzgünün qabağında durub özünə baxdı. O, qolu kəsiləndən bəri görkəminə belə arxayınlıqla

tamaşa eləməmişdi. Tək qolla bir qanadı qopardılmış quşa oxşayırdı, qaməti də dəyişmişdi. Çox yöndəmsiz görünürdü, qolu dirsəkdən yuxarı qalmışdı. O indi nəyə lazım idi?! Protez bağlamaqdan savay heç nəyə. Həmid heç protez də düzəltdirmək istəmirdi. Axı protezə nə ehtiyacı vardı, onsuz da bir qolu özünün olmadığı bilinəcəkdi, üstəlik o da bir yük idi.

Güzgünün üzbəüzündəki divara Həmidin sirkdə ilk çıxışının əlvan afişası vurulmuşdu. Onun əksi düşmüşdü güzgüyə. Həmid özünə baxanda onu da görürdü. Afişadakı şəkillərin birində o hər əlində bir ikipudluq daş qaldırmışdı. Bu ağır dəqiqələrdə Həmid onu görəndə lap qanı qaraldı. "İndi fələk də gəlsə, mənə kömək eləyə bilməz... Çörək pulu qazanmaqçün ayrı peşə seçməliyəm, bir qolla nə iş görmək olar?! Evdə oturub, gözümü dikim pensiyaya?! Bu bahalıqda pensiyadan aldığım pulla dolanmaq çətin məsələdi. Bəs neynəyim?!"

Həmid həyatda hər çətinliyə rast gələcəyini gözləyirdi, ancaq belə əlil olmaq, bütün varlığı ilə bağlandığı bir peşədən bu cür ayrılmaq onun fikrinə gəlməmişdi. Köhnə afişa qubarını artırmışdı. O bu evdən gedəndə anası sağ idi, özünə bir şey olmamışdı. İndi nə anası vardı, nə də qolunun biri... Qolunu itirmişdisə də, barı heç olmasa anası sağ qalaydı. Rübabə evdə olsaydı, o bu cür təntiməzdi. Elə bil möhkəm bir dağa arxalanmışdı, indi bu dağı həmişəlik onun arxasından götürmüşdülər, qalmışdı tək. Dörd baş ailənin yarısı yox idi, heç vədə də olmayacaqdı.

Həmid otaqda darıxdı, alt köynəkdə balkona çıxdı, küçəyə tamaşa elədi, küçədən əl-ayaq çəkilmişdi.

Balkonun küncünə qoyulmuş köhnə çəlləkdə əkilən meynənin budaqları taxta talvardan saçaq kimi sallanmışdı. Onlardan biri Həmidin saçına toxundu. O, budağı talvarın dirəyi altına keçirəndə əli ağ şanı salxımına dəydi. Hər il bu vaxt meynənin bəhəri dərilərdi. İndi onu kim dərəydi?! Mənzilin qapısı həftələrlə açılmırdı. Rübabə arvad bütün balkonun yaraşığı olan bu meynənin başına fırlanırdı. Həmid isə yazdan-yaza budayırdı.

O fikirləşirdi ki, hər il yazqabağı meynələrin budaqlarını kəsirlər, onlar yenə cücərir. Bəs nə üçün insanın bir əzası kəsiləndə o yenidən çıxmır. "Kaş insan da ağac kimi olaydı... Onda yer üzündəki şikəstlərin sayı xeyli azalardı".



Həmid xalq arasında şikəstlərə "yarımadam" deyilməsini çox eşitmişdi. İndi o da həmin yarımadamlardan biri idi. Bədəni paralanmışdı, bir hissəsi haradasa meyit kimi yerə basdırılmışdı, çürüyürdü. Bir müddətdən sonra o yaşasa da, yerə basdırılan qolundan bir nişanə də qalmayacaqdı, çürüyüb qarışacaqdı qara torpağa, gübrə olacaqdı. Necə də qəribə idi. İnsan sağ idi, ancaq bədəninin bir hissəsini ondan ayırmışdılar. Sağ qolunun kəsilməsindən iki ay keçsə də, bəzən Həmidə elə gəlirdi ki, o, yerindədir. Əlini uzadıb bir şey götürəndə görürdü ki, yoxdur, məyus olurdu.

Meynə çəlləyinin yanındakı köhnə naxışlı sandığa baxanda Həmidin yadına düşdü ki, cəbhəyə gedəndə əl-ayağa dolaşmamaq üçün oynatdığı ikipudluqların, üçpudluqların bir qismini oraya yığıb. O, sandığın qapağını qaldırdı, bir ikipudluq götürüb otağa keçdi, güzgünün qabağına gəldi, daşı bir neçə dəfə qaldırıb-endirdi. Hər dəfə ikipudluğu qaldırıb-endirəndə sağ qolunun qalan kiçik hissəsi qənarədən asılan ət parçası kimi əsirdi. Bu, Həmidə çox pis təsir elədi, ürəyindən bütün bədənini titrədən bir ağrı keçdi, daşı yerə qoydu, divanın küncündəki mütəkkənin üstünə atdığı köynəyini götürüb geyindi və ikipudluğu aparıb sandığa atdı.

Bütün gecəni yuxusuz qaldığına görəmi, ya pəncərə, balkonun qapısı açıq olduğuna görəmi Həmid üşüdü. Qapını, pəncərəni örtdü, işıqları söndürüb elə paltarlı-paltarlı divanda uzansa da yatmadı, təsəvvürünə gətirməzdi ki, o qədər ayrılıqdan sonra çox həsrətini çəkdiyi evinə, doğma ocağına qayıdanda belə məyus olacaq və dincəlmək üçün burada rahat bir guşə tapmayacaq.

Blokdan səs gəldi, qonşuların qapısı açılıb örtüldü, ayaq tappıltısı, öskürək eşidildi. Həmid bildi ki, bu vədə işə gedən Əvəz kişidir, havanın işıqlanmasına az qalıb.

O qalxıb soyundu, gedib çarpayının örtüyünü götürdü və yorğanın altına girdi.

Blokdan bir neçə nəfər də getdi. "Hərə öz işinə-gücünə gedir, bəs mən hara gedəcəyəm, bir qolla neynəyəcəyəm?!"

Həmid yorulub şirin yuxuya getmişdi, dəhlizdə səslənən zəng olmasaydı çox yatacaqdı. Fikrinə gətirdi ki, bu vədə qapılarını döyən qardaşı İsmayıl olar. O, Həmidin bu günlərdə Bakıya gələcəyini bilirdi. Tez çarpayıdan qalxıb şalvarını birtəhər ayağına keçirdi və şap-şuplarını yerlə sürüyə-sürüyə qapıya getdi.

– Kimdi?

– Allahdan pay uman şikəst bir dilənçi.

Elə bil Həmidi ildırım vurdu. Qapını açmaq istəyirdi, əli rəzədə qaldı, aça bilmədi. Dilənçi yalvardı:

– Məni bu qapıdan əliboş qaytarma, bir pay ver.

Həmid qapını açıb kandarda duran dilənçiyə baxdı. Üst-başı kirli, əl-ayağı yerində olan əlli-əlli beş yaşlarında bir kişi ovcunu açıb sədəqə gözləyirdi. Həmid dilənçinin dilindən "şikəst" sözünü eşidəndə xəyalına gətirdi ki, yəqin başqasından sədəqə almağa məcbur olan əlsiz-ayaqsız bir adamdır. Təsəvvüründə yanıldığını görəndə hirslə qapını çırpdı. "Bu dilənməkçün belə yuxarı mərtəbələrə çıxmağa bacarırsa, niyə gedib çörək pulu qazanmaqdan ötrü özünə münasib bir iş tapmır? Kişi də başqasına əl açar, pay umar?! Yox mən ona pul verməyəcəyəm, qoy itilib-getsin..."

Dilənçi bir müddət qapıda gözlədi, ev sahibinin qayıtmadığını görüb çıxıb getdi.

Otağa keçəndən sonra Həmidin hirsi soyudu, ürəyinə gəldi əl-ayağı salamat olsa da, bəlkə o kişinin nəsə ağır bir xəstəliyi var. Onu başqasına əl açmağa məcbur eləyən də budur. Köynəyinin cibindən bir çəhrayı otuzluq götürüb qapıya gəldi, bloka baxdı, kişi getmişdi, içəri keçib otaq pəncərəsindən həyətə boylandı, dilənçini görsə, haraylayıb yuxarıdan pulu ona atsın. Kişini həyətdə görmədi, o hansı blokasa girmişdi. Aşağıda uşaqlar Qaraca ilə oynaqlaşırdılar. Həmid dilənçini paysız yola salmasına peşman olmuşdu. Aşağı atmaq üçün ovcunda bürmələdiyi otuzluğu qalifesinin cibinə basdı. Saat ona işləyirdi, çaydanı doldurub odun üstünə qoydu. Yuyunmaq üçün hamamxanaya keçəndə dəhlizdəki telefon zəng çaldı. Bu kim idi, haradan bilirdi evdə adam var, zəng çalır.

Həmid dəstəyi götürüb soyuq bir ifadə ilə soruşdu:

– Allo, qulaq asıram.

– Həmid, sənsən?

– İsmayıl?

– Hə, mənəm, xoş gəlmisən. Heç bilirsən, məni necə sevindirdin?

– Nə sayaqsan, İsmayıl?

– Neçə gündü səndən nigarandım. Zəng elədim görüm gəlmisənmi, icazə alıb evə gəlim. Haçan gəlməyin barədə teleqram da vurmamısan ki, xəbərim olsun, qabağına çıxım.



– Elə-belə, xəbərsiz-zadsız gəlmək yaxşıdı.

– Hələlik, gəlirəm, danışarıq.

Həmid əlini tüklü çənəsinə sürtə-sürtə hamamxanaya qayıtdı. Üzünü üç gün əvvəl hərbi hospitalda dəllək qırxmışdı. Əli kəsiləni özü üzünü qırxmamışdı. Evdə ülgüc də vardı, piski də. Həmid piskini götürdü, o, xatasız idi. Üzünün çallaşan tüklərini sabunlayıb təzə bir piski açdı. "İndi uşaq təkin hər işi yenidən öyrənməliyəm..." Ülgücün tiyəsini ehtiyatla çətirinin uzanmış tüklərinin üstünə qoyub ehmalca basdı, tüklərin ucu bir qaydada kəsildi. O bundan həvəslənib yavaş-yavaş üzünü qırxmağa başladı.

Əgər çənəsinin altını cızmaq olmasaydı, birinci dəfə tək əllə üz qırxmağı uğurlu qurtarmışdı. "Neynək, çəmini tapacağam". O, əlüzyuyanın yuxarısındakı xırdaca güzgüdə sifətinə baxdı. "Xeyli cavanlaşdım, indi adama oxşayıram".

Şkafın ləməsində davadan qabaq qalan yarım şüşə "Troynoy odekolon" vardı, ondan ovcuna çiləyib üzünə sürtdü, cızılan yer göynətdi. Dəsmalla üzünü yelləyə-yelləyə pəncərə qabağına gəlib, küçəyə tamaşa elədi. Təzəbağın ortasındakı hovuzun qırağında bağça uşaqlara oynayırdılar. Yaxındakı skamyada bir qadın çəpəki əyləşib uşaqları nəzarət eləyirdi. Həmid onu Nurluya oxşatdı. Davadan əvvəl Beşmərtəbənin yaxınlığındakı "Bənövşə" bağçasının uşaqlarını xoş havalarda Təzəbağa oynamağa gətirirdilər. Nurlu orada tərbiyəçi idi, o da hərdən balacalarla buraya gəlirdi. Həmid nigaran qaldı: "Qadın Nurlu olmaya?" Dayanıb qadının üzünü bu yana çevirməsini gözlədi. Tərslikdən, gözü uşaqlarda qalan tərbiyəçi vəziyyətini dəyişmədi. Həmid dəsmalı aparıb hamamxanadan asdı, qaynara düşən çaydanın odunu azaltdı, çoxdandı ev çayı içməmişdi (anası Rübabənin dəmlədiyi çayların dadı damağında qalmışdı), çay dəmlədi. Fikri tərbiyəçi qadının yanında qalmışdı. Təzədən pəncərə qabağına gəlib Təzəbağa baxdı, bu dəfə qadının üzü bu tərəfə idi, uşaqları sıraya düzüb getməyə hazırlaşırdı. Həmid gördü ki, o özgəsidir. Pəncərə qabağından çəkildi. Ürəyindən Nurlunu görmək, onunla danışmaq keçdi. "Axşamüstü bağçanın qabağına gedib onun işdən çıxmasını gözləsəm, nə təhər olar? Bəlkə, day "Bənövşə"də işləmir, yerini dəyişiblər". Həmid məlumat bürosundan "Bənövşə"nin telefon nömrəsini öyrəndi, otaqda gəzinə-gəzinə fikirləşdi oraya zəng çalsın, ya çalmasın? Telefona Nurlu gəlsə, tanışlıq verib, onunla danışsınmı? "Qoy zəng eləyim,

əgər Nurlu orda işləsə, bir söz deməyib dəstəyi asaram, işin axırında gedib bağçanın tinində gözləyərəm, içəridən çıxanda elə eləyərəm ki, guya təsadüfən ona rast gəlmişəm".

Həmid qəzet qırağına yazdığı telefon nömrəsini yığdı. Zəngə bir qadın səsi cavab verdi:

– Alo.

– Bura "Bənövşə" bağçasıdı?

– Bəli.

– Nurlu xanım yenə sizdə işləyir?

– Bəli, bağçamızın müdiridi. Bu dəqiqə onu çağıraram.

Həmid dəstəyi asmağa macal eləməmiş Nurlu hay verdi:

– Dinləyirəm, kimdi məni soruşan?

Həmidin dəstəyi asmağa əli gəlmədi. Mümkün qədər Nurlunun səsini çox eşitmək istəyirdi. Dinmədən qulaq asdı. Nurlu isə:

– Alo, hay verin, mənəm, mənəm, – deyirdi.

Həmid dözmədi:

– Nurlu, salam!

– Danışan kimdi?

– Həmid.

– Həmid? Nə yaxşı, Bakıdasan, cəbhədən qayıtmısan?

– Hə, gecə gəlmişəm, Nurlu.

– Həmişə evində-eşiyində olasan, nə təhərsən?

– Necə olacağam...

Hər ikisi susdu, bu gözlədi o danışsın, o da gözlədi bu danışsın, axırda Nurlu dilləndi:

– Ana itirmək ağır dərddi. Rübabə xalaya Allah rəhmət eləsin, çox istiqanlı arvad idi.

– Anamın ölümünü bura gələndə bildim.

Nurlunun mehribanlığından mütəəssir olan Həmid fikirləşdi ki, nahaq ona zəng çalmağa çəkinirdi, yaxşı ki danışdılar. Həmid hiss elədi ki, Nurlu da onun səsini eşitmək istəyirmiş.

– Özün necəsən, Muxtar müəllimdən nə xəbər var?

– Mən pis deyiləm, ancaq Muxtardan nə vaxt idi ki, kağız gəlmirdi. Voyenkomata gedib xahiş elədim, öyrənsinlər. Sonra dedilər ki, itkin düşüb. İndi ümidlə ondan bir xəbər gözləyirəm. Sən məzuniyyətə gəlmisən?

– Həmişəlik gəlmişəm.



Görkəmli elm, incəsənət xadimlərinin çoxunu əsgərlikdən azad eləyirdilər. Nurlu elə zənn elədi ki, Həmid də məşhur adam olduğu üçün onu cəbhədən geri çağırıblar.

– Sənin kimi adamlar camaata arxada daha çox xeyir verirlər. Sirki, tamaşa salonlarını bağlamayacaqlar ki...

– Sirk?! Mənimçün müharibə də qurtardı, tamaşalar da.

Nurlu Həmidin nəyə eyham vurduğunu anlamadı.

– Bu nə sözdü, Həmid?

– Düz deyirəm, Nurlu. Cəbhədə bir qolunu itirmiş adam sirkdə nə eləyə bilər?!

"Bir qolunu itirmiş adam..." Nurlu bu sözlərə inanmaq istəmirdi, bu nə xəbər idi?!

– Həmid, düzünü de, doğrudanmı sənin bir qolunu kəsiblər? Ya?..

Səsindən hiss edilirdi ki, Nurlu şaşırıb.

Həmid dedi:

– Neynim, yaxında olsaydın, özün görərdin.

– Nə danışırsan...

– Belə hesab elə, mənimki gətirib.

– Necə yəni səninki gətirib?!

– Hə, eləleri var ki, cəbhədə iki ayağını, ya bir qolunu, bir ayağını itirib. Onlarla müqayisədə, əlbəttə, mənimki gətirib.

– Yəni qolunu tamam kəsiblər?

Həmid zarafata saldı:

– Nümunə üçün yerində azacıq saxlayıblar ki, baxanda bilsinlər haçansa mənim də sağ qolum olub.

– Bəs indi nə ilə məşğul olacaqsan?

– Özgə əlillər necə, mən də elə. Pensiyamı alıb, ömrümün qalan hissəsini elə belə başa vuracağam.

– Mənimlə elə danışırsan ki, guya sənə heç nə olmayıb.

– Nurlu, bir iş olmasın, olandan sonra onun fikrini çəkməyin nə xeyri?! Bir də məni arvad-uşaq basmayıb ki, onları dolandırmağın fikrini çəkim.

– Bu vəziyyətdə innən belə sənə tək yaşamaq çətin olar, Həmid. Rübabə xala sağ olsaydı, sənə qulluq eləyərdi. Gərək indi evlənəsən.

– Evlənim? Şikəst kişi kimin nəyinə gərəkdi. Həm də mən kiməsə ömürlük yük olmaq istəmirəm.

– Arvadına yük niyə olursan? Məndən kompliment eşitmək istəyirsən?!

– Kompliment, nəyə görə?
– Ona görə ki, özün gözəl bilirsən, şəhərdə bir çox qadınlar sənin dərdindən ölürlər.
– O keçmişdə idi, Nurlu. Onlar bu vəziyyətdə olan yox, ayrı Həmidi istəyirdilər.
– Düz demirsən, Həmid, ürəkdən sevən qadın heç vədə kişinin dünənki, ya bugünkü vəziyyətinə baxmaz.
Nurlunun səsi birdən kəsildi. Həmid bildi ki, otağa kimsə gəldi. Telefona səs düşdü: "Nurlu xanım, xəstə qızın anası gəlib. Sizi görmək istəyir, ona nə deyim?" Nurlu dedi: "Gözləsin, danışığı qurtarıb çağıraram".
Həmid dedi:
– Nurlu, görürəm işin var, bağışla, vaxtını aldım.
– Yox, mənə xoşdu. Sağ ol ki, yada salıb zəng vurmusan.
Nurlu ilə bir neçə dəqiqə söhbət eləmək Həmidin könlünün qubarını dağıtdı. O, əşya torbasını açıb ət konservi, çörək çıxarıb səhər yeməyi hazırladı.

## XXXIV

Gecə idi, küçələrdən əl-ayaq çəkilmişdi.
İki qardaş – Həmdlə İsmayıl otağın işığını söndürüb yerlərində uzanmışdılar, dərdləşirdilər. İsmayıl işə səhər qayıdacaqdı. Həmid ondan öyrəndi ki, təzə ildən qardaşının vəzifəsini böyüdüb mədən müdiri qoyublar. Anasının vəfatından sonra İsmayıl evə əvvəlkindən də gec-gec gəlir. O, Həmidin bir qolunun kəsildiyini görüb kədərlənmişdi. Axşamüstü olsa da, iki qardaş analarının qəbrini ziyarətə getmişdilər.
Həmidlə İsmayıl günortadan bir yerdə olsalar da, danışırdılar, söhbətləri qurtarmırdı.
– İndi sən nə eləmək istəyirsən, Həmid?
– Hələ bilmirəm, sabah hərbi komissarlığa gedəcəyəm.
– Cəbhədən sənin kimi qayıdanların çoxu işləyir. Biri mənim yanımda mühasibdir. Onun bir qıçını dizdən yuxarı mina aparıb.
İsmayıl Həmidin Nurlunu sevməsini, buna görə də başqası ilə evlənmədiyini bilirdi, amma bu barədə qardaşı ilə bircə kəlmə danışmamışdı:



– Bəs sən indi bu ev-eşikdə tək nə sayaq qalacaqsan, bir nəfər biş-düş eləyən, səliqə-sahman yaradan lazımdı, sənə tək çox çətin olar.
– Hə, gərək bir qoca arvad tapıb xahiş eləyək, gəlib hərdən paltarlarımızı yusun, mənzili yığışdırsın. Mömənin ölümündən sonra sənin pal-paltarını kim yuyur?
– Bir nəfər var.
– Elə ondan xahiş eləyək, indi mən evdəyəm, tez-tez gəlib bizə qulluq eləsin, xərcini verərik.
İsmayıl qımışdı, qaranlıq otaqda Həmid bunu görmədi.
– O bizə tez-tez gələ bilməz, mənim təkin mədəndə işləyir, mühəndisdi. Bunları mənim xatirimə eləyir.
– Hə, aydındı.
İsmayıl böyük qardaşından həya eləyə-eləyə dedi:
– O qız mənim qeyri-rəsmi nişanlımdı. Mömə də görmüşdü, bizə bir-iki dəfə gəlib, mömə rəhmətə getməsəydi, onlara elçi göndərəcəkdim.
– Təbrik eləyirəm, xoşbəxt olun.
– Sima mömənin də xoşuna gəlirdi. Bəs sən haçan özünə ailə quracaqsan? İndi bu sənə əvvəlkindən daha çox vacibdi.
– Bundan sonra nə evlənmək?
– Mənzilə görə belə deyirsənsə, onun fikrini çəkmə. Simagilin iki otaqları var. Orda tək yaşayır. Uşaqlıqdan anadan yetim qalıb. Atası da ötən il Sevastopolun müdafiəsində həlak olub. Bir bacısı qalır, o da ərdədi. Sən arxayınlıqla evlən, mən gedib onlarda olacağam, belə danışmışıq.
– Sizin toyunuzu eləyək, mənimki sonranın işidi.
Xəstəliyi ağırlaşan anasının üç oğlu ola-ola nəvə üzünə həsrət qalmasından şikayətlənməsini İsmayıl Həmidə danışdı.
– Heç olmasa indi mömənin xətrinə evlən, ruhu şad olsun.
– Çalışaram, İsmayıl, çalışaram.
Qardaşlar çoxdan ayrılmışdılar, ürəkləri dolu idi, gecə yarıya kimi danışdılar, yatanda bilmədilər saat neçədir, yenicə yuxuya gedəndə mədəndən zəng çalıb İsmayıla xəbər verdilər ki, hardasa neft borusu partlayıb. O, səhərin açılmasını gözləmədi, dalınca gələn maşına minib mədənə getdi.

* * *

Həmid səhər hərbi komissarlığa gedəndə paltarını dəyişib köhnə kostyumlarından birini geymişdi. Rübabə arvad şevyok kostyuma güvə dəyməsin deyə, o qədər naftalin səpmişdi ki, iyi on addımlıqdan adamı vururdu. O, pencəyin sallanan qolunu sağ cibinə salmışdı.

Günorta şəhərə çıxan Həmid küçədə özü kimi neçə müharibə əlilinə, qolsuza, qıçsıza rast gəldi, hərbi komissarlıqda cəbhədə iki gözü kor olmuş cavan, yaraşıqlı oğlanı görəndə öz dərdini unutdu. Oğlanı ora kiçik bacısı əlindən tutub gətirmişdi. "Böyük bədbəxtlikdi, zavallı ömrü boyu dünya işığına həsrət qalacaq..."

Hərbi komissarlıqda Həmidi qeydə götürüb çörək və ərzaq kartoçkası almaq üçün kağız verdilər. Hərbi komissarlıqla rayon icraiyyə komitəsi eyni binada yerləşirdi, o, kartoçkaları alıb çıxdı.

Kartoçka bu gündən idi. Həmid beş yüz qram çörəyini alıb evə qayıtmaq istəyirdi. Beşmərtəbənin yanında, onların alaqapıları ilə üzbəüz çörək dükanı vardı. O, dükana girəndə pillədə bir kişi ilə toqquşdu.

– Yavaş, ay oğul.

– Bağışla, əmi.

– Həmid.

Əlində yarım kömbə tutmuş qoca kişi Həmidin sol qolundan yapışıb kənara çəkdi.

– Tanımadın məni?

– Salam, Həbib dayı, heç sizi yaddan çıxarmaq olar.

Matros Həbib heyrət və ürək ağrısı ilə Həmidin kəsik qoluna baxdı.

– Sən də davaya getmişdin bəyəm?

– Keçən ildən əsgər idim, Bakıya srağagün gecə qayıtmışam.

– Bura bax e... necə bilməmişəm. Bu dava camaatın başını elə qarışdırıb ki, dost-aşnadan xəbər tutmaq yaddan çıxıb. İndi hamının dərdi birdi. Bircə dava tez qurtaraydı, ən sağlam, işlək kişilər qırılıb getdi. Bizdə – körpüdə yük daşıyan qalmayıb, beş-altı nəfərə güc-bəla ilə bron düzəldib saxlamışıq. Əsgərliyə niqodnılar orda gəlib tay daşıya bilərlər? Əvvəlki təkin deyil, Həmid. İndi limanda vəziyyət xeyli çətinləşib, iş çox, adam yox, qalmışıq əlimyandıda.

– Belə-belə işlər, Həbib dayı. Evdə nə var, nə yox, uşaqlar sağ-salamatdılar?



– Evdə?.. – Matros Həbib ah çəkdi. – Böyük oğlum Kərim Kerçdə vuruşurdu, qara kağızı gəlib, üç uşağı yetim qaldı. Uşaqlar çox kiçikdi, gəlinim işləyə bilməz, indi onlara da mən baxıram, dövlətimin gəlhagəlidi. Kiçik oğlum Baltik flotunda torpedni katerdə xidmət eləyir, bir kərə yaralanıb, təzədən gəmilərinə qayıdıb, məktubu gəlir, yazır ki, "İgidliyə görə" medalı alıb. Ortancılım sənin təkin cəbhədə ağır yaralanıb, üç-dörd aydı evə qayıdıb, qabırğalarının beşini kəsiblər. Öz zavodlarında ona hörmət eləyib yüngül bir iş veriblər. Bizim arvad evin yükünü çəkir, mən də ki belə, düşüb qalmışam körpüdə. – Müştüyünə papiros keçirib çəkdi. – Sənin kimi igidlərin orda işləməsini yadıma salanda o illər mənə yuxu kimi gəlir.

– Həbib dayı, kaş qolum əvvəlki təkin salamat olaydı, gəlib yenə körpüdə tay daşıyaydım.

Matros Həbibin gözü Həmidin kəsik qolunda qalmışdı.

– Səni fronta aparmaqda voyenkomatda oturanlar ağılsız iş görüblər, – dedi.

– Özüm getmişəm, Həbib dayı, onların bir günahı yoxdu.

– Mən onların yerinə olsaydım, səni yoldan qaytarardım.

Matros Həbib hərbi komissarlıqda işləyənlərin dalınca söylənirdi:

– Bron vermək olmasaydı da, mən ayrı bir imkan axtarıb səni hələm-həlbət arxada saxlayardım. – Əlini ehmalca Həmidin pencəyinin cibinə təpilmiş boş qoluna sürtdü. – Gör bir neynəmisən...

Matros Həbibin Həmidə əməlli-başlı qəzəbi tutmuşdu, kişi onun kəsik qoluna baxa bilmirdi. Həmid qocaya dedi:

– Həbib dayı, mən o evdə oluram. – Əlini Beşmərtəbəyə sarı uzatdı. – Gəlin, gedəyin bizə, oturub söhbət eləyək.

– Demə, Həbib dayı məndən xəbərsizdi, Beşmərtəbədə yaşadığını bilirəm. Sizə gedərdim, ancaq bir hovurdan işdə olmalıyam, bu çörəyi evə qoyub, ora qayıdacağam. Ağzımda protezim sınıb, ucu damağıma batır, onu qayırtdırmağa getmişdim, qaldı sabaha. Bura bax, Həmid, sən vaxtın olanda körpüyə gəl, danışaq.

– Gələrəm, Həbib dayı.

Onlar sağollaşıb ayrıldılar.

Həmid çörək alıb evə gəldi, naharını yedi. Sonra bilmədi ki, nə eləsin. Mənzildəki sakitlik onu sıxdı. Xəyalına gətirmirdi ki, Bakıya qayıdanda öz evində belə darıxacaq. Bəlkə də evdə bir qulaqyoldaşı olsaydı, o bu cür xiffət çəkməzdi. Anasının yoxluğu həmişə onu bu otaqlarda görmüş, səsinə, qayğısına alışmış Həmidi darıxdırırdı.

O gedib radionu yandırdı, diktor qadının səsi otağa yayıldı. Respublika yenilikləri oxunurdu. Stalinneft və Buzovnaneft trestlərinin cəbhəyə plandan əlavə neft vermələrindən danışırdılar. Sonra kənd xəbərlərini oxudular, verilişin axırında Azərbaycan bəstəkarlarının marşlarını çaldılar. Həmid bunların hamısına çox diqqətlə qulaq asırdı, elə bil ki, veriliş onun barəsində idi, bircə söz də buraxmaq istəmirdi.

Telefon zəng çaldı. Həmid radionun səsini azaldıb dəstəyi götürdü. Bir qadın səhv salmışdı, harayasa zəng çalmışdı, ancaq onlara düşmüşdü. Otağa qayıdan Həmid daha radionun səsini qaldırmadı, saata baxdı, altı tamam idi.

Telefon zəng vurdu. Həmid dəstəyi götürməyə tələsmədi. "Yenə görəsən nömrəsini kim səhv yığıb, bizə düşüb..."

– Alo!

– Həmid, mənəm, İsmayıldı.

– Hə, İsmayıl sənsən, xeyir ola?

– Xeyirdi. Burda hərdən imkan olanda uşaqlar dənizdən balıq tuturlar. Bu gün xeyli ovlayıblar. Mənə də bir iri xəşəm veriblər. Bilirəm xəşəm balığını çox xoşlayırsan, onu axşam şəhərə gələnlərin biri ilə göndərəcəyəm sənə.

– Mən təkbaşına iri balığı neynəyəcəyəm, ay İsmayıl, qalsın orda, özünüz bişirib yeyin.

– Balıq çoxdu, burda bizim yeməyimizə də çatar. Zəng elədim ki, deyim axşam evdə olasan, gəlib qayıtmasınlar.

"Evdə olmamış hara gedəcəyəm, ay rəhmətliyin oğlu, bir işimgücüm var?!"

– Evdə olacağam.

İsmayıl ehtiyat üçün mədənin telefon nömrəsini yazıb qardaşına vermişdi.

– Bir işin olsa, mənə zəng elə. Hələlik.

Həmid, doğrudan da, xəşəmi çox sevirdi. Rübabənin, içini turşu, kişmiş və qozla doldurub bişirdiyi balığı yeməkdən doymaq olmurdu. Həmid fikirləşdi ki, özü ömründə balıq bişirməyib, bundan başqa tək əllə xəşəmin pullarını necə təmizləyəcəkdi? "Bəlkə İsmayıla zəng vurub deyim heç balığı göndərməsin?! – Qonşuları Həmidin yadına düşdü. – Qoy göndərsin, xahiş eləyərəm Bibixanım xala bişirər, özləri də yeyərlər, mənə də verərlər".

Radio astadan səslənirdi, cəbhədən təzəcə qayıtmış bir dəstə musiqiçi və xanəndəni studiyaya dəvət eləmişdilər, onlar gördüklərindən danışırdılar. Diktor verilişin axırında cəbhə qəzetində artistlər haqqında dərc edilən məqaləni, döyüşçülərin incəsənət xadimlərinə göndərdiyi məktubları oxuyanda Həmid kitab şkafının altləmələrini tutan dolu qovluqları xatırladı. Bu qovluqlarda qəzetlərdən kəsilmiş məqalələr, tamaşaçıların Həmidə göndərdiyi məktublar saxlanılırdı. Evə gələni qovluqları açıb baxmaq ürəyindən keçsə də, onlara hələ əl vurmamışdı.



Həmid qovluqlardan birini götürüb açdı. Burada onun otuz beşinci ildən tutmuş ta müharibə başlayana kimi qastrol səfərləri zamanı buraxılan afişaları yığılmışdı. Lap üstdə axırıncı afişası qoyulmuşdu. Həmid onu Novosibirskdən gətirmişdi. Sibir şəhərlərindən sonra heç yerə qastrola getməmişdi. O vaxtdan iki ildən çox keçirdi. O, bir də heç zaman, heç yerdə çıxış eləməyəcək, şəhərlərdə afişaları vurulmayacaqdı. Bunların hamısı Həmid üçün həmişəlik qurtarmışdı, ondan ötrü əlçatmaz bir zirvə idi.

Həmid əvvəllər belə hesab eləyirdi ki, altmışı haqlayanacan, hələ ondan da çox qastrollarda çıxış edəcək, buna qüvvəsi çatardı. İndi onun heç qırx beş yaşı yox idi, fəaliyyətdən düşmüşdü. "Bunu sanki mənimçün deyiblər. Sən saydığını say, gör fələk nə sayır".

O, repertuarında olan bir neçə nömrəni indi də göstərə bilərdi, bəzilərini evdə təkrar eləmişdi, sağlam əli ilə tövlə mıxını qalın taxtaya yeridir, zəncirlə bir-birinə bərkidilmiş üç ikipudluq daşı dişində qaldırırdı. İkipudluğu havaya atıb sinəsini qabağa verməyi evdə təkrar eləmək mümkün deyildi. Lakin Həmid səhnədə həmin nömrəni, hətta dəmir çubuğu əyib qola dolamağı göstərməyi bacarırdı. Bir şərtlə bu çubuğun bir ucunu gərək məngənə kimi xüsusi bir dəzgaha bənd eləyəydi ki, bir əllə onu əymək yöndəmli olsun. Repertuarını baxımlı, rəngarəng eləmək üçün Həmid təzə nömrələr də öyrənə bilərdi. Onu da təsəvvürünə gətirirdi ki, şəhərdə elan eləsələr, Həmid sirkdə tək qolla daş qaldıracaq, camaat axışıb tamaşaya gələr və bu, Bakıda səs-küyə, böyük marağa səbəb olar.

Həmid sensasiyanı, sentimentallığı sevmirdi. İstəmirdi ki, tamaşaçılar onun tək qolla səhnədə çıxış elədiyini görüb rəhmə gəlsin, halına acısın... "Ay yazıq, – desinlər, – neynəsin, xoşbəxtlikdən bu kökdə çıxış eləmir ki, bir parça çörək pulu qazanmaqçün məcbur olub".

O, afişalardan birini də açıb baxmadan qovluğu bağlayıb təzədən şkafa qoydu.

## XXXV

Həmid yuxudan telefon zənginə oyandı. Şap-şuplarını ayaqlarına keçirib dəhlizə çıxan kimi zəng kəsildi, dəstəyi götürdü, hay verən olmadı. Zəng haçandan səslənirdi, Həmid gec eşitmişdi. Hər kimsə gözləyib-gözləyib dəstəyi asmışdı. O, saatına baxdı, on birə az qalırdı. "Nə çox yatmışam". Pəncərədən bayıra göz yetirdi, havada çisək vardı. Daha yerinə girmədi. Gözü güzgüdə özünə sataşdı, üz-gözü şişmişdi. Başı ağrıyırdı. "Axşam ağına-bozuna baxmayıb ay içdim a... O yana qalanda niyə də içməyim?! O gün də içməyib bəs havaxt içəcəyəm?! Bu, ömürdə bir dəfə olan hadisədi. Gərək rəhmətlik anam sağ olub bunu görəydi..."

Dünən toy olmuşdu. İsmayılın toyu, xudmani bir məclis idi, xeyir işə bəy və gəlin tərəfindən cəmisi on iki nəfər dəvət edilmişdi, bir də Həmid və Simanın bacısıyla yeznəsi. Onlar toy sahibləri idilər. Çox adam çağırardılar, yemək-içməkləri çatırdı. Simagilin Şamaxıdan gələn qohumları – kolxoz sədri bir çəllək şirin çaxır, xeyli yuxa gətirmişdi. İsmayılın yoldaşları da, onun toyu üçün neçə dənə xəşəm, kütüm balığı tutub yollamışdılar. Stolun üstü yeməklə bol idi. Şəhərdə ərzağın qıt vaxtında bu cür süfrə açmaq hər kişinin hünəri deyildi. Həmid özü görməmişdi, ancaq ayrılarından eşitmişdi ki, indi bir çox yerlərdə kimi toya dəvət eləyirlərsə, o çörəyini də ora özü ilə aparmalıdı.

Toy çalğısız olmuşdu, özləri xanəndə, sazanda çağırmamışdılar. Simagilin qədimi pianosunda bacısı yalnız bircə dəfə alçaqdan "Qarabağ şikəstəsi" çalmış, onun yanında oturan əri pəsdən bir ağız oxumuşdu. Bu səs otaqdan bayıra çıxmamışdı. Çıxmasını heç istəmirdilər də. Həyətləri böyük idi, üçmərtəbəli binada qırxacan ailə yaşayırdı. Qonşularından qara kağız gələni, itkin düşəni, əlil olub arxaya qayıdanı vardı, camaatın dərdi başından aşdığı bir vaxtda səs-küylə, zurna-balabanla toy eləmək nəyə lazım idi?!

Ağsaqqal kimi Həmidi məclisə tamada seçmişdilər. O, azdanışan, məzəsiz adam idi, tamadalığa qəti yaramırdı. Yaxşı ki, Simanın yeznəsi maşınqayırma zavodunun baş mühəndisi, dilli-dilavər Həsən hərdən ayağa qalxıb gülməli əhvalat danışır, qonaqları şənləndirirdi, yoxsa toy süst keçəcəkdi.

Rübabə arvadın çoxdankı arzu-kamı idi. Üç oğlunun üçünü də Bakı qaydası ilə, dost sevindirən toy eləyəcəkdi. Bu arzu ürəyində



qaldı. Həmid dünən gecə beylə gəlinə tamaşa eləyə-eləyə anasını xatırlamışdı. Rübabə oğullarını bəylik hamamına göndərmək, onların toyunda oynamaq, bəyin başına şabaş səpməkdən danışanda gözləri gülürdü. Deyirdi ki, biz Murtuzla evlənəndə toyumuz kasıbyana oldu, gərək övladlarımın xeyir işini elə eləyim ki, onun əvəzi çıxsın. Rübabə nə vaxt idi ki, xırda-xırda uşaqların toy hazırlığını görürdü, ipək parçalar, üzük-sırğa alıb sandığa yığmışdı, Həmidin, Mikayılın və İsmayılın bircə himinə bənd idi. Onlar kimi istəsəydilər, elçi göndərib "həri" alan kimi məclis quracaqdı. Dava arvadın qol-qanadını sındırmışdı.

Həmid özü qardaşlarının toyunda oynamağı çox arzulayırdı, tək qolla dünən nə sayaq araya düşüb oynayaydı, baxana gülməli görünməzdimi?! O, böyük qardaş, yarısı itmiş Xələfovlar ailəsinin yeganə başçısı, ağsaqqalı kimi İsmayılla Simanın alnından öpüb xeyir-dua vermişdi.

İsmayıl toydan bir həftə əvvəl işarası mədəndən maşın gətirib öz paltarlarını, kitablarını çamadanlara yığıb Simagilə aparmışdı. Onlarda yaşayacaqdı, evdən bir də anasının kamodun üstündə olan şəklini götürmüşdü, vəssalam. Həmid ona ayrı şeylərdən də ürəyi nə istəyirsə, götürməyi təkid eləmişdi. İsmayıl heç nə götürməmişdi.

Həmid qardaşının evlənməsinə nə qədər sevinsə də, onun evdən getməsinə kədərləndi. Vaxtilə dörd nəfərin səsi gələn, nəfəsi ilə isinən mənzildə bu gündən etibarən tamamilə tək qalacağını düşünəndə məyus olurdu, nə eləyə bilərdi, cavanlara belə xoş idi.

Həmidgilin qohum-əqrəbalarında axırıncı toy iyirmi doqquz il əvvəl olmuşdu. Onda Rübabə qollarını çırmalayıb düşmüşdü qabağa. Niyə də düşməyəydi, tək qardaşı Turabın toyu idi. Gəlin gələn günü Həmidin yaxşı yadında idi. Bəyi çala-çala hamama apardılar, hamamdan çıxanda yaxın adamlar, Həmidin atası Murtuz da Turabın başına xırda pul səpələdilər, məhəllə uşaqları qaçıb pulları yığdılar. Həmid özü də balaca olanda bəy hamamdan çıxanda onun başına səpələnən pullardan az yığmamışdı. Axşam dayısıgilin dalanının qabağında ocaq qalandı. Bakıda dəb idi, toy olan evin qabağında ocaq yandırırdılar, qonaqlar uzaqdan onu görüb toy yerinə gəlsinlər. İsmayılın toyunda nə bəylik hamamı yada düşdü, nə də ki Simagilin evlərinin qabağında ocaq qaladılar. Əvvəla, şəhərdə gecələr maskirovka idi, küçələrdə işıq yanmırdı. İkincisi, dəbdəbəli, təntənəli toylarda ocaq qalayırdılar.

Onlarınkı toydan çox adi qonaqlığa bənzəyirdi. İsmayılla Simanın evlənməsini tanışların arasında rəsmiyyətə salmaq üçün yığışmışdılar.

"Evdə tək qaldım, işə düzəlməyim lap yerinə düşdü, yoxsa səhərdən axşamacan oturub neyləyəcəkdim?!"

Həmid limanda işə düzəlmişdi. Bu gün istirahət günü idi. O neçə gecə idi ki, doyunca dincəlməmişdi. Telefon zəngi olmasaydı, günortayacan yatacaqdı.

Həmid yuyundu, krandan bir stəkan soyuq su doldurub içdi. Sonra çaydanı qaynamağa qoydu, çay onun yanğısını, başağrısını kəsirdi. Çarpayısını yığışdırıb örtüyü üstünə salanda yenə telefon səsləndi.

– Bəli.

– Həmid, sabahın xeyir,yatmamışdın ki?

– Yox, bir az var durmuşam.

– Bayaq zəng çaldım, hay verən olmadı.

Həmid bildi ki, əvvəl zəng vurub onu yuxudan oyadan Nurlu imiş. İndi yadına düşdü ki, Nurlunu da İsmayılın toyuna çağırmaq olardı. "Necə fikrimə gəlməyib? Gərək çağıraydıq, eşitsə, inciyəcək, inciməyə haqqı var, o, əkizlərin xatirini çox istəyir".

– Bayaqkı zəngi eşitdim, dəhlizə gələnəcən gec oldu.

– Necəsən, işin-gücün?

– İşdi də, dostların duasıyla yavaş-yavaş dolanıram.

– Həmid, bir vacib məsələ barəsində səninlə danışmaq istəyirəm, harda, haçan görüşək?

Həmid Nurluya deyə bilərdi ki, gəl Təzəbağa, orada bir skamyada əyləşib danışaq. Ancaq bunun nəticəsi pis olardı, onları bir yerdə görüb, haqlarında olmazın sözlər çıxarardılar. Bunun Nurluya ziyanı vardı. Görüş üçün ən münasib yer mənzil idi. Həmid Nurlunu evlərinə dəvət eləməyə çəkinirdi. Axırıncı dəfə Nurlu onlarda olanda Həmid hisslərini cilovlaya bilməmişdi. "Bəs harda görüşək? Yaxşısı budu ki, qoy Nurlu özü desin..."

– Sən haranı məsləhət görsən, ora gələrəm.

– Doğrusu, özüm də bilmirəm hara münasibdi.

Həmid ürəklənib soruşdu:

– Bizə gələrsən? Gəlsən, mən bundan çox şad olaram.

Nurlu belə bir təklifi gözləyirmiş kimi düşünmədən dedi:

– Gələrəm, onda saat on ikidə sizdəyəm, elə Beşmərtəbənin altındakı baqqaliyyə dükanından ayın-oyun almağa gələcəyəm, bir hovurluğa qalxaram sizə, maraqlanıram görüm nə sayaq yaşayırsan.



Ev-eşik tör-töküntülü idi. Həmid dəstəyi asan kimi saatına baxdı, on ikiyə işləmişdi, bir azdan Nurlu onlara gəlib mənzili belə görsəydi, yaxşı düşməzdi, o tez otaqları yığışdırmağa başladı. "Nurlu mənimlə nə barədə danışmaq istəyir, nə vacib məsələ ola bilər?"

Həmid mənzili səliqəyə saldı. Otağın küncündə qoyulmuş pianonun üstündə büllur güldanda bir dəstə ölüşgəmiş nərgiz vardı. Rübabə nərgiz güllərini çox sevirdi, buna görə də Həmid hər dəfə gül mağazasının qabağından keçəndə nərgiz alıb gətirirdi, ona belə gəlirdi ki, evdə nərgiz olanda Rübabənin ruhu şad olur, həm də Həmid bu güllərdən anasının ətrini alırdı. "Bu gün şəhərə çıxanda gərək bir dəstə nərgiz alım..."

Protez fabrikində Həmidə hörmət eləyib səliqəli bir qol düzəltmişdilər. O protez geyməyə alışmışdı, ancaq evə gələn kimi çıxarırdı.

Protez stolun üstündə idi. Həmid bir istədi ki, onu göz qabağından götürüb gizlətsin, sonra bu qənaətə gəldi ki, protezi geysə abırlı görünər, geyindi. Üst-başını sahmana salıb Nurlunu gözlədi. "Bəlkə Nurlu Mikayıldan bir xəbər eşidib, gəlir onu mənə desin. İndi müharibədi, hər iş ola bilər. Bəlkə də eşidib ki, Mikayıl sağdı, itkin düşüb. Kaş elə olaydı".

Həmid həmişə protezini geyəndə güzgüdə özünə baxırdı. Ona xətir eləyib protezini səliqə ilə düzəltsələr də, gendən məlum olurdu ki, sağ qolu özününkü deyil. Kostyumda qolunun protezliyi elə hiss edilmirdi. Həmişə də pencək geymək olmazdı. Bakının istiləri, bürkülü yay günləri qabaqda idi, onda nə eləyəcəkdi?

Qapının zəngi çalındı. Nurlu dübbədüz dediyi vaxtda gəlmişdi. Həmid kimi üst-başına fikir verməmişdi, ancaq adi geyimdə, bəzəkdüzəksiz də qəşəng idi. Cəbhədən qayıdanı Həmid Nurlunu bir dəfə Beşmərtəbənin, bir dəfə də bağçanın qabağında görmüşdü.

– Xoş gəlmisən, Nurlu, – Həmid qonağı içəri buraxıb kandarda onunla əl verdi. – Keç otağa.

Nurlu paltosunu soyundu, Həmid paltonu alıb asmaq istəyəndə Nurlu dedi:

– Razı olmaram. – Paltosunu özü asdı və otağa keçdi. – İndi tək yaşayırsan?

"Bu mənim tək qalmağımı hardan bilir?!"

– Xalis təkəm.

– Hə, İsmayılın toyu mübarək olsun, eşitmişəm aldığı qız nəcib adamdı, qanacaqlı ailədəndi, xoşbəxt olsunlar.

– İsmayılın toyu dünən oldu.

– Mən də dünən gündüz eşitmişəm.

– Kim deyib?

– Bağçamızda bir qadın işləyir, Simagilin qonşularıdı, gəlininizi o ki var təriflədi, oğullu-qızlı olsunlar.

– Simaya mən elə bələd deyiləm, İsmayıl da onu çox tərifləyir. Arxayınam o, pis qız seçməz.

Həmid qonağı otaqda qoyub mətbəxə keçdi. Şkafdan kiçik vazın içində ərəb xurması gətirdi.

– Bağışla, Nurlu, ayrı şeyim yoxdu, səni qonaq eləyim, olanı budu, çay içirsənmi?

– Sağ ol, içib gəlmişəm, gəl otur ovgar olma.

Həmid Nurluya diqqətlə baxdı, birçəyindəki gümüşü tükləri birinci dəfə idi ki, görürdü. Şəhərdə rastlaşanda başında kəlağayı, ya da şal olduğundan ağ tükləri gözə dəymirdi. "Dərddən ağarıb, ərinin fikrini çəkir, külfətin yükü düşüb üstünə. Arvad özü nə qədər bacarıqlı, müstəqil olsa da, yenə ərinin köməyinə ehtiyacı var. Başıpapaqlısız ev dirəksiz körpü kimidi".

– Çay içmirsənsə, barı xurmadan ye.

Nurlu xurmadan birini götürüb ağzına qoydu, çeynəyə-çeynəyə otağa, Həmidə göz yetirə-yetirə dedi:

– Tək yaşamaq sənə çox çətin olacaq, tezliklə evlənməlisən, Həmid. Mən bu məsələdə sənə kömək eləmək istəyirəm.

– Kömək, necə?

– Gəldim sənə deyim ki, bizim bağçada bir tərbiyəçi qız var, iyirmi üç yaşında, olduqca qəşəng qızdı, xasiyyəti, xarici görkəmi də gözəldi. Sənin tanışımız olduğunu bilir, neçə kərə mənim yanımda səndən söz salıb. O səni çox istəyir, cəbhədən qayıdandan sonra səni görüb, ananın da vəfat elədiyini hardansa eşidib. O gün məndən soruşdu ki, Nurlu xanım, siz bilərsiniz Həmid niyə evlənmir? Dedim, yəqin rastına, ürəyinə yatan çıxmayıb. İnciyib dedi: "Bakıda bu qədər qız var, onlardan heç biri ona yaraşmır? Şəhərdə başını aşağı əyib yeriyir. Yan-yörəsinə diqqətlə baxsa, belə laqeyd olmaz". Qızın adı Rəfiqədi. Mən sizi tanış eləyə bilərəm. Buna əminəm ki, Rəfiqəni görsən, xoşlayacaqsan, üz-gözündən ağıl-kamal yağır, dost-qohuma qismət olmalı qızdı. Sən onunla həyat qursan, xoşbəxt ola bilərsən. Mən də təskinlik taparam.



"Nurlunun mənə deyəcəyi vacib məsələ bu imiş? Hələ də mənim fikrimi çəkir?!"

– Nurlu, mən sənin zövqünə bələdəm, inanıram ki, dediyin qız həqiqətən ağıllı, kamallıdı. Ancaq mən evlənmək istəmirəm.

– Nəyə görə?

– Ona görə ki, ömrümün yarıdan çoxu gedib, rəva görmürəm ki, başqa kişi ilə xoşbəxt ola biləcək bir cavan qız gəlib taleyini mənə bağlasın.

– Əgər o qız səni sevirsə, özü buna razıdırsa, onda necə?

– Nurlu, mən fədakar insanları qiymətləndirirəm. Ancaq gələcəyi irəlidə olan Rəfiqənin öz gəncliyini, ömrünün qızıl illərini mənə qurban verməyinə heç cürə razı ola bilmərəm. Neçə il qabaq bağışlanmaz bir səhv buraxmışam, indi də onun cəzasını çəkirəm. İkinci səhvi buraxmaq istəmirəm. Bu günümdə sənin qayğıma qalmağın, mənim barəmdə düşünməyin mənimçün ən gözəl təsəllidi, Nurlu.

– Mənimçünsə zərrə qədər təsəlli deyil.

Nurlunun səsindəki incikliyi duyan Həmid könlünü almaq üçün keçib böyründə əyləşdi.

– Nədən ötrü?

– Hamı bilməsə də, sən özün bunu yaxşı bilirsən ki, həyatının bu sayaq olmasında mənim bir qətrə günahım yoxdu. Lakin mən bu işdə özümü bir növ günahkar sayıram. Nə eləyim ki, xasiyyətimlə bacarmıram, sənin taleyin məni rahat qoymur. Onu da boynuma alım ki, sən cəbhədə bir qolunu itirib Bakıya qayıdanı mənim bu narahatlığım daha da artıb. Rübabə xala sağ olsaydı, heç sənin fikrini belə çəkməzdim. Həmid, əl çək bu tərslikdən. Özünə rəhmin gəlmirsə, barı mənə rəhm elə. Məgər indi mənim öz dərdi-sərim azdı?

Nurlunun ona sarı çevrilib yalvarışla dediyi sözlər Həmidin ürəyini yandırdı. Onun qara gözlərindəki qayğı dolu həyəcan, həzin kədər Həmidə çoxdan tanış idi. Nurlu iyirmi il əvvəl Həmidgilə gəlib anası Sərvinaz xanımın onu kimya müəlliminə ərə vermək istədiyini deyəndə də bu gözlər belə narahat idi.

– Nurlu, – əlini onun stola dayaqlanan dirsəyinin üstünə qoydu, – istəməzdim ki, sən mənim fikrimi çəkəsən. Görəndə ki, mənimçün narahat olursan, vicdan əzabı çəkirəm. Amma əslində hər şey əksinə olmalıdı, sənin ərin cəbhədə itkin düşüb, evin başıpapaqlısız qalıb, indi mən nədəsə sənə kömək eləməliyəm. Etiraf eləyirəm, əlimdən ayrı şey gəlmir, əmanət kassasında xeyli pulum var, sənə kömək eləyə

bilərəm. Hərçəndi indi pul qiymətdən düşüb, varını verən utanmaz, deyiblər.

– Sağ ol, Həmid, sağlığına hələlik babat dolanırıq, özüm qazanıram, Muxtara görə voyenkomatdan uşaqlara pensiya kəsiblər, üç nəfərik, bizə çatır.

– Məndən deməkdi.

– Mənim indi ayrı köməyə ehtiyacım var, Həmid. Burda bir adam olsaydı, səni yola gətirməkdə mənə kömək eləyəydi.

– Çətin o adamın köməyi sənə dəyərdi. Çünki heç kəs məni maraqlandırmır. Sənin dediyin o qız dünya gözəli olsa da, mənimçün fərqi yoxdu. Bayaq dedim ki, mən həyatda heç kəsə yük olmaq istəmirəm.

Həmidin danışığından Nurlunun xoşu gəlmədi.

– Bu nə sözdü? Sənə nə olub ki, başqasına yük olasan? Bir qolunu itirsən də, əvvəlki Həmidsən. Tök o daşı ətəyindən. Razı ol, Rəfiqəni sənə göstərim, bax, bəyənsən, sizi tanış eləyərəm. Mən buna arxayınam ki, Rəfiqəni görsən, xoşun gələcək. Qayğıkeş, istiqanlı qızdı, hər cəhətdən sənə layiqdi. Gəl bu dəfə fürsəti əldən vermə.

Həmid Nurlunun nəyə eyham vurduğunu başa düşürdü. O:

– Kaş indiki ağlım onda olaydı, – dedi, – eh, ötən günlər...

Nurlu ötən illəri xatırlamaq istəmirdi. Həmidə imkan vermədi ki, fikri yayındırsın.

– Rəfiqə çox qəşəngdi, cavandı. Üstəlik səni sevir. Daha nə istəyirsən?

– Eh Nurlu... bəlkə də dediklərimə inanmadın, ancaq həqiqəti deyirəm. Məndə nə isə qadınlara qarşı bir laqeydlik, soyuqluq əmələ gəlib.

– Qarşına ürəyinə yatan qadın çıxmayıb.

– Bəlkə də...

– Buna görə də səndən çox xahiş edirəm, gəl əvvəlcə Rəfiqəyə bax, sonra səninlə bu barədə bir də söhbət eləyərik. Razılaşdıq?

Nurlu Həmidlə elə tonda danışırdı ki, sanki şəxsi işi üçün ağız açırdı. Həmid daha onun sözündən keçə bilmədi:

– Mən Rəfiqəyə baxmağa etiraz eləmirəm, ancaq səndən bir xahişim var, Nurlu. Bunu elə eləmək lazımdı ki, qız özü heç nə duymasın. Bilsə, bunun ardınca məsələ baş tutmasa, onun mənliyinə, vüqarına toxunar.



– Mən o barədə də düşünmüşəm, Həmid. Sizi belə tanış eləmək istəyirəm: Rəfiqə ilə yolum birdi. Onlar tütün fabrikinin dalında olurlar. Sabah işdən onunla bir yerdə çıxaram. Sən saat altıda, yeddiyə işləmiş Beşmərtəbənin qabağındakı tramvay dayanacağında olarsan, guya tramvay gözləyirsən. Biz evə gedəndə, ordan keçirik, mən səni görüb salamlaşaram, deyərəm ki, Həmid, tanış ol, Rəfiqə mənim padruqamdı. Onunla tanış olarsan, heç nədən şübhələnməz. Necədi?

– Ağlabatandı.

– Onda, sağlıqla qal, mən getdim, uşaqlara demişəm dükandan ayın-oyun alıb tez qayıdıram, burda yubandığıma görə darıxacaqlar. Deməli, şərtləşdik, sabah bizi tramvay dayanacağında gözləyirsən.

Nurlu Həmidgildən razı getdi. Ev sahibi mərtəbəarası meydançaya çıxıb əziz qonağı könülsüz yola saldı. Heç istəmirdi ki, o getsin.

Əvvəllər Həmid Nurlunu gözəl, ağıllı qız olduğu üçün sevmişdisə, indi Nurlu onun gözlərində alicənab bir insan, ailəcanlı, vəfalı qadın və qayğıkeş ana təkin ucalırdı. Həmid Nurluya deməsə də, onun tərif lədiyi qızın təxminən kim olmasını bilirdi. Bir-iki dəfə Nurlunu görmək üçün bağçanın qabağına gələndə Rəfiqə ilə rastlaşmışdı, çox yapışıqlı qız idi, boy-buxununda, sir-sifətində eybi yox idi. Əgər cavan oğlanlar cəbhədə olmasaydılar, onların qapılarına elçinin biri gedib, o biri gələrdi. Belə qız evdə çox qalmazdı.

## XXXVI

Körpüyə iki gəmi yan almışdı, biri "Axundov", o biri "Dağıstan".

"Axundov" İrandan gəlmişdi, yükçülər briqadası onun gətirdiyi yun, dəri bağlılarını, bir də müttəfiqlərin müqavilə əsasında göndərdiyi yumurta və süd tozu kisələrini, hərbi sursatı, geyimi boşaldırdı. Yunu, dərini, yumurtanı və süd tozlarını anbarlara yığırdılar. Hərbi sursatı, geyimi cəbhəyə yollamaq üçün talvarın yanındakı dəmir yolunun qırağında qalaqlayırdılar. Onları tezliklə vaqonlara yükləyəcəkdilər.

Sərnişin gəmisi "Dağıstan"a cəbhələrdən gətirilmiş yaralıları mindirirdilər. Sanitar vaqonlarını lap körpüyə qədər uzanan dəmir yolunun başında saxlamışdılar. Yüngül yaralılar gəmiyə özləri gedib minirdilər. Çətin yeriyənlərin qoltuqlarına girib aparırdılar. Ağır halda olanları xərəklərlə daşıyırdılar. "Dağıstan" Krasnovodska gedəcəkdi.

Oradan yaralıları Orta Asiyanın şəhərlərindəki hərbi hospitallara bölüşdürəcəkdilər.

Həmid iki tərəfi şüşəbənd olan balaca otaqda uzunsov stolun arxasında oturmuşdu. Otaqdan körpünün hər yeri ovuc içi kimi görünürdü. Bura Bakı limanı yük rayonunun birinci istehsalat sahəsinin stividorunun otağı idi. Üzü şüşəbəndə sarı qoyulmuş stol üstündə iki telefon vardı. Telefonun biri daxili, o biri şəhərlə danışıq üçün idi. Yazı stolunun qabağında ayaqları laxlayan, üstündə əyləşəndə ağırlıqdan oxuna çoxdan yağ sürtülməmiş çarx təkin cırıldayan üç-dörd kətil düzülmüşdü. Arxa tərəfdə, küncdə ortası batıq, mütəkkələrinin müşəmbələri sürtülüb didilmiş bir köhnə divan vardı. Həmid çox zaman gecələr evə getmir, bu divanda tirlənib paltarlı-paltarlı yatırdı. Gecə vaxtı stividor körpüdə olmayanda hardansa gəmilər gələndə yükvurma, yükboşaltma bəzən ləngiyir, arada neçə saat vaxt itirdi. Birinci istehsalat sahəsində vəziyyət yaxşı idi. Həmid limanın sayılan stividorlarından idi.

Bu gecə də Həmid evə getməmişdi. Bu gecəki növbətçi dispetçer pis işçi deyildi, ayrı vaxt Həmid ona etibar eləyirdi. Ancaq keçən ay kişinin Baltik donanmasında qırıcı-təyyarəçi olan tək oğlu hava döyüşündə həlak olmuşdu. İyirmi bir yaşlı leytenantın qara kağızını alandan kişi key kimi olmuşdu, özündə-sözündə deyildi. Həmid onu qınamırdı, valideyn üçün bircə oğlunu itirmək ağır dərddi. O kişi gecələr növbətçi olanda Həmid mütləq körpüdə qalırdı. Bundan savayı, gecə mühüm cəbhə yükü vardı, gözü onun üstündə olmalıydı ki, vaxtında yola salınsın. Yükçülər, mancanaqçılar briqadaları fəhlə batalyonunun əsgərləri ilə bütün gecəni nəfəslərini dərmədən işləyib gəminin yükünü vaqonlara vurmuşdular. Qatar cəbhəyə vaxtından üç saat tez yola salınmışdı.

Həmid səhərə yaxın stividor otağına qayıdıb divanda mürgüləyəndə, "Axundov" gəmisi körpüyə yan aldı. Onun ardınca cəbhədən yaralılarla dolu sanitar qatarı gəldi, daha yata bilmədi.

Səhər o, quru balıq yemişdi, bayaqdan litrlik termosdan neçə stəkan çay içmişdi, yanğısı sönmürdü. Armudu stəkandakı ılıq çaydan şirnisiz, qurtum-qurtum içə-içə limanın yük rayonu rəisinin istehsalat sahələrinin qırx dördüncü ilin birinci rübündə planı yerinə yetirmələri barəsində əmrini oxuyurdu. Əmrdə Həmidin başçılıq elədiyi sahənin işi təriflənirdi. Lakin qeyd edilirdi ki, birinci rübdə gəmilərin



yüklənib-boşaldılmasında səbəbsiz itkiyə yol verilir, bu nöqsan təzliklə aradan qaldırılmalıdır.

Ovqatı təlx olan Həmid əmri konara atıb şüşəbəndin qabağına gəldi. Körpüdə qızğın iş gedirdi. "Axundov" gəmisinin boşaldılmasına az qalırdı. Həştərxandan içi taxta-şalbanla, duzla dolu "Əzizbəyov" gəmisi gəlib reyddə dayanmışdı, gözləyirdi. "Dağıstan", ya da "Axundov" gəmilərinin hansı tez getsəydi, körpüdə onun yerini tutacaqdı. Həmid mancanaqçı qadınların kişilərlə çiyin-çiyinə işləməsinə baxa-baxa söylənirdi: "Ramiz kişilərdən utanmırsa, barı bu qadınlara baxıb utansın. Necə onu mənə sırıdılar. Hardan biləydim ki, bu bazbırıtlı oğlan belə bivecdi, yoxsa heç işə götürməzdim. Buğa təkin boynunu yoğunladıb, əlindən faydalı bir iş gəlmir. Beş aydı burdadı, beş qəpiklik xeyir verməyib. Xeyri başına dəysin, zərəri toxunmasın. Ramizin tayları cəbhədə vuruşur. O, nə bilim sözü keçən hansı dayısının, ya əmisinin sayəsində arxada qalıb. Qalmağı cəhənnəmə, bizim adımızı biabır eləyir".

İdarədən gələn üçaylıq yekun əmri Həmidə yaman yer eləmişdi, dözmədi, istismar üzrə rəisin birinci müavini Matros Həbibə zəng elədi:

– Həbib dayı, salam. – Həmid rəis müavini Həbib Namazzadəyə başqaları kimi familiyası ilə müraciət eləmirdi. – Əmri oxudum, düzü, övqətim təlx oldu.

– Nöşün?

– Day nöşünü yoxdu ki, bizim sahənin adı pis kimi əmrə düşüb. İnsaf da yaxşı şeydi, Həbib dayı, ayrısı bilməsə də, siz gözəl bilirsiniz ki, bizim işimizi zay eləyən kimdi. Qələt elədik ki, Ramizi işə götürdük. Vallah, razıyam işə çıxmasın, ancaq gəlib aybaay məvacibini alsın, bizə belə sərf eləyər.

– Birtəhər yola ver getsin, ay Həmid! Onu bizə hörmətli yoldaş tapşırıb.

– Ramizi bron almaqçün körpüdə işə düzəltməyiblər? Bronu var, day nə istəyir?! Vallah, Həbib dayı, keçən ay onun səhlənkarlığından kisələr qırmaqdan çıxıb aşağı töküləndə yumurta tozunun dağılması bir yana dursun, axtarsan, o da ərzağın bu qıt vaxtında az zərər deyil, bəxtimiz gətirdi ki, fəhlələrdən kiminsə başına düşmədi, yoxsa bədbəxtlik olardı. Hələ vaxtın bu qızıl çağında filan qədər ləngiməyimizi demirəm.

Müavin stividorun şikayətini haqlı saysa da dedi:

– Bir tərəfini boş burax, Ramizi bir də çağır, danla.

– Danlamaqdan keçib. Mənlik olsa, elə günü bu gün işdən qovlayaram.

– Elə iş tutma, yenə deyirəm, onu bizə tapşırıblar.

– Sizə nə olub, Həbib dayı?! Elə bil dəyişibsiz, qabaqkı ağzından od tökülən naçannik deyilsiniz. Bir vaxt vardı tənbəllərə deyirdiniz ki, ağalarla birdəfəlik qurtardıq, işləmirsiniz, xoş gəldiniz. Körpüdə işə can yandırmayanları qapıdan qovlayırdınız, yaxşı da eləyirdiniz.

– Mən dəyişməmişəm, ay Həmid, zəmanə dəyişib. Elə bir şəxs sənə ağız açır ki, keçə bilmirsən, üz üzdən utanır, gərək o özü belə bir işə getməyə. Neyniyəsən?!

Həmidə yəqin idi ki, Ramizin məsələsi təkcə Həbib Namazzadədən asılı deyil. Onun ixtiyarında olsaydı, bronunu əlindən alıb atardı bayıra, deyərdi ki, hara gedirsən, çıx get. Çox gözəl bilirdi ki, Ramizi əsgərlikdən saxlamaq üçün limanda işə düzəldiblər. Rəis müavini onun işdən çıxarılma məsələsini qaldırsa, yerini acı eləyər. Burada ayrı idarələrdən fərqli olaraq, işçilərə brondan əlavə hərdən ərzaq da verirdilər. Hərçənd, Matros Həbibin əsgərlik yaşı keçmişdi, brona ehtiyacı yox idi, ancaq kartoçkadan əlavə limanda aldığı ərzaq kişinin böyük külfətinə əməllicə kömək idi. Vəzifəli şəxslərlə düşünüşüb yaxşı yerini itirmək istəmir.

Rəis müavini stividorun hirsini soyutmağa çalışdı:

– Əmrin əvvəlində sənin sahən təriflənir, axırındakı o bir cümləyə əhəmiyyət vermə. Ramizə yüngül bir iş tapşır, başın ağrımasın. Əgər səndə elə bir yer yoxdursa, mən onu o biri sahələrə keçirə bilərəm.

– Nə fərqi var. Ramiz Əsgərov ayrı sahəyə keçsə, ordakı yazıqlar bizim çəkdiyimizi çəkəcəklər.

– Onda gör özün neynirsən. Ancaq bir işdə mənə kömək elə, sənə zəng çalıb xahiş eləyəcəkdim. Bu gün yükçülər briqadalarından birini dördüncü sahəyə göndərə bilməzsən ki? Onların işi çoxdu, adamları çatışmır, sənin vəziyyətin babatdı.

– "Axundov" gəmisini qurtarıb yola salaq, nahar fasiləsindən sonra göndərərəm.

Həmid, Həbib Namazzadə ilə söhbətini qurtaranda radioda son xəbərlər oxunurdu. Diktor deyirdi ki, SSRİ, Böyük Britaniya və ABŞ



hökumətləri Macarıstan, Rumıniya, Bolqarıstan və Finlandiyaya müraciət eləyiblər, onları faşist Almaniyasının tərəfində vuruşmaqdan imtina eləməyə çağırırlar. Sonra xəbər verildi ki, Sovet İttifaqı ilə Yeni Zelandiya arasında diplomatik əlaqələr yaranıb.

Aprelin on üçü idi. Ay uğurlu başlamışdı. Cəbhələrdə vəziyyət xeyli dəyişmişdi, bu iki həftə ərzində Birinci və İkinci Ukrayna cəbhələrinin qoşunları Sovet İttifaqının dövlət sərhədlərini keçib düşmənlə vuruşa-vuruşa Qərbə doğru irəliləyirdi. Həmid, Ali Baş Komandan Stalinin əmrində hissələri sərhədlərimizdən kənarda vuruşan komandanların arasında general-leytenant M.P.Qradov familiyasına rast gəlmişdi. Bu, özgəsi ola bilməzdi, Pyotr Anisimoviçin oğlu Mişa idi. Demək, o sağdı. Hardasa itib-batmamışdı. Faşistlərlə möhkəm vuruşurdu. Həmid buna çox sevindi.

Daxili telefon səsləndi, o hay verdi:

– Bəli.

– Yoldaş Xələfov, – danışan körpünün darvazasındakı qarovulçu idi, – bura Nəzərov adlı bir nəfər gəlib, sizi görmək istəyir.

– Nəzərov? – Həmid fikirləşdi ki, Nəzərov kimdir, yadına düşmədi. – Bəs onun adı nədi?

– Bu saat soruşaram. – Qarovulçu qapıda gözləyənlə danışıb dedi: – Davud Xudaqulu oğlu Nəzərovdu.

Həmid indi xatırladı ki, dostu saatsaz Davudun familiyası Nəzərovdur, qarovulçuya:

– Burax onu, gəlsin, – dedi və Davudu qarşılamağa həyətə çıxdı.

"Davud da cəbhədən qayıdıb, barı o mənim kimi invalid olmayaydı. Sağlam döyüşçü davanın, hücum əməliyyatlarının bu qızğın çağında arxaya elə belə qayıtmaz, xeyir ola".

Mülkü paltar geymiş bir kişi gümrah addımlarla ona sarı gəlirdi. Həmid yerişindən Davudu tanıdı. Rastlaşıb hərarətlə qucaqlaşdılar. Davudun bütün əzaları yerindəydi. O, Həmidi istiqanlıqla qolları arasında sıxdı, rəftarından belə görünürdü ki, Davud Həmidin bir qolunun kəsilməsindən xəbərsizdi. Əlcu protezə toxunanda ehmalca onu buraxdı, kənara çəkilib təəccüblə Həmidə baxdı və nə isə soruşmaq istəyirdi. Həmid onu qabaqladı:

– Bakıya haçan gəlmisən?

– Srağagün, gecə qatarı ilə. Bilirsən də bizim evdə telefonumuz yoxdu, dünən axşam qonşudan sizə iki kərə zəng vurdum, hay verən

olmadı. Nigaran qaldım, bu gün sizə getdim. Qonşunuz Bibixanım xala dedi ki, körpüdə əvvəlki yerində işləyirsən, evə az-az gəlirsən, çox vaxt gecə də burda qalırsan, gəldim səninlə görüşməyə.

Həmid Davudu otağına apardı.

– Paltarı dəyişmisən, səni də mənim təkin ordudan tamam buraxıblar?

– Hələlik üç aylığa evə otpuska gəlmişəm. Uralda hospitalda yatırdım. Ciyərimdə oskolka qalıb. Belə görürəm, day orduya qayıtmayacağam, gərək ciyərimi operasiya eləyib oskolkanı çıxartsınlar. O da uzun həngamədi. Sən nə sayaqsan? Hə, Rübabə xalanın vəfatını dünən Bibixanım xaladan eşitdim. Allah rəhmət eləsin. – Həmidin protez qoluna işarə elədi. – Bunu mənə deməmişdilər, nə pis olub.

– Olacağa çarə yoxdu, taleyin hökmüdü.

– Səni niyə əsgərliyə apardılar axı?!

– Özüm getdim. Dostlar, tanışlar hamısı cəbhədəydi. Belə bir vaxtda mənə qadınlarla, qocalarla bərabər arxada qalmaq ar gəldi, brondan imtina elədim.

Həmid əsir düşməsindən, qolunu necə itirməsindən danışdı.

– Sən harda vuruşurdun?

– İkinci Ukrayna cəbhəsində. Minomyot komandiriydim. Keçən il dekabrın on ikisində Çerkassının yaxınlığında yaralandım, bizim diviziya bundan iki gün sonra şəhəri azad elədi. Dörd aydı yaralanmışam. Hospitalda üç aydan çox yatdım. Bu gün voyenkomatdaydım, kağızlarıma baxdılar, deyəsən məni də invalid eləyəcəklər. Əşşi, məndən invalid olar?! Əvvəlki yerimdə, öz saatsaz dükanımda işləyə bilərəm, üç-dörd yüz manat pensiyaya qalmışam? İndi o pula nə verirlər, heç nə, pulun adı qalıb. – Otağa göz gəzdirdi. – Bura, deyəsən sənin kabinetindi, orda oturan o iki arvad da sənə tabedi, naçanniksən?

– Stividoram.

– İstividor? O nə deyən şeydi?

– Yəni iş icraçısı.

Davud bir şey anlamadı.

– Necə iş icraçısı, fəhlə, iş görən?!

– Mən bura yükçülər, mancanaqçılar briqadalarına, növbətçi dispetçerlərinin işinə başçılıq eləyirəm.

– Belə de də, yoxsa, nə iş icraçısı? Körpüdə camaat sənin dediklərini icra eləyir, qulluğunda durur, naçanniksən də, day naçannikin



buynuzu olmaz ki... Malades, sənə layiqli vəzifə veriblər. Mən dükanıma qayıtmaq istəyirəm. Mən əsgər gedəndən sonra ora bizim arteldə bir qoca saatsaz var, Ramazan kişi, onu qoyublar. O da cansızın biridi, ilin doqquz ayını azarlı olur, dükanın qapısından qıfıl asılır. Bakıda qalsam, xahiş eləyəcəyəm öz yerimi versinlər. Mən şəhərə gələn təkin gedib baxdım, dükan bağlıydı, dedim: "Ay dad-bidad, bizi necə yerimizdən elədilər..."

Daxili telefon zəng çaldı, növbətçi dispetçer idi. Həmidə dedi ki, bir saata "Axundov" gəmisinin yükünün boşaldılmasını başa çatdırırıq. Həmid qol saatına baxdı:

– Qabağa düşmüsünüz ki.

– Hə, yoldaş Xələfov, iki saat tez qurtarırıq.

– "Axundov"u yola salan kimi "Əzizbəyov"u qəbul eləyin. Hər iş qaydasındadı?

– Bir əyər-əskik yoxdu.

– Yaxşı, bir azdan özüm gələcəyəm ora.

Danışıq qurtaran kimi Davud ayağa qalxdı:

– Həmid, görürəm sən iş adamısan. Mən də heç yerə tələsmirəm, qalıb söhbətimlə sənə mane olacağam, gedim, şəhərdəyəm, sağlıq olsun, tez-tez görüşəcəyik. Axşamlar evdə oluram, vıxadnoyunda bizə gəl, gözləyəcəyəm.

– Əşşi, otur, mənə bir maneçiliyin yoxdu. Əksinə, səni gördüm, ürəyim açıldı, şəhərdə kişilərdən tanış-biliş qalmayıb. Evdə sağsalamatlıqdı? Oğlundan nə xəbər var?

– Muraddan? Balam kişi kimi vuruşur, rütbəsi böyüyüb, kapitandı, eskadrilya komandiri qoyublar. Şəklini göndərib. Döşündə dörd ordeni var. Zirək oğlandı, kiçiyi onilliyi bu il qurtarır, qızlar da oxuyurlar.

Həmid də Muradı təriflədi.

– Maşallah, o elə uşaqlıqdan diribaş idi. Diribaş uşaqlardan böyüyəndə fərli adamlar çıxır.

– Hə, İsmayılın evlənməyini, mədəndə müdir işlədiyini qonşunuzdan eşitmişəm. Bəs Mikayıl hardadı, hansı cəbhədə vuruşur?

Həmid qardaşının hələ davanın əvvəlində həlak olduğunu dedi.

– Qəbrinin yeri məlumdu. Mənə yazıblar, sakitlik olan kimi gedəcəyəm. Əgər ayrıca basdırıblarsa, onu gətirib anamın yanında dəfn eləyəcəyəm. Qardaş məzarında olsa, mümkün deyil.

– Mən Mikayılın həlak olmasını bilmirdim.

– Hardan biləsən? Bunu təkcə İsmayılla mən bilirəm, heç kimə, heç rəhmətlik anama da deməmişdik.

– Davada çoxları qırılıb. Bizim qonşulardan da neçəsinin qara kağızı gəlib. Dünən mən voyenkomatda bir hadisənin şahidi oldum. Ürəyim ağrıdı. Ağbirçək qarı oğlunun ölüm xəbərini eşidib, orda şivən qoparmışdı, deyirdi ki, altı nəvəm yetim qaldı, hamısı da balaca. Bəs biz neynəyəcəyik? Allah bu zülmü necə götürür?!

– Belə getsə, davanın qurtarması çox çəkməz. Bir neçə yerdə qoşunlarımız sərhədlərimizin o tayına çıxıblar.

Otaqdan çıxmaq istəyəndə Davud əli qapının dəstəyində geri çöndü:

– Hə, yadımdan çıxıb sənə deyim. Mən qonşunuz Bibixanım xaladan səni soruşanda, dedi ki, neçə gündü Həmid evə gəlmir, ya da bəlkə gecə gec gəlir, səhər də lap alaqaranlıqdan gedir, biz onu görmürük. Voyenkomatdan Həmidə bir kağız yollayıblar, neçə gündü qalıb bizdə, verə bilmirəm ona.

– Görəsən, məni neynirlər, invalid adam onların nəyinə gərəkdi?!

– Xeyir olar. Eşitmişəm invalidləri çağırıb paltar-pultar verirlər, mağazadan yaxşı-yaxşı şeylər almağa talon paylayırlar.

– Eh, onların heç biri mənə lazım deyil.

Körpüyə çıxdılar. Həmid Davudu küçəyəcən ötürmək istədi. Onlar limanın yeməkxanasının yanından keçəndə burunlarına qızardılan balıq iyi dəydi. Həmid Davuda dedi:

– Məni bircə dəqiqə gözlə, qayıdıram.

O, otağına getdi və qəzet bükülüsü ilə qayıtdı.

– Bu ənzəli balığıdı, srağagün İrandan gələn bir gəmi kapitanı, mənim dostumdu, çənbərəkəndlidi, o bağışlayıb. Al bunu, apar uşaqlara.

– Bununçun geri qayıtdın?! Bilsəydim qoymazdım.

– Sən uşaqların canı, götür bunu.

– Götürərəm bir şərtlə; vıxadnoy günü bizə gələsən, evdə ənbərbu düyüsü var, aş bişirsinlər, bu quru balıqla yeyək.

– Neynək, gələrəm.

Davud körpünün qabağında Həmidlə sağollaşıb getdi. Həmid körpünün alaqapısının qənşərində Rəfiqə ilə rastlaşdı. Qızın gözləri qızarmışdı, kirpikləri yaş idi. O, Həmidi görüncə özünü itirdi, yaylığını çıxarıb gözlərini quruladı. Həmid heyrət elədi, günün bu çağında Rəfiqə burada nə eləyirdi, kim onu incitmişdi, niyə ağlayırdı?!



– Salam, Rəfiqə xanım, sizə nə olub?

Bu sualdan qız bir az da kövrəldi, başını tərpətdi ki, heç, elə bir şey olmayıb.

– Nə üçün ağlayırsınız?

– Anamı Aşqabada yola saldım, böyük qardaşım ağır yaralanıb, orda hospitalda yatır, ondan nigaranıq.

Rəfiqə yaylığı ilə kirpiklərini quruladı.

Nurlu şərtləşdikləri kimi Rəfiqə ilə Həmidi Beşmərtəbənin tinindəki tramvay dayanacağında tanış eləmişdi. Qız onun dediyi təkin, həqiqətən çox qəşəng idi, üz-gözündə, boy-buxununda bir eyib tapmaq çətindi. Rəfiqədə ilk baxışdan kişiləri özünə cəlb eləyən məlahət vardı. Qız, Həmidin xoşuna gəlmişdi. Nurlu ilə sonrakı görüşündə Rəfiqənin zahirən yapışıqsız olduğunu bəhanə gətirib onun ürəyinə yatmadığını deyə bilməzdi. Nurlu Həmiddən soruşanda Rəfiqə necədi, səmimi tərzdə etiraf elədi ki, çox gözəldi, ancaq tayım deyil. Mən ona yaraşmıram. Rəfiqənin xoşuna gəlsəm də, mən heç vəchlə onunla evlənmərəm. Qız heyifdi, başqası ilə xoşbəxt ola bilər. Qoy o öz səadətini ayrısında axtarsın. Mən buna əminəm ki, layiqli bir oğlana ərə gedəndən sonra fikirləşəcək ki, nə yaxşı o vaxt taleyini mənə bağlamayıb. Nurlu nə qədər dil töksə də, Həmid Rəfiqə ilə evlənməyə razı olmamışdı.

İlk tanışlıqdan sonra Həmid Rəfiqə ilə şəhərdə ara-sıra rastlaşırdı. Onlar hörmətlə salamlaşıb ötürdülər.

Bu gün Həmid Rəfiqəni pərişan, gözləri yaşlı görməsəydi, əvvəlki təkin salamlaşıb işinə gedəcəkdi.

– Qəm çəkməyin, Rəfiqə xanım, qardaşınız sağalıb evinizə qayıdar. Mən özüm görmüşəm, həkimlər hospitallarda elə ümidsiz yaralıları müalicə eləyib, ayağa qaldırırlar ki, adam heyran qalır. Qardaşınız harasından yaralanıb?

– Məktubunda o barədə bizə heç nə yazmayıb.

– Məktubu özü yazıb?

– Hə, onun xəttidi.

– Ürəyinizi sakit eləyin, halı ağır olan özü məktub yaza bilməz.

Rəfiqə qəmli-qəmli gülümsünüb yaylığını bədəninə kip yapışan innabı plaşının cibinə basdı.

– Sizə qulaq asanda ümidim artır.

– Məndən sizə əmanət, heç vədə ümidinizi itirməyin.

Həmid əlini qayğıkeşliklə Rəfiqənin çiyninə vurdu, qız bundan xoşlandı.

– Bilirsiniz bizi yandıran nədi?! Keçən ayın axırlarında qardaşımgili Bakıya gətirib burdan gəmi ilə Krasnovodska yola salıblar. O, sanitar qatarının rəisindən xahiş eləyib ki, bura bizim şəhərdi, məni düşürdüb, Bakıdakı hospitalların birinə verin, düşürtməyib. Qardaşım yəqin elə halda olub ki, özü düşə bilməyib. O, çox ötkəm oğlandı, yoxsa izn verilməməsinə baxmazdı. Rəis çox haqsızlıq eləyib, onu Bakıda qoysaydı, dünya dağılardı?! Əksinə, bundan xəstəyə xeyir olardı. Fikir çəkməz, yaraları tez sağalardı.

– Əlbəttə, sanitar qatarının rəisi istəsəydi, onu Bakıda düşürtdürüb hospitalların birinə təhvil verə bilərdi. Və bu, qanunsuzluq olmazdı.

Rəfiqənin həyəcanı soyumuşdu. İndi ehmalca plaşının çiyninə tökülən gur saçlarını dəstələyib sahmana salır, yaxasından görünən güllü şalı düzəldir, səliqəli, daha gözəl görünməyə çalışırdı. Ancaq o bu halında da çox gözəl və cazibədar idi. Həmid Rəfiqəyə baxıb fikirləşirdi: "Bu gözəl qız məndə nə görüb ki?.. Qadınlar şöhrəti sevirlər, qabaqlar məşhur idim, bir qolumu itirməmişdim, məndə qadınları cəlb eləyən nəsə vardı. İndi quru adımdan savayı onların heç biri qalmayıb".

"Çəkilin, çəkilin, ay yol verin!" – deyə-deyə dəniz vağzalının qoca süpürgəçisi susəpənlə səkini sulayır, yolçulara xəbərdarlıq eləyirdi ki, ehtiyatlı olsunlar, üstləri islanmasın. Həmid Rəfiqənin qolundan tutub divar dibinə çəkdi:

– Rəfiqə xanım, burda işləyirəm. İstəyirsiniz buyurun, gedəyin mənim otağıma, dincəlin, sonra evə gedərsiniz.

– Sağ olun, evə getməyəcəyəm, bağçaya qayıtmalıyam, Nurlu xanımdan anamı yola salmağa icazə almışam.

Rəfiqə Həmidlə əl verib getdi. Həmd stividor otağına qayıtdı.

"Bunun da qardaşı belə... Müharibənin döymədiyi qapı qalmayıb".

## XXXVII

Respublika hərbi komissarlığının siyasi şöbə rəisinin gözləmə otağında beş nəfər müharibə əlili vardı, dördü oturmuşdu, yer olmadığından biri ayaq üstündə dayanmışdı. Oturanların üçünün ya dizdən yuxarı, ya da dizdən aşağı bir qıçı yox idi, birinin qolu. Ayaq üstə qalanın zahirən bütün əzaları yerində idi, ancaq o, hərdən küt-küt



öskürürdü. Qolsuz kişi Həmid idi, bilmirdi ki, siyasi şöbə rəisi onu buraya niyə çağırıb, xeyirdimi, nigaran idi, oturub növbəsini gözləyirdi. Ondan qabaq içəri ikisi gedəcəkdi.

Gözləmə otağında elə sakitlik idi, divar saatının çıqqıltısı eşidilirdi. Heç kəs dinib-danışmırdı, hərdən rəisin katibəsi arıq, kürən qız telefon zənglərinə cavab verirdi: zəng vuranla ya özü danışırdı, ya da onu rəislə calaşdırırdı.

Həmid tək əlini qoynuna qoyub oturmuşdu. Deyəsən, otaqdakı kişilərdən ikisi onu tanımışdı, oğrun-oğrun hey baxırdılar. Həmidin gözləri divara vurulmuş iri plakatda qalmışdı. O, Bakıya gələni bu plakatdan küçələrin divarlarında, getdiyi idarələrdə çox görmüşdü. Şəkildəki ağsaçlı, baxışlarından qəzəb yağan ana, əlini irəli uzadıb deyirdi: "Vətəni qoruyun, mənim igid oğullarım!" Həmid də sanki şəkildəki ana ilə danışır, ürəyində ona "ay ana, mən bifər çıxdım, yarı yolda qolumu qoyub qayıtdım" deyirdi.

Rəisin otağındakı əlil içəridən xoş əhvali-ruhiyyə ilə çıxdı. Gözləyənlərdən biri divara dayadığı çəliklərini götürüb qalxdı və katibənin dəvətini gözləmədən kabinetə getdi. Ondan sonrakı bir stul qabaqda əyləşdi. Həmid də onun yerinə keçdi, boşalan stulda isə bayaqdan ayaq üstə dayanan uzun kişi oturdu. Bu ara gözləmə otağının qapısı itələndi, kandarda qoltuğu çəlikli, sağ gözünün üstündən qara parça bağlamış pota bir kişi göründü. O, asta-asta içəri keçdi, yerişindən belə məlum olurdu ki, çəlikləri yenicə götürüb, hələ onlara alışmayıb. Təzə əyləşən uzun kişi qalxıb yerini ona verdi. Bir gözsüz, təkayaq əlil ona minnətdarlıq eləyib əyləşdi və katibədən soruşdu:

– Ay qız, naçannik yerindədi, qəbul eləyir?

Katibə dedi:

– Yerindədi.

Bu dəfə o, yanındakılardan soruşdu:

– Mən kimdən sonra olacağam, əsgər qardaşlar?

Uzun kişini yenə öskürək tutmuşdu, o elə öskürə-öskürə də hay verdi:

– Məndən, axırıncı mənəm.

– Gözləyək, görək, – deyə təzə gələn əlil cibindən əzik qəzet və tütün kisəsini çıxarıb papiros eşdi.

Həmidin gözləri onda idi. Cavan kişinin sol əlinin barmaqları da ucdan kəsilmişdi. Papirosu çətinliklə eşib damağına qoydu. Ciblərindən

kibrit axtaranda yanındakı alışqanını yandırıb, ona təklif elədi. Tək ayaqlı papirosunu yandırıb çəkə-çəkə dönüb katibəyə diqqət yetirdi. Həmid isə gözünü ondan çəkmirdi. Cavan kişinin gözünə bağladığı parçanın aşağısında üzünün dərisi qara-qara idi, elə bil çöhrəsinə xaş-xaş səpmişdilər. Gözünə bağladığı parçanın altı batıq idi. Həmidin ona rəhmi gəldi. "Bu yazıq nə yaman yaralanıb, sağ yeri qalmayıb, bir qıçı yox, gözünün biri kor, barmaqları da elə... Anası namaz üstündə imiş, bununçun deyiblər, yaxşı qurtarıb..."

Gözü qara sarıqlı, təkayaqlı kişinin döşündə iki orden vardı, bir medalı. Bir də qvardiya nişanı. Qırmızı ulduz ordeninin bir guşəsinin emalı tökülmüşdü, "yiyəsi təkin ordeni də yaralanıb..."

İçəridəki əlil çıxdı, onun da dalınca siyasi şöbə rəisi, oturanlar qalxmaq istədilər, podpolkovnik dedi:

– Durmayın, əyləşin! – yaxına gəldi. – Yoldaşlar, bağışlayın sizi işdən-gücdən eləyib çağırmışam, ancaq qəbul eləyə bilməyəcəyəm. Məni general təcili çağırır, məlum deyil, onun yanında nə qədər olacağam, sizi də burda gözlətmək istəmirəm, yaxşısı budur ki, sabah səhər gəlin, doqquzdan burdayam, arxayınlıqla danışağın.

Hamı səhər gəlməyə razı oldu, dağılışdılar.

Hərbi komissarlıq şəhərin köhnə, uca binalarının birində, üçüncü mərtəbədə yerləşirdi, binaya lift qoyulmamışdı. Qocalar, xəstələr yuxarı əziyyətlə çıxıb-düşürdülər. Çəliklə gələnlərin işi daha müşkül idi. Haçandan dəyişilməmiş, çox çıxılıb-düşülməkdən yeyilib sürtülmüş mərmər pillələrin bəziləri sürüşkən olmuşdu.

Gözünü qara parça ilə bağlamış təkayaqlı kişi pillənin tinində durub başını yelləyə-yelləyə aşağı baxırdı:

– Rəhmətliklər bina tikəndə pilləkənlərə xəsislik eləməyiblər.

Həmid gözsüz, təkayaqlı kişinin nədən şikayət eləməsini anlayıb dedi:

– Gəlin, mən sizə kömək eləyim.

Həmid onun qoluna girdi, kişi bir əli ilə pillələrin məhəccərindən yapışa-yapışa düşdülər. O, ağırlığını Həmidin üstünə salmışdı, arxayınlıqla enirdi, ancaq hərdən gülümsünə-gülümsünə dönüb ona baxırdı. Sağ əlində ikicə barmağı qalmışdı. Qoltuğundakı çəlikdən çeçələ və baş barmağı ilə yapışmışdı. "Bu yazığın dolanışığı zülmdü. Əl belə, ayaq elə, gözünün də biri yox... Məndən rəyimi soruşan olsaydı, deyərəm ki, belə yaşamağın nə mənası?! Bir adamın ki ömrü boyu başqasının köməyinə ehtiyacı oldu, o nə adamdı, nə yaşamaqdı?! Mənim vəziyyətim bunun yanında toya getməlidi. – Həmid Bakıya qayıdanı bələlərini görəndə özü ilə onları müqayisə eləyir, təsəlli tapırdı. – Əsil invalid budu, hərbi komissarlıq bacardıqca bələlərinə kömək eləməlidi..."

Kişi aşağı düşənəcən neçə dəfə dönüb ona baxdı. Bu, Həmidin gözündən yayınmadı, daha doğrusu, əhəmiyyət vermədi. Onu şəhərdə çox adam tanıyırdı, rastlaşanda baxırdılar, bu baxışlara alışmışdı. Hətta bəzən qəzəblənirdi də. Çünki həmin baxışlardan bir təəssüf, mərhəmət oxuyurdu, yadından çıxartmağa çalışdığı əlilliyini təzədən yadına salıb, yarasının qaysağını qoparırdılar. Gözünə qara bağlamış bu təkayaqlı kişi niyə hər dəfə ona baxanda gülümsəyirdi? Həmiddə gülümsəməyə nə səbəb vardı? Ona pillələri düşməkdə kömək elədiyinə görə bu yolla razılığını bildirirdimi?!

Onlar pillələri enib Kommunist küçəsinə çıxdılar. Həmid, kişinin qolunu buraxdı. Şəhərdə ayrı bir işi yox idi, İnqilab bağının qabağında dayanan üç nömrəli tramvaya minib evə gedəcəkdi. O, sağollaşanda gözünə qara bağlamış kişi dedi:

– Mümkünsə, bircə dəqiqə dayanın.

Həmid dayandı.

– Sizdən bir söz soruşmaq istəyirəm.

– Buyurun.

– Vallah, bayaqdan gözümə tanış gəlirsiniz, sizi bir məşhur adama oxşadıram. Daşoynadan Həmid Xələfov deyilsiniz ki?

Həmid indi bildi kişi pillələri düşə-düşə nə üçün hərdən dönüb ona baxırdı.

– Mənəm.

Təkayaqlı kişi Həmidə rast gəldiyinə şad oldu. Çəliyin tutacağından buraxıb onun əlini sıxdı:

– Qabaqlar, qabaqlar deyəndə ki, iyirmi il qabaq Bakıda sizin çıxışları buraxmırdım, dönə-dönə gedib baxırdım. Özüm də daş qaldırmağa, pəlvanlığa həvəs göstərirdim... Sizin tanışınız məşhur pəlvan Balağa vardı e, mən onun çapçılar klubundakı cavan pəlvanların dərnəyinə də gedirdim, deyilənə görə pis də güləşmirdim. Balağa Aslanzadə mənim qurşaq yapışmağımı bəyənib yoldaşlarıma nümunə göstərirdi. Siz məni tanımırsınız, Balağa orda sizdən bizə çox danışırdı.

Təkayaqlı kişinin Balağanın adını çəkməsi Həmiddə ona rəğbət oyatdı.

– Balağa mərd, xeyirxah kişi idi, mənə çox yaxşılıqları dəyib, onları yaddan çıxarmaram, heyif, dünyadan tez getdi.

Təkayaqlı kişinin çöhrəsi tutuldu, fikirli-fikirli dedi:

– Hə, tez getdi.

Təkayaqlı kişinin Balağaya tanış çıxması Həmid üçün tapıntı kimi oldu, ona qanı qaynadı, elə bildi ki, küçədə çoxdan görmədiyi bir istəkli yoldaşına rast gəlib, mehribanlıqla dedi:

– Hayana gedirsiniz, sizi ötürüm, biz Beşmərtəbədə oluruq.

– Mən də elə o yana gedirəm, üç nömrəli tramvaya minib gedəcəyəm. Suraxanıda oluruq, elektriçkaya əyləşəcəyəm.

– Mən də elə o yana gedirəm, üç nömrəli tramvaya minəcəyəm, yol yoldaşı olarıq.

Onlar Kommunist küçəsinin o tayına keçdilər. Tramvay dayanacağında xeyli adam vardı, üç nömrəni gözləyirdilər. Divar dibindəki skamyada uşaqlı qadın, bir də qoca kişi əyləşmişdi, onlar ikisi də birdən durub yerlərini gözünə qara sarımış təkayaqlı kişiyə təklif elədilər, o oturmaqdan imtina elədi, qadın qucağında bələkli körpə tutmuşdu. Kişi də çox qoca idi, hay-hayı gedib, vay-vayı qalmışdı, əl ağacına söykənmişdi.

– Əmi, bacı, siz əyləşin, mən gedirəm, dayanmayacağam. – O, Həmidi kənara çəkdi. – Hara gedirəmsə, belədi. Vallah, camaat elə hörmət eləyir ki, utanıram.

– Camaatımız çox hörmətcildi, nahaq utanırsınız, siz çox böyük hörmətə layiqsiniz, frontda gözünüzü, ayağınızı, barmaqlarınızı itirmisiniz, bu az iş deyil, başınızı dik tutub gəzməlisiniz. Adınızı da bilmirəm.

– Adım Firuzdu. Sizinlə belə yaxından tanış olmağıma çox şadam.

"Firuz, Firuz..."

Həmid bu adı ürəyində təkrar eləyə-eləyə bir də kişiyə nəzər yetirdi. "Bu Balağanın əli altında işləyən Firuz olmaya?! Tehər-töhüründən heç ona oxşamır".

Həmid Firuzun döşündəki orden və medallara baxdı. Neçə il qabaq çapçılar klubunda güləşməsinə tamaşa elədiyi və mətbəənin qabağında danışdığı gənc oğlanı xatırladı: "Bu odurmu? Ola bilməz! Satqın adamın mərdlik göstərməsi ağlabatan iş deyil, yəqin ayrısıdı, ayrı Firuzdu".



Həmid yanıldığına arxayın olmaq üçün Firuzdan soruşdu:

– Familiyanız nədir?

– Familiyam? Şahlarov.

Həmid Firuzun familiyasını eşidəndə elə bil gözlərinin qabağında məşəl tutdular, kirpikləri qarsalandı, az qaldı ki, gilələri yansın. O, geri çəkildi... "Balağanın yalandan üzünə duran oğlanın da adı Firuz, familiyası Şahlarovdu". Həmid tərəddüd elədi, inanmırdı cəbhədə igidlik göstərən bu oğlan onun haçandan axtardığı adam olsun. Davada yaralananların hamısı qəhrəman deyildi, arxaya qayıtmaq üçün qəsdən əlini, ayağını güllə qabağına verənlər də vardı. Onun yanında duran müharibə əlilinin isə döşündən iki "Qırmızı ulduz" ordeni, "İgidliyinə görə" medalı asılmışdı. Həmid özünü inandırmağa çalışırdı ki, səhv eləyir, bu gün rast gəldiyi oğlan Çopur Abdullanın qohumu Firuz deyil, ayrısıdır. Şəhərdə eyni adlı və familiyalı kişilər azdırmı? Bu ümidlə də Firuzdan soruşdu:

– Siz o vaxt mətbəədə Balağa Aslanzadə ilə işləməmisiniz ki?

Firuz Həmidin əvvəl onun familiyasını, indi də kiminlə işləməsini soruşmasından şübhələnmədi.

– Hə, çap sexində onun şagirdi olmuşam, Balağa qədəş mahir pəlvan, usta çapçı idi, mən ondan çox şey öyrənmişəm. Düzdü, pəlvanlığın dalınca getmədim, ancaq çapçı oldum. Çörək pulu mətbəədən çıxdı. İndi bu kökdə çapçılığa da yaramaram.

Həmid o vaxt Firuzu çox axtarmışdı. İnana bilmirdi ki, indi hərbi komissarlıqda rast gəldiyi bu əlil Firuz olsun. Onun təsəvvüründə nahaqdan üzə durub başqasını şərə salan kişi, heç vəchlə cəbhədə igidlik göstərə bilməz. Bəlkə salyanlı dərzi Cəlil Əkbərov onun adını yadında düz saxlamayıb. Balağanı çap sexində işləyən ayrı gənc fəhlə güdaza verib?! Həmid vətən yolunda gözünü, qıçını qoymuş bu əsgəri öz aləmində təmizə çıxarmağa çalışırdı. O, Salyandan gələndən sonra and içmişdi ki, Çopur Abdullanın və Firuzun cəzasını versin. Çopur Abdulla cəzasına çatmışdı, qalırdı Firuz. Həmid bu gün özü də gözləmədən Firuzla rastlaşmışdı, bu vəziyyətdə onunla necə rəftar eləyəydi?! Sözü haradan başlayaydı? O zaman elədiyi işi Firuz indi boynuna alardımı?! İkincisinə qalanda onun təqsirini sübuta yetirmək üçün Həmidin əlində quru sözdən başqa, ayrı bir dəlil yox idi, bəs o nə eləyəydi?!

Vağzala gedən üç nömrəli tramvay gəldi, basabas idi, onlar minmədilər. Dayanacaqdakı əlli-ayaqlıların bir-ikisi dal qapıdan sallanıb getdi. Həmidgil o birini gözlədilər. Dayanacaqdan bir neçə metr o yana İnqilab bağındakı skamya boş idi, keçib orada əyləşdilər. Firuz dedi:

– Mənim ayağımı, gözümü itirməyim cəhənnəmə. Heç sizin kimi adamı fronta yollayarlar?

– Niyə, mən kimdən artığam?

– Artıqlıq, əskiklik məsələsi deyil. Siz arxada camaata daha çox lazımsınız.

– Lazımsız adam yoxdu, Firuz, hamı öz yerində lazımlıdı.

– Mən o mənada demədim, Həmid müəllim, – Firuz təmkinlə danışırdı.

Həmidin sözlərində əsəbilik hiss olunurdu. O dedi:

– Cəbhəyə mən özüm getmişdim. Ancaq sənə müəllimlik eləyib sənət öyrədən Balağanı nahaqdan dolaşdırıb məhv elədilər. Kaş Balağa qalaydı, indi cəbhəyə gedib faşistlərlə mübarizədə həlak olaydı. Mən eminəm, o yaşasaydı, bu ağır günlərimizdə düşmənlə mərdliklə vuruşardı.

Həmid qəzəblə danışa-danışa altdan-altdan Firuza fikir verirdi. Firuz tutulmuşdu. O, Həmidin kimə qəzəblənməsini duymasa da, pərt olmuşdu, dinmirdi. Həmid sözlərinin ona təsir elədiyini görüb dedi:

– Firuz, mən bu əhvalatı az-çox bilirəm, ancaq sizin dilinizdən eşitmək istəyirəm. Kişi kimi, mərd-mərdanə cavab verin, niyə nahaqdan Balağanın üzünə durmusunuz? Bu bir, ikincisi, qəzetdəki o siyasi məqalədə "ç"nin yerinə "y" qoyub, "çoxdur"u "yoxdur" eləyən kimdi?

Firuzun yastısına dizinin üstə qoyduğu çəliklərin biri sürüşüb tappıltı ilə yerə düşdü, yoldan keçənlər dönüb baxdılar. Həmid çəliyi götürüb təzədən onun dizinin üstünə qoydu. Firuz başını aşağı əymişdi. Həmid gözlədi, ondan hay çıxmadı, soruşdu:

– Dinmirsiniz?

Firuz yavaşca dedi:

– Nə deyim?

– O vaxt elədiyinizi unutmusunuz?

– Unutmamışam, heç nəyi unutmamışam...

Firuzun bütün vücudu əsirdi, əllərində tutduğu çəliklər də bir-birinə dəyib taqqıldayırdı. Onun gözləri dolmuşdu. Hirsdən dişi-dişinə dəyirdi.



– Siz məndən nə istəyirsiniz?

– Mən nə istədiyimi demişəm, bir də təkrar eləyə bilərəm.

– Nə haqla məni sorğu-suala çəkirsiniz? Bu ixtiyarı sizə kim verib?

– Bəs siz nə haqla və hansı ixtiyarla elə bir təmiz adamı böhtana salmısınız?

İkisi də qışqıra-qışqıra danışdığı üçün qonşu skamyalarda əyləşənlər və yol keçənlər onlara baxdı, hamı təəccüb elədi bu iki əlilin sözləri nədən ötrü çəp gəlib.

Firuz çəliklərini cütləyib qoltuqlarına apardı, onlara dayaqlanıb qıcana-qıcana qalxdı. Həmid elə bildi ki, o çıxıb gedir.

– Qaçıb aradan çıxırsınız?

– Xeyr.

Firuz çəliklərini hirslə yerə döyə-döyə irəlilədi. O, bağın içinə doğru gedirdi. Həmid də durdu, Firuz döngəyə çatıb dayandı, o yan-bu yana baxdı, ağacların arasında, gəliş-gedişli yoldan aralı, xəlvətlikdə bir skamya qoyulmuşdu, ona sarı üz tutub, dala dönmədən Həmidə dedi:

– Gəlin dalımca!

Həmid onun dalınca getdi.

Kimsə o skamyanı yoldan götürüb bağın İçərişəhər divarlarının qabağında bitmiş sıx kolların dalına qoymuşdu, axşamlar sevgililər burada oturub vaxt keçirirdilər. Görünür skamya çoxdan orada idi, qənşərindən cığır da salınmışdı.

Çəlikləri kollara sürtülə-sürtülə Firuz gedib skamyanın qırağında əyləşdi. Həmid də skamyanın o biri qırağında oturdu. Firuzun üzü qızarmışdı, tərdən alnı yağ sürtülmüş kimi parıldayırdı, o yenə də çəliklərini dizinin üstünə qoydu.

– Mən aradan çıxmağa öyrənməmişəm, çıxmağıma ehtiyac da yoxdu, Həmid. – Bayaqdan hörmət əlaməti olaraq Həmidə müəllim deyən Firuz, indi ona adı ilə müraciət etdi. – Mən ordan durub bura gəldim ki, bəzən qızışıb ucadan danışanda camaat bizi eşitməsin, ayıbdı.

Həmid laqeydliklə dedi:

– Onu başa düşdüm. İndi sualıma cavab verin!

– Niyə mənim yaramı təzələyirsiniz, mənimki mənə bəsdi. – Çəliklərini böyründəki kolların üstünə atdı. – Bəsdi, cana gəlmişəm.

– Bu mənim sualıma cavab olmadı, Firuz. Yalandan Balağanın üzünə durmaqla sizin cana gəlməyinizin nə əlaqəsi?!

– Mən sizin suala cavab verməyə də bilərəm. Heç kim sübut eləyə bilməz ki, Balağa tutulanda mən onun üzünə durmuşam. Ancaq mən, sizin ifadənizlə desək, kişi kimi, məri-mərdanə etiraf edirəm. O əhvalatdan neçə il keçsə də, yadımdan çıxmır, yaşa dolduqca öz bağışlanmaz səhvimi, yox bunu səhv adlandırmaq olmaz, rəzilliyimi dərk edirəm. Deyə bilərsiniz ki, indi sizin peşman olmağınızın kimə nə xeyri? Balağa təzədən qəbirdən qalxıb ailəsinə qayıtmayacaq. O da doğrudu. Əfsuslar olsun ki, insan öz səhvini düzəltməyə həmişə qadir deyil. Həmid, mənə inanmaya da bilərsiniz, bununçun sizin əsasınız var, çünki mən çox alçaq hərəkət eləmişəm, Çopur Abdullanın toruna düşüb olmayan işləri, Balağanın dilinə gəlməyən sözləri onun adına yazmışam. Qəzetdə "ç"ni götürüb onun yerinə "y" hərfini basanda ağlıma gətirmirdim ki, mənim bu hərəkətim Balağa üçün belə bir müsibətə dönəcək. Onun külfətinin bədbəxtliyinə səbəb olacaq.

Həmid mat qalmışdı, gözləmirdi ki, Firuza Balağanı nahaqdan güdaza verməsini desə, o bunu boynuna alsın.

– Heç kim, hətta mənə dünyada ən yaxın olan adam – uşaqlarımın anası da bilmir ki, bu illərdə nə çəkirəm. – Əlini sinəsinə döyəclədi. – İçəridən alışıb-yanıram, tüstüm çıxmır, boğuluram, dərdimi heç kəsə də açıb deməyə üzüm gəlmir, bu, başqasına deyiləsi dərd də deyil, deyib ürəyini boşaldasan.

Həmidin hirsi soyumuşdu. Firuza yazığı da gəlirdi, ona nifrət də eləyirdi, ayağa qalxdı ki, getsin, Firuz onun əlindən yapışdı:

– Dayanın, *hara gedirsiniz? Niyə mənim* üzümə tüpürmürsünüz. Tüpürün, mən buna layiqəm. – Üzünü Həmidin ağzına yaxın tutdu: – Tüpürün!

Firuz çəliklərini uzağa atmışdı, onları götürmək üçün gərək bir qıçı üstündə hoppana-hoppana gedəydi. Həmid dedi:

– Əlimi buraxın, çəliklərinizi verim sizə, sora gedərəm.

– Bir hovur da oturun, sizdən acizanə surətdə xahiş edirəm.

Firuz Həmidin biləyindən möhkəm yapışmışdı, buraxmırdı. Həmid istəsəydi dartınıb onun əlindən çıxardı, belə qərara gəldi ki, bir hovur da dayanıb görsün nə deyir. Firuz onun əlini buraxıb qaşqabağını sallayan Həmidə dedi:



– Görürəm mənə nifrət eləyirsiniz. Sizi qınamıram, mənə bu da azdı, daha artıq nifrətə layiqəm. Sizə onu da deyim ki, o vaxt Balağanın sürgünə göndərilməsini, mənim onun üzünə durmağımın nəticəsi olduğunu dərk edəndə bir neçə gün özümə gələ bilmədim. Bir istədim gedəm çekaya, hər şeyi açıb deyim. Abdulla bunu hardansa duyub mətbəəyə gəldi, qabağımı kəsdi. Məni qorxutdu, dedi ki, nəbadə, belə eləyəsən, Balağanın əvəzinə səni də tutarlar, ata-ananı da. Yaxşısı budu, səsini çıxartma. Onu da dedi ki, mən sənə deməmişəm qəzetdə o dəyişikliyi eləyəsən, sən bunu sübut eləyə bilməzsən. *Gedib* çekaya *xəbər versən, deyəcəyəm yalandı, cümləni o sayaq* özün düzəltmisən. Balağaya böhtan atdığı kimi, mənə də qara yaxır. Firuzu kimsə öyrədib salıb bizim üstümüzə. Canıma qorxu düşdü. İndiki ağlım, təcrübəm olsaydı, elə hədə-qorxuya baxmazdım, həm də o zaman mən çox gənc idim. Bir yandan da, dövr qarışıq idi, çox şeyi bilmirdik. Odu ki, səsimi çıxartmadım. Daha Bakıda qalmadım. Quba şəhərində mətbəədə işləməyə çapçı lazımdı. Xahiş elədim, məni yolladılar ora. Yoldaşlarımın üzünə baxmağa cəsarət eləmirdim, sanırdım ki, onların hər şeydən xəbəri var, hamı üzə bir söz deməsə də, dalda mənə gülür, lağ eləyir, məsxərəyə qoyur. Gedib Qubada işlədim, təzə adamların arasında Bakıda olduğu təkin sıxılmasam da, çekada bizi üzləşdirəndə Balağanın mənə dediyi o dörd kəlmə yadımdan çıxmırdı, indi də çıxmayıb. Mən onun Şura hökumətinin əleyhinə danışdığını təsdiq eləyəndə Balağa dedi: "Heç sənə sözüm yoxdu". Onda onun baxışındakı kinayə ox olub gözlərimə batdı, ürəyimə sancıldı, müvazinətimi güclə saxladım, az qaldı ki, yerə sərələnim. Sanki qəflət yuxusundaydım, Balağanın nifrət və təəssüf dolu baxışı məni silkələyib ayıltdı. Özünə nifrət edən eşitmişdim, ancaq təsəvvürümə gətirə bilmirdim, fikirləşirdim, axı bu necə olur, insan özünə nifrət eləsin?! Mən istər-istəməz elələrinə dönmüşdüm. Nifrət eləmək azdı, özümü cəzalandırmaq, intihar eləmək dərəcəsinə gəlmişdim. Kefli kimi dolanır, tərəddüd edirdim, əlim özümə qalxmırdı, can şirindi, intiharı bu gün-sabaha salırdım. Balağanın qəzəbli baxışları məni kölgə təkin addım-addım izləyir, gecələr də tərk etmirdi, yuxuma girirdi. Qışqırıb səsimə ayılırdım. Allaha şükür eləyirdim ki, bu günlərdə tək idim. Mənə Qubada mətbəənin böyründə bir otaq vermişdilər. Yanımda ayrısı olsaydı, şübhəyə düşərdi, deyərdi ki, sənə nə olub, gecələr özün yatmırsan, məni də dincəlməyə qoymursan?!

O günlər getsin gəlməsin. Xülasə, hadisə köhnəldikcə asta-asta əvvəlki rahatlığım qaydaya düşürdü. Xoşbəxtlikdən, qonşuluğumuzda bir qız vardı, gözüm onu tutdu, evləndik, başım qarışdı ailə həyatına. Sonra bir oğlum oldu. Balağa əhvalatı arxada qalsa da, onu unutmurdum, unutmaq istəyirdim, neynim ki, unuda bilmirdim. O kişi hərlənib-fırlanıb gəlib dururdu gözlərimin qabağında. Ancaq bir şeydən təsəlli tapırdım ki, bu əhvalatı bir Çopur Abdulla bilir, bir də mən. Çopur Abdulla çoxdan tutulmuşdu, hardasa itib-batmışdı, səs-sorağı çıxmırdı. Mən indi heç kəsdən çəkinmirdim...

Bir oğlanla bir qız qol-qola Həmidgilin skamyasına sarı getdi. Dibə qoyulan skamya kolların arxasından görünmürdü. Gənclər orada kişilərin oturduğunu görüb geri döndülər. Oğlan narazılıqla dedi: "Bunlar buranı niyə seçib oturublar, bağda ayrı yer yoxdu?.."

Kişilər oğlanın gileyini eşitmədilər, Firuz sözünü davam etdirdi:

– Həmid, mənim Balağanın məsələsində günahkar olmağımı hardan bilirsiniz, bunu sizə kim deyib.

Həmid yerində qurcalana-qurcalana, intizarla gözlərini ona dikən Firuzun avazımış çöhrəsinə diqqət yetirdi, bir neçə dəqiqənin içində kişi necə də dəyişmişdi. Edama gedən adam təkin gözlərindən soyumayan təlaş oxunurdu. Həmid Firuzun etirafının səmimiliyinə inanırdı, inanırdı ki, o yalan danışmır, nə deyirsə, hamısı ürək sözüdür. "Çopur Abdulla bunun da həyatını zəhərləyib. Günah Firuzun özündə olub, gərək o əclafa qulaq asmayaydı. Adama çox şey təklif eləyərlər, çox söz deyərlər, məgər kor-koranə onların hamısını eləməlidi? Desələr ki, get, başını vur divara, o da vurmalıdı? İndi Firuzun peşman olmasının nə xeyri?! Olan olub, keçən keçib. Balağa qəbirdən dirilib gələcək?!"

Həmidin, Balağanın dolaşdırılmasında onun əli olmasını bilməsi Firuzu yaman təşvişə salmışdı. Bərk nigaran idi. Bu əhvalatı ondan başqa üç nəfər bilirdi, Çopur Abdulla, mayor Hacıyev, bir də Balağa. Çopur Abdulla ağzından qaçırmazdı. O dərəcədə sadəlövh deyil ki, özünü xataya salsın. Həm də Çopur Abdulla çoxdan tutulub, yeri-yurdu heç kimə məlum deyildi. Mayor Hacıyev də deməzdi, çünki elələrindən söz qoparmaq qeyri-mümkündü. Qalırdı təkcə Balağa. İndi o da yox idi. Bəs Həmid bunu kimdən eşitmişdi, hardan bilirdi?! "Qırqovul kimi başımı soxmuşam kola, quyruğumdan xəbərim yoxdu. Sən demə, Balağa əhvalatından çoxu xəbərdarmış".



Həmid dedi:

– Soruşursunuz sizin cinayətinizi mənə kim deyib? Dustaqxanada Balağa ilə yatan bir nəfər.

Həmid salyanlı dərzi Cəlildən Balağa barəsində nə eşitmişdisə, hamısını Firuza danışdı.

– Belə iş gizli qalmır. Əvvəl-axır üstü açılır, intəhası geci-tezi var.

Firuz şaşqın-şaşqın Həmidə baxırdı. Bu gün hərbi komissarlığa gəlməyinə peşman idi. Gözləmədən rahatlığı pozulmuşdu.

– O vaxt Salyandan qayıdıb hər ikinizi Bakıda çox axtardım, heç biriniz əlimə keçmədiniz, and içmişdim ki, sizinlə möhkəm haqq-hesab çəkim. İndi sizin tutduğunuz o işdən peşman olmağınızı, bu sayaq yaralanmağınızı görüb, bilmirəm nə deyim?!

– Sizdən bir ricam var, Həmid, bu işin üstündə məni nə cür tənbeh eləmək lazımdırsa, siz eləyin, gedib heç kəsə deməyin, evdəkilər bilərlər, istəmirəm arvadım, uşaqlarım mənim o alçaq işimdən xəbər tutsunlar. İki oğlum var, biri on beş, o biri on üç yaşında. Onlar mənə Allah kimi baxırlar. Uşaqlar tay-tuşlarının yanında gözükölgəli olarlar. Onların nə günahları var ki, ataları vaxtilə əclaflıq eləyib. Mənə görə nöş başlarını aşağı əyib gəzsinlər?!

– Firuz, qorxmayın. İndi nə Balağa, nə də Çopur Abdulla var, kim bilir mayor Hacıyev də hardadır. Sizin günahınızı sübut eləməyə heç kəsin əlində bir əsas yoxdu, məsələ onda deyil.

– Mən şahidsiz də, dəlilsiz də günahımı boynuma alaram. Yenə də deyirəm, nə eləyirsiniz eləyin, ancaq bu əhvalatı oğullarım bilməsinlər.

Həmid qalxdı, Firuz nigaran-nigaran soruşdu:

– Gedirsiniz, dayanın. – Həmidin əlindən yapışıb saxladı. – Mənə bir söz demədiniz, nə eləyəcəksiniz?

– Heç nə!

– And için! Uşaqlarınız varsa, onların canına and için, mən rahat olum.

– Uşaqlarım yoxdu.

– Onda atanızın, ananızın canına and için.

– Valideynlərimin ikisi də vəfat eləyib.

– Neynək, onların qəbrinə and için.

Həmid əlini Firuzun əlindən dartdı.

– Bu nə sözdü? Heç nəyə and içməyəcəyəm, inanmırsınız inanmayın, bu sizin öz işinizdi.

Həmid Firuzun əlindən dartınıb çıxdı. Firuz yıxılmaqdan özünü zorla saxladı. Skamyanın söykənəcəyindən yapışıb baxa-baxa qaldı. Həmid aşağı gedən yola çıxıb dəniz sahilinə sarı addımladı. Firuz pərt olmuşdu. Fikirləşirdi ki, heç bəlkə Həmidlə bu sayaq həlimliklə danışmayaydı, axı o kim idi, kim ona səlahiyyət vermişdi ki, gəlib Firuzu ittiham eləsin?

Firuz bir ayağının olmadığını unudub skamyadan qalxdı ki, kənara tulladığı çəliklərini götürsün, üzüqoylu həmişəyaşıl kolunun üstünə yıxıldı. O, ayağı kəsiləni neçə kərə belə olmuşdu. Bəzən ona elə gəlirdi ki, ayağı salamatdır, əvvəlki kimi qalxırdı.

Yaxşı ki, Firuz kolun üstünə aşdı, sıx budaqlar onun üzünü yerə dəyməyə qoymadı, ancaq çənəsi bir balaca sıyrıldı, söylənə-söylənə bir qıçı üstündə dikəldi, dönüb yan-yörəsinə fikir verdi, görsün yıxıldığını görüb eləyən varmı, ona sarı baxan yox idi. Həmid də çoxdan çıxıb getmişdi. Firuz bir qıçı ilə sərçə təkin atlana-atlana getdi, çəliklərini götürüb, qoltuqlarına qoydu. Çənəsi göynəyirdi. Barmağını sıyrılan yerə sürtdü, şişmişdi, ancaq qanamamışdı. Təzədən skamyanın yanına qayıtdı. Həmidlə olan bütün söhbəti yadına salanda özündən zəhləsi getdi. Fikirləşdi ki, insanın öz-özünə elədiyi pislik nə yaman olurmuş. "Başqası sənə bir pislik eləyəndə ondan hansı yollasa əvəzini çıxırsan, hirsin soyuyur, təskinlik tapırsan. Bəs insan özündən nə sayaq əvəz çıxsın?!"

Firuz daha orada qalmadı, bağdan çıxıb tramvay dayanacağına gəldi. Elə bu vaxt da Sabunçu vağzalına gedən üç nömrəli tramvay gəldi, ona əyləşib getdi.

* * *

Ertəsi gün Həmid hərbi komissarlığa gec getdi, işin axırı idi. Özü qəsdən yubandı ki, orada Firuzla rastlaşmasın, onu görmək istəmirdi. Komissarlığa bivaxt gəlsə də, işi avand oldu, siyasi şöbə rəisini yerində tapdı. Gözləmə otağında və rəisin kabinetində ayrı adam yox idi. Katibə Həmidi dərhal içəri buraxdı.

Siyasi şöbə rəisi təzə idi. Həmid cəbhəyə gedəndə o burada ayrısı ilə danışmışdı, köhnə rəis çalsaçlı polkovnik idi, onun yerinə gələn



isə qarabığlı cavan podpolkovnik. Təzə rəis də Həmidi tanıdı, hörmət elədi, dedi ki, sizi bura çağırmışıq Xalq Maarif Komissarlığının sərəncamına yollayaq. Onların idman müəllimlərinə böyük ehtiyacı var, siz bədən tərbiyəsi texnikumunu bitirmisiniz, şəhər məktəblərində dərs deyə bilərsiniz. Həmid dedi ki, qayğınıza görə sağ olun, bekar deyiləm. Limanda işləyirəm, yerimdən çox razıyam.

O, evə qayıdanda Beşmərtəbənin qabağında əldən on-on beş diş şəkər tozundan bişmiş qənd aldı. Hərbi xəstəxanadan çıxanı yaman çayxor olmuşdu. Çaydanı qazın üstünə qoydu. Arxasını divana söykəyib, ayağını ayağının üstünə aşırdı. Fikirləşirdi ki, onu hərbi komissarlığa çağırmışdılar, iş təklif eləməyə, bəs Firuz rəisin qəbuluna niyə gəlmişdi?! Bir qıçla, bir gözlə nə iş görə bilərdi. "Kimin ağlına gələr ki, o, döşü orden-medallı oğlan sözə getsin, günahı olmayanın yalandan üzünə durub güdaza versin?! Firuz danışığından ağılsız adama oxşamır. Görünür, ağıl həmişə, hər yerdə insanın dadına çatmır, ağıldan savayı isə ayrı bir şey də lazımdı. Ona biclikmi deyim, ya nə ad verim?! Həyatda belə işlər çox olur, bir də görürsən orta ağıllı adam layiq olduğundan qat-qat yüksək rütbəyə qalxıb, özündən çox-çox ağıllılara rəhbərlik eləyir. Bu yenə dərd yarıdı. Bəzən quş beyinli bir adam öz alçaq məqsədinə çatmaq üçün çox ağıllıların evini yıxır. Uzağa niyə gedək, biri elə Çopur Abdulla. O, Balağanın ailəsini başsız qoydu. Mənim həyatımı korladı, Firuz da belə..."

Qapının zəngini basdılar. Gələn kim idi? Nə vədə idi Həmidgilin qapısını açan yox idi. Tanış kişilərin əksəriyyəti səfərbərliyə alınmışdı, cəbhədə vuruşurdu. Bakıda qalanlar da mədəndən, zavoddan evə gec qayıdırdı, qonaq getmək heç yada da düşmürdü.

O, kimin gəldiyini soruşmadan kilidi açdı, qapının qabağında dayanan Firuzu görəndə heyrət elədi.

– Salam, Həmid.

Həmid onun salamını soyuq aldı:

– Niyə gəlmisiniz?

– Qapınıza gəlmişəm. Əvvəlcə bir içəri dəvət eləyin, nəfəsimi dərim, sonra niyə gəldiyimi soruşun.

Firuzun üz-gözü qızarmışdı, tər içində idi. Həmid təəccüb edirdi ki, lift yox, bir ayaqla o bu qədər pilləni necə çıxıb.

Həmid qapının qabağından çəkilib Firuzu içəri buraxdı. "İlanın zəhləsi yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər. Mənimki

buna döndü. Hərbi komissarlığa gec getdim ki, onu görməyim, bu arsız-arsız bizə gəlib, görəsən, adresimi hardan tapıb?!"

Qonaq daha ev sahibinin dəvətini gözləmədən birbaşa otağa keçdi və bayaq Həmidin uzandığı divanda əyləşdi, içəri göz gəzdirə-gəzdirə yaylığını çıxarıb üz-gözünün tərini sildi.

– Mənziliniz çox hündürdədi, hər gün bura necə çıxıb-düşürsünüz?

Həmid də otağa keçib ağızucu dedi:

– Öyrəşmişik.

O, qonağa üz göstərmirdi. Bütün hərəkətləri ilə bildirirdi ki, Firuzun burada çox oturmasını istəmir.

– Bu gün hərbi komissarlıqda sizi xeyli gözlədim, gəlmədiniz, axırda naəlac qalıb ordan adresinizi aldım. Bu pillələri ikinci dəfədi ki qalxıram, bayaq da gəlmişdim, evdə yox idiniz. Təzəbağda oturub gözlədim. İndi də qapınız bağlı olsaydı, heç yana getməyəcəkdim. Bu pillələri çıxıb-düşmək məni birtəhər elədi. Qapı ağzındaca əyləşib gözləyəcəkdim.

Həmid onun dediklərinə əhəmiyyət vermədən soruşdu:

– Niyə gəlmisiniz? Mətləbə keçin. Sizə qulaq asıram.

– Gəlmişəm Goburnat bağındakı söhbətimizi davam etdirək.

– Söhbət orda qurtarmadı?!

– Sizinçün bəlkə də qurtarıb, mənimçün yox. – Firuz dirsəklərini mizin üstünə dayamışdı, barmaqları kəsilmiş əlini o biri ovcunda gizlədib yumruğunu bükmüşdü, biləyi əsirdi. – Mən bura sizdən mərhəmət diləməyə gəlməmişəm, Həmid, başa düşün. Mən dünən bütün gecəni yatmamışam. Siz mənim çoxdankı, sağalmayan yaramın qaysağını qopardıb, qanını axıtmısınız. Görürəm bununla belə həqiqəti başa düşmək istəmirsiniz. Etiraf edirəm, mən gəncliyimdə çox böyük, bağışlanmaz səhv buraxmışam.

Həmid onun sözünü kəsdi:

– Səhv yox, qorxaqlıq eləmisiniz, bağışlanmaz qorxaqlıq.

Firuz astadan dedi:

– Mən ertəsi gün necə dəhşətli səhv buraxdığımı dərk edəndə gərək gedib yalandan üzə durduğumu etiraf eləyəydim, getmədim, qorxdum. Qorxaqlıq elədim, Çopur Abdullanın hədəsi əl-qolumu bağladı. Mən soradan-soraya bu səhvin bütün dəhşətini hiss elədikcə o qorxaqlığı, acizliyi özümə bağışlamırdım. Məyər siz heç səhv edib sonradan peşman olmamısınız?



Həmidə elə gəldi ki, Firuz onun Balağa həbs ediləndə qorxub Nurlu ilə evlənməyini müxtəlif bəhanə ilə ləngitməyinə işarə eləyir. Əslində isə Firuzun ondan xəbəri yox idi. "Bu nəyə eyham vurur?! Nəyi nəzərdə tutması mənə məlum olmasa da, onu doğru deyir ki, hamı səhv buraxa bilər. Ancaq onu anlamır ki, səhvlər hamısı bir dərəcədə olmur. Mənim səhvimdən təkcə özüm zərər çəkdimsə, Firuzun səhvindən bir ailə. Həm də bir var bilmədən səhv buraxasan, bir də var ki, bilərəkdən. Bilərəkdən buraxılan səhvlər də bir-birindən xeyli fərqlənir. Mən də bilərəkdən səhv buraxmışam. Ancaq bu səhv kiminsə müsibətinə səbəb olmadı. Firuz yaxşı bilirdi ki, onu çekaya çağırıblar, Balağa çox ciddi məsələdə ittiham olunur, onun deyəcəyi sözdən çox şey asılıdı, kişinin müqəddəratı həll olunur, gedib yalandan üzə durdu. Bu bir yana qalsın, Balağaya böhtan atıb, gələndən sonra vicdanı oyananda buraxdığı ikinci səhv birincidən də betərdi. Səhvini düzəltməyə, günahsız insanı ağır cəzadan qurtarmağa əlində imkan olduğu bir məqamda qorxub geri çəkilməsi bağışlanmazdı. İndi səhvi etiraf eləməyə nə var ki?! Kaş o vaxt mənim əlimdə səhvimi düzəltməyə belə imkan olaydı, heç nəyə baxmazdım. Heç nə mənim yolumu kəsə bilməzdi. Əsil insan bilsə ki, onun deyəcəyi sözdən başqa birisi zərər çəkəcək, bilsə ki, bu söz zəhərdi, udsa o dəqiqə məhv olacaq, mütləq o sözü özü udmalı, deməməlidi. Ayrı cür ola da bilməz".

– Firuz, siz mənə bunları deməkçün bizə gəlmisiniz, ya ayrı bir sözünüz var?

– Məgər bunlar azdı?

– Onları eşitmişdim.

– Bağda sözümüz yarımçıq qaldı, çıxıb getdiniz, biz onu davam etdirməliyik.

– Bayaq sizə dedim ki, söhbət orda da qurtardı. Davam etdirməyə ehtiyac yoxdu. Mənə hər şey aydındı.

– Mən də sizə deyirəm ki, qurtarmayıb.

Firuzun dili çıxmışdı, Həmidlə kəskin danışırdı.

– Siz mənim evimə mənimlə dava eləməyə gəlmisiniz?

– Bu nə sözdü, Həmid. Dava nədi?! Mən bura gəlmişəm aramızda anlaşma olsun, bir-birimizi düz başa düşək. – Firuzun gözləri yaşarmışdı. O ağlamaqdan özünü saxlayırdı.

Həmid ona baxır, Balağanın həbs olunduğu günlərdə Sərvinaz xanımın, Nurlunun ağlamaqdan qızarıb-şişən gözlərini xatırlayırdı. Həmid fikirləşirdi ki, qadınlar əzizlərini itirmişdilər, ağlayırdılar, bəs Firuz nə üçün ağlayır?! Tutduğu işə, bəd əməlinə görəmi, bununla o, Həmidin ürəyini yumşaltmaq məqsədi güdürdümü?!

Mətbəxdən qaynara düşən çaydanın qapağının taraq-taraq atılıb düşməsi eşidildi. Həmid gedib qazı söndürdü, evdə Firuz yox, başqa qonaq olsaydı, çay dəmləyib ortalığa gətirərdi. Şkafda mövüc, əncir qurusu da vardı süfrəyə qoymağa, kənddən xalası ona təzəcə göndərmişdi. Süfrə açmadı. Firuzla bir süfrə başında oturmağa iyrənirdi. Ona Balağanın qatillərindən biri kimi baxırdı. Belə bir adamla bir yerdə olmaq ona artıq dünyadan getmiş əziz yoldaşının ruhuna hörmətsizlik təkin gəlirdi. Həmid bu gün hamının yanında yoldaşının dalınca qeybət eləyən, onun barəsində təhqiramiz sözlər deyən, sabah isə həmin şəxslə bir stol arxasında üz-üzə əyləşib sağlığına gurultulu sözlər söyləyib stəkan-stəkana vuraraq marça-marçla öpüşən adamları görəndə məəttəl qalırdı. Bir-iki gündə, ya da bir həftənin ərzində bir adam yüz səksən dərəcə dəyişə bilərmi? Dünən onun gözündə cındır əskiyə dəyməyən bir şəxs necə olur ki, bu gün əvəzsizə çevrilir?! Deyilənlərin hansı düzdür, hansına inanasan?!

Həmid mətbəxdən qayıdıb əvvəlki yerində əyləşdi. Firuz dedi:

– Dünən bağda mən sizə bir cəhəti demədim, deyəcəkdim, sizin məni dinləməyə səbriniz çatmadı. Mən gəncliyimdə, Allah o günləri ömrümə yazmasın, qorxaqlıq eləmişəm, həm də təkcə Çopur Abdulladan qorxmurdum, yox, elə ondan qabaq da ağciyər olmuşam. Mən yeniyetmə oğlan olanda gecələr həyətə çıxıb subaşına getməyə qorxurdum, qaranlıqda öz həyətimiz mənə vahiməli görünürdü. Ya rəhmətlik anam, ya da böyük qardaşlarımdan biri həyətdə durub məni gözləyirdi. Balağa əhvalatı məni sarsıtdı. Elə bil zərblə üzümə bir şillə vurub məni oyatdılar, gözlərim açıldı. Qorxaqlığın insanı necə alçaltmasını dərk elədim. Sanki məni dəyişdilər. Bu dəyişiklik cəbhədə dadıma çatdı. Orda da qorxaqlıq göstərsəydim, indi torpağın altında qurd-quşa yem olmuşdum. Atıcılıq hissəsində kəşfiyyatçı idim. Özümü elə göstərmişdim ki, ən qorxulu yerlərə məni göndərirdilər. İnanırdılar ki, oradan sağ-salamat gələcəyəm. Elə də olurdu. Faşistlərin arxasına gedib neçə "dil" gətirmişdim. Məni mükafatlandırmışdılar, ordu qəzetində şəklim, haqqımda neçə məqalə çıxmışdı. Həmin o qəzetləri o vaxt evə yollamışdım, uşaqlar qoruyub saxlayıblar. Axırıncı dəfə düşmənin arxasına getdik, bir faşist mayorunu qərargah qazmasından oğurladıq, minalanmış sahədən keçib hissəyə gətirdik. Bizim komandanlıq mayordan qiymətli məlumat qopartdı. Məni və yoldaşımı mükafata təqdim elədilər. Ondan heç üç gün keçməmişdi ki, bizi yenə kəşfiyyata göndərdilər. Gecəyarı cəbhə xəttini keçirdik, faşistlər göyə fişəng atıb yeri işıqlandırdılar və topdan atəş açdılar, yoldaşım həlak oldu, mən isə bu cür yaralandım. Sağ qalmağıma heç kəsin ümidi yox idi. Sən demə, üzüm bərk imiş, həkimlər yaralarımı yırtıq-yamaq eləyib məni ayağa qaldırdılar. Bakıya qayıtdım. Hissəmizdən, mükafatdan xəbərim olmadı. Bu gün hərbi komissarlıqdan öyrəndim ki, məni ora həmin işdən ötrü çağırıblar. – Firuz pencəyinin yan cibindən xırdaca qırmızı qutu və kiçik kitabça çıxartdı. – "Qırmızı bayraq" ordeni ilə təltif eləyiblər. – Qutunun qapağını açdı. – Bu da orden və onun vəsiqəsi. – "Qutunun içində orden par-par parıldayırdı. – Hərbi komissar səhər təqdim elədi. Tək mənə vermədilər, orda ayrı orden alanlar da oldu. – Ordeni və vəsiqəni götürüb cibinə qoydu. Bu gün o, dünənki ordenlərin heç birini taxmamışdı. Pencəyinin altından əsgər köynəyi geymişdi, bəlkə də nişanları orda idi. – Həmid, elə fikirləşməyin ki, mən sizə ordenimi göstərməyə, öyünməyə gəlmişəm, qətiyyən, ona zərrə qədər ehtiyacım yoxdu. Sizi təəccübləndirmək məqsədi də güdmürəm. Siz dünən Goburnat bağında məni qorxaq adlandırdınız. Eşidin və bilin, mən qorxaqlara nifrət edirəm, onlar gözümün düşmənidilər. "Başına gələn başmaqçı olar" deyiblər. Mən acı təcrübəmdən yaxşı bilirəm ki, qorxaqlıq nədi və o insanı hara yuvarlaya bilər. Həm də qorxaqlıq təkcə qorxağın özü üçün yox, ətrafdakılar üçün də təhlükəlidi. Bura gəlmişəm sizə sübut edim ki, qorxaq deyiləm. Mən necə, hansı tərzdə, hansı şəraitdə, kimin qarşısında lazımdısa, qorxaq olmadığımı sizə sübut eləməyə hazıram, buyurun!

Həmid dinmirdi, o, Firuzun belə inadkar olmasını xəyalına gətirmirdi. "Mən onunla nə sayaq rəftar edim?.."

Firuz cibindən qatlanmış bir vərəq çıxartdı, onun yarısını kəsdi, bir yarısını təzədən cibinə qoydu, o biri yarısına nə isə yazdı. Həmidin gözü onda idi, bu çağırılmamış qonaq kağıza nə yazırdı?!

– Həmid, mən sözümü dedim, ürəyim boşaldı, gedirəm, bura ev adresimi yazdım, sizdə qoyuram. Haçan lazım bilsəniz gəlin, ya məni çağırtdırın, gəlib qorxaq olmadığımı sübut eləyim.

Firuz çəliklərini götürüb qalxdı, xala xətrin qalmasın, ev sahibinə xudahafiz deyib çıxdı. Qapı açıq qaldı, blokdan sement pillələrə dəyən çəliklərin tappıltısı eşidildi. Sonra səs kəsildi. Həmid balkona çıxıb küçəyə boylandı. Beşmərtəbənin qabağındakı tramvay dayanacağında duranların arasında Firuza oxşayan bir kişi gördü, diqqətlə baxanda bildi ki, odur. "Bu nə sayaq adamdı?! Balağanı qorxaqlığından satıb, cəbhədə isə igidlik göstərib, qəribədi..."

Tramvay gəldi, Firuz qabaqdan minib Sabunçu vağzalına sarı getdi. Həmid içəri keçdi. Firuzun stolun üstünə qoyduğu kağızı oxumadan cırıb atdı və fikirli-fikirli təzədən divana uzandı.



## EPİLOQ

Həmid əl ağacını yerə döyə-döyə küçənin o tayına keçib Təzəbağa girdi. Yenə dostu Davudun saatsaz dükanına gedirdi. O həmişə də yolunu buradan salardı. Axşamçağılar, isti havalarda Təzəbağda, ağac kölgəsində əyləşib ortalıqdakı girdə hovuzun dərinliyindən fışqıran fəvvarənin səsinə qulaq asmağı xoşlayırdı. Bu balaca bağ bütün günü dolu olurdu, gündüzlər uşaqlarla, axşamlar böyüklərlə. Çünki Təzəbağ ətraf məhəllələrdə yaşayanların dincəlməsi, uşaqların oynaması üçün yeganə yaşıllıq idi.

Vədələşmişdilər bu gün o, Davudla hərbi komissarlığa medal almağa gedəcəkdi. Ayın əvvəlində Ali Sovetin Fərmanı çıxmışdı. Hitler Almaniyası üzərində qələbənin iyirmi illiyi münasibətilə medal təsis edilmişdi. Həmin medalla Böyük Vətən müharibəsində iştirak edən hərbçilər təltif olunurdular. Bu hesaba görə yubiley medalının biri də Həmidə çatırdı. O, davada bir qolunu itirsə də, əsgərlikdən heç bir xüsusi mükafatı yox idi. Təkcə faşist Almaniyası üzərində qələbə medalından savayı, üstündə Stalinin generalissimus geyimində barelyefi olan "Наше дело правое, мы победили" sözləri yazılmış o medaldan müharibə iştirakçılarının hamısında vardı. Həmid qələbə medalını alandan bircə dəfə də döşünə taxmamışdı. Şəhərdə kişilər döşləri orden-medalla dolu gəzirdilər. O, bir medalın nəyini taxaydı?!

Həmid daha Bakı limanında işləmirdi. Ötən ildən təqaüdə çıxmışdı. Qıçlarına yel düşməsəydi, hələ yenə orada işləyərdi. Müalicə olunsa da, xeyri yox idi. Bir qolu protez idi, o biri əlinə ağac götürmüşdü. Bu vəziyyətdə Həmid öz-özünə baxıb deyirdi: "Keçəl ağa çox gözəldi, vurdu çiçək çıxartdı".

O, başını aşağı salıb bağın içi ilə gedirdi, fikri özündə idi. "Elə bil dava dünən qurtarıb, amma aradan iyirmi il keçib. İyirmi il bir igidin ömrüdü. Heç nə, qocaldıq, getdik, saç-saqqal ağardı..."

– Sabahınız xeyir, Həmid əmi.

Həmid əl ağacına dayaqlanıb yolun ortasında dayandı. Ona salam verən kim idi? Yaşı qırxa yaxın olan, qalın qara bığlı yaraşıqlı kişi

hovuzun dövrəsində velosiped sürən balaca oğlana göz qoya-qoya Həmidin yanına gəldi.

– Fuad, sənsən, salam. Xoş gördük. – Velosiped sürən oğlana baxa-baxa soruşdu. – Uşaq oğlundu?

– Bəli.

– Yekə oğlan olsun.

Həmid səkkiz il idi ki, Fuadı görmürdü, onda Fuad subay idi. Ancaq təzə nişanlanmışdı, anası Nurlu yorğan-döşəyə düşmüşdü, ağır halda yatırdı, bilmirdi dərdi sağalmazdı, deyirdi ki, bir ayağa durum, oğul, sənə əntiqə toy eləyəcəyəm. O, oğlunun toyunu görmədi. Nurlunun ölümü Həmidə anası Rübabənin vəfatından sonra ikinci bir zərbə oldu.

Nurlununku da gətirmədi, əvvəl ərinin itkin düşməsi barədə kağız aldı. Ondan xoş bir xəbər çıxacağı ümidilə müharibənin qurtarmasını gözlədi. Qələbədən üç il sonra, qırx səkkizin mayında, elə bu vədələrdə gözlənilmədən Tula vilayətindən Nurluya məktub gəldi. Oranın bir kəndinin sakinləri Nurlunu əri Muxtarın dəfn edildiyi qardaş məzarı üstündə ucaldılan abidənin açılışında iştirak eləməyə çağırırdılar. Nurlu ora gedib məzarın mərmər döşlüyündə Muxtarın adını, familiyasını, doğulduğu və həlak olduğu illəri oxuyanda onun əri olmasına şübhəsi qalmadı. Bir qoca kişi Muxtargilin son dəfə vuruşduğu təpəni göstərib, xaç vura-vura dedi ki, onlar burda mərdliklə həlak olublar. Mən qardaş məzarında yatan altı əsgərin dəfnində iştirak eləmişəm. Nurludan savayı abidənin açılışına Rostovdan, Səmərqənddən, Ulyanovskidən qonaqlar gəlmişdilər. Onlar abidənin yanında dayanıb yadigar şəkil çəkdirdilər.

Nurlu oradan qayıdandan sonra Həmid onu Beşmərtəbənin tinində gördü, evə dəvət elədi, Nurlu getmədi. Bir hovurluğa Təzəbağda əyləşib söhbət elədilər...

Fuad bir küncündə uşaq plaşı və xırdaca zənbil qoyulmuş skamyanın qabağında dayanmışdı, o, boş yeri göstərib Həmidə əyləşməyi təklif elədi:

– Bura buyurun!

Fuad atasından çox anasına, Balağaya oxşayırdı. O, babası təkin qalın bığ qoymuşdu, lap elə bil o vaxt Həmidin Nardaranda gördüyü Balağa idi, dirilib gəlmişdi.

Həmid əl ağacına dirənib əyləşdi.



– Bu nədi belə, Həmid əmi, haçandan ağacla gəzirsiniz?!

– Ötən ildən. Qocalıq ağacıdı, oğul, qıçlarım sözümə baxmır.

– Niyə müalicə olunmursunuz?

Fuad həkim idi, Həmid bunu unutmuşdu, odur ki, çəkinmədən həkimlərin dalınca söyləndi:

– Əşşi, nə müalicəbazlıqdı, mənə bir mötəbər həkim baxıb dedi ki, vanna qəbul elə, keçib gedər, neçəsini qəbul eləmişəm, hələ bir xeyri yoxdu. Sən nə sayaqsan? – Velosiped sürən oğlana işarə elədi. – Uşağın elə birdi?

– Biri də var, qızdı, məktəbə gedir.

– Maşallah. Nurlu rəhmətlik bunları görsəydi, nə sevinərdi... Eh, dünyadı da...

Fuadla görüşü ötən günləri Həmidin yadına saldı. O, fikirli-fikirli hovuzun qənşərindəki daş hasarlı meydançaya göz yetirdi. "Onda bax, biz orda əyləşmişdik, o iri daş dibçəyin qırağında. Nurlu Tula vilayətindən təzəcə qayıtmışdı. Muxtarın ölümü yəqin olandan sonra bizim ikinci görüşümüz idi. Bu dəfə mən onu ciddi bir məsələ barəsində danışmağa çağırmışdım. Evə dəvət elədim, gəlmədi. Təzəbağda oturduq. Mən haçandan ürəyimdə gəzdirdiyim bir arzunu ona dedim. Dedim ki, Nurlu, gəl evlənək. O ağladı, nə gizlədim, elə mən də kövrəldim. Yaylığımı çıxarıb verdim, gözlərinin yaşını sildi. "Gecdi, Həmid, – dedi, – çox gecdi. Nə olsun ki, indi mən səni əvvəlkindən artıq istəyirəm. Onu da gözəl bilirəm ki, övladlarımdan artıq sən mənim qayğıma qalarsan, ömrüm səninlə xoş keçər. Nə edəsən ki, gecdi. Mənim iki yekə oğlum var..." Onda bu Fuad əsgər getmişdi. Ukraynada xidmət eləyirdi. Nurlu onuncuda oxuyan kiçik oğlu Cahangirlə qalırdı. Mən Nurlunu yola gətirməkçün çox söz dedim, hətta yalvardım da. Ömründə heç kimə elə yalvarmamışdım. Bunun da bir səmərəsi olmadı. Nurlu: "Hər işin öz məqamı var, Həmid, – dedi, – bundan sonra mənim ərə getməyim ayıbdı, eşidib-bilən nə deyər?! Bu gün-sabah evimə gəlin gətirib, qayınana olacağam. Mənə yaraşmaz..." Əl çəkmədim. "Qayınana olanlar ərə gedə bilməzlər?.. – dedim. – Axı biz hələ qocalmamışıq, mənim qırx səkkiz yaşım var, sənin qırx üç, bir yerdə xeyli yaşaya bilərik. Bəyəm bu yaşda ərə gedən, təzə ailə quran qadınlar azdı? Sən də onlardan biri... Çox xahiş edirəm, Nurlu, bu barədə yaxşı-yaxşı fikirləş..." Bu sözün üstündən

o heç nə demədi. Lakin mən ümidimi itirmədim. Nurlu qəsdən söhbətin yönünü dəyişdi. Uşaqlarından danışdı. Cahangiri tərifədi, dedi ki, orta məktəbi gümüş medalla bitirir, atasının yolu ilə gedib, kimyaçı olmaq istəyir. Fuadın komandirindən məktub almışam, yazır ki, sağ olun, ağıllı, tərbiyəli oğul böyütmüsünüz. Orduda ləyaqətlə xidmət eləyir...

Velosiped sürən balaca oğlan böyüklər oturan skamyaya yaxın gəlib Fuada dedi:

– Ata, su istəyirəm.

Fuad xırdaca zənbildən yarımlitrlik şüşəni çıxardıb oğluna su verdi. Qıvrım saçları papağının altından pırtlayan balaca oğlan şirindilli, irigözlü bir uşaq idi. O, Həmidin xoşuna gəldi.

– Adın nədi, oğul?

– Adım Balağa.

Fuad yaylığı ilə oğlunun ağzını silə-silə dedi:

– Babamın adını qoymuşam. Bu anamın arzusu idi, Həmid əmi.

– Adı ilə böyüsün.

Həmid Balağanın alnından öpdü. Oğlan onlardan ayrılıb şənlənə-şənlənə yenə hovuzun dövrəsində velosiped sürdü.

Fuad oğlundan şikayətləndi:

– Bacısına oxşamır, yaman dəcəl oğlandı, Həmid əmi. Bir dəqiqə bir yerdə dayanmır.

– Əslinə qalanda oğlanın dəcəli yaxşıdı, mənim sakit uşaqdan çox da xoşum gəlmir. Oğlan uşağı bir növ civə kimi olmalıdı.

Kiçik Balağa üçtəkərli velosipedi yeyin-yeyin sürür, hovuzun həndəvərində qaçdı-tutdu oynayan uşaqların arasından asanlıqla sivişib keçirdi. Həmid ona baxa-baxa əkiz qardaşlarının – Mikayılla İsmayılın bu yaşda olan çağlarını xatırlayırdı. "Əkizlər keçi təkin dama, ağaca dırmaşır, yetənə yetir, yetməyənə də daş atırdılar. Amma böyüyəndə elə dəyişdilər ki, inanmaq olmurdu onlar həmin ipə-sapa yatmayan oğlanlardılar. Mikayıl canını vətən yolunda qoydu. İsmayıl isə indi Abşeronun iri neft trestlərindən birinin geoloqudu".

İsmayılın bir qızı vardı, tibb institutunun tələbəsi idi, adını Rübabə qoymuşdular. Həmid də balaca Rübabəyə qardaşı İsmayılın dili ilə "mömə" deyirdi. Qızın bir suyu nənəsinə çəkmişdi. Rübabə hərdən əmisigilə gəlir, mənzili sir-süpür, yır-yığış eləyib gedirdi.



Həmid axır vaxtlarda sakitliyi, xəlvətliyi də sevmirdi. Əvvəllər heç belə deyildi. İsmayıl evlənib gedəndən sonra təklik, mənzildəki sakitlik onu yamanca sıxırdı. Səs-səmir, hənirti gəlməyən otaqda nə qədər tək oturmaq olardı?! Nə eləyəydi ki, doğma limandan vaxtından tez ayrılmalı oldu. Onnan olsaydı, hələ xeyli işləyərdi. Tale bu adi işi də ona çox gördü. Özü də bilmirdi ki, bu andıra qalmış yel haradan gəlib onun yaxasından yapışdı?! Həmid atası Murtuz, babası Xələf kişi təkin kankan olmamışdı ki, fikirləşəydi ömrü nəm quyularda keçdiyindən qıçlarına yel düşüb. Eh, azar adamı xırxalayanda heç bilmir ki, hardan gəldi, haçan gəldi, bilsəydi, yaxına qoyardı?! Həmid indi ayrı cəhətin fikrini eləyirdi, qıçlarına yel düşmüşdüsə də, barı elə belə də qalaydı, artmayaydı. Yoxsa, guşənişin olmaq, hərəkətdən qalmaq ona ölümə bərabərdi. Buna görə də hər səhər tezdən oyanıb idman eləyir, çay içib şəhərə çıxır, yavaş-yavaş dəniz sahilinəcən gedirdi. Xəzərin qırağındakı daş hasara söykənib sulara tamaşa eləyə-eləyə dincini alır, qayıdanbaş yolunu Davudun saatsaz dükanından salırdı. İki köhnə yoldaş o yandan-bu yandan danışıb günü günorta eləyirdilər.

Həmid saatına baxdı, on birə işləmişdi, dünən Davudla vədələşmişdilər, bu gün saat onda birlikdə hərbi komissarlığa yubiley medalı almağa gedəcəkdilər. Həmid ağacına dirənib qalxdı.

– Mən getdim, ay Fuad, danışıq dananı qurda verər.

Fuad Həmidi bağın çıxışına kimi ötürmək üçün ona qoşuldu. Balağa atasının qoca ilə getməsini görüb ağlamsındı.

– Ata, hara gedirsən, məni də apar.

– Mən heç yerə getmirəm, oğlum, Həmid babanı ötürürəm.

Balağa aram oldu. Həmid oğlanın yanağından öpdü:

– Qorxma, bala, atanı aparmıram, sən qayıt, Fuad.

Fuad oğlu ilə qaldı. Balağa əlini yelləyə-yelləyə dedi:

– Sağ ol, baba, sabah da bura gəl, mən də atamla gələcəyəm.

– Gələrəm.

"Baba"... Kiçik Balağa Həmidə elə şirin-şirin baba dedi ki, onun canına yayıldı. Bu yaşa gəlmişdi, indiyədək heç kim Həmidə baba deməmişdi. Axı onun baba olmalı vaxtı idi. "Eh, Nurlu, qəbrin nurla dolsun. Mənə qulaq assaydın, evlənsəydik, indi heç olmasa mənim ögey nəvəm olardı..."

Təzəbağdakı söhbətindən sonra Həmid Nurlu ilə bu barədə neçə kərə möhkəm danışmış, onu fikrindən döndərə bilməmişdi. Axırda Nurlu ağır halda yatanda Həmid xəstəxanaya onu yoluxmağa getmişdi. Nurlu Həmidin əlini sinəsinə basıb demişdi: "Məni bağışla, Həmid, o, mümkün olan iş deyildi. Xahiş edirəm, məndən incimə. İndi mən elə vəziyyətdəyəm ki, hamıya yükəm. Sənə də yük olardım. Bəlkə də elə belə yaxşı idi..." Bu, Həmidin Nurlu ilə sonuncu görüşü oldu. O biri həftə Nurlu xəstəxanada keçindi.

Hüsü Hacıyev küçəsində Davud Həmidin qabağına çıxdı:

– Əşşi, hardaydın, bayaqdan səni gözləyirdim. Nigaran qaldım, fikirləşdim ki, tək adamdı, xəstələnib eləyər, sizə zəng çaldım, hay vermədin, lap narahat oldum, sizə gedirdim.

– Üzüm bərkdi, mənə nə olacaq, evdən vaxtında çıxmışdım, Təzəbağda Nurlunun böyük oğluna rast gəldim, onunla bir hovur oturdum, fikrim qarışdı, bir də gördüm ki, gecikmişəm.

– Rəhmətlik Nurlunu yaddan çıxarmırsan da.

– Özümlə bacarmıram.

– Nə isə, gedək voyenkomata, medalımızı almağa. Səhər birinin döşündə görmüşəm, balam, yaraşıqlı medaldı.

– Gedək.

*1975–1978*



# MÜNDƏRİCAT

BURULĞANLAR

Birinci hissə . . . . . . . . . . 7

İkinci hissə . . . . . . . . . . 214

Epiloq . . . . . . . . . . 383

**HÜSEYN ABBASZADƏ**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

İKİ CİLDDƏ
II CİLD

"ŞƏRQ-QƏRB"
BAKI-2006

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Ələkbər Kərimov*

Korrektorlar: *Hüseyn Şahbəndəyev*
*Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 11.07.2006. Çapa imzalanmışdır 28.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 24,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 130.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

boğazımdan kəsib sizə göndərməmişəm. Onu da sənə deyim ki, yediyimin, xərclədiyimin hamısını da öz zəhmətimlə, alın tərimlə qazanmışam, bu ocağa bircə qəpik haram pul gəlməyib. Bu ev-eşikdə nə görürsənsə, xalçalardan başqa, hamısını qazancımla almışam. O xalçaların bir qismini Sərvinaz toxuyub, qalanlarını qayınanam bizə bağışlayıb. Həmid, sənin kimi gənc olanda atam məni öz yanına aparmışdı. Orucov qardaşlarının mətbəəsində çapçı işləmişəm. Atam naborşik idi. Naborşik, yəni hərf yığan, mürəttib. O vaxtlar zarafat-zarafat pəlvanlığa başladım, qabağıma kim çıxdısa yıxdım, getdikcə hörmətim, şöhrətim artdı, mənimlə hesablaşmağa başladılar, oldum Abşeronda çoxunun barmaqla göstərdiyi pəlvan Balağa. Məni istəyən də oldu, paxıllığımı eləyən də. Pəlvanlıq elə peşədi ki, yıxırsan, onun tanış-bilişləri olur sənin düşmənin. Biri elə Çopur Abdullanın özü. O mənimlə nöş qanlı-bıçaq oldu? Bir brilyant qaşlı üzüyün üstündə. Bir neçə ilin əhvalatıdı. Buzovnada pəlvanların yarışını düzəltmişdilər. Bakının adlı-sanlı pəlvanlarını yığmışdılar ora. Qalibi üzə çıxarmaq üçün axırda biz – Çopur Abdulla ilə mən güləşməli olduq. Onun kürəyini vurdum yerə. Yarışı Əsəd adlı bir varlı-karlı kişi keçirirdi. O, qələbə qazanana iri brilyant qaşlı üzük bağışlamağı vəd vermişdi. Üzük mənə çatdı. O günə kimi Çopur Abdullanı da yıxan olmamışdı. Bu məğlubiyyət ona pis təsir eləmişdi, hiddətindən bığlarını gəmirirdi. Mənə elə gəldi ki, o doluxsunub; ağlamaqdan özünü güclə saxlayır. Uzun sözün qısası, o gün məni hörmət-izzətlə faytona mindirib şəhərə yola saldılar. Yol uzunu Çopur Abdullanın qəzəbdən əyilən sifəti gözlərimin qabağından getmədi. Evə gələn kimi əhvalatı Sərvinaza danışdım. Onda Nurlu balaca idi, onu dizimin üstündə oturdub, əyləncəyçün istədim ki, dövlətli Əsədin mənə bağışladığı üzüyü barmağına taxım. Hansı cibimə əl atdım, əlim boşa çıxdı, üzüyü itirmişdim. O ya Buzovnada qarışıqlıqda düşüb itmişdi, ya da yolda faytonda. Evdə pərtlik oldu. Üzük o itən itdi. Buzovnada yarışa baxanlar indi də elə zənn eləyirlər ki, o üzük məndədi. Nə başını ağrıdım, sora eşitdim ki, Əsəd həmin üzüyü Bakıdan məşhur zərgər Sarı Yunisdən alıb, üzüyün brilyant qaşı çox bahalıdı. Əsədin bu səxavəti öz varını camaata göstərməkçün bir bəhanə imiş. Çopur Abdulla o düşünüşən mənimlə düşünüşdü. Sən demə, onu yandıran yıxılmasından daha çox, brilyant üzük imiş. Bu günə kimi də hara gedirsə, yeri düşdü-düşmədi, dalımca danışır, kölgəmi qılınclayır, hamısı



gəlib çatır qulağıma. Mən də saya salmıram, deyirəm ki, it hürər, karvan keçər.

Balağanın qəlyanı sönsə də onu təzədən alışdırmadı, əlində oynada-oynada danışdığı əhvalatın dalını yada salırmış kimi sözünə ara verdi:

– Həmid, – dedi, – bildir səninlə Nardaranda güləşənə kimi hələ mənim qabağımda dayanan olmamışdı... O gün mənimçün bir pəlvan kimi son gün və son güləşmək oldu. Sən Həştərxana gedəndən sora məni başqa kəndlərə güləşməyə dəvət elədilər. Xeyli pul boyun oldular, heç birinə getmədim. Mən güləşməyi sevirdim, yenə də sevirəm. Hər dəfə rəqibimin kürəyini yerə vuranda sanki mənə dünyanı bağışlayırdılar. Səninlə qarşılaşandan sonra papağımı qabağıma qoyub çox fikirləşdim və bu qərara gəldim ki, daha mənim meydana çıxmağa mənəvi haqqım yoxdu. Camaat bilməsə də, sən məndən üstünsən, mən ki bilirəm. Hə, qoy onu da sənə deyim. Hamı elə güman edir ki, mən səni Nardaranda yıxa bilərdim, özüm yıxmadım, gənc olduğunçün rəhmim gəldi.

– Onlar haqlıdırlar.

Balağa qəlyanını damağına qoydu:

– Həmid, sən də bilə-bilə ki belə deyil, mənə təskinlik verirsən, lazım deyil. Hər şeyin, hər işin öz vaxtı, öz məqamı var. Gərək ağıllı adam o məqam yetişəndə meydandan çıxsın. Bir pəlvan kimi mənim vaxtım səninlə güləşən günü çatdı və üzüsulu, abırlı meydandan getdim, bir də ora qayıtmayacağam.

Qəhərlənən Balağa qəlyana işarə elədi:

– Buna da təzə öyrənmişəm. Qabaqlar tütün, tənbəki iyindən zəhləm gedirdi, indi qəlyan əlimdən düşmür. Həmid, sənin bizə gəldiyini görəndə sevindim, elə bildim ki, məni yada salıb qapımı açmısan... Sən demə, yanılmışam, sən bizə pul verməyə gəlmisən...

Həmid Balağanın könlünə dəydiyinə xəcalət çəkdi.

– Başa düşə bilmirəm bu nə sirdi, mən düşündüklərimi səndən gizlətməyi bacarmıram?! Əslinə qalanda, sən mənim amansız rəqibimsən, məni bir pəlvan kimi meydandan çıxarmısan. Gərək səni görən gözüm olmasın. Amma, tərsinə, mənim səndən xoşum gəlir. Düzü, Nardaranda sənin üstün olduğunu duyanda əvvəlcə məyus oldum. O gün səhərə kimi yatmadım. Sanki yorğan-döşəyimə od tökülmüşdü. Çox düşünəndən sora bundan təsəlli tapdım ki, əsil